**MÖVSÜMOV CAMİD**

# *İQTİSADİ LÜĞƏT*

***“Günlər üç növdür:***
***dünən (bir daha qayıtmayan),***
***bu gün (qənimət olan),***
***sabah (əlbəttə bir arzudur) ”.***

***İmam Sadiq (ə)***

# G İ R İ Ş

Azərbaycan Respublikası (bundan sonra "AR") 1991-ci ildən dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı 2 mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaq görən siyasəti və gərgin fəaliyyəti nəticəsində ağır ilkin şərtlərə baxmayaraq ölkəmizin sosial-iqtisadi inkişaf və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli – Azərbaycan modeli yaranmışdır.

Bank sistemində aparılan islahatlar müstəqilliyin ilk illərində banklara qarşı yaranmış inamsızlığı aradan qaldırmaqda mühüm rol oynamışdır. Ölkədə müasir bank quruculuğu işlərinə başlanılmış, iki-pilləli bank sisteminin formalaşması, bankların möhkəmlənməsi, onların nizamnamə kapitalının artması istiqamətində işlər aparılmışdır. Aparılan işlər sayəsində bank sisteminin kapital bazası 5 dəfə artmışdır.

Cəmiyyətin inkişafının müasir mərhələsində bankların rolu böyükdür. Cəmiyyətin inkişaf tarixində belə fikir mövcuddur ki, bankların inkişaf səviyyəsi ilə cəmiyyətin sosial-iqtisadi inkişafı düz mütənasibdir.

Hal-hazırda respublikada gedən mövcud iqtisadi proseslər və inkişafla əlaqədar bizim gündəlik həyatımıza yeni olan termin və anlayışlar daxil olur, yeni hüquqi qanunvericilik bazası formalaşır.

İqtisadi lüğətin hazırlanmasında əsas məqsəd, bank sektorunda çalışan və ya çalışmaq istəyən şəxslərə, ali məktəb tələbələrinə, özəl

sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə gündəlik həyatlarında rastlaşdıqları terminologiya və anlayışların izahı haqqında ətraflı məlumat verməkdir. Onu da qeyd etmək istəyirəm ki, bu iqtisadi lüğətdə bir çox iqtisadi əmsalların və düsturların geniş izahı verilmişdir.

Lüğət hazırlanarkən əsasən 5 yerli iqtisadi lüğət baza kimi qəbul edilmişdir: ***1)*** "Qısa İzahlı İqtisadi Terminlər Lüğəti" (Ə.Abbasov, D.Bağırov, S.Pürhani, Ə.Ələkbərov, E.Bağırov, M.Bağırov. Bakı, 2005); ***2)*** "Maliyyə Terminlərinin İzahlı Tərcümə Lüğəti" (A.Ağayev. Bakı, 2005); ***3)*** "Maliyyə Bazarları Terminlərinin İzahlı Lüğəti" (İqtisadi İnkişaf Mərkəzi. Bakı, 2010); ***4)*** "Dövlət Maliyyəsi Terminlər Lüğəti" (Dr. İ.Əhmədov, K.Aslanlı, Ş.Əhmədov. Bakı, 2008); ***5)*** "İqtisadiyyat və Hüquq" ensiklopedik izahlı lüğət (A.Əliyev, C.Nuriyev, G.Nuriyeva. Bakı, 2006).

Yuxarıda adları qeyd olunan iqtisadi lüğətlərdən əlavə olaraq bu iqtisadi lüğətdə AR Qanunvericilik aktlarından, Sığortaya dair terminlərdən, Milli Bankın Pul haqqında Terminlər lüğətindən, Vergilər Nazirliyinin Terminlər lüğətindən, Dünya ölkələrinin pul vahidləri haqında məlumatlardan, xarici ədəbiyyatlardan, elmi və praktiki nəşrlərdən və elektron resurslardan istifadə olunmuşdur.

Lüğətdə iqtisadi praktikada ən çox rast gəlinən 2000-dən çox iqtisadi terminlər və onların məzmunlu izahı verilmişdir. Terminlər ardıcıllığı latın əlifbası ilə verilmişdir. Terminlərin adı Azərbaycan dilində qalın şriftlərlə verilmişdir.

Ümumilikdə, lüğət geniş oxucu auditoriyası xüsusən iqtisadiyyatın müxtəlif sahələrində çalışan mütəxəssislər, dövlət və özəl təşkilatların əməkdaşları, investorlar, müstəqil ekspertlər, müxtəlif ixtisaslar üzrə dərs deyən müəllimlər, iqtisadi sahədə təhsil alan tələbələr və nəhayət, iqtisadiyyatla maraqlanan hər bir şəxs üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, lüğətin keyfiyyətli olmasını, ən başlıcası terminlərin izahının keyfiyyətliliyini və əhatəliliyini təmin etməyə çalışmışam. Bu lüğətin keyfiyyətini daha da artırmaq və terminlərin gələcəkdə təkmilləşdirilməsi üçün, lüğətlə tanış olan zaman meydana çıxan təklif, irad və tövsiyələrini *camidmovsumov@mail.ru* elektron poçt ünvanına göndərəcək oxuculara əvvəlcədən minnətdarlığımı bildirirəm.

## – *A* –

***Abandon*** – sığorta etdirənin sığorta olunmuş əmlaka sahiblik hüququndan sığortaçının xeyrinə imtina etməsi (oğurluq, əmlakın tələf olması, gəminin, avtomobilin bərpasının məqsədəuyğun olmaması və ya sığorta olunmuş yükün təyinat yerinə çatdırılması halında) və tam sığorta təminatı almasıdır.
***Abandan Düzəliş*** – Əmlakdan imtina şərtləri.
***Abekor*** – "Avropa Korporasiyasının Birləşmiş Bankları" ifadəsinin qısaldılmış forması. 1971-ci ildə yaradılan, 10 iri Avropa bankını özündə birləşdirən bu regional bank birliyi qarşılıqlı bank informasiyası mübadiləsini, eləcə də maliyyə-kredit sferasında birgə elmi tədqiqatların reallaşdırılmasını həyata keçirir.
***Absentizm*** – Hüquqi normalara, o cümlədən əmək qanunçuluğuna məhəl qoymadan, heç bir üzrlü səbəb olmadan işə çıxmama.
***Abstrakt İtkilər*** – kontingentin öz öhdəliklərini pozduqda götürülən, müqavilə və bazar qiymətləri arasındakı fərqlə ifadə olunan vəsaitlə bağlı itkilərdir.
***Abstrakt Sövdələşmə*** – Məqsədindən asılı olmayan sövdələşməyə deyilir. Məsələn, istənilən sövdələşmə zamanı verilən vekselə görə, sahibinə haqq ödənilməlidir. Haqqı ödənilən veksel abstrakt olub, bağlanmış sövdələşmə ilə heç bir əlaqəsi yoxdur. Lakin onun dövriyyə qabiliyyəti məhz onun satılmasına əsaslanır.
***Abroqasiya*** – köhnəlmiş qanunun onun səmərəsizliyi və ya onun zamanın ruhu ilə ziddiyyət təşkil etməsi ilə bağlı ləğv olunması (köhnə qanunun yenisi ilə tamam əvəz olunması).
***Açıq Sistem*** – Xarici mühitlə əlaqəsi (informasiya, iqtisadi və s.) olan sistem. Belə əlaqə həmin sistemin, o cümlədən təşkilatların səmər sistemləridir.
***Açıq Bazar*** – tədavüldəki pul kütləsinə və kreditin həcminə təsir göstərmək məqsədi ilə mərkəzi bank tərəfindən qiymətli kağızların alqısı və satqısı.
***Açıq Bazar Əməliyyatları*** – Mərkəzi bank tərəfindən qiymətli kağızların və xarici valyutanın alqı-satqısı əməliyyatlarıdır.

Mərkəzi Bank əsasən hökumətin qiymətli kağızlarının alqı-satqısı ilə məşğul olur (əsasən banklarla), lakin bununla yanaşı özü də qiymətli kağızların emissiyasını həyata keçirə bilər. Mərkəzi Bank tərəfindən qiymətli kağızlar satıldıqda dövriyyədə olan pul kütləsi azalır, alındıqda isə pul kütləsi artır. Qiymətli kağızlar birbaşa, habelə REPO və əks-REPO formasında alınıb satıla bilər.

***Açıq Çarter*** – yük növünün və təyinat limanının göstərildiyi müqavilə.

***Açıq Depozit*** – müştərinin banka verdiyi qiymətli kağızları bağlı qaydada yerləşdirmədiyi bank əməliyyatıdır. Açıq depozitlərin aşağıdakı növləri vardır: ***1)*** açıq requlyar depozit; ***2)*** açıq irrequlyar depozit; ***3)*** məhdud requlyar depozit; ***4)*** rəqəm depoziti.

***Açıq Devalvasiya*** – dövlət tərəfindən milli valyutanın əhəmiyyətli həcmdə dövriyyədən yığılması, yaxud dəyərdən düşmüş milli pul nişanələrinin yeniləri ilə əvəz edilməsi yolu ilə milli valyuta məzənnəsinin qaldırılması.

***Açıq Ehtiyat*** – maliyyə hesabatında göstərilən ehtiyat kapitalı.

***Açıq Əmr*** – əqdin baş verməsi və ya ləğv edilməsinədək qüvvədə olan qiymətli kağızın alınması və ya satılması haqqında müştərinin brokerə verdiyi əmr.

***Açıq Hesabat*** –müəssisənin, firmanın, şirkətin açıq mühasibat hesabatı.

***Açıq İqtisadiyyat*** – xarici ölkələrlə idxal, ixrac və maliyyə əməliyyatları vasitəsilə əlaqədə olan milli iqtisadiyyatdır.

***Açıq İnhisar*** – bazarda hansısa məhsulun yeganə satıcısı olan, lakin rəqabətdən, məsələn, patent şəklində xüsusi müdafiəsi olmayan inhisar.

***Açıq İrrequlyar Depozit*** – müştərinin banka müəyyən miqdarda pul və ya digər qarşılıqlı mübadilə oluna bilən əmlak verməklə (o cümlədən, adsız qiymətli kağız), əvəzində bankın həmin əmlakı deyil, o dəyərdə pul məbləğini qaytaracağı barədə öhdəliyin götürülməsi ilə bağlı açıq depozitin bir növüdür (irrequlyar mühafizə müqaviləsi).

***Açıq Requlyar Depozit*** – müştəri tərəfindən banka verilmiş qiymətli kağızların, müqavilədə birbaşa göstəriş olmadığı halda,

bankda müştərinin əmlakı kimi qalması barədə bank öhdəliyinin götürüldüyü açıq depozit növüdür (müntəzəm mühafizə müqaviləsi).
***Açıq Faktorinq*** – faktorinq əməliyyatının xüsusi forması. Burada kreditor tərəf faktor-banka, yaxud faktor-firmaya borc sənədləri haqqında məlumat təqdim etdikdən sonra ikinci tərəf borc məbləğinin 80%-ni eyni zamanda kredit formasında ödəyir.
***Açıq Kontrakt*** – birjada günün sonuna ləğv edilməyən kontrakt, məsələn, satılmış, lakin ödənilməmiş, yaxud alınmış lakin satqı ilə ləğv edilməmiş kontrakt.
***Açıq Kredit*** – daimi kontragentlər arasındakı hesablaşmalarda tətbiq edilən kommersiya krediti. Bu cür kredit üzrə borc məbləğləri alıcının hesabına sənədli rəsmiləşdirmə olmadan yazılır.
***Açıq Lizinq*** – lizinq ödənişlərinin müxtəlifliyindən asılı olaraq lizinq münasibətlərinin xüsusi forması. Bu tip lizinq münasibətlərində icarədar lizinq ödənişi üzrə məbləğin əsas hissəsini (ən azı 50%-dən çoxunu) icarə obyektini geri qaytardığı zaman lizinq şirkətinə ödəyir.
***Açıq Satış*** – ***1)*** Birjada əqdlərin hər bir birja üzvünün iştirak hüququ olmaqla sərbəst bağlanılması; ***2)*** Hər bir iştirak etmək istəyənə geniş elan verildiyi və hər bir kəsin sərbəst buraxıldığı hərrac.
***Açıq Səhmdar Cəmiyyəti*** – səhmdar cəmiyyətinin iştirakçıları tərəfindən onlara mənsub səhmləri digər səhmdarların razılığı tələb edilmədən özgəninkiləşdirilə, o cümlədən satıla bilinən səhmdar cəmiyyət.
***Açıq Tapşırıq*** – brokerə verilmiş, icra edilənə, yaxud ləğv edilənə qədər qüvvədə olan tapşırıq.
***Açılış Qiyməti*** – birja sessiyasının açılışı zamanı qiymətli kağızın qiyməti.
***Adambaşı Vergi*** – gəlir və əmlakının həcmindən asılı olmayaraq hər bir insandan tutulan şəxsi vergi.
***Adam-Gün*** – iş gününün müəyyən olunmuş uzunluğundan asılı olmayaraq bir iş günü ərzində bir adamın işini xarakterizə edən ölçü vahidi.

***Adam-Saat*** – iş vaxtının ölçü vahididir. O, bir adamın bir saat faktik işinə uyğun olur.
***Adaptasiya*** – iqtisadi sistemin və onun ayrı-ayrı subyektlərinin, işçilərinin dəyişkən xarici mühitin şəraitinə, istehsal, əmək, mübadilə və həyat şəraitinə uyğunlaşması.
***Adaptiv Gözləmə*** – dəyişən kəmiyyətlərin gələcək nisbi qiymətlərinin, keçmişdə olan inkişaf tendensiyası ilə ekstrapolyasiyası əsasında iqtisadi agentin gözləntilərinin formalaşmasıdır.
***Adato*** – sənədin, eləcə də pul sənədinin və ya qiymətli kağızın təqdim edildiyi (verildiyi) tarix.
***Adcaster*** – sığorta hadisəsi zamanı sığorta olunan tərəfindən təqdim edilən iddia ilə bağlı məsələləri həll etməklə sığortaçının maraqlarını təmsil edən şəxs.
***Additivlik və Qeyri-Additivlik*** – Sistemin hissələri və tamlığı arasındakı əlaqə, nisbət. Additivlik sistemin, obyektin hissələrinin məcmusundan ibarət olma xassələrinə uyğun gəlmir, ona görə də qeyri-additivlik təşkil edir.
***Addendum*** – sığorta və ya təkrar sığorta müqavilələrinə əlavə; belə müqavilələrin əvvəllər təsdiq olunmuş şərtlərinə tərəflər arasında razılaşdırılmış dəyişikliklərdən ibarətdir.
***Adxokratiya*** – firma üçün yeni olan məsələlərlə məşğul olan və bir qayda olaraq müvəqqəti xarakter daşıyan bölmə, təşkilati forma, onlar müxtəlif adlar daşıya bilərlər: işçi, ekspert, məqsədli qrup, işçi mərkəzləri, ştab, komanda və s.
***Adi Alıcı*** – formalaşan tələb və təklifi əsas tutan, risk etməyə meyili olmayan alıcı.
***Adi Hüquq*** – rəsmi qəbul edilmiş hüquqi qanunlara deyil, konkret ölkədə və ya mühitdə təşəkkül tapmış adətlərə əsaslanan davranış normaları, qaydaları sistemi.
***Adi İstiqraz*** – səhmlərə dəyişdirməyən, lakin emitent tərəfindən vaxtından əvvəl geri alına bilən istiqraz.
***Adi Konosament*** – yükün, üzərində adı göstərilmiş şəxsə məxsus olduğunu bildirən konosament növü.
***Adi Opsion*** – İki iştirakçı arasında bağlanmış, lakin opsionun

qiyməti və vaxtının başa çatması barəsində standartlaşdırılmamış opsion kontraktı.

***Adi Veksel*** – qoyulan müddət ərzində və ya tələb üzrə müəyyən miqdar pulu şərtsiz ödəmə öhdəliyidir. Vekselə imza atan və bununla da ödəmə öhdəliyini götürən şəxs vekselverən adlanır. Veksel üzrə ödəniş alan şəxs remitent adlanır. Adi vekselin uçotu zamanı aşağıdakı göstəricilərin əhəmiyyəti vardır: ***1)*** ödəmə tarixi; ***2)*** vekselin müddəti; ***3)*** faiz dərəcəsi və ssuda faizi; ***4)*** ödənişin məbləği; ***5)*** vekselin uçotu və uçot dərəcəsi; ***6)*** vekselin uçot dərəcəsi üzrə ödəmə.

***Adi Səhm*** – sahibinə səhmdar cəmiyyətin idarə heyətinin üzvlərini seçmək və səhmdarların ümumi iclasında səhmdar cəmiyyətinə aid olan digər məsələlərin həll edilməsində iştirak etmək hüququnu verən səhm.

***Adi Səhmə Xalis Mənfəət*** – imtiyazlı dividentləri çıxmaqla, tədavüldə olan adi səhmlərin orta çəkiliş sayına bölünmüş təmiz mənfəət.

***Adlı Akkreditiv*** – üzərində ödəniş ediləcək fiziki və ya hüquqi şəxsin adı göstərilən akkreditiv.

***Adi İstiqraz*** – səhmlərə dəyişdirilməyən, lakin emitent tərəfindən vaxtından əvvəl geri alına bilən istiqraz.

***Adlı Çek*** – müəyyən şəxsin adına yazılan çekdir. Bu cür çeklər başqasına ancaq tələb hüququndan imtina müqaviləsi ilə verilə bilər.

***Adlı İndossament*** – blank indossamentindən fərqli olaraq, hüququn təqdim olunduğu şəxsin adı göstərilən indossament. Bu zaman həmin qiymətli kağızla bağlı hüquqlar konkret hüquqi və ya fiziki şəxsə təqdim olunur.

***Adlı Qiymətli Kağız*** – müəyyən şəxsin adına yazılmış, yalnız həmin şəxsin istifadə hüququ olan qiymətli kağızdır.

***Adlı Səhm*** – nağd, yaxud nağdsız şəkildə buraxılmasından asılı olmayaraq sahiblərinin adları səhmdar cəmiyyətlərin reyestrlərində əks edildiyi səhmlər.

***Adlı Veksel*** – üzərində benefisiarın adı göstərilən veksel.

***Admonisiya*** – borc alan tərəfindən borc məbləğinin alınması

məqsədi ilə borc verən (kreditor) tərəfə təqdim edilən yazılı öhdəlik.

***Adsız Depozit Sertifikatı*** – üzərində depozit sahibinin, əmanətçinin adı göstərilməyən depozit sertifikatı.

***Adsız Sığorta Polisi*** – fayda götürənin xeyrinə, onun adı göstərilmədən bağlanmış sığorta müqaviləsini təsdiq edən sənəddir.

***Adsız Veksel*** – sənədi təqdim edən istənilən şəxsin ödənişi almaq hüququ olan veksel növüdür.

***Adresat*** – hər hansı göndərişi, o cümlədən maliyyə pul sənədini və s. alan tərəf.

***Adresant*** – hər hansı göndərişi, o cümlədən maliyyə, pul sənədini və s.-ni göndərən tərəf.

***Affiliasiya*** – "ana" şirkətin bölməsi, filialı və s. qismində həmin şirkətə birləşmə. ***Affiliasiyalaşmış Şəxs*** – başqa, "ana" şirkətə tabe edilmiş olan törəmə şirkət.

***Affilyasiya Qrupu*** – müxtəlif firmalara vahid rəhbərliyi həyata keçirən və yaxud müxtəlif şirkətlərdə paya malik olan, razılaşdırılmış siyasət aparan affilyasiya olunmuş şəxslərin qrupu.

***Affirmasiya*** – sənədlərin, o cümlədən maliyyə sənədlərinin, hesabların təsdiq edilməsi, düzgünlüyünə təminat verilməsi.

***Aforfe – 1)*** Vergiqoymada vergi orqanları tərəfindən mühasibatlığı yaxud düzgün mühasibatlığı olmayan şəxsin mənfəətinin öncədən qiymətləndirilməsi. ***2)*** Köçürmə veksellər vasitəsilə beynəlxalq ticarətin maliyyələşdirilməsi.

***Afyora*** – Fırıldaqçı iqtisadi fəaliyyət.

***Agent*** – geniş mənada başqa şəxsin yerinə, onun nəzarəti altında işləyən şəxsdir; dar mənada sövdələşmənin bağlanması və sair işlərin görülməsi üçün haqla tutulmuş səlahiyyətli şəxsdir.

***Agentlik*** – müəyyən hüquqi və fiziki şəxslərin tapşırığını yerni yetirən təşkilatdır. Bank agentliyi bank şöbəsinin funksiyalarını yerinə yetirməklə bərabər, onun hüquqlarından istifadə edir.

***Agent Bank – 1)*** Müxtəlif iqtisadi subyektlər tərəfindən istiqraz buraxılışı barəsində tapşırıq almış bank. ***2)*** İri müştəriləri tərəfindən onların maraqları naminə müxtəlif istiqamətli

əməliyyatlar aparmağa vəkil edilmiş (müvəkkil) bank.
***Agent Əməliyyatı*** – maliyyə üzrə dilerin göstərdiyi xidmətdir.
***Agent-Transfer*** – qiymətli kağızlar bazarında registratorla (qiymətli kağızlar bazarında iştirakçı şəxslərin qeydiyyatını aparan peşəkar iştirakçı ilə) qeydiyyatdan keçən şəxslər və ya onların səlahiyyətli nümayəndələri arasında vasitəçilik funksiyasını həyata keçirən hüquqi şəxs.
***Agent Sazişi*** – Agent sazişinin şərtinə uyğun olaraq prinsipialın (digər şəxsin) adından və onun maraqları çərçivəsində sazişin şərtlərindən irəli gələn müvafiq öhdəlikləri (tapşırıqları) yerinə yetirilməsi haqqında fiziki və ya hüquqi şəxslə bağlanmış saziş.
***Agent Firmaları*** – müqavilənin şərtindən asılı olaraq prinsipialın adından və onun hesabına özü sövdələşmələr bağlayan, yaxud da sövdələşmələrin bağlanmasında yalnız vasitəçilik edən firmalardır.
***Agent Haqqı*** – agentin həyata keçirildiyi vasitəçilik xidmətlərinin müqabilində həmin agenti cəlb etmiş firma, şəxs tərəfindən agentə verilən haqq.
***"Ağac"*** – metr ölçü üsulu tətbiqindən qabaq işlədilən uzunluq ölçüsü, təxminən 6-7 km-ə bərabər idi.
***Ağır Bazar*** – satmaq sərəncamlarının almaq sərəncamlarından çox olduğu bazar durumu.
***Ağır Sənaye*** – sənaye istehsalının metallurgiyanı, iri maşınqayırmanı əhatə edən hissə.
***Ahəngləşdirmə (harmonizasiya)*** – iqtisadi proseslərin, münasibətlərin, malların, vergilərin harmonizasiyası –qarşılıqlı uyğunluğun razılaşdırılması, sistemə gətirilməsi, unifikasiyası, koordinasiyası, qaydaya salınması, təmin edilməsi.
***"Axsaq Ördək"*** – ağır maliyyə vəziyyətində olan şirkət.
***Axtarış Tezaurusu*** – biliyin bu və ya digər müxtəlif sahələrinə, yaxud bu və ya digər məlumat növlərinə xarakterik olan terminləri əks etdirən lüğətdir.
***Ailə*** – qohumluq və ya qanunvericiliklə müəyyən olunmuş digər xüsusiyyətlərə görə bağlılığı olan, birgə yaşayan, ümumi ev təsərrüfatına malik şəxslər və yaxud tənha yaşayan şəxslər.
***Ailədə Adambaşına Düşən Orta Gəlir*** – ailənin məcmu

gəlirlərinin ailə üzvlərinin sayına nisbəti.
***Ailə Başçısını İtirməyə Görə Pensiya*** – "Vətəndaşların pensiya təminatı haqqında" AR qanununa görə "Vəfat etmiş ailə başçısının öhdəsində olmuş əmək qabiliyyəti olmayan ailə üzvlərinin ailə başçısını itirməyə görə pensiya almaq hüququ vardır.
***Ailə Büdcəsi*** – müəyyən müddət ərzində, adətən 1 ay müddətində ailənin pul formasında gəlir və xərclərini göstərən və ya nəzərdə tutan cədvəl.
***Ailə Mülkiyyəti*** – ailə üzvlərinə ümumi əsaslarda məxsus olan və özəl mülkiyyət növlərindən biri olan mülkiyyət.
***Ailənin İstehlak Büdcəsi*** – ailə büdcəsi, ailənin müəyyən dövr üçün gəlirlər və xərclər cədvəli.
***Ajio*** – ***1)*** qiymətli kağızların, digər fond vəsaitlərinin və pul nişanlarının birja məzənnəsinin, onların nominal dəyərindən yüksək olmasıdır. ***2)*** kağız pulun və valyuta dəyişdirilməsi və ya "zəif" valyutanın "güllə" valyuta ilə əvəzlənməsinə görə verilən haqqdır.
***Ajiotaj*** – bazarda konyunkturanın, tələb və təklifin, malların qiymətlərinin, qiymətli kağızların məzənnəsinin, valyuta məzənnəsinin kəskin dəyişməsi ilə əlaqədar yaranmış canlanma.
***Ajio-Konto*** – gəlirləri və zərərləri göstərən hesab.
***Ajur*** – Maliyyə təsərrüfat əməliyyatının həyata keçirildiyi gün onun mühasibat uçotunun aparılması.
***Akkomadasiya Siyasəti*** – iqtisadiyyatda yaranmış şok vəziyyətlərinin nəticələrini aradan qaldırmağa, onların dağıdıcı qüvvəsini zəiflətməyə yönəldilmiş iqtisadi siyasət.
***Akkord Ödəniş, Akkord*** – başa çatdırılmış işin haqqının göstəriş üsulu ilə birdəfəlik ödənilməsi, tamamilə yerinə yetirilmiş işlərin tam həcmi müqabilində işçilərə təşkilat, firma tərəfindən əvvəlcədən müəyyən edilmiş stavka üzrə əmək haqqının ödənilməsi.
***Akkord Vergiləri*** – dövlət tərəfindən gəlirlərin və alışın həcmindən asılı olmayan səviyyədə müəyyən edilən vergilər.
***Akkreditiv*** – latınca "assreditivus" – "vəkalətnamə" deməkdir. ***1)*** bir və ya bir neçə bankın sərəncam üzrə və müştəri hesabına fiziki

və ya hüquqi şəxslərə, göstərilən məbləğin ödənilməsi üçün verilən bank tapşırığıdır. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə görə. Akkreditiv bankın şərti pul öhdəliyi olub, müştəriləri vəkaləti əsasında müqavilə ilə onu kontragentlərinə verir. Akkreditiv açan bank sənədlərə uyğun şəkildə ödəmələri həyata keçirir. Aşağıdakı akkreditiv növləri açıla bilər: ***a)*** örtülən və ya örtülməyən; ***b)*** geri çağırıla bilməyən və ya çağırılmayan; ***2)*** qeyri-nağd ödəmə qaydasıdır.

***Akkreditiv Üzrə Hesablaşmalar*** – alıcının akkreditiv ərizəsinə uyğun olaraq, göstərilən xidmətə və ya yüklənmiş mala görə satıcının bank hesabına vəsait köçürülməsi üçün tapşırıq verdiyi xarici hesablaşma formasıdır. Adətən, akkreditivlər 45 gün müddətinə açılır.

***Akkreditivin Bağlanması*** – akkreditiv üzrə pulların verilməsinə dair əməliyyatların dayandırılması haqda qeyd.

***Akkreditivləşdirilmiş Broker*** – fond birjasının peşəkar üzvü kimi qiymətli kağızlarla müxtəlif əməliyyatlar aparan hüquqi və ya fiziki şəxs.

***Akkreditivləşdirmə*** – hər hansı idarə, təşkilat, eləcə də fiziki və ya hüquqi şəxs üçün üçüncü şəxsin hesabına kredit vəsaitinin açılması.

***Akonto*** – öncədən hesablaşma formasında idxalçı tərəfin ixracatçıya məxsus hesaba ödənişi.

***Akselerator*** – İnvestisiya həcmi və dinamikasının istehlak mallarına olan tələbatdan asılı olmasını şərtləndirən iqtisadi model. Bu model C.M.Keyns tərəfindən təklif olunmuşdur.

***Akselerasiya*** – borc alan tərəfindən kredit müqaviləsi şərtlərinin hər hansı birinin pozulduğu təqdirdə kredit məbləğinin vaxtından öncə geri qaytarılması barədə kreditorla borc alan arasındakı razılaşma.

***Aksiz*** – Latınca “accido”, fransızca “accise” – “kəsirəm” deməkdir, bəzi istehlak mallarına və xidmətlərə qoyulan dolayı vergi.

***Aksept*** – ödəmək vaxtı çatmış vekseli öhdəlik üzrə ödəməli olan onun ilk sahibi imzalamadığı halda, hər hansı bir üçüncü şəxsin köçürülmə vekselini imzalamasıdır.

***Aksept Evi*** – xarici ticarətin kreditləşdirilməsi üzrə ixtisaslaşan bank müəssisəsi.

***Aksept Krediti*** – bank tərəfindən köçürmə vekselin akseptləşdirilməsi qaydasında təqdim edilən kredit.

***Aksept Tapşırığı*** – idxalçı tərəfin ona xidmət edən banka onun hesabında olan vəsaitin qismən və ya tam həcmdə müəyyən bir hesabda deponlaşdırılması və aksepti barəsində təqdim etdiyi ödəniş tapşırığı.

***Akseptant*** – göstərilən hesabı ödəməyi öhdəsinə götürən şəxsdir.

***Aksept-Rambурс Kreditləri*** – bir ölkə bankının başqa ölkə bankının tapşırığı əsasında ixracatçıya aksept tramma formasında verdiyi kreditdir.

***Akseptləşdirmə*** – bank tərəfindən mal göndərən, iş görən, yaxud xidmət göstərən tərəfə məxsus hesaba ödəniş edilməsi barəsində rəsmi razılığın təqdim edilməsi.

***Akseptləşdirilmiş Çek*** – bank akseptinə malik olmaqla üzərində göstərilən məbləğin çek alanın hesabına köçürülməsinə zəmanət verən çek.

***Aksepdən İmtina*** – ödəyicinin ona təqdim edilmiş hesabları, hesablaşma sənədlərini ödəməkdən yazılı şəkildə tərtib edilmiş rəsmi imtinası.

***Akseptsiz Ödəmələr*** – müəssisələrin, təşkilatların, vətəndaşların ödəmə tələbnamələri əsasında mübahisəsiz qaydada silinən ödəmələridir.

***Aksiz*** – bir sıra kütləvi istehlak malları və xidmətlərin satış qiymətinə daxil edilən dolayı vergi növü.

***Akt*** – Latınca “actus” – “hərəkət”, “actum” – “sənəd” deməkdir; iş, hərəkət, hadisə, qərar, hökm və bir hadisəni təsdiq edən sənəd.

***Aktiv Bank Əməliyyatları*** – kreditin təqdim edilməsi, qiymətli kağızların alınması və s. sərbəst vəsaitlərin yerləşdirilməsi üzrə aparılan bank əməliyyatları.

***Aktiv Əməliyyatlar*** – hər hansı iqtisadi subyektin, yəni dövlətin, müəssisənin, yaxud hər hansı fiziki şəxsin özünə məxsus olan maliyyə resurslarını mənfəət əldə etmək məqsədi ilə dövriyyəyə buraxmaq, yaxud idarə etmək.

***Aktiv Hesablar*** – müəssisələrin, firmaların vəsaitlərinin uçota alındığı mühasibat hesabları, onların aktivləri.

***Aktiv Kapital*** **–** ümumi kapitaldan borc öhdəliklərinin çıxılan hissəsi.

$$Ka = K - D$$

Ka – aktiv kapital, K – ümumi kapital, D – borc öhdəlikləri.

***Aktivasiya*** – əvvəlcədən hazırlanmış prosedurun həyata keçirilməsi.

***Aktivlər*** **–** müəssisənin malik olduğu və ya onun istifadəsində olan qiymətli vəsaitlərdir. İnzibati istehsalat binaları, anbarlar, nəqliyyat vasitələri, maşın və avadanlıqlar aktivlərə daxildir.

***Aktivlərin Dövriyyə Əmsalı*** **–** aşağıdakı düsturla hesablanır:

$$ADƏ = S/CA$$

Burada, ADƏ – aktivlərin dövriyyə əmsalı, S – satış, CA – cəmi aktivlər.

***Aktivlərin Rentabelliyi*** **–** aşağıdakı düsturla hesablanır:

$$AR = XG/COA \times 100$$

Burada, AR – aktivlərin rentabelliyi, XG – xalis gəlir, COA – cəmi orta aktivlər.

***Aktuar Hesablamalar*** – Sığorta növləri üzrə sığorta tariflərinin, sığorta ehtiyatlarının yaradılması üsullarının riyazi və statistik tədqiqatı.

***Aktuar*** – Peşəkar olaraq sığorta şirkətinin tarifləri, ehtiyatları və öhdəliklərinin hesablanması ilə məşğul olan riyazi statistika və ehtimal nəzəriyyəsi sahəsində mütəxəssis. Əsas olaraq aktuar hesablamalar həyat sığortası sahəsində aparılır.

***Aktuariat*** **–** maliyyə, xüsusilə də sığorta əməliyyatlarında ehtimal nəzəriyyəsi və statistikadan istifadə olunması metodları.

***Akvizitor*** **–** Fiziki və ya hüquqi şəxslərlə könüllü sığorta ilə bağlı yeni müqavilələr bağlayan yaxud ləğv edilmiş müqavilələri bərpa edən sığorta agenti və ya sığorta şirkətinin işçisi.

***Akvizisiya – 1)*** Yeni sığortaların cəlb olunması, şirkətin sığorta sahəsinin genişləndirilməsi: şirkətin əməkdaşı – akvizitor (sığorta agenti və ya sığorta brokeri) tərəfindən həyata keçirilir. ***2)*** Birjada səhmdar və ya səhmdarlar qrupu tərəfindən hər hansı bir və ya bir

neçə müəssisəyə məxsus olan səhmlərin bütünlüklə alınması.
***Akvitens*** – Bəzi hallarda maliyyə-borc öhdəliklərinin tam icrası zamanı borc verən tərəfin borc alana təqdim etdiyi sənəd.
***Aqrar Bazar*** – kənd təsərrüfatı məhsulu bazarı.
***Aqrar-Sənaye Bankı*** – aqrar sənaye kompleksinin kreditləşdirilməsi üzrə ixtisaslaşan sahəvi bank. Aqrar-Sənaye Bankının əsas məqsədi ölkədə aqrar-sənaye sahəsini ucuz və uzunmüddətli kreditlərlə təmin etməkdir.
***Aqrarçılar*** – kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı olan, bu istehsalda iştirak edən və onu mənafelərini ifadə edən işçilər.
***Aqrar-Sənaye Kompleksi (ASK)*** – kənd təsərrüfatını və kənd təsərrüfatı istehsalı ilə sıx bağlı olan sənaye sahələrini əhatə edən, kənd təsərrüfatı məhsullarının daşınmasını, saxlanmasını, emalını, bu məhsulların istehlakçılara çatdırılmasını həyata keçirən, kənd təsərrüfatını texnika və gübrələrlə təmin edən, ona xidmət edən sahələrin məcmusu.
***Aqressiv İnvestor*** – yüksək gəlir naminə riskə getməyə hazır olan investor.
***"Alçaq Əmtəə"*** – miqdarı artdıqca ona olan tələbatın azaldığı maldır, bu halda tələbat digər, daha keyfiyyətli mala yönəlir.
***Aleba*** – akseptantın üzərinə götürdüyü akseptdən qismən və ya tam imtina etməsi.
***Alıcı*** – alqı-satqı müqaviləsində tərəflərin biri olub, müqavilənin şərtinə uyğun olaraq malı alıb haqqını ödəyəndir.
***Alıcılıq Qabiliyyəti Pariteti*** – iki və ya daha çox valyutaların konkret müəyyənləşdirilmiş əmtəə və xidmətləri almaq qabiliyyətinin müqayisəsi.
***Alıcı Qiyməti*** – müəyyən zaman müddətində alıcının hər hansı qiymətli kağızı almaq istədiyi ən yüksək qiymət.
***Alıcı Məzənnəsi*** – alıcıların valyutaya, qiymətli kağıza görə ödəməyə hazır olduğu qiymətdir.
***Alıcı Opsionu*** – alıcıya mükafatı əvvəlcədən ödənilən müəyyən fyuçers kontraktını şərtləşdirilmiş qiymətlə almaq hüququnu verən opsion.
***Alıcının Alqı Qiyməti*** – alıcının mal vahidini almağa hazır, razı və

qabil olduğu qiymətdir.
***Alıcının Bazarı*** – bazarda təmsil olunmuş satıcılar tərəfindən əmtəə təklifi həcminin alıcılar tərəfindən bu əmtəəyə olan tələbin həcmindən çox olduğu bazar durumu.
***Alıcının Çeki*** – pərakəndə ticarətdə alıcıdan pul çek şəklində qəbul etməsi haqqında kassanın qəbzi.
***Alıcının Nümayəndəsi*** – öz ölkəsinin bazarında xarici alıcının əmtəələrinin satın alınması üzrə tapşırığını yerinə yetirən və buna görə komisyon haqqı olan firmalardır.
***Alqı Qiymәti*** – alıcının mal vahidini almağa hazır, razı və qabil olduğu qiymətdir.
***Alqı-Satqı Sifarişi*** – birja agentinə bazar çıxarma anına ən əlverişli və mümkün olan qiymətlə, müddətli sazişin bağlanmasına sifariş.
***Alqı Əmri*** – qiymətli kağızların alınması haqqında müştərinin brokerə verdiyi əmr.
***Alqı İlə Örtük*** – əvvəllər borca götürülmüş qiymətli kağızı qaytarmaq məqsədi ilə yeni qiymətli kağızın əldə edilməsi.
***Alınmış Veksel*** – hüquqi əhəmiyyət daşıyan sənəd olub, gələcəkdə müəyyən edilmiş tarixdə müəyyən pul məbləğinin ödənilməsi barədə yazılı borc öhdəliklərinin uçotu üçün nəzərdə tutulmuşdur.
***Alış Məbləği*** – Həyat sığortası şəhadətnaməsi sahibinin və ya annuitet müqaviləsi bağlanmış şəxsin vaxtından əvvəl müqavilənin fəaliyyəti dayandırılarkən ala biləcəyi pul məbləğidir.
***Alış Qiymәti*** – məmulatın istehsalın, istehsalçının qiymətindən, üstəgəl onun satışına xərclərin və üstəgəl tədavül prosesinin iştirakçılarının gəlirindən ibarət olan qiymətidir.
***Ali Audit*** – Hesablama Palatası tərəfindən dövlət maliyyə-büdcə nəzarətinin həyata keçirilməsi üzrə aparılan auditdir.
***Aliment*** – nikah və ya ailə münasibətləri ilə bağlı bir tərəfin digər tərəfə ödədiyi pul vəsaiti, yaxud natural vəsait.
***Alleqri*** – lotereyanın bir növü; bilet alandan dərhal sonra onun nəticəsi məlum olur.
***Allokasion Səmərəlilik*** – minimum xərcləri təmin edən, resursların səmərəli kombinasiyası vasitəsilə rasional və ya tapşırılmış, verilmiş struktur məhsulunun istehsalı.

***Allokasiya*** – iqtisadi resursların və ehtiyatların müxtəlif subyektlər arasında onların zəruri tələbatları əsasında bölüşdürülməsidir.
***Allokatura*** – vergi ödəyicisinin bir qrup sonrakı xərclərinin mövcudluğunu təsdiq etmək məqsədi ilə vergi müfəttişliyi tərəfindən təqdim edilən sənəd.
***Allonj*** – veksel blankında, onun təslimi, zəmanəti və ya qarantiyası barədə qeydə yer olmadığı hallarda qoşulmuş əlavə vərəqədir.
***Allotment*** – yenidən tədavülə buraxılan səhmlərin bölüşdürülməsi üsulu, qaydası.
***Alpari*** – qiymətli kağızın və ya valyutanın nominal dəyərinin bazar dəyərinə tam bərabərliyi.
***Alternativ Məsrəflər*** – alternativ imkanlardan istifadə etməmək nəticəsində itirilmiş gəlirlərdir.
***Alternativ Öhdəlik*** – borclunun bir kreditora müxtəlif növ əmlak verməsi və ya iki və daha çox hərəkətdən birini icra etməsi öhdəliyidir.
***Alternativ Çek*** – hər hansı bir şəxsin adına rəsmi yazılmış, lakin onu təqdim edən istənilən şəxsə ödəniş almağa hüquq verən çek.
***Alternativ İnvestisiya*** – adi biznes fəaliyyəti obyektinə (əmlaka və s.-yə) deyil, incəsənət məhsullarına, qədim monetlərə, markalara yatırılan investisiya.
***Alternativ*** – Bir-birinin əksinə olan imkan və qərarlar içərisində yeni bir variantın seçilməsi.
***Alyans*** – bir neçə təşkilatın, müəssisənin, şəxsin müqavilə əsasında yaradılan ittifaqı, birliyi.
***Amalqamasiya*** – fəaliyyətin gücləndirilməsi, kapitalın mərkəzləşdirilməsi və son nəticədə mənfəətin artırılması məqsədi ilə bir sıra ortaq cəhətlərə malik, xüsusilə də bərabər güclü müəssisələrin və ya təşkilatların birləşməsi. Bu iki formada mövcud ola bilər: ***1)*** Bir neçə müəssisənin və ya təşkilatın birləşməsi ilə yenisi təsis edilə bilər. ***2)*** Bir və ya bir neçə kiçik müəssisə və ya təşkilat hər hansı bir iri müəssisə, yaxud təşkilata birləşə bilər.
***Amballaj – 1)*** Əmtəənin qablaşdırılması üçün istifadə edilən material; ***2)*** Əmtəənin qablaşdırılması ilə bağlı xərclər.

***Amanat*** – Qədim Rusiyada və bəzi Şərq ölkələrində müqavilənin təmin edilməsi üçün verilən girov.

***Amerikan Opsionu*** – razılaşma müddəti ərzində onu təqdim edən və ya alan subyektin təşəbbüsü ilə istənilən anda həyata keçirilə bilən opsion. Bu xüsusiyyəti sözügedən maliyyə alətlərinin yüksək likvidliyini təmin edir.

***Amil*** – müəssisənin istehsal fəaliyyətinin və bütövlükdə iqtisadiyyatın əsas resurslarından biri (torpaq, əmək, kapital, sahibkarlıq); istehsal, iqtisadi fəaliyyətin nəticəsinə təsir göstərən iqtisadi, istehsal proseslərinin aparıcı qüvvəsi.

***Amil İntensivliyi*** – istehsalın müxtəlif amillərinə xərclərin bu amillərin istifadəsi ilə istehsal edilən məhsulun dəyərinə nisbəti.

***Amil Məsrəfləri*** – müəyyən istehsal və tədavül amillərinin sərfi ilə bağlı olan xərclər.

***Amil Təhlili*** – müxtəlif amillərin iqtisadi fəaliyyətin nəticələrinə, onun səmərəliliyinə təsir etməsinin təhlili əsasında iqtisadiyyatın və istehsalın tədqiq edilməsi metodu.

***Amillərin Məcmu Məhsuldarlığı*** – istehsal amillərinin hər vahidinə düşən istehsal həcmi şəklində istehsalın texnoloji və təşkilati səviyyəsinin göstəricisi.

***Amirlik İqtisadiyyatı*** – ölkənin iqtisadi sisteminin, təsərrüfatının istiqamətləndirilməsinin iqtisadi rəhbərlik funksiyalarının yüksək dərəcədə mərkəzləşdirilməsi, direktiv idarəetmə metodlarından istifadə edilməsi, istehsal resurslarının əsas növlərinin dövlət mülkiyyətində cəmləşməsi üzərində qurulması.

***Amortizasiya*** – ***1)*** Müəyyən müddət ərzində əsas vəsaitlərin istehlak dəyərinin hüquqi şəxslərin gəlirlərindən dövri ayırmalarıdır; ***2)*** Fiksasiya olunmuş aktivlərin istifadə olunma nəticəsində faydalı iqtisadi həyatının azalmasının və ya istehlakının köhnəlmə ölçüsüdür.

***Amortizasiya Fondu*** – müəssisənin, təşkilatın əsas fondlarının yenidən qurulması məqsədi ilə toplanmış pul vəsaitləri fondu. Amortizasiya fondu bir qayda olaraq amortizasiya ayırmaları şəklində pul vəsaitlərinin toplanmasından formalaşır.

***Amortizasiya Kapitalı*** – əvvəlki dövrlərdə hesablanan amortizasiya

ayırmalarının yenidən istehsala yönəldilməsi. Amortizasiya kapitalı istehsal vasitələrinin yeniləşdirilməsinə xidmət edir.
"***Amstel***" – beynəlxalq banklar qrupu. 15 Avropa ölkəsinin banklarından ibarət olan bu banklar qrupu əsasən kiçik ixracatçılara bağlı ticarətin kreditləşdirilməsini həyata keçirir.
***Amortizasiya Olunmuş Dəyər*** – ilkin və ləğvetmə dəyərləri arasındakı fərqdir.
***Anadangəlmə Günah*** – İqtisadi ədəbiyyatda inkişaf etməkdə olan ölkələrin xaricdən öz valyutasında borc ala bilməməsi halına verilən ad. Burada həmin ölkələrin əzəldən belə olduqlarına və tarixçələri etibarilə borc verənlərin inamsızlığına düçar olduqlarına işarə olunur.
***Analitik*** – təhlil üzrə mütəxəssis, təhlilçi.
***Analitik Model*** – iqtisadiyyatda riyazi asılılığı əks etdirən düstur olmaqla göstərir ki, məsələnin çıxışı onun giriş məlumatlarından, yəni xərclərdən asılıdır.
***Analitik Hesablar*** – müəssisənin təsərrüfat əməliyyatlarını detallar üzrə hərtərəfli əks etdirən hesablardır.
***Analitik Tələb Və Təklif Modeli*** – əmtəə və xidmətlər istehlakının bu və ya digər amildən asılılığını xarakterizə edən tənliklər şəklində qurulmuş iqtisadi-riyazi model.
***Analitik Uçot*** – registr hesabatının aparılmasıdır.
***Analoq, Analogiya*** – Hər hansı prosesi, qanunauyğunluğu adekvat halda əks etdirən anlayış, nəzəriyyə və tədqiqat üsulu.
***Anatosizm*** – borca və ya əmanətə görə faiz məbləğinin üzərinə faizlərin yığılması.
***Anbar*** – əmtəələrin saxlandığı, yerləşdiyi yer.
***Anbar Əlavəsi*** – satılan məhsulun qiymətinə alıcının təchizat-satış təşkilatının xeyrinə ödədiyi əlavə.
***Anbar Qəbzi*** – əmtəənin anbara saxlanılmağa götürüldüyünü təsdiqləyən sənəd, varrant.
***Anbar Şəhadətnaməsi*** – əmtəə və anbar sahibləri arasında bağlanmış saxlanılma müqaviləsini təsdiqləyən qiymətli kağız.
***Anderlainq*** – alqı-satqı hüququ opsion müqaviləsinin şərtlərindən asılı olan qiymətli kağızlar.

***Anderrayter*** – Sığorta şirkəti tərəfindən bütün növ riskləri təhlil etməyə, sığorta götürməyə və ya rədd etməyə, həmçinin optimal sığorta haqqının əldə edilməsi məqsədi ilə həmin riskləri təsnifləşdirməyə səlahiyyət verilmiş şəxs.
***Anderraytinq*** – investisiya emitentin adında çıxış edərək investorları cəlb etməsi və emitentin buraxdığı qiymətli kağızları bazarda yerləşdirməsi prosesidir.
***Ani Likvidlik Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

*ALƏ = (DA – ƏMQ) / CÖ*

Burada, ALƏ – ani likvidlik əmsalı, DA – dövriyyə aktivləri (xammal, material və yarım fabrikatlar), CÖ – cari öhdəliklər, ƏMQ – əmtəə mal qalığı.
***Anklav*** – müəyyən ölkənin hər tərəfdən başqa dövlətin ərazisi ilə əhatə olunmuş ərazisi və ya ərazisinin bir hissəsi.
***Anneksiya*** – bir ölkə ərazisinin bir hissəsinin və ya hamısının digər bir ölkə tərəfindən məcburi surətdə zorla alınması, qəsb edilməsi.
***Annuitant*** – annuitetin ödənildiyi hüquqi və ya fiziki şəxs.
***Annuitet – 1)*** borc və onun faizinin tədricən ödənilməsi nəticəsində, kreditorların müəyyən miqdarda gəlir götürdüyü, uzunmüddətli dövlət istiqrazının növüdür; ***2)*** Sığorta şirkəti ilə bağlanmış, müəyyən vaxtdan etibarən, məsələn təqaüdə çıxandan sonra fiziki şəxsə müntəzəm olaraq pul məbləği almaq hüququ verən razılıq və ya müqavilə.
***Anomal Svitç*** – bazar konyunkturunun anomal dəyişməsi hesabına mənfəət əldə etmək üçün investisiyaların müəyyən növ qiymətli kağızlardan başqa növ qiymətli kağızlara yönəldilməsi.
***Anons*** – elan, bildiriş.
***Antaqonist Oyun*** – mənafeləri bir-birinə qarşılıqlı zidd olan iki tərəfin qarşıdurması, mübarizəsi, rəqabət aparması halında iqtisadi vəziyyəti modelləşdirən oyun.
***Antaqonizmlər Nəzəriyyəsi*** – gəlirlərin bölgüsündə sahibkarlarla muzdlu işçilərin qarşı-qarşıya durduqlarını təsdiq edən nəzəriyyədir.
***Antidempinq Rüsumu*** – idxal olunan maldan ölkəyə dəyən zərəri kompensasiya etmək üçün, malın daxili və dünya bazarında olan

qiymətləri arasındakı fərqin müəyyən hissəsi kimi müəyyənləşdirilən müvəqqəti yığımdır.
***Antidempinq Siyasəti*** – bir qisim məhsul və xidmətlər üzrə daxili bazarın qorunmasına və bununla da yerli istehsalın inkişafına xidmət edən gömrük siyasəti.
***Antidempinq tənzimlənməsi*** – ixrac mallarının dünya bazarlarında onların istehsal edildiyi ölkələrdəki qiymətlərdən qat-qat aşağı qiymətlərlə satılmasına qarşı yönəldilmiş dövlət tədbirlərinin toplusu.
***Antiinhisar*** – inhisara qarşı, inhisarın əleyhinə.
***Antiinhisar Qanunvericiliyi*** – daxili bazarda rəqabətin qorunması və inkişafı, inhisarçılığın qarşısının alınması, o cümlədən inhisarçı iqtisadi subyektlərin fəaliyyətinin məhdudlaşdırılmasını tənzimləyən qanunlar və digər hüquqi aktlar sistemi.
***Antiinhisar Siyasəti*** – bu dövlət tərəfindən həyata keçirilən, inhisarların birləşmələrin, udulmaların, kartellərin, qiymət diktatının əksrəqabət fəaliyyətinin məhdudlaşdırılmasına, tənzimlənməsinə yönələn fəaliyyət, siyasətdir.
***Antisipasiya – 1)*** Borc öhdəliyinin vaxtından öncə icra edilməsi, o cümlədən borc məbləğinin vaxtından öncə qaytarılması. ***2)*** Verginin vaxtından öncə yığılması.
***Apellasiya*** – qəbul edilmiş qərarların, qətnamələrin zərər vurduğu şəxslər və ya onları ədalətsiz, qanunsuz hesab edən şəxslər tərəfindən həmin qərar və qətnamələrdən şikayət verilməsi.
***Aport*** – səhmdar cəmiyyətə təsisçilər tərəfindən səhmlərin dəyərinin ödənişi əvəzində təqdim edilən əmlak.
***Aprobasiya*** – ayrı-ayrı nəzəri müddəaların, iqtisadi modellərin real həyatda, praktikada yoxlanılması, sınaqdan çıxarılmasıdır.
***Aradan Qaldırıla Bilməyən Xərclər*** – şirkətin fəaliyyəti prosesində mövcud olan, istehsalın həcmi ilə şərtləndirilməyən minimal daimi xərclərdir.
***Aralıq Balans*** – hüquqi şəxsin hesablarında olan bütün qalıqların siyahısıdır.
***Aralıq Divident*** – səhmdar cəmiyyətin illik balansı təsbit olunmamışdan, o cümlədən illik, yəni ümumi dividentin həcmi

müəyyən edilməmişdən öncə ödənilən divident.

***Aralıq Hesab*** – cari hesaba salınmaq üçün kifayət qədər məlumatlar alınana qədər, müvəqqəti yazılışlar aparılan hesabdır.

***Arayış Qiyməti*** – saziş, sövdələşmə haqqında sənəddə qeyd edilən, kontrakt qiymətinin müəyyən edilməsində satıcı və alıcı üçün başlanğıc olan qiymət.

***Arbitraj (iqtisadi məhkəmə)*** – iqtisadi mübahisələri (müqavilə şərtlərinin pozulması, zərərin ödənilməsi bəzi dövlətlərin və s.) və digər təsərrüfat problemlərini araşdıran məhkəmə orqanıdır.

***Arbitraj Tunneli*** – müxtəlif arbitraj əməliyyatları keçirməyə imkan verən maliyyə alətlərinin qiymətləri arasındakı fərq.

***Argentari*** – Qədim Romada sərbəst pul vəsaitlərini əmanət kimi cəlb edən, onları kredit kimi yerləşdirən, eləcə də öz müştəriləri arasında nağdsız hesablaşmalar aparan şəxs.

***Arxiv*** – yığılmış, uzun müddət ərzində saxlanılmalı olan sənədlərin məcmusudur.

***Arriyalardakı Dividentlər*** – elan edilmiş, lakin elan olunduğu gündən başlayaraq bir il ərzində ödənilməyən, əhatəli imtiyazlı aksiyalar üzrə dividentlər.

***Artıq Ehtiyatlar*** – bankların məcburi qaydada özlərində nağd pul şəklində, yaxud ölkənin mərkəzi bankında depozitlər kimi saxlamalı olduqları minimal ehtiyat səviyyəsinin üstələnməsi.

***Artıq Xərc*** – pul vəsaitlərinin normaların, balansların, büdcələrin əsasında əvvəlcədən planlaşdırılmış həcmdən artıq miqyasda sərf edilməsi.

***Artıq İstehsal*** – məhsul təklifinin ona olan tələbdən artıq olması.

***Artıq İstehsal Gücü*** – nominal şəraitdə işləməkdən ötrü alınmışdan artıq olan maşın və avadanlıq.

***Artıq Likvidlik*** – ödəmə imkanlarının pul öhdəliklərini aşmasıdır.

***Artıq Məhsul*** – sahə mənsubiyyətinin asılı olmayaraq istehsal silsiləsinin fasiləsizliyini, müəssisələrin və tikintilərin aramsız işləməsini təmin etmək üçün lazım olan detallar, yarımfabrikatla, digər xammal və materialların ehtiyatı.

***Artım*** – iqtisadi göstəricinin onun ilkin, baza səviyyəsinə nisbətən artırılması.

***Artım Göstəricisi*** – iqtisadi kəmiyyətin müəyyən dövr ərzindəki artımını, dəyişməsini səciyyələndirən göstərici.

***Artım Sürəti*** – iqtisadi göstəricinin müəyyən dövr ərzində artım kəmiyyətinin onun ilkin kəmiyyətinə nisbəti.

***Artikul*** – malın tipini, onun rəqəmlərdən və hərflərdən ibarət işarəsini ifadə edən ticarət termini.

***Asılılıq Əmsalı*** – müəssisənin uzunmüddətli borclarının təhlilində istifadə olunur və aşağıdakı düsturla hesablanır:

*1) A= (S+E) x 100% / P*

A – asılılıq əmsalı, S – adi səhmlər, E – ehtiyat fondları, P – prioritet kapital. Bu rəqəm 100%-dən az olarsa müəssisə az asılı, 100%-ə bərabər olarsa neytral, 100%-dən çox olarsa tam asılı kimi səciyyələndirilir.

*2) A= U x 100% / P*

A – asılılıq əmsalı, U – uzunmüddətli kapital, P – prioritet kapital. Bu halda asılılıq əmsalı 50%-dən az olduqda müəssisə az asılı, 50%-ə bərabər olduqda neytral, çox olduqda isə tam asılı kimi xarakterizə olunur. Asılılıq əmsalı böyük olduqda müəssisənin borc alması çətinləşir.

***Asılı Tələb*** – müəyyən növ məhsula olan elə tələbdir ki, o daha "yüksək səviyyəli" məhsula tələbdən asılıdır və onun tərkib hissəsidir.

***Asiya İnkişaf Bankı*** – Asiya və Sakit Okean ölkələrində iqtisadi inkişaf layihələrinin uzunmüddətli kreditlərlə təmin edilməsi məqsədi ilə Birləşmiş Millətlər İqtisadi Komissiyasının tövsiyəsi ilə Manilada (Filippin) 1965-ci ildə təsis edilən və 1966-cı ildən fəaliyyətə başlayan regional maliyyə-kredit təşkilatı.

***Assekurasiya*** – hər hansı əmtəənin və ya digər mülkiyyətin sığortalanması.

***Assiqnasiya*** – Rusiyada 1769-cu ildə dövriyyəyə buraxılan, 1849-cu ildə ləğv edilən kağız pul.

***Assiqnat*** – 1789-1794-cü illər Böyük Fransa inqilabı dövründə işlədilən kağız pul.

***Assimilyasiya*** – Birjada investorlar tərəfindən əvvəlki qiymətli kağızlar satılıb qurtardıqdan sonra yenilərinin alınması.

***Assistans*** – sığorta müqaviləsi əsasında sığortaçının sığorta olunana göstərdiyi xidmət.
***Assosiasiya*** – elmi və ya hansısa digər məqsədlərə çatmaq üçün, hüquqi və fiziki şəxslərin, habelə təşkilatların könüllü birləşdiyi müəssisədir.
***Astrent*** – ***1)*** Borc öhdəliyinin icrasının gecikdirilməsi, yaxud ondan qismən və ya tam imtina edilməsi zamanı borc verən subyektin qarşı tərəfə bildirdiyi rəsmi narazılıq. ***2)*** Borc öhdəliyinin icrasının gecikdirilməsi, yaxud ondan qismən və ya tam imtina edilməsi zamanı borc verən subyektin qarşı tərəfə tətbiq etdiyi cərimə məbləği.
***Aşağı Salınmış İxrac Qiyməti*** – ixrac edilən mala, onun dünya bazarında rəqabət qiymətini artırmaq məqsədi ilə oxşar məhsula, yaxud məmulata daxili qiymətdən aşağı qoyulmuş müqavilə qiyməti.
***Aşınma*** – binaların, avadanlığın onlardan istehsalatda istifadə nəticəsində köhnəlməsi.
***Aşkar Məsrəflər*** – müəssisələrin, firmaların, istehsal resurslarını təchiz edənlərə bilavasitə pulla ödənməli olan ödənişlər.
***At*** – Laosda xırda pul vahidi (sikkə)
***Audit*** – İdarəçilik fəaliyyətinin müəyyən meyarlara, norma və standartlara uyğun gəlməsini qiymətləndirmə prosesi və sistemi.
***Autsayder*** – Müəyyən mülahizələrə, səbəblərə görə inhisar birliklərinə daxil olmayan müəssisələr.
***Audit Yoxlaması*** – hesabatın yoxlanılması prosesidir.
***Auditor*** – hesabatın yoxlanılması ilə məşğul olan şəxs və ya firmadır.
***Auditor Firması*** – audit fəaliyyətini həyata keçirmək hüququna malik ixtisaslaşmış hüquqi şəxs.
***Auditor Rəyi*** – kənar auditorun tərtib etdiyi sənəddir. Auditor rəyi 3 hissədən ibarət olur: 1) auditor yoxlamasına məruz qalmış sənədlərin siyahısı 2) bu hissə “görülən işlərin həcmi barədə bölmə” adlanır və qeyd olunur ki, yoxlama ümumi qəbul olunmuş auditor standartlarına uyğun aparılıb. 3) üçüncü hissə “auditor fikri” adlanır və auditor yoxlamasının nəticələrini formalaşdırır.

***Auditin Məqsədi*** – maliyyə hesabatının düzgünlüyünün və reallığının yoxlanılması və onun qüvvədə olan qanunvericiliyə uyğunluğunun təsdiqidir.

***Auditin Planlaşdırılması Audit Standartı*** – Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 24 mart 1999-cu il tarixli 32/2 saylı qərarı ilə təsdiq edilmişdir. Bu standart "Auditor Xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Auditin Planlaşdırılması" beynəlxalq audit standartlarına uyğun olaraq hazırlanmışdır.

***Auditorlar Assosiasiyası*** – auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən lisenziyası olan ali təhsilli mütəxəssisləri və auditor təşkilatlarını birləşdirən birlikdir.

***Auditorlar Palatası*** – hüquqi şəxs statusuna malik müstəqil professional təşkilat olub, məqsədi dövlətdə audit işinin inkişafına, təkmilləşməsinə və tənzimlənməsinə kömək göstərməkdir.

***Auksion*** – malın ilkin standart qiyməti qoyulmaqla iştirakçıların vasitəsilə açıq satışı zamanı onun ən yüksək qiymət təklif etmiş müştəriyə satılmasıdır. Auksion məcburi (borcları qaytarmaq üçün) və könüllü olur.

***Austral*** – Argentinanın pul vahidi austral = 100 sentavo.

***Autrayt*** – Tərəflərin ciddi şəkildə müəyyənləşdirildiyi müddət ərzində forvard kursu üzrə ödənişi nəzərdə tutan müddətli valyuta sazişi.

***Autsayder*** – Birjada hərdən iştirak edən şəxs, yaxud qeyri-peşəkar birja möhtəkiri.

***Aut-Treyd*** – hər hansı çatışmazlıq və ya səhv nəticəsində uğursuz birja sazişi əməliyyatı.

***Avadanlıq*** – istehsalatda istifadə edilən maşın, dəzgah, aqreqatlar.

***Aval*** – veksel zaminlik kağızı, bank təlimatı. Burada avalist veksel sahibi qarşısında vekseldən irəli gələn bütün öhdəlikləri öz üzərinə götürür.

***Avallaşdırılmış Veksel*** – üz, yaxud əlavə olunmuş hissəsində imza ilə təsdiqlənmiş bank zəmanətinə, avalına malik veksel.

***Avans*** – xərclərə aid olmayıb, gələcəkdə gəlirdən çıxılan cari xərclərə deyilir. Avans, behdən fərqli olaraq öhdəliyin yerinə

yetirilməsi vasitəsi sayılmır.
***Avans Hesabatı*** – avansı alan şəxs tərəfindən avans məbləğinin həcmi, ondan faktiki istifadənin həcmi və digər aidiyyatlı məlumatların göstərildiyi xüsusi formalı sənəd.
***Avanslaşdırılmış Kapital*** – təsisçilərin mülkiyyəti olan və səhmdarlar tərəfindən qoyulan vəsaitdir.
***Avans Ödənişi*** – hər hansı bir layihəyə pul vəsaiti yönəldilməsinin bir forması olub yerinə yetiriləcək işin, göstəriləcək xidmətin, alınacaq maddi qiymətlilərin və s.-in dəyərinin öncədən ödənilməsi məqsədi ilə pul vəsaitinin avansı alan şəxsə verilməsi və ya onun hesabına köçürülməsi.
***Avans Valyutası*** – müqavilə əsasında bir tərəfin digər tərəfə müəyyən xərclərin reallaşdırılması məqsədi ilə qabaqcadan verdiyi valyuta, başqa sözlə avans şəklində verilən valyuta.
***Avans Vekseli*** – kommersiya krediti münasibətlərində alıcı (idxalçı) tərəfin satıcı (ixracatçı) tərəfə vaxtından öncə təqdim etdiyi veksel.
***Avantaj*** – Xeyir, mənfəət, əlverişli şərait.
***Avantüra, fırıldaq*** – icra edərkən real imkanları nəzərə alınmadan başlanan və iflasa düçar olan sahibkarlıq əməliyyatı.
***Averaj*** – Müəyyən vaxt kəsiyindən sonra dövrü olaraq səhm kursunun dəyişməsinə görə konkret buraxılışlar üzrə səhmlərin alqı-satqısından ibarət birja əməliyyatı.
***Avers*** – medalın, dəmir pulun, monetin üz tərəfi.
***Aviaipoteka*** – ipoteka girovu; bu halda kredit üzrə zəmanət qismində təyyarə və ya digər uçuş aparatı çıxış edir.
***Avista*** – İstənilən pul ödənişi sənədləri, xüsusilə vekselin üzərində ödənişin təqdimat üzrə aparılmasını təsdiq edən imza.
***Avizo*** – bank təcrübəsində, bir bank idarəsinin digərinə müştərinin hesabına əməliyyatın yerinə yetirilməsi barədə göndərdiyi yazılı xəbərdarlıqdır.
***Avizolaşdırılan Akkreditiv*** – hər hansı bank tərəfindən müxbir banka göndərilmiş akkreditiv.
***Avrobazar*** – maliyyə-kredit əməliyyatlarının avrovalyutada aparıldığı beynəlxalq maliyyə bazarı.

***Avrodollar*** – Avropa banklarında yerləşdirilən Amerika Birləşmiş Ştatları dollarında pul vəsaitləri.
***Avroistiqraz*** – avrobazarda yerləşdirilən əsasən uzunmüddətli borc öhdəliklərindən ibarət borc alətləri
***Avrokard*** – Avropa Bank Sisteminə üzv olan ölkələrin ərazisində istifadə olunan beynəlxalq kredit kartı.
***Avropa İqtisadi Birliyi*** – 1957-ci ildə Fransa, Almaniya, Böyük Britaniya, Belçika, Yunanıstan, İtaliya, Danimarka, İspaniya, İrlandiya, Hollandiya, Portuqaliya, Lüksemburqdan ibarət Qərbi Avropa ölkələri qrupu tərəfindən yaradılan ümumi bazar. Avropa İqtisadi Birliyi 1992-ci ildən Avropa Birliyi adlanır.
***Avrokreditlər*** – avro-valyuta bazarının resursları hesabına kommersiya bankları tərəfindən verilən beynəlxalq borclar: adətən uzun müddətə üzən faiz tarifləri ilə verilir.
***Avrokreditlər Bazarı*** – müxtəlif ölkələrin iri kommersiya bankları tərəfindən valyutalarda beynəlxalq kreditlərin verilməsi üzrə sabit kredit əlaqələri.
***Avropa Azad Ticarət Assosiasiyası*** – Avropa iqtisadi böhranının əksinə 1960-cı ildə Böyük Britaniyanın təşəbbüsü ilə yaradılmış, bir sıra Avropa ölkələrinin regional ticarət iqtisadi qruplaşmasıdır.
***Avropa Valyuta Əməkdaşlığı*** – 1973-cü ildən AB çərçivəsində valyuta inteqrasiyası məqsədi ilə fəaliyyət göstərir.
***Avropa Valyuta Fondu*** – Avropa ölkələrinin beynəlxalq valyuta-maliyyə təşkilatının yaradılması layihəsi. 1981-ci ildə işlənmişdir.
***Avropa Valyuta Sistemi*** – iqtisadi birliyə daxil olan bir sıra dövlətlər tərəfindən qəbul olunmuş valyuta münasibətlərinin və valyuta tədavülünün təşkili formasıdır.
***Avropa İnvestisiya Bankı*** – 1959-cu ildə Roma müqaviləsi əsasında yaradılan regional maliyyə-kredit təşkilatı. Avropa İnvestisiya Bankının əsas məqsədi uzunmüddətli və ucuz kreditlər vasitəsilə inkişaf etməkdə olan ölkələrdə müxtəlif sahələrin inkişafını maliyyələşdirməkdən ibarətdir.
***Avropa Kənd Təsərrüfatının Zəmanəti və İstiqamətləndirilməsi Fondu*** – 1962-ci ildə Avropa məkanında ümumi aqrar bazarın formalaşdırılması məqsədi ilə yaradılan maliyyə institutu. Fond

zəmanət və istiqamətləndirmə adlı iki bölümə ayrılır. Zəmanət bölməsi ölkənin daxili və xarici bazarında kənd təsərrüfatı məhsullarının qiymət siyasətinin müəyyən edilməsinə xidmət edir. İstiqamətləndirmə bölməsi kənd təsərrüfatı sahəsində səmərəliliyi artırmaq, yüksək inkişafa nail olmaq məqsədi ilə üzv ölkələrə müxtəlif maliyyə və texniki yardımları həyata keçirir.

***Avropa Sosial Fondu*** – 1959-cu ildə məşğulluq probleminin həllinə kömək məqsədi ilə yaradılan fond. Fond məşğulluq səviyyəsinin yüksəldilməsi, peşəkar təhsilin inkişafı, inkişafdan geri qalmış bir sıra sahələrin yüksəldilməsi məqsədi ilə subsidiyalar təqdim edir.

***Avropa Valyuta Sistemi*** – Avropa İttifaqına üzv olan bir sıra ölkələrin birbaşa valyuta sistemi. 12 Avropa ölkəsi tərəfindən 1979-cu ildə təsis edilmişdir.

***Avropa Yenidənqurma və İnkişaf Bankı*** – 42 dünya ölkəsi və beynəlxalq maliyyə institutları tərəfindən 1990-cı ildən təsis edilən beynəlxalq maliyyə kredit təşkilatı. 1991-ci ildən fəaliyyətə başlayan Avropa Yenidənqurma və İnkişaf Bankının əsas məqsədi keçid iqtisadiyyatına malik Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadi siyasətini dəstəkləməkdən ibarətdir.

***Avropartnyorlar*** – Avrobazarda bank fəaliyyəti ilə məşğul olan beynəlxalq bank qruplaşması. Bu qruplaşmanın əsası 1970-ci ildə qoyulmuşdur.

***Avrovalyuta*** – Avropa bankları tərəfindən başqa ölkənin banklarında həmin ölkənin milli valyutasında yerləşdirilən pul vəsaiti.

***Avtomatik Büdcə*** – əvvəlki dövrün, əksər hallarda ötən ilin büdcəsinin, yəni gəlir və xərclərinin avtomatik olaraq yeni büdcəyə keçirilməsi.

***Avtomobil Vergisi*** – fiziki şəxs və müəssisələrin mülkiyyətində olan avtomobillərə görə ödədikləri əmlak vergisi.

***Avtonom Kapital Qoyuluşu*** – bilavasitə, makroiqtisadi faktorlardan irəli gələrək iqtisadiyyatın müəyyən sahələrinə yönəldilən kapital qoyuluşu.

***Avtonom Tarif*** – tərəflər arası razılaşmalardan asılı olmayaraq

tətbiq edilən tarif. Əsas etibarilə bu gömrük tariflərinə aid olunur.
***Avuar*** – Xarici banka saxlanılmaq üçün qoyulmuş qiymətli kağız və qızıl, bir sözlə, hər hansı bir ölkə bankının xarici banklarda valyutası.
***Avtarkiya*** – xarici iqtisadi təsirlərdən qorunmaq üçün, milli iqtisadiyyatın bağlı olmasına yönəlmiş siyasətdir.
***"Avro"*** – ümumi Avropa valyutasının adıdır. 1995-ci ildə qəbul olunmuş, 1999-cu ildən AB ölkələrində dövriyyəyə buraxılmışdır. 2002-ci ildən isə Avropa Valyuta Birliyinə üzv olan ölkələrin milli valyutalarının tədavülünə son qoyulmuş və həmin ölkələrdə vahid Avropa valyutası – avro tədavülə buraxılmışdır. 1 avro = 100 sent
***"Ayılar"*** – malların, qiymətli kağızların, valyuta məzənnələrinin qiymətlərinin endirilməsinə oynayan birja oyuncaqları.
***"Ayılara təzyiq"*** – mərkəzi bank tərəfindən, təminatsız olaraq qiymətlərin aşağı düşməsinə çalışan valyuta bazarı möhtəkirlərinə təsir məqsədi ilə həyata keçirilən tədbirlər.
***Ayıların Koll Spredit*** – aşağı "daxili dəyərlə" alqı opsionunun əldə edilməsinin yuxarı dəyərlə alqı opsionunun satışı ilə uyğunlaşdırılması, əlaqələndirilməsi.
***Ayırmalar*** – müəssisənin, firmanın etdiyi müxtəlif ödəmələri, xərcləri.
***Aylıq Köçürmə*** – qiymətli kağızın sahibinə köçürülən faizin və əsas kapitalın ümumi məbləği.
***Azad Ticarət Siyasəti*** – əsasən tələb və təklifin azad şərtləri altında, beynəlxalq ticarətin inkişafına imkan yaradan siyasətdir.
***Azad Bazar*** – qiymətlərin, xarici amillərin təsirindən asılı olmayaraq, yalnız tələb təklifə müvafiq müəyyən edildiyi bazar.
***Azad Sahibkarlıq Zonası*** – sərmayələrin cəlb olunması və iş yerlərinin açılması üçün hökumətin hər cür iqtisadi şərait (vergi və gömrük güzəştləri vermək, qeydiyyat maneələrini aradan qaldırmaq və s.) yaratdığı ərazidir.
***Azalan Qalıq Metodu*** – amortizasiyanı hesablamağın sürətli metodu olub, rəqəmlərin cəmi metodundakı prinsip ilə hesablanır. Məsələn, avtomobilin səmərəli iş müddəti 5 ildir. Bərabər xətli üsula görə, hər il üçün amortizasiya norması 20%-dir. (100% /5 il).

Azalan qalıq metodunda bu norma 40% (20%:2 il) götürülür.

***Azad Oferta*** – bir neçə alıcıya təklif olunun və bazarın öyrədilməsi üçün satıcı tərəfindən ***istifadə edilən oferta.***

***Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Yanında Baş Dövlət Xəzinədarlığı*** – AR-də dövlət gəlirlərinin və xərclərinin mərkəzləşdirilmiş qaydada kassa icrasını və bu sahədə digər müvafiq funksiyaları həyat keçirən dövlət maliyyə institutu, hökumət orqanı.

***Aztəminatlı Ailə*** – orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundun aşağı olan ailə.

***Avropa Azad Ticarət Assosiasiyası*** – bir sıra Avropa ölkələrinin ticarət-iqtisadi təşkilatdır. Bu təşkilat 1960-cı ildə yaradılmışdır. AATA-nın üzvləri İsveç, İsveçrə, Avstriya, İslandiya və Finlandiyadır.

***Avropa Opsionu*** – yalnız qüvvədə olduğu müddətin son günü satıla bilən opsiondur.

# – B –

***Babl – 1)*** Uğursuz, baş tutmamış maliyyə əməliyyatı. ***2)*** Müflis elan olunmuş müəssisə.
***Bağlanış – 1)*** əməliyyat gününün axırında fond birjasında hazırkı buraxılışa dair son əməliyyatın qiyməti; ***2)*** qiymətli kağızların yeni buraxılışının təqdim olunduğu günü, bütün maraqlı tərəflərin son görüşü; ***3)*** mühasibat balansının hazırlanıb, yekunlaşdırılması.
***Bağlı Depozit*** – müştərinin banka bağlı və ya möhürlənmiş şəkildə verdiyi əşya ilə bağlı bank əməliyyatıdır. Bankın həmin əşyanı açmaq ixtiyarı yoxdur.
***Bağlı (konvertasiya olunmayan) Valyuta*** – bir ölkə daxilində dövr edən və başqa valyuta ilə dəyişdirilməyən milli valyutadır.
***Balans*** – müəssisənin müəyyən vaxt ərzindəki maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatının bir növüdür.
***Balans Cədvəli*** – iki hissəyə ayrılmış cədvəl olub, bir tərəfində passivlər (kapital), digər tərəfində aktivlərdir. Balansda passivlərin və aktivlərin cəmi bərabər olur.
***Balans Hesabatı*** – müəssisənin, firmanın konkret bir dövrə, tarixə aktivlərinin, passivlərinin və xüsusi kapitalının xalis dəyərinin yekun hesabatıdır.
***Balans İtkiləri*** – məhsulların realizasiyasından, əsas vəsaitlərdən və müəssisənin digər əmlaklarından, həmçinin realizasiyadan kənar əməliyyatlardan olan itkilərin cəmidir ki, bu da həmin əməliyyatlar üzrə ümumi xərclərdən çəkilir.
***Balans Gəliri (itkisi)*** – müəssisənin bütün təsərrüfat əməliyyatlarının və balans bəndlərinin qiymətləndirilməsi nəticəsində müəyyən edilmiş, məhsulların realizasiyasından, əsas vəsaitlərdən, müəssisənin digər əmlakından və realizasiyadan kənar gəlirlərdən bu əməliyyatlar zamanı çəkilən bütün xərcləri çıxdıqdan sonra qalan maliyyə nəticələrinə deyilir.
***Balans Kəsiri*** – balansın xərc hissəsinin məbləğinin gəlir hissəsinin məbləğini üstələməsi.
***Balans Mənfəəti*** – müəssisənin, firmanın əsas vəsaitlərinin bütün

obyektlərinin balans cədvəllərində əks etdirilən və onun balansına daxil edilən dəyəridir.

***Balans Modeli*** – tənlik və ya tənliklər sistemi şəklində qurulan, balans nisbətini, daxil olan (istifadə edilən, alınan) və bölüşdürülən, işlədilən məhsulu xarakterizə edən iqtisadi-riyazi modeldir, iqtisadiyyatın bütün sahələrində istifadə edilən iqtisadi modeldir.

***Balans Transferti*** – mülk sahibi tərəfindən şəxsiyyəti göstərmədən adlı kağızı imzalamaqla, mülkiyyət hüququnun verilməsi sənədidir.

***Balansdankənar Hesab*** – ***1)*** bankın mühasibat uçotunda bankın aktivlərinə aid olmayan dəyərlər, habelə pul sənədləri və əməliyyat aparılması üçün sərəncamlar nəzərə alınan hesabdır. ***2)*** valyutanı geri almaq hüququ verən bank hesabıdır. Bu hesabda satılmış valyuta vəsaitlərinin manatla miqdarı göstərilir.

***Balanslaşdıran Göstəricilər*** – bank balansının passivində yaranan resurslara ekvivalent olan vəsaitlər.

***Balanslaşdırılmış Büdcə*** – gəlir və xərc arasında heç bir fərq olmayan büdcədir, daha doğrusu kəsiri olmayan büdcədir.

***Balanslaşdırmaq*** – mühasibata aid olmaqla balans tərtib etmək deməkdir.

***Balans Dəyəri*** – şirkətin mühasibat hesablarında qeyd edilmiş aktivlərin dəyəri.

***Balloter*** – açıq və ya gizli səsvermə yolu ilə birja əməliyyatları ilə bağlı mübahisəli məsələlərin həlli variantı.

***Ban*** – Rumuniyada xırda monet 1BAN=1\100 LEY

***Banderol*** – ***1)*** Vergi və rüsuma cəlb edilən bir sıra əmtəələrin, malların üzərinə yapışdırılmış etiket (kağız) ***2)*** Banklarda, digər kredit təşkilatlarında pul əskinazlarını, qiymətli kağızları və s. –ni dəstələmək üçün istifadə edilən möhkəm, şəffaf lent.

***Banderol Yığımı*** – vergiyə, rüsumlara cəlb edilən əmtəələrin üzərinə yapışdırılan banderolların satışı vasitəsilə əldə edilən vasitəli vergi (aksiz).

***Bank*** – fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və

hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.
***Bank-Akseptant*** – üzərinə ödənişlə bağlı öhdəlik götürən bank.
***Bank Aksepti*** – bank tərəfindən borc sənədləri üzrə məbləğin ödənilməsi barəsində razılığın verilməsi, yaxud həmin məbləğin ödənilməsi ilə bağlı zəmanətin təqdim edilməsi.
***Bank Akseptləri Bazarı*** – borc kapitalı bazarının bir hissəsidir.
***Bank Akseptləşdirməsi*** – tədiyyə sənədlərinin ödənilməsinə bankın razılıq verməsi və ödəniş üçün zəmanətin müəyyən forması, akseptant bankın sənədləri üzərində müvafiq dərkənar şəklində rəsmiləşdirilir.
***Bank Auditi*** – bankın və ya bank filialının maliyyə təsərrüfat fəaliyyətinin təhlili.
***Bank Balansı*** – bankın şəxsi və cəlb edilmiş vəsaitlərinin və yerləşdirdiyi vəsaitlərinin durumu haqqında məlumatları əks etdirən mühasibat balansı.
***Bank Balansının Likvidliyi*** – müəyyən edilmiş müddətlər üzrə bankın balansının aktiv və passivləri arasındakı nisbətidir. Aktiv və passivlər arasında bərabərliyə nail olunduqda balans likvid hesab edilir.
***Bank Bileti*** – ***1)*** Mərkəzi bank tərəfindən tədavülə buraxılan pul nişanı, əskinaz. ***2)*** Bank tərəfindən emissiya edilən tədiyyə vasitəsi.
***Bank Çeki*** – bank tərəfindən avans, zəmanət və bu kimi müxtəlif formalarda kommersiya ödənişlərini reallaşdırmaq məqsədi ilə istifadə olunan çek.
***Bank Deklarasiyası*** – bank tərəfindən səlahiyyətli dövlət orqanına, o cümlədən ölkənin mərkəzi bankına təqdim olunan, özünün fəaliyyət istiqaməti və bununla bağlı digər məlumatları əks etdirən bank sənədi, bəyannamə.
***Bank Diversifikasiyası*** – bank aktivlərinin müxtəlif subyektlər arasında yerləşdirilməsi, yəni bank borcalanlarının sayının artırılması.
***Bank-Diler*** – ***1)*** Fond bazarında dövlət qiymətli kağızlarının satışını təşkil edən kommersiya bankı; ***2)*** Bəzi ölkələrdə kommersiya bankının bələdiyyə qiymətli kağızları ilə bağlı

əməliyyatların tənzimlənməsini həyata keçirən xüsusi şöbəsi.

***Bank-"Drayv-in"*** – avtomobildən ayrılmadan xidmətlərdən istifadə oluna bilən bank təşkilatı.

***Bank Ehtiyatları*** – kommersiya bankları və digər kredit təşkilatlarının ölkənin mərkəzi bankında, təsbit olunmuş normalar əsasında, məcburi qaydada yerləşdirdikləri vəsaitlər.

***Bank-Emitent*** – emissiya fəaliyyəti ilə məşğul olan bank.

***Bank Holdinq Şirkəti*** – Bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisin yerləşdiyi ölkənin bank tənzimlənməsi orqanları tərəfindən tənzimlənən və nəzarət olunan şirkətdir.

***Bank Əmanəti (depozit)*** – müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqlar ödənilməklə və ya ödənilmədən müştərilərin tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir.

***Bank Əmanət Müqaviləsi*** – bir tərəfin (bankın) başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürdüyü müqavilədir.

***Bank Əməliyyatları*** – iqtisadi subyektlərin sərbəst pul vəsaitlərinin müvəqqəti cəlb edilməsi, kreditlərin yerləşdirilməsi, hesablaşmaların aparılması, eləcə də müxtəlif bank xidmətlərinin göstərilməsi istiqamətində bank tərəfindən aparılan irili-xırdalı bütün əməliyyatlar.

***Bank Faizi*** – bankın təqdim etdiyi kredit vəsaitlərinə görə aldığı, həmçinin cəlb etdiyi depozitlərə görə verdiyi faiz məbləği.

***Bank Hesabı*** – müqavilə üzrə bankın və digər kredit təşkilatın müştərinin vəsaitini onun hesabında qorumaq, oraya daxil olan vəsaitlərin sahibinin sərəncamına uyğun istədiyi yerə köçürmək və digər əməliyyatların aparılması üçün götürdüyü öhdəlikdir.

***Bank Hesabı Müqaviləsi*** – bankın, müştəriyə açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə

digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürdüyü müqavilədir.
***Bank Hesabının Bağlanması*** – müştərinin xahişi ilə bank hesabı müqaviləsinin pozulmasıdır. Eyni zamanda bank da aşağıdakı hallarda bank hesabı müqaviləsinin pozulmasını tələb edə bilər: ***1)*** müştərinin hesabında qanunla, bank qaydaları və ya müqaviləsi ilə nəzərdə tutulmuş minimal miqdardan az vəsait olduqda; ***2)*** il ərzində həmin hesabda heç bir əməliyyat aparılmadıqda müqavilənin pozulması müştərinin bank hesabının bağlanması üçün əsas sayılır. Hesabda qalan pul qalığı ya müştərinin özünə verilir, ya da onun sərəncamı üzrə başqa hesaba köçürülür.
***Bank Hesablarının Kreditləşdirilməsi*** – pul vəsaitlərinin olmamasına baxmayaraq bankın, müqaviləyə uyğun olaraq hesaba tələb olunan ödənişi kreditləşdirməsidir.
***Bank Hüququ*** – ölkədə bank sisteminin, o cümlədən mərkəzi bankın və kommersiya banklarının, habelə digər kredit institutlarının fəaliyyətini, eyni zamanda bank sistemi ilə bağlı ictimai münasibətləri tənzimləyən qanunvericilik kompleksi.
***Bank İnvestisiyası*** – iqtisadiyyatın müxtəlif sahələrinə birbaşa investisiyalar şəklində, qiymətli kağızlara portfel investisiyası şəklində yatırılan bank vəsaitləri.
***Bank İşi*** – banklar, bank fəaliyyəti, bank siyasəti, bank əməliyyatı, habelə bank sistemi ilə bağlı nəzəri və praktiki biliklərin məcmusu.
***Bank Kapitalı*** – ***1)*** Bankların şəxsi kapitalı. Bu, bankın ümumi kapitalından cəlb olunan kapitalın çıxılması kimi hesablanır. ***2)*** Bankın əməliyyat apardığı ümumi pul kapitalının məcmusu.
***Bank-Konsorsium*** – səhmdarları bərabər paya malik banklar olan ixtisaslaşmış bank.
***Bank Krediti*** – bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir.
***Bank Köçürməsi*** – bir şəxsin (köçürmə verən) müəyyən vəsaitinin başqa şəxsin (köçürmə alan) hesabına köçürülməsi üçün verilən bank sərəncamıdır.

***Bank Xidmətləri*** – bu xidmətlərə aşağıdakılar aiddir: ***a)*** müştərilərin və bank korrespondentlərinin tapşırığı üzrə hesablaşmaları həyata keçirir və kassa xidməti göstərir; ***b)*** yerli və xarici müştərilərə və korrespondent – banklara hesab açır və aparır; ***c)*** sərmayə sahiblərinin və ya sərəncam verənlərin tapşırığı üzrə kapital qoyuluşunu maliyyələşdirir; ***ç)*** müştərilərin tapşırığı əsasında ödəmə sənədləri və qiymətli kağızların alqı-satqısını və onlarla bağlı digər əməliyyatları həyata keçirir; ***d)*** üçüncü şəxslərin yerinə, icrası pul formasında nəzərdə tutulmuş zəmanət (zaminlik), qarantiya və digər öhdəlikləri verir; ***e)*** müştərinin tapşırığı üzrə xarici valyuta alır; ***ə)*** müştərinin tapşırığı ilə qiymətli daşlar, metallar və onlardan düzəldilmiş məmulatlar alır; ***f)*** müştərinin tapşırığı üzrə vəsaitlərin cəlb olunması və yerləşdirilməsi, qiymətli kağızların idarə olunması (trast əməliyyatları) ilə məşğul olur; ***g)*** broker və məsləhət xidmətləri göstərir, lizinq əməliyyatlarını həyata keçirir.

***Bank İşi*** – dövlət, firma və şəxslərə kreditlərin verilməsi və ödənişlərin aparılması fəaliyyətidir.

***Bank Qarantiyası (zəmanəti)*** – bankın və ya digər maliyyə təşkilatının hüquqi cəhətdən sərbəst öhdəliyinin icrasının təminat formasıdır. Beynəlxalq təcrübədə əsasən iki növ qarantiyadan istifadə edirlər: ***1)*** tələbə görə qarantiya ***2)*** şərtləndirilmiş qarantiya.

***Bank Lizinqi*** – şirkəti qismində bankın çıxış etdiyi lizinq münasibətləri.

***Bank Marjası*** – bankın yerləşdirdiyi kredit resurslarının və cəlb etdiyi depozitlərin faiz dərəcələri arasındakı fərq.

***Bank Menecmenti*** – bank işinin idarə edilməsi. Bank menecmentinin əsas məqsədi son nəticədə daha çox bank mənfəətinə nail olmaqdır.

***Bank Metalları*** – beynəlxalq standartlara uyğun yüksək əyar göstəricisinə qədər təmizlənmiş və keyfiyyət sertifikatına malik olan qiymətli metalların külçələri (standart və ölçülmüş külçələr), Azərbaycan Respublikası və digər dövlətlər tərəfindən tədavülə buraxılan və öz nominal dəyərindən fərqli qiymətə satıla bilən qiymətli metallardan hazırlanmış sikkələr.

***Bank Məktəbi*** – əsası Adam Smit və başqaları tərəfindən qoyulan, bankın pul emissiyası haqqında nəzəriyyə. Banknotların dönərli olması, həcminin məhdud olması, istehsalın və əhalinin ona olan tələbatı zərurətindən yaranması və s. ideyalar nəzəriyyənin başlıca prinsiplərini təşkil edir.

***Bank Nəzarəti – 1)*** verilmiş kreditlərin məqsədli istifadəsinə, yaxud ödəmə qabiliyyətini itirmiş borcalanın vəsaitlərinin sərf edilməsinə onun müflis elan edilməsinə qədər bank nəzarəti; ***2)*** Mərkəzi bank tərəfindən kommersiya banklarının fəaliyyətinə nəzarət.

***Bank- Remitent*** – inkassa əməliyyatları ilə bağlı tapşırıq alan və bununla əlaqədar müxbir banka ödəniş sənədlərini təqdim edən bank.

***Bank Resursları*** – bankın, cəlb olunmuş və xüsusi vəsaitlərini özündə birləşdirən maliyyə vəsaitidir.

***Bank Riski*** – bankın həyata keçirdiyi əməliyyatların nəzərdə tutulan mənfəətlə, gəlirlə və ya səmərə ilə nəticələnməməsi, o cümlədən zərərlə nəticələnməsi ehtimalı.

***Bank Sertifikatı – 1)*** bank müştərisinin hesabının saldosunu göstərən sənəd. ***2)*** Bankda pul vəsaitinin deponentləşdirilməsini təsdiq edən sənəd.

***Bank Sənədi*** – bank əməliyyatının əks olunduğu, göstərildiyi sənəd.

***Bank Sindikatı*** – emitentə tədavülə buraxılan qiymətli kağızların birdəfəlik alışı və yerləşdirilməsi ilə bağlı zəmanət təqdim edən investisiya bankları qrupu və ya maliyyə institutları qrupu.

***Bank Sistemi*** – ölkənin mövcud pul-kredit mexanizmi əsasında fəaliyyət göstərən müxtəlif növ yerli bankların məcmusu.

***Bank Sirri – 1)*** Firma və bankların, öz müsbət adlarını qorumaq məqsədi ilə aparılan əməliyyatların məxfi saxlanılmasını kommersiya sirri kimi qorumasıdır; ***2)*** Müştərilər barədə məlumatların açıqlanmaması üçün bank işçilərinin öhdəliyidir.

***Bank Ssudası*** – İstiqrazlar.

***Bank Trattası*** – bilavasitə bank tərəfindən verilən və təqdim etdiyi zaman sahibinə üzərində göstərilən məbləğdə ödəniş almaq hüququ

verən köçürmə veksel, əsasən bank trattası çox etibarlı pul sənədi olduğuna görə nağd pul vəsaiti ilə bərabər tutulur.
***Bank Vekseli*** – buraxılmış bank vekselinin üzərində qeyd olunmuş şəxsə və ya onun hüquqi varisinə qoyulmuş müddətdə müəyyən pul vəsaitlərinin ödənilməsi barədə bankın birtərəfli, məcburi sayılmayan öhdəliyidir.
***Bank Lisenziyası*** – "Banklar haqqında" qanunla müəyyən edilmiş qaydada – fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıqdır.
***Bank Lizinqi*** – şirkəti qismində bankın çıxış etdiyi lizinq münasibətləri. Bank icarədarın sifarişi əsasında istehsalçı müəssisədən müvafiq aktivləri əldə etməklə onu icarədar subyektə təqdim edir.
***Bank Zəmanəti*** – müştəri, yaxud başqa şəxs tərəfindən pul və ya digər öhdəlikləri yerinə yetirməyə zamin-bankın verdiyi zəmanət; bu öhdəliklər yerinə yetirilmədikdə zəmanət verən bank, zəmanətə qeyd edilmiş hüdudlarda borcalanın borclarına görə məsuliyyət daşıyır.
***Bank Olmayan Kredit Təşkilatı*** – öz vəsaiti və ya cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir.
***Banka Aidiyyatı Olan Şəxslər*** – bankın inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (əri\arvadı, valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı); bankda mühüm iştirak payı olan hər hansı şəxs və ya bankın mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri.
***Banka Aidiyyatı Olan Şəxs Adından Hərəkət Edən Şəxslər*** – aralarında bağladıqları müqavilə əsasında banka aidiyyatı olan şəxs

adından hərəkət etməyə hüququ olan şəxs; banka aidiyyatı olan şəxsin mühüm təsir göstərə bildiyi hüquqi şəxs; banka aidiyyatı olan şəxsin nümayəndəsi.

***Bankdaxili Audit*** – bankdaxili audit xidmətləri tərəfindən bankın iqtisadi fəaliyyətinin müxtəlif cəhətlərinin və müştərilərə xidmətin keyfiyyətinin yoxlanılmasıdır.

***Bankın Aktivləri*** – bankın mənfəət əldə etmək məqsədi ilə yerləşdirdiyi vəsaitlər.

***Bankın Filialı*** – hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir.

***Bankın İnvestisiya Portfeli*** – bank tərəfindən qiymətli kağızlarda yerləşdirilən bütün aktivlərin məcmusu.

***Bankın Kredit Qabiliyyəti Reytinqi*** – bankların faiz dərəcələrinin səviyyəsini, kreditin istiqamətlərini, borcun xüsusiyyətlərini, qeyd şərtlərini nəzərə almaqla qısa və uzun müddətə kredit vermək imkanlarının xüsusi göstəriciləri.

***Bankın Kredit Portfeli*** – bankın bu və ya digər formada təqdim etdiyi bütün kredit vəsaitlərinin məcmusu.

***Bankın Likvidliyi*** – bankın öz öhdəliklərinə, o cümlədən passivlərinə cavab verə bilməsi qabiliyyəti, yəni cəlb etdiyi depozitlərin cədvəl üzrə tam həcmdə ödənişini həyata keçirə bilmək səviyyəsi.

***Bankın Məcmu Kapitalı (öz vəsaiti)*** – prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, Milli Bankın normativ xarakterli aktları ilə müəyyən etdiyi I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqidir.

***Bankın Nümayəndəliyi*** – hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir.

***Bankın Şöbəsi*** – hüquqi şəxs olmayan, bankı olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət

daşıdığı, onun respublika ərazisində depozitlər cəlb edən və\və ya köçürmə, hesablaşma-kassa əməliyyatları aparan ayrıca bölməsidir.

***Bankir Proviziyası*** – dövlət istiqrazlarının yerləşdirilməsində iştirak etməklə, bankların və bank idarələrinin aldığı komisyon mükafatının növüdür. Bu təşkilatlar vasitəçi-komisyonçu kimi xidmət göstərməklə istiqraz dəyərindən müəyyən faizlər götürürlər.

***Banklar Üçün İqtisadi Normativlər*** – pul dövriyyəsinin idarə edilməsi və bank əməliyyatlarının tənzimlənməsi metodlarıdır.

***Bankların Amalqamasiyası*** – bank kapitalının mərkəzləşdirilməsi formalarından biri olub, rəqabət mübarizəsi prosesində iki və daha çox müstəqil bankların birləşməsidir. Amalqamasiya iki cür olur: ***1)*** bir böyük bankın digərini udması; ***2)*** bankların birləşməsi ilə yeni bankın yaranması.

***Bankların Əmtəə Əməliyyatları – 1)*** banklar tərəfindən əmtəə və əmtəə sənədləri təminatı ilə kreditlərin verilməsi; ***2)*** banklar tərəfindən əmtəə-komisyon əməliyyatlarının keçirilməsi və əmtəələrin satışı.

***Bankların Fond Əməliyyatları*** – bankların qiymətli kağızlarla apardığı əməliyyatlar: qiymətli kağızların alınması və satılması, qiymətli kağızların girov qoyulması əsasında kreditləşmə, yenidən buraxılmış qiymətli kağızların yerləşdirilməsi, müştərilərin qiymətli kağızlarının saxlanması və idarə edilməsi.

***Bankların Məcburi Ehtiyatları*** – kommersiya banklarının və başqa kredit təsisatlarının Mərkəzi Bankda məcburi ehtiyat normalarına müvafiq özlərinin bəzi əməliyyatlarının təminatı kimi saxlamalı olduqları vəsaitləri.

***Bankların Passiv Əməliyyatları*** – bankların kredit və başqa əməliyyatların keçirilməsindən ötrü xüsusi, cəlb edilmiş və emissiya edilmiş vəsaitlər şəklində öz maliyyə resurslarının formalaşdırdığı əməliyyatlar.

***Bankların Trast Əməliyyatları*** – bankların müştərinin marağı və tapşırığı ilə əmlakın idarə olunması və yeni xidmətlərin göstərilməsi üzrə etibarlı əməliyyatları.

***Banklar Bankı*** – ölkənin bank kredit sistemində hakim mövqeyə malik, digər bankların fəaliyyətini tənzimləyən, onlara kreditlər

təqdim edən, onların vəsaitlərini müvəqqəti cəlb edən mərkəzi bank.
***Banklar Qrupu*** – buraxılacaq qiymətli kağızlara abunə prosesində fərdi maliyyə məsuliyyətini qəbul edən, daha doğrusu, əvvəlcədən razılaşdırılmış emitent qiyməti üzrə müəyyən vaxtda buraxılışın müəyyən hissəsinə öz adına olan investisiya dilerləri qrupudur.
***Banklararası Depozit*** – bir bank tərəfindən digər banka yatırılan depozit.
***Banklararası Kredit*** – kredit müqaviləsinə görə borc götürən bank, həmin vəsaiti öz təsərrüfat tələblərini maliyyələşdirməyə deyil, öz müştərilərinə borc vermək üçün götürdüyü kredit formasıdır.
***Banklararası Pul Bazarı*** – Banklararası qısamüddətli (bir gündən 1 ilədək) kredit və depozit bazarıdır.
***Banklararası Valyuta Birjası*** – ölkənin mərkəzi bankının lisenziyası əsasında xarici valyutaların alqı-satqısını həyata keçirən ixtisaslaşmış birja.
***Banklardan Kənar Nağd Pul*** – Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan pullar istisna olmaqla Mərkəzi Bank tərəfindən dövriyyəyə buraxılmış nağd puldur.
***Banknot*** – dövlət və ya özəl emissiya banklarının bank biletidir (faizsiz öhdəlik); veksel və malların girov altında ssuda əməliyyatları qaydasında buraxılan və ssuda müddəti qurtardıqda banka qaytarılan əsas kredit növüdür.
***Banko*** – bank tərəfindən alqı-satqısı həyata keçirilən qiymətli kağızların alış və ya satış kursu.
***Bankomat*** – müştəriyə kredit kartı vasitəsilə özünün bank hesabları ilə bağlı bir qisim əməliyyatlar aparmaq imkanı yaradan proqramlaşdırılmış qurğu.
***Bankrot*** – borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması.
***Barrel*** – ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür.
***Barter*** – Mal mübadiləsi əməliyyatları.
***Barter Sövdələşməsi*** – Müqavilə (kontrakt) ilə rəsmiləşdirilmiş, qiymətləndirilmiş və balanslaşdırılmış miqdarda malın valyutasız

dəyişdirilməsidir. Mal mübadiləsi zamanı onların qiyməti dünya qiymətləri əsasında müəyyənləşdirilir.
***Baş Direktor*** – böyük, çoxprofilli firmanın direktoru, onun müavinləri firmanın ayrı-ayrı bölmələrinin, yaxud fəaliyyət istiqamətlərinin direktorları, rəhbərləri rolunda çıxış edirlər.
***Baş Distribyutor*** – ölkədə, yaxud bir sıra ölkələrdə bilavasitə öz gücü hesabına diler şəbəkəsi vasitəsilə satış fəaliyyətini müstəqil təşkil edən idxalçı firma.
***Baş Girov*** – ümumi girov, baş girov o deməkdir ki, o yalnız bu kredit üçün deyil, hətta istənilən sonrakılar üçün də qüvvədədir.
***Baş Kitab*** – memorial orderləri qeyd etmək üçün nəzərdə tutulmuşdur.
***Baş Kredit Sərəncamçısı*** – ayrılan büdcə vəsaitlərinin xərclənməsi və onların müəyyən təyinat üzrə istiqamətləndirməyə başlıca hüquq verilmiş dövlət orqanları və onun rəhbərləridir. Müəssisələrdə baş sərəncamçı adətən direktor və baş mühasib olur.
***Baş Mühasib*** – bilavasitə müəssisənin və ya təşkilatın rəhbərliyinə daxil olan, onun uçot siyasətini formalaşdıran və həyata keçirən, habelə düzgün uçot sisteminin aparılması ilə bağlı birbaşa məsuliyyət daşıyan vəzifəli şəxs.
***“Baş Qiymətli Kağız”*** – başqa qiymətli kağızlarla müqayisədə ləğv edilən şirkətin aktivlərinə üstün hüquqlar verən qiymətli kağız.
***Bay-bek*** – ***1)*** Yerləşdirilmiş qiymətli kağızların, satılmış əmtəələrin geri satın alınması. ***2)*** Maşın və avadanlıqların kredit şərti ilə verilərək əvəzində hazır məhsulun alınmasından ibarət uzunmüddətli əmtəə mübadiləsi əməliyyatı.
***Baş Lisenziya*** – səlahiyyətli dövlət orqanlarının bir və ya bir neçə növ malın idxalı və ya ixracı üçün, müəyyən müddətə miqdar məhdudiyyəti qoymadan verdiyi icazədir.
***Baş Yük*** – gəmidə daşınan istənilən qablaşdırılmış istənilən maldır.
***Başqa Şəxsin Xeyrinə Edilən Güzəşt*** – bilavasitə xidmət göstərən şəxs tərəfindən alınmalı olan mükafatların, komisyon haqlarının bir hissəsinin digər şəxsə, sövdələşmənin həyata keçirilməsinə, xidmət göstərilməsinə şərait yaradana verilməsidir.
***Başlanğıc Kurs*** – birjanın açılışı vaxtı, bazarın fəaliyyətə

başlaması dövründə qiymətli kağızların kursu.

***Baydaun*** – proqressiv faiz dərəcəsinə malik borc (kredit). Baydaun faiz dərəcələri əvvəlcə aşağı olur, sonra isə getdikcə artır.

***Baza*** – digər analitik göstəricilərlə müqayisə baxımından əsas rolunu oynayan, müəyyən dövrə aid iqtisadi göstəricilər.

***Baza İli*** – digər illərdə qüvvədə olan, fəaliyyət göstərən qiymətlərlə müqayisə üçün qiymətlər indeksinin qurulmasında, müəyyən edilməsində əsas baza kimi götürülən il.

***Baza İnflyasiya*** – Qiymətləri dövlət tərəfindən tənzimlənən malların qiymətlərinin dəyişməsindən və mövsümi amillərdən təmizlənmiş inflyasiyadır.

***Baza Norması*** – kommersiya banklarının ssuda üzrə qoyduğu faiz dərəcəsidir.

***Baza Rentabelliyi*** – Məhsulların satışından istehsal xərclərini çıxdıqdan sonra, mənfəət əldə edilməsi ilə təmin olunmuş müəssisə gəlirləridir.

***Bazar – 1)*** Aktivlərin alqı-satqısı üzrə mübadilə sferasında sosial-iqtisadi münasibətlərin məcmusu. ***2)*** Məhsulların alqı-satqısı üzrə mübadilə proseslərinin həyata keçirildiyi fiziki məkan, institut. Məs., kolxoz, fond birjası və s.

***Bazar Dəyəri*** – hər bir konkret anda əmtəə və xidmətlərin, o cümlədən birja əmtəələrinin, fond qiymətlilərinin və valyutanın bazardakı tələblə təklif əsasında müəyyən edildiyi cari dəyər.

***Bazarın Görünməyən Əli*** – elmə A.Smit tərəfindən gətirilmiş termin olub, mahiyyəti: – fərdin öz şəxsi gəliri üçün göstərdiyi cəhddə hər hansı bir məhdudiyyətlə qarşılaşmaması avtomatik olaraq bütünlükdə cəmiyyətin gəlirlərinin artmasına səbəb olur-deməkdir.

***Bazar İqtisadiyyatı*** – azad sahibkarlıq, istehsal vasitələrinə mülkiyyətin çoxformalılığı, bazar qiymətqoyması, təsərrüfat subyektləri arasında müqavilə münasibətləri, dövlətin təsərrüfat fəaliyyətinə məhdud müdaxiləsi əsasında qurulmuş iqtisadiyyat.

***Bazar İndeksi*** – qiymətlərin buraxılmış səhmlərə olan nisbətini də daxil edən bazar dinamikasının ümumi göstəricisi.

***Bazar İnfrastrukturu*** – bazar iqtisadiyyatı şəraitində bazar münasibətlərinin subyektləri arasında qarşılıqlı əlaqə yaradan

bütün növ mülkiyyət formaları, şirkətlər, müəssisələr, firmalar və s. ayrı-ayrı bazarlar üzrə bazar infrastrukturu mövcuddur.

***Bazar Qiyməti – 1)*** tələblə təklifin təsiri ilə sərbəst rəqabətli bazarda müəyyən edilən qiymət, tarazlıq qiyməti; ***2)*** əmtəənin real bazarda müəyyən dövr ərzində formalaşdığı qiyməti;əmtəənin bazarda satıla bildiyi qiyməti.

***Bazar Ölçülərinin Böyüməsi Effekti (səmərəsi)*** – beynəlxalq ticarətin təsiri altında inhisarçı rəqabət bazarının böyüməsi nəticəsində, istehlakçılar avtarkiya şəraiti ilə müqayisədə daha ucuz qiymətə geniş ml çeşidlərini ala bilmək imkanını qazanmasıdır.

***Bazar Özünütənzimləməsi*** – tələblə təklifin qarşılıqlı əlaqəsi bazar mexanizminin əmtəələrin qiymətinə, istehsal və satış həcminə, istehlak səviyyəsinə, istehsalın səmərəliliyinə və işin keyfiyyətinə avtomatik təsiri.

***Bazar Tarazlığı*** – müəyyən vaxtda və müəyyən bazarda müəyyən əmtəə üzrə tələb və təklifin təxminən bərabər olması.

***Bazarın Dərinliyi*** – bazar fəaliyyətinin ölçüsüdür.

***"Bazarın Genişliyi"*** – qiymətləri təyin edilən kağızların sayıdır.

***Bazarın Seqmentləşməsi*** – satılan əmtəənin növü, ərazi məskunlaşması, təmsil olunmuş alıcıların tipi, sosial əlamətlərə görə bazarın ayrı-ayrı hissələrə bölgüsü.

***Bazarın Tənzimlənməsi Alətləri*** – ölkə təsərrüfatında proporsionallığın, tarazlığın təmin edilməsi, sosial təzminatlar sisteminin yaradılması üçün dövlətin tətbiq etdiyi üsullar (vergi, kredit, bank faizi, qiymət hədləri və investisiyalar).

***Bazarın Tutumu*** – müəyyən malın bazarda verilmiş dövr ərzində potensial mümkün olan satış həcmi.

***Bazis – 1)*** Hər hansı münasibətin, işin, fəaliyyətin və s.-nin əsası, təməli, kökü, bazası və s. ***2)*** Real əmtəənin qiyməti ilə birja kotirovkaları arasındakı fərq.

***Bazis Qiyməti*** – standart keyfiyyətli malın qiymətidir.

***Bazis Mənfəət*** – müəyyən hesabat dövrü ərzində (rüb, il və s.) planlaşdırılan (öncədən nəzərdə tutulan, gözlənilən) mənfəət.

***Bazis Şərtləri*** – Malın nəqliyyat vasitəsinə görə vəziyyətini müəyyənləşdirən şərtlərdən asılı olaraq, sövdələşmədə tərəflərin

əsas hüquq və vəzifələridir. Beynəlxalq ticarət terminlərinin təfsiri "İnkoterms" qaydalar toplusu olub, məqsədi müxtəlif ölkələrdə bu terminlərin izahındakı yanlışlıqları aradan qaldırmaqdır.
***E qrupu – EXW*** – alıcı malı satıcının anbarına qəbul edir.
***F qrupu – FSA, FAS, FOB*** – satıcı malı alıcıya çatdırır.
***S qrupu – CİF, CFK, CPT, CİP*** – satıcı malın çatdırılması ilə əlaqədar müqavilə bağlayır, amma malın daşınması zamanı heç bir riskə cavabdeh deyildir.
***D qrupu – DAF, DES, DEQ, DDU, DDR*** – məhsul alıcıya çatana qədər bütün riskə satıcı cavabdehdir.
***Bazis Valyuta*** – digər valyutaların dəyərinin müəyyən edilməsində istifadə olunan valyuta.
***BB Xətti*** – ödəniş balansının tarazlığını təmin edən istehsalın faiz dərəcələri ilə daxili həcminin kombinasiyasıdır.
***Beh*** – razılaşmış tərəflərdən birinin müqavilə üzrə digərinin hesabına, müqavilənin yerinə yetirilməsində maraqlı olduğunu sübut etmək üçün köçürdüyü pul vəsaitidir.
***Belle Paradoksu*** – fransalı nəzəriyyəçi J.Bellenin yanaşmasına görə kapital hesabı bir tərəfdən müəssisənin şəxsi vəsaitlərini əks etdirir, digər tərəfdən isə müəssisənin müəssisə sahibkarlarına kredit borcunun hesabı kimi çıxış edir.
***Benefisiar*** – sığortaçı tərəfindən şəhadətnamədə göstərilən, sığorta ödənişi və kompensasiyası alan üçüncü şəxs.
***Benefit*** – ***1)*** Hər hansı müqaviləyə əsasən pul ödənişi almaq hüququ. ***2)*** Şəxsi sığorta ilə bağlı münasibətlərdə sığorta riskinin uğurlu sonluğu ilə əlaqədar ödənilən əlavə sığorta məbləği.
***Benilüks*** – 1958-ci ildə 50 illik müddətə üç Avropa dövləti – Belçika, Hollandiya və Lüksemburq tərəfindən təsis edilən, 1960-cı ildən fəaliyyətə başlayan iqtisadi-gömrük ittifaqı.
***Bessa*** – maliyyə bazarında, o cümlədən birjada qiymətli kağızların, eləcə də digər maliyyə alətlərinin məzənnəsinin aşağı düşməsi.
***Beta*** – qiymətli kağızın kursunun dəyişməsi ilə ümumi bazar kursunun dəyişməsi arasında kəmiyyət nisbətini ifadə edən ölçü vahidi.
***"Beyin Axını"*** – kasıb ölkələrdən istedadlı insanların varlı ölkələrə

köçməsidir.
***Beyker Planı*** – 1985-ci ildə ABŞ-ın Reyqan administrasiyasının xəzinə naziri Beyker tərəfindən üçüncü dünya ölkələrinin xarici borc probleminin həlli üçün təqdim olunan və həyata keçirilən plan. XX əsrin ikinci yarısından başlayaraq inkişaf etmiş kapitalist dövlətlərindən üçüncü dünya ölkələrinə böyük həcmdə xarici kredit axını son nəticədə həmin ölkələri ağır borc böhranına sürüklədi.
***Beynəlxalq Bazar*** – milli bazarın xarici istiqamətlənmə hissəsidir.
***Beynəlxalq Biznes*** – müəssisələrin öz əmtəə və xidmətləri ilə beynəlxalq bazarlara yayılmasının müxtəlif yolları.
***Beynəlxalq Birja*** – bir dövlətin sərhədləri daxilində deyil, bilavasitə dünya bazarında fəaliyyət göstərən birja.
***Beynəlxalq Əlaqələr*** – bu və ya digər dövlətin, şirkətin, firmanın, hüquqi və ya fiziki şəxsin digər dövlətdən olan tərəfdaşlar ilə yaratdığı iqtisadi əlaqələr və əməkdaşlıqdır.
***Beynəlxalq Əmək Bölgüsü*** – ayrı-ayrı ölkələr arasında müəyyən məhsulların istehsalına görə ixtisaslaşmasıdır.
***Beynəlxalq Əmək Təşkilatı*** – 1919-cu ildə yaradılmış beynəlxalq təşkilatdır. Bu təşkilatın qərargahı Cenevrədə yerləşir. BMT-nin xüsusi bölməsini təmsil edir (1946-cı ildən), müxtəlif ölkələrin əhalisinin əmək və sosial təminatı şəraitinin yaxşılaşdırılması problemləri ilə, əmək qanunvericiliyinə dair tövsiyələrin hazırlanması ilə məşğul olur.
***Beynəlxalq Əmtəə Birjaları*** – keyfiyyətcə oxşar və qarşılıqlı əvəz edilə bilən xammal və ərzaq məhsullarının kütləvi şəkildə alqı-satqısı sövdələşmələrinin həyata keçirildiyi daimi fəaliyyətdə olan bazarın bir növüdür.
***Beynəlxalq Əmtəə Hərracları*** – alıcı tərəfindən əvvəlcədən baxılıb bəyənilmiş, ən çox qiymət verən alıcının mülkiyyətinə keçən malların əvvəlcədən müəyyənləşdirilmiş vaxtda və xüsusi ayrılmış yerdə açıq torqlar yolu ilə satışı üçün xüsusi olaraq təşkil edilmiş və dövrü olaraq müəyyən yerlərdə təşkil olunan bazardır.
***Beynəlxalq Fərdi Hüquq Üzrə Haaqa Konfransı*** – 1951-ci ildə nizamnaməsi qəbul edilib, 1955-ci ildə qüvvəyə minib. 45 dövlət

onu qəbul edib. Konfrans tərəfindən beynəlxalq alqı-satqı müqavilələrinə tətbiq olunan hüquq haqqında Konvensiya işlənib, qəbul olundu. Bu, Haaqa konvensiyası adlanır. Bu, konvensiya beynəlxalq alqı-satqı sazişlərinin bağlanılması və yerinə yetirilməsinin vahid şəkilə salınmasında mühüm rol oynadı.

***Beynəlxalq Fond Birjaları Federasiyası*** – əsas məqsədi bütün səhmdarlar üçün bərabər hüquqların təmin edilməsi və qiymətli kağızların bazar strukturlarının əlaqələndirilməsi olan təşkilat. Parisdə yerləşir.

***Beynəlxalq Hesablaşma Balansı*** – müəyyən zaman müddətində hər hansı bir ölkənin digər ölkələrlə münasibətdə pul daxilolmaları və ödəmələri arasındakı nisbət.

***Beynəlxalq Hesablaşma Bankı*** – 1930-cu ildə 6 ölkənin (Yaponiya, Böyük Britaniya, Belçika, Almaniya, Fransa və İtaliya) mərkəzi banklarının Haaqa razılaşması əsasında yaradılan beynəlxalq maliyyə kredit təşkilatı. ABŞ banklar qrupu da 1975-ci ildən bu maliyyə institutuna qoşulmuşdur. Beynəlxalq Hesablaşma Bankının başlıca məqsədi beynəlxalq maliyyə kredit əməliyyatlarını sürətləndirmək, üzv ölkələrin mərkəzi bankları arasında sıx qarşılıqlı əlaqəni təmin etməkdən ibarətdir.

***Beynəlxalq İcarə Əməliyyatı*** – icarəyə verənin ölkəsinin sərhədlərindən keçmiş əmtəələrin haqla istifadəyə verilməsini nəzərdə tutan əməliyyatlardır.

***Beynəlxalq İcarənin Növləri*** – beynəlxalq təcrübədə müddətindən asılı olaraq icarəni üç növə bölürlər: uzunmüddətli – əmtəənin 3 ildən 5 ilədək kirayəyə verilməsidir. Bəzi avadanlıqlar üçün bu müddət 15-20 ilədək təşkil edə bilər. İcarənin bu növü ***lizinq*** (ingiliscədən kirayə vermək deməkdir) adlanır; ortamüddətli – əmtəənin 1 ildən 2-3 ilədək kirayəyə verilməsidir və ***xayrinq*** adlanır; qısamüddətli – əmtəələrin bir neçə saatdan bir neçə günə, aya və bir ilədək kirayəyə verilməsidir. İcarənin bu növü əksər ölkələrdə ***reyninq*** adlanır.

***Beynəlxalq İqtisadiyyat*** – müasir iqtisadi nəzəriyyənin sərbəst sahəsi olub, milli iqtisadiyyatın qarşılıqlı əlqələrinin aşağıdakı qanunauyğunluqlarını öyrənir: dünya birliyi daxilində malların,

xidmət və ödənişlərin axın hərəkətini; bu axını müəyyənləşdirən və tənzimləyən iqtisadi siyasəti və onların cəmiyyətin rifah səviyyəsinə təsirini.

***Beynəlxalq İnkişaf Assosiasiyası*** – yalnız inzibati xərclərin ödənilməsinə sərf edilmək məqsədi ilə 25% komisyon xərcləri almaqla beynəlxalq inkişaf və yenidənqurma bankının iştirakçıları olan zəif inkişaf etmiş ölkələrə faizsiz kredit verən təşkilatdır.

***Beynəlxalq Kredit*** – beynəlxalq səviyyədə həyata keçirilən kredit münasibəti.

***Beynəlxalq Qarşılıqlı Əməliyyatlar*** – ixrac – idxal əməliyyatlarının inkişaf etdirilməsi məqsədilə tərəflərin öz üzərilərinə əlavə öhdəliklər götürməsi ilə həyata keçirilən əməliyyatlar beynəlxalq qarşılıqlı əməliyyatlar adlanır.

***Beynəlxalq Qızıl Standartı*** – XIX əsrdə və XX əsrin əvvəlində qüvvədə olan beynəlxalq valyuta sistemi. Ona əsasən, əsas ödəmə vasitəsi qızıl idi, milli pul vahidinin dəyəri isə qızılın müəyyən miqdarı ilə ifadə olunurdu.

***Beynəlxalq Makroiqtisadiyyat*** – beynəlxalq iqtisadiyyatın bölməsi olub, açıq iqtisadi modelləri və bütünlükdə dünya təsərrüfatının inkişaf qanunauyğunluqlarını öyrənir.

***Beynəlxalq Maliyyə Korporasiyası*** – üzv ölkələrin sənaye sahələrinə investisiya qoyuluşunu stimullaşdırmaq, eləcə də həmin ölkələrdə özəl sektoru möhkəmləndirmək və genişləndirmək məqsədi ilə 1956-cı ildə Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının filialı kimi yaradılan beynəlxalq maliyyə kredit institutu. BYİB-in əsas fəaliyyətindən fərqli olaraq, BMK üzv ölkələrə yönəltdiyi kreditlər üçün hökumət zəmanəti tələb etmir, beləcə bütün kredit riskini öz üzərinə götürür.

***Beynəlxalq Mikroiqtisadiyyat*** – beynəlxalq iqtisadiyyatın bölməsi olub, mal və istehsal faktorlarının ölkələrarası yerdəyişməsi qanunauyğunluqlarını, həmçinin onların bazar xüsusiyyətlərini öyrənir.

***Beynəlxalq Poçt Əlaqəsi*** – müxtəlif dövlətlərin yurisdiksiyası altında yerləşən poçt rabitəsi təşkilatları arasında poçt göndərişlərinin mübadiləsidir.

***Beynəlxalq Satışlar (Müzaidə, Tenderlər)*** – avadanlığın tədarükü, obyektlərin tikintisi, müxtəlif ölkələrdə injirinq icrası ilə bağlı olan sifarişləri almaq hüququna malik olmaq üçün keçirilən beynəlxalq müsabiqələr.

***Beynəlxalq Standart*** – Beynəlxalq standartlaşma təşkilatı və ayrı-ayrı məhsul növlərinin standartlaşması üzrə müvəkkil edilmiş başqa beynəlxalq qurumlar tərəfindən işlənib hazırlanmış və tövsiyə olunmuş standartlar.

***Beynəlxalq Texniki Yardım*** – dünya birliyi tərəfindən inkişaf etməkdə olan və keçid iqtisadiyyatını yaşayan ölkələrə texnologiya, ərzaq və idarəçilik sahələrində göstərdiyi yardımdır.

***Beynəlxalq Ticarət*** – dünya birliyinə daxil olan bütün ölkələrin xarici ticarətlərinin məcmusudur.

***Beynəlxalq Ticarət Palatası*** – dünyanın 100-dən çox ölkəsinin ticarət-sənaye palatalarını, sahibkarlar federasiyasını, işgüzar dairələrini və firmalarını birləşdirən qeyri-dövlət beynəlxalq təşkilat.

***Beynəlxalq Ticarət Razılaşması*** – ayrı-ayrı xammal məhsullarının dünya bazar tənzimlənməsi üzrə beynəlxalq müqavilədir.

***Beynəlxalq Ticarət Sertifikatı*** – sərbəst dövr edən idxal lisenziyasıdır.

***Beynəlxalq Ticarətdə Alqı-Satqı Müqavilələri*** – idxalçı və ixracatçı tərəfindən razılaşdırılaraq imzalanmış, əmtəələrin göndərilməsi və zəruri hallarda köməkçi xidmətlərin göstərilməsi üzrə kommersiya sənədidir.

***Beynəlxalq Torqlar (Müzaidələr)*** – əvvəlcədən müəyyən edilmiş vaxtda müxtəlif ölkələrin bir neçə mal göndərən və podratçısından təklif alınıb, torqun təşkilatçıları üçün onlardan ən əlverişli təklif edəni ilə saziş bağlamaq üsulu ilə əmtəələrin alınması, sifarişlərin yerləşdirilməsi və podratın verilməsidir.

***Beynəlxalq Tranzit*** – göndərilmə və təyinat məntəqələrinin konkret ölkənin xaricində olması şərti ilə xarici malların həmin ölkənin ərazisi vasitəsilə daşınması.

***Beynəlxalq Valyuta Ehtiyatları*** – beynəlxalq təşkilatlar və digər ölkələrlə hesablaşma zamanı istifadə oluna bilən qızıl, sərbəst dönərli valyuta və digər aktivlərdir.

***Beynəlxalq Valyuta Fondu*** – əsası 1944-cü ildə ABŞ-ın Hempşir ştatının Bretton-Vuds əyalətində BMT-nin valyuta-maliyyə konfransında qoyulan, valyuta-maliyyə sferasında beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və tarazlı inkişafına şərait yaratmaq, bununla da üzv ölkələrin valyuta stabilliyinə xidmət etmək, üzv ölkələrin tədiyyə balansındakı qeyri-tarazlıqları aradan qaldırmaq məqsədilə onlara kreditlər vermək, bununla da beynəlxalq iqtisadi əlaqələrin inkişafına mane ola bilən amillərin qarşısını almaq, beynəlxalq ticarət münasibətlərinə maneçilik törədən valyuta idxalı məhdudiyyətlərinin aradan qaldırılmasına kömək etmək məqsədilə yaradılan beynəlxalq maliyyə institutu.

***Beynəlxalq Valyuta Kredit Təşkilatları*** – ölkələr arasında valyuta və maliyyə-kredit münasibətlərinin tənzimlənməsi, ölkələrin iqtisadi inkişafına kömək göstərilməsi, kredit yardımı məqsədilə dövlətlərarası sazişlər arasında yaradılmış beynəlxalq maliyyə təşkilatları.

***Beynəlxalq Yenidənqurma Və İnkişaf Bankı*** – BMT-nin xüsusi maliyyə təşkilatını təmsil edən beynəlxalq kredit təşkilatı. BYİB-nın əsas fəaliyyəti dövlət və özəl müəssisələrə, onların hökumətlərinin zəmanəti olduqda, nisbətən aşağı dərəcələrlə (illik 10%) uzunmüddətli kreditlərin verilməsi, kreditlərin inkişaf edən ölkələrə və regional banklara, onların sonrakı bölüşdürülməsi üçün yönəldilməsidir.

***Bəxşiş*** – əmlak dəyərlərinin mənsub olduğu şəxs tərəfindən, digər şəxsin mülkiyyətinə əvəzsiz olaraq verilməsidir.

***Bələdiyyə*** – ölkənin qanunvericiliyinə uyğun ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması.

***Bələdiyyə Büdcəsi*** – ölkənin qanunvericiliyi əsasında müəyyənləşdirilən bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyə səlahiyyətlərini həyata keçirmək məqsədilə formalaşdırılan və istifadə olunan planlaşdırılmış maliyyə vəsaiti fondu.

***Bərpa İstiqrazları*** – yerli hakimiyyət orqanları tərəfindən bələdiyyə mülkiyyəti təminatı ilə buraxılan istiqrazlar.

***Bələdiyyə Qiymətli Kağızları*** – yerli büdcə kəsirli olduqda, yaxud qeyri-büdcə məqsədlərindən ötrü yerli hakimiyyət orqanları tərəfindən maliyyə resurslarının cəlb edilməsi üçün buraxılan qiymətli kağızlar.

***Bələdiyyə Maliyyəsi*** – bələdiyyə orqanının və bələdiyyə mülkiyyətində olan təsərrüfat subyektlərinin həyata keçirdiyi maliyyə münasibətlərinin məcmusu.

***Bələdiyyə Müəssisəsi*** – istehsal vasitələri bələdiyyə mülkiyyətində olan müəssisə.

***Bələdiyyə Mülkiyyəti*** – bələdiyyə hakimiyyət orqanlarının ixtiyarında olan mülk.

***Bələdiyyə Orqanları, Bələdiyyələr*** – yerli idarəetmə orqanlarıdır.

***Bələdiyyə Vergiləri*** – ölkənin vergi və digər qanunvericilikləri ilə müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən, bələdiyyələrin ərazilərində və bələdiyyə büdcələrinə ödənilən vergilər.

***Bərabər (düzxətli) Silinmə Üsulu (metodu)*** – obyektin amortizasiya xərclərinin onun istifadə xidməti müddəti üzrə bərabər silinməsidir.

***Bərpa Edilən Resurslar*** – bərpa edilməsi mümkün olan istehsal resursları.

***Bərpa Edilmiş Qiymət*** – enmə, yaxud qalxma dövründən sonra əvvəlki səviyyəsinə çatmış qiymət.

***Bərpa Olunan Akkreditiv*** – öncədən ödəniş məbləğinin bir hissəsi üçün açılmış, sonradan isə məbləği artırılan akkreditiv.

***Bəyan Edilmiş Gəlir*** – vergi xidmətinə təqdim edilən sənədlərdə əks olunmuş gəlirdir.

***Bəyan Edilmiş Kapital*** – səhmdar cəmiyyətin onun təsis sənədlərində və başqa sənədlərdə göstərilmiş kapitalı.

***Bəyannamə*** – qanunlarla və iqtisadi davranış qaydaları ilə nəzərdə tutulan, dövlət orqanlarına onların tərəfindən vergilərin və rüsum-ların həddinin müəyyən edilməsi üçün tələb edilən gəlirlərin və da-şınan malların miqdarı haqqında verilən elan, məlumat və bildirişdir.

***Bəyan Olunan Qiymət*** – inhisarçı müəssisələr üçün

müəyyənləşdirilmiş sərbəst qiymət növüdür.
***Bibor*** – Bəhreyn “ofıor” pul bazarında iştirakçı banklar tərəfindən müəyyən edilən banklararası depozitlərin faiz dərəcəsi.
***Bid*** – əvvəlcədən müəyyən olunmuş qiymət əsasında əmtəənin, işin, xidmətin satın alınması barəsində öhdəlik və ya öhdəlik müqaviləsi.
***Bildiriş*** – baş vermiş və ya verəcək hadisələr, müəyyən addımların atılması, işlərin görülməsi, ödəmələrin edilməsinin zəruriliyi haqqında bunlarda maraqlı olan şəxslərin yazılı, telefon, yaxud teleqraf vasitəsilə rəsmi məlumatlandırılması göstəriş, yaxud informasiya məlumatı formasında ola bilər.
***Bilərəkdən İflas*** – müəssisə rəhbərinin və ya əmlak sahibinin düşünülmüş şəkildə ödəniş qabiliyyətinin olmaması barədə görüntü yaratmaqla, müəssisəyə və digər şəxslərin araqlarına qəsdən ziyan vurmaqdır.
***Bilərəkdən Yalan Reklam*** – o reklam bilərəkdən yalan hesab edilir ki, reklam sifarişçisi reklam istehlakçısını qəsdən yalnış istiqamətləndirir.
***Billon*** – nominal dəyəri tərkibində olan qiymətli metalın dəyərindən yüksək olan dəmir monet.
***Bimetalizm*** – monetlərin hazırlanması üçün 2 növ qiymətli metaldan istifadə olunması.
***Binder*** – sığortaçı və sığorta olunan arasında bağlanan ilkin natamam müqavilə.
***Bir Anlıq Müvəffəqiyyət Strategiyası (xarici praktikada bunu “məhsul toplantısı” adlandırırlar)*** – bu strategiya qısa dövr ərzində maksimum gəlir əldə edilməsi naminə uzaq perspektivdə biznesdən imtina edilməsini nəzərdə tutur.
***Birbaşa Bank Kreditləşməsi*** – bankın öz kreditləri ilə müəssisələrin, şirkətlərin əsas və dövriyyə vəsaitlərinin formalaşmasında iştirakı; bank kapitallarının istehsala birbaşa qoyuluşu.
***Birbaşa Debetləşmə*** – Müştəri tərəfindən banka öz hesabında olan pul vəsaitinin dövrü olaraq başqa şəxslərin hesabına köçürülməsi barəsində təqdim edilən daimi tapşırıq.

***Birbaşa İnvestisiya*** – maddi qiymətlilərin, o cümlədən pul vəsaitinin, əmlakın, mülkiyyətin və s.-nin bilavasitə biznes obyektinə, eləcə də bu və ya digər müəssisənin nizamnamə kapitalına investisiyası. Birbaşa investisiya müəssisənin, şirkətin və s.-nin iqtisadi dövriyyəsinin genişləndirilməsi məqsədi daşıyır.

***Birbaşa İtkilər*** – kontraktın pozulması səbəbindən yarana ziyan, itkilər; kontraktı pozan tərəfdən ziyan çəkmiş tərəfə ödənilməlidir.

***Birbaşa Kapital Qoyuluşu*** – bilavasitə investisiya obyektinə edilən qoyuluşlar.

***Birbaşa Konosament*** – yük təyinat yerinə bir neçə nəqliyyat vasitəsində, birindən digərinə yüklənməklə daşındıqda verilən konosament.

***Birbaşa Lizinq*** – lizinq şirkəti qismində birbaşa olaraq istehsalçı müəssisənin çıxış etdiyi lizinq münasibətləri. Bu halda lizinq əməliyyatı iki subyekt tərəfindən – istehsalçı müəssisə və icarədar tərəfindən həyata keçirilir.

***Birbaşa Marketinq*** – bilavasitə ticarət əqdinin bağlanmasına, konkret pərakəndə ticarət müəssisəsində alqının edilməsinə yönəldilmiş reklam fəaliyyətinin sonuncu mərhələsi.

***Birbaşa Vergilər*** – vergi ödəyicisi tərəfindən əldə olunan və ya onun sərəncamında olan mülkiyyətindən alınan vergilər.

***Birgə Artım Strategiyası*** – keçmiş dövrə nisbətən artım tempinin hər il xeyli yüksəldilməsi yolu ilə həyata keçirilən fəaliyyətdir. Birgə artım strategiyasını üç növü vardır: ***geriyə doğru birləşmə strategiyası, mütərəqqi birləşmə strategiyası, üfüqi birləşmə strategiyası.***

***Birgə Müəssisə*** – fəaliyyətində başqa ölkələrin firmalarının iştirak etdiyi, təşkilati cəhətdən vahid, ümumi müəssisə kimi rəsmiləşdirilmiş müəssisə.

***Birgə Sığorta*** – iki və daha çox sığortaçının eyni bir riskin sığortalanmasında müəyyən paylarla iştirak etdiyi birgə və ya hər biri öz sığorta məbləği payına uyğun olaraq ayrı-ayrı şəhadətnamələr verdikləri sığorta.

***Birja*** – Eyni növ əmtəələrin topdansatış ticarəti ilə bağlı həyata keçirilən iqtisadi münasibətlərin məcmusu. Birja topdansatış ticarət

münasibətlərinin tərəfləri arasında vasitəçi rolunu oynayır.
***Birja Arbitrajı*** – birja sazişləri, eləcə də digər birja münasibətləri zamanı ortaya çıxan mübahisələri həll edən təşkilat və ya komissiya.
***Birja Balansı*** – müəyyən zaman müddətində birjanın aktiv və passivlərini xarakterizə edən göstəricilər haqqında ümumiləşdirilmiş məlumatı əks etdirən mühasibat balansı.
***Birja Bankı*** – birja sövdələşmələri ilə bağlı kredit və depozit əməliyyatlarını həyata keçirən, müxtəlif istiqamətli maliyyə xidmətləri göstərən ixtisaslaşmış bank.
***Birja Brokeri*** – müştərilərin sifarişləri ilə və onların hesabına qiymətli kağızların alqı-satqısı üzrə əməliyyat keçirən şəxs.
***Birja Bülleteni*** – birjanın daimi mətbuat nəşridir.
***Birja Dileri*** – vasitəçilikdən başqa sonradan satmaq məqsədilə öz adından və öz hesabına qiymətli kağız almaq hüququna malik şəxs.
***Birja Dövriyyəsi*** – müəyyən zaman müddətində birjada əmtəələrin, qiymətli kağızların, valyutanın və s.-nin alqı-satqısının ümumi həcmi.
***Birja Əqdi*** – birja ticarəti zamanı birja iştirakçıları arasında birja əmtəəsinə münasibətdə hüquq və vəzifələrin qarşılıqlı ötürülməsi və alqı-satqısı üzrə razılaşmadır.
***Birja Əməliyyatları*** – əmtəə və fond birjalarında keçirilən əməliyyatlar, alqı-satqı əqdlərinin bağlanması.
***Birja Əmtəəsi*** – birja ticarəti obyekti olan əmtəə, məsələn, taxıl, metal.
***Birja İndeksi*** – fond birjasında qiymətli kağızların məzənnə göstəriciləri.
***Birja İntervensiyası*** – güclü bazar subyektlərinin, yəni dövlətin, iri bank və ya şirkətlərin fond birjasında qiymətli kağızların kurslarına məqsədli şəkildə müdaxiləsi.
***Birja Komitəsi*** – birjanın idarəetmə orqanıdır.
***Birja Kotirovkası*** – birjada əmtəənin, qiymətli kağızının və s.-nin qiyməti və ya kursu.
***Birja Kursu*** – qiymətli kağızların birjada ticarət nəticəsində yaranan bazar, satış qiyməti.

***Birja Qeydiyyatı*** – şirkətin qiymətli kağızlarla birja əməliyyatlarının keçirilməsinə buraxılmamışdan əvvəl məcburi qeydiyyatdan keçməsi tələbi.

***Birja Qiyməti*** – Əmtəənin, qiymətli kağızın, valyutanın və s.-nin birjadakı tələb əsasında formalaşan qiyməti.

***Birja Malları*** – bütünlüklə və ya qismən birjada satılan mallardır.

***Birja Mənfəəti*** – birja üzvlərinin və iştirakçılarının alqı-satqısı, eləcə də vasitəçilik əməliyyatlarından əldə etdikləri mənfəət.

***Birja Məzənnə Komissiyası*** – birjanın dövriyyəsində olan qiymətli kağızların və malların məzənnəsini analiz və dərc edən birja təşkilatıdır.

***Birja Möhtəkirliyi*** – birjada əməliyyatların aparılması anında əmtəə qiymətlilərinin, valyutanın və qiymətli kağızların kursları arasındakı fərqdən istifadə etməklə möhtəkir mənfəətinin əldə edilməsi.

***Birjada Mükafatı*** – qiymət kağız alıcısının əməliyyat günündə alqı-satqı barəsində öhdəliyindən imtina etməsinə görə satıcıya ödədiyi haqq.

***Birja Müştərisi*** – birjanın üzvü olmayan, lakin birja əməliyyatlarına buraxılan şəxsdir.

***Birja Notariusu*** – birja dövriyyəsinə aid müqavilələri və digər sənədləri təsdiq etməyə səlahiyyəti olan şəxs.

***Birja Opsionu*** – adətən qısamüddətli xarakter daşıyaraq birjada həyata keçirilən opsion.

***Birja Rüsumu*** – birja üzvlərinin və iştirakçılarının birja əməliyyatları aparmaq hüququna görə xüsusi birja komitəsinə ödədikləri haqq, rüsum.

***Birja Ticarəti*** – birja vasitəçiliyi ilə əmtəələrlə və qiymətli kağızlarla ticarət aparılmasıdır.

***Birja Üzvü*** – birjanın nizamnamə kapitalının formalaşmasında iştirak edən və üzvlük, yaxud başqa məqsədli haqq verən hüquqi, yaxud fiziki şəxs: birja tərəfindən verilən müvafiq şəhadətnaməyə malikdir.

***Birja Vergisi*** – birjada həyata keçirilən sövdələşmələrdən verilən yerli vergi.

***Birjalarda Ehtikar Əməliyyatları*** – birja müqavilələrinin alınıb-satılması nəticəsində mənfəət əldə etmək məqsədilə həyata keçirilən əməliyyatlardır.

***Birjaların Funksiyaları*** – onlar iki başlıca funksiya yerinə yetirir. Qiymət riskinin başqasının üzərinə keçirilməsi və qiymətin aşkara çıxarılması.

***Birjaların Hesablaşma (Klirinq) Palatası*** – birjada bağlanan bütün təcili sövdələşmələri qeyd edən, birja üzvləri arasında nağd olmayan hesablaşmaları həyata keçirən orqandır.

***Birlik*** – bir neçə təşkilatın, müəssisənin vahid qrupda birləşməsi.

***Bina Və Tikililərin Sahiblərinin Üçüncü Şəxslərin Binaya Gəlməsi Və Onlara Xidmət Göstərilməsi İlə Bağlı Məsuliyyətinin Sığortası*** – məsuliyyət sığortasının bir növü: sığortaçı kimi kinoteatrların, teatrların, oyun zallarının, dükanların xəstəxanaların, uşaq bağçalarının, mehmanxanaların və s. sahibləri və ya icarədarları çıxış edirlər. Üçüncü şəxslərin ödənilməli olan sığorta təminatına üçüncü şəxslərin ölümü və ya xəstələnməsi (ştat işçilərindən başqa) həmçinin əmlakına dəyən zərər daxil edilir.

***Biznes*** – bilavasitə mənfəət əldə etmək məqsədilə həyata keçirilən istənilən iqtisadi fəaliyyət növü.

***Biznes-Əməliyyat*** – biznes fəaliyyətin hər hansı bir aktının məzmununu təşkil edən hərəkət, fəaliyyət, prosedurların məcmusudur.

***Biznes-Plan*** – müəssisənin yaradılması və maliyyələşdirilməsi ilə əlaqədar, gələcək sahibkarlıq fəaliyyətinin bütün aspektləri barədə qabaqcadan xəbər verən sənəddir.

***Biznesin Avanslaşdırılması*** – biznesmen və ya şirkət tərəfindən biznes əməliyyatlarının, biznes-layihələrin həyata keçirilməsindən, reallaşdırılmasından öncə pul vəsaitləri eləcə də digər maddi qiymətlilərin əldə edilməsi.

***Biznesmen*** – bilavasitə məqsədi mənfəət əldə etmək olan işgüzar adam, o cümlədən sahibkar.

***Biznes Tənliyi*** – biznes tənliyi aşağıdakı formula şəklindədir:

$$R=İ+D-S$$

***R*** – gəlir; ***İ*** – gəlir götürüləndən sonra təmiz aktivlərin artımı; ***D*** –

götürülən gəlir; ***S*** – konkret vaxt ərzində dövriyyəyə buraxılmış əlavə kapitalın miqdarı.

***Blank*** – Sənədin doldurulmamış, yəni tələb olunan məlumatların yazılmamış maketi.

***Blank-Vauçer*** – hər hansı kommersiya əməliyyatı haqqında ümumi məlumatların əks olunduğu blank.

***Blanko-Veksel*** – bir neçə əsas göstəricinin, yəni veksel sahibinin imzası, verilmə tarixi, ödəniş məbləği və s.-nin əks olunmadığı, lakin əlyazma formasında bu məlumatların yazılması üçün qrafaların ayrıldığı veksel blankı.

***Blank Çeki – 1)*** üzərində konkret ödəniş məbləği göstərilən çek. ***2)*** bank tərəfindən avans, zəmanət və bu kimi müxtəlif formalarda kommersiya ödənişlərini reallaşdırmaq məqsədilə istifadə olunan çek.

***Blank Formalı Akkreditiv*** – üzərində məbləğ göstərilməyən akkreditiv.

***Blank İndossamenti*** – maliyyə sənədinin, qiymətli kağızın sahibi tərəfindən qeyri-müəyyən şəxsə təqdim olunan indossament, burada birinci tərəf sadəcə olaraq imzası ilə qiymətli kağızlarla bağlı hüquqlarını öncədən məlum olmayan şəxsə təqdim edir.

***Blank (etimad) Krediti*** – təminatsız kredit. Blank kreditində kreditor borc alandan heç bir təminat, yəni qiymətli kağız, əmlak, dövlət zəmanəti və s. tələb etmədən kredit təqdim edir.

***Blank Vekseli*** – üzərində benefisyarın adı göstərilməyən veksel.

***Blokada*** – ətraf mühitdən, xarici əlaqələrdən təcrid etmək, mühasirəyə almaq.

***Blotter*** – birjada gün ərzində həyata keçirilən əməliyyatlarla bağlı informasiyanın emal edilməsi məqsədi ilə əməliyyatların aparılması.

***Bon*** – Dövlət və bələdiyyə orqanları, eləcə də müəssisə və şirkətlər tərəfindən tədavülə buraxılan, əsas etbarilə qısamüddətli borc öhdəlikli qiymətli kağızlar.

***Bonanza*** – mənfəətlə işləyən müəssisə.

***Bond*** – hər hansı öhdəliyə görə təqdim edilən zəmanət, qoyulan girov.

***Bondholder*** – qiymətli kağızı əldə edən, alan şəxs (investor).
***Bonifikasiya*** – mövcud kredit dərəcələrini tənzimləmək məqsədilə iqtisadiyyatın müəyyən sahələrinin və ya müəyyən qrup kredit ehtiyacı olan subyektlərin subsidiyalaşdırılması.
***Bonus*** – mükafat şəklində ödənişə edilən əlavə.
***Bonus-Malus*** – müəyyən dövr ərzində sığorta riskinin reallaşmasından və ya reallaşmamasından asılı olaraq sığortaçı tərəfindən ən azı bir il müddətinə sığorta tariflərinin uyğun olaraq artırılması, yaxud azaldılması.
***Bonus Dividenti*** – dövrü qaydada ödənilən dividentdən fərqli olaraq əlavə ödənilən divident.
***Bonus Güzəştləri*** – daimi müştərilərə edilən güzəştlərdir.
***Borc*** – pul vəsaiti, yaxud natural formada alınan aktiv, habelə hər hansı iqtisadi subyekt qarşısında icra olunmamış öhdəlik.
***Borc Əməliyyatlarının Saldosu*** – təmiz kapital axımı ilə borcların ümumi miqdarı üzrə ödəmə faizi arasındakı fərqə bərabərdir.
***Borc Faizi*** – kreditdən istifadəyə görə borcalanın kreditora ödədiyi haqq.
***Borc İddiası*** – kredit üzrə öhdəliklərini yerinə yetirməyən debitorun məhkəmə izlənməsidir.
***Borc Kapitalı*** – Borc öhdəliyi əsasında cəlb edilən kapital.
***Borc Kitabı*** – debitorların və alıcıların borc öhdəlikləri qeyd olunan sənəddir.
***Borc Müqaviləsi*** – iştirakçılardan biri pula və ya əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya keçirməyi öhdəsinə götürdüyü, digər iştirakçının isə aldıqlarına müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürdüyü müqavilədir.
***Borc Öhdəliyi*** – pulun borca alınması faktının və onların qaytarılması vəzifələrinin sənədli təsdiqidir.
***Borc Öhdəlikli Qiymətli Kağız*** – sahibi qarşısında emitentin borc öhdəliyini təsdiq edən dövlət qiymətli kağızları. Dövlət istiqrazları, xəzinə bonaları və s. bura daxildir.
***Borc Şəxsi Kapital Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

***B = UB/ŞK***

Burada, B – borc şəxsi kapital əmsalı, UB – uzunmüddətli borclar, ŞK – şəxsi kapital.

***Borc Tələbnaməsi*** **–** kreditor, yaxud mal göndərən tərəfindən qarşı tərəfə öhdəliyin icrası ilə bağlı təqdim olunan ödəniş sənədi.

***Borca Xidməti*** **–** borcun əsas və faiz məbləğinin qaytarılması.

***Borcalan*** – kredit, istiqraz alan, bu borclar üçün öz üzərinə öhdəlikləri götürən, alınmış vəsaitlərin qaytarılmasına, verilmiş kreditin ödənilməsinə zəmanət verən.

***Borclu, Debitor*** – iki və ya daha çox şəxslər arasında başlıca olaraq əmlak münasibətləri sahəsindəki qarşılıqlı əlaqələri əks etdirən mülki hüquqi öhdəliyin tərəflərindən biridir.

***Borcun Amortizasiyası*** – borc vəsaitinin, o cümlədən istiqrazlara görə borc məbləğinin hissə-hissə ödənilməsi. Bu metoddan əsasən uzunmüddətli kreditlər zamanı istifadə olunur.

***Borcun Bağışlanması*** – borclunun kreditor qarşısında olan öhdəliklərinə xitam verilməsi qaydalarından biridir.

***Borcun Əsas Məbləği*** – borcun faizi çıxmaqla məbləği.

***Borcun Ötürülməsi*** – başqasının borcunu üzərinə götürən üçüncü şəslə kreditor arasında və ya üçüncü şəxslə, kreditorun razılığı ilə borclu arasında olan müqavilədir.

***Borcverən*** – bu və ya digər formada borc verən, onun sonradan qaytarılmasına və faizlərin alınmasına, yaxud başqa ödəniş formasına hüquq əldə edən şəxs.

***Bordero*** – təkrar sığortalı tərəfindən təkrarsığortaçıya sığorta risklərinin ötürülməsi haqqında sənəd.

***Bort-Broker*** – düzgün və rəqabətli opsion bazarına zəmanət verən broker.

***Boykot*** – öhdəlik və vəzifələrdən qismən və ya tam imtina etmək yolu ilə iqtisadi mübarizə metodu, məqsədli iqtisadi təsir.

***Bölgü Kanalları*** – əmtəə və xidmətlərin istehlakçılara aralıq agentlər vasitəsilə, yaxud birbaşa hərəkət yolları.

***Bölgülü Lizinq*** – bu halda lizinq şirkəti istehsalçı müəssisədən maşın və avadanlıqları aldığı zaman onların dəyərinin bir hissəsini özünün şəxsi vəsaitləri, qalan hissəsini isə cəlb olunan vəsaitlər – kreditlər hesabına ödəyir.

***Bölmə*** – müəssisənin, təşkilatın rəsmən fərqləndirilmiş hissəsi və onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə görə cavabdeh olan işçiləri.

***Bölünən Akkreditiv*** – İxracatçı tərəfə, göndərdiyi əmtəələrin dəyərinə uyğun hissə-hissə ödəniş almağa imkan verən akkreditiv.

***Bölünən Əşyalar*** – hər hansı bir hissəsi bu və ya digər təsərrüfat və ya başqa funksiyanı az da olsa icra edən əşyalardır.

***Bölünən Məsrəflər*** – bir neçə məhsulun istehsalı və tədavülü üzrə xərclər.

***Bölünməz Əşyalar*** – heç bir vəchlə bölünə bilməyən əşyalardır. Məsələn, avtomobil.

***Bölüşdürmə (ayırma) Balansı*** – hüquqi şəxsin əmlak və maliyyə vəziyyətini, həmçinin ləğv olunan hüquqi şəxsin öhdəlikləri üzrə hüquqi varisliyini əks etdirən sənəddir.

***Bölüşdürülməmiş mənfəət*** – səhmdar cəmiyyətlərin, şirkətlərin, vergilər ödənildikdən, dividentlər verildikdən sonra qalan, təkrar investisiya, inkişaf ehtiyacları üçün istifadə edilən mənfəətlərdir.

***Böyük Yeddilik*** – yeddi inkişaf etmiş sənaye ölkəsi – ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və Yaponiyadan ibarət qrup.

***Bredi Planı*** – 1980-ci illərin sonlarında ABŞ-ın Corc Buş administrasiyasının maliyyə siyasəti üzrə nümayəndəsi Bredi tərəfindən üçüncü dünya dövlətlərinin ağır xarici borc probleminin həlli istiqamətində irəli sürülən və həyata keçirilən strateji plan.

***Bretton-Vuds Valyuta Sistemi*** – pul münasibətlərinin, hesablaşmaların təşkili formasıdır. Bu forma 1944-cü ildə keçirilmiş Bretton-Vuds konfransı tərəfindən müəyyən edilmişdir. Bu formaya əsasən dünya pulunu rolunu qızılla bərabər həm də ABŞ dolları oynayır.

***Breyk-Poynt*** – açıq tipli investisiya şirkətinin səhmlərinin əldə edilməsində investora güzəşt imkanı verən investisiya məbləği.

***Brifinq*** – rəsmi şəxslərin kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşü.

***Broker*** – bazarda tərəflər arasında vasitəçilik funksiyasını həyata keçirən hüquqi və ya fiziki şəxs, vasitəçi.

***Broker Xidməti*** – müştərinin sifarişi ilə qiymətli kağızların alqı-satqısı.
***Broker Assosiasiyası*** – birgə fəaliyyət məqsədilə brokerlərin birləşməsi.
***Broker Əməliyyatları*** – vasitəçinin köməkliyi ilə alıcı ilə satıcı arasında əlaqənin yaradılmasıdır.
***Broker Firması*** – bir neçə brokerin rəsmi birliyidir.
***Broker Krediti*** – müxtəlif maliyyə əməliyyatlarının aparılması, o cümlədən qiymətli kağızlara investisiya yatırılması, fond bazarında vasitəçilik xidmətlərinin həyata keçirilməsi məqsədilə brokerlər, o cümlədən broker firmaları tərəfindən alınan kredit.
***Broker Limiti*** – fond bazarında investorun, müştərinin öz brokerinə bazarda əməliyyat aparmaqla bağlı müəyyənləşdirdiyi ən yüksək və ən aşağı qiymət səviyyəsi.
***Brokeraj*** – Broker fəaliyyəti.
***Bronlaşdırma*** – mövcud resursların bir hissəsini gələcək məqsədlər naminə ehtiyatda saxlanması.
***Brutto*** – ***1)*** malın qabla çəkisidir; ***2)*** xərcləri çıxmadan qazanılan ümumi gəlirdir.
***Brutto Dərəcə*** – hər hansı bir güzəşt və ya tutulma olmadan sığorta mükafatının tam tarif dərəcəsi: netto dərəcənin və məsələn, sığorta əməliyyatlarının keçirilməsi məsrəflərinin kompensasiyası üçün ehtiyat fondunun, qarşısıalınma tədbirləri fondunun yaradılması üçün istifadə olunan yüklənmənin cəmindən ibarətdir.
***Brutto Faiz*** – gəlirdən vergili xərclər çıxılmadan hesablanmış faiz dərəcəsi və ya faiz məbləği.
***Brutto-Mənfəət*** – satışın istehsal xərcləri çıxmaq şərti ilə vergilərin ödənilməsinə qədər hesablanan dəyəri.
***Brutto Mükafat*** – brutto dərəcə üzrə hesablanmış sığorta mükafatlarının məbləği.
***Buk*** – valyuta birjasında dilerin alqı-satqı əməliyyatları aparmaq imkanının tükənməsi.
***Bum, İqtisadi Dirçəliş*** – yüksək iqtisadi fəallıq, optimizm və nisbi işsizlik dövrüdür.
***Buraxılış*** – ***1)*** Qiymətli kağızların tədavülə buraxılması, emissiyası

*2)* Mikro səviyyədə: müəssisə tərəfindən istehsal olunan məhsulların həcmi. *3)* Makro səviyyədə: müəyyən dövr ərzində ölkə iqtisadiyyatında istehsal olunan bazar və qeyri bazar məhsullarının məcmu buraxılış dəyəri.

***Buraxılmış Kapital*** – səhmdarların alması üçün buraxılmış bütün səhmlərin nominal dəyərinin məbləğidir.

***Büdcə*** – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün maliyyə sənədi.

***Büdcə Artıqlığı (profisit)*** – büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği.

***Büdcə Balansı*** – büdcə gəlir və xərclərinin bərabərliyi.

***Büdcə Gəlirləri*** – Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar.

***Büdcə Göndərişi*** – növbəti il üçün dövlət büdcəsinin ölkə prezidentinin göndərişi şəklində təklif olunan qurulma strategiyası.

***Büdcə Hesabı*** – hər hansı məqsədlərin reallaşması üçün dövlət tərəfindən birbaşa maliyyələşdirilən müəssisənin, təşkilatın bank hesabı.

***Büdcə Hüququ*** – ölkənin büdcə sistemini təşkil edən büdcə həlqələrinin quruculuğunu və büdcə sistemi üzrə ictimai münasibətləri tənzimləyən hüquqi normativ aktlar və qanunlar kompleksi.

***Büdcə Xərcləri*** – büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait.

***Büdcə İli*** – yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr.

***Büdcə İnvestisiyası*** – dövlət büdcəsi (fevral büdcə) və büdcə

sisteminin digər həlqələri (bələdiyyə büdcəsi və s.) tərəfindən ölkə iqtisadiyyatının və ya regionun prioritet sahələrinə, yaxud müəssisələrinə yatırılan investisiya.

***Büdcə Kəsiri (defisit)*** – büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği.

***Büdcə Qanunu*** – konkret dövr üçün büdcəni müəyyənləşdirən, onun təyinatını, icra müddəti və qaydalarını göstərən, Azərbaycan Respublikasının Mülki Məcəlləsi tərəfindən qəbul olunan qanunvericilik aktıdır.

***Büdcə Quruculuğu*** – ölkənin büdcə sisteminin funksional və təşkilati prinsiplərinin məcmusu.

***Büdcə Maliyyələşməsi*** – dövlət sifarişlərinin yerinə yetirilməsi, dövlət təşkilatlarının saxlanması məqsədi ilə qaytarılmamaq şərti ilə, əvəzsiz olaraq pul vəsaitlərinin dövlət büdcəsindən verilməsi, ayrılmasıdır (assiqnasiya).

***Büdcə Məhdudiyyətləri*** – büdcədən dövlət vəsaitlərinin xərclənməsinə maliyyə məhdudiyyətləridir.

***Büdcə Proqnozlaşdırması*** – büdcə münasibətlərinin, o cümlədən büdcəyə vəsaitlərin səfərbər edilməsi, həmin vəsaitlərin məqsədli şəkildə istifadə edilməsi, istifadə olunmuş büdcə vəsaitlərinin icrasına nəzarət proseslərinin perspektiv olaraq təhlili və qiymətləndirilməsi.

***Büdcə Prosesi*** – müvafiq qanunvericiliyə uyğun dövlət və yerli hakimiyyət orqanları tərəfindən büdcənin tərtibi, baxılması, təsdiqi, icrası və səmərəli icrası üzərində nəzarətə əsaslanan fəaliyyətlərin məcmusu.

***Büdcə Ssudaları*** – dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti.

***Büdcə Resursları*** – müxtəlif səviyyələrdə büdcənin gəlir hissəsini formalaşdıran vəsaitlərin məcmusu.

***Büdcə Sistemi*** – ölkənin vergi-büdcə mexanizminə əsaslanan büdcə həlqələrinin məcmusu.

***Büdcə Siyasəti*** – hökumətin həyata keçirdiyi iqtisadi siyasətin

tərkib hissəsi olaraq büdcə gəlirlərinin optimal səviyyədə təmin edilməsi və düzgün, səmərəli xərclənməsinə əsaslanan tədbirlər kompleksi.

***Büdcə Təsnifatı* – *1)*** dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, təşkilati və digər prinsiplər əsasında qruplaşdırılması. ***2)*** büdcənin gəlirlərinin və xərclərinin oxşar xüsusiyyətlərə görə təsnifləşdirilməsi.

***Büdcə Təşkilatı*** – maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar.

***Büdcə Təşkilatlarının Hesablaşmaları*** – büdcə təşkilatlarının başqa müəssisə və təşkilatlarla, maliyyə orqanları, yuxarı təşkilatlarla, təhtəlhesab şəxslərlə, fəhlə və qulluqçularla, digər debitor və kreditorlarla apardığı hesablaşmalar.

***Büdcə Uçotu*** – büdcənin icrası ilə bağlı bütün proses və əməliyyatların uçotu.

***Büdcədənkənar Dövlət Fondları*** – qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları.

***Büdcədənkənar Xərclər*** – büdcənin məxaric maddələrinə daxil edilməmiş, büdcədən kənara çıxan, büdcədənkənar mənbələrdən edilən xərclər.

***Büdcənin İcrası*** – təsdiqlənmiş büdcədə nəzərdə tutulmuş gəlirlərin alınması və xərclərin edilməsi prosesi.

***Büdcə-Vergi Siyasəti*** – dövlətin vergiyə cəlbetmə və dövlət xərcləri sahəsində yürütdüyü siyasətdir.

***Büdcəyə Ödəmələr*** – hüquqi və fiziki şəxslərin dövlət büdcəsinə etdiyi ödəmələr, ayırmalar.

***Bürokratiya* – *1)*** ali məmur aparatı, müdiriyyət; ***2)*** formalizm, formal olanların həqiqi olanları üstələyən, inzibati süründürm-əçiliyə əsaslanan idarəetmə sistemi.

# – C –

***Cank*** – geniş satış bazarına malik, lakin aşağı keyfiyyətli və ucuz qiymətli ixracat məhsulları. Məs., alışqan.
***Cari Aktivlər*** – dəyəri olan və müəyyən dövr ərzində pula çevrilə bilən əmlakdır. Bu aktivlər ona görə "cari" hesab olunur ki, fasiləsiz olaraq istehsalatdan keçir.
***Cari Bazar Dəyəri*** – obyektin, əmtəənin bazarda satıla bildiyi qiymət.
***Cari Bazar Qiyməti*** – cari zamanda əmtəənin bazar qiyməti.
***Cari Dövlət Xarici Borcu*** – ölkənin ödənilmə tarixi cari maliyyə ilinə təsadüf edən xarici borcu.
***Cari Emissiya*** – bazara buraxılmış hökumət qiymətli kağızlarının vaxtına görə sonuncu emissiyası.
***Cari Əməliyyatlar Balansı*** – tədiyyə balansının bir hissəsi olub, müəyyən müddət ərzində ölkənin xalis ixracını ifadə edən balans. Ölkənin xalis ixracı aşağıdakı düsturla hesablanır:

$$X = \dot{I} + V + P - D$$

Burada: ***X*** – xalis ixrac; ***İ*** – əmtəə və xidmətlər ixracı; ***V*** – investisiyalardan əldə edilən xalis mənfəət; ***P*** – xalis pul köçürmələri; ***D*** – idxal.
***Cari Fəaliyyət*** – müəssisə gəlirlərinin ölçülərinə təsir edən təsərrüfat əməliyyatlarına pul vəsaitləri təsiri özündə birləşdirən müəssisə fəaliyyətidir.
***Cari Hesab*** – kredit idarəsində təşkilatların, vəzifəli şəxslərin və ya vətəndaşların adına nağd və ya qeyri-nağd vəsaitləri qorumaq üçün rəsmiləşdirilmiş xüsusi uçot sənədləridir.
***Cari Xərclər*** – realizasiyası, inzibati və maliyyə xərcləri, həmçinin istehsal gücünü saxlamaq üçün çəkilən təmir-istismar xərcləri ilə bağlı olan bütün xərclərdir.
***Cari İcarə*** – icarədarların müvəqqəti tələbini ödəmək üçün əsas vəsaitlərin ayrı-ayrı hissələrinin, yaşayış və istehsalat binalarının icarəyə verilməsi ilə həyata keçirilən əsas vəsaitlərin icarə növüdür.

***Cari Likvidlik Əmsalı*** – müəssisənin likvidlik göstəricisi olub, onun qısamüddətli borc öhdəliklərinin yerinə yetirilməsi üçün cari aktivlərin mənbə kimi əlaqələrini göstərən əmsaldır. Bu əmsal cari aktivlərin cari öhdəliklərə bölünməsi ilə tapılır.

***Cari Maliyyə Nəzarəti*** – təsərrüfat subyektlərinin maliyyə planlarının icrası prosesində maliyyə-təsərrüfat əməliyyatları keçirildikdə, pul vəsaitlərinin və əmtəə-material qiymətlilərin sərfinin norma və normativlərə uyğun olması yoxlanıldıqda, əvvəlcədən nəzərdə tutulmuş vəsaitlərin istifadəsi, o cümlədən vəsaitlərin xərc planına uyğun buraxılması zamanı həyata keçirilən maliyyə nəzarəti.

***Cari Mənfəətin Maksimumlaşdırılması*** – firmanın, istehsal edilən və satılan malın, onun həcminin seçilməsindən, ən yüksək cari mənfəətin alınmasını təmin edən qiymətinin qoyulmasından ibarət strategiyadır.

***Cari Məsrəflər*** – cari ildə mütləq "sərf olunması" və ya müvafiq müdaxillə bağlanması (örtülməsi) pullarıdır.

***Cari Məzənnə*** – satışların keçirildiyi zaman məzənnə makleri tərəfindən müəyyən edilən birja məzənnəsi.

***Cari Öhdəliklər*** – növbəti bir il (12 ay) ərzində ödənilməli olan öhdəliklərdir.

***Cari Passivlər*** – müəssisənin bir il ərzində ödəməli olduğu borclarıdır. Cari passivlərə ticarət kreditlərini və bir ildən az müddətə götürülmüş borcları misal göstərmək olar.

***Cari Təmir*** – obyekti işçi vəziyyətdə saxlamaq üçün nəzərdə tutulan təmir işləridir.

***Cari Valyuta Əməliyyatları*** – valyuta əməliyyatlarının bir növü olub Azərbaycana köçürülən və Azərbaycandan köçürülən xarici valyutalarla həyata keçirilən hesablaşmalardır.

***Cari Valyuta Hesabı*** – müəssisəyə xarici valyuta ilə əməliyyatı həyata keçirməyə imkan verən bank hesabıdır. Valyuta hesabı Azərbaycan Respublikası Milli Bankının lisenziyası olan banklarda açıla bilər.

***Cari Valyuta Siyasəti*** – valyuta məzənnəsinin, valyuta bazarındakı əməliyyatların operativ tənzimlənməsi məqsədilə Mərkəzi Bankın

və Maliyyə Nazirliyinin həyata keçirdiyi tədbirlər toplusu.

***Cavabdeh*** – məhkəmədə qarşılaşan tərəflərdən biridir. Cavbdeh fiziki və hüquqi şəxs ola bilər.

***Centlmen Razılaşmaları*** – qeyri-rəsmi, sənədlərdə əks olunmayan, bir qayda olaraq şifahi formada, qarşılıqlı etibar əsasında bağlanan razılaşmalardır.

***Cədvəl*** – sətirlərə və sütunlara bölünmüş nizamlanmış toplu halında ifadə edilmiş məlumatlar; Siyahı şəklində tərtib edilmiş hesablama sənədi, hesaba alma cədvəli.

***Cəlb Edilmiş Aktivlər*** – müəssisənin mövcudluğu müddətindən əvvəl alınmış, birbaşa və ya dolayısı ilə onlardan gəlir götürülməsi gözlənilən aktivlərdir.

***Cəlb Edilmiş Qeyri-Maddi Aktivlər*** – müəyyən dəyərə malik olan, lakin faktiki cəhətdən gözə görünməyən aktivlərdir.

***Cəlbetmə*** – özəl kreditorların verdikləri borclar vədəsinə çatanda bunların vaxtının uzadılmasına razılıq vermələri ilə, maliyyə böhranının həllinə müflis olan borclu maliyyə qurumlarından başqa bu maraqlı tərəfin də cəlb edilməsidir. Burada çox vaxt borclunun borcunu ödəyə bilməsi üçün borcverən tərəfin borcun ödənilməsi cədvəlində dəyişiklik etməsindən söhbət gedir. Bu yolla borclu ölkənin qeyri-likvidlikdən çıxmaq imkanı yaranır.

***Cəmiyyət*** – ***1)*** Birgə həyat tərzinə malik insanların məcmusu; ***2)*** Ortaq maraqlar ətrafında birləşmiş insanların məcmusu, dairəsi.

***Cəmiyyətin İqtisadi Təbəqələşməsi*** – əhalinin ayrı-ayrı təbəqələri arasında gəlir və həyat səviyyəsindəki fərqin artması, cəmiyyətin yüksək və aşağı gəlirli üzvləri arasında fərqin böyüməsi. Nəticədə əhalinin sosial təminat səviyyəsinə görə differensiallaşması güclənir.

***Cəmlənmiş Artım Strategiyası*** – buraya iki elementin məhsul və yaxud bazarın vəziyyətinin dəyişməsi ilə əlaqədar olan strategiyalar daxildir.

***Cərimələr*** – məhkəmənin qərarı ilə təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir. Cərimələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş şərti maliyyə vahidinin müxtəlif miqdarı ilə müəyyən edilir.

***Cərimə Sanksiyaları*** – kontraktla öz üzərinə götürdüyü şərtləri, öhdəlikləri pozmuş şəxslərdən müqavilə ilə nəzərdə tutulmuş, sənədlə qeyd edilmiş, alınan cərimənin növləri və dərəcələri.

***Cızıqlı Çek*** – hesablaşma çekinin bir növü olub, ödəyici yalnız banka və ya öz müştərisinə ödəyə bilər. Cızıqlama, çekin üz tərəfinə iki paralel xətt çəkməklə aparılır. Cızıqlama ümumi və ya xüsusi ola bilər. Xətlər arasında heç bir göstəriş və ya "bank" qeydi və ya eyni mənalı başqa qeyd yoxdursa, cızıqlama ümumi sayılır. Xətlər arasında bankın adı yazılmışsa, cızıqlama xüsusi sayılır.

***Cinayət*** – ölkənin ictimai quruluşuna, siyasi və iqtisadi sisteminə, mülkiyyətə, şəxsiyyətə, vətəndaşların siyasi, əmək, əmlak, başqa hüquq və azadlıqlarına, habelə hüquqi qaydalarına qəsd edən və cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli əməl hesab olunur.

***Cirinq*** – iqtisadi subyektin borc kapitalı ilə şəxsi kapitalı arasındakı nisbəti ifadə edən anlayış. Aşağıdakı düsturla hesablanır:

$$C=B\backslash Ş$$

Burada: ***C*** – ciring əmsalı; ***B*** – məcmu borc kapitalının həcmi; ***Ş*** – məcmu şəxsi kapitalın həcmi.

***Cobber*** – London fond birjasında diler. Cobberin digər fond birjalarında fəaliyyət göstərən dilerlərdən fərqi ondadır ki, o, birja üzvü olmayan müştərilərə vasitəçilik xidməti göstərə, eləcə də broker funksiyalarını həyata keçirə bilmir.

# – *Ç* –

***Çağırılan Akkreditiv*** – vəsaiti alana ilkin xəbərdarlıq edilmədən emitent bank tərəfindən dəyişdirilə və ya ləğv edilə bilən akkreditivdir.
***Çağrılmayan Akkreditiv*** – idxal edənin tapşırığı üzrə akkreditiv açan bank, xeyrinə akkreditiv qoyulan şəxs qarşısında akkreditivin şərtlərinə uyğun olaraq sənədlərin təqdim olunması şəraitində, ödəmələri icra edəcəyi barəsində öhdəlik götürdüyü beynəlxalq hesablaşma formasıdır.
***Çaparaq İnflyasiya*** – yüksək templərlə artan inflyasiya.
***Çarter (fraxt)*** – daşıma müqaviləsinin bir forması olub, bir tərəfin (fraxt olunan) digər tərəf (fraxt edən) qarşısında ödənişlə bir və ya bir neçə dəfə sərnişin baqajı və yükü daşıması barədə götürdüyü öhdəlikdir.
***Çarter Daşımaları*** – çarter müqavilələri ilə həyata keçirilən, qeyri-müntəzəm daşımalar.
***Çek*** – ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləndirilməyən yazılı sərəncamından ibarət orderli qiymətli kağızdır. Çek üzrə ödəmə çek sahibinin hesabına aparılıb. Çekin başqasına verilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1055-ci maddəsinə uyğun həyata keçirilə bilər.
***Çek Blankı*** – ardıcıl sıra nömrəsi ilə nömrələnmiş, xüsusi kağızda mətbəə üsulu ilə hazırlanmış çek formulyarı: çek kitabçasını təşkil edirlər.
***Çek Əmanəti*** – kommersiya bankında qoyulan əmanətdir. Bu cür əmanətlər aiddir: müddətsiz (tələb olunanadək), tələb edənə çeki yazmaq hüquqlu əmanətlər, əmanət hesabına vəsaitlərin avtomatik keçirilməsi hüququ ilə və s.
***Çek İnvestisiya Fondu*** – müvafiq qanunvericilik və normativlər əsasında əhalidən özəlləşdirmə çeklərini qəbul edən, əvəzində özəlləşdirilən müəssisənin səhmlərini təqdim edən investisiya fondu, ixtisaslaşmış maliyyə institutu.

***Çek-Kaunter*** – bank öz müştərisinin hesabında olan pul vəsaitlərini bu və ya digər məqsədlər üçün istifadə etdiyinə görə ona təqdim etdiyi qəbz, çek.
***Çek Kitabçası*** – çek hesabının sahibinə bank tərəfindən verilən, adətən 25 vərəqlik kitab şəklində bağlanmış çek formulyarları, çeklərin blankları.
***Çeklərin Registri*** – yazılmış çeklərin ilkin qeydiyyat kitabıdır. Bu kitab pul ödənişləri jurnalını əvəz edir.
***Çentizimo*** – İtaliyada xırda monet. Çentizimo=1\100 İtaliya lirəsi.
***Çeşid*** – istehsalatda hazırlanan və ya satışda olan məhsulların, malların, xidmətlərin tərkibi, çeşidi, növlərinin məcmusu.
***Çetrum*** – Butanda xırda monet. 1 çetrum=1\100 rupi.
***Çevik İqtisadi Siyasət*** – dövlətin, müəssisənin, firmanın həyat tərzidir.
***Çevik İstehsal Sistemləri*** – bir növ məhsul istehsalından başqasına tez keçmək qabiliyyətinə malik olan istehsal vasitələrinin məcmusudur.
***Çevik Kapital*** – asanlıqla əvəz edilə bilən kapital.
***Çevik Qiymət*** – kontrakt bağlanarkən müəyyən edilən, lakin əmtəənin göndərildiyi vaxt onun bazar qiymətinin dəyişməsindən asılı olaraq yenidən baxılan qiymətdir.
***Çevik Tarif*** – milli və xarici əmtəələrin qiymətlərinin tarazlaşdırılması üçün istifadə edilən gömrük tarifi.
***Çevik Valyuta Məzənnəsi*** – valyuta bazarında fəaliyyət göstərən bazar amilləri ilə müəyyən olunan valyuta məzənnəsi. Çevik məzənnəni çox vaxt üzən adlandırırlar.
***Çəkili Qablaşdırma*** – malın çəkisinin qabaqcadan müəyyən edilmiş partiyalara bölünməsi, bu porsiyanın həcmi.
***Çərçivə Alətləri*** – Mərkəzi Bank tərəfindən həyata keçirilən bir günlük repo (vəsaitlərin cəlb olunması aləti) və bir günlük əks-repo (vəsaitlərin yerləşdirilməsi aləti) əməliyyatlarıdır. Bir qayda olaraq çərçivə alətləri üzrə əməliyyatlar bankların təşəbbüsü ilə müəyyən olunmuş faiz dərəcələri ilə aparılır.
***Çərçivə Müqavilə*** – müqavilə işlərinin yerinə yetirilmə prosesində sonrakı dəqiqləşdirmələrə ehtiyacı olan razılaşmanın əsas

konturlarını və şərtlərini əks etdirən müqavilədir.

***Çıxarış*** – sənədin bir hissəsinin əks etdirilməsi, məsələn, müştərinin bank hesabından çıxarışı müəyyən hesabın tarixi vəziyyətini göstərir.

***Çıxış Qiyməti*** – alıcının almağa razı olduğu ən yüksək, yaxud saıcının öz malının hərrac satışına razı olduğu ən aşağı qiymət; elə qiymətdir ki, satıcı malı o qiymətdən aşağı satmağa razı deyil, yaxud o qiymət ki, alıcı onu ödəməyə razıdır.

***Çıxış Məhdudiyyətləri*** – ölkə rezidentləri xarici investorlar arasında yerli maliyyə aktivlərinin xarici aktivlərə dəyişdirilmə imkanlarını azaldır. Həmçinin, yerli rezidentlərin xarici borclarını qaytarmalarının da qarşısını ala bilər.

***Çıxış Yerinin Gömrükxanası*** – yükün gömrük tranziti prosedurası ilə daşınmasının başlandığı çıxış ölkəsinin gömrüyü.

***Çox Zəruri Tələbatlar*** – insanların çox vacib, lazımlı tələbatları və ehtiyaclarıdır, onlar ödənilmədən insanlar ötüşə bilməzlər.

***Çoxişlənən Mallar*** – kütləvi tələbat və aşağı keyfiyyətli, aşağı əyarlı malın xarakteristikası.

***Çoxluq Qərarı Maddəsi*** – istiqraz müqaviləsinin bir hissəsi olub, istiqraz sahiblərinin əksəriyyətinin razılığı olduğunda və azlığın razılıq verməməsinə baxmayaraq borca yenidən baxılmasına imkan yaradır.

***Çoxtərəfli Klirinq*** – bir sıra ölkə hökumətləri arasında qarşılıqlı tələblərin onların mərkəzi bankları vasitəsilə qarşılıqlı hesabaalınması haqqında bağlanmış müqavilədir.

***Çoxtərəfli Müqavilə*** – iki tərəfdən çox tərəflər arasında bağlana müqavilədir.

***Çoxtərəfli Sövdələşmə*** – iki və daha çox subyektlərin iradəsi üzrə və hər bir iştirakçının sərbəst tərəf kimi razılığı ilə baş verən sövdələşmədir. Çoxtərəfli sövdələşmənin əsas növü yeni təsərrüfat yaradılması barədə təsis müqaviləsidir.

***Çon*** – KXDR və Cənubi Koreyada xırda monet. 1çon=1\100 vona.

# – D –

***Dağınıq Bazar*** – kiçik istehlakçıların üstünlük təşkil etdiyi bazar.
***Daxili Audit*** – müəssisə, idarə və səhmdarların illik yığıncaqlarına tabe olan şəxslərin rəhbərliyi altında müəssisə və idarənin maliyyə vəziyyətinin xüsusi peşəkar audit orqanları tərəfindən həyata keçirilən yoxlamadır.
***Daxili Bazar*** – ölkə daxilində, onun hüdudlarında fəaliyyət göstərən bazar.
***Daxili Borclar*** – hökumətin, milli valyuta ilə göstərilmiş, hüquqi və fiziki şəxslər qarşısındakı borc öhdəlikləridir.
***Daxili Dönərlik*** – xarici valyutanın milli valyutaya mübadiləsi və əksinə, ölkə daxilində alqı-satqısı.
***Daxili Dövlət Borcu*** – Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc.
***Daxili Dövriyyə*** – daxili təsərrüfat, daxili zavod, pul ifadəsində hesablanmış müəssisə, firma daxilində maddi resursların və pul vəsaitlərinin illik dövriyyəsi.
***Daxili Gəlirlilik (rentabellik) Səviyyəsi (norması)*** – investisiya layihələrinin qiymətləndirilməsi zamanı istifadə olunan smeta gəlirliyinin göstəricisidir.
***Daxili Xəbərdarlıq*** – müştərinin həyata keçirdiyi əməliyyatları davam etdirməsi üçün hesabında yetərincə vəsait olmaması haqqında broker tərəfindən xəbərdarlıq edilməsi.
***Daxili İdarəetmə Alışı*** – şirkətin rəhbərliyinin və\və ya icraçı direktorlarının mövcud səhmdarlardan şirkət üzrə nəzarət paketini alması.
***Daxili İnvestisiya*** – ölkə daxili maliyyə mənbələri, yəni yerli investorlar tərəfindən yatırılan investisiya.
***Daxili İstiqraz*** – adətən daxili bazara buraxılmış istiqraz vərəqələri üzrə dövlət borc öhdəlikləri.
***Daxili Klirinq*** – bir ölkə daxilində çeklə tədiyyələrin qarşılıqlı hesaba alınması.

***Daxili Lizinq*** – subyektləri (lizinq təqdim edən, vasitəçi, icarədar və s.) bir dövlətin rezidentləri olan lizinq münasibəti.
***Daxili Maliyyə Nəzarəti*** – dövlət tərəfindən maliyyə fondlarının yaradılması və istifadəsi üzrə maliyyə münasibətlərinin məcmusu.
***Daxili Veksel*** – yalnız bir ölkənin ərazisində tədavüldə olan veksel.
***Daimi və Dəyişən Xərclər*** – bütünlükdə mallara və ya xidmətlərə aid edilə bilməyən, malların hazırlanması və xidmətlərin göstərilməsi prosesində itirilən xərclərdir.
***Daimi Maraq Anlayışı*** – mühasibat uçotunun fundamental anlayışlarından biri olub, biznesin kəsilməsi üçün görünən ilkin şərtlər yoxdursa, onun yaxın gələcəkdə davam etdirilməsi deməkdir.
***Daimi Məsrəflər*** – iş fəallığının və ya istehsalın həcminin dəyişməsindən asılı olaraq, müəyyən vaxt ərzində nisbətən sabit qalan xərclərdir.
***Damğa*** – əşyanın, əmtəənin mənsubiyyətini, sıra sayının, istehsal ilinin və istehsalçının, həmçinin məhsulun qanuni əyara və əyar nəzarəti tələblərinə uyğunluğunu təsbit etmək məqsədi ilə onun üzərinə vurulmuş nişan, qeyd.
***Damno*** – ***1)*** pulun nominal və məzənnə dəyəri arasındakı fərqdir; ***2)*** kredit təşkilatlarının veksel komissiyasına məlumatların inkassası üzrə çəkdiyi xərclərdir.
***Dar Bazar*** – aşağıdakıların baş verdiyi bazar durumu: ***1)*** qiymətlərin cüzi enmə meyli şəraitində əqdlərin azsaylı olması; ***2)*** əqdlərin olmaması və qiymətlərin enməsi.
***Daşıma*** – yüklərin, sərnişinlərin və baqajların bir göndərmə məntəqəsindən təyinat məntəqəsinə göndərilməsidir.
***Daşıma Müqaviləsi*** – daşıyıcının, ona etibar edilmiş yükü təyinat məntəqəsinə çatdırmaq və yük sahibinə vermək üzrə öhdəlik götürməsi barədə müqavilədir.
***Daşımaların Təşkili Barədə Müqavilə*** – sistematik yükdaşımaları həyata keçirmək üçün daşıyıcı ilə yükdaşıyan arasında bağlanan müqavilədir.
***Daşınar Əmlak*** – daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalardır. Daşınar əşyalara, bir yerdən başqa yerə aparıla bilən və

ya özü yeriyə bilən şeylər (heyvanlar və s.), habelə qiymətli kağızlar, patentlər, əmtəə nişanları və müəlliflik hüquqları aid edilir. (AR MM 135-ci maddə)

***Daşınmaz Əmlak*** – torpaq, əkin sahəsi, habelə, fiziki və hüquqi şəxslərin mülkiyyətindəki torpaq üzərində olan və onunla sıx əlaqədə olan digər əmlaklardır (torpaq sahəsi, yeraltı sərvətlərin olduğu ərazi, xüsusiləşdirilmiş su obyektləri, çoxillik əkmələr, meşə sahəsi, binalar, tikililər).

***Daşınmaz Əmlak və Avadanlıqlar*** – təsərrüfat fəaliyyəti prosesində istifadə olunan uzunmüddətli aktivlərdir (torpaq, binalar, maşın və avadanlıqlar).

***Daşınmaz Əmlakın Dövlət Qeydiyyatı*** – mülkiyyət hüququ və digər daşınmaz əmlaka əşya hüququ, bu hüquqların yaranması, məhdudiyyətləri, ötürülməsi və dayandırılması ədliyyə orqanlarında vahid dövlət qeydiyyatından keçməlidir: a) mülkiyyət hüququ b) təsərrüfatın aparılması hüququ c) operativ idarəetmə hüququ ç) ömürlük irsi sahiblik hüququ d) daimi istifadə hüququ e) ipoteka. Servitut və digər hüquqlar.

***Daşınmaz Əmlakın Satışı Müqaviləsi*** – satıcının torpaq sahəsi, bina, qurğu, mənzil və digər daşınmaz əşyaları alıcının mülkiyyətinə verəcəyi öhdəliyini əks etdirən alqı-satqı müqaviləsidir. Daşınmaz əmlakın satış müqaviləsi yazılı formada, tərəflərin imzaladığı bir sənədin tərtib olunması ilə həyata keçirilir.

***Data-Veksel*** – verildiyi, təqdim edildiyi zaman üzərində konkret ödəniş müddəti göstərilən veksel.

***"Daun-Tik"*** – əvvəlkinə nisbətdə aşağı qiymətə (büdcəyə) malik yeni müqavilə, razılaşma.

***Davalsiya Xammalı*** – sahibi üçün hazır məhsul istehsal etmək məqsədi ilə digər ölkədən gətirilən xammal.

***"Dayan" Sifarişi*** – müəyyən qiymətə çatdıqda qiymətli kağızın alqısına və ya satqısına dair brokerə verilən sifariş.

***"Dayan-Zərər" Sifarişi ("dayan" əmri, "dayan-itki" sifarişi)*** – qiymətli kağızın alışı və ya satışını bazar qiyməti müəyyən qiymətə çatdıqdan sonra həyata keçirmək haqqında brokerə verilən sifariş.

***Dayanıqlı Bazar*** – qiymətlərin cari səviyyəsini onların hər hansı

bir istiqamətdə ayın dəyişmə meylinin olmaması şəraitində təmin edən bazar.

***Dayanıqlı Bazar Konyunkturu*** – alqı-satqı əqdlərinin sabitliyi, qiymətlərin tarazlıq nöqtəsinə yaxın təsbitlənməsi ilə səciyyələnən bazar vəziyyəti.

***Dayanıqlı Passivlər*** – müəssisəyə məxsus olmayan, lakin daimi onun istifadəsində, onun təsərrüfat dövriyyəsində olan və ona görə də öz vəsaitinə bərabərləşdirilmiş dövriyyə vəsaiti.

***Dayanıqlı Pul Tədavülü*** – pul vəsaitlərinin tədavülünün mal, əmtəə və pul kütləsinin uyğunluğu ilə, tədavüldə pul tədavülü qanunu ilə tələb edilən miqdarda pulların olması ilə xarakterizə edilən vəziyyətdir.

***Dayanıqlı Valyuta*** – sabit kursa malik dayanıqlı, güclü valyuta.

***Daym*** – ABŞ-da xırda monet. 1 daym=10 sent=1\10 ABŞ dolları.

***DDP – "rüsumu ödəməklə təhvil"*** – satıcının, malı alıcının anbarına təhvil verənə qədər olan bütün xərcləri özü ödəməsidir.

***DDU – "rüsumu ödəmədən təhvil"*** – satıcının, malı alıcının anbarına çatdırana qədər olan bütün xərcləri özünün ödəməsidir. Bu zaman idxal xərclərini alıcı ödəyir.

***Debentura*** – gömrük orqanları tərəfindən gömrük rüsumlarının ödəyicilərə geri qaytarılmasını təsdiq edən şəhadətnamə.

***Debet*** – mühasibat hesabatının sol tərəfini göstərmək üçün istifadə olunan mühasibat terminidir. Debet-aktiv hesablardakı pul vəsaitlərinin artmasını, passiv üçün azalmasını xarakterizə edir.

***Debet Borc*** – kreditin qaytarılmaması nəticəsində yaranan borc.

***Debet Kartı*** – sahibinə bankda olan cari hesabındakı vəsait həcmində ödəniş etməyə imkan verən plastik kart.

***Debet-Nota*** – müxtəlif hesablaşmalar zamanı bir tərəfin digər tərəfə öhdəlik müddətinin başa çatdığı təqdirdə vəsaitin debet hesabına köçürülməsi barəsində tapşırığını əks etdirən göndəriş.

***Debet Memorandumu – 1)*** satıcının, alıcını xəbərdarlıq etmək üçün istifadə etdiyi sənəd olub, həmin alıcıya müvafiq alış hesabının debetləşdiyini bildirir; ***2)*** bankın öz əmanətçisinə, onun hesabındakı pulların azalması barədə (məsələn, bank xidmətləri üçün vəsait çıxıldıqda) məlumat verdiyi sənəddir.

***Debet Saldosu*** – hesabın debeti üzrə yekun məbləğlərin kreditlə müqayisədə artıq olmasını bildirən mühasibat termini.
***Debetli Balans*** – alıcının brokerdən aldığı kredit əsasında əldə etdiyi əmtəə və ya qiymətli kağızlar əks olunmuş marja hesabı hissəsi.
***Debitor*** – müəssisəyə borcu olan fiziki və ya hüquqi şəxsdir.
***Debitorlar*** – alınmış mallara (iş, xidmət) görə vəsaitləri ödəməyən şəxslərdir.
***Debitor Borcları*** – ***1)*** kredit verilməsi ilə əlaqədar yaranan və alınması olan hesablardır; ***2)*** müəssisə və ya idarələrlə hüquqi və fiziki şəxslər arasında, qarşılıqlı təsərrüfat əlaqələri nəticəsində yaranmış və onlara çatası borcların toplusudur.
***Debitor Borclarının Dövriyyə Müddəti Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$X = DB / Z$$

Burada, X – debitor borclarının dövriyyə müddəti əmsalı, DB – debitor borcları, Z – bir günlük orta satışlar.
***Debitor Borclarının Dövriyyəsi*** – satışdan əldə olunan illik gəlirin debitor borclarının son saldo kəmiyyətinə nisbətini əks etdirən debitor borcları dövriyyəsinin miqdarıdır.
***Debitor Borclarının Dövriyyəsi Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$D = S / DB$$

Burada, D – debitor borclarının dövriyyəsi əmsalı, S – satış, DB – debitor borcları.
***Deburs*** – iqtisadi subyektin fəaliyyəti zamanı qarşılaşdığı aşağı məbləğli əlavə xərclər.
***Defisit*** – maliyyə resurslarının, pul vəsaitlərinin və s.-nin lazım olan, yaxud proqnozlaşdırılan səviyyədə olmaması, yəni çatışmazlığı.
***Deflyasiya*** – qiymətlərin ümumi səviyyəsinin aşağı düşməsi (inflyasiyanın əks prosesi) və nəticədə pulun dəyərinin artması prosesidir.
***Deflyator*** – iqtisadi göstəriciləri pul ifadəsində baza dövrü ilə müqayisə etmək üçün istifadə olunan əmsal. Kəmiyyət baxımından

deflyator qiymət indeksinə bərabərdir.
***Defolt*** – borc alanın nəzərdə tutulan müddətdə öz borcunu ödəyə bilməməsi haqqında xəbərdarlıq etməsi.
***Defolter*** – pul, yaxud borc öhdəliklərindən qismən və ya tam şəkildə imtina edən, yəni defolt həyata keçirən iqtisadi subyekt.
***DEK – "bərədən təhvil"*** – satıcının malı gömrük baxışından keçirdikdən sonra, əvvəlcədən razılaşdırılmış bərədə alıcıya təhvil verməsidir.
***Dekholder*** – birjada brokerlə müştəri arasında vasitəçilik xidməti göstərən şəxs.
***Deklarant*** – gömrük sərhədindən keçən malları gömrük rəsmiləşdirilməsi üçün bəyan edən şəxsdir.
***Deklarasiya*** – hər hansı məsələ barəsində təqdim edilən rəsmi məlumat, bəyannamə.
***Dekort*** – əmtəənin güzəştli qiymətlə satılması.
***Dekret*** – ali hökumət orqanının qərarı.
***Dekuvert*** – sığortalanan əmlakın dəyəri ilə sığorta ödənişləri arasındakı fərq.
***Deqradasiya –1)*** İqtisadi subyektin (dövlətin, müəssisənin və s.-nin) maliyyə durumunun pisləşməsi, müflisləşməsi, tənəzzülü və s. ***2)*** Məhsulun ilkin keyfiyyətinin tədricən aşağı düşməsi, itirilməsi.
***Deqressiya*** – aşağı həcmdə gəlirlərə malik fiziki şəxslərə və aşağı həcmdə mənfəətə malik hüquqi şəxslərə aşağı vergi dərəcələrinin tətbiq edilməsinə əsaslanan proporsional vergiqoyma.
***Delfi Üsulu*** – bir qrup mütəxəssis tərəfindən aparılan zehni hücum prosesində qərarların generasiyasına və ekspert qiymətləndirmələrindən çıxış edərək, ən yaxşı qərarın seçilməsinə əsaslanan qərarların tez axtarılması metodu.
***Delistinq*** – birjanın və ya kompaniyanın qərarı ilə səhmin birja siyahısından çıxarılmasıdır ki, bu da listinq üstünlüklərinin ləğvi deməkdir. Delistinq – səhmin olmadığı halda, kompaniyanın iflası və ya aktivlərsiz qaldığı vaxtda, kompaniya listinq barədə razılaşmanı pozduqda və yerləşdiriləcək səhmlərin miqdarı cüzi olduqda aparılır.
***Delkredere*** – sövdələşmənin icrasına görə üçüncü şəxslə,

komitentin maraqları naminə və onun hesabına, komissiyaçının öz adından bağladığı zəmanətdir.
***Delta*** – baza aktivinin qiymətinin dəyişməsi nəticəsində derivativ alətinin qiymətinin nə qədər dəyişəcəyini əks etdirən göstərici.
***Delta Hedcinq*** – opsion mövqeyinin deltasına mütənasib şəkildə əsas alətlərin alışı və ya satışı ilə riskləri sığortalamaq üçün opsion sahibi tərəfindən istifadə edilən metoddur.
***Demarketinq*** – marketinqdə, mallara olan tələbatın, mövcud resurslar şəraitində onların istehsalı imkanlarının aşan səviyyəyə artımı ilə şərtləndirilən, davranış vəziyyəti və xəttidir.
***Demerrec*** – dəniz daşımaları əməliyyatları üçün müqavilədə nəzərdə tutulmuş vaxtdan gec gəminin saxlanmasına görə, daşıyıcıya fraxt edənin ödədiyi pul mükafatıdır.
***Demonetizasiya*** – nəcib metalların, hər şeydən əvvəl qızıl və gümüşün pul funksiyalarını itirməsi, kredit pullardan bank biletlərindən, nağdsız pullardan, çeklərdən geniş istifadə olunması ilə əlaqədar olaraq onlardan pul kimi istifadə olunmasının məhdudlaşdırılmasıdır.
***Demonetləşmə*** – nəcib metalların pul funksiyasını itirməsidir.
***Demonopolizasiya*** – mal bazarlarında rəqabətin inkişafı üçün lazımi şəraitin yaradılması və mal istehsalı konsentrasiyasının azaldılmasıdır.
***Dempinq*** – bir ölkənin istehsal etdiyi əmtəəsini öz ölkəsindəkinə nisbətən digər ölkənin ərazisində ucuz qiymətə satması.
***Denominasiya*** – köhnə pul nişanlarının qəbul edilmiş nisbət qaydasında yenisi ilə əvəz edilməsi, pul tədavülünün qaydaya salınması və haqq-hesabın asanlaşdırılması məqsədilə milli pul vahidinin iriləşdirilməsidir.
***Departament*** – bəzi ölkələrdə dövlət idarəsinin bir formasıdır, Fransada inzibati ərazi bölgüsüdür.
***Depo*** – bank termini olub, qiymətli kağızların və sərvətlərin kredit idarələrinə qorunmağa verilməsidir.
***Deponent*** – pul vəsaitinin, yaxud qiymətlilərin banka və ya kredit təşkilatına saxlanca verilməsi. Depozitdən fərqli olaraq burada həmin saxlanca görə haqq ödənilmir. Məs., şəxs kassadan əmək

haqqısını almadıqda müəyyən müddətdən sonra həmin məbləğ bankda sözügedən şəxsin saxlancına keçirilir.

***Deport – 1)*** Qiymətli kağızın, yaxud valyutanın məzənnə üzrə dəyəri ilə qarşılıqlı razılaşma əsasında vaxtından öncə ödəniş edilən dəyəri arasında fərq. ***2)*** Birja möhtəkirləri tərəfindən qiymətli kağızlar bazarında məzənnə mənfəəti əldə etmək məqsədi ilə qiymətli kağız məzənnələrinin aşağı salınması istiqamətində aparılan birja əməliyyatı.

***Depozit*** – müəyyən məqsədlə saxlanmaq üçün bank və ya başqa kredit idarələrinə verilən pul və ya qiymətli kağız.

***Depozit Bankı*** – bankların etibarlılıq səviyyəsinin kifayət qədər aşağı olduğu bir sıra dövlətlərdə Mərkəzi Bankın təqdim etdiyi xüsusi sertifikat əsasında əhalidən depozitlər cəlb etmək hüququ olan kommersiya bankı.

***Depozit Faizi*** – bankın, yaxud digər depozitarinin cəlb etdiyi depozitə görə depozitara ödədiyi faiz məbləği.

***Depozit Resursları – 1)*** Bank səviyyəsində: banka iqtisadi subyektlər tərəfindən yatırılan bütün növ depozitlərin (əmanətlərin) ümumi həcmi. Başqa sözlə bankın depozit portfeli. ***2)*** Makro iqtisadi səviyyədə: ölkədə bank sisteminə qoyulan bütün növ depozitlərin (əmanətlərin) ümumi həcmi.

***Depozit Sertifikatı*** – bank və ya digər maliyyə institutuna depozit (əmanət) qoyuluşuna görə qoyulmuş vəsaitin geri ödəniləcəyi tarixi və faiz dərəcəsini göstərən müqavilə üzrə müştəriyə təqdim olunan sənəd (qəbz).

***Depozit Valyuta*** – yığım fondlarında və hesablarında saxlanılan valyuta, yaxud bank sənədləri.

***Depozitari – 1)*** Depozit qoyulan, yəni depoziti qəbul edən tərəf. ***2)*** Qiymətli kağızlar bazarında depozitar fəaliyyəti həyata keçirən peşəkar birja iştirakçısı.

***Depozitari Fəaliyyəti*** – Qiymətli kağızlar bazarında qiymətli kağızların və ya onların sertifikatlarının saxlanması, yaxud uçotu və qiymətli kağızlarla bağlı hüquqların bir subyektdən digərinə keçməsi üzrə maliyyə xidmətlərinin göstərilməsi.

***Depozitari Müqaviləsi*** – Qiymətli kağızlar bazarında depozitari

fəaliyyəti prosesində depozitari və deponent arasında münasibətləri tənzimləyən müqavilə.

***Depozitor*** – depoziti qoyan, təqdim edən subyekt, yaxud depozit kimi qoyulan pul vəsaitinin və digər qiymətlilərin sahibi.

***Depressiya*** – iqtisadi tənəzzül prosesidir.

***Deputant*** – əməkhaqqı ödənişini qismən və ya tam həcmdə natural formada alan fiziki şəxs.

***Derivat*** – bilavasitə mal-materialın, əmtəənin alqı-satqısı üçün deyil, qiymətli kağızların tədavülü əsasında maliyyə münasibətlərinin daşıyıcısı kimi dövriyyəyə buraxılan törəmə maliyyə aləti (opsion, forvard, fyuçers və s.).

***Desentralizasiya*** – zaman keçdikcə idarəetmə funksiyalarının bir hissəsinin mərkəzi hökumət orqanlarından yerli idarəetmə orqanlarına – bələdiyyələrə ötürülməsi.

***DES – "gəmidən təhvil"*** – satıcının malı gömrük baxışından keçirmədən gəmi bortunda alıcıya təhvil verməsidir.

***Determinizm*** – sosial-iqtisadi və digər hadisə və proseslərin səbəbiyyət şərtlənməsi, onların qanunauyğunluqları haqqında təlim.

***Devalvasiya*** – milli valyutanın xarici valyutaya nəzərən məzənnəsinin ucuzlaşdırılmasıdır.

***Deviz*** – beynəlxalq hesablaşmalarda istifadə edilən ödəniş vasitələri.

***Devizion Valyuta Siyasəti*** – valyuta intervensiyası və valyuta məhdudiyyətlərinin köməyi ilə xarici valyutanın bilavasitə alış-satışı vasitəsi ilə həyata keçirilən valyuta məzənnəsinin tənzimlənməsi sistemidir.

***Dezinflyasiya*** – qiymətlərin artımı prosesini səngitmək üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemidir. O cümlədən Mərkəzi Bankın pul siyasətinin sərtləşdirilməsi dezinflyasiya tədbirlərinə aiddir.

***Dezinformasiya*** – məlumatlandırılan şəxsi çaşdırmaq məqsədilə bilərəkdən səhv təhrif olunmuş yalan məlumatları verməkdir.

***Dezinteqrasiya*** – bütöv bir sistemin ayrı-ayrı hissələrə ayrılması, dağılması, vahid sistem daxilində əlaqələrin pozulmasıdır.

***Dezintermediasiya* – *1)*** Qiymətli kağızlar bazarında faiz dərəcələrinin artdığı şəraitdə fiziki və hüquqi şəxslər tərəfindən bank depozitlərinin geri götürülməsi. ***2)*** Bankların, yaxud digər kredit təşkilatlarının birbaşa emitentə çevrildikcə qiymətli kağızlar bazarında vasitəçilik fəaliyyətindən imtina etməsi, uzaqlaşması.

***Dezinvestisiya*** **–** kapitalın azalması prosesidir.

***Dəbbə Pulu*** – müqavilələr və digər öhdəliklərin gecikdirilməsi zamanı tətbiq olunan cərimədir.

***Dəfinə*** **–** qiymətli metalların dövlətə, yaxud özəl şəxslərə məxsus sikkə, külçə, zərgərlik məmulatları və b. Şəklində yığımı.

***Dəfolunmaz Qüvvələr*** – məsuliyyətdən azad edən fövqəladə qarşısı alına bilməyən hadisələrdir.

***Dəqiq Faiz*** **–** ilin uzunluğunun bank işində olduğu kimi 360 gün deyil, 365 gün olmaqla hesablanan faiz ödəməsi, faiz dərəcəsi.

***Dəniz Liqası (3 dəniz mili)*** – ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür. Bu ölçü 5,56 km-ə bərabərdir.

***Dəniz Sığortası*** **–** gəminin, yükün və fraxtın məruz qaldığı təhlükə və təsadüflərlə bağlı risklərdən, dəniz gəmiçiliyi iştirakçılarının əmlak maraqlarının sığorta mühafizəsini təmin edən bütün sığorta növləri.

***Dərəcə*** **–** hər hansı dəyərə və ya həcmə nisbətdə müəyyən olunan faiz ölçüsü.

***Dəst Veksel*** **–** bir və daha çox surətə (dublikata) malik veksel.

***Dəyər, Sığorta və Fraxt (SİF)*** – satıcının əmtəənin çatdırılma nöqtəsinə qədər bütün xərclərini ödəməli olduğunu ifadə edən ticarət termini. Əmtəələrin dəniz ticarətində istifadə olunur.

***Dəyərin Əmək Nəzəriyyəsi*** – siyasi iqtisadın klassik məktəbi çərçivəsində yaradılmış nəzəriyyə olub, özündə malın dəyərinin və ya qiymətinin onun istehsalına sərf olunmuş əməyin əsasında müəyyənləşdirməyi ehtiva edir.

***Dəyərlərin Bankda Saxlanması*** – saxlama müqaviləsinin bir növü olub, bankın qiymətli materialları və daş qaşları, əntiq malları saxlamaq üçün qəbul etməsidir.

***Dəyişən Xərclər*** – buraxılan məhsulun həcmindən birbaşa asılı olan xərclərdir.

***Dəyişən Qiymət*** – istehsalına uzunmüddət tələb olunan məhsula qoyulan qiymətdir.
***Dəyişkən Büdcə*** – bir neçə ili (adətən beş ili) əhatə edən və sürüşmə prinsipi əsasında hər dəfə bir illik müddətinə uzadılan büdcə.
***Dəyişkənlik İndeksi*** – texniki təhlildə istifadə edilir. Hər bir verilmiş zaman müddətində orta qiymətin dinamikasını ölçən bir trendə riayət edən təhlildir.
***Differensial Gömrük Rüsumu*** – müxtəlif ölkələrdən idxal edilən, yaxud ilin müxtəlif vaxtlarında ixrac edilən eyni əmtəə üzrə müxtəlif dərəcələri nəzərdə tutan rüsum növü.
***Differensial Renta*** – torpaq rentasının bir növü. Torpağın yaxşılaşdırılmasına çəkilən xərclər, yəni torpağa qoyulan kapitalın nəticəsində torpaqdan əldə edilən mənfəətin (rentanın) artması.
***Differensiasiya*** – ***1)*** fyuçers sövdələşməsinin bağlandığı günlə hesablaşma günü arasındakı qiymət fərqidir; ***2)*** fyuçers müqaviləsinin ləğvi zamanı hesablanan gəlir və ya itkidir.
***Differensiasiya Edilməmiş Marketinq*** – marketinqdə bir vəziyyətdir, bu halda firma bir məhsulu bazarın bütün sektorlarına, seqmentlərinə yerləşdirir.
***Differensiasiya Edilmiş Xərclər*** – istehsalın həcminin kiçik olması ilə bağlı olan əlavə, artım, genişlənmə xərcləri.
***Differensiya, Fərq*** – hər hansı dəyişkən kəmiyyətin qeyd olunmuş vaxtlar arasında dəyişməsidir.
***Digər Birbaşa Xərclər*** – malların hazırlanması, xidmətlərin göstərilməsi və ya sexin işinin təmin olunması nəticəsində çəkilən başqa xərclərdir.
***Diler*** – birja əqdlərinin müəyyənləşdirilmiş qaydada öz adından, öz hesabına bağlanmasını həyata keçirən və sonradan onu birjada satmaqla məşğul olan birja vasitəçisidir.
***Dilinq*** – ***1)*** İnternet, telefon, teleks və digər rabitə vasitələri ilə bankların, yaxud diler fəaliyyəti ilə məşğul olan müəssisələrin maliyyə alətləri ilə bağlı həyata keçirdikləri əməliyyatlar. ***2)*** Bu əməliyyatların həyata keçirildiyi yer, fiziki məkan.
***Dimayz-Çarter*** – gəmi sahibinin gəmini icarə müqaviləsinin

şərtinə uyğun olaraq heyətsiz fraxtedənə verdiyi müqavilə növüdür.
***Dinar*** – Yaşın Şərqin və Afrikanın ərəb ölkələrinin milli pul vahidi. Dinar ölkələri aşağıdakılardır: İraq, Küveyt, Əlcəzair, İordaniya, Sudan, Tunis, Bəhreyn.
***Direktiv*** – yuxarı instansiyanın, idarəetmə orqanının rəhbər göstərişidir.
***Dirhəm – 1)*** Birləşmiş Ərəb Əmirliklərinin və Mərakeşin milli pul vahidi. 1Mərakeş dirhəmi=100 santimo; 1BƏƏ dirhəmi=100 firs. ***2)*** Küveytdə, İordaniyada və Liviyada xırda monet.
***Diskont*** – İstehsalçı tərəfindən istehlakçı üçün edilən, elan olunmuş preyskurant qiymətinin azaldılması. Sığortada müəyyən vaxt ərzində sığorta hadisəsinin baş verməsinə imkan verməyən sığorta etdirənlər diskontdan istifadə edə bilərlər.
***Diskont Dərəcəsi*** – mərkəzi bank tərəfindən kommersiya banklarına verilən qısa müddətli borcun faiz dərəcəsi.
***Diskont Gəlirliyi*** – diskontlu borc qiymətli kağızların gəlirliyi.
***Diskont Pəncərəsi*** – kommersiya banklarının Mərkəzi Bankdan borclanma mexanizmi. Mərkəzi Bank bu mexanizm vasitəsilə kommersiya banklarına qısamüddətli borc verərək onların likvidlik problemini aradan qaldırır.
***Diskont Veksel*** – üzərində göstərilən məbləğdən, yəni nominaldan aşağı məbləğlə təqdim edilən, geri alındığı zaman isə nominalla ödənilən bank vekseli.
***Diskontant*** – veksel uçotu əməliyyatları üzrə tərəflərdən biri olan, vaxtından əvvəl veksel realizasiyası sövdələşməsini həyata keçirən – veksel saxlayandır.
***Diskonter*** – veksel üzrə əməliyyatın tərəflərdən biri olub, vekseldən ötrü vaxtından əvvəl ödənişi həyata keçirəndir.
***Diskont Valyuta Siyasəti*** – investisiyaların hərəkətini tənzimləmək və ödəmə öhdəliklərini balanslaşdırmaq üçün, faizin uçot stavkasından istifadə üzrə iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemidir.
***Diskresion (ixtiyar) Hesab*** – müştəri ilə razılaşdırmadan əməliyyatlar apara biləcək müştəri hesabı.
***Diskresion (ixtiyar) Sifariş*** – brokerə əməliyyatı nə vaxt və hansı

qiymətə yerinə yetirməsi seçimini etmək hüququnu verən sifariş.

***Diskresiya Xərcləri*** – hökumət orqanlarının qanunda nəzərdə tutulmayan xərcləridir.

***Diskriminasiya*** – malın mənşə ölkəsindən asılı olaraq, idxal mallarına tətbiq olunan tədbirlər.

***Dispaç*** – müqavilə üzrə dəniz yükdaşımalarında daha tez yükləmə və boşaltmalara görə, gəmi sahibinin fraxtedənə ödədiyi mükafatdır.

***Dispaşa – 1)*** ümumi qəza üzrə itkilərin hesablanması və onların gəmi, fraxt və yüklər arasında dəyərlərinə uyğun paylanmasıdır; ***2)*** gəmi qəzasında dəymiş ziyanın hesablanmasına əsas olan xüsusi sənəd.

***Dispaşer*** – sığorta ödənişinin verilməsi haqqında iddianın təmin olunması qaydasını razılaşdıran və araşdırma aparan şəxs.

***Dispozisiya*** – iqtisadi fəaliyyətin hüquqi normaları və ya onların bir hissəsi.

***Distributor*** – regional bazarlarda müəyyən növ malların topdan alqısını və satışını həyata keçirən firma, sahibkar.

***Diversifikasiya*** – firmanın fəaliyyət sferasının müxtəlif çeşidli məhsulların istehsalını və ya müxtəlif bazarları əlavə etməsidir.

***Divident*** – səhmdarlara ödənən gəlirdir.

***Divident Dərəcəsi*** – qiymətli kağızın nominal dəyərinə nisbətən faizlə ifadə olunmuş gəlirin həcmi.

***Divident Diskontlaşdırma Modeli*** – şirkətin səhminin qiymətinin gələcəkdə gözlənilən dividentlərin diskont faiz dərəcəsi istifadə etməklə cari dəyərinin hesablanması üsulu.

***Dividentin Gəlirliyi*** – illik dividentlərin səhmin qiymətinə olan nisbətidir.

***Dividentin Ötürülməsi*** – səhmdarlara səhmlər üzrə gəlirlərin bu və ya digər səbəbdən ödənilməməsi.

***Dividentlər Üzrə Borclar*** – faktiki öhdəlik növüdür.

***Dividentlərin Avtomatik Təkrar (yenidən) İnvestisiyası Planı*** – fondun səhmdarları və mülkiyyətçiləri tərəfindən divident ödəyicisinin ödədiyi dividentlərin avtomatik olaraq həmin şirkətin səhmlərinin alınmasına yönəldilməsi sxemidir.

***Dizajio*** – qiymətli kağızların birja sövdələşməsi zamanı onların məzənnəsinin nominaldan aşağı kənarlaşması.
***Dizayn*** – sənaye məmulatlarının, maddi mühitin bədii layihələndirilməsi.
***Dolama*** – broker tərəfindən özünün komissiya haqqını artırmaq məqsədi ilə müştərinin hesabına həddindən artıq fəal sövdələşmələr aparılması.
***Dolayı Xərclər*** – malların hazırlanması, xidmətlərin göstərilməsi və ya sexin işinin təmin olunması prosesində xərclənən, lakin bütünlüklə malın, xidmətin və ya sexin xərclərinə aid edilməyən məsrəflərdir.
***Dolayı İdxal*** – idxal edilən maşınlarda və avadanlıqda istifadə edilmiş hissələrin, yaxud yarımfabrikatların idxalı.
***Dolayı İnvestisiya*** – bilavasitə istehsal obyektinə deyil, maliyyə alətlərinə, qiymətli kağızlara yatırılan investisiya.
***Dolayı Kotirovka*** – daxili valyutanın bir vahidinin mübadilə olunduğu xarici valyuta vahidinin miqdarını göstərən terminidir.
***Dolayı Vergilər*** – əmtəənin və xidmətin qiymətindən tutulan vergilər; qismən və ya tamamilə əmtəənin dəyərinə köçürülür.
***Doldurma*** – pul vəsaitlərinin, ehtiyatlarının həcminin bərpası, onların tələb olunan normaya çatdırılması, mövcud vəsaitlərin yerinin çatışmayanlarla doldurulması.
***Dollar*** – ABŞ, Fici, Yamayka, Sinqapur və Yeni Zelandiyanın pul vahididir.
***Dollar Dəyərinin Ortalanması*** – qiymətli kağızların dövri olaraq müəyyən olunmuş dollar dəyəri ilə alınması sistemi. Bu sistem çərçivəsində investorlar alış zamanı səhmlərin sayını deyil, daha çox dollar dəyərini nəzərə alırlar.
***Dollar Standartı*** – ABŞ dollarının əsas valyuta kimi qəbul edilməsi əsasında yaranmış valyuta sistemidir.
***Dollar Zonası*** – milli valyuta ilə yanaşı ABŞ dollarının qanuni dövriyyədə olduğu ölkələr qrupudur.
***Dollarlaşma*** – milli valyutaya paralel olaraq sərbəst dönərli valyutanın daxili pul tədavülündə yer almasıdır. Dollarlaşma səviyyəsini ölçmək üçün müxtəlif göstəricilərdən istifadə edilir.

Belə göstəriciyə misal olaraq xarici valyutada əmanət və depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisini göstərmək olar. Bu göstərici pulun yığım funksiyasının dollarlaşma səviyyəsini ölçməyə imkan verir. Dollarlaşma əvəzinə bəzi hallarda valyuta əvəzləməsi terminindən də istifadə edilir.

***Domisilləşmə*** – bank hesabına malik olan şəxsin banka onun veksellər üzrə tədiyyəni tənzimləmək hüququ verməsi əməliyyatı. Kommersiya vekseli üzrə tədiyyənin həyata keçirildiyi yer – tədiyyənin domisilidir (yaşayış yeridir).

***Dondurulma*** – aktivləri, əmək haqqının, kapitalların, hesabların bloklaşdırılması pul vəsaitlərinin istifadəsinə və idarə edilməsinə dövlət qadağası qoyulmasıdır.

***Donq*** – Vyetnamın milli pul vahidi. 1VND=10 xao=100 su

***Donor Ölkə*** – başqa ölkələrə yardım göstərən ölkə.

***Dotasiya*** – dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti.

***Dotasiyalı Ödəniş*** – dotasiyalar şəklində, yəni qaytarılmamaq şərti ilə edilən ödəniş.

***Dou Nəzəriyyəsi*** – Çarlz Dou tərəfindən irəli sürülən fond bazarının konyunkturasının səhmlərin qiymətlərinin dəyişməsi əsasında təhlili nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, indekslərin əvvəllər qeydə alınmış maksimal hədləri keçməsi bazarın yüksəlişə meylli olmasına, əksinə, indekslərin əvvəlllər qeydə alınmış minimal hədlərdən aşağı düşməsi isə bazarın enişə meylli olmasına dəlalət edir.

***Dou-Consun Sənaye İndeksi*** – Amerikanın fond bazarında qiymətin aparıcı indeksidir. Bu indeks ABŞ-ın 30 sənaye kompensasiyasının səhmlərinin kursuna görə hesablanır.

***"Dovşan" İstiqrazı*** – sahibinə alacağı faiz ödənişlərini həmin növdən olan əlavə istiqrazlara dəyişmək imkanı verən istiqraz.

***Dönərli*** – maliyyə alətinin ödəniş vasitəsi kimi digər tərəfə verilmə və ya satılma imkanı.

***Dönərli İmtiyazlı Səhmlər*** – təsbit edilmiş konversiya qiyməti ilə adi səhmlərə çevrilə bilən imtiyazlı səhm.

***Dönərli İstiqrazlar*** – emitent şirkətin başqa qiymətli kağızlarına, ilk növbədə də səhmlərinə dəyişdirilə bilən istiqrazlar.
***Dönərli Valyuta*** – bütün ölkələrin valyutalarına sərbəst mübadilə oluna bilən valyuta.
***Dönmə (keçid) Nöqtəsi*** – açıq investisiya şirkətinin səhmlərinin əldə edilməsində investora güzəşt imkanı verən investisiya məbləği.
***Dördüncü Dərəcəli Bazar*** – institutsional investorlar arasında kompüter şəbəkəsi üzərindən iri həcmli qiymətli kağızların alqı-satqı bazarı.
***Dövlət Aktı*** – dövlət orqanları tərəfindən qəbul edilmiş və buraxılmış rəsmi sənəd.
***Dövlət Aparatı*** – dövlət hakimiyyət və dövlət idarəetmə orqanları.
***Dövlət Bankı*** – dövlət orqanları tərəfindən idarə olunan və mülkiyyətçisi, sahibi dövlət olan bank.
***Dövlət Borcalması*** – Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri tərəfindən qaytarılma şərtləri borcverənlə razılaşdırılmaqla müəyyən müddətə maliyyə vəsaitinin cəlb edilməsi.
***Dövlət Borcu*** – Azərbaycan Respublikasının adından bağlanmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc.
***Dövlət Borcuna Xidmət*** – bilavasitə dövlət tərəfindən alınan, habelə dövlət zəmanəti ilə cəlb edilən borc vəsaitlərinin, yaxud digər öhdəliklərindən irəli gələn dövlət borclarının əsas və faiz məbləğlərinin qaytarılması.
***Dövlət Borcunun Geri Alınması*** – dövlət qiymətli kağızlarının sahiblərinə, onların ödəmə müddəti çatdıqda pul ödəməklə, dövlət borcunun miqdarını azaltma.
***Dövlət Borcunun İdarə Edilməsi*** – dövlət tərəfindən uyğun borc mənbələrinin tapılması, cəlb edilmiş vəsaitlərin səmərəli istifadə olunması, borcun qaytarılması məqsədi ilə pul fondlarının səfərbər edilməsi və son nəticədə qaytarılmasından ibarət tədbirlər kompleksi.
***Dövlət Borcunun Konsolidasiyası (birləşdirilməsi)*** – dövlət tərəfindən yerləşdirilmiş borc alətlərinin yenisi ilə əvəz edilməsi

üzrə həyata keçirilən dövlət borcunun idarə edilməsinin müstəsna metodlarından biri. Yəni, dövlət yeni qiymətli kağız emissiya etməklə bir neçə borc alətlərinin məcburi olaraq onunla əvəz edilməsini təmin edir.

***Dövlət Borcunun Konversiyası*** – dövlət borcu münasibətləri zamanı, kredit şərtlərinin, o cümlədən borc faizinin və ya borc müddətinin dəyişdirilməsi. Borc faizlərinin dəyişdirilməsi ***möhkəmləndirmə,*** faizlərin dəyişdirilməsi isə ***əvəzetmə*** adlanır.

***Dövlət Borcunun Limiti*** – bir maliyyə ili ərzində dövlətin daxili və xarici iqtisadi subyektlərdən cəlb etdiyi borc vəsaitlərinin həcminin müvafiq hökumət orqanı tərəfindən müəyyənləşdirilən yuxarı həddi.

***Dövlət Borcunun Prolonqasiyası*** – borcalanla kreditor arasında ikitərəfli razılaşma əsasında, yaxud birtərəfli qaydada borc müddətinin uzadılması.

***Dövlət Borcunun və Dövlət Zəmanətinin Reyestri*** – dövlət borcunun və dövlət zəmanətinin uçotu və idarə olunması məqsədi ilə Azərbaycan Respublikasının "Dövlət Borcu" haqqında qanunu ilə müəyyənləşdirilmiş qaydada aparılan reyestr.

***Dövlət Bölməsi*** – iqtisadiyyatın dövlət orqanları tərəfindən idarə edilən, dövlət mülkiyyətində olan hissəsi.

***Dövlət Büdcəsi*** – dövlətin funksiyalarının həyata keçirilməsi, ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli üçün maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etmək məqsədilə dövlətin müəyyən dövr üçün mərkəzləşdirilmiş gəlir və xərclər planı.

***Dövlət Büdcəsinin Hesabatı*** – qanunvericilikdə müəyyənləşdirilmiş dövr ərzində büdcə təşkilatlarının müvafiq icra hakimiyyəti orqanına və ölkənin qanunverici orqanına dövlət büdcəsinin icrası haqqında təqdim etdiyi hesabat.

***Dövlət Fiskal İnhisarı*** – dövlət büdcəsinin gəlirlərini artırmaq məqsədi ilə bəzi malların istehsalı və satışına (spirtli içkilər, tütün və s.) dövlətin tam, yaxud qismən inhisarı.

***Dövlət Ehtiyacları*** – ümummilli problemləri həll etmək sosial-iqtisadi, müdafiə, elmi-texniki, ekoloji və digər məqsədli

proqramları həyata keçirmək üçün AR-nın, mal, xidmət və məhsullara olan tələbatıdır.

***Dövlət Ehtiyatları*** – fövqəladə hallar zamanı ilkin ağır nəticələri aradan qaldırmaq üçün AR-nın xüsusi maddi ehtiyatlarıdır.

***Dövlət Əmlakının Özəlləşdirilməsi*** – "Dövlət Əmlakının Özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmiş qaydalara uyğun alıcıların mülkiyyətinə verilməsidir.

***Dövlət Əmlakının Özəlləşdirmə Üçün Açıq Elan Edilmə Anı*** – dövlət əmlakının özəlləşdirilməsi haqqında müvafiq icra hakimiyyəti orqanlarının qərar qəbul etdiyi vaxtdır.

***Dövlət Xəzinəsi*** – AR qanunvericiliyinə görə, heç bir dövlət müəssisəsinə və idarəsinə tabe olmayan, dövlət büdcəsi vəsaitləri və digər dövlət sərvətləridir.

***Dövlət İqtisadi Siyasəti*** – dövlət adından hökumətin ölkədə istehsal, bölüşdürmə, tədavül, istehlak, yığım. ixrac, idxal sahəsində apardığı əsas fəaliyyət xətti və tədbirlər məcmusu.

***Dövlət İqtisadi Subyekt Kimi*** – özündə iqtisadi hakimiyyəti cəmləşdirmiş, dövlət miqyasında iqtisadi qərarlar qəbul edən, dövlət əmlakının sərəncamçısı olan bütün orqanlar və şəxslər.

***Dövlət İstehlakı*** – dövlət aparatlarının, dövlət idarəetmə orqanlarının saxlanmasına, dövlət funksiyalarını həyata keçirməyə sərf edilən ümumi daxili məhsulun bir hissəsi.

***Dövlət İstiqrazları*** – dövlət tərəfindən kreditin alınma formasıdır.

***Dövlət Krediti*** – bir dövlətin digərinə verdiyi, habelə xarici və yerli hüquqi və fiziki şəxslərə verdiyi kreditdir.

***Dövlət Qısamüddətli İstiqrazları*** – AR-də büdcə kəsirinin maliyyələşdirilməsi və xəzinənin kassa icrasının təmin edilməsi məqsədi ilə hökumət tərəfindən borc öhdəlikli dövlət qiymətli kağızı.

***Dövlət Qiyməti*** – dövlət orqanları tərəfindən qoyulan qiymət.

***Dövlət Qiymətli Kağızları*** – dövlət adından dövlət orqanları və idarələri tərəfindən tədavülə buraxılan, habelə dövlət statusu verilmiş digər qiymətli kağızlar.

***Dövlət Maliyyəsi*** – dövlət tərəfindən maliyyə fondlarının

yaradılması və istifadəsi üzrə maliyyə münasibətlərinin məcmusu.

***Dövlət Müavinəti*** – dövlət büdcəsinin vəsaitləri hesabına və yaxud dövlət büdcədənkənar fondlar hesabına verilən müavinət.

***Dövlət Müəssisəsi*** – AR-nın qanunvericiliyinə uyğun olaraq dövlət əmlakını idarə etməyə vəkil edilən dövlət orqanları tərəfindən yaradılır. Dövlət müəssisəsinin əmlakı AR-nın dövlət mülkiyyətidir.

***Dövlət Müflisləşməsi*** – dövlətin qismən və ya tam şəkildə daxili və xarici borclar üzrə öhdəliklərdən imtina etməsidir.

***Dövlət Müqaviləsi*** – dövlət sifarişçisinin, dövlət ehtiyaclarını yerinə yetirmək üçün mal göndərən, xidmət göstərən və podratçılarla bağladığı müqavilədir.

***Dövlət Mülkiyyəti*** – AR-nın mülkiyyətində olan bütün əmlak (fiziki və hüquqi şəxslərin, habelə bələdiyyənin mülkiyyətində olan əmlak istisna olmaqla) dövlətin mülkiyyəti sayılır (AR MM.178-ci maddə).

***Dövlət Mülkiyyəti Hüququ*** – AR –da dövlət mülkiyyəti AR-nın mülkiyyətində olan əmlakdır.

***Dövlət Nəzarəti*** – qanunlara, normativ aktlara riayət edilməsinə, maliyyə-təsərrüfat fəaliyyətinin qanunauyğun aparılmasına, vergilərin ödənilməsinə dövlət orqanlarının nəzarəti.

***Dövlət Nizamlama Aktı*** – səlahiyyətli dövlət orqanlarının, təsərrüfat subyektlərinə və ya konkret subyektlərə ünvanlanmış və təsərrüfat fəaliyyətinin müəyyən edilmiş formada aparılması tələblərini əks etdirən göstərişləridir.

***Dövlət Özəlləşdirmə Opsionu*** – xarici investora dövlət əmlakının özəlləşdirilməsində dövlət özəlləşdirmə çeklərindən istifadə etmək hüququ verən, nağdsız formada buraxılan adlı qiymətli kağızdır.

***Dövlət Özəlləşdirmə Payı*** – dörd özəlləşdirmə çekindən ibarət, Azərbaycan Respublikasının 1997-ci il 1 yanvar tarixinə qeydiyyatda olan hər bir vətəndaşına dəyəri ödənilmədən paylanmış və çeklə özəlləşdirilən dövlət əmlakının orta hesabla 1\8000000 hissəsini ifadə edən adsız (təqdim edənə), nağd şəkildə buraxılan qiymətli kağızların məcmusudur.

***Dövlət Pensiya Fondu*** – müəssisə və təşkilatlar, sahibkarların

ayırmalarından yaradılan büdcədənkənar məqsədli fond.
***Dövlət Rentası*** – dövlət qiymətli kağızlarının müddətsiz növü.
***Dövlət Rüsumları*** – xüsusi səlahiyyətli orqanların verdiyi hüquqi mahiyyətə malik sənədlər üçün hüquqi və fiziki şəxslərin ödədiyi xüsusi yığımlardır.
***Dövlət Sığortası*** – sığortaçı subyekt kimi dövlətin (dövlət şirkətinin) çıxış etdiyi sığorta münasibətləri.
***Dövlət Sifarişi*** – müvafiq dövlət proqramına uyğun olaraq nəzərdə tutulmuş mal, xidmət və göndərmələrin həcmidir.
***Dövlət Sifarişçisi*** – dövlət sifarişini yerinə yetirmək məqsədilə, müvafiq məqsədli proqrama uyğun olaraq müəyyən səlahiyyətlər verilmiş və dövlət tərəfindən təyin edilmiş hüquqi fiquradır (təşkilatdır).
***Dövlət Standartı*** – mülkiyyət formasından asılı olmayaraq ölkədə fəaliyyət göstərən bütün müəssisə və təşkilatlar üçün məcburi şəkildə həyata keçirilən standartlardır.
***Dövlət Subsidiyaları*** – dövlət büdcəsindən yerli hakimiyyət orqanlarına, müəssisələrə, əhaliyə ayrılmış və qəti surətdə müəyyən məqsədlər üçün təxsis edilmiş pul vəsaitləri, müavinətlər, maliyyə yardımı.
***Dövlət Tədarükləri*** – ölkədə, yaxud xaricdə istehsal edilmiş malların və xidmətlərin bir hissəsidir.
***Dövlət Vergiləri*** – ölkənin vergi qanunvericiliyi ilə müəyyən edilən və ölkənin bütün ərazisində ödənilməli olan vergilər.
***Dövlət Vəsaiti*** – Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, dövlət tərəfindən bağlanmış beynəlxalq sazişlərə və müqavilələrə əsasən alınmış kreditlər, qrantlar, xarici yardımlar, büdcədən maliyyələşən xarici təşkilatların büdcədənkənar fondlarının vəsaiti və qanunvericiliklə dövlət vəsaitinə aid edilən digər vəsaitlər.
***Dövlət Yardımı*** – zəruri ehtiyacı olan vətəndaşlara dövlət köməyi.
***Dövlət Zəmanəti*** – əsas borcalan öz öhdəliklərinin yerinə yetirmədikdə onun zəmanət verilmiş öhdəliyi üzrə borcunun tam məbləğdə və ya qismən ödənilməsinə dair Azərbaycan Respublikasının öhdəliyi.

***Dövlət Vergi Xidməti*** – AR qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş vergiləri və digər məcburi yığımları, vaxtında və bütünlüklə müvafiq büdcəyə köçürülməsinə nəzarət edən vahid dövlət sistemidir.

***Dövlət Vergiləri*** – aşağıdakılardır: ***1)*** fiziki şəxslərin gəlir vergisi; ***2)*** hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatdan başqa); ***3)*** əlavə dəyər vergisi; ***4)*** aksizlər; ***5)*** hüquqi şəxslərin əmlak vergisi; ***6)*** hüquqi şəxslərin torpaq vergisi; ***7)*** tranzit yol vergisi; ***8)*** mədən vergisi (AR Vergi Məcəlləsi, 6-cı maddə).

***Dövlət Vəzifəsi*** – AR Konstitusiyasına uyğun olaraq yaradılmış, müvafiq dövlət orqanlarının səlahiyyətləri daxilində olan məsələlərin icrası ilə məşğul olan və onların yerinə yetirilməsinə görə məsuliyyət daşıyan vəzifələrdir.

***Dövlətin Antiinhisar Siyasəti*** – dövlətin inhisarçılığa qarşı həyata keçirdiyi məqsədli iqtisadi siyasət.

***Dövlətin Xeyrinə Maldan İmtina*** – gömrük rüsumları və vergiləri alınmadan, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən şəxsinin maldan imtina etməsindən ibarət gömrük rejimidir (AR Gömrük Məcəlləsi, 103-cü maddə).

***Dövlətin Konkret Nizamlama Aktı*** – səlahiyyətli dövlət orqanlarının, konkret subyektlərə ünvanlanmış və davranış qaydalarını əks etdirən müəyyən formaya salınmış göstərişləridir.

***Dövlətin Müflis Olması*** – xarici və daxili borclar üzrə ödəmələrdən dövlətin tam, yaxud qismən imtina etməsi.

***Dövlətin Normativ Nizamlama Aktı*** – səlahiyyətli dövlət orqanlarının, qeyri-müəyyən sayda subyektlərə ünvanlanmış və davranış qaydalarını əks etdirən müəyyənləşdirilmiş formaya salınmış göstərişləridir.

***Dövretmə*** – əmtəələrin və pulun tədavül sahəsindəki onların bir şəxsdən digərinə keçməsi, mübadiləsi, yeniləşməsi ilə müşayiət olunan daimi hərəkət prosesi.

***Dövri İnventarizasiya Metodu*** – mal dövriyyəsinin sistematik analitik uçotunun aparıldığı, mal ehtiyatlarının kvatifikasiya üsuludur. Bu üsul malların fiziki sayılmasıdır ki, bu da

inventarizasiya adlanır.

***Dövri Səhmlər*** – bazar dəyəri iqtisadi dövrlərdən asılı olan səhmlər. Belə səhmlərin bazar dəyərinin hərəkəti işgüzar dövrə uyğun olur. Dövrün yüksəliş mərhələsində artır, tənəzzül mərhələsində isə azalır.

***Dövri Vəsaitlərin Kvotası*** – bütün dövriyyə vəsaitlərinin ümumi məbləğinin qısamüddətli öhdəliklərə olan nisbətidir.

***Dövriyyə*** – iqtisadiyyatda pul vəsaitlərinin və digər aktivlərin təkrar istehsal prosesləri nəticəsində hərəkəti.

***Dövriyyə Kapitalı*** – gündəlik əməliyyatların aparılması üçün kifayət edən kapitaldır.

***Dövriyyə Norması*** – satışın illik həcminin il ərzində orta hesabla anbarda saxlanan malın həcminə olan nisbətidir.

***Dövriyyə Sənədləri*** – hüquqların ya sadə təqdimat, ya da indossamentin əlavə edildiyi təqdimat şəklində baş verdiyi pul sənədləri toplusu.

***Dövriyyə Siyahıları*** – mal-material dəyərlərinin dövriyyə qeydiyyatı üçün nəzərdə tutulmuş mühasibat uçotu sənədidir.

***Dövriyyə Vəsaitləri*** – bir il ərzində, yaxud adi (normal) əməliyyat dövründə (bu dövr bir ildən çox olmamaqla) istehsalat, tədavül və istehlak sahələrində iştirakı nəzərdə tutulan pul vəsaitləri və digər aktivlərdir. Bunlara kassada və bankda olan pul vəsaitləri, tez satılan qiymətli kağızlar, debitor borcları, mal ehtiyatları, xammal, materiallar, bitməmiş istehsalat, hazır məhsul, gələcək dövrün xərclərinin cari hissəsi aiddir.

***Dövriyyə Vəsaitlərinin Balansı*** – müəyyən müddət ərzində müəssisəyə daxil olan pul vəsaitləri ilə müəssisənin xərcləri arasındakı nisbəti ifadə edən maliyyə cədvəli (balans).

***Dövriyyədə Olan Nağd Pul*** – Mərkəzi Bank tərəfindən dövriyyəyə buraxılmış nağd pullardır. Buraya bank sistemindən kənarda olan nağd pulla yanaşı, Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan nağd pullar da daxildir.

***Dövriyyədənkənar (uzunmüddətli) Aktivlər*** – bir neçə il istifadəsi nəzərdə tutulan faydalı xassələrdir. Bunlara əsas vəsaitlər, kapital, yaxud başqa maliyyə qoyuluşları, qeyri-maddi aktivlər aiddir.

***Dövriyyədənkənar Aktivlərin Qalıq Dəyəri*** – dövriyyədən kənar aktivlərin amortizasiya olunmayan hissəsinin dəyəri olub, ilkin dəyərlə toplanmış məsrəflərin fərqi kimi müəyyən edilir.
***Draft*** – veksel məbləğinin üçüncü tərəfə ödənilməsi barəsində trassant tərəfindən trassata təqdim olunan yazılı tapşırıq.
***Dual Borc*** – iki valyutada verilən kreditdir; faizlərin bir valyutada ödəndiyi, əsas kapitalın isə digər valyutada qayıtdığı vəziyyətdir.
***Dublikat*** – əsli ilə eyni hüquqi gücə malik olan, hər hansı bir sənədin ikinci və ya üçüncü nüsxəsidir.
***Duopoliya*** – müəyyən mal və xidmət sahələrində aparıcı olan iki satıcının arasında qiymətlər, satış bazarı, kvotalar və digər işlər barədə heç bir razılığın olmadığı bazardır.
***Dünya Bankları Qrupu (DB)*** – üzv ölkələrin iqtisadi maliyyə islahatlarına yardımçı olmaq, xarici maliyyə qaynaqlarından daxil olan investisiyaları təsbit edərək, üzv ölkələrdə investisiya çatışmazlığı şəraitində vəziyyəti tənzimləmək, ölkələrin xarici dövlət borcu mexanizmini normal hala gətirmək və bu yöndə meydana çıxan əsaslı çətinlikləri aradan qaldırmaq, ölkələr üçün daha sərfəli investisiya mənbələrini müəyyən etmək və beynəlxalq iqtisadi tarazlığı təmin etmək, üzv ölkələrdə yerli şirkətlərin maliyyə mənbələrinə yaranan ehtiyacının aradan qaldırılmasına şərait yaratmaq məqsədi ilə BMT tərəfindən yaradılmış ixtisaslaşmış beynəlxalq maliyyə institutu.
***Dünya Bazarı*** – istehsal faktorlarının beynəlxalq bölgüsünün bazası əsasında mövcud olan ölkələrarası mal-pul münasibətlərinin dayanıqlı sferasıdır.
***Dünya Bazarı Konyunkturu*** – dünya əmtəə bazarlarında satış şərtləri, tələbin. təklifin, qiymətlərin səviyyəsi, onların dəyişmə meylləri.
***Dünya Kredit Bazarı*** – faiz ödənilməsi və qaytarılması şərti ilə ölkələr arasında borc kapitalının beynəlxalq hərəkətinin spesifik sferasıdır.
***Dünya Qiyməti*** – dünya bazarında satılan mal vahidinin beynəlxalq dəyərinin pul ifadəsi, məsələn, neftin bir barreli, buğdanın bir tonu.

***Dünya Pulu*** – ümumi universal ödəmə vasitəsi kimi qəbul edilmiş pullardır.
***Dünya Təsərrüfatı*** – razılaşdırılmış qaydalarla fəaliyyət göstərən, dünyanın müxtəlif ölkələrinin bir-birinə bağlı və qarşılıqlı əlaqədə olan təsərrüfatları, müxtəlif ölkələrin təsərrüfatlarının vahid dünya sisteminə ardıcıl birləşməsi.
***Dürasiya*** – maliyyə axınları və qiymətli kağızlar üzrə ödənişlərin orta bazar müddəti. Dürasiya ödəniş riskini və qiymətli kağızların faiz riskini xarakterizə edir.
***Düşən Qiymət*** – bazarın enən konyunkturuna xas olan qiymət.
***Düşmüş Mələklər*** – buraxılış zamanı investisiya dərəcəsindən yüksək reytinqə malik olan, lakin sonradan reytinqi əhəmiyyətli dərəcədə düşən istiqrazlar.
***Düzgün Olmayan Reklam*** – Aşağıdakılara münasibətdə dəqiq məlumatları olmadığı reklamdır: ***1)*** mənşə ölkəsi, miqdarı, dövlət standartlarına uyğunluq nişanı və sertifikat nişanı, istehlak xüsusiyyətləri, təyinatı, hazırlanması, tətbiqi şərtləri, hazırlanma tarixi və qaydaları, tərkibi, malın səciyyəsi ilə bağlı; ***2)*** bazarda malın miqdarı, göstərilən həcmdə onun əldə olunması imkanları, vaxt müddəti və yeri ilə əlaqədar; ***3)*** malların xidməti və təmiri, çatdırılması, dəyişdirilməsi, qaytarılması ilə əlaqədar; ***4)*** qarantiya öhdəlikləri, xidmət müddətləri, yararlılıq müddətləri və s. ilə bağlı. Düzgün olmayan reklamlar yolverilməzdir.

# – E –

***Edilmiş (Həyata Keçirilmiş) Xərclər*** – planlaşdırılmış və planlaşdırılmamış xərclərin ümumi həcmi.

***Edilmiş (Həyata Keçirilmiş) İnvestisiyalar*** – iqtisadiyyata qoyulmuş, planlaşdırılmış və planlaşdırılmamış investisiyaların ümumi həcmi.

***Effektiv Faiz Dərəcəsi*** – Maliyyə alətinin gözlənilən ömrü və ya uyğun olan zaman, daha qısa dövr ərzində qiymətləndirilmiş gələcək nağd pul ödəmələrini və ya daxilolmalarını maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin xalis balans dəyərinə qədər diskontlaşdıran faiz dərəcəsidir.

***Effektiv Faiz Metodu*** – maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinin hesablanması və faiz gəliri və ya faiz xərclərinin aid olduqları dövrlər üzrə bölüşdürülməsi metodudur.

***Effektiv Valyuta Məzənnəsi*** – müəyyən ölkənin valyutasının ticarət və kapitalın hərəkəti üzrə əsas tərəfdaş ölkələrinin valyutalarının daxil olduğu valyuta səbətinə nəzərən hesablanmış orta çəkili məzənnəsi.

***Ehtiyac Meyarı*** – əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan hədd.

***Ehtiyat*** – hər hansı aktivin balans dəyərini azaltmaq və ya gözlənilən borcları örtmək üçün müəyyənləşdirilən və gəlirdən çıxılan vəsaitdir.

***Ehtiyat Avadanlığı*** – istehsal şərtlərinə görə zəruri texnoloji ehtiyatda olan avadanlıq. Yalnız sazlanmış və işə hazır olan avadanlıq ehtiyatda saxlanıla bilər.

***Ehtiyat Əmsalı*** – ehtiyat vəsaitlərinin həcminin dövriyyə kapitalına olan nisbəti.

***Ehtiyat Fondu*** – kommersiya banklarının məcburi qaydada yaradılan və bir qayda olaraq müəyyən edilmiş normativlər

əsasında il ərzində, yaxud illik mühasibat hesabatı bankın təsisçilərinin ümumi yığıncağı tərəfindən təsdiq edildikdən sonra mənfəətdən ayırmalar hesabına yaranan fonddur.

***Ehtiyat Norması*** – kommersiya bankının Mərkəzi Bankda yaxud özündə saxlamalı olduğu, müəyyən faiz şəklindəki depozit öhdəlikləri normativi.

***Ehtiyat Tələbləri*** – banklara qoyulmuş depozitlərin müəyyən bir hissəsinin bu bankların Mərkəzi Bankdakı hesablarında saxlanması tələbi. Mərkəzi Bank ehtiyat tələblərini artırıb-azaltmaqla ölkədə pul təklifini tənzimləyir.

***Ehtiyat Valyutası*** – beynəlxalq hesablaşmaların keçirilməsi məqsədilə ölkələrin Mərkəzi Banklarında pul vəsaitləri ehtiyatlarının yaradılmasında istifadə edilən dünya üzrə tanınan valyuta.

***Ehtiyatlar*** – hazırkı vaxtda istehsal prosesində istifadə edilməyən, sonralar istifadə edilməsi məqsədi ilə anbarlarda və digər yerlərdə saxlanılan xammal, material, yanacaq, yarımfabrikatlar, hazır məhsul şəklində olan material qiymətliləri və dövriyyə vəsaitləridir.

***Ehtiyatların Dönərliyi*** – müəssisə ehtiyatlarının likvidlik göstəricisidir. Ehtiyatların dönərliliyi satışdan gəlirlərlə ehtiyat hissələrinin nisbəti olub, müəyyən müddətdə ehtiyatların dönərlilik miqdarının sayını əks etdirir.

***Ekologiya*** – təbii ehtiyatların iqtisadi istifadəsini, onların mühafizəsini və bərpasını daxil etməklə insanı əhatə edən təbii mühitlə onun münasibəti.

***Ekonom – 1)*** qənaətkar, təsərrüfatçı adam; ***2)*** təsərrüfat müdiri

***Ekonometriya*** – iqtisad elminin bir qolu olub iqtisadi proseslərin və qanunların riyazi metod və qanunauyğunluqlarla işlənməsi, yaxud izahı. Y.Timbergen, R.Friş, V.Leontyev və digərləri ekonometriyanın baniləri hesab olunur.

***Ekonomiks*** – iqtisadi proseslərin nəzəri əsaslarını öyrənən iqtisadi nəzəriyyə, iqtisad elminin bir hissəsi. “Ekonomiks” termini geniş istifadəyə Britaniya iqtisadçı alimi A.Marşall tərəfindən gətirilmişdir.

***Eks – Divident (“Dividentdən kənar” səhm)*** – divident almaq hüququ olmadan alınmış səhm. Səhm satıldıqda elan olunmuş divident üzrə hüququn səhmin satıcısında qalması.
***Ekspansiya*** – fəaliyyət dairəsinin genişlənməsi.
***Ekspeditor*** – üçüncü şəxslər vasitəsilə yüklərin ilkin yerindən təyinat yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir (AR MM.825-ci maddə).
***Ekspert*** – müəyyən edilmiş proqnoz vəzifəsi üzrə rəyin çıxarılması üçün tədqiqatlar aparılması, məsləhətlərin verilməsi, qərarların, rəylərin hazırlanması, ekspertizanın aparılması üçün cəlb olunan müəyyən sahənin təcrübəli ixtisaslı mütəxəssisi.
***Eksponat*** – sərgidə seyr, tamaşa etmək üçün yaxud satışdan qabaq tanış olmaq üçün müəyyən yerə qoyulmuş, çıxardılmış əşya.
***Ekspress – İnformasiya*** – əsasən elm və texnikanın hansısa sahəsində ən mühüm kəşflər, ixtiralar haqda bildirişlər, referatları əhatə edən operativ informasiya – biblioqrafiya nəşri.
***Eksponensial Sürüşən Orta*** – son vaxtlardakı qiymət hərəkətinə daha çox çəki verən sürüşən orta çəki.
***Eksport*** – satış, istehlak və ya digər məqsədlər üçün əmtəələrin, kapitalın, ölkə ərazisindən, sərhədindən xaricə aparılması, çıxarılması.
***Ekstensiv*** – keyfiyyət dəyişikliyi ilə deyil, yalnız kəmiyyətlə bağlı olan dəyişiklik, artım, inkişaf.
***Ekstensiv İnkişaf Yolu*** – iqtisadi istehsal həcminin, iqtisadi artımın miqdar amilləri: əlavə iş qüvvəsinin cəlb edilməsi, əkin sahələrinin genişləndirilməsi, xammal hasilatının artırılması, yeni obyektlərin tikilməsi hesabına artırılması üsuludur.
***“Ekstra”*** – hərracda iştirak edən müştərilərin ehtiyaclarına uyğunlaşdırılmış valyuta opsionu; uğursuzluq və kontraktın alınmadığı halda bank mükafatın 50%-ə qədərini qaytarır.
***Ekstra Divident*** – şirkətin ödədiyi adi dividentə səhm və ya nağd pul formasında əlavə olunan divident.
***Ekstrapolyasiya*** – faiz dərəcələri və ya digər dəyişənlərin məlum qiymətləri üzrə zaman sıralarına əsasən dəyişmə meyllərinin müəyyən edilməsi prosesi.

***Ekuele*** – Ekvatorial Qvineyanın milli pul vahidi. 1 ekuele = 100 sentimo

***Ekvivalent*** – eyni əhəmiyyətli, eyni bərabərlikdə olan məhsul.

***Ekvivalent Əvəzləmə*** – bir kredit əməliyyatının başqasına dəyişdirilməsi faktı, məsələn, cari hesabın bağlanması və yeni hesabın açılması üçün saldonun təsdiq edilməsi.

***Ekyu*** – 1999-cu ilə qədər Avropa Valyuta sisteminin əsasını təşkil edən ödəmə vahidi. EKYU 1999-cu ildə Avro ilə əvəz edilmişdir.

***Ekzogen Göstəricilər*** – proqnoz hesablamaları prosesində qiymətləri modelə hazır şəkildə daxil edilən göstəricilərdir.

***Ekzotik (qeyri-adi)*** – qeyri-adi və ya mürəkkəb maliyyə alətlərini təsvir etmək üçün istifadə edilən termin.

***Ekzotik Valyuta*** – məhdud hallarda istifadə edilən xarici valyuta. Məsələn, Azərbaycanda Küveyt dinarı və ya Kanada dolları ekzotik valyuta kimi qəbul olunur.

***Elan Edilmiş Səhmlər*** – şirkətin artıq yerləşdirilmiş müəyyən tipli səhmlərinə əlavə olaraq buraxa bildiyi səhmlərin son miqdarı.

***Elastik tələb*** – qiymətlərin dəyişməsinə güclü hissiyatlı olan tələb.

***Elastiklik*** – bir dəyişənin başqa bir dəyişənə faiz dəyişkənliyi nisbətində ifadə olunmuş ölçüsüdür.

***Elastiklik Əmsalı*** – iqtisadi göstəricinin onun asılı olduğu amillərə həssaslığını səciyyələndirən göstərici.

***Elektron Texnikasının İstismarı İlə Bağlı Risklərdən Sığorta*** – əmlal sığortası növü: sığorta olunan obyektlərin spesifikasının, onların elektronika ilə zəngin olmasını nəzərə almaqla maşınların xarab olmadan sığortasının standart şərtlərinə əsaslanır.

***Elektron Ticarət*** – elektron sistemdə aparılan ticarət.

***Elektron Ticarət Terminalı*** – satın alınan malın ödənilməsinin rəsmiləşdirilməsində avtorizasiyanı almaq üçün maqnit lentindən, yaxud plastik kartoçkanın çipindən informasiyanı tutuşdurub yoxlamaq üçün qurğu.

***Elmi İdarəetmə*** – əməyin elmi təşkilinə, sistemli təhlilə, qərarların qəbul edilməsinin elmi əsaslandırılmış üsullarına əsaslanan idarəetmədir.

***Elmi-Texniki İşlərə Müqavilə*** – podrat müqaviləsinin bir növü

olub, podratçının sifarişçinin tapşırığı ilə elmi tədqiqat işləri aparacağını öhdəsinə götürməsidir.
***Elmi – Texniki Tərəqqi*** – istehsal proseslərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, insanların tələbatlarının daha yaxşı ödənilməsi məqsədi ilə təsərrüfatda, istehsalda elm və texnologiyanın ən yeni nailliyyətlərinin tətbiqi.
***Embarqo*** – hər hansı bir ölkə ilə ticarətin tam və qismən qadağan olnmasıdır.
***Emblem*** – hər hansı bir anlayışın, yaxud ideyanın şərti simvolik təsviri; simvoldan fərqli olaraq anlayışın mahiyyətini əks etdirmir, yalnız ona işarə edir.
***E-menecer (elektron menecer)*** – həm internetdən interaktiv alqı-satqı xidmətləri göstərən, həm də ilkin yerləşdirmə anderraytinq proseslərində iştirak edən brokerlər.
***Emiqrasiya*** – əmək qabiliyyətli əhalinin daimi yaşayış üçün xaricə köçməsidir.
***Emissiya*** – mütün növ pul nişanlarının və qiymətli kağızların dövriyyəyə buraxılması. Pul emissiyasını ölkənin Mərkəzi Bankı həyata keçirir.
***Emissiya Bankı*** – pul nişanları – banknot buraxmaq hüququna lisenziyası olan bank təçkilatıdır.
***Emissiya Edildikdə*** – emissiyasına icazə verilmiş, lakin buraxılışı faktiki olaraq həyata keçirilməmiş qiymətli kağızlar üzrə bağlanan əqdlər.
***Emissiya Krediti*** – dövlətin hökuməti kreditləşdirdiyi bir formadır. Emissiya yolu ilə verilən krediti qaytarmaq barədə hökumət öhdəlik götürür.
***Emissiya Qiyməti*** – qiymətli kağızın ilkin bazarda yerləşdirildiyi qiyməti.
***Emissiya Qiymətli Kağızı*** – buraxılışlarla yerləşdirilən və qiymətli kağızın əldə edilməsi vaxtından asılı olmayaraq bu buraxılış daxilində hüquqlarının həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağız.
***Emissiya Prospekti*** – müəyyən qiymətli kağızın yeni buraxılışı zamanı qiymətli kağızlar bazarının buraxılışının tənzimlənməsi

üzrə səlahiyyətli quruma təqdim edilən, emitent və buraxılan qiymətli kağız haqqında məlumatlar əks olunan sənəd.

***Emitent*** – qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən qurum.

***Endirim*** – tələbi stimullaşdırmaq və ya rəqibləri bazardan sıxışdırıb çıxarmaq üçün malların və qiymətli kağızların satış qiymətinin müvəqqəti olaraq aşağı salınması.

***Endogen Göstəricilər*** – proqnoz hesablamaları prosesində modelin həlli nəticəsində qiymətləri hesablanan göstəricilərdir.

***Enerji Təchizatı Müqaviləsi*** – alqı-satqı müqaviləsinin bir növü olub, enerji təchizatı təşkilatının enerji şəbəkəsinə qoşulmuş obyektlərin enerji ilə təchiz olunması öhdəliyini üzərinə götürməsidir.

***Enən Tələb*** – əmtəə və xidmətlərə olan tələbin azalması.

***Enən Zirvələr*** – qiymətli kağız qiymətlərinin dəyişməsinin ziqzaqvari qrafiki.

***Enib – Qalxma (fluktuasiya) –1)*** Bazarda qiymətlərin və tələbin dövrü olaraq dəyişməsi; ***2)*** Valyutanın mübadilə məzənnəsinin dövrü olaraq dəyişməsi.

***Ere*** – Norveçdə, İsveçdə və Danimarkada xərda monet.

***Erqonomika*** – iş yerində insanın rahatlığını təmin edən, məhsuldarlığı artıran, enerji sərfini azaldan şəraitin yaradılması məqsədi ilə insanın davranışını, onun bədən hissələrinin hərəkətini öyrənən elm.

***Eskudo*** – 2002-ci ilə qədər Portuqaliyanın milli pul vahidi. 2002-ci ildə avro ilə əvəz olunmuşdur.

***Etalon*** – ölçü nümunəsi, müqayisə üçün nümunə.

***Etibar Edən*** – başqa tərəfə onun adından və onun hesabına tapşırıq əsasında müəyyən hüquqi hərəkətlər edən tərəfdir.

***Etibarlı İstiqraz*** – birinci dərəcəli və zəmanətli istiqrazlar (əsasən, dövlət istiqrazları və çox yüksək kredit reytinqinə malik olan və "Mavi fişka" adlanan şirkətlər tərəfindən buraxılan istiqrazlar).

***Etibarlıq*** – obyektlərin, malların tələb olunan xassələri saxlamaq, dayanmadan fəaliyyət göstərmək, verilmiş müddət ərzində nəzərdə tutulmuş funksiyaları yerinə yetirmək bacarığıdır.

***Etibarnamə*** – başqasını təmsil etmək hüququ verən sənəd – etibarnamə.

***Etibarsız Əqd*** – qanunvericilik aktlarının bilavasitə pozulması ilə bağlanmış, məhkəmənin qərarı ilə qanunsuz bilinmiş əqd.

***Etiket*** – ***1)*** ictimai yerdə, başqa şəxslərin yanında, onlarla ünsiyyətdə olduqda davranış qaydaları; ***2)*** malın adını və qiymətini, onun digər parametrlərini göstərməklə malı müşayiət edən yarlıq.

***Etiket Qiyməti*** – mala vurulmuş etiketdə, yarlıqda göstərilmiş pərakəndə qiymət.

***Etiraz Bəyanatı*** – bankın indossanta göndərdiyi ərizə olub, vekselin borclulara təqdim olunmasına baxmayaraq, axırıncının ondan imtina etməsini əks etdirir.

***Ev İşçisi*** – işi, əmək fəaliyyətini müəssisə ilə bağladığı müqaviləyə əsasən evdə yerinə yetirən şəxs.

***Ev Təsərrüfatı*** – iqtisadi fəaliyyətin üç əsas subyektindən biridir (dövlət, müəssisə, ev təsərrüfatı.

***Evalsiya*** – qiymətləndirmə, qiymətqoyma. Əmlakın, məhsulun və digər qiymətlilərin dəyərinin müəyyən edilməsi.

***Eyniləşdirmə*** – şəxsi nömrə, imza, kod, göstərici vasitəsilə bankın, bank müştərilərinin, müəssisənin, vergi ödəyicilərinin, sığorta olunan subyektin və s.-nin fərqləndirilməsi.

***Eyre*** – İslandiyada tədavüldə olan xırda monet. 1 eyre = 1\100 İslandiya kronası (İNR)

***Ezamiyyət*** – xidməti tapşırıqların daimi iş yerindən kənarda yerinə yetirilməsindən ötrü işçilərin göndərilməsi.

## – Ə –

***Ədalətli Dəyər*** – Aktivin bazar qiymətinin rasional və qərəzsiz formada hesablanması.
***Ədədi Əmtəə*** – pərakəndə ticarət şəbəkəsində satılan əmtəələrdir.
***Əhalinin Alıcılıq Qabiliyyəti*** – insanlarda olan pul vəsaitlərinə qiymət və tariflərin ölkədə formalaşmış səviyyəsi şərti ilə əhalinin ala bilmək qabiliyyətində olduğu əmtəə və xidmət kütləsi.
***Əhalinin Siyahıya Alınması*** – əhalinin sayı və tərkibi haqqında informasiyanın toplanması üzrə vaxtaşırı, yaxud birdəfəlik proses.
***Əhatə İndeksi*** – fond birjasında bir əməliyyat günü ərzində məzənnəsi artmış və azalmış qiymətli kağızların fərqinin ümumi qiymətli kağızların həcminə nisbəti.

$$İ = (M-N) / (M+N+T)$$

***İ*** – əhatə indeksi; ***M*** – əməliyyat günü ərzində məzənnəsi artmış qiymətli kağızlar; ***N*** – əməliyyat günü ərzində məzənnəsi enmiş qiymətli kağızların həcmi; ***T*** – məzənnəsi dəyişməmiş qiymətli kağızların həcmi.
***Əks Əlaqə (rabitə)*** – idarəetmə obyektinin vəziyyəti və onun idarəedici təsirə reaksiyası haqqındakı idarəetmə subyektinin qəbul etdiyi informasiyanı bildirən idarəetmə, kibernetika termini.
***Əks İstiqamətli İnvestor ("qəribə" investor)*** – müəyyən şəraitdə əksər investorların əksinə hərəkət edən investor.
***Əks Mövqe*** – qiymətli kağızların müəyyən bazar tələbinə uyğun olan təklifi, yaxud qiymətli kağızların müəyyən təklifinə uyğun olan tələb.
***Əks Reklam*** – yolverilməz reklamın təkzibi və onun doğurduğu nəticələri aradan qaldırmaq üçün yayılan reklamdır.
***Əks-Repo Müqaviləsi*** – müştərilər tərəfindən qiymətli kağızların emitentə satışı (Reponun açılması) və eyni zaman da emitent tərəfindən həmin qiymətli kağızları müştərilərə satmaq, müştərilərin isə onları emitentdən geri satın almaq öhdəliyini (Reponun bağlanması) rəsmiləşdirən müqavilə.
***Əqd*** – iki və daha çox iqtisadi subyektin, vətəndaşın, hüquqi şəxsin

alqı-satqı, əmlakın, pulun, qiymətli kağızların ötürülməsi, borc verilməsi, birgə istehsalın təşkil edilməsi, biznes əməliyyatlarının keçirilməsi, yaxud iqtisadi, ticari qarşılıqlı əlaqələrin başqa formaları ilə bağlı olan bəzi işlərin görülməsi, addımların atılması haqqında şifahi və yazılı müqaviləsi şəklindəki razılaşması.

***Əqd Limiti*** – hər bir əqd üzrə treyderlərin maksimal ticarət məbləği.

***Əla Məhsul, Mal*** – bir neçə il ərzində təsdiq edilmiş keyfiyyətlərə malik olan mal markası. Məsələn, əla şərab.

***Əlaqələndirilmiş, Rabitəli Kreditlər*** – verilməsi təkcə vaxtında qaytarılması və faizlərin ödənilməsi şərti ilə deyil, həmçinin kreditorun əlavə şərtləri ilə əlaqələndirilən kreditlər.

***Əlaqəli (aidiyyəti, afilə edilmiş) Şəxslər*** – şirkətin fəaliyyətinə təsir imkanı olan şəxslər. Bura direktorlar, icraçı direktorlar (rəhbərlər), səhmdarlar, mühüm iştirak payına malik olan şəxslər və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər kimi şəxslər daxildir.

***Əlavə Büdcə*** – büdcənin təsdiqindən sonra meydana çıxan xərclərə görə müvafiq qanunvericiliyə edilən əlavə.

***Əlavə Dəyər Vergisi*** – istehsal olunmuş əmtəələrin, işlərin və xidmətlərin satış zamanı yaranmış əlavə dəyərdən müvafiq büdcə həlqəsinə ödənilən vergi.

***Əlavə Dəyər Vergisi Üzrə Vergitutma Obyekti*** – AR Vergi Məcəlləsinə görə əlavə dəyər vergisi üzrə vergitutma obyekti aşağıdakı kimi müəyyənləşdirilir: “Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir.

***Əlavə Divident*** – adi dividentlərə əlavə olaraq şirkətin qiymətli kağızlar şəklində və ya nağd pulla ödədiyi divident.

***Əlavə Edilmiş Dəyər*** – əmtəə buraxılışı ilə aralıq istehlakı arasındakı, adətən istehlakçıların qiymətləri ilə müəyyən edilən hissəsi.

***Əlavə Xərclər*** – əsas istehsalatla bağlı olan, müvafiq müşayiətedici xərclər, məsrəflərdir.

***Əlavə Kapital*** – əlavə səhm emissiyası, yaxud onların məcmu

nominal dəyərindən artıq satışı hesabına əldə edilmiş kapital.
***Əlavə Məsuliyyətli Cəmiyyət*** – bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyan cəmiyyət.
***Əlavə Mükafat*** – sığortaçı tərəfindən, sığorta müqaviləsinə əlavə risklər və ya yüksək təhlükəli risklərin sığortası daxil edilməsinə görə ödənən əlavə sığorta üzvlük haqqıdır.
***Əlavə Olunmuş İqtisadi Dəyər*** – şirkətin mənfəətliyini ölçmək üçün geniş istifadə edilən göstəricilərdən biri olmaqla, vergi ödənişlərindən sonra əməliyyat mənfəətindən kapitalın ümumi dəyərinin çıxılması yolu ilə hesablanır.
***Əlavə Pul*** – xüsusi şəraitlə əlaqədar olaraq müəyyən edilmiş normativdən, tarif dərəcələrindən əlavə olaraq ödənən pul məbləğidir.
***Əlavə Sığorta Sistemi*** – sığortanın ilkin forması. Təbii fəlakətlər və bədbəxt hadisələr baş verdikdə qarşılıqlı yardım prinsipi əsasında və məhdud iştirakçı dairəsində həyata keçirilir.
***Əlavə Tədavül Xərcləri*** – istehsal prosesinin tədavül sferasında davam etməsi ilə əlaqədar xərclərdir, daha doğrusu, malların daşınması, əyər-əskiyinin düzəlməsi, qablaşdırılması ilə əlaqədar xərclərdir.
***Əlavə Təminat Tələbi*** – tədarük edildikdə tədarükün təmin edilməsi və marjanın əldə edilməsi məqsədi ilə pul vəsaitlərinin və ya qiymətli kağızların haqqında brokerin müştəriyə ünvanlanan tələbi.
***Əlavə Vəsait Tələbi*** – birjanın müəyyənləşdirdiyi səviyyədən aşağı düşdükdə marja hesabına əlavə vəsaitlər qoyulması haqqında tələb.
***Əlilliyə Görə Pensiya*** – "Vətəndaşların pensiya təminatı haqqında" AR qanununa görə "Əlilliyə görə pensiyalar, orqanizmin funksiyalarının pozulması ilə əlaqədar səhhətin pisləşməsi zamanı əmək qabiliyyətinin tam və ya qismən itirildiyi aşağıdakı hallarda təyin edilir: a) əmək zədəsi və ya peşə xəstəliyi; b) ümumi xəstəlik;

c) müddətli hərbi və ya alternativ xidmət vəzifələrini yerinə yetirərkən yaralanma, kontuziya, zədələnmə və ya cəbhədə olmaqla əlaqədar xəstələnmə, həmçinin müddətli hərbi xidmət və alternativ xidmət zamanı xəstələnmə.

***Əlverişli Bazar Konyunkturu*** – bazarda əmtəə və xidmətlərə fəal, kifayət qədər sabit tələbin olması, tələbin təklifi üstələməsi, ən çox təmsil olunan əmtəələrin qiymətlərinin qalxması ilə səciyyələnən bazar vəziyyəti.

***Əmanət Bankı*** – başlıca funksiyası əhalidə cəmlənən sərbəst pul vəsaitlərini depozitə cəlb etməkdən ibarət olan kommersiya bankı.

***Əmanət İstiqrazı*** – dövlət qeyri-bazar qiymətli kağız növü.

***Əmanət Kitabçası*** – əmanət bankının və digər bankların əmanətçiyə verdiyi sənəd.

***Əmanət Kvotası*** – əmanətlərin il ərzindəki artım məbləğinin əhalinin pul gəlirlərinə olan nisbəti.

***Əmanət Netto Faiz Dərəcəsi*** – illik faiz dərəcəsinin sığorta ödəmələri ehtiyatına ayrılan hissəsi.

***Əmanət Sertifikatları*** – pul vəsaitlərinin qoyuluşu haqqında əmanət bankının və ya b. kredit təşkilatının yazılı şəhadətnaməsi şəklidəki pul sənədləri.

***Əmanət Təşkilatları*** – əhalinin vəsaitlərini faizlərin ödənildiyi əmanət qoyuluşları şəklində cəlb edən maliyyə-kredit təşkilatları.

***Əmanət-Kredit Assosiasiyaları*** – əhalinin əmanətlərini səfərbər etməklə və yaşayış evlərinin tikintisini və alqısını uzunmüddətli kreditləşdirməklə məşğul olan kredit təşkilatı.

***Əmanətlər Üzrə Dövriyyə*** – müəyyən dövr ərzində əmanət hesablarına daxil olan vəsaitlərin və əmanətçilərin geri götürdüyü nağd və nağdsız formadakı vəsaitlərin cəmi.

***Əmanətlərin Orta Saxlanma Müddəti*** – əmanətlərin sabitliyini göstərir. İldəki günlərin sayının əmanətlərin dövriyyə sürətinə nisbəti kimi hesablanır.

***Əmək*** – insanın, insanların dərk edilmiş, enerjitutumlu, hamı tərəfindən məqsədəuyğun sayılan, səylərin göstərilməsini, işin görülməsini tələb edən fəaliyyəti, istehsalın dörd amilindən biri.

***Əmək Alətləri*** – insanın əmək obyektlərinə, predmetlərinə təsir

göstərdiyi istehsal vasitələri.

***Əmək Artıqlığı Regionu*** – əmək qabiliyyətli yaşda olan əhalinin artıqlığı müşahidə edilən region.

***Əmək Balansı*** – həm də əmək balansı adlanır və faktiki olaraq əmək ehtiyatlarını və ondan istifadəni əks etdirir.

***Əmək Bazarı*** – işçi qüvvəsinə tələb və təklifin formalaşdığı sfera.

***Əmək Haqqı*** – görülmüş işlərə, göstərilmiş xidmətlərə görə verilən haqdır, əməyə görə pul mükafatı, əməyin yaratdığı məhsulun dəyərinin bir hissəsidir, onun satışından olan gəlirdir, işçiyə onun işlədiyi müəssisə, idarə, yaxud başqa icarədar tərəfindən verilir.

***Əmək Haqqı Fondu*** – müəssisənin, təşkilatın işçi heyətinin əmək haqqı ödənişlərinin həyata keçirilməsi məqsədi ilə yaradılan daxili maliyyə fondu.

***Əmək Haqqı İndeksi*** – müəyyən müddət ərzində ölkədə işçilərin orta aylıq əmək haqqı səviyyəsinin dinamikasını (artımını, yaxud azalmasını) əks etdirən iqtisadi-statistik göstərici.

***Əmək Qabiliyyəti*** – insanın əmək əməliyyatlarını yerinə yetirmək, əmək fəaliyyətində iştirak etmək qabiliyyəti, insanın yaşı və səhhətinin vəziyyəti ilə müəyyən edilir.

***Əmək Qabiliyyətsizliyi*** – adamdan asılı olmayan səbəblər üzündən əmək fəaliyyətini həyata keçirməyin mümkünsüzlüyüdür.

***Əmək Məhsuldarlığı*** – əmək resurslarının, əmək amilinin istifadəsi səmərəliliyinin göstəricisi.

***Əmək Pensiyası*** – "Vətəndaşların pensiya təminatı haqqında" AR qanununa görə "qısa müddətli nəzərdə tutulmuş başqa şərtlərə əməl etməklə ictimai faydalı əməklə məşğul olan aşağıdakı şəxslərin pensiya almaq hüququ vardır: a) mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələrdə, idarələrdə, təşkilatlarda, kooperativlərdən üzvlük əsasında işləyənlər; b) fərdi əmək və sahibkarlıq fəaliyyəti, o cümlədən fərdi icarə ilə və ya kəndli təsərrüfatında məşğul olanlar; v) yaradıcılıq ittifaqlarının üzvləri, habelə yaradıcılıq ittifaqının üzvü olmayan digər yaradıcı şəxslər; q) dövlət sosial sığortasına düşən digər şəxslər və s.

***Əmək Resursları*** – iqtisadi fəal, əmək qabiliyyətli əhali, əhalinin əmək fəaliyyəti ilə məşğul olmaqdan ötrü fiziki və mənəvi

qabiliyyətlərə malik hissəsi.

***Əmək Şəraiti*** – işçinin əmək qabiliyyətinə və səhhətinə təsir edən amillərin cəmi, məsələn, istehsal –texniki, sanitariya – gigiyena, məişət amilləri.

***Əmək Tutumu*** – məhsul vahidinin istehsalına sərf edilən əmək məsrəfləri, iş vaxtı.

***Əmək Tutumu Əmsalı*** – istehsal edilmiş məhsul vahidinə əmək məsrəfləri.

***Əməliyyat Gəliri Marjası*** – aşağıdakı düsturla hesablanır:

$$ƏM = Ə / S \times 100 = (ÜG - ƏX) / S \times 100$$

Burada, ƏM – əməliyyat gəliri marjası, Ə – əməliyyat xərcləri, S – satış.

***Əməliyyat Gəlirləri*** – şirkətin əsas biznes əməliyyatlarından əldə olunan gəlir. Bu məbləğə firmanın investisiyalarından əldə olunan gəlirlər, faiz və vergi ödənişləri təsir etmir.

***Əməliyyat Xərcləri*** – hər hansı bir əməliyyat üzrə tərəf – müqabil axtarılması, danışıqlar aparılması, müqavilə bağlanması və onun həyata keçirilməsinin təmin olunması ilə əlaqədar xərclər.

***Əməliyyat Xərclərində Mümkün Artım Həddi*** – aşağıdakı düsturla hesablanır:

$$ƏXMAH = (SX - FM - V - AX - İŞX + ADG) / ƏX$$

Burada, ƏXMAH – əməliyyat xərclərində mümkün artım həddi, SX – satış əməliyyat xərcləri, FM – faiz məsrəfləri, V – vergilər, AX – ailə xərcləri, İŞX – iri şəxsi xərclər, ADG – ailənin digər gəliri, ƏX – əməliyyat xərcləri.

***Əməliyyat Xərclərinin Mümkün Maksimum Miqdarı*** – aşağıdakı desturla hesablanır:

$$X\ \$ = ƏX \times (1 + Z\%)$$

Burada, X – əməliyyat xərclərinin mümkün maksimum miqdarı, ƏX – əməliyyat xərcləri, Z – əməliyyat xərclərində mümkün artım həddi.

***Əməliyyat Lizinqi*** – lizinq şirkətinin öz məsuliyyəti hesabına, yəni riski şəxsən üzərinə götürməklə maşınları, avadanlıqları və s.-i istehsalçı subyektdən satın alaraq icarədara təqdim etməsindən ibarət lizinq forması.

***Əməliyyat Mənfəəti*** – ümumi mənfəət ilə əməliyyat xərcləri arasındakı fərq.
***Əməliyyat Mənfəətinin Marjası*** – müəyyən dövr ərzində şirkətin cari əməliyyatlarından əldə olunmuş gəlirlərinin həmin dövr üzrə ümumi gəlirlərinə olan nisbəti.
***Əməliyyata Görə Əlavə*** – hər hansı bir əməliyyatın aparılmasına görə edilən ödənişlər.
***Əmlak*** – hüquqi və fiziki şəxslərin sərəncamında, mülkiyyətində olan material qiymətlilər, aktivlər.
***Əmlak Dividenti*** – divident məbləği ilə ekvivalent dəyərə malik əmlakla ödənilən divident.
***Əmlak Sığortası*** – sığorta münasibətlərinin obyekti kimi müxtəlif əmlak növlərinin çıxış etdiyi sığorta sahəsi.
***Əmlak Vergisi*** – hüquqi və fiziki şəxslərin mülkiyyətində olan əmlakın dəyərinə görə alınan vergi.
***Əmlak Vergisi Üzrə Vergitutma Obyekti*** – AR Vergi Məcəlləsi əmlak vergisi üzrə vergitutma obyekti aşağıdakı müəyyən edir: "Vergitutma obyekti sayılır: rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və AR ərazisində yerləşən tikililərin və ya onların hissələrinin, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus avtomobil və özüyeriyən təkərli texnika, su və hava nəqliyyatı vasitələrinin dəyəri.
***Əmr*** – dövlət idarəetmə orqanı, dövlət təşkilatı, kommersiya təşkilatı rəhbərinin işçilər üçün məcburi olan təlimatları.
***Əmsal*** – iki eyni qaydada, daha çox pul ifadəsində hesablanmış göstəricinin nisbətindən ibarət olan göstərici, amil.
***Əmtəə*** – alqı-satqı, satıcı ilə alıcı arasındakı bazar münasibətləri obyekti.
***Əmtəə Birjası*** – müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını təşkil etmək məqsədi güdən hüquqi və (ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilat.
***Əmtəə Dövriyyəsi*** – əmtəələrin tədavül sahəsində pula mübadiləsi

və istehsaldan istehlaka keçməsi ilə bağlı olan hərəkəti.
***Əmtəə Mal Dövriyyəsi Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$Ə = S / O$$

Burada, Ə – əmtəə mal dövriyyəsi əmsalı, S – satılan malın maya dəyəri, O – orta əmtəə mal qalığı.
***Əmtəə Mallarının Satılma Müddəti Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$ƏS = G / ƏM = O \times G / SM$$

Burada, ƏS – əmtəə mallarının satılma müddəti əmsalı, G – 365 gün, ƏM – əmtəə-mal dövriyyəsi, O – orta əmtəə mal qalığı, SM – satılan malın maya dəyəri.
***Əmtəə Nişanı*** – müəyyən istehsalçının, yaxud satıcının malını başqa satıcıların, istehlakçıların analoji mallarından fərqləndirməyə imkan verən ad, nişan, simvol. şəkil, rəmz, yaxud damğadır.
***Əmtəə Nomenklaturası*** – müəyyən bazarlarda təmsil edilmiş, satışa təqdim edilmiş əmtəələrin çeşid qrupları və əmtəə vahidləri məcmusu.
***Əmtəə Tədavülü*** – əmtəələrin ticarət şəbəkəsi vasitəsilə istehsalçılardan istehlakçılara hərəkəti prosesi.
***Əmtəə Vahidinin Qiyməti*** – əmtəələr qablaşdırılarkən onların üzərində göstərilən, bir əmtəə vahidinin və ya əmtəənin çəkisinə görə qiymətin hesablanmasına imkan verən qiymətdir.
***Əmtəə Vekseli*** – kommersiya kredit münasibətləri zamanı borc alan subyektin kreditora təqdim etdiyi veksel.
***Əmtəələr*** – keyfiyyət xüsusiyyətləri eyni olan və qiyməti bazarda müəyyən olunan əşya.
***Əmtəəli Ödəniş*** – əmtəə verməklə və ya xidmət göstərməklə edilən ödəniş.
***Əmtəənin Göndərilməsinin "Tel-Gel" Üsulu*** – bu əmtəənin nə formada varsa, o formada da göndərilməsidir.
***Əmtəənin Konsepsiyası*** – marketinqdə istifadə olunan və hər bir əmtəə növü üçün marketinq tədbirlərinin differensiyalaşmasını nəzərdə tutan konsepsiya.
***Ənənəvi İqtisadiyyat*** – adət və ənənələrin nadir, məhdud təbii resurslardan istifadəni müəyyən etdiyi iqtisadi sistem.

***Ən Yaxşı Qiymətlə*** – alış və satış əməliyyatlarını bazarda mövcud olan ən yaxşı cari qiymətlə icra etmək barəsində brokerə verilmiş sərəncam.

***"Ən Yaxşı Səylər" Prinsipi Üzrə Təklif*** – agent olaraq çıxış edən anderrayterin təklif olunan qiymətli kağızın yerləşdirilməsinə bütün gücünü sərf edəcəyi (maksimum səy göstərəcəyi) barədə razılıq verdiyi, lakin satılmamış qiymətli kağızları alacağı barədə öhdəlik götürmədiyi anderraytinq prosesidir.

***Ərəb Valyuta Fondu*** – Ərəb İqtisadi Birliyi Şurası tərəfindən 1977-ci ildə yaradılmışdır. Bu fondun üzvləri aşağıdakı ölkələrdir: Səudiyyə Ərəbistanı, Əlcəzair, Bəhreyn, İraq, İordaniya, Küveyt, Livan, Liviya, Mavritaniya, Mərakeş, Oman, Qətər, Somali, Sudan, Suriya, Birləşmiş Ərəb Əmirliyi, Tunis, Yəmən və Fələstin Azadlıq Təşkilatı. Misir Ərəb Respublikasının üzvlüyü 1979-cu ildə dayandırılmışdır.

***Əsas Aktivlərin Dövriyyə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$ƏA = S / CA$$

Burada, ƏA – əsas aktivlərin dövriyyə əmsalı, S – satış, CA – cəmi əsas aktivlər.

***Əsas Diler*** – dövlət qiymətli kağızlarının buraxılışına nəzarət edən orqan tərəfindən (məsələn, Mərkəzi Bank və Maliyyə Nazirliyi) dövlət qiymətli kağızlarının ilkin bazarında dilerlik hüququ verilən maliyyə vasitəçisi.

***Əsas Girov*** – borclunun girov əsasında aldığı borcu qaytara bilmədiyi hallar üçün nəzərdə tutulan kreditin, məhkəmə xərclərinin və üçillik faizlərin ödənməsinə təminat verən ölçüdə, miqdarda olan girovdur.

***Əsas (aparıcı) Göstəricilər (indiqatorlar)*** – iqtisadiyyatın gələcək inkiaf meyllərini müəyyənləşdirməyə imkan yaradan statistik göstəricilər.

***Əsas Kapital (əsas vəsaitlər (fondlar), uzunmüddətli maddi aktivlər)*** – istehsal potensialını təyin edən mühüm göstərici kimi, əmək vasitələrinin dəyərində əks olunur.

***Əsas Vəsaitlər*** – uzun müddət istifadə edilən, bir çox silsilə ərzində istehsalda iştirak edən, amortizasiya müddətləri uzun olan

istehsal vasitələri. Torpaq, binalar, fabriklər, maşın və avadanlıqlar, mebellər.
***Əsas Vəsaitlərin Bərpa Dəyəri*** – qüvvədə olan qiymətlərin hesaba alınması ilə hesablanmış amortizasiya tutulmaları şəklində istehsal prosesində köhnəlmiş əsas vəsaitlərin birjası üçün xərclərin məbləği.
***Əsas Vəsaitlərin İlkin Dəyəri*** – binaların, qurğuların tikilməsi, avadanlığın ilkin alınması dəyəri.
***Əsas Vəsaitlərin Qalıq Dəyəri*** – əsas vəsaitlərin onların aşınması nəzərə alınmaqla hesablanmış dəyəri.
***Əsas Vəsaitlərin Likvidasiyası (ləğvi)*** – istifadə müddətinin başa çatması səbəbindən, yaxud istifadəyə yarasız hala düşdüyünə görə əsas istifadə fondlarının müəssisə tərəfindən ayrı-ayrı hissələrə bölünməsi və reallaşdırılması (satılması).
***Əsaslı Borc*** – hələ ödəmə müddəti gəlib çatmayan xarici borc.
***Əskinaz*** – üzərində nominal dəyəri göstərilmiş kağız pul, sənədləşdirilmiş qiymətli kağız (səhm, istiqraz, veksel və s.).
***Ətalətli Bazar Konyunkturu*** – tələbin və işgüzar fəallığın aşağı səviyyədə olması, əqdlərin azsaylı olması, müəyyən əmtəə və xidmət qiymətlilərinin enməsi ilə səciyyələnən bazar vəziyyəti.
***Əvəzedicilər*** – tam və ya tədricən əvəzedicilər rolunda çıxış edən, birinin qiymətinin artması digərinə olan tələbatın yüksəldilməsinə gətirib çıxaran əmtəə və xidmətlər qrupudur.
***Əvəzsiz Məsrəflər*** – müəssisələri iflası zamanı itirilən xərclərdir.
***Əvvəlcədən Aksept*** – ödəmə tələbnaməsinin ödəyicinin əvvəlcədən razılığı əsasında təyin edilən aksept müddəti başa çatdıqdan sonra ödənilməsinin baş verdiyi aksept.
***Əvvəlcədən Seçim Əmtəələri*** – çeşidin qiymətləndirilməsindən, oxşar əmtəələrlə keyfiyyət və qiymət üzrə müqayisə edildikdən sonra, istehsalçı haqqında məlumatı, həmçinin bu və ya oxşar əmtəələrdən istifadənin şəxsi təcrübəsini nəzərə almaqla əldə edilən əmtəələr.
***Əyar*** – qızıl, gümüş və digər qiymətli metallardan düzəldilmiş əmtəələrin saflıq və xalislik dərəcəsi.

# – F –

***Fabrik*** – sənaye müəssisəsi.

***Fabrik Markası*** – məhsulu, malı, istehsalçını müəyyən etməyə, ayırmağa imkan verən nişan.

***Fabrik Qiyməti*** – mal vahidinə hesablanan maddi xərclərdən, əmək haqqından və ümum zavod xərclərindən yaranan qiymətdir.

***Fabrikat*** – emaledici sənayenin başa çatdırılmış məhsulu, hazır fabrik məhsulu.

***Faiz – 1)*** Ədədin yüzdə bir hissəsi; ***2)*** Kreditorun borc alan subyektdən təqdim etdiyi borc vəsaitinə görə aldığı əlavə haqq, yaxud həmin haqqın əsas borca nisbətdə faiz ifadəsi.

***Faiz Bəndi*** – faizlə ifadə olunmuş hər hansı bir kəmiyyətin (faiz dərəcələrinin, qiymət və gəlirlilik indekslərinin və s.) baza dövrünə görə faiz ifadəsində dəyişməsini ölçmək üçün istifadə edilən ölçü vahidi.

***Faiz Dərəcələri Dəhlizi*** – Mərkəzi Bankın çərçivə alətləri üzrə faiz dərəcələri "faiz dərəcələri dəhlizini" təşkil edir. Dəhlizin minimal həddi bir günlük vəsaitlərin cəlbolunma (REPO) faiz dərəcəsi ilə, maksimal həddi isə – bir günlük vəsaitlərin yerləşdirmə (ƏKS-REPO) faiz dərəcəsi ilə müəyyən olunur. Mərkəzi Bankın uçot dərəcəsi "faiz dərəcələri dəhlizi"nin bir parametri kimi çıxış edir. Faiz dərəcələri dəhlizinin parametrləri iki aydan bir ölkədəki makroiqtisadi durum və Mərkəzi Bankın inflyasiya hədəfi əsas götürülərək müəyyən olunur.

***Faiz Dərəcəsi*** – borc alətlərindən istifadə etmələri üçün borcalanlara, borcverən tərəfindən borcun məbləğinə faiz nisbəti kimi hesablanmış xidmət haqqı.

***Faiz Dərəcəsinin Diferensialı (faiz dərəcəsində fərq)*** – Ssudalar və borcların qaytarılması mənbəyi olan cəlb olunmuş depozitlər üzrə faizlər arasındakı fərq.

***Faiz Xərcləri*** – debitor tərəfindən kredit üzrə ödənmiş faiz məbləğinin kumulyativ miqdarı.

***Faiz Kapitallaşdırılması*** – müqaviləyə əsasən ödənilmə vaxtı

çatmış faizlərin ödənilməmiş hissəsinin kreditin qalıq məbləğinə əlavə olunması.

***Faiz Ödəmə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$F = FG / FÖ$$

Burada, F – faiz ödəmə əmsalı, FG – faiz və vergi öncəsi gəlir (əməliyyat gəliri), FÖ – faiz ödənişlər.

***Faiz Riski*** – faiz dərəcələrinin dəyişməsi nəticəsində investisiyaların dəyərdən düşməsi və gəlirliyin azalması riski.

***Faiz Trattası*** – rəsmiləşdirildiyi gündən ödəniş müddətinə qədərki dövr ərzində borclu subyekt – trassat tərəfindən müəyyən faiz ödəmələri şərti ilə razılaşdırılan tratta – köçürmə veksel.

***Faizlərin Ödənilməsi Əmsalı*** – vergilər və faizlər ödənilənə qədər gəlirlərin faiz üzrə borc ödəmə xarakteristikasını əks etdirən əmsaldır.

***Faizli*** – nominal məbləğ üzrə faiz ödənişləri həyata keçirən maliyyə alətini təsvir edən anlayış.

***Faizli Qiymətli Kağızlar*** – gəliri nominalın müəyyən faizi kimi təyin edilmiş borc qiymətli kağızlar.

***Faizli Svop*** – iki borc aləti emitentə arasında əvvəlcədən müəyyən olunmuş eyni məbləğdə borc üçün sabit faiz dərəcəsi ilə dəyişkən faiz dərəcələri üzrə ödəmələrin dəyişdirilməsi haqqında saziş.

***Faizsiz İstiqrazlar*** – əmtəə və xidmət təminatı ilə buraxılan istiqrazlar.

***Faktik Ehtiyatlar*** – kommersiya bankının Mərkəzi Bankdakı depozitlərinin məbləği və bu bankın kassasındakı nağd pul məbləği.

***Faktik İnvestisiyalar*** – firmanın həyata keçirdiyi investisiyaların real həcmi.

***Faktik Qiymət*** – sazişin, əqdin, həyata keçirildiyi faktik qiymət.

***Faktiki Ehtiyaların İnventarizasiyası*** – satış üçün malların natural vahidlərinin sayılması prosedurudur.

***Faktiki İnvestisiyalar*** – dövlətin və özəl firmaların həyata keçirdiyi investisiyaların real həcmi.

***Faktiki Öhdəlik*** – müqavilədən, kontraktdan və ya qanun əsasında yaranan öhdəlik növüdür. Faktiki öhdəliklər dedikdə, hesablar üzrə

borclar, veksellər, ödəniləsi dividentlər, satışdan vergi, aksiz yığımları, uzunmüddətli öhdəliklərin cari hissəsi, hesablanmış əmək haqları, həmçinin müəssisənin avans hesabına göndərəcəyi mallar və ya göstərəcəyi xidmətlər başa düşülür.

***Faktor-Bank*** – faktorinq əməliyyatı həyata keçirən bank. Faktor-bank göstərdiyi faktorinq xidmətinə görə müştəridən adətən ümumi məbləğin 0,5 – 1,5% -i həcmində haqq alır.

***Faktor- Firma*** – faktorinq fəaliyyəti ilə məşğul olan firma, müəssisə. Adətən, faktor-firma faktorinq əməliyyatlarını faktor-bank vasitəsilə həyata keçirir.

***Faktor Şirkəti*** – faktorinq üzrə ixtisaslaşan və faktorinq xidmətləri icra edən şirkət.

***Faktor Vasitəçilər*** – ixracatçı adından geniş dairədə vasitəçilik vəzifəsini yerinə yetirən ticarət vasitəçiləridir.

***Faktorinq*** – müştərinin debitor borclarının ödənilməsində pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmədir.

***Faktorinq Əməliyyatları*** – faktorinq əsasında ticarət əməliyyatlarının maliyyələşdirilməsi üsuludur.

***Faktura*** – ticarət, və ya ümumilikdə hesablaşma münasibətləri zamanı satıcı tərəfin alıcı tərəfin adına yazdığı əmtəə sənədi.

***Faktura Qiyməti*** – göndərilmiş malın faturasında göstərilmiş qiymət.

***Fakutativ Təkrar Sığorta*** – təkrar sığorta metodudur. Bu zaman sedent bu və ya digər riskin təkrarsığortaçıya verilməsi üzrə heç bir məsuliyyət daşımır. Riskin təkrar sığortaya verilmə şərtləri, vaxtı və qədərini sedent özü həll edir. Fakultativ təkrar sığorta ilə birgə sığortanın başlıca fərqi ondan ibarətdir ki, polis sahibi təkrar sığorta müqaviləsi haqda heç nə bilmir. Birgə sığorta zamanı onun iştirakçıları və onların payları vahid polisdə öz əksini tapır və onların hər biri sığorta mükafatının özlərinə düşən hissəsini əldə edirlər, lakin təkrarsığortaçı öz mükafatını sığortaçılardan alır.

***Fandinq – 1)*** Gələcək ödənişlərin reallaşdırılması məqsədi ilə ehtiyat pul vəsaiti fondlarının yaradılması. ***2)*** Qısamüddətli borcların uzunmüddətli borclarla əvəz edilməsi.

***FAO*** – BMT-nin ərzaq və Kənd təsərrüfatı təşkilatı.

***Fasiləsiz Hərrac*** – şifahi sifarişlərin sifariş kitabına yazılması, yaxud onların birjanın ticarət zalındakı elektron tablodakı göstərilməsi əsasında qurulan hərrac növü.
***Fasovka*** – qiymətli kağızların ilkin bazarda tam, bütünlüklə yerləşdirilməsi.
***Faundrayzinq*** – bu və ya digər məqsədlər üçün pul fondunun, maliyyə mənbəyinin yaradılması, eləcə də büdcənin formalaşdırılması, təsbit edilməsi.
***Favorit*** – rəqabət mübarizəsində başqa firmalara nisbətən mənfəət almağa daha çox imkanları olan korporasiya, firma.
***Fayda*** – müəyyən üstünlüklərin, əlavə gəlirin, mənfəətin alınması.
***Faydalıq*** – işin faydalılığı, gəlirliyi, mənfəətin alınması; insanların əmtəələr və xidmətlərin istehlakından aldığı həzz, tələbatın ödənilməsi, istəklərin yerinə yetirilməsi.
***Faydalılıq Nəzəriyyəsi*** – XIX – XX əsrlərdə iqtisad elminin Avstriya məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmiş nəzəri cərəyan. Bu nəzəriyyənin başlıca prinsipi azalan son hədd faydalılığı qanunudur.
***Faza*** – iqtisadi prosesin mərhələsi, pilləsi.
***Federal Büdcə*** – federativ dövlət quruluşuna malik ölkələrdə büdcə sisteminin başlıca həlqəsi.
***Federal Fondlar*** – ABŞ-da Federal Rezerv Sisteminə üzv olan kommersiya banklarının federal rezerv banklarının birində saxladıqları sərbəst ehtiyatlar.
***Federal Fondların Uçot Faiz Dərəcəsi (qısamüddətli kreditlər üzrə)*** – ABŞ kommersiya banklarının Federal Rezerv Sistemindəki ehtiyatlarından digər banklara verilən qısamüddətli (adətən, 1 gecəlik) borcların faiz dərəcəsi.
***Federal Rezerv Sistemi*** – 1913-cü ildə yaranmış ABŞ dövlətinin mərkəzi bankı funksiyalarını yerinə yetirən müstəqil qurumdur. Federal Rezerv Sisteminin idarə heyəti ABŞ prezidenti tərəfindən seçilir. Federal Rezerv Sistemi İdarə Heyətindən, 12 Federal Rezerv Bankından və onların 24 filialından və Sistemə üzv olan bütün federal və ştat banklarından ibarətdir.
***Federasiya*** – nisbətən müstəqil regionların, dövlət törəmələrinin

birliyi olan vahid dövlət quruluşu forması.
***Ferma*** – fermerə məxsus olan və onun özünün, yaxud icarəyə götürdüyü torpaqda apardığı özəl kənd təsərrüfatı müəssisəsi.
***Fermer*** – kənd təsərrüfatı fermalarının sahibi.
***Fetiş*** – gözüyumulu, şərtsiz qəbul edilən insan, qabiliyyət, ideya və s.
***Fəal Bazar*** – artıq böyük həcmdə əqdlərə malik olan və belə əqdlərin sayı get-gedə artan qiymətli kağızlar bazarı.
***Fəhlələr*** – maddi istehsal sferasının fiziki əməklə məşğul olan işçiləri.
***Fərdi Əmək Fəaliyyəti*** – ən geniş mənada ayrı-ayrı vətəndaşların muzdlu işçi cəlb etmədən həyata keçirdiyi işgüzar fəaliyyət.
***Fərdi İnvestor*** – fiziki şəxs olan investor.
***Fərdi Müəssisə*** – bir şəxsin, yaxud bir ailənin mülkiyyətində olan müəssisə.
***Fərdi Sahibkar*** – hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşdır. Fərdi sahibkarlıq AR-nın Mülki Məcəlləsinin və müvafiq qanunlarının müddəaları ilə tənzimlənir.
***Fərdi Sahibkarların Müflisləşməsi*** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar, sahibkarların kreditorların borclarını ödəmək qabiliyyətinin olmamasıdır. Müflisləşmə könüllü və kreditorların tələbi üzrə məcburi qaydada ola bilər.
***Fərdi Sığorta*** – konkret fiziki şəxslə fərdi qaydada bağlanan sığorta müqaviləsi.
***Fərqlənmə Nişanı*** – birjada üzvlük dərəcəsini təsdiq edən nişan.
***Fərqli Seçimlər Əsasında Ticarət*** – beynəlxalq ticarəti müstəsna olaraq müxtəlif ölkə istehlakçılarının zövqləri və seçim fərqləri əsasında izah edən nəzəriyyədir.
***Fərsəx*** – təxminən 5-6 km.-ə bərabər olan uzunluq ölçüsü.
***Fırıldaqçılıq*** – kommersiya əməliyyatlarında kələk, aldatma, yalan.
***FİBOR*** – Almaniyanın Frankfurt şəhərinin banklararası depozit bazarında hər gün saat 11:00-da 12 bank tərəfindən təsbit edilən təklif dərəcəsi. FİBOR – 1985-ci ildən təsbit olunur.
***Fidusiar Emissiya*** – təminatsız, yəni dövlətin qızıl, və ya digər

qiymətli metal ehtiyatları ilə təmin olunmayan banknotların emissiyası.

***Fidusiar Sövdələşmə*** – tərəflərin şəxsi etibar münasibətlərinə əsaslanan sövdələşməsidir.

***Fifo – 1)*** Müddətli depozitin müqavilə üzrə təsbit olunan vaxtından öncə geri götürüldüyü zaman bu depozitə yenidən faiz hesablanması metodu. ***2)*** Müəssisənin, təşkilatın, mal-material ehtiyatlarının ilkin daxilolma qiyməti ilə uçota alınması.

***Fiksaj*** – həcmləmə üzrə əməliyyatdır, qiymət və ya kursun müəyyən səviyyəsini təcili sövdələşmə vasitəsilə qeyd etməyə imkan yaradır.

***Fiksasiya Olunmuş İstiqrazlar*** – müqavilə şərtlərinə görə, bir buraxılış istiqrazlarının eyni vaxtda ödənilməsini nəzərdə tutan istiqraz növüdür.

***Fiksasiya Olunmuş Valyuta Kursu*** – milli valyutalar arasında qanunvericilik qaydalarına uyğun nisbətin müəyyənləşdirilməsidir.

***Fiksinq – 1)*** Hər hansı müqavilənin dəyərinin, qiymətinin təsbit edilməsi. ***2)*** Banklararası valyuta kursu əsasında valyuta kotirovkasının həyata keçirilməsi.

***Fiktiv Kapital*** – sahiblərinə müntəzəm gəlir gətirən və qiymətli kağızlar bazarında real kapitaldan fərqli olaraq müstəqil hərəkət edən qiymətli kağızlarda təqdim edilmiş kapital.

***Fiqur*** – birja jarqonu; alıcının və satıcının məzənnəsinin kotirovkasının göstərilməsində ümumi bütöv rəqəmi göstərir. Məsələn, əgər alıcının məzənnəsinin kotirovkası 140-145, satıcınınkı isə 140-150-dirsə, onda fiqur -140-dur.

***Filial*** – hüquqi şəxsin fəaliyyət göstərdiyi fiziki məkandan kənarda onun bütün funksiyalarının bir hissəsini həyata keçirən strukturu, bölməsi.

***Filler*** – Macarıstanda tədavüldə olan xırda monet. 1 filler = 1/100 forint

***Filyera*** – ticarət münasibətləri zamanı satıcı tərəfindən alıcı tərəfə göndərilən, əmtəənin müəyyən edilmiş müqaviləyə uyğun olaraq qəbul edilməsini təklif edən veksel, ticarət sənədi.

***Fin*** – Çində tədavüldə olan xırda monet. 1 fin = 1/100 yuan =1/10

dzyao

***“Finencial Times 100” fond indeksi (Futsi)*** – Lond Fond Birjasında listinqdə olan 100 ən böyük şirkətin səhmlərini əhatə edən indeks. Bu indeks Futsi də adlanır.

***Firma*** – bu və ya digər iqtisadi fəaliyyətlə məşğul olan müəssisənin şərti adı.

***Firma Qiyməti*** – mühasibat uçotunda qeyri-maddi aktivlərin bir növü kimi nəzərə alınan, müəssisənin alış dəyərinin onun bütün aktivlərinin cari balans dəyərindən çox olmasıdır.

***Firma Resursları*** – firmanın əsas fəaliyyət istiqamətləri üzrə sabit işini və mənfəətin əldə edilməsini təmin edən vəsaitlər, imkanlılar, qiymətlilər, ehtiyatlar, gəlir mənbələri.

***Firmanın Bağlanması*** – istehsalın həcmindən asılı olmayaraq firmanın daimi məsrəflərinin ümumi həcmini üstələyən zərərlərin yaranmasına gətirib çıxaran səbəblər üzündən firmalar tərəfindən istehsalın dayandırılması.

***Firmanın İşgüzar Nüfuzu*** – firmanın ona yaxın olanları, kontragentləri, istehlakçıları tərəfindən qiymətləndirilməsidir.

***Firmanın Likvidliyi*** – firmanın, bir tərəfdən borcalanın həddindən, digər tərəfdən likvid vəsaitlərin həcmindən asılı olan öz borc öhdəliklərini ödəmək qabiliyyətidir.

***Firmanın Məqsədi*** – həyata keçiriləcək fəaliyyət növlərinin nəzərdə tutulan nəticələri haqqında qəbul edilən qərardır.

***Firmanın Nümayəndəliyi*** – ixracatçı tərəfindən müəyyən bazarlarda ixracla məşğul olan kompaniyaların agentlərinin, distributorların axtarılması və onların fəaliyyətinin müşahidə edilməsi məqsədilə təyin olunmuş şəxslər və ya kompaniyalardır.

***Firmanın Strategiyası*** – firmanın elmi-texniki, maddi, maliyyə, əmək ehtiyatlarını, onun istehsal satış imkanlarını nəzərə almaqla qarşıya qoyulmuş məqsədə nail olunması üçün əsaslandırılmış tədbirlər və planlar işlənməsini nəzərdə tutan perspektiv fəaliyyət istiqamətidir.

***Fiskal*** – dövlət gəlirlərinin səfərbər edilməsi və dövlət xərclərinin reallaşdırılması, yəni dövlət xəzinədarlığı, eləcə də dövlət büdcəsi ilə bağlı bütün münasibətlər.

***Fiskal Agent*** – dövlət qiymətli kağızlarının buraxılışını və tədavülünü həyata keçirən, dövlət maliyyəsi sferasında hesablaşmalar aparan hökumət orqanının agenti.
***Fiskal Gəlirlər*** – dövlət xəzinədarlığının bütün gəlirləri, yəni dövlətin məcmu gəlirləri.
***Fiskal Xərclər*** – dövlət xəzinədarlığından maliyyələşən bütün xərclər, o cümlədən dövlət büdcəsinin xərclər, büdcədənkənar dövlət fondlarının xərcləri, eləcə də digər dövlət xərcləri.
***Fiskal Kəsir*** – fiskal xərclərin fiskal gəlirlərlə örtülməyən, ödənilməyən hissəsi.
***Fiskal Rüsum*** – fiskal gəlirləri, o cümlədən dövlət büdcəsi gəlirlərini artırmaq məqsədi ilə istehlak xarakterli idxal məhsullarına tətbiq edilən dövlət rüsumu.
***Fiskal Siyasət*** – dövlət gəlirlərinin səfərbər edilməsi, dövlət xərclərinin icrası, dövlət büdcəsinin tərtibi, təsdiqi, icrası, icrasına nəzarət, vergiqoymanın dövlət büdcəsi aspektləri, eləcə də dövlət xəzinədarlığı ilə bağlı digər münasibətləri istiqamətində dövlətin həyata keçirdiyi iqtisadi siyasət.
***Fişer Tənliyi*** – müxtəlif ölkələrdə eyni olub, nominal faiz dərəcəsi ilə gözlənilən inflyasiyanın fərqinə bərabər olan real faiz dərəcəsidir.
***Fiziki Şəxs*** – hüquqi münasibətlərdə öz adından iştirak edən insan fərdi. AR-nin Mülki Məcəlləsinə görə, AR-nin bütün vətəndaşları, AR-in ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxsdir.
***Fiziki Şəxslərin Gəlir Vergisi*** – vergi ili ərzində ölkədə rezidentlərin bütün gəlirləri ilə həmin dövr üçün müvafiq qanunvericiliklə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət gəlirə, həmçinin qeyri rezidentin qanunvericilik əsasında müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ nəzərə alınmaqla gəlirinə tətbiq edilən vergi.
***Fiziki Şəxslərin Gəlir Vergisi Üzrə Vergitutma Obyekti*** – ödəmə mənbəyində vergi tutulduğu halda, vergitutma obyekti vergiyə cəlb olunan gəlirdir.
***Flat*** – səhmə görə faiz məbləğinin səhmin məzənnəsinə daxil

edilməsi.
***Flipper*** – Fond birjasında möhtəkir fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxs. Flipperin başlıca məqsədi əldə etdiyi səhmləri qısa müddətdə reallaşdırmaqla, yəni qısamüddətli maliyyə əməliyyatları vasitəsi ilə möhtəkir mənfəəti əldə etməkdir.
***Flotinq*** – valyuta məzənnəsinin sərbəst tərəddüdü, hərəkəti. Bu zaman valyuta kursu valyuta bazarına dövlətin bu və ya digər formada müdaxiləsi nəticəsində tənzimlənir.
***Flout – 1)*** Şirkətin, təşkilatın kassasında olan banknot və monetlər. ***2)*** Çekin banka daxil olması ilə ödənişi arasındakı müddət. ***3)*** Şirkətin fond bazarında tədavülə buraxılan səhmlərinin sayı.
***Fluktuasiya*** – valyutanın mübadilə kursunun kəskin dəyişməsi.
***FOB*** – satıcının əmtəənin gəmiyə yüklənməsinə qədər bütün xərclərini ödəməli olduğunu ifadə edən ticarət termini.
***Fond – 1)*** Bu və ya digər məqsədlər üçün toplanmış pul vəsaiti. ***2)*** Müəyyən qrup insanların məqsədli şəkildə birləşməsindən formalaşaraq bu və ya digər fəaliyyətlə məşğul olan qurum, təşkilat, birlik və s. ***2)*** Müəyyən qrup insanların məqsədli şəkildə birləşməsindən formalaşaraq bu və ya digər fəaliyyətlə məşğul olan qurum, təşkilat, birlik və s.
***Fond Arbitrajı*** – mənfəət əldə edilməsi məqsədi ilə qiymətli kağızların bir bazarda alınaraq eyni zamanda digər bazarda satılmasından ibarət möhtəkir birja əməliyyatı.
***Fond Bazarının Likvidliyi*** – fond bazarının müəyyən dövr ərzində tələb və təklif səviyyəsini qoruya bilməsi qabiliyyəti, səviyyəsi.
***Fond Birjası*** – hüquqi şəxs formasında yaradılan, öz üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısı.
***Fond Birjasının İndikatoru*** – qiymətli kağızlar bazarında müəyyən dövr ərzində aparılan əməliyyatların həcminin, maliyyə alətlərinin gəlirliliyinin, o cümlədən faiz dərəcələrinin dinamikasının, alqı-satqı əməliyyatlarının həcminin öncədən qiymətləndirilməsi məqsədi ilə istifadə edilən göstərici, ölçü vahidi.
***Fond Əməliyyatları*** – bankın, yaxud digər kredit təşkilatının qiymətli kağızlarla bağlı apardığı əməliyyatlar.

***Fond İndeksi*** – seçilmiş bir qrup səhmlərin qiymətlərindəki dəyişiklikləri əks etdirən göstərici.
***Fond İndeksi Üzrə Fond*** – səhm bazarı indekslərinə investisiya edən fond.
***Fond İndeksi Üzrə Fyuçers*** – səhm indeksi üzrə fyuçers kontraktı.
***Fond İndeksi Üzrə Opsion*** – səhm indeksinin “Koll” və ya “Put” opsionu.
***Fond Mənfəətliliyi*** – təmiz gəlirin aktivlərin orta illik dəyəri ilə tutuşdurmaq yolu ilə alınan gəlirlilik göstəricisidir. Fond mənfəətliliyi aşağıdakı düsturla hesablanır:

$$F = R \times V$$

***F*** – fond mənfəətliliyi, ***R*** – rentabellik faizlə, ***V*** – fondvermə, dəfə ilə.
***Fondlaşdırılmış Borc*** – şirkətin bir ildən və ya biznes tsiklindən daha çox müddətə ödəniş vaxtı olan istiqrazlar, uzunmüddətli veksel borcları və ya borc iltizamları kimi borcudur.
***Fondlaşdırılmış Gəlir*** – əmlaka sahiblikdən əldə edilən gəlirdir. Əsas formaları – renta və faizlərdir.
***Fondlaşdırma*** – ***1)*** Gələcək ödənişlərin reallaşdırılması məqsədi ilə ehtiyat pul vəsaiti fondlarının yaradılması. ***2)*** Qısamüddətli borcların uzunmüddətli borclarla əvəz edilməsi.
***Fondtutumu*** – sovet statistikasının göstəricisi; əsas vəsaitlərin dəyərinin, bu vəsaitlərin köməyi ilə buraxılmış illik məhsul miqdarına bölünməsindən alınan qismətə bərabərdir.
***Fondvermə*** – realizasiyadan gəlirlərin alınması üçün aktivlərdən səmərəli istifadə olunmanı göstərən, gəlirlilik göstəricisidir. Fondvermə göstəricisi netto-realizasiyanın vəsaitlərin orta-illik dəyərinə bölünməklə tapılır. Vəsaitlərin orta illik dəyəri isə ilin başlanğıcında və sonunda olan aktivlərin ikiyə bölünməsi ilə tapılır.
***Fondvermə Əmsalı*** – mövcud aktivlərin səmərəliliyini və aktivə qoyulmuş hər manatın gətirdiyi gəliri səciyyələndirən, müəssisə rentabelliyini xarakterizə edən göstəricidir.
***Forfeyter*** – Forfeytinq əməliyyatları üzrə kreditləşmə zamanı vekseli və ya veksel paketini alan hüquqi və ya fiziki şəxs.

***Forfeytinq*** – bank və ya maliyyə şirkəti tərəfindən alıcının ticarət əməliyyatları üzrə borc öhdəliklərinin satıcılardan alması yolu ilə ticarət əməliyyatlarının kreditləşdirilməsi forması. Forfeytinqdən xarici ticarət əməliyyatlarının kreditləşdirilməsində geniş istifadə olunur.

***Forint*** – Macarıstanın milli pul vahidi 1 HUF = 100 filler.

***Formulyar*** – iri təşkilatlarda əvvəlcədən hazırlanan və kontragentə imzalanmaq üçün təqdim olunan ticarət dövriyyəsinin vahid müqavilə formasıdır. Bu halda kontragent müqavilənin hər hansı bir şərtini dəyişdirə bilmir.

***Formulyar Hüququ*** – vahid müqavilə və kontrakt şərtlərinə əsaslanan hüquq münasibətləridir.

***Fors-Major*** – özündən asılı olmayan səbəblərdən satıcının kontraktı yerinə yetirə bilməməsi.

***Forvard*** – aktivi gələcəkdə müəyyən tarixdə və müəyyən qiymətə almaq və ya satmaq öhdəliyini əks etdirən müqavilə.

***Forvard Bazarı*** – forvard kontraktlarının alqı satqısının həyata keçirildiyi birjadan-kənar bazar.

***Forvard Əqdləri*** – nağd hesablaşma ilə müddətli sövdələşmələrdir, alıcı və satıcı satılmış malı gələcəkdə müəyyən tarixdə tədarük etməyə razılaşırlar, lakin malın qiyməti sövdələşmə bağlandığı anda müəyyən edilir.

***Forvard Əməliyyatları*** – banklar tərəfindən telefonla, yaxud tekslə müqavilə əsasında həyata keçirilən təcili valyuta əməliyyatları.

***Forvard İntervensiyası*** – milli valyuta kursunun stabilləşdirilməsi tənzimlənməsi məqsədi ilə mərkəzi bankın forvard bazarında həyata keçirdiyi tənzimləmə əməliyyatı.

***Forvard Kontrakt*** – gələcəkdə göndəriləcək mallara, qiymətli kağızlara və valyutalara qiymət qoyulmuş müqavilədir.

***Forvard Marjası*** – əmtəənin nağd qiyməti ilə müəyyən tarixdəki gələcək qiyməti arasındakı fərq.

***Forvard Məzənnəsi*** – forvard əməliyyatları zamanı təsbit edilən valyuta məzənnəsi.

***Forvardeynş*** – əmtəənin nağd ticarəti üzrə qiymətinin əmtəənin

sonradan göndərişi üzrə qiymətindən aşağı olması.
***Fövqəladə Büdcə*** – əsas büdcəyə sonradan əlavə olunan, birləşdirilən gəlir və xərc cədvəli.
***Fra*** – müəyyən müddət ərzində dövri olaraq kredit faizinin dəyişilməməsi barəsində bank, yaxud kredit təşkilatı ilə müştəri arasında razılaşma.
***Fraxt*** – dəniz və ya hava yolu ilə yükün daşınması xərcidir.
***Fraxt avansı*** – yükləmə limanında gəmi xərclərinin ödənməsi üçün gəmi sahibinin tələbi üzrə fraxt edənin verdiyi pul vəsaitidir.
***Fraxt Etmə*** – gəminin icarəyə götürülməsi və ya haqqı ödənilməklə tutulması müqaviləsinin bağlanması üzrə fəaliyyətidir.
***Fraxt Edən*** – təyinat limanına yük dənizlə daşıyan, fraxt müqaviləsinin tərəflərindən biridir.
***Fraxt Olunan*** – təyinat limanına yükü vaxtında çatdırılan tərəfə mükafat verməyi üzərinə götürən, fraxetmə müqaviləsinin tərəflərindən biridir.
***Françayzinq*** – ***1)*** Mərkəzi, və ya yerli hakimiyyət orqanlarının hər hansı müəssisə və təşkilata bu və ya digər sosial xidmətlə, o cümlədən əhalini elektrik enerjisi, su, qaz və s. ilə təmin etməklə bağlı hüquq verməsi. ***2)*** Bir müəssisənin, firmanın başqa birinə müəyyən bazar məkanında onun əmtəə nişanından, texnologiyasından, intellektual mülkiyyətindən istifadə hüququ verməsi ilə bağlı uzunmüddətli razılaşma (müqavilə).
***Françayzor*** – başqa bir müəssisəyə, firmaya özünün əmtəə nişanından, texnologiyasından, intellektual mülkiyyətindən istifadə hüququ ilə bağlı lisenziya təqdim edən müəssisə, firma (ana şirkət).
***Frank*** – hazırda bir sıra ölkələrin milli pul vahidi aşağıdakılardır: İsveçrə, Benin, Burnika-Fason, Burundi, Qabon, Qvineya, Cibuti, Kamerun, Komor adaları, Konqo. Kot-d İvuar, Madaqaskar, Mali, Niger, Ruanda, Seneqal, Toqo, Mərkəzi Afrika Respublikası, Çad, Yeni Kaledoniya, Uollis və Futuna adası.
***Franko*** – çatdırma məntəqələri göstərilməklə ticarət müqavilələrində istifadə edilən termin
***Franşizi*** – françayzinq müqaviləsində nəzərdə tutulan hüquqları alan tərəf, müəssisə, firma.

***Friksion İşsizlik*** – iş qabiliyyətli əhalinin bir hissəsinin iş yerlərindən azad edilməsi, yaxud könüllü tərk etməsi nəticəsində yarana işsizlik.
***Frirayder*** – əlavə mənfəətin əldə edilməsi məqsədi ilə birja qaydaları çərçivəsindən çıxaraq müştərinin müqavilədə nəzərdə tutulan müddətdən öncə ödənişi həyata keçirməsi.
***Fritrederlik, Fritreyderlik – 1)*** ticarət sərbəstliyi və dövlətin təsərrüfat həyatına qarışmamasına tərəfdar olan iqtisadi cərəyan; ***2)*** sərbəst ticarət.
***Frontinq*** – təkrar sığorta forması və ya əməliyyatlar, sığorta şirkəti polisi tərtib edir, lakin riski tamamilə başqa sığortaçıya verir. Sığortaçının özünün və ya onun polislərinin daxil ola bilmədiyi bazara daxil olmaq istədiyi zaman həyata keçirilir.
***FSA – "franko daşıyıcısı"*** – satıcı malı ixrac gömrük rəsmiləşdirilməsindən keçirdikdən sonra, alıcı tərəfindən təyin olunmuş daşıyıcıya razılaşdırılmış yerdə və məntəqədə təhvil verdikdə çatdırılması üzrə öz öhdəliyini yerinə yetirmiş olur.
***Fundamental (əsaslı) Tədqiqatlar*** – konkret tətbiqi məsələlərin həlli məqsədi ilə deyil, ümumilikdə bəşəriyyətin biliklərinin artırılması məqsədi ilə aparılan tədqiqatlar.
***Fundamental (əsaslı) Təhlillər*** – şirkətin durumu ilə yanaşı, tələb və təklif, iqtisadi statistika, dövlət siyasətləri və müəssisələrin maliyyə hesabatları kimi əsas iqtisadi, siyasi, sosial və ekoloji amillər üzrə aparılan tədqiqatlar əsasında proqnozlaşdırılması üsuludur.
***Funksional İdarəetmə*** – funksiyalar üzrə idarəetmə; belə idarəetmə prosesində hər bir funksional rəhbər müəyyən dairə funksiyaları, işləri icra edir.
***Funksional Maliyyələşmə*** – qeyri-inflyasiya ÜMM istehsalının təmin edilməsi üçün dövlətin fiskal siyasətdən istifadə etməsidir.
***Funsional Struktur*** – təşkilati struktur tipidir. Bu halda bölmələr, onların icra etdiyi işlərin növünə müvafiq yaradılır və funksional rəhbərlərə tabe edilir.
***Funt*** – bir sıra dövlətin milli pul vahidi. Bunlar aşağıdakılardır: Misir (EGP), 1 EGP=100 piastr; İrlandiya (İRP), 1 İRP = 100 pens;

Suriya (SYP), 1 SYP = 100 piastr; Sudan (SDP), 1 SDP = 100 piastr; Livan (LBP), LBP = 100 piastr.

***Funt Sterlinq*** – Böyük Britaniyanın milli pul vahidi. 1 GBP = 100 pens.

***Fuziya*** – kapitalın, eləcə də digər iqtisadi imkanların birləşdirilməsi əsasında mənfəətin artırılması məqsədi ilə iqtisadi subyektlərin, xüsusilə səhmdar cəmiyyətlərin birləşməsi.

***Fyuçers*** – müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyi təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağızdır.

***Fyuçers Birjası*** – alqı-satqı əməliyyatları fyuçers müqavilələri əsasında, yəni ödənişin öncədən edilməsi şərti ilə həyata keçirilən birja.

***Fyuçers Əqdləri*** – xammalın, qızılın, valyutanın, qiymətli kağızların sövdələşmə anında qüvvədə olan qiymətlərlə alınmış malı tədarük etməklə və gələcəkdə onu ödəməklə birjalarda bağlanan alqı-satqı sövdələşmələri, sövdələşmələrin icra edilməsinə qədər alıcı az məbləğdə zəmanət haqqı ödəyir.

***Fyuçers Kontraktı*** – gələcəkdə göndəriləcək mallara, aksiyalara və ya valyutalara müqavilənin bağlandığı anda olan satış qiymətləri ilə bağlanmış kontraktdır.

***Fyuçers Qiyməti*** – birja fyuçers sövdələşmələri üzrə yaranmış qiymət.

***Fyuçers Müqaviləsi*** – aktivi gələcəkdə müəyyən tarixdə və müəyyən qiymətə almaq və ya satmaq öhdəliyini əks etdirən standartlaşdırılmış müqavilə.

# – G –

***Geniş Açılış*** – birja açılanda satıcının və alıcının qiymətləri arasındakı qeyri-adi, son dərəcə böyük fərq.
***Geniş Bazar*** – qeyri-məhdud bazardır.
***Geniş Yayılma Strategiyası*** – marketinq xərclərinin yüksək olduğu şəraitdə firmanın öz əmtəələrinə aşağı qiyməti təyin etməsi.
***Genişlənən İqtisadiyyat*** – özəl daxili investisiyaların məcmu həcminin amortizasiya ayırmaları məbləğindən çox olması, başqa sözlə, özəl daxili investisiyaların xalis həcminin müsbət (sıfırdan böyük) olması ilə səciyyələnən iqtisadiyyat.
***Geosiyasət*** – dövlət tərəfindən aparılan, dünya miqyaslı, əhəmiyyətli coğrafi, iqtisadi, demoqrafik amillərin nəzərə alınması ilə əsaslandırılan siyasətdir.
***Gerbli Kağız*** – aktları və sənədləri yazmaq üçün nəzərdə tutulan xüsusi kağızlar.
***Gerçək Bazar*** – bu dilerin kifayət dərəcədə böyük məbləğdə əməliyyatlar apara bildiyi həmçinin böyük həcmli satışa qiymətin təyin edildiyi bazardır.
***Geri Almaq (Bay-Bek)*** – ***1)*** Əvvəllər satılmış əmlakı geri satın almaq; ***2)*** Dilerdən əvvəllər ona satılmış malları müəyyən şərtlərlə geri almaq;
***Geri Çağrıla Bilən Qiymətli Kağız*** – Emitent tərəfindən dövriyyə müddəti bitənədək geri çağırıla bilən qiymətli kağız.
***Geri Çağrılan Borc*** – Girov kimi qiymətli kağızları girov qoymaqla brokerə marja hesablarını maliyyələşdirmək üçün kommersiya bankı tərəfindən verilən borc.
***Geri Çağırma*** – Emitent tərəfindən qiymətli kağızların dövriyyə müddəti bitmə vaxtından əvvəl müəyyən vaxtda və müəyyən edilmiş məbləğdə ödənilməsi.
***Geri Çağrılmayan İstiqraz*** – Dövriyyə müddəti bitməmişdən əvvəl ödənilə bilməyən istiqraz.
***Geri Çağrılmayan Kredit*** – kreditor və borcalanın razılığı olmadan şərtlərinin dəyişdirilməsi mümkün olmayan kredit.

***Gerialınma Fondu*** – buraxdığı səhm və istiqrazların geri alınmasını təmin etmək məqsədilə emitent tərəfindən yaradılan pul vəsaitləri toplusu.
***Geriyə Doğru Birləşmə Strategiyası*** – firmanın mal göndərənlərini öz mülkiyyətinə keçirmək və ya onlar üzərində daha ciddi nəzarəti həyata keçirməyə yönəldilmiş cəhdlərdir.
***Geriyə Split (Səhmlərin Geriyə Spliti)*** – dövriyyədə olan səhmlərin sayının azaldılması və bir səhmin nominal dəyərinin artırılması.
***Gələcək Dəyər*** – ödənişin gələcəkdə müəyyən vaxtda dəyəri.
***Gələcək Dövr Gəlirləri*** – müəssisənin alıcıdan aldığı avans hesabına mal göndərəcəyi və xidmətlər göstərəcəyi barədə öhdəliyini əks etdirən qısamüddətli öhdəlik növüdür.
***Gələcək Dövr Xərcləri*** – gələcək məhsul, mal, xidmət istehsalına müəssisənin etdiyi cari xərclər.
***Gələcək Faiz Dərəcəsi Haqqında Razılaşma*** – Gələcək faiz dərəcəsi haqqında müqavilə.
***Gəlir*** – investorlara səhm və istiqraz investisiyalarından qayıdan əlavə pul məbləği.
***Gəlir Götürən*** – sığorta müqaviləsində qeyd olunmuş və xeyrinə sığorta müqaviləsi bağlanmış şəxs.
***Gəlir İstiqrazları*** – Əsas məbləğini tam qaytaran, faiz gəlirini isə ancaq mənfəət olduğu halda ödəyən istiqraz.
***Gəlir Səhmləri*** – nisbətən yüksək, adətən də, müntəzəm olaraq artan cari gəlirlər ödənilən, lakin sahibinə kapitalın artımından gəlir əldə etmək hüququ verməyən səhmlər.
***Gəlir Səmərəsi*** – əvəz səmərəsini hesaba alaraq, istehlakçının real gəlirinə, alıcının aldığı məhsulun miqdarına, malın qiymətinin dəyişməsinin göstərdiyi təsir.
***Gəlir və Xərclərin Tarazlığı Qiyməti*** – bu elə qiymətdir ki, onun mövcud olduğu şəraitdə istehsalçı maksimal mənfəət aldə edir; qiymətin sonrakı artımında tələbatın aşağı düşməsi nəticəsində satışların həcmi aşağı düşür.
***Gəlirin Funksional Bölgüsü*** – ölkənin milli gəlirinin, istehlakçıların iqtisadiyyatda funksiyalarını icra etmələrindən asılı

olaraq onların arasında bölüşdürülməsi üsulu.
***Gəlirin (mənfəətin) Kapitallaşması*** – müəssisənin dəyərinin onun gəliri, yaxud mənfəətinə görə qiymətləndirilməsi metodu.
***Gəlirin Strukturu*** – kredit üzrə faizləri ödəmək üçün nəzərdə tutulmuş, mənfəətin faizlərə və vergilərə ödənilən hissəsidir.
***Gəlirlər Hesabatı*** – səhmdar cəmiyyətin təyin olunmuş müddətdə nəşr etdiyi illik hesabat və balans.
***Gəlirlər və İtkilər Haqqında Hesabat*** – maliyyə hesabatının növ müxtəlifliyi olub, gəlirlərin yaradılması üzrə fəaliyyət haqqında və ya müəyyən vaxt ərzində qazanılmış və sərf olunmuş vəsaitlər haqqında məlumatı özündə əks etdirir.
***Gəlirlər və Xərclərin Analizi*** – iqtisadi analizin əsas alətlərindən biri olub, fərdi və ümumi gəlirlərin birbaşa və dolayı xərclərə olan nəzərdə tutulan nisbətidir.
***Gəlirlər və Xərclər Balansı*** – müəyyən müddət ərzində iqtisadi subyektin əldə etdiyi və ya əldə edəcəyi gəlirlərin həcmi, mənbələri və həyata keçirdiyi və ya həyata keçirəcəyi xərclərin həcmi, istiqaməti ilə bağlı sistemli məlumatı əks etdirən maliyyə balansı.
***Gəlirlərin Konsentrasiya İndeksi*** – müəyyən dövr ərzində ölkədə, regionda əhali gəlirlərinin diferensasiyasını əks etdirən iqtisadi-statistik göstərici. Gəlirlərin konsentrasiyası indeksi 0 ilə 1 arasında dəyişir. Nəzəri olaraq əhali gəlirlərinin tam bərabər bölgüsü zamanı bu indeks 0-a, tam qeyri bərabər bölgüsü zamanı isə 1-ə bərabərləşir.
***Gəlirlərin Mənbəyi*** – hüquqi və fiziki şəxslərin təsərrüfat və kommersiya fəaliyyətindən əldə etdikləri gəlirdir.
***Gəlirlərin Yenidən Bölgüsü*** – müəyyən şəxslərə məxsus gəlirlərin bir hissəsinin məcburi alınması və digər şəxslərə verilməsi, yaxud bir şəxsin öz gəlirlərinin bir hissəsini könüllü şəkildə daha çox ehtiyacı olan şəxslərə verməsi.
***Gəlirlik (qiymətli kağızların gəlirliyi)*** – müəyyən dövr ərzində qiymətli kağızlardan əldə olunan gəlirlərin məbləğinin həmin qiymətli kağızların nominal və ya bazar dəyərinə faiz nisbəti.
***Gəlirlik Əyrisi*** – müxtəlif öhdəlik müddəti olan istiqrazlar ilə onların gəlirlikləri arasında əlaqəni əks edən əyri.

***Gəlirlik Hesabatı*** – şirkətin rüblük fəaliyyətini əks etdirən maliyyə hesabatı.
***Gəlirlik Səviyyəsi (dərəcəsi)*** – investisiyanın gəlirliyi. Müəssisə üçün bu, xalis mənfəətin istifadə edilən orta kapitala faiz nisbəti kimi hesablanır.
***Gəlirsiz Satış Səviyyəsi*** – aşağıdakı düsturla hesablanır:

$$GSS = (SX + F + V + A) / (S - DX)$$

Burada, GSS – gəlirsiz satış səviyyəsi, SX – sabit xərclər, F – faiz məsrəfləri, V – vergilər, A – ailə məsrəfləri, S – satış, DX – dəyişkən xərclər.
***Gəlirsiz Satış Səviyyəsinə Qədər Əməliyyat Xərclərindəki Azalma Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$F = ƏX - ƏMM$$

Burada, F – gəlirsiz satış səviyyəsinə qədər əməliyyat xərclərindəki azalma əmsalı, ƏX – əməliyyat xərcləri, ƏMM – əməliyyat xərclərinin mümkün maksimum miqdarı.
***Gəmilərin Sığortası*** – əmlak sığortası növü: beynəlxalq təcrübədə bir neçə növü var: 1) tam sığorta; 2) şəxsi qəza məsuliyyətini çıxmaqla sığorta; 3) zədəyə görə məsuliyyət istisna etməklə sığorta; 4) yalnız tam tələfdən sığorta.
***Gətirilmiş (Çəkilmiş) Xərclər*** – istehsalın təşkili, texniki və təsərrüfat siyasəti sahəsində baxılan alternativ variantlar içərisində minimum hesab edilən meyarın, müəyyən qərarın iqtisadi səmərəliliyinin qiymət göstəricisi. Aşağıdakı düsturla hesablanır:

$$CX = MD + EK$$

Burada – MD-gələcək malın maya dəyəri, K-qəbul olunmuş qərar üzrə kapital qoyuluşları, E- kapital qoyuluşlarının səmərəliliyinin normativ əmsalı
***Girov*** – müvafiq qanunvericiliyə əsasən sahiblik hüququnu saxlamaq şərti ilə borc ödənişi ilə bağlı öhdəliyin yerinə yetirilməsinə təminat, zəmanət vermək məqsədi ilə aktivin qarşı tərəfə müvəqqəti verilməsi. “Girov haqqında” AR qanununda aşağıdakı kimi tərif verilir: “girov – öhdəliyin icrasının təmin edilməsi üsuludur. Girova əsasən borclu girovla təmin olunmuş öhdəliyi icra etmədikdə kreditor – girovsaxlayan qanunla müəyyən

edilmiş qaydada girov qoyulmuş əmlakın dəyərindən təminat almaqla başqa kreditorlar qarşısında üstünlük hüququna malikdir.”

***Girov Əməliyyatları*** – bankların, lombardların girovla borc vermək üzrə əməliyyatları.

***Girov Hüququ*** – borclunun öz üzərinə götürdüyü, girovla təmin olunmuş öhdəlikləri yerinə yetirmədiyi hallarda, kreditorun, girovsaxlayanın girov qoyulmuş əmlak hesabına, onun ya satılması ya da müsadirə olunması vasitəsi ilə öz iddialarını yerinə yetirməsi hüququdur.

***Girov Kağızı*** – girovqoyanla, o borclu deyilsə, həm də borclu ilə girovsaxlayan arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən qiymətli kağız.

***Girov Qoyan*** – mülkiyyət sahibi olan və onun girov şəklində qoyan şəxsdir (“AR MM”, 271-ci maddə).

***Girov Müqaviləsi*** – girov qoyanın girov saxlayan qarşısındakı öhdəliklərinin yazılı formada razılaşdırılması sənədidir. (“AR MM”, 280-ci maddə).

***Girov Öhdəliyi*** – borcalan tərəfindən kreditora verilən girovla təmin olunmuş öhdəliyi icra etmədiyi halda, girov qoyulmuş əmlakın dəyərindən onun iddialarının təmin edilməsi haqqında hüquq verilməsini təsdiq edən sənəddir.

***Girov Saxlayan*** – girov qoyan tərəfindən girova qoyulmuş əmlak üzərinə hüququ əldə etmiş kreditordur.

***Girov Sertifikatı*** – girov qoyulmuş aktivin müqabilində təqdim edilən qəbz.

***Girov Sərəncamı*** – qeydə alınmış şəxs tərəfindən onun adına yazılmış səhmlərin girovunun yaranması, yaxud ləğvi haqqında qeydin səhmdar cəmiyyətin reyestrinə daxil edilməsi tələbi ilə verilən sənəd.

***Girov Şəhadətnaməsi*** – daşınmaz əmlakın, borclu tərəfindən girova qoyulması haqqında sənəd.

***Girov Verən*** – borcun qaytarılmasına təminat kimi girov vermiş borclu.

***Girov Verilmə*** – əvvəl satılmış kontraktın geri alınması və dərhal

onun daha uzaq tarixə satılması.
***Girovdan İmtina*** – kredit müqaviləsinin borcalanın öz aktivlərini girov qoymaqla bu müqavilə əsasında cəlb olunan kreditlərdən daha üstün təminatla yeni kreditlər götürməsinə imkan verməyən şərti.
***Gizli Məsrəflər*** – firmanın məhsul istehsalı və satışının təmin edilməsi üçün zəruri olan müxtəlif ianələr, maliyyə yardımı, əvəzsiz kreditlər şəklində gizlədilmiş məsrəf.
***Gizli Reklam*** – radio, tele, audio, kino, nəşr və digər məhsullarda istifadə olunan və başqa üsullarla yayılan, istehlakçının şüuruna özünün dərk etmədiyi təsir edən reklam gizli reklam sayılır.
***Gizli Satış (Hərrac, Ticarət)*** – əvvəlcədən xəbərdarlıq edilmədən və alıcıların geniş icazəsi olmadan keçirilən satışlar; qeyri-düzgün rəqabətin formalarından biri.
***Gömrük*** – malların və yüklərin ölkə sərhədlərindən kənara çıxarılmasına və ölkə daxilinə gətirilməsinə, həmçinin ölkə ərazisindən tranzit daşımalara nəzarəti həyata keçirən dövlət qurumu, orqanı.
***Gömrük Agenti*** – gömrük rəsmiləşdirmələrini, eləcə də gömrük işi sahəsində digər vasitəçilik funksiyalarını dövlət orqanının tapşırığı əsasında öz adından həyata keçirən şəxs.
***Gömrük Anbarı*** – idxal və ixrac mallarının saxlanc dövründə gömrük qanunvericiliyinə uyğun saxlandığı yerdir ("AR Gömrük Məcəlləsi", VII fəsil).
***Gömrük Banderolu*** – aksiz, gömrük rüsumu və ya gömrük vergiləri ödənilmiş əmtəə və mallara yapışdırılan etiket.
***Gömrük Bəyannaməsi*** – gömrük sərhədindən keçən mal və nəqliyyat vasitələrinin, AR gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rəsmiləşdirilməsindən keçirilməsidir.
***Gömrük Blokadası*** – yüksək gömrük rüsumları təyin etməklə, gömrük maneələri yaratmaqla bir dövlətin başqa dövlətlər tərəfindən təcrid edilməsi.
***Gömrük Brokerə*** – AR-nin qanunvericiliyinə uyğun olaraq yaradılan və gömrük işi sahəsində müəyyən haqq almaqla vasitəçilik edən hüquqi şəxsdir.

***Gömrük Deklarasiyası*** – hüquqi, və ya fiziki şəxs tərəfindən gömrük sərhədindən keçirilən mal və əmtəələr barəsində gömrük orqanına təqdim olunan rəsmi məlumat, bəyannamə.
***Gömrük Ərazisi*** – ölkənin quru ərazisindən, daxili sularından, sahilində yerləşdiyi iri su hövzəsinin ona mənsub olan bölməsindən və bunların üzərindəki hava məkanından ibarət ərazi. AR-in Gömrük Məcəlləsində aşağıdakı kimi tərif verilir: "AR-in gömrük ərazisinə AR-in quru ərazisindən, daxili sulardan, Xəzər dənizinin AR-ə mənsub olan bölməsindən və onların üzərindəki hava məkanından ibarətdir".
***Gömrük Güzəşti*** – ölkənin gömrük qanunvericiliyi əsasında ölkə ərazisinə əmtəə və xidmətlərin, eləcə də digər qiymətlilərin gətirilməsi, həmçinin çıxarılması və tranzit daşımaları üzrə fiziki və hüquqi şəxslərə tətbiq edilən güzəştlər, üstünlüklər.
***Gömrük Hüququ*** – gömrük işi ilə bağlı ictimai-iqtisadi münasibətləri, həmçinin gömrük orqanlarının fəaliyyətini və dövlətin gömrük siyasətini tənzimləyən qanunvericilik sistemi.
***Gömrük İşi*** – malların və yüklərin ölkənin gömrük sərhədlərindən keçirilməsi ilə bağlı qaydalar və şərtlər, gömrük vergilərinin və gömrük rüsumlarının alınması, gömrük əməliyyatlarının rəsmiləşdirilməsi, gömrük nəzarətinin həyata keçirilməsi, həmçinin gömrük siyasətinin digər vasitələrindən ibarət olan gömrük fəaliyyətinin məcmusu.
***Gömrük İttifaqı – 1)*** Vahid xarici gömrük tarifinə malik olan ümumi gömrük ərazisi; ***2)*** Gömrük ittifaqı öz aralarındakı gömrük sərhədinin ləğv edilməsi və başqa ölkələr üçün vahid gömrük rüsumlarının müəyyən edilməsi haqqında iki və ya bir neçə ölkənin müqaviləsi.
***Gömrük Konvensiyası*** – qoşulmuş ölkələrin gömrük qaydalarının prinsiplərini, gömrük nəzarətinin həyata keçirilməsinin və gömrük rüsumlarının tutulmasının ümumi qaydalarını müəyyən edən beynəlxalq müqavilə.
***Gömrük Kvotası*** – ölkənin gömrük qanunvericiliyinə əsasən müəyyən dövlətlər, və ya dövlətlər qrupuna idxal və ya ixrac olunan mallara dəyər və kəmiyyət hədlərinin tətbiq edilməsi.

***Gömrük Maneəsi*** – yüksək idxal rüsumlarının müəyyən edilməsi vasitəsilə ölkəyə xarici malların gətirilməsinə maneəçilik törədən idxal məhdudiyyətləri.
***Gömrük Məcəlləsi*** – gömrük orqanlarının təşkil edilməsini və fəaliyyətini tənzimləyən qanunvericilik aktı.
***Gömrük Nəzarəti*** – ölkənin gömrük işi ilə bağlı və digər aidiyyatlı qanunvericiliyinə, həmçinin ölkənin gömrük işi sahəsində digər dövlətlərlə qarşılıqlı müqavilələrinə riayət edilməsini təmin etmək məqsədi ilə müvafiq orqanlar tərəfindən həyata keçirilən tədbirlər kompleksi.
***Gömrük Orqanları*** – gömrük işini vahid sistem şəklində həyata keçirən hüquq – mühafizə orqanıdır.
***Gömrük Ödənişi*** – müvafiq qanunvericiliklə müəyyən olunmuş qaydada ölkənin gömrük orqanları tərəfindən alınan ödənişlər.
***Gömrük Proteksionizmi*** – yüksək idxal gömrük rüsumları və əmtəələrin gətirilməsinin lisenziyalaşdırılması vasitəsilə xarici rəqabətdən müdafiənin dövlət iqtisadi strategiyası.
***Gömrük Rejimi*** – gömrük məqsədləri üçün ölkənin gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin statusunu müəyyən edən qanunvericilik müddəalarının məcmusu.
***Gömrük Rəsmiləşdirilməsi*** – ölkənin gömrük qanunvericiliyinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən gömrük rejimi altında yerləşdirilməsi ilə bağlı prosedura və bu gömrük rejiminin fəaliyyətinin başa çatması.
***Gömrük Rüsumları*** – müvafiq qanunvericilik əsasında gömrük orqanları tərəfindən ölkənin gömrük ərazisinə malların idxalı və ölkənin gömrük ərazisindən malların ixracı zamanı alınan qeyri-vergi ödənişləri.
***Gömrük Rüsumlarının Müəyyən Edilmə Üsulları*** – o, 2 üsulla müəyyən edilir. I – rüsum dərəcələri ölkəyə gətirilən malın qiymətindən faizlə hesablanır. Bu, malın qiymətindən alınan rüsum, yaxud advaler rüsum adlanır. II – rüsum malın çəkisindən, həcmindən və ya sayından pul məbləği şəklində alınır. Bu rüsum spesifik rüsum adlanır. Bəzən qarışıq rüsum dərəcələri də tətbiq edilir. Bu rüsum dərəcələri alternativ adlanır. Spesifik rüsumlar

standart mallara, advaler rüsumlar isə standart olmayan mallara daha asan tətbiq olunur.
***Gömrük Rüsumuna Əlavə*** – iqtisadi və siyasi məqsədlərlə gömrük rüsumlarının artırılmasıdır.
***Gömrük Sərhədi*** – ölkənin gömrük ərazisinin hüdudları və sərbəst gömrük zonalarının, eləcə də sərbəst anbarların perimetrlərindən ibarət sərhəd xətti.
***Gömrük Siyasəti*** – ölkənin gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin ölkənin sosial, iqtisadi və siyasi maraqlarına uyğun səviyyədə tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi, ölkədə daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, ümumi iqtisadi siyasətdən irəli gələn müxtəlif vəzifələrin həyata keçirilməsi məqsədi ilə aparılan dövlət siyasəti.
***Gömrük Tarifi*** – gömrük rüsumlarının, və ya gömrük vergilərinin ayrı-ayrı mal qrupları üzrə sistemləşdirilmiş ödəniş dərəcələri.
***Gömrük Təmizlənməsi*** – yük ölkəyə gətirildikdə (ölkədən çıxarıldıqda) gömrük qaydaları ilə nəzərdə tutulmuş rəsmiyyətin yerinə yetirilməsi.
***Gömrük Vergisi*** – yığılması müvafiq qanunvericilik əsasında ölkənin gömrük orqanları tərəfindən həyata keçirilən vergi.
***Gömrük Yığımları*** – gömrük rüsumlarından əlavə tutulan ödəmələr.
***Gömrük Yoxlanması*** – dövlət sərhədindən keçirilən yük və şəxsi əşyaların gömrük işçiləri tərəfindən yoxlanılması.
***Gömrükxana*** – əmtəələrin sərhəddən gətirilməsi və çıxarılmasına nəzarət edən və gömrük rüsumlarını, digər vergiləri tutan dövlət xidməti.
***Göndərən (adresant)*** – hər hansı göndərişi, o cümlədən maliyyə və pul sənədini göndərən tərəf.
***Göndərmə*** – alqı-satqı müqaviləsinin bir növü olub, satıcının razılaşdırılmış müddət ərzində, satıcının sahibkarlıq fəaliyyətində və ya digər məqsədlər üçün istifadə etməsindən ötrü ona malların göndərilməsi ilə bağlı götürdüyü öhdəlikdir.
***Göndərmə Müqaviləsi*** – satıcının razılaşdırılmış müddət ərzində,

sahibkarlıq və ya digər fəaliyyət üçün malın göndərilməsi barədə alıcı qarşısında götürdüyü öhdəliklərin qeyd olunduğu alqı-satqı müqaviləsinin bir növüdür.

***Göndərmə Tarixi*** – əqd bağlayan tərəflərin malın göndərilmə tarixi barədə qəbul etdikləri vaxtdır.

***Görünən İdxal*** – ölkə ərazisinə faktiki gətirilmiş və burada satılmış əmtəələrin idxalı.

***Götürmə*** – sahibkarın müəssisənin təsərrüfat dövriyyəsindən təsərrüfat subyektinin kapital kəmiyyətini azaldan aktivləri götürməsidir.

***Göy Qurşağı*** – valyuta risklərindən müdafiəni nəzərdə tutan istiqrazlar başa düşülür.

***Gözlənilməz Xərclər*** – proqramlar, büdcələr, smetalarda nəzərdə tutulmamış, gözlənilmədən yaranan xərclər.

***Gün Ərzində*** – bir gün ərzində ticarət sessiyasında baş verənlər.

***Günbəgün*** – aparıcı anderayterin yetərincə sifarişləri olmadığı halda ilkin yerləşdirmə təklif təqvimində günə gün olaraq göstərilir.

***Gündəlik tələbat əmtəələri*** – fərdi, ailə istehlakında müntəzəm, tez-tez istifadə edilən əmtəələr.

***Günlük Hasilat*** – işçinin bir növbə ərzində istehsal etdiyi məhsulun miqdarıdır.

***Günlük Qiymət Limiti (həddi)*** – bir gün ərzində xammal, fyuçers və opsion bazarlarında qiymətlərin maksimum yol verilə bilən artımı və ya enişidir.

***Günlük Limit*** – əməliyyat günü ərzində valyuta əməliyyatları üzrə dilerlərə qoyulmuş limit.

***Günlük Sifariş*** – bir gün müddətində yerinə yetirilməli olan alqı və ya satqı sifarişi.

***Günlük Treyderlər*** – gün ərzində öz hesabına qiymətli kağızların qısa müddətli alqı satqı əməliyyatlarını həyata keçirən treyderlər.

***Güzəşt*** – hər hansı subyektin müəyyən qaydalardan, öhdəliklərdən qismən və ya tam azad edilməsi, və ya digərlərinə nisbətdə ona əlavə imkanların verilməsi.

***Güzəştli Kreditlər Pəncərəsi*** – xüsusi proqramlar üzrə, yaxud

beynəlxalq banklar və fondlar tərəfindən inkişaf etməkdə olan ölkələrə yardım çərçivəsində verilən güzəştli kreditlər.

***Güzəştli Qiymət* – *1)*** Malın, güzəştlər həddində azaldılmış, bazis qiymətidir; ***2)*** Satışların stimullaşdırılması məqsədi ilə malın endirilmiş qiyməti, yaxud ayrı-ayrı qrup alıcılar üçün müəyyən edilən qiymət.

***Güzəştli Tarif* – *1)*** Ticarətdə güzəştli rejimin şamil edildiyi ölkələrdən əmtəələr gətirən idxalçılar üçün minimal gömrük rüsumlarını nəzərdə tutan gömrük tarifi; ***2)*** Xidmətlərin, daşımaların təqdim edilmiş güzəştlərə uyğun olaraq azaldılmış ödəmə tarifidir.

***Güzəştli Tarif Fərqi*** – güzəştli gömrük rüsumlarının ödənilməsindən əldə olunan fayda.

# – H –

***Haaqa Qaydaları*** – yüklərin daşınmasında gəmi sahibinin məsuliyyətinin həcmi və formasını müəyyən edən əsas müddəalar.
***Hadisə*** – borclunun iradəsindən kənar baş verən qəzalardır.
***Hakimiyyət Vəhdəti*** – təşkilat prinsipi və təşkilat quruluşunun adekvat sxemidir. Bu sxemə əsasən hər hansı əməkdaşın birdən artıq olmayaraq yuxarı şəxsə tabeçiliyi qoyulmuşdur.
***Haqq*** – müəyyən vəsaitdə pul vəsaitlərini verməsi, əmanət şəklində banka daxil olmağa görə ödənişlərin, haqqın verilməsi, təşkilatda iştirak etmək üçün, mülkiyyətin alınması üçün öz payının ödənilməsi.
***Haqsız Reklam*** – aşağıdakı hallarda reklam haqsız sayılır: reklam olunan əmtəədən istifadə etməyən hüquqi və fiziki şəxsləri gözdən saldıqda; mahiyyətcə reklam olunan əmtəə ilə digər hüquqi və fiziki şəxslərin əmtəələri arasında qeyri-etik müqayisə apardıqda, həmçinin rəqibin şərəf və ləyaqətini, yaxud işgüzar nüfuzunu təhqir edən obraz və məna daşıdıqda; reklamda əhəmiyyətli informasiyanın müəyyən hissəsini qəsdən gizlətməklə istehlakçıları yanlış istiqamətləndirdikdə.
***Haller*** – Çexiyada və Slovakiyada tədavüldə olan xırda monet. 1 haller=1/100 krona
***Hanq Senq İndeksi*** – Honkonq Fond Birjası üçün istinad edilən əsas fond indeksidir. İndeks Honkonq birjasının 70 faiz kapitallaşmasını təmsil edən 33 mavi fişka səhminə əsaslanır.
***Hasilat Əmsalı*** – əlavə dəyərin ödəniş kəmiyyətinə olan nisbətidir. Bu göstərici daha çox əmək haqqı müqavilələrində istifadə olunur.
***Hasilat Sənayesi*** – sənayenin, mineral xammal, filizlər daxil olmaqla kömür, neft, qaz, qızıl, almaz çıxaran sahələrdir.
***Hava Çarteri*** – hava nəqliyyat vasitələrinin icarə edilməsi haqqında müqavilədir.
***Havadarlıq*** – öz üzərinə başqa şəxsə görə öhdəliyin götürülməsi.
***Havayı Səmərə*** – müştərilərin sərbəst vəsaitlərinin yerləşdirilməsi ilə banklar tərəfindən əldə edilən mənfəət.

***Hayrinq*** – ortamüddətli (adətən 1 ildən 3 ilə qədər) lizinq münasibəti.
***Hazır Məmulat*** – istehsal müəssisəsində hazırlanmış, tam komplektləşdirilmiş, texniki nəzarət tərəfindən qəbul edilmiş, anbara faktiki olaraq verilmiş və təslim edilmə sənədləri ilə rəsmiləşdirilmiş məhsuldur.
***Hecirləmə*** – fyuçers sövdələşməsində alıcı eyni zamanda müvafiq sayda fyuçers kontraktı aldıqda qiymətlərin və gəlirlərin sığortalanması formasıdır.
***Hedc*** – arzu olunmaz qiymət dəyişikliyindən qorunmaq üçün edilən investisiya.
***Hedc Fondu*** – səciyyəvi olaraq, çox gəlirli mövqeləri götürməklə və qısa alış, svop, derivativlər, proqram ticarəti və arbitraj kimi aqressiv strategiyalardan istifadə etməklə qəfil və qısamüddətli bazar dəyişikliklərindən yüksək gəlir əldə etməyə can atan özəl investisiya fondudur.
***Hedc Qeyd-Şərti*** – investisiya məsələlərinə dair hesabatlarda müəllifin bütün məlumatın dürüstlüyünə dair məsuliyyət daşımadığını nəzərdə tutan qeyd şərt.
***Hedcer*** – hedc əməliyyatını həyata keçirən subyekt (şirkət, bank və s.).
***Hedcinq*** – riskin minimumlaşdırılmasına yönəldilmiş tədbir və ya ticarət strategiyası.
***Hedcinq Aləti*** – investorların malik olduqları digər investisiyalar vasitəsi ilə baş verə biləcək hər hansı kapital itkisi riskini tənzimləmək məqsədi ilə istifadə etdikləri alətdir.
***Hedcinqin Effektivliyi*** – hedcinq predmetinin dəyəri və ya pul vasitələri axınında hedcinq edilən riskə aid edilə bilən dəyişikliklərin hedcinq alətinin dəyəri və ya pul vəsaitləri axınındakı dəyişikliklər ilə tam qarşılandığı səviyyə.
***Hekşer-Olin Teoremi*** – müxtəlif istehsal strukturlu ölkələr arasındakı xarici ticarətin standart modelidir. İsveçli müəlliflərin şərəfinə belə adlandırılmışdır. Ölkələr adətən, istehsalında nisbətən izafi istehsal resurslarından daha çox istifadə etdiyi məhsulları ixrac etməyə, istehsalı üçün defisit resurslar tələb olunan

məhsulları isə idxal etməyə can atır.
***Heller Büdcəsi*** – ABŞ-da həyat səviyyəsini müəyyən etmək üçün istifadə edilən istehlak büdcəsi. Heller büdcəsi 4 nəfərdən ibarət orta statistik ailənin mövcud bazar qiymətlərinə uyğun istehlak büdcəsini ifadə edir.
***Hesab Kitabı*** – verilmiş qiymətli kağızlar üzrə ticarət mütəxəssisi tərəfindən nəzarət edilən alış və satış sifarişlərinin qeydiyyatı.
***Hesab Vahidi*** – pul vahidi, onun əsasında ölkələrdə qiymətlər təyin edilir və hesablaşmalar aparılır.
***Hesabat*** – təşkilatın, müəssisənin müəyyən keçmiş dövr ərzindəki fəaliyyəti haqqında tərtib edilmiş məlumatlar, göstəricilər.
***Hesabat İli*** – bütün müəssisələr üçün hesabat ili 1 yanvardan 31 dekabra kimidir.
***Hesabdan Çıxarış*** – fyuçers əqdinin bağlandığı gün olan hesablaşma qiyməti ilə cari hesablaşma qiyməti arasındakı fərqidir.
***Hesabdarlıq*** – mühasibat uçotunun hissəsi olub, təsərrüfat əməliyyatlarının qeydiyyat və uçot sənədlərinin mühafizəsi vasitəsi olan mühasibat uçotunun aparılması prosesidir.
***Hesabdarlığın Memorial Order Forması*** – təsərrüfat fəaliyyəti faktlarının 4 qrup üzrə cəmləşdirilmiş rəqəmlərinin uçot formasıdır: ***1)*** malların kreditə satılması (realizasiyası); ***2)*** malların kreditə alınması; ***3)*** kassa mədaxili; ***4)*** kassa məxaricləri. Bu rəqəmlər 4 müvafiq jurnalda qeydə alınır: ***1)*** realizasiya jurnalı; ***2)*** alış jurnalı; ***3)*** pul mədaxil jurnalı; ***4)*** pul ödənişləri jurnalı.
***Hesab-Faktura*** – alıcı tərəfindən əmtəə sifariş edildikdən sonra satıcının alıcının adına tərtib etdiyi, satılan əmtəə və satış qiyməti haqqında məlumatın göstərildiyi hesab.
***Hesabın Açılması*** – fiziki və hüquqi şəxs üçün bankda hesabın açılması prosedurаlarının yeri nə yetirilməsi.
***Hesablama*** – göstəricinin texniki hesablanması və bunun əsasında hazırlanmış sənəd.
***Hesablama Balansı*** – ixrac kreditlərinin verilməsi, pul öhdəliklərinin yaranması, həmçinin idxalın və kreditlərin alınması nəticəsində yaranan bir ölkənin digər ölkəyə olan pul tələblərinin cari nisbətidir.

***Hesablama Qiyməti*** – hər fyuçers vəziyyətinin, mövqeyinin hazırkı günə vahid qiyməti, əvvəlki günün hərracının qurtarmasından bilavasitə qabaq həyata keçirilmiş sövdələşmələrin qiymətləri əsasında müəyyən edilir.
***Hesablama Palatası*** – AR-də dövlət büdcə-maliyyə nəzarətini həyata keçirən, bu nəzarətin nəticələri haqqında Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət orqanıdır.
**Hesablama Sistemi** – ümumi idarəetmə ilə birləşdirilmiş bir neçə hesablama qurğusundan ibarət olan sistemdir.
***Hesablanmış Əmək Haqqı*** – müəssisənin, təşkilatın mühasibatı tərəfindən işçiyə müəyyən vaxt dövrü, adətən ötən ay üçün hesablanmış əmək haqqıdır.
***Hesablanmış Faizlər*** – bankın əmanətçilərə müəyyən vaxt dövrü üçün depozitlərə görə ödəməli olduğu faiz məbləğidir.
***Hesablanmış Göstərici*** – hesablama yolu ilə müəyyən edilən iqtisadi göstərici.
***Hesablanmış Mənfəət*** – resurslara görə ödəmələri və qısamüddətli kreditlərin faizlərini çıxmaqla müəssisənin bütün mənbələrdən olan ümumi, məcmu mənfəəti.
***Hesablanmış Rentabellik*** – plan iqtisadiyyatında, renta ödəmələrinin və bank krediti üzrə faizlərin ödənilməsindən sonra müəssisələrin sərəncamında qalan plan mənfəətinin əsasında hesablanan rentabellik.
***Hesablanmış Veksellər Üzrə Ödəniş*** – əgər şəxs borc götürərsə, onda o vekselin nominal dəyərinə bərabər məbləğ alır.
***Hesablar*** – həmcins əməliyyatlarını qruplaşdırmaq və cari uçotunu aparmaq üçün nəzərdə tutulmuş mühasibat uçotunun formasıdır. Hesablar 2 növə ayrılır: 1) aktiv hesablar; 2) passiv hesablar.
***Hesablar Planı*** – mühasibat uçotunun müəyyən edilmiş əlamətləri üzrə bütün hesabların məcmusudur.
***Hesablar Üzrə Dövriyyə*** – mühasibat balansı hesablarının debeti və krediti üzrə qeydlərin yekunu.
***Hesabların Aparılması*** – hesablaşma hesablarının rəsmiləşdirilməsi, hesablarda vəsaitləri hərəkətinin qeydi, hesabların istifadəsi vasitəsi ilə hesablaşmaların həyata keçirilməsi.

***Hesabların Bağlanması*** – dövlət hakimiyyəti orqanlarının bank hesabı sahiblərini, öz vəsaitlərinə sərbəst sərəncam vermək hüququndan məhrum etməsidir.
***Hesabların İntervensiyası*** – müvafiq sənədlər üzrə qalıqların müəyyənləşdirilməsi və bankdakı hesablaşma hesablarından borca, büdcəyə, alıcıya, mal göndərənə, təhtəlhesab şəxslərə, işçi və məmurlara, deponentə və debitor və kreditorlara köçürülən vəsaitlərin əsaslı olmasının yoxlanılması üçün kompleks tədbirlərdir.
***Hesablaşma*** – əmtəə və ya qiymətli kağızın satıcısı və alıcısı arasında hesablaşma.
***Hesablaşma Balansı*** – ödəmə vaxtından asılı olmayaraq müəyyən vaxtda bir ölkənin tələb və öhdəliklərinin digərinə olan nisbətidir.
***Hesablaşma Çeki*** – müəssisənin hesablaşma hesabından alıcının hesablaşma hesabına pul köçürülməsi formasıdır.
***Hesablaşma Günü*** – əqd üzrə hesablaşmanın keçirilməsi gününün məzənnəsi.
***Hesablaşma Hesabı*** – bankların müstəqil balansı olan hüquqi şəxslər üçün pul vəsaitlərini saxlamaqdan ötrü və başqa hüquqi və fiziki şəxslərlə hesablaşmaları aparmaqdan ötrü açdığı hesab.
***Hesablaşma Hesabından Çıxarış*** – bankın müəssisəyə açdığı şəxsi hesabın ikinci nüsxəsidir.
***Hesablaşma Hesabının Açılması*** – hüquqi şəxs adlanan və müstəqil balansı olan müəssisələr hesablaşma hesabı açırlar. Hesablaşma hesabının açılması qaydaları normativ aktlarla reqlamentləşdirilib və hər bir müəssisə bankda ancaq bir hesablaşma hesabı aça bilər.
***Hesablaşma Qiyməti*** – ticarət günü ərzində törəmə qiymətli kağızları üçün ödənilən son məbləğ.
***Hesablaşma Qrupu*** – mühasibatın struktur bölməsi olub, ilkin sənədlərin əsasında əmək haqqı və ondan tutulmalar üzrə hesablaşmaları aparır, əmək haqqı fondu və istehlak fondundan istifadəyə nəzarəti həyata keçirir, sosial sığortaya, pensiya fonduna, məşğulluq fonduna və s. ayırmaların hesablaşma uçotunu aparır.
***Hesablaşma Münasibətləri*** – şirkətlər, müəssisələr arasında əmtəə,

xidmət və işlər üzrə ödəmələrin edilməsi ilə bağlı olan maliyyə münasibətləri.

***Hesablaşma Palatası*** – əmtəə və fond birjasının tərkibinə daxil olan, əqdlər üzrə hesablaşmaları keçirən və onların icrasına nəzarət edən orqan.

***Hesablaşma Riski*** – hesablaşma zamanı tərəflərdən birinin müqavilə üzrə öhdəliyini yerinə yetirməməsi riski.

***Hesablaşma Sertifikatı*** – klirinq palatası üzvlərinin qarşılıqlı borcları haqqında sənəd.

***Hesablaşma Sənədləri*** – müəssisələrin, şirkətlərin, təşkilatların, əmtəələrin, işlərin, xidmətlərin ödənilməsi və b. ödəmələrin edilməsi üçün pul vəsaitlərinin nağdsız şəkildə köçürülməsinə dair yazılı şəkildə tərtib edilmiş ödəmə tələb və tapşırıqları.

***Hesablaşma Tarixi*** – əmtəə və qiymətli kağızın alıcı və satıcı arasında mübadilə tarixi.

***Hesablaşmalar Üzrə Dönərlilik Əmsalı*** – müəssisənin kreditə satılmış məhsullarına görə alacağı ödənişləri səciyyələndirən göstəricidir. Bu əmsal hesablaşmaya qoyulmuş vəsaitin il ərzində neçə dövr etməsini göstərir. Dönərlilik əmsalı realizasiyanın ümumi həcmini alınacaq vəsaitlərin orta miqdarına bölməklə tapılır.

***Hesablaşmalarda Vəsaitlər*** – mallara və xidmətlərə, məhsullara görə, verilmiş avanslar üzrə, alınmış veksellər üzrə, təhtəlhesab şəxslərdəki məbləğə görə olan debitor borclarıdır.

***Hesablaşmaların Aksept Forması*** – ödəmə tələbi üzrə nağdsız hesablaşmaların formalarından biri olub, malgöndərənin bank vasitəsi ilə alıcının müvafiq hesabından pulun silinməsi yoludur.

***Hesablaşma-Kassa Xidməti*** – müəssisələrin, şirkətlərin, təşkilatların qarşılıqlı hesablaşmalarının banklar və b. maliyyə-kredit təşkilatları vasitəsilə keçirilməsi üzrə xidmətlər.

***Həcm*** – müəyyən müddət ərzində bütün bazarda reallaşan əqdlərin və ya səhmlərin miqdarı.

***Həddən Artıq Alış/Satış*** – bu və ya digər istiqamət üzrə qiymətlərin nə zaman və hansı sürətlə dəyişdiyini müəyyən etməyə çalışan texniki təhlil alətidir.

***Həddən Artıq Sığorta*** – əmlak sığortası növü: sığorta obyektinin sığorta təminatı onun həqiqi dəyərindən artıq olur. Nəzərdə tutulur ki, bu halda sığorta müqaviləsi sığorta dəyərindən çox olan məbləğə də şamil edilir. Əgər sığorta obyektinin dəyəri sığorta etdirən tərəfindən bilərəkdən artırılırsa, sığortaçı müqaviləni ləğv edə bilər.
***Həddən Çox Yazılma*** – sifarişin sayı mövcud səhmlərdən daha çox olduğu hal.
***Hədsiz Tələbat*** – bu və ya digər mal və xidmətlərə təklifi xeyli aşan, ötən yüksək tələbat.
***Həqiqi Dəyər*** – tutulan verginin hesablanması məqsədilə satış həcminin qiymətləndirilməsi zamanı əmtəələrin, obyektlərin cari qiymətlərlə ifadə edilmiş dəyəri.
***Həmcins Mallar*** – bütün xüsusiyyətləri eyni olmasa da, oxşar cəhətləri olan və oxşar komponentlərdən hazırlanan, eyni funksiyaları yerinə yetirən və kommersiya cəhətdən qarşılıqlı dəyişdirilə bilən mallardır.
***Həmsahib*** – əmlakın, qiymətlilərin bir hissəsinin sahibi.
***Hər Səhmə Düşən Aktivlərin Xalis Dəyəri*** – tədavülə buraxılmış səhmlərin sayına bölünmüş təmiz aktivlər.
***“Hər şey və ya heç nə” Prinsipi İlə Sifariş*** – müştərinin brokerə verdiyi icrası tam həcmdə mütləq yerinə yetirməli olan sifariş, əks halda, belə sifariş ləğv olunur.
***“Hər şey və ya heç nə” Prinsipi İlə Təklif*** – anderrayterin təklif olunan bütün səhmləri sata bilmədiyi halda emitentin təklifi ləğv etmə hüququ.
***Hərbi Büdcə*** – dövlət büdcəsinin hərbi ehtiyalara sərf edilən bir hissəsi.
***Hərrac*** – alıcıların müsabiqəsi əsasında malların müəyyən vaxtda və müəyyən edilmiş yerdə növbə ilə satışı.
***Hərrac Satışı*** – hərrac qaydaları ilə keçirilən açıq satış.
***Həvaləetmə (tapşırıq)*** – bir tərəfin başqa tərəfin adından və onun hesabına müəyyən hüquqi hərəkətləri yerinə yetirməyə öhdəlik götürməsi haqqında razılaşmadır.
***Həyat Dəyəri İndeksi*** – əhalinin müxtəlif qruplarının istehlak

səbətinə daxil olan istehlak əmtəələri və xidmətlərinin təsbitli dəstinə uyğun olaraq istehlak əmtəələri qiymətlilərinin və xidmət tariflərinin dəyişməsini göstərən indeks. \
***Həyat Səviyyəsi*** – əhalinin rifahı, nemətlərin və xidmətlərin istehlakı səviyyəsi, insanların həyat tələbatlarının təmin olunması dərəcəsini səciyyləndirən şərtlərin və göstəricilərin məcmusu.
***Həyat Səviyyəsi İndeksi*** – əhalinin, onun müəyyən qruplarının real gəlirlərinin səviyyəsinin dəyişməsini səciyyələndirən indeks.
***Həyat Sığortası*** – sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa, yaxud əlilliyə görə tamamilə və ya qismən itirilməsi halları üçün aparılan sığortadır.
***Həyat Tərzi*** – insanların həyatının sosial və iqtisadi tərəfini səciyyələndirən ümumiləşdirici anlayış.
***Həyata Keçirilmə Qiyməti*** – opsion sahibinin bu opsion üzrə baza aktivini (qiymətli kağızı) ala və sata bildiyi qiymət.
***Həyatın Dəyəri*** – insanlara, ailəyə həyat üçün zəruri əmtəələrin, nemətlərin, xidmətlərin cari qiymətlərdə hesablanmış dəyəri.
***Həyatın Qarışıq Sığortası*** – şəxsi sığorta növü. Bu zaman sığorta məbləği sığorta müqaviləsinin müddəti bitdikdən sonra ödənilir, lakin bədbəxt hadisə üzündən əmək qabiliyyətinin itirilməsi, yaxud ölüm hallarında vaxtından əvvəl də ödənilə bilər.
***Hibrid Qiymətli Kağızlar*** – iki və daha çox maliyyə alətinin xüsusiyyətlərinə malik olan qiymətli kağızlar (məsələn, kupon faizi müəyyən əmtəənin qiymətindən asılı olan istiqrazlar).
***Himayəedici Rüsumlar*** – idxal edilən əmtəələrə yüksək gömrük rüsumları.
***Himayədarlıq*** – daxili bazarı xarici rəqabətdən qorumaq üçün, malların və xidmətlərin beynəlxalq hərəkətini məhdudlaşdırmaq məqsədi ilə dövlətin həyata keçirdiyi maneələr sistemidir.
***Hiperinflyasiya*** – iqtisadi stabilliyi ciddi şəkildə pozan, həddən artıq yüksək səviyyəli inflyasiya prosesi.
***Hipoteza*** – elmi əsası olan, iqtisadi proseslərin və hadisələrin izah edilməsi üçün və onların qabaqcadan görmək məqsədi ilə irəli sürülən ehtimal.
***Holdinq Şirkəti*** – digər şirkətlərin nəzarət səhm paketlərinə sahib

olmaqla onlar üzərində nəzarət hüququna malik olan şirkət.

***Holland Hərracı*** – hərracı aparanın daha yüksək qiymətlə başladığı və qiymətin hər hansı bir iştirakçı tərəfindən qəbul olunana qədər aşağı salındığı hərrac.

***Holland Sindromu*** – iri həcmdə yeni təbii ehtiyat mənbələrinin aşkar edilməsi nəticəsində ölkə iqtisadiyyatının xammal ixracatçısına çevrilməsi, ölkə təsərrüfatında prioritet olan istehsal sahələrinin zəifləməsi, qısamüddətli sosial-iqtisadi inkişafın müşahidə edilməsindən sonra ciddi iqtisadi böhranın baş verməsi.

***Hökumət Krediti*** – hökumət kredit təşkilatları tərəfindən verilən kredit. Çox vaxt məqsədli və güzəştli olur.

***Hökumət Tədarükü*** – mərkəzi və yerli hakimiyyət orqanları tərəfindən əmtəə və xidmətlərin alqısı, tədarükü.

***Humanitar Yardım*** – humanitar düşüncədən, mərhəmət hissindən, yaxınlara qayğından göstərilən təmənnasız maddi yardım.

***Hücum*** – müəyyən əmtəə bazarında lider mövqeyi tutmağa can atan firmalar tərəfindən tətbiq edilən mütərəqqi qiymət taktikası.

***Hüquq*** – ümumi cəmiyyət səviyyəsində ictimai münasibətlərin hüquqi reqlamentini təmin edən məcburi sosial normalar sistemi.

***Hüquq Məsləhətçisi*** – müəssisənin, təşkilatın, firmaların hüquqi məsələlər üzrə daimi məsləhətçisi, öz təşkilatının maraqlarının məhkəmə və digər instansiyalarda müdafiə edən şəxs.

***Hüquqi Akt*** – hüquqi vəziyyət yaradan və ictimai münasibətlərin tənzimlənməsinə yönəldilmiş, müəyyən hüquqi nəticələr yaradan rəsmi sənəddir.

***Hüquqi Fakt*** – mövcud qanunvericiliklə əlaqədar olaraq mülki hüquq və öhdəliklərin yaranması, dəyişdirilməsi və dayandırılmasının real faktıdır.

***Hüquqi Hərəkətlər*** – subyektlərin hüquqi əməlləri olub, onun bu və ya digər məqsədindən və ya hüquqi nəticəsindən asılı olmayaraq, qanunla müəyyən hüquqi nəticəsi vardır.

***Hüquqlar İstisna olmaqla*** – səhmlərin onlar üzrə bütün hüquq və imtiyazların satıcıda qalması şərti ilə ticarəti.

***Hüquqi Məsuliyyət*** – hüququn tələblərinin icrasına dövlət məcburiyyətidir, tərəflərin hər birinin öz əməllərinə görə digərinin

qarşısında dövlət məcburi cavabdehliyini göstərən hüquq münasibətləridir.

***Hüquqi Şəxs*** – ölkə qanunvericiliyi ilə müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçən, mülkiyyətində əmlakı olan, özünün öhdəlikləri üçün bu əmlaka bilavasitə cavabdehlik daşıyan, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq hüququna və müstəqil mühasibat balansına malik olan qurum.

***Hüquqi Şəxsin Müflis Olması*** – kreditorların tələbini ödəməyə qadir olmamaqdır. Hüquqi şəxs məhkəmənin qərarı ilə müflis elan oluna bilər.

***Hüquqi Şəxslərdən Vergi*** – hüquqi şəxs kimi qeydiyyatdan keçmiş müəssisə, təşkilat, firma, sahibkarların müxtəlif növ vergilərə cəlb edilməsidir.

***Hüquqi Şəxslərin Ayrılmasında Hüquqi Varislik*** – hüquqi şəxslərin ayrılarkən, bölünmə balansına uyğun olaraq, hüquq və öhdəliklər yeni yaranmış hüquqi şəxsə keçir.

***Hüquqi Şəxslərin Birləşməsində Hüquqi Varislik*** – bir hüquqi şəxs digəri ilə birləşdikdə səlahiyyət təhvil aktına uyğun həyata keçirilir, daha doğrusu hüquq və öhdəliklər təhvil alana keçir.

***Hüquqi Şəxslərin Birlikləri*** – sahibkarlıq fəaliyyətinin koodinasiyası, habelə onların əmlak maraqlarının qorunması məqsədi ilə kommersiya təşkilatlarının müqaviləsi ilə yaradılmış qeyri-kommersiya təşkilatıdır.

***Hüquqi Şəxslərin Mənfəət Vergisi*** – ölkənin vergi qanunvericiliyi əsasında rezident və qeyri-rezident müəssisələrin mənfəətinə tətbiq edilən vergi.

***Hüquqi Şəxslərin Mülkiyyət Hüququ*** – mövcud qanunların icazə verdiyi mülkiyyətdən başqa, istənilən əmlak hüquqi şəxsin mülkiyyətində ola bilər.

***Hüquqi Şəxslərin Mənfəət Vergisi Üzrə Vergitutma Obyekti*** – rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. AR-də özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə

etdiyi ümumi gəlirin bu Məcəlləyə uyğun olaraq həmin gəlirin əldə edilməsinə çıkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

***Hüquqi Tənzimləmə*** – ictimai münasibətlərin dövlət tənzimlənməsi forması olub, bu münasibət iştirakçılarının qanun normalarında olan tələblər və icazələrə uyğun davranmasıdır.

***Hüquqi Tənzimləmə Metodu*** – subyektlər arasında hüquqi təsir predmetlərinin əsas xüsusiyyətləri nəticəsində formalaşan münasibətlərin tənzimlənməsi qaydaları və vasitələri toplusudur.

***Hüquqi Tərkiblər*** – mülki hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam verilməsi ilə şərtləndirilən müxtəlif növlü hüquqi faktların toplusudur.

***Hüquqi Varislik*** – bilavasitə qanunla və ya razılaşma ilə hüququn bir şəxsdən digərinə keçməsidir. Hüquqi varislikdə yeni subyekt hüquqi münasibətdə əvvəlkinin yerini tutur, ona keçən hüquq isə ilkin subyektdə olduğu kimi qalır.

***Hüquqlu Səhm*** – hüquqların təklif olunmasını elan edildiyi andan “ekshüquq” anınadək alınan bu cür səhm öz sahibinə həmin şirkətin əlavə səhmlərini almaq hüququ verir.

***Hüquqpozma (hüquq pozuntusu)*** – cəmiyyətə ziyav vuran və qanunla cəzalandırılan əməldir. Ən təhlükəli hüquq pozuntusu cinayətdir.

***Hüququn Analogiyası*** – oxşar münasibətləri tənzimləyən mülki hüquq normaları olmadıqda tərəflərin hüquq və vəzifələrinin mülki qanunvericilik prinsiplərinin əsas götürülməsi ilə tənzimlənməsidir.

***Hüququn Mənbəyi*** – səlahiyyətli dövlət orqanlarının aktlarında əks etdirilən dövlət iradəsidir. Hüququn mənbəyi dedikdə, AR konstitusiyası, AR Milli Məclisinin qanun və qərarları, AR prezidentinin fərman və sərəncamları və AR Nazirlər Kabinetinin qərar və sərəncamları başa düşülür.

# – İ –

***İanə*** – bir xeyir iş üçün, yaxud ehtiyacı olan bir adam və cəmiyyət üçün əvəzsiz olaraq verilən və toplanılan pul, maddi yardım, kömək.

***İaşə* – 1)** yedirtmə, yedirib-içirmə; ***2)*** qida, yeyəcək, yeyinti.

***İaşə Müəssisəsi*** – yeməkxana, aşxana, kafe və s.

***İcarə*** – müqavilə əsasında əmlakın pulla istifadəyə verilməsidir. İcarələr uzunmüddətli, operativ, cari və maliyyə lizinqi kimi növlərə ayrılır.

***İcarə Haqqı*** – icarəyə götürülmüş əmlakdan istifadə etmək hüququnun pul şəklində ödənilməsi.

***İcarə Müəssisəsi*** – bir qrup icarəçi tərəfindən, məsələn, müəssisənin kollektivi şəxsində, mülkiyyətçidən, dövlətdən icarəyə götürülmüş müəssisə.

***İcarə Müqaviləsi*** – əmlak müqaviləsi olub, kirayəyə verən kirayəçiyə icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı, bəhrədən istifadə etmək və gəlir götürmək hüququ da verir.

***İcarə Olunmuş Müqavilələr*** – heç olmasa bir tərəfin öz öhdəliyini yerinə yetirdiyi müqavilədir.

***İcarə Olunacaq Müqavilələr*** – heç olmasa bir tərəfin öz öhdəliyini yerinə yetirdiyi müqavilələrdir.

***İcazə*** – şirkətin səhmlərinin birjada qəbul edilməsi faktı, səhmlərin kursunun müəyyən edilməsidir, bundan sonra birjada səhmlərin qiymətləndirilməsindən başlayır.

***İcmal Büdcə*** – "Büdcə sistemi haqqında" AR qanununda aşağıdakı kimi tərif verilir: "İcmal büdcə – dövlət büdcəsinin, NMR büdcəsinin, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının, büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində icmalı".

***İcmal Maliyyə Hesabatları*** – yalnız iqtisadi subyektin fəaliyyətinin nəticələrinə və maliyyə vəziyyətinə dair əsas göstəricilərlə maraqlı istifadəçi qruplarını məlumatlandırmaq

məqsədini daşıyan və yoxlanılmış illik maliyyə hesabatlarının ümumiləşdirilmiş forması kimi tərtib olunan maliyyə hesabatı.

***İcmal Mühasibat Balansı*** – şirkətin və onun törəmə müəssisələrinin maliyyə vəziyyətini ümumiləşdirilmiş şəkildə əks etdirən mühasibat balansı.

***İcra Edilən Kredit*** – faiz və əsas məbləğin qaytarılması üzrə ödənişləri, əvvəlcədən nəzərdə tutulmuş qrafikə uyğun olaraq, vaxtında (və ya cüzi gecikmələrlə) ödənilən kredit.

***İcra Etmək, Yaxud Geri Götürmək*** – müşştərinin treyderə verdiyi sifariş. Ona əsasən sifarişin təmi edilməsi mümkün olan hissəsi yerinə yetirilən kimi sifarişin digər hissəsi geri götürülür.

***İcra Qeydi*** – borcludan pulun, yaxud əmlakın alınması haqqında borc sənədinin əsli üzərində edilmiş notarius sərəncamı.

***İcraçı*** – digər şəxsin sifarişi, tapşırığı ilə və ya iş və xidmət sifarişçisi ilə müqaviləyə əsasən iş görən, xidmət göstərən hər hansı bir şəxs (müəssisə, təşkilat, firma, vətəndaş).

***İcraçı Direktor*** – inzibatçı direktor –rəhbər inzibatçı, operativ idarəetmə məsələlərini həll edən.

***İctimai Əlaqələr*** – məqsədi mərkəzi hökumət, dövlət orqanları tərəfindən qəbul edilən qərarlar, onların iqtisadiyyat və siyasət üçün əhəmiyyəti, doğura bildiyi nəticələri haqqında ictimaiyyətin, əhalinin, kütləvi informasiya vasitələrinin məlumatlandırılması olan fəaliyyət.

***İctimai Korporasiya*** – səhmdarların sayı az olan, səhmlərinin isə əksəriyyəti bir sahibə, ailəyə və ya məhdud sayda səhmdarlara məxsus olan səhmdar cəmiyyəti.

***İctimai Maliyyə Nəzarəti*** – fiziki şəxslər və ictimai institutlar tərəfindən əvəzsiz və könüllülük əsasında həyata keçirilən maliyyə nəzarəti.

***İctimai Nemət, İctimai İstehlak Fondları*** – vətəndaşlara dövlət tərəfindən bərabər əsaslarda verilən əmtəə və xidmətlər.

***İctimai Təşkilatların Mülkiyyət Hüququ*** – ictimai və dini təşkilatların xeyriyyə və digər fondların mülkiyyətində ancaq özləri tərəfindən əldə edilmiş əmlakdan, təsis sənədlərində nəzərdə tutulmuş məqsədlər üçün istifadə edə bilərlər.

***İctimai Yardım*** – müxtəlif müavinətlər şəklində əhalinin az təminatlı təbəqələrinə dövlət yardımı proqramları: xeyriyyə proqramları.
***İdarə*** – qeyri-kommersiya təşkilatı kimi mülkiyyətçi tərəfindən təsis olunan və tamamilə onun tərəfindən maliyyələşdirilən idarəçilik, sosial-mədəni və digər qeyri-kommersiya xarakterli işlər üçün yaradılır.
***İdarə Heyətinin Sədri (Baş İcraçı Direktor)*** – şirkətdə əsas korporativ qərarların verilməsi, yüksək səviyyəli strategiyaların müəyyən olunması və icrası, ümumi əməliyyatların idarə olunmasına cavabdeh olan şəxs.
***İdarə Maliyyə Nəzarəti*** – müvafiq qanunvericiliyə uyğun şəkildə müəssisə və idarələrin istehsal və maliyyə fəaliyyəti üzərində nazirliklərin şöbələri, şirkətlər, yerli hakimiyyət orqanları, idarələr və s. tərəfindən həyata keçirilən maliyyə nəzarəti.
***İdarəetmə*** – subyektlər, orqanlar tərəfindən adamlara və iqtisadi obyektlərə şüurlu məqsədyönlü təsiretmədir.
***İddia*** – nəyəsə mülkiyyət hüququnun bildirilməsi.
***İddia Ərizəsi*** – fiziki, yaxud hüquqi şəxsin, onun hüquqlarının pozulması, götürülən öhdəliklərinin icra edilməsi haqda, pozulmaya yol vermiş tərəfin adına və ya məhkəməyə verdiyi rəsmi ərizəsi.
***İddiaçı*** – məhkəməyə müraciət edən şəxsdir.
***İddia aparmaq*** – ödəniş vaxtında icra olunmadıqda veksel saxlayanın iddia qaldırmaq hüququdur.
***İdeal Bazar, Mükəmməl, Azad Bazar*** – aşağıdakı əlamətlərə malik yüksək rəqabətli bazar: bazar iştirakçılarının qeyri-məhdudluğu, satıcı və alıcıların çoxsaylı olması, bazara giriş və çıxışın sərbəstliyi, qiymətlərin sərbəstliyi, bazarda eyni adla təmsil edilən əmtəələrin yekcinsliyi, müəyyən bazar iştirakçılarının digər iştirakçılara təzyiq etməməsi.
***İdeal Əmtəə*** – konkret insan tələbatını ödəməyə qadir olan və bazar əmtəəsinin bütün əlamətlərini özündə təcəssüm etdirən, tələb və təklifin olduğu müəyyən əmtəə.
***İdentifikasiya*** – şəxsi nömrə, imza, kod, göstərici vasitəsi ilə

bankın bank müştərilərinin, müəssisənin, vergi ödəyicilərinin, sığorta olunan subyektin və s.-in fərqləndirilməsi.

***İdentura*** – istiqraz sahibinin səhmdar cəmiyyət, yaxud digər emitent subyekt üzərində hüquqlarını müəyyən edən müqavilə (yazılı razılaşma).

***İdxal*** – satış, istehlak və ya digər məqsədlər üçün əmtəələrin, yaxud kapitalın xaricdən ölkə ərazisinə gətirilməsi, habelə xarici subyektlərin xidmətlərindən ölkə ərazisində istifadə edilməsi.

***İdxal Agenti və ya Agent-Rezident*** – prinsipialın ölkəsində yerləşən və onun hesabına idxal əməliyyatları həyata keçirən firmalardır.

***İdxal Depoziti*** – dövlət tərəfindən təsbit olunan gömrük qanunvericiliyini bu və ya digər formada pozduğuna görə idxalçı subyektə təqdim edilən xüsusi maliyyə sanksiyası, cərimə.

***İdxal Firmaları*** – öz hesabına xarici ölkələrdən mal alıb sonradan mənfəətlə onu öz ölkəsinin daxili bazarında sənayeçilərə, topdan və pərakəndəsatış tacirlərinə satan firmalardır.

***İdxal – İxrac Bankı*** – ABŞ dövlətinin ixracını stimullaşdırmaq məqsədi ilə kreditlər təqdim edən, Maliyyə Nazirliyinin vəsaitlərini cəlb edən, zəmanətlər təqdim edən, bu sahədə müstəqil agent kimi fəaliyyət göstərən ABŞ Eksimbankı.

***İdxal-İxracın Tarif Tənzimlənməsi*** – dövlətin xarici iqtisadi fəaliyyətə gömrük rüsumları qoymaq yolu ilə göstərdiyi təsir alətidir.

***İdxal-İxracın Valyuta Tənzimlənməsi*** – dövlətin ümumi maraqlarını qorumaq məqsədi ilə xarici-iqtisadi fəaliyyət iştirakçılarına dövlətin təsir formalarından biridir.

***İdxal Kvotası*** – milli iqtisadiyyatın, bazarın müdafiəsi məqsədi ilə müəyyən növ əmtəələrin ölkəyə gətirilməsinə mərkəzi hökumət tərəfindən qoyulan qeyri-tarif, yəni qiymət və vergilərlə bağlı olmayan kəmiyyət məhdudiyyətləri.

***İdxal Lisenziyası*** – firmaya müvafiq dövlət orqanı tərəfindən verilmiş və idxalçıya ölkəyə müəyyən, adları göstərilmiş əmtəələri ölkəyə gətirməyə icazə verən sənəd.

***İdxal Lizinqi*** – avadanlığın lizinq şirkəti tərəfindən xarici firmadan

alınması və sonradan ölkədəki müəssisələrə-lizinq alanlara icarəyə verilməsidir.

***İdxal Rüsumları*** – ölkəyə xaricdən mallar gətirən şəxslərdən dövlət tərəfindən alınan gömrük rüsumları.

***İdxalatçı*** – idxalı həyata keçirən subyekt-hüquqi və ya fiziki şəxs.

***İdxalın Diversifikasiyası*** – milli məhsulların keyfiyyət göstəricilərinin artırılması yolu ilə ixrac məhsullarının növlərinin çoxaldılması.

***İdxalın Əvəzlənməsi*** – kvotaların və tariflərin köməyi ilə idxal edilən məhsulların yerli məhsullarla əvəz edilməsi siyasəti.

***İdxalın Səmərəliliyi*** – daxili bazarda dxili qiymətlərlə satılmış, idxal edilmiş malın dəyərinin, onun xarici ticarət qiymətində olan dəyərinə nisbəti ilə qiymətləndirilən idxalın faydalılığı.

***İflas – 1)*** Böhran hadisəsini, xüsusilə müəssisənin, firmanın müflis olmasını, yoxsullaşmasını ifadə edən termin;***2)*** Tam uğursuzluq, müvəffəqiyyətsizlik.

***İxrac*** – satış, istehlak və ya digər məqsədlər üçün əmtəələrin, kapitalın ölkə ərazisindən, sərhədindən xaricə aparılması, çıxarılması.

***İxrac Bankı*** – ixrac kreditlərinin təqdim edilməsi, eləcə də ixrac əməliyyatları ilə bağlı müxtəlif bank xidmətlərinin göstərilməsi üzrə ixtisaslaşan bank.

***İxrac Faktorinqi*** – borclu tərəf, yəni faktorinq münasibətlərindəki üçüncü tərəf kimi xarici subyektin çıxış etdiyi faktorinq əməliyyatı.

***İxrac Fondu*** – ixrac göndərilmələri üçün nəzərdə tutulan, ayrılan mal resurslarının müəyyən hissəsi.

***İxrac-Gömrük Rejimi*** – malların AR-in gömrük ərazisindən bu əraziyə qaytarılmaq haqqında öhdəlik götürülmədən aparılmasından ibarət gömrük rejimidir (AR Gömrük Məcəlləsi, 96-cı maddə).

***İxrac Krediti*** – hökumət, ixracat bankları və ya digər subyektlər tərəfindən həmin ölkədə ixracatçı subyektdən məhsul əldə edən xarici müəssisə və firmalara təqdim edilən kredit.

***İxrac Kvotası*** – ixracın məhdud olduğu şəraitdə dövlət orqanları tərəfindən müəssisələrə, firmalara, başqa ixracatçılara verdiyi

müəyyən malların ixrac edilmək miqdar, həddi.
***İxrac Resursları*** – ixracın resurs imkanları, xarici bazarlarda satılmaq üçün nəzərdə tutulmuş iqtisadi məhsulların, maliyyə resurslarının, növ və həcmləri, ölkənin cari satış üçün nəzərdə tutulmuş ixrac potensialının bir hissəsi.
***İxrac Rüsumları*** – ölkənin ticarət və s. ödəmə balanslarının tənzimlənməsi üçün adətən müvəqqəti tədbir kimi tətbiq edilən gömrük rüsumlarının növüdür.
***İxrac Subsidiyası*** – ticarət məhdudiyyətlərinin qeyri-tarif formalarından biri olub, dövlətin açıq və ya gizli şəkildə öz ixracını stimullaşdırmaq və görünməyən idxal diskriminasiyasının qarşısını almaq məqsədi ilə yerli istehsalçılara verdiyi subsidiyadır.
***İxraca Nəzarət*** – ixracın dövlət tərəfindən məhdudlaşdırılmasıdır.
***İxraca Yararlı*** – ixrac olunub-olunmayacağından asılı olmayaraq, ixraca yararlı mal və xidmətlərdir.
***İxracatçı*** – ixracı həyata keçirən subyekt – hüquqi və ya fiziki şəxs.
***İxracın "Könüllü" Məhdudlaşdırılması*** – xarici ticarətin dövlət tənzimlənməsinin metodlarından biridir. İxracın könüllü məhdudlaşdırılması dedikdə, tərəfdaşlardan birinin xarici ticarətdən ya tamamilə, ya da qismən könüllü imtinası başa düşülür.
***İxtira*** – təcrübədə istifadə oluna bilən elm, mədəniyyət, səhiyyə və digər sahələrdə texniki xarakterli məsələlərin yeni proqressiv yaradıcılıqla həll edilməsidir.
***İxtisar*** – bir, yaxud bir neçə müəssisədə, təşkilatda işçilərin sayının azaldılması.
***İxtisas Dərəcəsi*** – işçinin peşə səviyyəsini müəyyən edən və onun əmək haqqına təsir göstərən sıra rəqəm şəklindəki göstərici.
***İxtisaslaşma*** – fəaliyyətin nisbətən məhdud, xüsusi istiqamətlər, ayrı-ayrı texnoloji əməliyyatlar, yaxud məhsul növləri üzrə cəmlənməsi.
***İxtisaslaşmış Bank*** – başlıca fəaliyyəti iqtisadiyyatın yalnız bir və ya bir neçə sahəsinə aid olan, yəni bir istiqamətdə fəaliyyət göstərən bank. Kənd təsərrüfatı bankı, ipoteka bankı, investisiya

bankı, əmanət bankı və s. ixtisaslaşmış banklar qrupuna aiddir.

***İxtisaslaşmış Fond Birjası*** – ticarət dövriyyəsində qiymətli kağızların hansısa bir növünün üstünlük təşkil etdiyi birja.

***İxtisaslaşmış İxrac Firmaları*** – hər hansı bir əmtəə və ya çeşid üzrə oxşar əmtəələrin xaricdə satışı ilə məşğul olan firmalardır.

***İxtisaslaşmış Uduş*** – beynəlxalq ticarətdə hər hansı bir mal istehsalı üzrə mütləq və ya nisbi üstünlüyə malik olduğuna görə ölkənin qazandığı üstünlükdür.

***İkiqat Anbar Şəhadətnaməsi*** – malların qorunmaq üçün anbara daxil olmasını təsdiq edən və iki hissədən – anbar şəhadətnaməsi və girov şəhadətnaməsindən ibarət qiymətli kağızdır.

***İkiqat Gömrük Tarifi*** – iki dərəcə üzrə gömrük rüsumlarını əks etdirən tarif, tarif sistemi. Bu halda ölkədən ixrac edilən, yəni ölkəyə məxsus olan əmtəələr üçün minimal, ölkəyə idxal edilən, yəni başqa ölkəyə məxsus olan əmtəələr üçün isə maksimal gömrük rüsumu dərəcələri tətbiq edilir.

***İkiqat Məzənnə*** – milli valyuta kursunun ikiqat qiymətləndirilməsindən ibarət olan valyuta əməliyyatlarının dövlət tənzimlənməsi üsuludur.

***İkiqat Sığorta*** – eyni sığorta obyektinin eyni zamanda iki və ya daha çox sığorta şirkətində sığortalanması.

***İkiqat Təminatlı İstiqraz*** – bələdiyyə tərəfindən buraxılan və iki müxtəlif maliyyə mənbəyi ilə təmin edilən istiqraz.

***İkiqat Vergitutma*** – eyni vergitutma obyektinin iki müxtəlif ölkədə vergiyə cəlb edilməsi.

***İkiqat Yazılış*** – hər bir təsərrüfat əməliyyatının eyni miqdarının olduğu kimi iki hesabda – bir debet, digər kreditor yazılması ilə həyata keçirilən mühasibat uçotu üsuludur.

***İkiqat Yazılış Sistemi*** – mühasibat uçotunun aparılması sistemi olub, ikililik prinsipinə əsaslanır. Bu prinsipə görə bütün iqtisadi hadisələr, təsərrüfat əməliyyatları iki aspektə malikdir: artma və azalma; yaranma və yoxolma; itirmə və əldə etmə.

***İkili Məzənnə*** – dövlət tərəfindən valyuta əməliyyatlarının tənzimlənməsi məqsədi ilə milli valyuta üzrə iki müxtəlif məzənnənin müəyyən edilməsi.

***İkili Mühasibat*** – ikili mühasibat yazılışı, qeydi bu mühasibat uçotu aparılmasının geniş yayılmış üsuludur, mahiyyəti ondan ibarətdir ki, hər bir təsərrüfat, maliyyə əməliyyatları barədə ikili yazılış aparılır.

***İkili Valyuta Bazarı*** – ikili qiymət səviyyəsi mövcud olan valyuta bazarı.

***İkili Valyuta Məzənnəsi*** – maliyyə və kommersiya əməliyyatları üzrə ayrı-ayrılıqda valyuta katirovkasının aparılması.

***İkinci Dərəcəli Borc*** – üstün hüquqa malik olmayan borc. Bu cür borc aləti ya təminatsız olur və ya digər borcverənlərə nisbətən şirkətin aktivlərinə ikinci dərəcəli iddiaçı hüququ verir.

***İkipilləli Tarif*** – istehlakçı tərəfindən əvvəlcə xidmətdən istifadəyə görə müəyyənləşdirilmiş həcmdə ödəniş edilməsi, sonra isə istehlak edilmiş xidmətin öz dəyərinin ödənilməsindən ibarət ödəniş sistemi.

***İkitərəfli Agent (Çarpaz agent, Dual agent)*** – hərrac zamanı eyni brokerin həm alıcı, həm də satıcı üçün agent fəaliyyəti göstərməsi.

***İkitərəfli Bank Əməliyyatları*** – bilavasitə iki bank arasında aparılan əməliyyat. Məsələn, banklararası kredit əməliyyatı və s.

***İkitərəfli Bazar*** – dilerlərin fəal surətdə həm alış, həm də satış məzənnələrini təyin etdiyi bazar.

***İkitərəfli Klirinq*** – iki ölkə hökumətləri arasındakı qarşılıqlı tələblərin onların mərkəzi bankları vasitəsi ilə qarşılıqlı hesablanması haqqında müqavilədir.

***İkitərəfli Konosament*** – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı ilə yük sahibinin qarşılıqlı münasibətlərini müəyyən edən sənəddir.

***İkitərəfli Sövdələşmə*** – iki tərəfin qarşılıqlı razılığı əsasında baş verən sövdələşmədir.

***İkivalyutalı İstiqraz*** – bir valyuta ilə kupon ödənilən, lakin müəyyən olunmuş məbləğdə digər valyuta, çox vaxt, dollar ilə əvəzi ödənilən istiqraz.

***İqtisadi Artım Modeli – R.Harrod (İngiltərə) və E.Domar (ABŞ) tərəfindən yaradılmış modeldir*** və iki ilkin şərtə əsaslanır: 1) Milli gəlirin artımı yalnız kapital yığımının funksiyasıdır. 2) Kapital

tutumu istehsal amillərinin qiymətlərinin münasibətindən asılı deyil və yalnız istehsalın texniki şərtləri ilə müəyyənləşdirilir.

***İqtisadi Artım Nəzəriyyəsi*** – başlıca vəzifəsi iqtisadi inkişafın ümumi göstəriciləri arasındakı əsas qarşılıqlı əlaqələri üzə çıxaran makroiqtisadi modellərin öyrənilməsi olan iqtisadi-riyazi nəzəriyyə.

***İqtisadi Azadlıq (Sərbəstlik) Prinsipi*** – təsərrüfat hüququnun prinsipi olub, yüksək məhsuldarlığı, yüksək keyfiyyəti, yüksək əmək keyfiyyəti əldə etmək üçün, yuxarıdan və ya kənardan heç bir qərarın verilməyəcəyinə qanunla verilən qarantiyadır.

***İqtisadi "Barometr"*** – iqtisadi konyunkturanı xarakterizə edən göstəricilər və ya göstəricilər sistemi. Məsələn, qiymət səviyyəsi, işsizlik səviyyəsi.

***İqtisadi Blokada*** – hər hansı ölkənin qonşu və uzaq ölkələrdən bu və ya digər səviyyədə təcrid edilməsinə əsaslanan tədbirlər sistemi.

***İqtisadi Böhran*** – ölkədəki iqtisadi vəziyyətin istehsalı kəskin aşağı düşməsində, formalamış istehsal əlaqələrinin pozulmasında, çoxsaylı müəssisələrin iflasa uğramasında, işsizliyin artmasında və nəticədə əhalinin həyat səviyyəsinin enməsində təzahür edən kəskin pisləşməsi.

***İqtisadi Dinamika*** – əsas diqqət iqtisadiyyatın inkişafının qanunauyğunluqlarının vaxt nəzərə alınmaqla illər üzrə dəyişməsinin müəyyənləşdirilməsinə yönəldilmiş iqtisadi-riyazi modellər sistemidir.

***İqtisadi Duel*** – qarşılıqlı rəqabət şəraitində fəaliyyət göstərən, eyni iqtisadi fəaliyyət növü ilə məşğul olan iqtisadi subyektlərin bir-birini bazarda sıxışdırmaq, bazardan təcrid etmək və ya tamamilə məhv etmək məqsədi ilə apardığı məqsədyönlü fəaliyyətdir.

***İqtisadi Ekspansiya*** – başqa ölkələrin, firmaların sıxışdırılıb çıxarılması, bazarların tutulması, resurs mənbələrinin əldə edilməsi vasitəsilə ölkənin, konsernin, firmanın iqtisadi təsir sahəsinin, iqtisadi fəaliyyətlərinin hərəkətlərinin genişləndirilməsi.

***İqtisadi Enmə*** – əsas əmtəə və xidmət növlərinin istehsal həcminin, işgüzar fəallığın adətən əhalinin real gəlirlərinin azalması, həyat şəraitinin pisləşməsi, işsizliyin artması ilə müşayiət

olunan uzunmüddətli, müntəzəm azalması.
***İqtisadi Fəal Əhali*** – əhalinin real gəlir gətirən, ictimai faydalı fəaliyyətlə məşğul olan hissəsidir.
***İqtisadi Göstəricilər*** – ölkədə iqtisadi vəziyyəti əks etdirən maliyyə və iqtisadi meyilləri təhlil etmək, qiymətləndirmək və proqnozlaşdırmaq üçün istifadə olunan statistik göstəricilər.
***İqtisadi İnformasiya*** – maddi nemətlərin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı prosesləri haqda məlumat.
***İqtisadi İnsan*** – öz planlarını və hərəkətlərini maksimal mənfəət əldə etmək almaq prinsipi üzərində quran, ağıllı düşünən subyekt kimi insan haqqında ümumi şərti anlayış.
***İqtisadi İslahatlar*** – təsərrüfatın aparılması, iqtisadiyyatın idarə edilməsi sistemində, həmçinin, iqtisadi siyasətin həyata keçirilməsinin yolları və üsullarında böyük yenidənqurma dəyişiklikləridir.
***İqtisadi Kateqoriya*** – iqtisadi hadisələrin və proseslərin çox mühüm tərəflərini əks etdirən iqtisad elminin çox mühüm anlayışlarıdır.
***İqtisadi Keyfiyyət Göstəriciləri*** – iki yekcins və ya yekcins olmayan kəmiyyət göstəricisinin bir-birinə olan nisbəti.
***İqtisadi Kəmiyyət Göstəricələri*** – rəqəmlə ölçülən və fiziki, yaxud pul vahidlərində ifadə edilən göstəricilər.
***İqtisadi Kibernetika*** – iqtisadi sistemlərin idarə edilməsinin ümumi qanunauyğunluqları və idarəetmə prosesində informasiyadan istifadə edilməsi haqqında elm.
***İqtisadi Qanunlar*** – təcrübə, əməli fəaliyyət əsasında müəyyən olunmuş, elmi tədqiqatlar yolu ilə aşkara çıxarılmış, iqtisadi hadisələr, proseslər, münasibətlər, onları səciyyələndirən kəmiyyətlərin və göstəricilərin arasındakı möhkəm, əhəmiyyətli qarşılıqlı əlaqə.
***İqtisadi Qeyri Sabitlik*** – tarazlığın kəskin pozulması, iqtisadiyyatda dayanıqsız vəziyyət, təsərrüfat əlaqələrinin normal nisbətinin pozulması.
***İqtisadi Layihə*** – konkret sosial-iqtisadi, məsələn, faydalı qazıntıların hasilatı, istehsalın yeniləşməsi, yeni əmtəələrin

buraxılışı və satışının həyata keçirilməsi üzrə tədbirlər proqramı.
***İqtisadi Mədəniyyət*** – təsərrüfat fəaliyyətinin dəyərlər və mqsədlər sistemi, hər hansı mülkiyyət formasına və kommersiya müvəffəqiyyətinə böyük sosial nailiyyət, müvəffəqiyyət kimi hörmətlə yanaşma, "bərabərçilik" meyllərini qəbul etməmək, sahibkarlıq üçün sosial mühitin yaradılması və inkişaf etdirilməsi.
***İqtisadi Məhsul*** – insan əməyinin, təsərrüfat fəaliyyətinin maddi-əşya formasında, mənəvi informasiya formasında, yaxud işlərin görülməsi və xidmətlərin göstərilməsi şəklindəki nəticəsi.
***İqtisadi Mənfəət*** – gəlirlərlə ümumi və alternativ məsrəflərin cəmi arasındakı fərq; sahibkarın mühasibat və normal mənfəəti arasındakı fərq kimi hesablanır.
***İqtisadi Model*** – gerçəkliyin sadələşdirilmiş təsəvvürü, iqtisadi-riyazi model formasında əks olunmuş abstrakt ümumiləşdirmə; tənliklər sistemi şəklində təqdim olunan və kəmiyyət xüsusiyyətləri ilə əks olunan iqtisadi hadisələrin qarşılıqlı əlaqələrinin sistemidir.
***İqtisadi Mühit*** – sahibkarlığın, işgüzar həyatın inkişafının iqtisadi şərtlərinin məcmusudur.
***İqtisadi Münasiblik Zonası*** – ölkə ərazisinin qanunvericilik əsasında sosial-iqtisadi inkişafın, iqtisadiyyatın canlandırılması, iqtisadi artımın təmin edilməsi üçün əlverişli şəraitin yaradıldığı bir hissəsi.
***İqtisadi Müstəqillik*** – başqasının iqtisadi və maddi köməyi, rəhbərliyi, müdaxiləsi olmadan, özünün bacarığı, gücü və iqtisadi potensialı ilə fəaliyyət göstərmə.
***İqtisadi Nemətlər*** – iqtisadi yaradıcılıq fəaliyyəti nəticəsində, əldə edilmiş, istehsalat vasitəsilə alınmış, iqtisadiyyatın insanlara gətirdiyi nemətlər.
***İqtisadi Nəzəriyyə*** – bir tərəfdən məntiqə, tarixi təcrübəyə, digər tərəfdən isə, nəzəri konsepsiyalara, iqtisadçı alimlərin baxışlarına əsaslanan iqtisadi proses və hadisələr, təsərrüfatın fəaliyyəti, iqtisadi münasibətlər haqda nəzəri təsəvvürlərdir.
***İqtisadi Normativlər*** – maliyyə, ticarət, istehsal və başqa fəaliyyətin elementləri arasında asılıqlıları, iqtisadi münasibətlərin tənzimlənməsi məqsədi ilə məsrəflərin və iqtisadi fəaliyyətin

nəticələrinin nisbətini, resursların bölgüsünə ais tələbləri əks etdirən göstəricilərdir.

***İqtisadi Obyekt*** – iqtisadi fəaliyyətin cəmləşdiyi, yaxud istiqamətləndiyi obyekt kimi səciyyələnən, iqtisadi maraqların və münasibətlərin müəyyən tərəfini təmsil edə müəssisələr, təşkilatlar, istehsal vasitələri və amilləri.

***İqtisadi Optimum*** – konkret şəraitdə və konkret vaxtda, iqtisadi sistemin konkret məqsədlərində onun ən yaxşı inkişaf trayektoriyası, yaxud vəziyyəti.

***İqtisadi Plan*** – iqtisadi sistemin bütövlükdə, ölkə təsərrüfatının, regionların, sahələrin, müəssisələrin, şirkətlərin gələcək vəziyyətinin təsviri, şəkli, modeli.

***İqtisadi Potensial*** – ölkə iqtisadiyyatının, onun sahələrinin, müəssisələrinin, təsərrüfatlarının iqtisadi-istehsal fəaliyyətini həyata keçirmək, məhsul, əmtəə, xidmətlər buraxmaq, əhalinin ehtiyaclarını, ictimaiyyətin tələbatlarını, istehsal və istehlakının inkişafını təmin edən məcmu qabiliyyətidir.

***İqtisadi Proqnozlaşdırma*** – iqtisadi proseslərin və ya hadisələrin perspektiv olaraq təhlili və qiymətləndirilməsi ilə bağlı fəaliyyət.

***İqtisadi Renta*** – iqtisadi resursdan istifadəyə ödənilən haqqdır.

***İqtisadi Resurslar*** – müəssisənin kapitalıdır.

***İqtisadi Risk*** – iqtisadi subyektlərin gözləntiləri ilə müqayisədə gəlirlərinin xeyli az və ya xərclərinin daha çox ola bilməsi riski.

***İqtisadi Seqment*** – əmtəə və xidmətlər, istehsal və satış bazarlarının, kifayət dərəcədə məşğul və ya mənimsənilməmiş, maliyyə uğurları, mənfəət alınması vəd edən, azad sahələridir.

***İqtisadi Səmərə*** – iqtisadi fəaliyyətin faydalı nəticəsidir.

***İqtisadi Sıxışdırılma*** – satış bazarlarından rəqibi sıxışdırmaq, çıxartmaq məqsədi ilə bir rəqibin başqasına dair hərəkətləri.

***İqtisadi Sistem*** – iqtisadi məhsulun istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı prosesində yaranan əsas iqtisadi münasibətlərin formasını və məzmununu müəyyən edən, tarixən meydana gəlmiş, yaxud müəyyən edilmiş, ölkədə işləyən prinsiplərin, qaydaların, qanunla təhkim edilmiş normaların məcmusudur.

***İqtisadi Strategiya*** – hökumətin, region administrasiyalarının, müəssisə rəhbərlərinin istehsala, büdcə gəlir və xərclərinə, vergilərə, kapital qoyuluşlarına, qiymətlərə, sosial müdafiəyəyə aid uzunmüddətli, ən vacib planları, məramları, niyyətləri.

***İqtisadi Subyekt*** – hüquqi-təşkilati formasından asılı olmayaraq iqtisadi münasibətlərdə bu və ya digər formada iştirakçı olan hüquqi və ya fiziki şəxs.

***İqtisadi Suverenlik*** – dövlətin, regionun başqa dövlətlərdən, regionlardan iqtisadi cəhətdən müstəqil olması.

***İqtisadi Taktika*** – cari vəziyyətdən irəli gələrək qısamüddətli iqtisadi davranış, qısamüddətli dövr üçün iqtisadi fəaliyyət xətti.

***İqtisadi Tarazlıq*** – iqtisadi sistemin, bazarın iki müxtəlif istiqamətli amillərin arasındakı tarazlığın olması ilə səciyyələnən vəziyyəti.

***İqtisadi Təhlil*** – iqtisadi qanunauyğunluqların iqtisadi gerçəkliyin müvafiq faktlarından çıxarılması, əldə edilməsi, iqtisadiyyatı iqtisadi kateqoriyalar adlanan ayrı-ayrı hissələrə ayırma və onların təhlili.

***İqtisadi Təhlükəsizlik*** – makro səviyyədə: ölkənin sosial, siyasi, hərbi və s. sferalarında normal səviyyəni və ümumilikdə iqtisadi inkişaf səviyyəsini təmin edən, iqtisadiyyatı daxili və xarici mənfi təsirlərdən müdafiə edən iqtisadi durum və ya hakimiyyət institutları tərəfindən ölkə iqtisadiyyatının milli maraqlarının müdafiə olunması, həmçinin cəmiyyətin sosial-siyasi sabitliyinin təmin olunması üçün yaratdıqları mexanizm.

***İqtisadi Tənzimləyicilər*** – maraqlar mexanizmi vasitəsilə iqtisadi proseslərin iştirakçılarına, təsərrüfat subyektlərinə dolayı təsir göstərən iqtisadi alətlər.

***İqtisadi Treninq*** – idarəetmə fəaliyyətinin səmərəliliynin qiymət hesablamalarının aparılmasına imkan verən kompüterləşdirilmiş işgüzar oyun.

***İqtisadi Vasitələr*** – iqtisadiyyatı idarəetmə alətidir; qiymət və tariflər sistemini, maliyyə-kredit vasitələrini, vergiləri və s. əhatə edir.

***İqtisadi Volyuntarizm*** – obyektiv şəraitlərə və elmi əsaslandırılmış

tövsiyələrə məhəl qoymayan təsərrüfat praktikasında əsassız qərarlar.

***İqtisadi Yardım*** – varlı ölkələrin kasıb ölkələrə adətən əvəzsiz əsasda göstərdiyi maddi, maliyyə, texniki yardım.

***İqtisadi Yüksəliş*** – ilk növbədə ümummilli məhsul, ümumdaxili məhsul, milli gəlir kimi makroiqtisadi göstəricilərlə xarakterizə edilən ölkənin məcmu istehsal və istehlakının miqyasının artırılması.

***İqtisadi-Sosial Proqram*** – vahid məqsədin, bir problemin həllinə istiqamətlənmiş qarşılıqlı əlaqəli tədbirlər məcmusu.

***İqtisadi-Riyazi Modellər*** – riyazi aparatdan ən əvvəl riyazi tənliklərdən istifadə etməklə iqtisadi proseslərin, obyektlərin, əlaqələrin təsviri.

***İqtisadi-Riyazi Üsullar*** – iqtisadi göstəricilərin müəyyən edilməsi, hesablanması üçün riyazi aparatın, riyazi asılılıqların tətbiqi.

***İqtisadçı*** – iqtisadiyyat elmi və praktikasının müxtəlif sahələri üzrə mütəxəssisi.

***İqtisadiyyat*** – insanların məhdud resurslarla müxtəlif tələbatlarını ödəmək məqsədi ilə həyata keçirdikləri proseslərin, vasitələrin məcmusu. İlk dəfə iqtisadiyyat ifadəsi qədim yunan alimi Ksenofon tərəfindən işlənilmiş, sonralar isə Aristotel tərəfindən geniş izah edilmişdir.

***İqtisadiyyatın Dövlət Tənzimlənməsi*** – dövlət orqanları qismində dövlətin iqtisadi obyektlərə və proseslərə və onlarda iştirak edən şəxslərə təsir etməsi.

***İqtisadiyyatın Dövlətsizləşdirilməsi*** – dövlətin iqtisadi obyektlərin idarə edilməsindəki funksiyaları, rolunun azaldılması.

***İqtisadiyyatın İnkişafı*** – ölkə iqtisadiyyatının vəziyyətini səciyyələndirən makroiqtisadi göstəricilərin uzunmüddətli dövr ərzində mütləq və nisbi dəyişməsini bildirən ümumi termin.

***İqtisadiyyatın Qızması*** – iqtisadi artımın həddən artıq maliyyələşməsi, kreditləşməsi, dövlət vəsaitlərinin iqtisadiyyata həddən artıq qoyuluşu.

***İqtisadiyyatın Sabitləşməsi*** – iqtisadi enmənin qarşısının alınması, zəiflədilməsi, iqtisadiyyatın fəaliyyət göstəricilərinin təsbitlənməsi

və müəyyən səviyyədə saxlanması, təsərrüfatın sağlamlaşması.
***İqtisadiyyatın Tənzimlənməsi*** – idarəetmə orqanları tərəfindən iqtisadiyyata göstərilən təsir.
***İlkin Balans*** – müəssisənin Baş kitabında hesabat dövrünün sonu vəziyyəti üzrə qalıq (saldo) hesabların toplusudur.
***İlkin Bazar*** – qiymətli kağızlar bazarında maliyyə alətlərinin bilavasitə emitent tərəfindən, yəni vasitəçilərin iştirakı olmadan yerləşdirilməsi.
***İlkin Dəyər*** – netto-dəyər üstəgəl əldə edilən obyektin işə çatdırılması, qaldırılması, quraşdırılması və hazırlanması üçün lazım olan bütün xərclərdir.
***İlkin Gəlirlər*** – istehsal sferasında yaranan və tədavül sferasındakı gəlirlərin ilkin mənbəyi olan gəlirlər.
***İlkin İstehsal Amilləri*** – əmtəə və xidmətlərin istehsalında istifadə edilən amillər. Onlara torpağı (təbii sərvətləri), əməyi və kapitalı aid edirlər.
***İlkin Məşğulluq*** – kapitalın investisiya edilməsindən dərhal sonra bilavasitə yaranan məşğulluq.
***İlkin Maliyyə Nəzarəti*** – müəssisə, idarə və təşkilatların maliyyə fəaliyyətlərində əmək, material və maliyyə ehtiyatlarından qeyri-düzgün və qeyri-səmərəli məqsədlər üçün istifadə olunmasının və bütövlükdə mənfi maliyyə nəticələrinin qarşısını almaq məqsədi ilə təsərrüfat subyektlərinin maliyyə planlarının, idarə və təşkilatların gəlir və xərclər smetalarının, büdcə layihələrinin, müqavilə şərtlərinin və s. sənədlərin tərtib edilməsi və təsdiqi zamanı həyata keçirilən maliyyə nəzarəti.
***İlkin Maya Dəyəri*** – məhsulun maya dəyəri olub, aşağıdakı düsturla hesablanır:

$$İMD=XD + İD$$

Burada, İMD – məhsulun maya dəyəri, XD – xammalın dəyəri, İD-istehsalla məşğul olan fəhlələrin işinin (əməyinin) dəyəri.
***İlkin Müqavilə*** – tərəflərin gələcəkdə əmlakın verilməsi, işlərin yerinə yetirilməsi və ya xidmətin göstərilməsi barədə öhdəlik müqaviləsidir.
***İlkin Nəzarət*** – dövlət vəsaitləri ilə bağlı maliyyə əməliyyatlarının

aparılmasından əvvəl hüquq pozuntuları üçün şərait və səbəblərin yaradılmasının qarşısının alınması məqsədi ilə dövlət büdcəsinin, büdcədənkənar dövlət fondlarının büdcələrinin, büdcə maliyyə məsələləri ilə bağlı qanunların layihələrinin baxılması mərhələsində həyata keçirilir.

***İlkin Reklam*** – əvvəlcədən müəyyənləşdirilmiş mümkün alıcılar dairəsini nəzərdə tutulan bazar üçün yeni ideya, əmtəə, yaxud xidmət haqqında onların keyfiyyəti, qiyməti, istehlak qaydası, satış yeri və s. kimi məlumatlarla tanış edən reklamdır.

***İlkin Təqdimat*** – investorlarla emitentin və anderrayterin ilkin yerləşdirmədən öncə keçirdikləri görüşlər.

***İlkin Vergi Güzəşti*** – sahibkarın, firmanın fəaliyyətinin başlanğıc dövründə, avadanlığın, texnologiyanın işə salınması müddətində vergilərdən qismən və tam həcmdə azad edilməsi.

***İlkin Yerləşdirmə Qiyməti*** – qiymətli kağızın yeni buraxılışı üzrə anderrayter tərəfindən qoyulan qiymət. Anderrayter ilkin yerləşdirmə qiymətini müəyyən edərkən şirkətin maliyyə vəziyyəti, artım templəri, sektordakı vəziyyət kimi faktorlara baxır.

***İlkin Yerləşdirmə*** – müəssisə tərəfindən buraxılan qiymətli kağızın yeni buraxılışının ilkin satışı.

***İlkin Yığımlar*** – sahibkara əmtəə və xidmətləri istehsalı və satışı üzrə öz işini açmaqdan, müəssisəsini, firmasını yaratmaqdan ötrü lazım olan kapital.

***İllərin Cəmi Üsulu*** – amortizasiyanın hesablanması üsulu olub, əsas vəsaitlərin ehtimal olunan istifadə müddətinin azalma istiqamətində hesablanması və həmin illərin hesablanmasıdır.

***İllik Balans*** – bir il müddətinə, adətən 1 yanvar tarixinə müəssisənin, təşkilatın və s.-nin vəsaitləri və onların yaranma mənbələri haqqında məlumatı əks etdirən mühasibat balansı.

***İllik Göstərici (Səviyyə, Dərəcə)*** – hər hansı bir göstəricinin qiymətinin bir il ərzində çatdığı səviyyəni ifadə edir.

***İllik Hesabat*** – Şirkətin hər təqvim ili və ya maliyyə ilinin sonunda müəyyən olunmuş formada hazırladığı və həmin dövrdəki fəaliyyətinin nəticələrini və cari vəziyyətini əks etdirən hesabat.

***İllik Hesablı Faiz Dərəcəsi*** – faiz dərəcəsinin ilin müəyyən

dövrünə aid qiyməti əsasında hesablanan illik səviyyəsi.

***İllik Hesablı Səviyyə (Dərəcə)*** – hər hansı bir göstəricinin müəyyən dövrünə aid qiyməti əsasında hesablanan illik səviyyəsi.

***İltizam Sistemi*** – vergilərin toplanması hüququnun dövlət tərəfindən müəyyən müddətə fiziki şəxslərə verilməsi.

***İmic – 1)*** İşgüzar şəxs haqında ətrafdakıların təsəvvürü, fikri; ***2)*** Firmanın onun bazarındakı mövqeyini, alıcının firma markasına sadiqliyini təmin edən siması.

***İmitasiya*** – iqtisadi obyektin, yaxud prosesin midelinin, obrazının yaradılması, onun tədqiqat, tədris, proqnozlaşma məqsədi ilə süni yolla təkrar yaradılması.

***İmmiqrasiya*** – ölkəyə xaricilərin daimi yaşamaq üçün gəlməsidir.

***İmmunitet*** – müəyyən qanunvericilik normalarına tabe olmamaq barəsində müstəsna hüquq.

***İmperializm*** – kapitalizmin XIX əsrin XX əsrin əvvəllərində daxil olduğu ən yüksək və axırıncı mərhələsi; iri inhisarlarla səciyyələndirilən xammal mənbələri və xarici bazarlar uğrunda özgə ölkələri tutmaq, özgə xalqları istismar etmək, dünyanı yenidən bölüşdürmək üçün kapitalist ölkələri arasında müharibə siyasəti.

***İmpost*** – vergi.

***İmtina – 1)*** Müqavilə bağlamaqdan imtina etmək və ya başqasına güzəştə getmək; ***2)*** Fyuçers bazarında birjanın bir üzvü ilə bağlanmış müqaviləni birjanın digər üzvünə vermək;

***"İmtinaya Qədər" Sifarişi (Sərəncamı, Əmri)*** – müştəri tərəfindən dayandırılana qədər və ya icra olunana qədər olan alqı-satqı sifarişləri.

***İmtiyaz*** – müstəsna hüquq, üstünlük, güzəşt.

***İmtiyazlı Rejim*** – bir dövlətin başqa dövlət üçün təyin etdiyi, lakin üçüncü ölkəyə şamil etmədiyi xarici iqtisadi əlaqələrin, iqtisadi əməkdaşlığın həyata keçirilməsinin xüsusi güzəştli rejimi.

***İmtiyazlı Rüsumlar*** – bütün, yaxud bəzi qrup idxal mallarının ölkəyə gətirilməsi zamanı bir və ya bir neçə xarici dövlət üçün xüsusi asan, yumşaq rejimin yaradılması məqsədi ilə dövlətin təyin etdiyi güzəştli gömrük rüsumları.

***İmtiyazlı Səhm*** – sahibinə səhmdar cəmiyyətin xalis mənfəətindən öncədən müəyyənləşdirilmiş divident faizi həcmində pay almaq hüququnu verən səhm.
***İmtiyazlı Yazılış Hüququ*** – kənar investorlara təklifdən qabaq, şirkətin qiymətli kağızların yeni buraxılışı zamanı öz səhmdarlarına verdiyi üstünlükdür.
***İmza Hüququ*** – birinci imza hüququ müəssisənin rəhbəri və onun müavinlərinin, ikinci imza hüququ isə baş mühasib və onun müavinlərinindir.
***İnaudit*** – xarici şirkətlərə məsləhət xidməti göstərən, onun maliyyə fəaliyyətinin və mühasibat uçotunun durumuna nəzarət edən uditor təşkilatıdır.
***İndaktiv Tənzimləmə*** – dövlətin, iqtisadi vasitələrin köməyi ilə istehsala təsiridir. İqtisadi vasitələr dedikdə, dövlət investisiyaları, şəxsi və kollektiv sektor məhsullarının dövlət istehlakı, dövlət vergi siyasəti, borc kapitalı bazarının köməyi ilə istehsalın tənzimlənməsi və iqtisadiyyatın dövlət proqnozlaşdırılması başa düşülür.
***İndeks*** – müəyyən müddət ərzində bu və ya digər proseslərin parametrlərinin dəyişməsini, yəni artması, yaxud azalmasını xarakterizə edən iqtisadi-statistik göstərici və ya göstəricilər sistemi.
***İndeks Fondları*** – portfelinin strukturu müəyyən fond indeksinin strukturuna uyğunlaşdırılan qarşılıqlı investisiya fondu.
***İndekslə Əlaqələndirilmiş İstiqraz*** – kuponları pərakəndə satış və ya istehlakçı qiymət indeksləri ilə əlaqələndirilmiş istiqrazlar.
***İndeksləşdirmə*** – investisiya portfelinin müəyyən fond indeksinin təmsil etdiyi qiymətli kağızlar və bu indeksin qiymətində onların çəkilərinə uyğun şəkildə formalaşdırıldığı passiv investisiya strategiyası.
***İndeksləşmiş Borc*** – kreditorun inflyasiya nəticələrinə məruz qalmaması üçün kapitalın və faizlərin qiymətlərin tərəddüdündən asılı olaraq dəyişdirildiyi istiqraz emissiyalı borc öhdəliyi.
***İndemnitet*** – zərərin əvəzinin ödənilməsi, təzmin edilməsi.
***İndikator*** – hər hansı iqtisadi göstəricinin müəyyən dövr ərzində

dəyişilməsini xarakterizə edən göstərici.
***İndossament*** – hər hansı sənədin hüquqi qüvvə tapması üçün zəruri olan imza.
***İndossant*** – indossamenti təqdim edən, yəni imzası ilə maliyyə və ya pul sənədi ilə bağlı hüquqlarını başqa şəxsə verən hüquqi və ya fiziki şəxs.
***İndossat*** – xeyrinə indossament təqdim olunmuş, yəni maliyyə, yaxud pul sənədləri ilə bağlı hüquq almış hüquqi və ya fiziki şəxs.
***İnflyasiya*** – müəyyən müddət ərzində əmtəə və xidmətlərin keyfiyyəti yüksəlmədən qiymətlərinin artması nəticəsində pulun dəyərdən düşməsi, dəyərsizləşməsi.
***İnflyasiya Alternativi*** – iqtisadi tarazlığın və daimi inkişafın təmin olunması, o cümlədən əmtəə və xidmətlər istehsalının ciddi artımı, pul tədavülünün normal tənzimlənməsi, dövlət büdcəsi kəsirinin aradan qaldırılması, yaxud təhlükəsiz həddə endirilməsi,
***İnflyasiya Dərəcəsi*** – müəyyən dövr ərzində qiymətlərin artım səviyyəsinin əvvəlki qiymət səviyyəsinə nisbətdə faizlə ifadəsi.
***İnflyasiya Düzəlişi*** – qiymətlərin inflyasiyası zamanı müqavilənin dəyərini artırmağa imkan verən və müqavilədə nəzərdə tutulan təshihdir.
***İnflyasiyanın Hədəflənməsi*** – qiymətlərin sabitliyinin əsas hədəf kimi götürüldüyü pul siyasəti rejimidir. Bu rejimin tətbiqi zamanı Mərkəzi Bank qiymətlərin sabitliyi üçün yüksək dərəcədə məsuliyyət daşıyır.
***İnflyasiya İxracı*** – qarşılıqlı iqtisadi münasibətlər nəticəsində inflyasiya prosesinin, meylinin bir ölkədən digərinə keçməsi. İxrac məhsullarının qiymət səviyyəsi, valyutanın dəyərsizləşməsi kimi amillər inflyasiya ixracına səbəb ola bilər.
***İnflyasiya Məzənnəsi*** – yeni bazarlara çıxdıqda istehsal məsrəflərinin gözlənilməz artması səbəbindən yaranan kredit riski.
***İnflyasiya Riski*** – iqtisadiyyatda ümumilikdə qiymət artımı, yəni inflyasiya prosesi nəticəsində qiymətlilərin, aktivlərin, gəlirin, mənfəətin dəyərsizləşməsi ehtimalı.
***İnflyasiya Sürəti*** – qiymətlərin ümumi səviyyəsinin müəyyən dövr ərzində faizlə ifadə edilən illik artım sürəti; həmin dövr ərzində

pulun dəyərsizləşməsi sürəti.
***İnflyasiya Uyğunsuzluğu*** – nominal xalis milli məhsulun tam məşğulluq şəraitində istehsal olunmuş qeyri-inflyasiya xalis milli məhsulun səviyyəsinə uyğun gəlməsi üçün məcmu xərclər əyri xəttinin aşağı düşməsi həcmi.
***İnflyasiya Vergisi*** – inflyasiya şəraitində vergi ödəyicisinin real vergi yükünün artması.
***İnformasiya*** – hər hansı bir məlumat, xəbər.
***İnformasiya Manipulyasiyası*** – anderrayterlər tərəfindən yüksək tələbə malik olan səhmlərin ilkin yerləşdirilməsinin seçilmiş şirkətlərə təklif olunması.
***İnformasiya Resursları*** – müxtəlif sənədlər, sənədlər massivi, informasiya sistemlərində sənədlər və sənədlər massividir.
***İnformasiya Sistemi*** – informasiya proseslərini reallaşdıran informasiya massivləri və informasiya texnologiyaları toplusudur.
***İnformasiya Texnologiyaları (İT)*** – informasiya yığılması, saxlanması, emalı və yayılması məqsədi ilə proseslər, proseduralar, reqlamentlər, texniki-aparat, riyazi və linqvistik vasitələr toplusudur.
***İnformasiya Təhlükəsizliyi*** – təşkilati-texniki tədbirlər kompleksi nəticəsində informasiyanın tamlığı və konfidensiallığının təmin edilməsi, informasiya sisteminin təhlükəsizliyinin göstəricisidir.
***İnformasiyanın Təminatı*** – iqtisadi proseslərin idarə edilməsi üçün tələb olunan və informasiya sistemlərinin məlumat bazalarında saxlanılan informasiya.
***İnformasiya Toplusu (Massivi)*** – saxlanma və istifadə üçün yığılan, qeydə alınan və müvafiq qaydada sistemləşdirilən informasiya toplusu.
***İnformasiyanın İşlənməsi Sistemi*** – informasiyanın əldə edilməsi və başqa şəklə salınması vasitə və metodlarının məcmusu.
***İnformasiyanın Qorunması*** – dövlət və kommersiya sirlərinin qorunub saxlanması məqsədi ilə təhlükəsiz, mühafizə olunmuş sənəd dövriyyəsinə nail olunmasına yönəlmiş tədbirlər sistemi.
***İnformativ Reklam*** – ilkin tələb yaradan və əmtəənin mövcudluğu, onun xüsusiyyətləri haqqında istehlakçıya məlumat verən reklam.

***İnfraksiya*** – iqtisadi müqavilə ilə bağlı şərtlərin qismən, yaxud tam şəkildə pozulması.

***İnfranşizment*** – səhmdar cəmiyyətin idarəetmə yığıncağında səs hüququ olmayan səhm sahibinə səs hüququnun verilməsi prosesi.

***İnfrastruktur*** – istehsal prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrinin kompleksi.

***İngilis Hərracı*** – təklif olunan əmtəənin qiymətinin tədricən artırılması yolu ilə aparılan hərrac.

***İnhisar*** – hər hansı mal və ya xidmətin bazarda yalnız bir satıcısı olan vəziyyət, durum, hal.

***İnhisar Rentası*** – müəyyən növ kənd təsərrüfatı məhsullarının dəyərindən yüksək olan inhisar qiymətləri ilə satışı zamanı yaranan torpaq rentasının xüsusi forması.

***İnhisarçı Rəqabət*** – fərqli məhsullar istehsal edən, çoxsaylı kiçik firmalarla təmsil olunan bazar strukturudur.

***İnhisarçılıq*** – mallar və xidmətlər bazarında bir istehsalçının, satıcının və ya çox da böyük olmayan istehsalçılar qrupunun hakim olmasıdır.

***İnhisarsızlaşma*** – dövlət və onun orqanları tərəfindən inhisarçılığın inkişafının dayandırılmasına yönəlmiş siyasətdir.

***İnjiniriNq*** – istehsal və məhsulların realizasiyası prosesinin hazırlanması və təminatı, tikinti və sənaye obyektlərinin istismarı və onlara xidmət, habelə infrastruktur, kənd təsərrüfatı və digər obyektlərin istismarı və onlara xidmət üzrə kommersiya xarakterli kompleks xidmətlərin xüsusiləşmiş sərbəst fəaliyyət sahəsidir.

***İnkassasiya*** – inkasso əməliyyatının həyata keçirilməsi.

***İnkassator*** – müəssisə kassasından pul vəsaitini bankın kassasına və əksinə çatdıran şəxs.

***İnkasso*** – ixracatçı tərəfin öz bankına müvafiq əmtəə və ya pul sənədlərini təqdim etməklə idxalçı tərəfin ödəniş məbləğinin alınması barəsində tapşırıq verməsindən ibarət bank hesablaşması forması.

***İnkişaf Bankı*** – əsas məqsədi iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən sənaye, kənd təsərrüfatı, sosial sfera və s. üzrə iri layihələrin kreditləşməsini həyata keçirmək, eləcə də investisiya

layihələrini maliyyələşdirməkdən ibarət olan ixtisaslaşmış dövlət və ya qeyri-dövlət bankı, yaxud digər maliyyə kredit institutu.

***İnkişaf Etməkdə Olan Ölkələr*** – iqtisadi cəhətdən yüksək inkişaf etmiş ölkələrdən fərqli olaraq iqtisadiyyatı zəif inkişaf etmiş, iqtisadi potensialı yüksək olmayan, texnika və texnologiyası geri qalmış, sənayesinin və bütövlükdə iqtisadiyyatının quruluşu qeyri-mütərəqqi olan, geriliyi aradan qaldırmaq, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün səy göstərən ölkələrin adlandırılması.

***İnkişaf İstiqrazı*** – yerli bələdiyyə orqanları tərəfindən buraxılan və müəyyən regionun inkişafı üçün nəzərdə tutulmuş istiqrazlar.

***İnkorporasiya*** – hüquq normalarını dəyişdirmədən fəaliyyətdə olan qanunların zahirən sahmana salınmasıdır.

***İnkoterms (Beynəlxalq Kommersiya Şərtləri)*** – beynəlxalq ticarət praktikasında müqavilə şərtlərinin və qaydalarının toplusudur.

***İnkvayrinq*** – banklarla ticarət təşkilatları arasında plastik kart xidmətləri üzrə hesablaşma bazarı.

***İnnovasiya*** – elmi-texniki tərəqqi nəticəsində yeni texnika və texnologiyanın kəşfi.

***İnnovasiya Bankı*** – əsas fəaliyyəti vençur əməliyyatlarının, yeni kəşflərin, texniki və texnoloji tərəqqinin kreditləşməsi ilə bağlı olan ixtisaslaşmış bankdır.

***İnnovasiya Fondu*** – ən yeni elmi-texniki işləmələrin və riskli layihələrin maliyyələşdirilməsi məqsədi ilə yaradılmış maliyyə resursları fondu.

***İnofirma*** – xarici firma.

***İnsan Kapitalı*** – fərdi insanların intellektual potensialının reallaşdırılması, habelə peşəkar səviyyələrinin təkmilləşdirilməsi məqsədi ilə yönəldilən kapital.

***İnsayder*** – xidmət işi və ya ailə vəziyyəti ilə əlaqədar, kompaniyanın məxfi məlumatları ilə tanış olmağa icazəsi olan şəxsdir.

***İnsayder Əməliyyatları*** – geniş ictimaiyyətə çatdırılmayan emitent şirkətin fəaliyyəti haqqında informasiyadan istifadə edilməklə qiymətli kağızlarla qanunsuz əməliyyatlar.

***İnsayder İnformasiyası*** – geniş ictimaiyyətə çatdırılmayan

müəssisə və ya sahibkarın fəaliyyəti haqqında məxfi məlumat.
***İnsayder Krediti*** – bankın əlaqəli şəxsinə verilmiş kreditdir.
***İnspeksiya*** – müəssisə və təşkilatların, firmaların, onların xidməti heyətinin rəsmi müəyyən edilmiş iş, fəaliyyət qaydalarına lazımi riayət etməsinə nəzarət, yoxlama funksiyalarını yerinə yetirən dövlət idarəetmə orqanları.
***İnstansiya*** – idarəetmə iyerarxiyasında konkret idarəetmə təşkilatının digər təşkilatlara nisbətən yerləşdiyi pillə.
***İnstitusionalizm*** – iqtisadi qərarların qəbul edilməsi və istiqamətləndirilməsi sahəsi təsisatlarının roluna, onların səmərəliliyinə və iqtisadi fəaliyyətinə bütövlükdə əsas əhəmiyyət verən iqtisadi təlim. XIX əsrdə yaranmış bu təlimin baniləri F.Simian və L.Brokar hesab edilir.
***İnstitut*** – bir istiqamətli ixtisaslar üzrə ali təhsilli mütəxəssislər hazırlayan elmi-tədris mərkəzi.
***İnstitutsional investor*** – müştərilərinin adından maliyyə bazarı alətlərinə böyük həcmdə investisiya edən maliyyə institutudur. Məsələn, pensiya fondları, investisiya fondları.
***İnstitutsional İşsizlik*** – əmək bazarı infrastrukturlarının qeyri-səmərəli fəaliyyəti nəticəsində iş qabiliyyətli əhalinin yeni iş yerləri barəsində yetərli informasiya əldə etməməsi nəticəsində yaranan işsizlik.
***İnstrumentlər*** – mexanikləşdirilmiş və mexanikləşdirilməmiş ümumi təyinatlı əmək alətləri, həmçinin materialları emal etməyə xidmət edən müxtəlif əşyalar olub, əsas vəsaitlərin növ müxtəlifliyi adlanır.
***İnteqrasiya*** – bu və ya digər səviyyədə birləşmə, yaxud ayrı-ayrılıqda elementlərin tam şəklində birləşməsi.
***İntellektual Məhsul*** – mənəvi, əqli fəaliyyətin nəticəsi.
***İntellektual Mülkiyyət*** – intellektual fəaliyyət nəticələrinə, müəlliflik və ixtira hüququ obyektinə daxil olan intellektual məhsula mülkiyyət.
***İntensivləşmə*** – resurs potensialının hər bir vahidinin daha dolğun istifadəsi hesabına istehsalın intensivliyinin artırılması.
***İnternet*** – tutumlu ixtisaslaşmış informasiya serverlərinə çıxışı

mümkün edən və elektron poçtu təmin edən qlobal kompüter şəbəkəsi.

***İnterpolyasiya*** – sıranın qiyməti məlum olan elementləri əsasında digər elementlərinin qiymətinin hesablanması üsulu.

***İntersessiya*** – bu və ya digər maliyyə-borc münasibətlərində hər hansı tərəfin borc öhdəliklərini qismən, yaxud tam öz üzərinə götürməsi.

***İntervensiya*** – qiymətin, məzənnənin iqtisadi vasitələrlə artırılması, yaxud azaldılması məqsədi ilə bu və ya digər orqan tərəfindən maliyyə bazarının tənzimlənməsi.

***İntizam*** – qayda və öhdəliklərin vaxtında və lazım olan qaydada yerinə yetirilməsi qəbul edilmiş qanunlara və iqtisadi fəaliyyət normalarına riayət olunması.

***"İntramarqnal" İntervensiya*** – Avropa valyuta sisteminə daxil olan ölkələrin mərkəzi bankları tərəfindən vahidlik prinsipi əsasında həyata keçirilən valyuta intervensiyası.

***İnvalyuta*** – xarici valyuta.

***İnventar Kartoçkası (Açıqcası)*** – əsas vəsaitlərin obyekt uçotu üzrə analitik formasıdır. İnventar açıqcası hər bir inventar obyekti üçün açılır.

***İnventar Nömrəsi*** – əsas fondların saxlanılmasına xidmət edən və istifadə olunub olunmamasından asılı olmayaraq hər bir inventar obyektinə verilən nömrədir.

***İnventar Obyekti*** – ayrıca sərbəst funksiyaları yerinə yetirmək üçün nəzərdə tutulan, görülən işlə vəhdət təşkil edən bütün ləvazimatları və uyğunlaşdırmaları ilə birgə quraşdırılmış qurğu və ya ayrıca əşya inventar obyekti adlanır.

***İnventar Siyahısı*** – əsas vəsaitlərin yerləşməsinin obyekt uçotu üzrə məlumatların qeyd olunduğu vahid formasıdır.

***İnventar Taralar*** – istehsalat və ya təsərrüfat ehtiyacları üçün lazım olan material dəyərlərinin müvəqqəti mühafizəsi, daşınması və qablaşdırılması üçün nəzərdə tutulmuş texniki vəsaitlərdir. İnventar taralar 01 saylı "Əsas vəsaitlər" və 12 saylı "Azqiymətli və tezköhnələn əşyalar" hesablarında nəzərə alınır.

***İnventarlaşdırma*** – müəyyən edilmiş vaxtda vəsaitlərin faktiki

mövcudluğunu və onların mənbələrinin naturadakı obyektləri hesablamaq yolu ilə faktiki istehsal xərclərinin tapılmasıdır.

***İnventarlaşdırma Yarlığı*** – istehsal şəraitində, təşkilatın inventarlaşdırma komissiyasının həmin anda, material dəyərlərinin hesablanmasını aparmaq və onları inventar siyahılarına salmaq imkanı olmadıqda, inventarlaşdırma aparılan dövrlərdə anbarlarda olan xammal, hazır məhsul, mallar və digər material dəyərlərinin faktiki mövcudluğunun uçotu üçün tətbiq olunan sənəddir.

***İnvestisiya*** – mənfəət və ya başqa bir formada sosial-iqtisadi səmərə əldə etmək məqsədi, pul vəsaitlərinin, qiymətli kağızların, əmlakın, intellektual mülkiyyətin, eləcə də digər maddi qiymətlilərin biznes fəaliyyətinə cəlb edilməsi, yatırılması, qoyulması.

***İnvestisiya Bankı*** – müxtəlif istiqamətli investisiya layihələrinin uzunmüddətli kreditləşdirilməsi üzrə ixtisaslaşan bank və ya digər kredit təşkilatı.

***İnvestisiya Bankiri*** – investisiya bank işi ilə məşğul olan şəxs.

***İnvestisya "Barometri"*** – qiymətli kağızlar bazarında səhmlərin, istiqrazların və digər maliyyə alətlərinin məzənnə dəyişmələrini əks etdirən göstəricilər və ya göstəricilər sistemi.

***İnvestisiya Brokeri*** – broker fəaliyyəti ilə məşğul olan investisiya institutu.

***İnvestisiya Canlanması*** – iqtisadiyyatda səmərəli investisiya mühitinin formalaşması, o cümlədən siyasi-iqtisadi proseslərin stabilliyi, dövlətin investisiya siyasəti istiqamətində maliyyə vergi tənzimlənməsi islahatlarının həyata keçirilməsi nəticəsində həm daxili, həm də xarici mənbələr hesabına kapital qoyuluşunun artması.

***İnvestisiya Deklarasiyası*** – investor tərəfindən bu və ya digər investisiya layihəsinə, eləcə də investisiya qiymətli kağızlarına yatırılması nəzərdə tutulan investisiyanın yuxarı və aşağı həddi, şərtləri, yaxud investorun bu fəaliyyəti ilə bağlı digər məlumatları əks etdirən rəsmi sənəd, bəyənnamə.

***İnvestisiya Dərəcəsi*** – müflisləşmə riskinin aşağı olmasını əks etdirən reytinq dərəcəsi.

***İnvestisiya Dileri*** – fond birjasında vasitəçilik fəaliyyəti ilə məşğul olan şirkətlə əlaqəli iş quran hüquqi və ya fiziki şəxs.
***İnvestisiya Etmək*** – gələcəkdə mənfəət əldə etmək üçün qiymətli kağızlara və digər aktivlərə vəsait qoyuluşu.
***İnvestisiya Əmsalları*** – sahibkarların və səhmdarların vəsait qoyuluşunun cəlbediciliyi nöqteyi-nəzərindən qiymətləndirici məlumatlardır.
***İnvestisiya Fəaliyyəti*** – maddi qiymətlilərin, o cümlədən pul vəsaitinin, əmlakın, qiymətli kağızların və s.-nin mənfəət əldə etmək məqsədi ilə biznes fəaliyyəti öbyektinə yönəldilməsi, yatırılması ilə bağlı iqtisadi fəaliyyət.
***İnvestisiya Fondu*** – qiymətli kağızlarını investorlar arasında yerləşdirərək cəlb etdiyi sərbəst vəsaitləri dövlət və korporativ qiymətli kağızlara investisiya edən, banklara depozit kimi yatıran, eləcə də digər investisiya istiqamətlərinə yönəldən investisiya institutu.
***İnvestisiya Formulası*** – investorun müəyyən bazar göstəricilərinin dəyişməsindən asılı olaraq vəsaitlərini müxtəlif investisiya maliyyə alətləri arasında yenidən bölüşdürülməsinə əsaslanan investisiya strategiyası.
***İnvestisiya İnstitutu*** – investisiya münasibətləri, xüsusilə qiymətli kağızlarla bağlı vasitəçilik xidməti göstərən konsaltinq fəaliyyəti üzrə ixtisaslaşan maliyyə qurumu.
***İnvestisiya Klubu*** – birgə investisiya fəaliyyəti həyata keçirmək məqsədi ilə iqtisadi-hüquqi imkanlarını birləşdirən investorlar qrupu, birliyi.
***İnvestisiya Kompaniyası*** – istənilən təşkilati-hüquqi formada çıxış edən və qiymətli kağızların buraxılması və dövriyyəsi sahəsində xüsusi səlahiyyətləri olan təsərrüfat hüquqlu subyektidir.
***İnvestisiya Qiymətli Kağızları*** – buraxılışlarla yerləşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlar.
***İnvestisiya Menecmenti*** – investor tərəfindən investisiya fəaliyyətinin idarə edilməsi, investisiya mühitinin tədqiqi,

investisiya həcminin müəyyən edilməsi, investisiyanın optimal yerlışdirilməsi, investisiya mənfəətinin idarə edilməsi və s. investisiya menecmentinin mərhələlərini təşkil edir.

***İnvestisiya Məsləhətçisi (Konsultantı)*** – investisiya fəaliyyəti ilə bağlı xüsusilə qiymətli kağızlar bazarında məsləhət xidmətləri üzrə ixtisaslaşan investisiya institutu.

***İnvestisiya Mühiti*** – ölkə daxilində investisiya yatırımı, investisiya zəmanəti ilə bağlı dövlət tərəfindən təsbit olunan iqtisadi, hüquqi şərtlərin məcmusu.

***İnvestisiya Müsabiqəsi*** – özəlləşdirmə hərracının formalarından biri.

***İnvestisiya Portfeli*** – hər hansı investora, yaxud investorlar qrupuna məxsus bu və ya digər investisiya istiqamətinə yönəldilmiş qiymətli kağızların məcmusu.

***İnvestisiya Sertifikatı*** – sahibinə müəssisə mənfəətindən divident və vahid səhmin dəyərinə nəzərən təsbit olunmuş faiz ödənişi almaq hüququ verən, lakin səhmdar cəmiyyətin ümumi yığıncağında səs hüququ verməyən qiymətli kağız.

***İnvestisiya Səviyyəli İstiqraz*** – kredit reytinqi “Moody”s” agentliyinin Baa və “Standart & Poor’s” şirkətinin BBB reytinqindən aşağı olmayan nisbətən daha etibarlı olan istiqrazlar.

***İnvestisiya Siyasəti*** – ölkə iqtisadiyyatının investisiya ehtiyacının ödənilməsi, investisiyanın həcminin və strukturunun müəyyən edilməsi, iqtisadi artımın sürətləndirilməsi məqsədi ilə investisiya mühitinin yaxşılaşdırılması yolu ilə daxili və xarici investorların cəlb edilməsi istiqamətində aparılan iqtisadi siyasət.

***İnvestisiya Şirkəti*** – ölkə daxilində, yaxud beynəlxalq səviyyədə investisiya fəaliyyətinin həyata keçirilməsi üzrə ixtisaslaşan maliyyə-kredit institutu.

***İnvestisiya Trast Fondu*** – qiymətli kağızların saxlayıcısı və əmanətçisi olan maliyyə-kredit müəssisəsidir. Bir qayda olaraq, xırda investorların qiymətli kağızlarının etmad əsasında birləşdirilməsi yolu ilə onların pul vəsaitlərini səfərbər etmək məqsədi ilə yaradılır.

***İnvestisiya-Vergi Krediti*** – mənfəətini qismən və ya tam həcmdə

əsas istehsal vasitələrinə yenidən kapital şəklində yatıran müəssisənin, investorun mənfəətinə tətbiq edilən vergi güzəşti.

***İnvestisiya Zəmanəti Üzrə Çoxtərəfli Agentlik*** – 1988-ci ildə Dünya Bankı Qrupunun tərkib hissəsi kimi üzv ölkələrdə bürbaşa investisiyaların stimullaşdırılması məqsədi ilə yaradılan beynəlxalq maliyyə kredit institutu. Bu qurum, investisiyaların qeyri-kommersiya risklərindən sığortalanmasını həyata keçirir.

***İnvestor*** – mənfəət əldə etmək məqsədi ilə şəxsi, yaxud cəlb etdiyi maddi qiymətliləri – pul vəsaitlərini, qiymətli kağızları, əmlakı, mülkiyyəti və s.-ni investisiya layihələrinə yönəldən hüquqi və ya fiziki şəxs.

***İnzibatçı (administrator)*** – ***1)*** Məhkəmənin qərarı və ya şəxsi razılaşma əsasında digər şəxsin əmlakını idarə etmək üçün təyin olunmuş şəxs; ***2)*** Qanunvericiliyə görə müəyyən təşkilatlarda müəyyən vəzifələri tutan şəxslər.

***İnzibati Amirlik Sistemi*** – ölkə iqtisaiyyatının idarə edilməsi sistemi; bu halda hakim rol paylaşdırıcı amirlik metodlarına məxsusdur, hakimiyyət bürokratik aparatdakı mərkəzi idarəetmə orqanlarının əlində cəmləşmişdir.

***İnzibati İdarə*** – müəssisə fəaliyyətinin idarə olunması və onun qarşısında duran məqsədlərə çatmaq üzrə tam məsuliyyət daşıyan, təsərrüfat subyektinin vəzifəli şəxslər qrupudur.

***İnzibati Xərclər*** – gəlir və xərclər barədə hesabat da daxil olmaqla, müəssisənin idarə olunmasına və rəhbərliyinə çəkilən xərclərdir.

***İnzibati Hüquq*** – dövlət idarəçiliyinin təşkilati və icraedici – sərəncamverici prosesi zamanı yaranan ictimai münasibətləri tənzimləyən hüquq sahəsidir.

***İnzibati İdarəçilik*** – maliyyə cəhətdən çətinlik çəkən kompaniyanın idarəçiliyinin məhkəmə yolu ilə inzibatçıya verilməsidir.

***İnzibati Qiymət*** – bazarın tələb və təklif münasibətindən asılı olmayaraq qoyulan qiymətdir.

***İpoteka*** – daşınmaz əmlakın, mənzilin, torpağın, yaxud daşınmaz əmlakla bağlı hüququn borca görə kreditora girov kimi təqdim edilməsi.

***İpoteka Bankı*** – daşınmaz əmlakın-torpağın, binanın girovu əsasında uzunmüddətli kreditlərin təklif edilməsi üzrə ixtisaslaşan bank.
***İpoteka Bazarı*** – ipoteka istiqrazları və birbaşa ipoteka kreditləri bazarı.
***İpoteka Hüququ*** – borclu əsas öhdəliyi icra etmədikdə, ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququdur.
***İpoteka İstiqrazları*** – daşınmaz əmlakın girovu əsasında buraxılan uzunmüddətli istiqrazlar.
***İpoteka Kağızı*** – ipoteka hüququnu təsbit edən adlı qiymətli kağız.
***İpoteka Krediti*** – daşınmaz əmlakın girovu əsasında təqdim olunan kredit.
***İpoteka Qoyan*** – ipoteka predmeti olan əşyanı girov qoyan şəxsdir. İpoteka qoyan həm borclu, həm də üçüncü şəxs ola bilər.
***İpoteka Müqaviləsi*** – əsas öhdəliyin icrasının təmin edilməsi üçün ipoteka saxlayan və ipoteka qoyan arasında bağlanılan əqddir.
***İpoteka Portfeli (hovuzu)*** – fərdi ipotekaların bir yerə toplanılması yolu ilə formalaşan hovuz.
***İpoteka Saxlayan*** – ipoteka hüququ olan və ipoteka qoyanın digər kreditorlarına nisbətən üstün qaydada ipoteka predmeti hesabına əsas öhdəliyin icrasına tələb etmək hüququ olan şəxs, o cümlədən, ipoteka kağızının qanuni sahibidir.
***İpoteka Sertifikatı*** – girov şəhadətnaməsidir, birjada kotirovka edilən ən geniş yayılmış qiymətli kağızlardandır.
***İpoteka Sığortası*** – ipoteka krediti münasibətlərində borc alan subyektin sığortalanması.
***İpoteka Şəhadətnaməsi*** – qanuni sahibinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağız.
***İpoteka Vekseli*** – ipoteka krediti zamanı borc alan tərəfin kreditor tərəfə təqdim etdiyi əsas və faiz məbləğinin qaytarılması ilə bağlı yazılı öhdəlik, veksel.

***İrad Məktubu*** – qiymətli kağızlar üzrə tənzimləyici orqanın yeni buraxılış etməyə hazırlaşan emitentə təqdim etdiyi və qeydiyyata verilmiş emissiya prospektində müəyyən boşluq, yanlışlıq və çatışmazlıqların olduğunu bildirən yazılı xəbərdarlıq məktubu.
***İS Xətti*** – bazarda malların və xidmətlərin çoxsaylı tarazlıq vəziyyətini göstərən xətdir.
***İSE NATİONAL – 100 İndeksi*** – İstanbul Fond Birjası tərəfindən hesablanan indeksdir. Yalnız yerli şirkətləri əhatə edir və Türkiyə iqtisadiyyatının əsas göstəricilərindən biridir.
***İsraf*** – maddi və ya pul vəsaitlərinin onların sərəncamçısı olan şəxs tərəfindən qanunsuz, məqsədi üzrə deyil, şəxsi məqsədlərdən ötrü istifadə edilməsi.
***İstehlak*** – məhsulun, əşyaların, nemətlərin, əmtəələrin, xidmətlərin, tələbatları ödəməkdən ötrü istifadə edilməsi, sərf olunması.
***İstehlak Bazarı*** – əmtəə və xidmətləri şəxsi istehlakdan ötrü alan ayrı-ayrı şəxslər və ev təsərrüfatları.
***İstehlak Dəyəri*** – marksist siyasi iqtisadın əşyanın istehlak predmeti kimi faydalılığını, onun insan tələbatlarını ödəməyə imkan verən xüsusiyyətlərə və keyfiyyətlərə malik olmasını bildirən termin.
***İstehlak Əşyaları*** – istifadə zamanı istehlak olunan, məhv edilən əşyalardır.
***İstehlak Kooperativi*** – vətəndaşların və hüquqi şəxslərin əmlak paylarını üzvlük haqqı qoymaqla yaratdıqları qeyri-kommersiya təşkilatıdır.
***İstehlak Krediti*** – istehlak məhsullarının alınması məqsədi ilə cəlb edilən kredit.
***İstehlak Kreditləri Bankı*** – istehlak kreditləri təqdim edən ixtisaslaşmış kommersiya bankı və ya digər ixtisaslaşmış kredit təşkilatı.
***İstehlak Qiymətləri İndeksi*** – müəyyən müddət ərzində istehlak mallarının qiymətlərinin dəyişilməsini xarakterizə edən qiymət indeksi. İstehlak qiymətləri indeksi müəyyən çeşid istehlak əmtəələri üzrə cari ilin faktiki qiymətlərinin bazis ilinin qiymətləri

ilə müqayisəsini ifadə edir.
***İstehlak Malları*** – istifadə üçün istehsal olunmuş mallardır.
***İstehlak Olunmayan Əşyalar*** – uzunmüddətli istifadə prosesində öz təsərrüfat və ya digər təyinatı üzrə yararlı olan əşyadır.
***İstehlak Səbəti*** – insanın, yaxud ailənin aylıq istehlakının tipik quruluşunu və səviyyəsini səciyyələndirilən əmtəə toplusu.
***İstehlakçı*** – şəxsi tələbatı üçün mal və xidmət əldə edəm alıcı.
***İstehlakçının Müdafiəsi*** – istehlakçının müdafiəsinə yönəldilmiş qanunlardır.
***İstehsal*** – məhsulların hazırlanması, xidmətlərin göstərilməsi və işlərin görülməsidir.
***İstehsal Amillərinin Beynəlxalq Bölgüsü*** – tarixən mövcud olan və ya sonradan qazanılan ayrı-ayrı istehsal amillərinin müxtəlif ölkələrdə toplanmasıdır.
***İstehsal Amillərinin Beynəlxalq Mobilliyi*** – ölkələr arasında istehsal faktorlarının sərbəst yerdəyişməsidir.
***İstehsal Ehtiyatları*** – müəssisəyə məxsus əmək alətləri, istehsal və yenidən istehsalda istifadə olunan əmək vasitələri, həmçinin əmık alətlərinin alınması və yenidən qiymətləndirilməsi ilə bağlı əməliyyatları, informasiyaları ümumiləşdirmək üçün istifadə olunan nəzərdə tutulmuş hesablardır.
***İstehsal Faktorları*** – malların istehsalı və xidmətlərin göstərilməsi üçün vacib sayılan resurslar və ya məsrəflərdir.
***İstehsal Faktorunun Nisbi Qiyməti*** – istehsal faktorunun birinin qiymətinin digər faktorun qiymətinə olan nisbətidir.
***İstehsal Funksiyası*** – istehsal olunan məhsulun optimal miqdarını tətbiq olunan istehsal faktorlarının həcmi ilə əlaqələndirən funksiyadır.
***İstehsal Gücü*** – müəyyən müəssisədə avadanlıqdan və istehsal sahələrindən tam istifadə etməklə müəyyən dövr ərzində məhsulun mümkün qədər maksimal buraxılış həcmi.
***İstehsal İmkanlarının Sərhədi*** – ölkənin bütün istehsal resurslarından tam istifadə edilməsi və ən qabaqcıl texnologiyanın tətbiqi nəticəsində istehsal edə biləcəyi iki məhsulun müxtəlif alternativ nəticələrini əks etdirən əyridir.

***İstehsal Kalkulyasiya Qrupu*** – mühasibatın struktur yarımbölməsi olub, işçiləri istehsalın bütün sahələri üzrə xərclərin uçotunu aparır, buraxılan məhsulların faktiki maya dəyərini kalkulyasiya edir və iş sahələri üzrə hesabatlar hazırlayır, habelə, yarımaçıq istehsalın xərc tərkibini müəyyənləşdirirlər.

***İstehsal-Kommersiya Dövrü*** – işçi kapitalın hərəkəti ilə pul mədaxili arasındakı əlaqəni təsvir etmək üçün istifadə olunan termindir. Adətən günlərlə və ya aylarla ölçülür.

***İstehsal Kooperativləri*** – vətəndaşların əmlak payı qoymaqla könüllü şəkildə yaratdığı birgə istehsal və ya digər təsərrüfat fəaliyyəti ilə məşğul olan könüllü birliklərdir.

***İstehsal Qiyməti*** – malın qiymətinin bir hissəsidir.

***İstehsal Lisenziyası*** – patent sahibi tərəfindən patent verilmiş ixtiranın istehsalda istifadə olunmasına verdiyi lisenziyadır.

***İstehsal Məsrəfləri*** – məhsul istehsalı ilə bilavasitə bağlı olan və onunla şərtləşən tam məsrəflər, xərclər.

***İstehsal Münasibətləri*** – marksist siyasi iqtisad elminin maddi nemətlərin istehsalı, mübadiləsi, bölgüsü və istehlakı prosesi zamanı insanlar arasında formalaşan iqtisadi münasibətləri bildirən termini.

***İstehsal Potensialı*** – mövcud resurslardan tam istifadə etməklə istehsal oluna bilən məhsulun real həcmi.

***İstehsal Sferası*** – sovet dövrünün iqtisad elmində maddi istehsal sferasının adlandırılması üçün istifadə edilən termin.

***İstehsal Strukturu*** – iqtisadi obyektin istehsal-texnoloji əlamətlər üzrə bölünməsi.

***İstehsal Tullantıları*** – istehsal prosesində onun texnoloji xüsusiyyətləri, texnologiyasının qeyri-təkmil olması, labüd texnoloji itkilər nəticəsində yaranan xammal və material tullantıları.

***İstehsal Vasitələri*** – insanların istehsal, əmək fəaliyyətinin alətləri və predmetləri; istehsalda istifadə edilən əsas və dövriyyə vəsaitləri;

***İstehsalat Əmsalı*** – əsas maliyyə elementlərinin müəssisənin işçilərinin sayına olan nisbətidir.

***İstehsalat Şirkəti*** – maddi məhsul buraxan və maddi xidmətlər

göstərən şirkət.
***İstehsalçı*** – məhsulun, əmtəənin, xidmətlərin istehsalçısı olan müəssisə, təşkilat, şirkət.
***İstehsalın İxtisaslaşması*** – müəssisənin, şirkətin fəaliyyətinin məhdud çeşidli məhsul, əmtəə və xidmət istehsalı üzrə cəmlənməsi.
***İstehsalın İnkişaf Xərcləri*** – cəlb olunmuş qeyri-maddi aktivlərin növ müxtəlifliyi olub, məbləği pul vəsaitləri hesabına kredit olunmalı və tədqiqatlar və təhqiqatlar hesabında debet olunmalıdır.
***İstehsalın Kritik Həcm Nöqtəsi*** – ümumi gəlirlərin ümumi xərclərə bərabər olduğu, müəssisənin aktiv iş fəaliyyətinin səviyyəsidir.
***İstehsalın Qeyri-Təmərküzləşməsi*** – həddən artıq böyük müəssisələrin ayrı-ayrı müstəqil müəssisələrə bölünüb ayrılmasıdır.
***İstehsalın Təmərküzləşməsi*** – bir və ya bir neçə yaxın məhsul növlərinin istehsalının iri müəssisələrdə, kiçik ərazidə cəmləşməsi.
***İstehsalçı Qiymət İndeksi*** – istehsalçıların satdıqları mal və xidmətləri üzrə qiymətlərin dəyişməsini göstərən indeks.
***İstifadə*** – hüququn subyektləri sayılan mülkiyyətçinin, həmçinin hüquqi şəxslərin operativ idarəçilik və ya təsərrüfatı aparmaq hüququdur.
***İstiqraz*** – borc öhdəlikli qiymətli kağız. "Qiymətli kağızlar haqqında" AR qanununda aşağıdakı kimi tərif verilir: "İstiqraz vərəqəsi – onun sahibinin emitentdən istiqraz vərəqəsində nəzərdə tutulan müddətdə onun nominal dəyərini və bu dəyərdən müəyyən edilmiş faizi və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsbit edən emissiya qiymətli kağızıdır".
***İstiqraz-Barometr*** – davranışı vasitəsi ilə istiqraz bazarını bütövlükdə istiqamətləndirmək və eyni zamanda, qiymətinə başqa istiqrazların qiymətlərinin istinad etməsi üçün nəzərdə tutulmuş dövlət istiqrazı.
***İstiqraz Müqaviləsi*** – istiqraz sahiblərinin üstünlükləri və məhdudiyyətləri hüquqlarını müəyyənləşdirən, istiqrazların ödəmə vaxtı, faizlərin ödəmə tarixi və onların miqdarı barədə danışılan, həmçinin istiqrazların uzun müddətə alınması və ya adi səhmlərə

mübadiləsi imkanlarını əks etdirən razılaşmadır.

***İstiqrazlar, Bazar Faiz Dərəcələri*** – investisiya bazarında istiqrazlar üzrə, borc və risk şərtlərində olduğu kimi ödənilən məbləğə əsaslanan faiz dərəcələridir. Bazar faiz dərəcələri dayanıqsızdır və daima tərəddüd edir.

***İstiqrazlar, Nominal Faiz Dərəcələri*** – istiqrazın nominal dəyərinə əsaslanan, istiqraz sahibinə ödənilən faiz dərəcələridir.

***İstiqrazların Yuyulması*** – faiz gəlirini kapital artımına çevirmək üçün kupon ödənişindən sonra istiqrazın lazımi faizlə satışı və yenidən satın alınması.

***İstiqrazların Qiyməti*** – nominal dəyərdən faiz normaları şərtlərində təsdiq olunmuş qiymətidir.

***İstismar*** – təbii sərvətlərin işlədilməsi, istifadəsi; torpağın, sənaye müəssisələrinin, nəqliyyat vasitələrinin, binaların və s. istifadə edilməsi.

***İstismar Xərcləri*** – şirkətin öz biznesini normal davam etdirməsi üçün zəruri olan işgüzar əməliyyatların yerinə yetirilməsi nəticəsində məruz qaldığı xərclər.

***İstisna Etməklə*** – İstisna edilmiş, çıxılmış deməkdir.

***İş*** – əmək fəaliyyətinin həyata keçirilməsi, əməkdə iştirak, insan, kollektiv tərəfindən tapşırıqların yerinə yetirilməsi.

***İş Buraxma*** – işçinin üzrsüz səbəblərdən bütün iş günü ərzində, yaxud iş yerində icazəsiz 3 saat ərzində olmaması.

***İş Dövrü*** – fond birjasında ticarət sessiyasının aparılması dövrü.

***İş Fəallığı Əmsalı*** – müəssisə aktivləri portfelinin səmərəli istifadəsinin xarakteristikasıdır.

***İş Qüvvəsi*** – insanın əmək qabiliyyətini, onun əmək imkanlarını bildirən marksist siyasi iqtisad termini.

***İş Sənədləri*** – müəssisənin təsərrüfat-maliyyə fəaliyyəti haqqında informasiyaları əks etdirən və hesabat sənayelərinin hazırlanması üçün istifadə olunan sənədlərdir.

***İş Stajı*** – əmək fəaliyyətinin təqaüd almağa, əmək haqqının artırılmasına, güzəştlərin verilməsinə hüquq verən müddəti.

***İş Vaxtı*** – vaxt, dövr, zamanı – onun ərzində işçi işdə olmalı və xidməti vəzifələrini yerinə yetirməlidir; işin icrasına sərf edilən,

yaxud işdə birbaşa xidməti vəzifələrin yerinə yetirilməsinə sərf edilən vaxt.

***İş Vaxtı Balansı*** – müəssisə və təşkilatların işçilərinin iş vaxtı resursunu və onun müxtəlif növ işlərə sərf olunmasını xarakterizə edən balansdır.

***İş Yeri*** – müəyyən peşə sahibi olan bir işçinin əmək funksiyalarının icrası üçün uyğunlaşdırılmış yer və işlərin görülməsi üçün oradakı istehsal vasitələri, əmək alətləri.

***İşçi*** – işi yerinə yetirən, müəssisədə, təşkilatda işləyən şəxs.

***İşçi Axıcılığı*** – kənar edilmə və şəxsi səbəblər üzündən başqa isə keçmə nəticəsində işçi heyəti tərkibinin dəyişməsinin göstəricisi.

***"İşçi Fondu" Nəzəriyyəsi*** – fəhlələrin əmək haqqının səviyyəsinin "işçi fondu" və fondun aralarında bölündüyü fəhlələrin ümumi sayı ilə müəyyən olması haqqında XIX əsrin birinci yarısında irəli sürülmüş nəzəriyyə. Bunun nümayəndələri ingilis iqtisadçıları və sosioloqları İ.Bentam, J.Mak-Kulloh, T.Maltus, C.Mill və b. "İşçi Fondu" nəzəriyyəsinin əsasında dəyişkən kapital, yəni işçi qüvvəsinin alınmasına sərf edilən kapital dəyişməz kəmiyyətdir, çünki onun təzahür etdiyi həyat nemətləri kütləsi təbiət tərəfindən məhdudlaşdırılmış və milli sərvətin sabit və ayrıca bir hissəsini təşkil edir.

***İşçi Kapitalı*** – cari aktivlərlə (ehtiyatlar, debitor borcları və pul vəsaitləri) cari passivlərin (kreditor borcları və bank overdraftları) fərqidir.

***İşçi Kapitalı Əmsalı (Cari Əmsal)*** – likvidliyi qiymətləndirmək üçün nəzərdə tutulmuşdur və cari aktivlərin (dövriyyə aktivləri) cari passivlərə (qısa müddətli borclar) olan nisbətinə bərabərdir.

***İşçi Qüvvəsinin Miqrasiyası*** – əmək qabiliyyətli əhalinin iqtisadi, siyasi, dini və digər xarakterli səbəblər üzündən bir ölkədən uzunmüddətli başqa br ölkəyə getməsidir.

***İşəmuzd Əmək Haqqı*** – əmək haqqının işçinin təyin edilmiş keyfiyyətlə istehsal etdiyi məhsulun miqdarından asılı olaraq müəyyən edildiyi əməyin ödəniş forması.

***İşgüzar Fəallıq*** – insanın çeviklik, fərasətlilik və təşəbbüskarlıq xüsusiyyəti və bu xüsusiyyətin real təzahürü.

***İşin (Xidmətin) Realizasiya Yeri* – *1)*** İşin (xidmətin) bilavasitə bağlı olduğu daşınmaz əmlakın yerləşdiyi yerdir; ***2)*** Daşınar əmlakla əlaqədar olaraq işin (xidmətin) faktiki görüldüyü yerdir.

***İşlər*** – istehlakçının sifarişi üzrə icraçının fəaliyyəti olub, maddi nəticəsi istehlakçıya öz tələbatını ödəmək üçün verilir.

***İşsiz*** – əmək qabiliyyətli vəziyyətdə və yaşda olan, işləmək bacarığı və həvəsi, arzusu olan, lakin ondan asılı olmayan səbəblərdən işləməyən, gəliri olmayan şəxsdir.

***İşsizlik*** – ölkə əhalisinin bir hissəsinin işlə təmin oluna bilmədiyi iqtisadi durum, sosial –iqtisadi problem. Ölkədə işsizlik səviyyəsi aşağıdakı kimi hesablanır:

$$İS = İ/İQ$$

Burada: İS – işsizlik səviyyəsi; İ – işsizlər; İQ – işçi qüvvəsi.

***İşsizlik səviyyəsi*** – işsizlərin sayının fəal əhalinin ümumi sayına nisbəti.

***İşsizliyə Görə Yardım*** – sosial sığorta və məşğulluq fondlarından işsiz kimi uçota alınmış şəxslərə qarantiya olunmuş pul ödənişləridir.

***İtki*** – bir şəxsin hüquqa zidd hərəkət etməklə başqasına vurduğu ziyanın pulla ifadəsidir.

***İtkilər*** – baxılan vaxt müddətində müəssisənin əsas iqtisadi fəaliyyətinin ölçüləridir (həmin müddətdə müəssisənin gəlirləri və xərcləri arasındakı fərqdir).

***İyen*** – Yaponiyanın milli pul vahidi. 1JPY=100 SEN.

***İyerarxiya*** – mürəkkəb sistemlərin, məsələn, iqtisadi obyektlərin idarə edilməsi sistemlərinin qurulması, təşkili üsulu.

***İzafi Məhsul*** – marksist siyasi iqtisad elmində istehsal prosesində əmək məsrəflərinin əvəzini ödəyən zəruri məhsuldan əlavə yaradılan xalis məhsulun hissəsini bildirən termin.

***İzafi Məsrəf*** – əvvəlcədən alınan materialların qiymətlərinin qalxması nəticəsində məhsulun qiymətinə edilən əlavə.

***İzah və Təbliğedici Reklam*** – hansısa konkret ideyanın aydınlaşdırılması və müdafiə edilməsi üzrə reklam fəaliyyəti.

***İzləyici Səhm*** – dividenti şirkətin müəyyən bölməsinin fəaliyyətinin nəticələrinə bağlanmış adi və ya imtiyazlı səhm.

# – J –

***Jiro – 1)*** Nağdsız hesablaşma forması; ***2)*** Maliyyə və ya pul sənədinin üzərində, onun başqa bir şəxsin hüquqlarına verilməsi ilə bağlı həmin sənədin sahibi tərəfindən həkk edilən imza.

***Jiro Bank*** – öz müştəriləri arasında qarşılıqlı nağdsız hesablaşmalar həyata keçirən bank.

***Jiro Hesablaşma*** – jiro banklar tərəfindən müştərilər arasında aparılan qarşılıqlı nağdsız hesablaşma. Jiro hesablaşma vasitəsi ilə bank müştərinin əmanət kassasında olan vəsaitini digər müştərinin hesabına köçürür.

***Jiro Sistem*** – poçt şöbələrindəki hesablar vasitəsi ilə aparılan nağdsız ödənişlər sistemi.

***Jiroçek*** – çek verənin, onun jiro hesabından çek saxlayanın hesabına müəyyən məbləğ pul köçürülməsi üçün banka verdiyi sərəncam məzmunlu olan çeklərdir.

***Jurnal – 1)*** Dövrü nəşr formalarından biri; ***2)*** Mühasibatlıqda bütün əməliyyatların və dövriyyənin ardıcıl qeydiyyatının aparıldığı kitab; ***3)*** Hər hansı idarəyə, təşkilata daxil olan, eyni zamanda həmin təşkilatdan təqdim edilən rəsmi sənədlərin ardıcıl qeydiyyatının aparıldığı kitab.

***Jurnal Order*** – mühasibatlıqda sentetik, xüsusi hallarda isə analitik uçotun xronoloji qaydada qeydiyyatının aparıldığı cədvəl.

# – K –

***Kabal*** – aldatma, təzyiq, nəticəsi pis qurtara biləcək hədələmələr, girovgötürmə və s. kimi məcburi şərtlər altında imzalanmış əqdlərdir.

***Kabotaj*** – xarici yükdaşıyanlar tərəfindən ölkə daxilində daşınan yükdür.

***Kadastr*** – ölkənin, dövlətin iqtisadi resursları haqqında sistemləşdirilmiş, vaxtaşırı, yaxud fasiləsiz müşahidələr əsasında tərtib edilmiş əsas məlumatlar toplusu (reyestri).

***Kağız Aktivlər*** – müxtəlif qiymətli kağızlar formasında olan maliyyə aktivləri.

***Kağız Bareli*** – neft və ya neft məhsulları üzrə fyuçers, forvard və ya opsion müqaviləsidir.

***Kağız Pullar*** – dövlətin xüsusi rol və rəsmi pul gücü verdiyi və xüsusi kağızda çap edilmiş pul nişanlarıdır.

***Kalkulyasiya*** – mühasibatda məhsul vahidinin, yaxud məhsul dəstinin istehsalı və satışı, həmçinin işlərin və xidmətlərin görülməsi xərclərinin pul ifadəsində cədvəl formasında hesablanması.

***Kambio*** – borc öhdəlikli maliyyə sənədi, veksel, istiqraz və s.

***Kambist*** – veksellərlə əməliyyat aparan hüquqi və ya fiziki şəxs.

***Kameral*** – əldə olunmuş sənədlər və faktlar əsasında aparılan elmi-praktiki tədqiqat, araşdırma və s.

***Kameral Vergi Yoxlaması*** – vergi orqanı tərəfindən vergi ödəyicisinin yerləşdiyi obyektə getmədən vergi orqanında olan, həmin vergi ödəyicisi tərəfindən təqdim edilən hesabatlar, eləcə də vergi ödənişləri barəsində məlumatları özündə əks etdirən, eyni zamanda vergi orqanında vergi ödəyicisinin fəaliyyəti haqqında olan digər materiallar əsasında aparılan vergi yoxlaması.

***Kampaniya*** – təxirəsalınmaz vəzifələrin yaranması, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi, mövsümi xüsusiyyətlər üzündən fəaliyyətin müvəqqəti, müəyyən dövr ərzində intensivləşdirilməsi, kəskin fəallaşması.

***Kanal Rüsumu*** – limanlara aparan kanallardan istifadəyə görə ticarət gəmilərindən tutulan məcburi rüsum.
***Kapednot*** – uçot dərəcələri fiksə edilmiş qiymətli kağızlar.
***Kapital*** – gəlir gətirmək qabiliyyəti olan hər şey və ya əmtəə xidmətlərin istehsalı üçün insanların yaratdığı resurslar.
***Kapital Axını*** – beynəlxalq maliyyə bazarlarında qısamüddətli kreditlərə yüksək tələbin mövcud olması, faiz ödənişlərinin yüksək olması, həmçinin valyuta mübadilələrində möhtəkir mənfəət imkanlarının geniş olması nəticəsində ölkədən xaricə böyük həcmdə kapital vəsaitlərinin çıxarılması.
***Kapital Artıqlığı*** – səhmlərin satış qiymətinin onun nominal qiymətini üstələməsi.
***Kapital Bazarı*** – uzunmüddətli maliyyə alətlərinin ticarətinin aparıldığı bazar sistemidir.
***Kapital Dövriyyəsi*** – kapitalın silsiləvi hərəkəti. Hərəkət sürəti kapitalın bir silsiləni tam başa vurması vaxtı ilə ölçülür.
***Kapital Xərcləri*** – uzunmüddətli aktivin əldə edilməsi üçün çəkilən xərclər.
***Kapital İxracı*** – mənfəət, gəlir əldə edilməsi, sosial-iqtisadi inkişafa yardım göstərilməsi və s. məqsədlər üçün pul və ya əmtəə formasında kapitalın ölkə ərazisindən çıxarılması.
***Kapital Qoyuluşu*** – mənfəət, gəlir, səmərə əldə etmək məqsədi ilə hər hansı iqtisadi fəaliyyət sahəsinə, o cümlədən əsas istehsal fondlarına investisiya vəsaitlərinin qoyulması, yönəldilməsi.
***Kapital Qoyuluşlarının Diversifikasiyası*** – investisiyaların mümkün istiqamətlər üzrə şaxələndirilməsi.
***Kapital Qoyuluşu Üzərində Nəzarət Barədə Qanunvericilik*** – investorları dələduz və ya prinsipsiz sövdələşmələrə cəlb olunmaqdan qorumaq məqsədi ilə qiymətli kağızların satışını və qarşılıqlı fondların fəaliyyətini tənzimləyən qanunvericilik aktları və qaydalar toplusu.
***Kapital Leverici – 1)*** İzafi borc vəsaitləri cəlb etməklə mənfəətin artırılması; ***2)*** Müəssisənin şəxsi vəsaitlərinin cəlb etdiyi vəsaitlərə nisbəti.

$$KL = VŞ/VC$$

***Kapital təmir*** – əsas vəsaitlərin istismar müddətinə və ya ləğvetmə dəyərləri hesabatına təsir edən təmirdir.
***Kapital Transfertləri*** – əvəzi ödənilməmək şərti ilə aktivlərin pul və ya natura şəklində bir iqtisadi vahid tərəfindən digərinə verilməsi.
***Kapital Tutumu*** – kapital qoyuluşunun iqtisadi səmərəliliyini ifadə edən göstərici. Kapital tutumu əsas istehsal fondlarının dəyərinin müəyyən dövr ərzində istehsal olunmuş məhsulun, işin, xidmətin dəyərinə nisbəti kimi hesablanır.
***Kapital Verimi*** – kapital vəsaitinin istifadəsinin səmərəlilik səviyyəsini xarakterizə edən göstərici.
***Kapital Zərəri*** – qiymətli kağızların və ya ümumilikdə aktivlərin ilkin xərcindən aşağı qiymətə satılması və ya ötürülməsi nəticəsində yaranan zərər.
***Kapitalın Adekvatlıq Əmsalları*** – birinci dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda risk dərəcəsi üzrə ölçülmüş aktivlərə olan nisbəti.
***Kapitalın Adekvatlığı*** – maliyyə təşkilatları üçün müvafiq nəzarət orqanı tərəfindən təsdiq edilən normativ.
***Kapitalın Artımından Gəlirlər*** – qiymətli kağızların və ya ümumilikdə aktivlərin ilkin xərcindən yuxarı qiymətə satılması və ya ötürülməsi nəticəsində yaranan mənfəət.
***Kapitalın Hesabı*** – mülkiyyətçinin müəssisəyə qoyduğu vəsaiti əks etdirmək və onların dəyişməsini izləmək üçün nəzərdə tutulmuş müasibat hesablarından biridir.
***Kapitalın Hərəkəti Balansı*** – müəyyən müddət ərzində ölkəyə daxil olan və ölkədən çıxarılan kapitalın nisbətini əks etdirən sənəd (balans).
***Kapitalın Hərəkəti ilə Bağlı Valyuta Əməliyyatları*** – valyuta əməliyyatlarının növ müxtəlifliyi olub, aşağıdakıları özündə əks etdirir: ***a)*** birbaşa sərmayələr; ***b)*** portfel sərmayələri, daha doğrusu qiymətli kağızların alınması; ***c)*** binalar, qurğular və digər əmlakları mülkiyyət hüququna almaq üçün ödənişlər; ***ç)*** mal, xidmət və işlərin idxalı və ixracı üzrə ödənişlərin verilməsi və alınması müddətlərinin uzadılması; ***d)*** maliyyə kreditlərinin müəyyən

müddətə verilməsi və alınması; ***e)*** cari adlanmayan, digər valyuta əməliyyatları.

***Kapitalın Hibrid Elementləri*** – səhmlərin və borc öhdəliklərinin xüsusiyyətlərini özündə birləşdirən maliyyə alətləri, o cümlədən qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər, kumulyativ müddətsiz imtiyazlı səhmlər, subordinasiya borc öhdəlikləri və ya oxşar digər qiymətli kağızlar.

***Kapitalın Orta Çəkili Dəyəri*** – şirkətin kapital cəlb etməsi üçün buraxacağı qiymətli kağızların sahiblərinə ödəməli olduğu orta çəkili faiz dərəcəsi.

***Kapitalın və Kreditin Hərəkəti Balansı*** – müəyyən müddət ərzində ölkənin digər ölkələrdə həyata keçirdiyi kapital və kredit münasibətlərini ifadə edərək kapital vəsaitləri və kreditlərin idxalı və ixracı ilə bağlı göstəriciləri sistemli şəkildə əks etdirən balans.

***Kapitalın Strukturu*** – müəssisənin tələb etdiyi borcları almaq üçün tələb olunan gəlirin orta rəqəmini xarakterizə edən əmsaldır. Bu müddət, debitor borclarının satışdan əldə olunan gəlirlərə bölünüb 365-ə vurulması ilə tapılır.

***Kapitalizm*** – bu Karl Marks nəzəriyyəsində ictimai quruluşdur. Bu quruluşda əsas istehsal vasitələri muzdlu fəhlələr sinfini istismar edən kapitalistlər sinfinə məxsus olur.

***Kapitalla Əməliyyatlardan Gəlirlər*** – əsas kapitalın satışından, dövlət ehtiyatlarında olan malların satışından, torpağın və qeyri-material aktivlərinin və qeyri-dövlət mənbələrindən kapital transferlərinin satışından əldə edilən gəlirləri birləşdirir.

***Kapitallaşma*** – izafi dəyərin, mənfəətin, gəlirin kapitala çevrilməsi, onun genişlənməsi üçün istifadə edilməsidir.

***Karat – 1)*** Qiymətli daşların kütlə vahidi; metrik karat 200 mq., ingilis karatı 205 mq-dır; ***2)*** Qiymətli metalların ərintisinin təmizliyi ölçüsü vahidi (qızılın ingilis karatı); ərintinin 1/24 kütləsinə bərabərdir.

***Karat (Qeyri-Metrik Ölçü)*** – ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür. Metrik karat 200 mq, ingilis karatı 205 mq-dır.

***Kargüzarlıq*** – təşkilat, müəssisə, firmalarda sənədləşmənin

aparılması, sənədlərin qəbulu, doldurulması, sənədləşdirilməsi, göndərilməsi, onların hərəkəti və icrası üzərində uçot və nəzarət sənədlərinin yeniləşdirilməsidir.

***Karqo*** – gəmidə daşınan və sığortalanmaya məruz qalan yüklərin dəqiq adı göstərilməyəndə istifadə olunan termindir.

***Karqo-Sığorta*** – nəqliyyat yüklərinin sığortalanmasının bir növü. Bu halda nəqliyyat vasitəsi deyil, yalnız yükün özü sığortalanır.

***Kartel*** – konkret bir sahə üzrə rəqabətin məhdudlaşdırılması barədə firmalar arasındakı rəsmi və ya qeyri-rəsmi sazişdir. Müasir dövrdə ən böyük kartel sazişi neft ixrac edən ölkələrin (OPEK) – sazişdir.

***Kartel Hüququ*** – antiinhisar razılaşmasının kartel müqavilələrinin bir çox növünü qadağan edən formalarından biri.

***Kartel Qiyməti*** – rəqibləri aradan götürmək, bazardan kənarlaşdırmaq məqsədi ilə kartel iştirakçılarının qoyduğu inhisar qiyməti.

***Karyera*** – ***1)*** Hər hansı bir fəaliyyət sahəsində müvəffəqiyyətli irəliləyişi; ***2)*** Fəaliyyət, İş növü, Peşə.

***Kasıblıq*** – vətəndaşlarda, ailədə, regionda, dövlətdə olan material qiymətlilərinin, əmtəələrin, pul vəsaitlərinin normal həyat fəaliyyəti üçün kifayət etməməsidir.

***Kasıblıq İndeksi*** – "kasıblıq həddinin" orta çəkili göstəricisinin dinamikasını səciyyələndirən statistik göstərici.

***Kasqo –Sığorta*** – növündə asılı olmayaraq mexaniki nəqliyyat vasitələrinin sığortası.

***Kassa*** – nağd kağız pul vəsaitinin, sikkələrin, kağız şəklində digər maliyyə aktivlərinin, yaxud müxtəlif qiymətlilərin qəbul edilməsi, saxlanılması, ödənilməsi üçün istifadə olunan xüsusi quruluşa malik qab, qutu.

***Kassa Aparatları*** – ticarət zalında alınmış pullara nəzarət etmək üçün istifadə olunan qurğudur.

***Kassa Çeki*** – hesab sahibinə və ya üçüncü şəxsə nağd ödənilən miqdarı göstərən çekdir.

***Kassa Ehtiyatları*** – xərclərin təxirə salınması və ya azaldılması, gəlirlərin vaxtından əvvəl və ya artıq həcmdə daxil olması, ehtiyat vəsaitlərinin toplanılması ilə əlaqədar kassada yaranan müvəqqəti

istifadəsiz nağd pul vəsaitləri.
***Kassa Əməliyyatları*** – müəssisənin, təşkilatın kassasına nağd pul vəsaitlərinin və müxtəlif qiymətli kağızların qəbul edilməsi, onların orada saxlanılması, və buraxılması ilə əlaqədar əməliyyatlar.
***Kassa Əməliyyatı Üzrə Mübadilə Məzənnəsi*** – 48 saat ərzində bağlanacaq müqavilələr üçün istifadə olunan valyuta mübadiləsi məzənnəsidir.
***Kassa-Hesab Xidməti Haqqında Müqavilə*** – hesablaşma hesabı açılarkən müəssisə ilə bank arasında bağlanan müqavilədir.
***Kassa Xərc Orderi*** – müəssisə kassasından nağd pulun verilməsi üçün əsas verən mühasibat sənədidir.
***Kassa Kəsiri*** – müəssisənin, təşkilatın kassasında nağd pul vəsaitinin çatışmazlığı.
***Kassa Kitabı*** – gün ərzində aparılan kassa əməliyyatlarının nəticəsi və kassada qalan qalığı qeyd etmək üçün istifadə olunan mühasibat uçotu sənədidir.
***Kassa Orderi*** – müəssisənin, təşkilatın kassasından pul vəsaitinin verilməsi və ya əksinə qəbul edilməsi ilə bağlı kassa əməliyyatını təsdiq edən rəsmi pul sənədi.
***Kassa Planı*** – müəssisənin, təşkilatın kassası üzrə nağd pul dövriyyəsi haqqında məlumatları əks etdirən sənəd.
***Kassada Nağd Pul Artıqlığı*** – firma kassasında kassa xidmətinin normativ tələbatlarından artıq olan nağd pul vəsaitləri.
***Kassadakı Nağd Pul*** – müəssisə və təşkilatların kassalarındakı nağd pul vəsaitləri.
***Kastodi*** – səhmdar cəmiyyətin səhmlərinin cavabdehlik əsasında saxlanması, qorunması üzrə bank xidməti növü.
***Kastodian*** – qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması xidmətini göstərən hüquqi şəxs.
***Kataklizm*** – iqtisadiyyatda fövqəladə hallarda baş vermiş məhvedici, dağıdıcı, kəskin çevrilişlər, dəyişikliklər.
***Kataloq*** – əmtəələrin siyahısı, həmçinin bu siyahının olduğu nəşr.
***Kataloq Qiyməti*** – firmanın prospekt və kataloqlarında dərc olunan topdansatış və pərakəndə ticarət müəssisələrinin rəsmi qiymətidir.
***Kateqoriya*** – işçilərin peşəkarlıq səviyyəsini, yaxud əmtəələrin

keyfiyyətini müəyyən edən dərəcə, sıra yeri.

***Kauzal Əqd (sövdələşmə)*** – qanuni və əldə edilə bilən məqsədlərə çatmağa can atan subyektlərin əqdləridir.

***Keçid Dövrü*** – iqtisadi sistemin köklü islah edilməsi ilə əlaqədar ölkə iqtisadiyyatının yeni, keyfiyyətcə başqa duruma keçməsi dövrü.

***Keptiv*** – korporativ sektorun sığorta maraqlarına xidmət üzrə ixtisaslaşan səhmdar sığorta şirkəti.

***Kerb*** – birja bağlandıqdan, alqı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları.

***Kerns Qrupu – Uruqvay Raundu*** – iştirakçılarına, danışıqlarının əsas məsələsi olan kənd təsərrüfatı məhsulları ticarətinin liberallaşdırılmasını tanınmaq üçün, 1986-cı ildə yaradılmış ölkələrin birliyidir. Bu qrupa Avstraliya, Argentina, Braziliya, Macarıstan, İndoneziya, Kanada, Kolumbiya, Malayziya, Yeni Zelandiya, Tailand, Uruqvay, Fici, Filippin və Çili dövlətləri daxildir.

***Keyfiyyət*** – müəyyən maddi və ruhi tələblərin təmin olunmasına imkan verən sərfəli xüsusiyyətlərin toplusudur.

***Keyfiyyətli Əmtəə*** – qiymətli kağızların, bazarda xüsusi tələbə malik olan və tam həcmdə alına biləcək yeni partiyasıdır.

***Kəmiyyət Təhlili*** – maliyyə bazarlarında dəyişikliklərin mürəkkəb riyazi və statistik modellərdən istifadə edərək araşdırılması üçün maliyyə təhlili metodologiyası.

***Kənar auditor*** – maliyyə hesabatlarını yoxlayan kənar auditorları nəzərdə tutur. AB institutları üçün kənar auditorlar Avropa Auditorlar Palatasıdır.

***Kənar Satış*** – broker şirkətinin işçisi tərəfindən müştərilərə öz şirkətlərində olmayan fond bazarı məhsullarının alınması üzrə məsləhətin verilməsidir.

***Kənarlaşma*** – statistik ölçü aləti olmaqla hər hansı bir təsadüfi kəmiyyətin müəyyən bir qiymətinin həmin kəmiyyətin orta qiyməti kimi təsbit olunmuş qiymətdən nə qədər kənarlaşmasını göstərir.

***Kənd Təsərrüfatı*** – ölkə iqtisadiyyatının kənd təsərrüfatı məhsulları istehsal edən sahəsi.

***“Kəpənək” Spredi*** – istifadə müddəti və istifadə qiyməti eyni olan “Koll” və “Put” opsionlarının satışı və istifadə müddəti eyni, lakin istifadə qiyməti müxtəlif olan “Koll” və “Put” opsionlarının alışı proseslərinin eyni vaxtda aparılmasını əhatə edən opsion strategiyasının tətbiqi zamanı yaranan spred.

***Kəsir – 1)*** Çatışmamazlıq,zərər. ***2)*** Xərclərin gəlirləri üstələməsi.

***Kəsirli İqtisadiyyat*** – ticarət şəbəkəsində xroniki olaraq malların çatışmazlığı müşahidə olunan iqtisadiyyat (termin dövriyyəyə macar iqtisadçısı Y.Kornai tərəfindən daxil edilmişdir).

***Kəsmə*** – qiymətli kağızlar üzrə REPO sazişində brokerin öz xidmət haqqını almaq üçün saxladığı əlavə vəsait.

***Kəşf*** – maddi və mənəvi dünyanın əvvəllər məlum olmayan qanunauyğunluqlarının, xassələrinin və hallarının onların dərk edilməsi səviyyəsinin köklü dəyişməsinə xidmətinin müəyyən edilməsi.

***Kiçik Açıq İqtisadiyyat*** – kiçik ölçülü iqtisadiyyatdır.

***Kiçik Biznes*** – kiçik formalarda həyata keçirilən, özəl sahibkarların, kiçik firmaların, kiçik müəssisələrin sahibkarlıq fəaliyyətinə söykənən biznes.

***“Kiçik İpoteka”*** – hüquqlarına görə ilkin, “böyük ipoteka”dan geri qalan və buna görə də faiz dərəcəsi daha yüksək olan ipoteka.

***Kiçik Kapitallaşma*** – müəyyən bazarda kapitallaşma səviyyəsi nisbətən kiçik olan şirkət və ya belə şirkətin səhmləri.

***Kiçik Kassa*** – xüsusi ayrılmış şəxsin hesabatı altında olan puldur. Kiçik kassanın yaradılması üçün kassaya məsul olan şəxsin adına qısa vaxt ərzində xırda xərclər üçün vəsait ayrılır.

***Kiçik Müəssisə, Firma*** – ilk əvvəl işçilərin məhdud sayı ilə bir neçə yüzdən çox olmayaraq səciyyələnən və müəssisə üçün profili olan ölkə, region üzrə ümumi fəaliyyət həcmində çox az payı olan hər hansı mülkiyyət formalı kiçik müəssisə.

***Kip Bərkitmə*** – ölkə pulu məzənnəsinin hər hansı bir xarici valyutanın məzənnəsinə qəti bağlanmasıdır.

***Kirayə Müqaviləsi*** – icarə müqaviləsinin bir növü olub, əmlakın sahibkarlıq fəaliyyəti üçün istifadəyə verilməsinin əvəzində, kirayəyə götürənin kirayəyə verən qarşısında pul ödəmə öhdəliyini

götürməsidir.
***"Kiu" Planı*** – özlərinin gələcək pensiya təminatı üçün kiçik firmalar və fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaradılan pensiya planı.
***Klan*** – təsərrüfat, yaxud digər tellərlə bağlı olan qohumlar qrupu, nəsli.
***Klassik Fond Birjası*** – treyderlər arasında şifahi təlimatların mübadiləsi vasitəsi ilə ticarət aparılan birja. Ən iri klassik fond birjası – Nyu-York Fond birjasıdır.
***Klassik Qiymətli Kağızlar*** – səhmdar cəmiyyətlər və dövlət tərəfindən buraxılan istiqrazlar və səhmlər.
***Klauzula*** – hər hansı müqavilədə edilən müəyyən qeyd, şərtlər və düzəlişlər.
***Kleptokratiya*** – dövləti zorla ələ alan korrupsiyalaşmış və yalnız öz mənfəətini güdən qrupun hakimiyyətini ifadə edən siyasi sistemdir.
***Kleyms*** – göndərilmiş malın keyfiyyəti ilə bağlı çatışmazlıqlar barədə alıcının satıcıya olan tələbləridir, etirazıdır.
***Kliring*** – öhdəliklərin qarşılıqlı əvəz edilməsi, ləğv edilməsi əsasında aparılan nağdsız hesablaşma sistemi.
***Kliring Bankı*** – fəaliyyəti öhdəliklərin qarşılıqlı əvəz edilməsi üzrə aparılan hesablaşma sistemi əsasında formalaşan kommersiya bankı.
***Kliring Evi*** – fyuçers və ya fond bazarlarının bağlanmış müqavilələrə əsasında maliyyə əməliyyatları üzrə qarşılıqlı əvəzləmə və hesablaşma xidmətlərini göstərən və bu müqavilələrin icrasına nəzarət edən maliyyə institutu.
***Kliring Fəaliyyəti*** – qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi, hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyətidir.
***Kliring Hesablaşma*** – kliring əsasında qarşılıqlı hesablaşmalar, qarşılıqlı tələblərin kliring bankları, hesablaşma palataları vasitəsilə hesablanması.
***Kliring Qiyməti*** – gündəlik qiymətdir. Bu qiymətlər əsasında

hesablaşma palatası onun üzvləri arasında bütün sazişlər üzrə hesablaşmaları həyata keçirir.
***Klirinq Müqaviləsi*** – ixrac gəlirlərinin qarşılıqlı ticarətdə tarazlığa nail olmaqdan ötrü sərf edilməsini nəzərdə tutan beynəlxalq ticarət müqavilələri.
***Klirinq Sistemi*** – qiymətli kağızların alqı-satqısı üzrə hesablaşmalar aparılması, onlara sahiblik hüququnun ötürülməsi, onların saxlanması, çeklər üzrə hesablaşmalar kimi əməliyyatların həyata keçirilməsi məqsədi ilə bir qrup maliyyə təşkilatları tərəfindən yaradılan sistem.
***Klirinq Valyutası*** – klirinq hesablaşmalarında istifadə olunan valyuta vahidi.
***Kliyentalizm*** – müxtəlif sosial və iqtisadi statusa malik insanlar arasında qeyri-rəsmi münasibətdir. Məsələn, patron və onun tabeliyində olan şəxslər.
***Klub*** – ümumi maraqlar əsasında yaradılan könüllü cəmiyyət, birlik.
***Koalisiya*** – ümumi strategiya və ya vahid siyasəti qəbul etmək üçün müxtəlif məqsədli insanların və ya firmaların birliyi formasıdır.
***Koas teoremi*** – əgər tərəflər sərvətlərin bölüşdürülməsi üzrə heç bir xərc çəkmədən sövdələşə bilirlərsə, onlar özləri kənar təsir problemlərini həll edə bilərlər.
***Kod*** – əmtəələrin, əşyaların onlar haqqında informasiyaya malik şərti, qısaldılmış işarəsi, adlanması, onların şifri, rəmzi təsviri. Kodun verilməsi kodlaşdırma adlanır.
***Koll*** – ***1)*** Yalnız bir mövqe üzrə əməliyyat aparmaqla məhdudlaşdırılan birja sessiyasının bir qısamüddətli dövrü. ***2)*** Marjanın ödənilməsi ilə bağlı tələbnamə.
***Kollegiallıq*** – bir qrup şəxs, kollegiya tərəfindən bütün iştirakçıların rəyini nəzərə almaqla idarəetmə qərarlarının müzakirəsi və qəbulu.
***Kollektiv İddia*** – eyni tələb ilə çıxış edən bir qrupun adından bir və ya daha çox şəxs tərəfindən qaldırılan iddia.
***Kollektiv Müəssisə*** – əmlakına kollektiv mülkiyyət forması olan

müəssisə.
***Kollektiv Müqavilə*** – müəssisə, idarə və təşkilatlarda işçilərlə işverənlər arasındakı əmək, sosial – iqtisadi və professional münasibətləri tənzimləyən hüquqi aktdır.
***Kollektiv Səs*** – həmkarlar ittifaqının öz üzvlərinin adından icra etdiyi funksiya.
***Kollektiv Valyuta*** – beynəlxalq maliyyə kredit təşkilatları və iqtisadi birliklər çərçivəsində qarşılıqlı beynəlxalq hesablaşmalarda istifadə olunan valyuta.
***Kollektor*** – müəyyən növ əmtəələrin yığılması və təyinatı üzrə bölüşdürülməsi ilə məşğul olan təşkilat, müəssisə.
***Komanda*** – müəyyən işi, tapşırığı görməli olan insanlar qrupu.
***Komanda Vəhdəti*** – firmanın ideoloji quruluşunun əsasını təşkil edən prinsipdir.
***Kombinat*** – məhsulu digəri üçün material, yarımfabrikat olan, bir-biri ilə texnoloji bağlı olan müəssisələrin birləşməsi.
***Kombinə Edilmiş Tarif*** – advolar və spesifik tariflərdən birgə istifadə olunan gömrük rüsumları.
***Komissiya*** – vasitəçiliyə, agent əməliyyatlarına və s. xidmətlərə görə razılaşma məbləği ilə birgə alınan ödənişdir.
***Komissiya Brokeri*** – qiymətli kağızların və ya əmtəələrin satışı üçün əhalinin sifarişlərini yerinə yetirən agent.
***Komissiya Müqaviləsi*** – komissiya müqaviləsinə görə bir tərəf digər tərəfin tapşırığı ilə müəyyən haqq müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür.
***Komissiyasız Fond*** – səhmlərin komissiyasız və əlavə satış xərci olmadan satıldığı qarşılıqlı fond.
***Komisyon Əməliyyatları*** – müştərilərin tapşırığı ilə komisyon muzdla yerinə yetirilən vasitəçilik əməliyyatları.
***Komisyon Haqqı*** – ***1)*** Kommersiya əməliyyatının, əqdinin keçirilməsi üzrə vasitəçi agent qismindəki işin adətən əqd məbləğinin müəyyən faizi kimi hesablanan haqqı; ***2)*** Bank tərəfindən müəyyən əməliyyatların keçirilməsinə görə tutulan haqq.

***Komisyon İdxalat Firmaları*** – öz ölkəsinin komitentinin hesabına öz adından xarici istehsal müəssisələrində sifarişləri yerləşdirən və öz ölkəsinin alıcısının nümayəndəsi olan firmalardır.
***Komisyon İxrac Firmaları*** – komisyon haqq almaq əvəzində ölkə istehsalçısı –ixracatçısının tapşırığı ilə onun əmtəələrini xarici ölkədə satan və onun nümayəndəsi kimi çıxış edən firmalardır.
***Komisyonçu*** – komissiya müqaviləsinə görə digər tərəfin tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlayan şəxsdir (“AR MM”, 808-ci maddə).
***Komitent*** – komissiya müqaviləsinə görə, onun tapşırığı ilə komisyonçunun öz adından bir və ya bir neçə əqd bağladığı şəxsdir (“AR MM” 808-ci maddə).
***Komitə*** – hər hansı dövlət, təsərrüfat, ictimai fəaliyyət sahəsinə rəhbərlik edən kollegial idarəetmə orqanı.
***Kommandit Şərikliyi*** – üzvlərinin özünün bütün sərvəti ilə məsuliyyət daşıyanlara və özünün payı çərçivəsi ilə məhdudlaşan məsuliyyət daşıyanlara bölünən kommersiya şərikliyi növü.
***Kommersant*** – təsərrüfat fəaliyyətini həyata keçirərkən müəyyən ad altında dövriyyəyə girən fiziki və ya hüquqi şəxsdir.
***Kommersiya*** – ticarət və ticarət-vasitəçilik fəaliyyəti, əmtəə və xidmətlərin satışında iştirak və ya buna yardım edilməsi.
***Kommersiya Agenti*** – digər şəxsin tapşırığı əsasında onun adından və onun hesabına kommersiya əməliyyatları həyata keçirən hüquqi və ya fiziki şəxs.
***Kommersiya Akkreditivi*** – ödəniş almaq üçün bir sıra kommersiya sənədlərin təqdim edilməsini tələb edən akkreditiv forması.
***Kommersiya Aktı*** – təyinat məntəqəsində yükü alıcıya təhvil verərkən, daşıyıcı və ya onun nümayəndəsi tərəfindən yükün xarab olması və ya əzilməsi, habelə çatışmaması faktını təsdiq edən, tərtib olunmuş sənəddir.
***Kommersiya Bankı*** – başlıca olaraq qoyulmuş əmanətlər və pul vəsaitləri hesabına bütün sahə müəssisələri üçün universal bank əməliyyatları aparan kredit təşkilatıdır.
***Kommersiya Direktoru*** – müəssisənin, firmanın məhsul satışına, ticarətinə, malların tədarükünə baxan rəhbər şəxslərdən biri.

***Kommersiya Əməliyyatları – 1)*** Geniş mənada istənilən işgüzar, biznes əməliyyatları; ***2)*** Dar mənada alqı-satqı ticarət əməliyyatları.
***Kommersiya Hesabı – 1)*** Təsərrüfat fəaliyyət xərclərinin onun pul formasında ifadə edilən nəticələri ilə müqayisəsi, tutuşdurulması əsasında aparılması metodu; ***2)*** Əsas hesablaşma sənədi olmaqla satıcı tərəfindən alıcıya göndərilən mal üçün sənəddə göstərilən məbləğin ödənilməsi barədə satıcının tələbini əks etdirir.
***Kommersiya Krediti*** – ticarət münasibətləri zamanı əmtəə formasında təqdim edilən kredit.
***Kommersiya Kreditləşdirilməsi*** – bankların və digər kredit təşkilatlarının iştrakı olmadan, ancaq vəsaitləri hesabına bir təsərrüfat subyektinin digərini kreditləşdirməsidir.
***Kommersiya Qrafiki*** – gəmilərin xarici yüklərin daşınması üçün verilməsini müəyyənləşdirən əsas sənədidir.
***Kommersiya Müqaviləsi*** – malın göndərilməsi və ya xidmətin göstərilməsi barədə bağlanmış müqavilədir.
***Kommersiya Reklamı*** – əmtəənin ətraflı yazılışı və ya izahı, onun istifadə qaydası, satış yeri, qiyməti, istehsalçı firma və digər məlumatları əks etdirən reklamdır.
***Kommersiya Risklərinin Sığortası*** – təsərrüfat subyektlərinin kommersiya fəaliyyətləri üzrə ziyanın, itkilərin, biznes uğursuzluqlarının sığortalanması.
***Kommersiya Sənədi*** – korporasiya tərəfindən debitor borcların, mal-materialların və qısamüddətli öhdəliklərin maliyyələşdirilməsi məqsədi ilə buraxılan təminatsız qısamüddətli borc aləti.
***Kommersiya Sirri*** – müəssisənin iqtisadi möhkəmliyini və rəqibləri qarşısında üstünlüklərini təmin edən istənilən məlumatlardır.
***Kommersiya Təmsilçisi*** – sahibkarlıq fəaliyyətində sahibkarın adından müqavilə bağlanan zaman onu daima və sərbəst təmsil edən şəxsdir.
***Kommersiya Təşkilatı*** – öz fəaliyyətindən gəlir götürmək üçün yaradılan hüquqi şəxsdir.
***Kommersiya Vekseli*** – girov şərti ilə təqdim edilən veksel.
***Kommivoyajor*** – ticarət firmasının tapşırığı ilə firmanın malları

üçün alıcı axtaran, onlara əmtəə nümunələri təqdim edən, malları kataloqlar yaymaqla reklam edən satış vasitəçisi, səyyar nümayəndəsi.

***Kommunal Bank*** – bir sıra ölkələrdə bələdiyyələrin, maliyyə fəaliyyəti ilə bağlı maliyyə-kredit əməliyyatları həyata keçirən bank.

***Kommunal Xidmətlər*** – insanların yaşadığı yerlərdə məişət şəraitinin təmin edilməsi ilə əlaqədar olan və əhaliyə göstərilən xidmətlər.

***Kommunal Ödəmələr*** – əhalinin və mənzil sahələri icarəçilərinin kommunal xidmətlərdən istifadə etdiklərinə görə ödəmələri.

***Kommunikasiya – 1)*** Əlaqə (nəqliyyat kommunikasiyası) və rabitə vasitələri, informasiya əlaqələri; ***2)*** İnformasiya mübadiləsi prosesi, rabitə əlaqəsi xətti.

***Kommunizm*** – tam bərabərlik, istehsal vasitələrinə ictimai mülkiyyət əsasında qurulmuş, "hər kəsdən bacarığına görə, hərə kəsə tələbatlarına görə" prinsipini həyata keçirən xəyali, ictimai və iqtisadi quruluş.

***Kompaniya*** – müəssisənin təşkilat forması olub, iştirakçılarının hüquq subyektlərindən fərqlənən, iri və kompleks müəssisələrin təşkil olunmasında böyük əhəmiyyətə malik olan, təsis olunması dövlət nəzarəti altında olan müəssisə formasıdır.

***Kompensasiya*** – əsas etibarilə sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərə ödənilən pul vəsaitidir.

***Kompensasiya Krediti*** – müxtəlif ölkələrə məxsus iki subyektin (müəssisə, təşkilat və s.) bir-birilərinə qarşılıqlı şəkildə öz milli valyutalarında bərabər məbləğdə təqdim etdiyi kredit.

***Kompensasiya Rüsumları*** – rəsmi qanunvericiliyə əsasən, kompensasiya rüsumları Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

***Kompensasiyalı akkreditiv*** – bank və ya müxtəlif kredit təşkilatları tərəfindən başqa kredit vəsaiti hesabına kreditin verilməsi.
***Kompleks – 1)*** Bir-biri ilə sıx bağlı olan və qarşılıqlı əlaqədə olan, vəhdət yaradan obyektlərin, əşyaların, hərəkətlərin toplusu, uzlaşdırılması; ***2)*** Vahid təbiətli məhsul buraxan sahə, yarım sahə, müəssisələr qrupu.
***Komplekslilik*** – təhlil, planlaşma, idarəetmənin bütövlüyü, sistemliyi, qarşılıqlı əlaqəsi.
***Komplekt Tədarük*** – mal əməliyyatlarının növ müxtəlifliyi olub, daxili və xarici bazarlara çıxarılacaq sövdələşmə predmetlərinin komplekt tədarük edilməsidir.
***Komponent*** – sistemin tərkib hissəsi, ünsürü.
***Kompromis*** – qarşılıqlı güzəştlərə əsaslanan razılaşma.
***Kondominium*** – çoxmənzilli yaşayış evlərində yaşayanların, qoyulmuş şərtlərlə pilləkənləri, liftləri, dəhlizləri, damları, texniki zirzəmiləri, mənzildənkənar mühəndis avadanlıqlarını, binaətraflı sahəni və digər istifadə yerlərinin birgə istifadəsidir.
***Konfidensial*** – kommersiya, istehsal sirrini təşkil etməklə geniş yayılmaqdan ötrü nəzərdə tutulmayan məlumatlar.
***Konqlomerat*** – biznesin bir-biri ilə əlaqəsi olmayan müxtəlif sahələrində fəaliyyət göstərən müxtəlif şirkətlərə nəzarət edir (tənzimləyir).
***Konosament*** – sahibinə yüklənmiş mallar üzərində mülkiyyət hüququ verən qiymətli kağız.
***Konsali*** – Böyük Britaniyada dövlət uzunmüddətli istiqrazların növlərindən birinin qısaldılmış adı.
***Konsaltinq*** – müəssisə, firma və təşkilatların xarici iqtisadi fəaliyyətinin geniş məsələləri üzrə satıcıların məsləhətləşməsidir.
***Konsaltinq Bank Əməliyyatları*** – bankın müxtəlif maliyyə məsələləri ilə bağlı müştərisinə göstərdiyi məsləhət (konsaltinq) xidmətləri.
***Konsensual Əqd*** – tərəflərin razılığı tələb olunan sövdələşmədir. Məsələn, Alqı-satqı əqdləri və s.
***Konsensus*** – əməliyyatın, fəaliyyətin keçirilməsi şərtləri üzrə onlarda maraqlı olan bir çox tərəf arasında əldə edilmiş razılıq.

***Konsepsiya – 1)*** İslahatların, layihələrin, planların, proqramların həyata keçirilməsində fəaliyyət strategiyasını müəyyənləşdirən baş ideya; ***2)*** Təbiətdə və cəmiyyətdə baş verən proseslərə və hadisələrə baxışlar sistemi.
***Konsern*** – müəssisələrin birliyinin daha təkmil və müasir forması. Konsernə daxil olan hər bir müəssisə öz hüquqi müstəqilliyini saxlasa da faktiki olaraq vahid rəhbərlik tərəfindən idarə olunur.
***Konservasiya*** – iqtisadi prosesin, fəaliyyət növünün, obyektin tikintisinin müvəqqəti dayandırılması.
***Konservatizm*** – məlumatın sənədli təsdiqli olmadığı şəraitdə, bilavasitə mümkün olanlardan ən kiçik qiyməti seçməkdir.
***Konsessiya Müqaviləsi – 1)*** Müəssisə, idarə və təşkilatların istifadəsinə verilməmiş, dövlət mülkiyyətində qalan tükənən və tükənməz sərvətlərin mənimsənilməsi və emalı, habelə təsərrüfat fəaliyyətinin aparılması hüququnun xarici sərmayədarlara verilməsi müqaviləsidir; ***2)*** İstehsalçı və ya tacir ilə sahibkarlıq şəklində müstəqil məşğul olan şəxs arasında ümumi razılaşmadır (“AR MM, 800-cü maddə).
***Konsigenasion Anbar*** – xaricə gedən malın, mal sahibi hüququna malik olan ticarət agenti vasitəsi ilə satıldığı anbardır.
***Konsiqnant – 1)*** Komisyonçu vasitəsilə bir qayda olaraq xaricə satılan malın sahibi; ***2)*** Təmsil etdiyi şəxsə məxsus əmtəələri özünün sahibi olduğu anbarlardan satan ticarət agenti.
***Konsiqnasiya – 1)*** Mülkiyyətçinin öz mallarını digər anbarlarında yerləşdirməsidir. ***2)*** vasitəçilərin konsiqnasiya anbarları vasitəsilə mallarını satması şərtidir.
***Konsolidasiya – 1)*** Rentabelliyin artırılması məqsədi ilə iki və daha çox müəssisənin hüquqi birləşməsi.
***Konsolide Edilmiş Büdcə*** – büdcə sisteminə daxil olan müxtəlif səviyyəli büdcələrin (mərkəzi büdcə, yerli büdcələr, yerli özünüidarəetmə orqanlarının büdcələri və s.) yekunu və ya məcmusu.
***Konsorsium*** – bu və ya digər sahədə ortaq maraqların birgə təmin edilməsi məqsədi ilə iqtisadi subyektlərin müvəqqəti rəsmi ittifaqı.
***Konsyumerizm*** – istehlakçının istehsalçı, mal göndərən və xidmət

sferası ilə olan qarşılıqlı əlaqələrinin toplusudur.
***Kontanqo – 1)*** Qiymətli kağızlar bazarında satın alınmış səhmlərin dəyərinin ödənişinin növbəti hesablaşma dövrünə qədər təxirə salınması imkanı. ***2)*** Qiymətli kağızlar bazarında iştirakçı subyektlərin mükafatlandırılması.
***Kontingent – 1)*** Yek-cins qrup, kateqoriya insanların məcmusu; ***2)*** Xarici iqtisadi əlaqələr sahəsində bəzi əmtəələrin müəyyən ölkələrə ixracı, idxalı, tranziti üzrə dövlət orqanlarının müəyyən etdiyi hədlər.
***Konto*** – bank hesabı.
***Konto-Separato*** – xüsusi hesab.
***Kontokorent*** – bank tərəfindən müştəri üçün açılmış vahid cari və kredit hesabı.
***Kontokorrent Kredit*** – bankda vahid hesablaşma hesabı olan müştərinin hesabına bank tərəfindən açılan kredit.
***Kontor*** – müəssisənin, təşkilatın xidməti yeri, ofisi, inzibati hissəsi.
***Kontra*** – mühasibat uçotunda əvvəlki mühasibat yazılışının qüvvədən düşməsini təmin edən yeni mühasibat yazılışı.
***Kontrabanda*** – əmtəələrin və digər qiymətlilərin sərhəddən qanunsuz keçirilməsi.
***Kontrafaksiya*** – bir qayda olaraq, digər firmaların artıq özünü təsdiq etmiş əmtəə nişanlarından firmanın istifadəsidir.
***Kontragent (Tərəf-müqabili)*** – müqavilə şərtlərinə görə üzərinə bilavasitə müəyyən öhdəliklər götürən hüquqi və ya fiziki şəxs.
***Kontrahesab*** – maliyyə hesabatları zamanı qalıq məbləği əsas hesabdan çıxılan (əsas hesabda nəzərə alınmayan) hesab.
***Kontrakt*** – iki və daha çox tərəflərin arasındakı hüquqi cəhətdən məcburi olan müqavilə.
***Kontrakt Ayı*** – fyuçers müqaviləsinin müddətinin sona yetmə və ya fyuçers müqaviləsi üzrə aktivin çatdırılma ayı.
***Kontrakt Bazası*** – birja kotirovkasına bərabər qiymətlə satışına birja kontraktı ilə icazə verilmiş əmtəələrin bir neçə növündən, markalarından biri.
***Kontrakt Qiyməti*** – malın alqı-satqısına dair sazişdə, o cümlədən xarici ticarət əməliyyatlarında qeyd edilən qiymət.

***Kontraktasiya Müqaviləsi*** – kənd təsərrüfatı məhsulları istehsalçısının, yetişdirdiyi məhsulları həmişə eyni alıcıya təhvil verəcəyi barədə alqı-satqı müqaviləsinin bir növüdür.
***Kontribusiya*** – dəyişən xərclərlə satışdan alınmış xərclər arasındakı fərqdir.
***Konvensiya*** – müəssisə, firmalar arasında məhsul istehsalı və satışı, sifarişlərin bölüşdürülməsi üzrə müqavilələr.
***Konvensiya Tarifi*** – nisbətən aşağı ödəniş dərəcələrindən ibarət, tərəflər arasında qarşılıqlı razılaşdırılmış gömrük tarifləri.
***Konvergensiya*** – baza aktivi üzrə fyuçers qiymətinin nağd qiymətə yaxınlaşması. Fyuçers kontraktının son günündə baza aktivinin fyuçers qiyməti ilə nağd qiyməti təqribən bərabərləşir.
***Konversiya*** – iqtisadi münasibətlərdə hər hansı razılaşma üzrə şərtlərin dəyişdirilməsi. Bu üsuldan maliyyə sahəsində də istifadə olunur.
***Konversion Emissiya*** – əvvəlki buraxılış üzrə istiqrazların tədavül müddətinin sonunda yeni istiqrazların dövriyyəyə buraxılması.
***Konversiya Əməliyyatları*** – ***1)*** Bankların, ticarət sənaye korporasiyalarının, fiziki şəxslərin etdiyi valyuta mübadiləsi və alqı-satqısı; ***2)*** Bir növ qiymətli kağızların başqa növ qiymətli kağızlara mübadiləsi ilə bağlı olan əməliyyatlar.
***Konversiya Qiyməti*** – ***1)*** Həmin emitentin səhmlərinə, yaxud digər qiymətli kağızlarına dəyişdirilə bilən istiqrazların qiyməti; ***2)*** Qiymətli kağızların bir formadan digərinə dəyişməsində yaramış dəyər.
***Konvertasiya Əmsalı*** – bir imtiyazlı səhmə və ya istiqraza konvertə olunan adi səhmlərin sayı.
***Konveyer*** – ***1)*** Hasilatın bir işçidən digərinə ötürülməsi yolu ilə ardıcıl işləməni və yığılmanı mümkün edən texnologiya və texniki vasitələr; ***2)*** Fasiləsiz, yaxud vaxtaşırı irəliləyən nəql vasitəsi ətrafında təmərküzləşən kütləvi və seriyalı istehsalın ixtisaslaşmış hissəsi.
***Konveyer İstehsalı*** – məhsul buraxılışının axın şəklində təşkil edildiyi irimiqyaslı istehsal.
***Konyunktur*** – bazarda formalaşan, tələb və təklifin səviyyəsi,

bazardakı fəallıqla, qiymətlərlə, satış həcmləri ilə səciyyələnən iqtisadi vəziyyət.

***Kooperasiya*** – fiziki şəxslərin kollektiv sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə könüllü üzvlük əsasında birləşməsi, birliyi.

***Kooperasiyalaşma*** – hər biri vahid məhsulun müxtəlif hissələrinin istehsalında ixtisaslaşmış müəssisələr arasında uzunmüddətli istehsal əlaqələrinin yaradılması.

***Kooperativ*** – bu və ya digər iqtisadi fəaliyyətin həyata keçirilməsi məqsədi ilə bərabər payçı şəklində fiziki və ya hüquqi şəxslərin könüllü birləşməsi, birliyi.

***Kooperativ Bank*** – qarşılıqlı iş birliyinə malik bir qrup təsərrüfat subyektləri, xüsusilə iri əmtəə istehsalçıları tərəfindən kredit və müxtəlif bank xidmətləri tələbatını ödəmək məqsədi ilə kooperativ mülkiyyət kimi yaradılan kommersiya bankı və ya ixtisaslaşmış maliyyə-kredit təşkilatı.

***Kooperativ Ticarət*** – vəsaitləri iştirakçıların payları və təsərrüfat fəaliyyətindən əldə edilən mənfəət hesabına formalaşan istehlak kooperasiyasının əsas fəaliyyət növü.

***Kopirayt*** – incəsənət və ədəbiyyat nümunələrinin üzünü köçürtməyi və mənimsəməyi qadağan edən, müəlliflik hüququnun hüquqi müdafiə formasıdır.

***Korlanmış Əmlakın Reallaşdırılması*** – sığortaçının “tam məhv olma” şərti altında sığorta etdirənə ödəniş verdiyi sığortalanmış əmlakın (adətən korlanmış) satışından sığortaçının əldə etdiyi məbləğ.

***Korner*** – bazar iştirakçısı tərəfindən bazarda mövcud vəziyyətə nəzarət etmək, lazımi şəraitdə qiymət səviyyəsini öz maraqlarına uyğun səviyyədə qaldırmaq, bununla da mənfəət əldə etmək məqsədi ilə təklf olunan bütün müvafiq malları, aktivlərin alınması cəhdi.

***Korporasiya*** – payçılıq prinsipi əsasında fəaliyyət göstərən hüquqi şəxs statusuna malik sahibkarlıq fəaliyyəti üzrə təşkilat forması. Korporasiya həm dövlət, həm də özəl mülkiyyətə malik ola bilər.

***Korporativ Layihə Kapitalı*** – iri firmalar tərəfindən kiçik

müəssisələrin risk kapitalına qoyulan investisiyadır.
***Korporativ Səhmlər* – *1)*** Şirkətlər tərəfindən buraxılan səhmlər; ***2)*** Kommunal xidmətlərdən istifadə hüququna dair şəhadətnamə.
***Korreksiya*** – göstəricisinin dəyişməsinin səciyyəsinin, prosesinin cərəyan etməsinin lazımi məcraya istiqamətləndirilməsi məqsədi ilə təshih, düzəliş edilməsi.
***Korrelyasiya Modelləri*** – korrelyasiya tipli modellər həm iqtisadi proseslər arasındakı təkrar olunan, bərqərar olmuş əlaqələri, həm də onlara təsir edən müvəqqəti, təsadüfi amilləri əks etdirir.
***Korrespondent Hesabı*** – bağlanmış korrespondent müqaviləsi əsasında bankların sərəncam üzrə və digər bankın hesabına apardığı hesabları göstərən hesabdır.
***Korrespondent Münasibətləri*** – banklar arasındakı müqavilə münasibətləri olub, məqsədi bir-birinin sərəncamları üzrə ödəmə və hesablaşmaları həyata keçirməkdir.
***Korrupsiya*** – vəzifəli şəxslərin öz statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.
***Kotirovka*** – birjada faktiki vəziyyətdən asılı olaraq, qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin/məzənnələrinin müəyyən edilməsi.
***Kotirovka Qiyməti*** – kotirovkalar əsasında müəyyən edilmiş qiymətdir.
***Kotirovka Olunan Valyuta*** – foreksdə valyuta cütlüyündə kotirovka olunan ikinci valyuta.
***Kotirovka Siyahısı*** – qiymətli kağızların, əsasən səhmlərin və istiqrazların fond birjası üzrə qiymətlərini əks etdirən, xüsusi birja institutları tərəfindən tərtib edilən cədvəl.
***Kotirovkada Olan Səhm*** – fond birjalarında listinqindən keçərək birjada ticarət edilən səhm.

***Kotirovkaya Əsaslanan*** – alış və satış həcmlərinin və onlara uyğun maksimum qiymət hədlərinin təklif olunması əsasında qeydiyyatdan keçmiş market meykerlər və iri dilerlər tərəfindən qiymətlərin müəyyən olunduğu bazar.

***Kovernot*** – sığorta edənin sığorta edilənə, sığorta müqaviləsini təsdiqləyən sənəd.

***Köçürmə*** – pul vəsaitinin bir subyektdən, başqa subyektə göndərilməsi. Köçürmələr nağd və nağdsız ola bilər.

***Köçürmə Agenti*** – emitentin tapşırığı ilə onun qiymətli kağızlarının qeydiyyatının aparılması, qiymətli kağızların sertifikatlarının buraxılması və ödənilməsi, itmiş və məhv olmuş sertifikatlarla əlaqədar problemlərin tənzimlənməsi və qiymətli kağızlara mülkiyyət hüququnun keçməsi ilə əlaqədar digər işləri yerinə yetirən bank və ya digər şəxs.

***Köçürmə Akkreditiv*** – başqa şəxslərə köçürülə bilən akkreditiv.

***Köçürmə Vekseli*** – kreditorun, veksel sahibinin borclu tərəfə, onun üçüncü şəxsə müəyyən müddətə müəyyən məbləğdə pul ödənişi haqqında yazılı tapşırığı.

***Köhnə Buraxılış*** – periodik emissiya olunan qiymətli kağızın keçmiş seriyası.

***Köhnəlmə*** – zaman keçdikcə və istifadə olunduqca aktivlərin fiziki və ya mənəvi köhnəlməsi və bunun nəticəsində dəyərini itirməsi.

***Kölgə İqtisadiyyatı*** – iştirakçıları tərəfindən bəyan edilməyən, gizlədilən, dövlət və cəmiyyət tərəfindən nəzarət edilməyən, rəsmi dövlət statistikasının təsbit etmədiyi iqtisadi proseslər.

***Köməkçi Menecer*** – qiymətli kağızların bazara təklif olunması zamanı anderraytinqdə iştirak edən anderrayter şirkətlərdən biri aparıcı, digərləri isə köməkçi menecer olur.

***Könüllü Audit*** – marağı olan tərəfin və ya tərəflərin sifarişi ilə-belə yoxlamanın qanunvericilik baxımından məcburi olmadığı hallarda – aparılan auditdir.

***Könüllü İşdən Çıxma Mexanizmi*** – əmək şəraitinin yaxşılaşdırılması, yaxud onun haqqının yüksək olması məqsədi ilə işçinin bir iş yerindən getməsi və başqa iş yerinin axtarılması.

***Könüllü İşsizlik*** – iş qabiliyyətli əhalinin bir hissəsinin mövcud

əmək haqqı səviyyəsi ilə razılaşmaması nəticəsində yaranan işsizlik.

***Könüllü Likvidasiya – 1)*** Hüquqi şəxsin öz müraciəti əsasında ləğv edilməsi. ***2)*** Müəssisənin kreditorları və mülkiyyətçiləri tərəfindən məhkəməyə müraciət etmədən müəssisənin ləğv edilməsi prosesi.

***Könüllü Sertifikatlaşdırma*** – məcburi sertifikatlaşdırmaya aid edilməyən məhsulların hüquqi şəxslərin və vətəndaşların təşəbbüsü ilə sertifikatlaşma orqanı ilə aralarındakı müqavilə əsasında sertifikatlaşdırılmasıdır.

***Könüllü Sığorta*** – məcburi sığortadan fərqli olaraq sığortalı ilə sığortaçı şirkət arasında könüllü prinsiplərlə əsaslanan sığorta münasibətləri.

***Köpürdülmüş (Fırıldaqçı) Müəssisə ("Sabun Köpüyü", Qondarma Müəssisə) – 1)*** Uğursuz, baş tutmamış maliyyə əməliyyatı; ***2)*** Müflis olmuş müəssisə; ***3)*** Maliyyə fırıldaqları aparmaq məqsədi ilə yaradılan qondarma müəssisə.

***Körpü Bank*** – müflis olan bankın aktiv və passivlərini öhdəsinə götürmək barəsində lisenziyası olan bank və ya digər kredit təşkilatı.

***Kredit*** – bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə və faizlər ödənilmək şərti ilə, təminatla və təminatsız borc verilən pul vəsaitidir.

***Kredit Alışı*** – müəssisənin kredit şərtləri ilə alınması.

***Kredit "Barometr"i*** – kredit bazarını xarakterizə edən göstərici, yaxud göstəricilər sistemi.

***Kredit Bileti*** – banklar və ya digər kredit institutları tərəfindən kredit əməliyyatlarında maliyyə aləti kimi istifadə etmək məqsədi ilə emissiya edilən dəyər nişanları, qiymətli kağızlar.

***Kredit Blokadası*** – beynəlxalq maliyyə-kredit institutları, eləcə də digər beynəlxalq kreditor subyektlərin hər hansı dövlətə və ya dövlətlər qrupuna kredit təqdim etməsindən imtina etməsi.

***Kredit Borclarının Dövriyyəsi*** – illik alışların cəminin kreditor borclarının saldosuna bölünməsidir.

***Kredit Dayağı*** – investisiyanın gəlirliyini artırmaq məqsədi ilə borcdan istifadə olunması.

***Kredit Derivativləri*** – bir və ya bir neçə kredit müqaviləsi üzrə kreditlərin riskdən müdafiəsi məqsədi ilə istifadə olunan törəmə maliyyə aləti.
***Kredit Dəyəri*** – borc verənin borc alana vermək istədiyi maksimum kredit məbləği.
***Kredit Əməliyyatları*** – kreditlərin verilməsi üzrə əməliyyatlar.
***Kredit Fondu*** – dar mənada: bankın, digər kredit təşkilatlarının kredit resurslarının əsasını təşkil edən pul fondu. Geniş mənada: ölkə ərazisində, yəni ümumilikdə bütün banklarda digər kredit təşkilatlarında mövcud olan kredit fondlarının məcmusu.
***Kredit Hüquq Münasibətləri*** – pul vəsaitlərinin və digər əşyalarının təqdim olunması zamanı yaranan və hüquqi normalarla tənzimlənən kredit münasibətləridir.
***Kredit Xətti*** – bankın, yaxud digər kredit institutunun borc alan subyekt qarşısında kredit vəsaitini təqdim etməklə bağlı öhdəliyi, yaxud bu öhdəliyin hüquqi rəsmiləşdirilməsi.
***Kredit İttifaqı*** – mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və (və ya) kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatı.
***Kredit Kartı*** – plastik kart şəklində adlı ödəmə-hesablaşma sənədi.
***Kredit Qabiliyyəti*** – iqtisadi subyektin borc ala bilmək qabiliyyəti, imkanları.
***Kredit Qıtlığı*** – pul təchizatının tələblə ayaqlaşmaması faizlərin qalxmasına və borclanmanın kəskinləşməsinə gətirib çıxarır ki, bu da kreditin məhdudlaşdırılmasının baş verməsinə səbəb olur.
***Kredit Limiti*** – bir qrup ölkələrdə bankın yerləşdirdiyi kredit vəsaitləri ilə bağlı hədd, limit.
***Kredit (Borc) Marjası*** – banka cəlb olunmuş vəsaitlərin dəyəri və verilmiş kreditlərdən daxil olan gəlirlər arasındakı fərq.
***Kredit Məlumat Agentliyi*** – kredit əldə etməklə bağlı müxtəlif müəssisə və təşkilatlara informasiyalar təqdim edən konsaltinq şirkəti.
***Kreditin Müddəti*** – müəssisənin tələb etdiyi borcları almaq üçün

tələb olunan günlərin orta rəqəmini xarakterizə edən əmsaldır. Bu müddət, debitor borclarının satışdan əldə olunan gəlirlərə bölünüb 365-ə vurulması ilə tapılır.
***Kredit Nəzarəti*** – kredit reytinqi agentliyi tərəfindən elanlarda istifadə olunan bu termin onu göstərir ki, agentlik adı çəkilən borc götürənin müəyyən məsələlərlə əlaqədar olaraq kredit reytinqini artırmaq və ya azaltmaq istiqamətində yenidən nəzərdən keçirməyə başlamışdır.
***Kredit Planı*** – bank tərəfindən ona müraciət etmiş hüquqi və ya fiziki şəxsə təqdim olunan kredit vəsaitinin şərtlərini əks etdirən sənəd.
***Kredit Plastik Kartı*** – müvafiq kart hesabında faktiki olan məbləğdən əlavə bank tərəfindən açılmış kredit xətti daxilində vəsaitlərin xərclənməsinə imkan verir.
***Kredit Resursları – 1)*** Mikro səviyyədə: bank və ya digər kredit institutları tərəfindən yerləşdirilən müxtəlif növ kredit resurslarının məcmusu; ***2)*** Makro səviyyədə: ölkə iqtisadiyyatına yönəldilmiş kredit vəsaitlərinin həcmi.
***Kredit Reytinqi*** – borclunun borcunu geri ödəmə qabiliyyətini ölçən mexanizm.
***Kredit Riski*** – borclunun bor müqabilində ödəniş edə bilməməsi və ya likvidasiya riski.
***Kredit Sanksiyaları*** – qanunvericilik və ya müqaviləyə uyğun olaraq, bankların maliyyə, kassa, kredit və hesablaşma intizamını pozan kontragentlərə qarşı tətbiq etdiyi iqtisadi təsir tədbiridir.
***Kredit Sığortası*** – kredit münasibətləri zamanı kreditor şəxs borc vəsaitinin ödənilməməsi riskindən və ya kredit vəsaitinin real dəyərinin dəyərsizləşməsi riskindən sığortalayan sığorta növü.
***Kredit Sistemi*** – kredit münasibətləri, kreditləşmə forma və metodlarının, həmçinin kredit təsisatlarının toplusu.
***Kredit Şöbəsi*** – firmanın malların borca satılması ilə məşğul olan şöbəsidir.
***Kredit Təminatı*** – Kredit müqaviləsi üzrə təminat aşağıdakılar ola bilər: ***a)*** girov; ***b)*** qarantiya; ***c)*** kredit riskinin sığortalanması; ***ç)*** kreditlərin ödənməməsi riskinin sığortalanması; ***d)*** zaminlik.

***Kredit Təşkilatı*** – bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatıdır.

***Kredit Valyutası*** – tərəflər arasındakı razılaşmaya əsasən kredit müqaviləsi zamanı kredit vəsaitinin təqdim edildiyi valyuta.

***Kredit Zərəri Ehtiyatı*** – borc götürənlər tərəfindən kreditin ödənə bilməməsi nəticəsində yarana biləcək zərərin qarşısını almaq məqsədi ilə xüsusi ehtiyat hesabında saxlanan vəsait.

***Kreditin Bağlanması*** – kreditin verilməsinin dayandırılması, kredit xəttinin bağlanması.

***Kreditin Tam Müddəti*** – kreditin alınması anından onun tam ödənilməsi anına qədərki dövr.

***Kreditin Təminatı*** – kreditorda borcun ona qaytarılacağına inam yaradan şərtlər, öhdəliklər məcmusu.

***Kreditin Ümumi Dəyəri*** – kreditin "qeyd olunmuş dəyər"i ilə bu kredit üzrə bütün hesablanıb alınmamış faizlər, komisyon haqları və digər ödənişlər daxil olmaqla ödənilməmiş məbləğlərin cəmidir.

***Kreditləşdirilən Hesab*** – kredit razılaşmasına uyğun olaraq fiziki və ya hüquqi şəxslərin kredit resursları köçürülən hesabdır.

***Kreditor*** – kredit münasibətlərində borc vəsaitini təqdim edən tərəf, kredit verən subyekt.

***Kreditor Borc*** – subyektin başqa subyekt qarşısında borc öhdəliyi.

***Kreditor Borclarının Dövriyyə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$KBDƏ = SM / KB$$

Burada, KBDƏ – kreditor borclarının dövriyyə əmsalı, SM – satılan məhsulun maya dəyəri, KB – kreditor borcları.

***Kreditor Borclarının Dövriyyə Müddəti Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$K = O / SMD$$

Burada, K – kreditor borclarının dövriyyə müddəti əmsalı, O – ortalama kreditor borcları, SMD – satılmış məhsulun 1 günlük orta maya dəyəri.

***Kreditorlar Registri*** – ipoteka kreditləri üzrə kreditor olanların daxil edildiyi registr.

***Krek-spred ("Neft-neft Məhsulları" Spredi)*** – əmtəə bazarında

xam neft fyuçersləri ilə, neft məhsulları fyuçerslərinin qiymətləri arasındakı fərq.

***Kreyser*** **–** Qədim Almaniyada və Avstriya-Macarıstanda XIX əsrin sonlarına qədər tədavüldə olan xırda monet.

***Krona*** **–** ***1)*** İsveçin, Çexiyanın, Slovakiyanın, Danimarkanın, Norveçin milli pul vahidi; ***2)*** Qədim Avropa dövlətlərində tədavüldə olan qızıl monet; ***3)*** Böyük Britaniyada XIX əsrin sonlarına qədər tədavüldə olan gümüş monet.

***Kronizm*** **–** "tanışlıq" zəminində bir qrup insana əlverişli şərait yaradılması.

***Kross-Kurs*** **–** iki xarici valyutanın milli valyuta bazasında məzənnəsinin müəyyən edilməsidir.

***Kross-Listinq*** **–** şirkətin qiymətli kağızlarının iki və daha çox birjada listinqdə olması.

***Kumulyativ*** **–** imtiyazlı səhmlərə və istiqrazlara görə keçmiş dövrlər üzrə hesablanmış, lakin ödənilməmiş divident və faiz məbləğlərinin toplanması.

***Kumulyativ (Toplanan) İllik Artım Tempi*** **–** müəyyən vaxt ərzində investisiyanın dəyərinin və ya gəlirin həcminin orta illik artım sürətini xarakterizə edən göstərici.

***Kumulyativ İmtiyazlı Səhmlər*** **–** emissiya şərtlərinə görə, vəsait çatışmazlığı halında dividentləri toplanan və sonrakı dövrlərdə qeyri-kumulyativ müddətsiz imtiyazlı və adi səhmlərin dividentləri ödənilməzdən əvvəl ödənilən, habelə emitentə dividentlərin ödənilməsi vaxtının müəyyən müddətə təxirə salma hüququ verən imtiyazlı səhmlər.

***Kumulyativ Səsvermə*** **–** şirkətin direktorlarının seçilməsində istifadə olunan səsvermə metodlardan biri olub hər bir səhmdarın hər səhmə görə seçiləcək direktorların sayı qədər səsi olduğunu göstərir.

***Kupon*** **–** istiqrazlar üzrə ödənilən faiz. İstiqrazın nominalının faizi formasında ifadə olunur.

***Kupon Gəliri*** **–** istiqrazlarda və digər borc alətlərində illik faiz məbləğinin qiymətli kağızın nominal dəyərinə nisbətidir.

***Kuponların Ayrılması*** **–** istiqrazların əsas məbləğlərindən

kuponların ayrılması yolu ilə onların kuponsuz istiqraza çevrilməsi və həmin istiqrazların və onların kuponlarının müstəqil qiymətli kağızlar kimi ayrılıqda satılması.

***Kuponlu İstiqraz*** – Kupon ödəyən borc qiymətli kağızları.

***Kupür*** – pul nişanı, yaxud qiymətli kağızın bir nüsxəsinin ümumi adlanması.

***Kurtaj*** – brokerin fond birjasında vasitəçilik fəaliyyətinə görə verilən haqq, mükafat.

***Kustar İstehsal*** – əl əməyindən istifadə edildiyi fərdi və xırda seriyalı istehsal.

***Kustar Məhsul*** – evdə istehsal edilən, əl əməyi istehsalı olan məhsul.

***Küçə Adı*** – bu termin investorun sahibi olduğu qiymətli kağızlarının onun öz adına deyil, broker firması, bank və ya bu kimi digər nominal saxlayıcının adına qeydiyyata alındığı halı göstərir.

***"Küçə" Bazarı*** – bir-birilə telekommunikasiyalar vasitəsi ilə əlaqədə olan qiymətli kağızlar alıcıları, satıcıları və vasitəçiləri şəbəkəsi.

***Küçə Ticarəti (Qara Bazar, Qeyri-Rəsmi Birja)*** – rəsmi birjalardan kənarda tcarət əməliyyatlarının aparıldığı yer.

***Kütləvi İstehsal*** – ən əvvəl konveyer istehsalı prinsipinə söykənən, uzun müddət ərzində eyni tipli məhsulun, məlumatın istehsalı.

***Kvantos*** – forvard valyuta müqaviləsi üzrə opsionun bir növü.

***Kvazi*** – bənzədilən, təsəvvür edilən bir şey, xəyali, qeyri-həqiqi.

***Kvazidövlət Bankı*** – hökumət tərəfindən nəzarət edilən qeyri-dövlət, kommersiya, özəl bankı.

***Kvazidövlət Əmtəəsi*** – təbiətinə və təyinatına görə ictimai əmtəə və xidmətlərə aid olmayan, lakin kapitalın yerdəyişməsində çox böyük xeyir verdiyi üçün maliyyə resurslarının çatışmazlığının yaranmasına yol verməməkdən ötrü istehsalı hökumət tərəfindən həvəsləndirilən əmtəə və xidmətlər.

***Kvazi İşsizlik*** – gizli işsizlik.

***Kvazi Qiymət*** – əmtəənin həqiqi bazar dəyərini əks etməyən qiymət.

***Kvazi Müqavilə*** – insanın müstəsna olaraq öz arzusu ilə üçüncü şəxs qarşısında götürdüyü öhdəlikdir.
***Kvazi Pul*** – qanuni ödəniş vasitəsi kimi istifadə oluna bilməyən, yalnız maliyyə öhdəliklərinin icrası üçün istifadə oluna bilən yüksək likvidli maliyyə aktivləri.
***Kvazidelikt*** – səhlənkarlıq və ya ehtiyatsızlıq nəticəsində qəsdən vurulmamış ziyandır.
***Kvazifiskal Fəaliyyətlər*** – mərkəzi bankların, ictimai vəsait institutlarının və qeyri maliyyə müəssisələrinin fiskal xarakterli fəaliyyətləridir.
***Kvintil*** – əhali qrupları üzrə göstəricilər alınarkən ev təsərrüfatlarının adambaşına sərəncamda qalan gəlirləri artan qaydada düzülərək ev təsərrüfatlarının sayına görə 5 bərabər 20%-lik qrup yaradılır. Bu zaman birinci kvintilə ən az gəlirləri olanlar, beşinci kvintildə isə ən çox gəlirləri olan ev təsərrüfatları düşür.
***Kvorum*** – iclasın səlahiyyətliliyini, hüquqiliyini tanımaqdan ötrü iştirakçıların sayı.
***Kvota*** – ***1)*** Ümumi işin bir iştirakçısının payına düşən hissə; ***2)*** Müəyyən dövr ərzində qüvvədə olan kəmiyyət məhdudiyyətləri.
***Kvotalaşdırma*** – dövlət orqanları tərəfindən hər hansısa məhsullara müəyyən müddət üçün qoyulan kəmiyyət məhdudiyyəti olub, idxal-ixrac əməliyyatlarının dövlət tənzimlənməsinin qeyri-tarif metodudur.

# – L –

***Laffer Əyrisi*** – vergi dərəcələri ilə büdcəyə vergi daxilolmaları arasında əlaqələri əks etdirən qrafik.
***Lari*** – Gürcüstanın milli pul vahidi (1995-ci ildən) 1 GRL = 100 tetri
***Larner İndeksi*** – ölkə iqtisadiyyatında inhisarçılıq səviyyəsini xarakterizə edən iqtisadi – statistik göstərici. Larner indeksi aşağıdakı düsturla hesablanır:

$$L = (P - MC) / P$$

Burada: L – Larner indeksi; P – qiymət; MC – son xərc.
P-MC səviyyəsi nə qədər böyükdürsə inhisarçılıq səviyyəsi də bir o qədər yüksəkdir. L-in qiyməti 0 ilə 1 arasında dəyişir. P=MC olduqda L=0 olur ki, sağlam rəqabəti ifadə edir.
***“Laro” hesabı*** – bankın öz korrespondent bankına açdığı hesab olub, onun sərəncamı üzrə alınan və verilən bütün vəsaitlər həmin hesabda toplanır.
***Laspeyres İndeksi*** – bazis ilində istehsal olunmuş əmtəə çeşidinin cari ilin qiymətləri ilə dəyərinin bazis ilinin qiymətləri ilə dəyərinə nisbətini göstərən qiymət indeksi. Laspeyres indeksi bazis ili ilə müqayisədə qiymətlərin dinamikasını əks etdirir.
***Lat*** – Latviyanın milli pul vahidi. 1 LVL = 100 santimo.
***Layihə*** – mahiyyəti və onun praktiki reallaşması imkanları təsvirlər, əsaslandırmala, rəsmlər formasında açıqlanan fikir, ideya, surət.
***Layihə – Smeta Sənədləri*** – layihələrin məqsədəuyğunluğunu və həyata keçirilə bilməsini əsaslandıran, onun mahiyyətini açıqlayan, onun gerçəkləşməsinə imkan verən sənədlər məcmusu.
***Leffer Əyrisi*** – vergi dərəcələri ilə büdcə gəlirləri arasındakı nisbəti göstərən əyri olub, onu təqdim edən alimin adını daşıyır.
***Legitimləşmə*** – fiziki və hüquqi şəxslərin hüquq və səlahiyyətlərinin qanuniləşdirilməsi, tanınması və ya qanuniliyinin təsdiq edilməsi, həmçinin qanunauyğunluğunun uyğun sənədlərlə təsdiq edilməsidir.

***Lek*** – Albaniyanın milli pul vahidi. (1947-ci ildən). 1 ALL = 100 kindark

***Leqallaşdırma*** – hər hansı bir təşkilatın fəaliyyətinə icazə verilməsi, onun qanunlaşdırılması, hər hansı bir aktına və hərəkətinə hüquqi gücün verilməsidir.

***Leqat*** – varis tərəfindən göstərilən hansısa bir şəxsə müəyyən pul məbləği və ya müəyyən əmlakın verilməsi haqqında əvəzsiz vəsiyətnamə sərəncamıdır ("AR Mülki Məcəlləsi", 1205-ci maddə).

***Lempira*** – Hondurasın milli pul vahidi. 1 HNL = 100 sentavo.

***Leontyev Paradoksu*** – ABŞ-ın müharibədən sonrakı idxal və ixrac strukturunu öyrəndikdən sonra əldə etdiyi nəticələrdir. Bu nəticələr Hekşer – Olin nəzəriyyəsi ilə əkslik təşkil edir.

***Lepta*** – ***1)*** 2002-ci ilə qədər (Avro tədavülə buraxılana qədər) Yunanıstanda tədavüldə olan xırda monet. 1 Lepta = 1/100 Draxma; ***2)*** Qədim Yunanıstanda pul və çəki ölçüsü vahidi; ***3)*** Hər hansı işə, layihəyə pul və ya natural formada yardım etmək.

***Lev*** – Bolqarıstanın milli pul vahidi (1980-cı ildən). 1 BGL = 100 stotinko

***Leveric*** – fiksə edilmiş gəlirə malik qiymətli kağızlara yatırılan kapitalın məbləği ilə fiksə edilməmiş gəlirə malik qiymətli kağızlara yönəldilən kapital məbləğinə nisbəti.

***Ley*** – ***1)*** Rumıniyanın milli pul vahidi (1869-cu ildən). 1 ROL = 100 ban. ***2)*** Moldovanın milli pul vahidi. 1 MOL = 100 ban

***Ləğv Edilmiş Çek*** – bank və ya digər kredit təşkilatı tərəfindən ödənilmiş, icra edilmiş çek.

***Ləğv Olunan Dəyər*** – ləğv etmədən sonra əsas vəsaitlərin və digər aktivlərin satışından əldə olunan dəyər.

***Ləğvetmə*** – məhkəmə qərarları əsasında, yaxud İdarə heyətinin və ya təsisçilərin razılığı ilə müəssisənin, təşkilatın fəaliyyətinin tam şəkildə dayandırılması, ləğv edilməsi.

***Ləğvetmə Balansı*** – firmanın, müəssisə və ya təşkilatın öz fəaliyyətini dayandırdığı hüquqi şəxs statusunun ləğv edildiyi anda onun təsərrüfat vəziyyətini əks etdirən mühasibat balansıdır.

***Ləğvetmə Komissiyası*** – hüquqi şəxslərin ləğv olunması prosesini

həyata keçirən orqandır. Ləğvetmə komissiyasının hüquqi fəaliyyəti AR Mülki Məcəlləsinin müddəaları ilə tənzimlənir (AR Mülki Məcəlləsi, 59-62-ci maddələr).

***Ləğvetmə Mükafatı*** – ləğv olunmuş müəssisənin borcları, səhmdar kapitalı üzrə ödənişləri və digər ödəmələri həyata keçirildikdən sonra sərəncamında qalan vəsaitlərin məcmusu.

***Ləğvetmə Strategiyası*** – bu ixtisaretmə strategiyasının son variantıdır.

***Li*** – ticarət əməliyyatlarında istifadə edilən qeyri-metrik ölçüdür.

***Liberallaşdırma*** – azad bazar iqtisadiyyatına keçid üçün proqram olub, məhdudiyyətlərin köçürülməsi deməkdir.

***Libid*** – London banklararası cəlb edilmiş vəsaitlərin dərəcəsi.

***Libor*** – London bankları tərəfindən təqdim edilən qısamüddətli kreditlər üzrə dərəcə. Əsasən bu kreditlər 3-6 ayı əhatə edir.

***Likvid Aktiv*** – ehtiyac yarandığı zaman sərbəst, rahat şəkildə nağd pul vəsaitinə çevrilən, reallaşdırıla bilə vəsait, aktiv.

***Likvid Ehtiyat*** – kapitalın nağd ehtiyat şəklində gözlənilməz yüksək rentabelli investisiyalardan ötrü ehtiyata yönəlmiş hissəsi.

***Likvid Qiymətli Kağızlar*** – investor tərəfindən sahibi olduğu qiymətli kağızları əldə etdiyindən daha yüksək dəyərə, yəni mənfəət əldə etməklə reallaşdıra bilməsi imkanları, qabiliyyəti.

***Likvidant*** – hər hansı borc alan subyektə qarşı özünün borc tələbini ləğv edən kreditor.

***Likvidasiya – 1)*** Ləğv etmə, fəaliyyətini dayandırma və s; ***2)*** müqavilə müddətinin sona çatması, müqavilə üzrə münasibətlərin başa çatdırılması; ***3)*** Əsas istehsal fondların reallaşdırılması.

***Likvidasiya Dəyəri*** – müəssisə, şirkət öz fəaliyyətini dayandırdıqdan sonra əsas vəsaitlərin və digər aktivlərin satışından əldə olunan dəyər.

***Likvidasiya Dividentləri*** – resipvestisiya olunmuş gəlirlərin ümumi miqdarı qədər elan olunmuş dividentlərdir.

***Likvidasiya Mükafatı*** – ləğv olunmuş müəssisənin borcları, səhmdar kapitalı üzrə ödənişləri və digər ödəmələri həyata keçirildikdən sonra sərəncamında qalan vəsaitlərin məcmusu.

***Likvidat*** – xeyrinə hər hansı borc tələbi ləğv olunan, qüvvədən

düşmüş hesab olunan borc alan, yaxud borclu subyekt.

***Likvidator – 1)*** Sığorta münasibətləri zamanı sığorta halları üzrə dəymiş zərərin səbəblərini həcmini ölçən şəxs, sığorta şirkətinin ixtisaslaşmış işçisi; ***2)*** Bu və ya digər iqtisadi münasibət zamanı hər hansı ləğv etmə prosesini həyata keçirməklə, rəsmiləşdirməklə bağlı müəyyənləşdirilmiş hüquqi və ya fiziki şəxs.

***Likvidlər*** – firmanın kassada olan nağd pulları, həmçinin firmanın sərəncamında olan nağd vəsaitlərdir.

***Likvidlik – 1)*** Səmərəlilik, davamlılıq, ardıcıl fəaliyyət qabiliyyəti və s. məs, likvid biznes dedikdə səmərəli biznes anlamına gəlir; ***2)*** Borc alan subyektin müəyyən olunmuş zaman ərzində müəyyən olunmuş məbləğdə borc vəsaitini ödəmə qabiliyyəti.

***Likvidlik Əmsalı*** – firmanın ödəmə qabiliyyətini, onun borc aldığı vəsaitləri qaytarmaq potensialını səciyyələndirən əmsal. Balans aktivinin və passivinin ayrı-ayrı hissələrinin nisbəti kimi hesablanır.

***Likvidlik Riski*** – bir bankın depozit sahibi və ya kreditorların tələblərini vaxtında və lazımi dərəcədə qarşılaya biləcək maliyyə vəsaitinə sahib olmaması riski.

***“Likvidlik Tələsi”*** – elə bir makroiqtisadi situasiyadır ki, dövriyyədəki likvid formada pul kütləsinin həcmi artır, uçot faiz dərəcələri isə adekvat azalmır.

***Likvidliyin İdarə Edilməsi*** – firmanın, bankın vəsaitləri elə yerləşdirmə üsuludur ki, istənilən an öhdəliklər üzrə hesablaşmaq mümkün olsun.

***Liqz və leqz*** – iqtisadi qazanc əldə etmək məqsədi ilə hesabların müddətinin manipulyasiyası ilə bağlı olan valyuta əməliyyatı növüdür.

***Lima Bəyənnaməsi*** – 1977-ci ilin oktyabrında İNTOSAİ –nin 9-cu qurultayında Lima şəhərində ali audit institutlarının iştirakı ilə bəyannamə qəbul olundu. Bəyannamədə auditin məqsədi, onun müstəqilliyinin təmin edilməsi, habelə ali audit institutunun parlament, hökumət və onun administrasiyası ilə münasibətlərinin tənzimlənməsi, ali audit institutunun gücü, audit metodları, onun kadr təminatı və beynəlxalq təcrübə mübadiləsi, o cümlədən

hesabatların hazırlanması məsələləri öz əksini tapmışdır.

***Limean*** – London banklararası kredit bazarında şərti faiz hesablaşma dərəcəsi.

***Limit*** – sərhəd, hədd, aralıq.

***Limit Qiyməti*** – bəzən layihələrdə gələcək məhsul üçün müəyyən edilən, hesablanmış son qiymət səviyyəsidir.

***Limited*** – cəmiyyətin, şirkətin, yoldaşlığın adına, onların öhdəlikləri üzrə məsuliyyətlərinin məhdud olmasını təsdiq edən əlavədir.

***Limitlənmiş Qiymət – 1)*** Minimal təminat verilmiş qiymətdir; ***2)*** Yeni malın hazırlanması, layihələşdirilməsi prosesində qoyulmuş maksimal qiymət, qiymətin ən yuxarı dərəcəsi.

***Limitləşdirilmiş Çek*** – ümumi məbləği müəyyən həddə qədər təsbit edilən çek.

***Linaburq – Maduell Şəffadlıq İndeksi*** – Suveren Rifah Fondları İnstitutunun aparıcı tədqiqatçıları olan Karl Linaburq və Maykl Maduel tərəfindən işlənib hazırlanmışdır. Bu indeks müxtəlif fondların şəffaflığının qiymətləndirilməsini nəzərdə tutan metoddur.

***Lindahi Qiyməti*** – fərdin vergi payı ictimai əmtəənin vahidi üçün ödənməlidir.

***Lisenziar – 1)*** Qanunvericiliklə müəyyən olunmuş xüsusi fəaliyyət növlərinin həyata keçirilməsi ilə bağlı hər hansı müəssisə və təşkilata, yaxud fiziki şəxsə rəsmi icazə, razılıq təqdim edən müvafiq dövlət orqanı. ***2)*** Lisenziya vermək hüququ olan istənilən hüquqi və ya fiziki şəxs.

***Lisenziat*** – hər hansı fəaliyyət növünün həyata keçirilməsi ilə bağlı müvafiq dövlət orqanından xüsusi razılıq – lisenziya əldə etmiş hüquqi və ya fiziki şəxs.

***Lisenziya*** – qoyulmuş müddət ərzində və müəyyənləşdirilmiş şərtlərlə, göstərilən fəaliyyət növünün həyata keçirilməsinə icazə verən rəsmi sənəddir.

***Lisenziya Müqaviləsi*** – ixtiralardan, texniki biliklərdən, əmtəə nişanlarından kommersiya və istehsal məqsədlərinə istifadə edilməsi haqqında hüquq razılaşmasıdır.

***Lisenziya Ödəməsi*** – intellektual mülkiyyətin sahibinə bu mülkiyyətdən kommersiya məqsədləri üçün istifadə edilmə hüququna görə ödəmələridir.

***Lisenziya Razılaşması*** – texnologiyanın beynəlxalq verilməsi forması olub, lisenziarın müəyyənləşdirilmiş çərçivədə öz hüquqlarından istifadə səlahiyyətlərinin lisenzianta təqdim olunmasıdır.

***Lisenziya Sistemi*** – xarici ticarət əməliyyatlarının, malların idxal və ixracına dövlət icazəsinin verilməsi vasitəsilə tənzimlənməsidir.

***Lisenziyalaşdırma*** – dövlət tənzimlənməsinin qeyri-tarif metodudur. Müəyyən şərt daxilində müəyyən əməliyyatların həyata keçirilməsi hüququ verən icazənin (lisenziyanın) verilməsi.

***Lisenziyalı Ticarət*** – beynəlxalq ticarətin texnoloji və texniki yeniliklərlə (nou-hau), patentlərlə, ixtiralara lisenziyalarla aparılan formasıdır.

***Lisenziyanın Qiyməti*** – istehlakçıya lisenziya ilə verilən, texnologiyanın, yaxud başqa nou-hauların faydalılığının ümumiləşdirilmiş göstəricisi.

***Lisenziyaverən*** – ixtiranın, patentin, texniki və texnoloji yeniliyin sahibi, mülkiyyətçisidir.

***Listinq*** – qiymətli kağızların birjaya buraxılması və onların məzənnə siyahısına salınmasıdır.

***Listinq Tələbləri*** – fond birjalarında səhmlərin yerləşdirilməsi üçün listinqindən keçmə standartları və tələbləri.

***Listinq Üçün Məlumatlar*** – fond birjasında listinqdən keçmək üçün iddiaçı şirkətin özü haqqında hazırlamalı və yaymalı olduğu ətraflı məlumatlar.

***Listinqdən Keçməmiş Səhm*** – listinq tələblərinə cavab vermədiyinə görə fond birjasında ticarət olunmayan səhm.

***Lit*** – Litva Respublikasının milli pul vahidi (1993-cü ildən).

***Livr – 1)*** IX – XVIII əsrlərdə Fransada pul – hesablaşma vahidi; ***2)*** Qədim Fransada tədavülə buraxılan gümüş monet.

***Liz – Bek*** – müasir lizinq münasibətlərinin xüsusi forması. Bu lizinq münasibətinə görə lizinq təşkilatı hər hansı istehsalçı müəssisədən maşın və avadanlıqları satın alaraq yenidən həmin

müəssisəyə icarəyə təqdim edir.
***Lizinq*** – müvəqqəti sərbəst və ya cəlb edilmiş maliyyə vəsaitlərinin müqavilə əsasında icarəyə götürənə sahibkarlıq fəaliyyəti üçün verilməsidir.
***Lizinq Alan*** – sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan və sahibkar kimi qeydiyyatdan keçən fiziki şəxsdir.
***Lizinq Kompaniyaları (firmaları)*** – səhmdar cəmiyyəti və ya digər təşkilati – hüquqi formada yaranan, təsis sənədləri və lisenziyası əsasında fəaliyyət göstərən kommersiya təşkilatıdır.
***Lizinq Ödəmələrinin Qəti Müəyyən Edilmiş Ümumi Məbləği*** – tərəflərin razılaşmaları əsasında lizinq müqaviləsində müəyyən edilmiş qaydada həyata keçirilən ödəmələrdir.
***Lizinq Ödənişləri*** – lizinq əmlakından istifadəyə görə lizinq verənə ödənilən vəsaitlərin miqdarıdır.
***Lizinq Verən*** – lizinq fəaliyyətini həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan və sahibkar kimi qeydiyyatdan keçən fiziki şəxsdir.
***Lizqold*** – İcarə münasibətlərinin xüsusi bir forması. B münasibətlərə görə əmlakı icarəyə götürən iqtisadi subyekt icarə məbləğini öncədən və tam həcmdə təqdim edir.
***Lloyd*** – əmlak sığortasının bütün formaları ilə bağlı fəaliyyət göstərən İngiltərənin sığorta birliyi.
***Lloyds Şippinq İndeksi*** – Lloyd şirkəti tərəfindən bütün ölkələr üzrə dəniz yüklərinin əlifba sırası ilə tərtib olunan cədvəli.
***LM Xətti*** – pul bazarında çoxsaylı tarazlıq vəziyyətini göstərən xətdir.
***Lobbiçilik*** – qanunvericilik orqanında qanunlar qəbul edilərkən vəya hökumət sifarişləri verilərkən prosesə müəyyən iri korporasiyaların və ya digər güc mərkəzlərinin xeyrinə təsir etmək məqsədilə formalaşdırılan xüsusi agentliklərin və ya qrupların fəaliyyəti.
***Lobbizm*** – qanunları hazırlamaq və onlara səs vermək üçün siyasətçilərin müxtəlif yollarla ələ alınması fəaliyyətidir.
***Lodinq*** – bank tərəfindən təqdim olunan borc öhdəlikli qiymətli

kağızın risklilik səviyyəsinə görə alınan, götürülən məbləğ.
***Logistika*** – istehsal, bölgü, mübadilə və istehlak sferalarında material resursları axınının səmərəli qaydada ən az xərclə çatdırılmasını təmin edə biləcək təsərrüfat fəaliyyətinin məcmusudur.
***Loqrollinq*** – parlamentdə millət vəkillərinin öz səslərinin bir növ "ticarət"ni apararaq qarşılıqlı şəkildə bir-birilərinin maraqlarını güdən layihələrinə və təkliflərə dəstək vermələri.
***Lombard*** – daşınan əmlakın, xüsusi zinət əşyalarının, qızılın girovu əsasında kredit təqdim edən kredit təşkilatı.
***Lombard Bileti*** – lombard təşkilatı tərəfindən borc alan şəxsə təqdim edilən, borc məbləğinə görə qoyulan girovu təsdiq edən sənəd.
***Lombard Dərəcəsi*** – Mərkəzi Bankın kommersiya banklarına qiymətli kağızların girovu əsasında verdiyi kreditin faiz dərəcəsidir.
***Lombard Krediti*** – banka qoyulmuş əmlak girovuna görə verilmiş kreditdir.
***Lombardda Saxlama*** – saxlama müqaviləsinin bir növü olub, lombardın vətəndaşlardan saxlamaq üçün daşınar əmlak qəbul edə bilməsidir.
***London Banklararası Depozit Bazarında Alış Faiz Dərəcəsi*** – London banklararası depozit bazarında bankların bir-birindən depozitə götürdüyü vəsaitlərə tətbiq olunan faiz dərəcəsidir.
***London Banklararası Təklif Üzrə Faiz Dərəcəsi*** – London banklararası bazarında bankların borclanma faizi. LİBOR qısamüddətli kreditlər üzrə faiz dərəcəsinin müəyyənləşdirilməsi üçün dünyada ən çox istifadə olunan faiz dərəcəsidir.
***London Klubu*** – borclu ölkələrlə danışıqların aparılması,razılıqların əldə olunması məqsədilə beynəlxalq səviyyədə kreditor kommersiya banklarının birliyi, klubu.
***Loro*** – bankın özündə özünün müxbir bankları üçün açdığı hesab, başqa sözlə müxbir bankın bankdakı hesabı.
***Lot*** – ***1)*** Kəmiyyət və keyfiyyət üzrə standart mal partiyasıdır; ***2)*** Birjada bir kontraktdır; ***3)*** Satışa təqdim olunan, vahid sayılan,

istənilən mal partiyasıdır.

***Lotereya*** – sahibinə öncədən müəyyənləşdirilmiş həcmdə və şərtlərlə uduş imkanı, şansı verən qiymətli kağız.

***Lukrativ – 1)*** Gəlirli, uğurlu, səmərəli; ***2)*** Uğurla nəticələnən iqtisadi fəaliyyət.

***Lüksibor*** – Lüksemburq pul bazarında banklararası depozit təklifinin orta dərəcəsi.

***Lyumpsum*** – daşınan yükün faktiki miqdarından asılı olmayaraq, bütün gəmi üçün alınan daşıma haqqıdır (yol kirayəsidir).

## – M –

***Maddi Dövriyyə Vəsaitləri Ehtiyatlarının Dəyişməsi*** – istehsal ehtiyatlarının, bitməmiş istehsalın, hazır məhsulun və təkrar satılmaq üçün nəzərdə tutulmuş məhsulun dəyərinin dəyişməsini əks etdirir.
***Maddi Xərclər*** – istehsal prosesində tam istifadə edilən maddi və aşındıqca dəyəri məhsulun dəyərinə keçən əmək vasitələrindən ibarət olan nemətlərin dəyərini ifadə edir.
***Maddi İstehsal*** – bilavasitə maddi nemətlərin, əşyaların, maddi sərvətlərin hazırlanması və maddi xidmətlərin göstərilməsi ilə bağlı olan istehsal, tikinti, quraşdırma, torpaq, təmir işlərinin yerinə yetirilməsi.
***Maddi Qiymətlilər*** – maddi formada, mal, əşya şəklində olan dəyərlilərdir.
***Maddi Məsul Şəxs*** – mal-material dəyərlilərinin qorunmasına tam fərdi məsuliyyət daşımaq barədə yazılı müqavilə yolu ilə məsuliyyəti öz üzərinə götürmüş şəxs.
***Maddi Məsuliyyət*** – hüquqi və fiziki şəxslərə vurulmuş əmlak və maddi ziyanın ödənilməsi üçün işçilərin məsuliyyəti.
***Maddi Məvacib*** – tutduğu vəzifəyə müvafiq işçiyə təyin edilmiş nominal aylıq əmək haqqının həcmi.
***Maddi Modellər*** – maddi obyektlərdən ibarət olan modellərdir.
***Maddi Resurslar*** – maddi –material şəklində iqtisadi resurslar.
***Maddi Sərvət*** – real aktivlər, uzun müddət istifadə olunan aktivlərdir, onlar müəyyən vaxt dövrü ərzində bilavasitə mənfəət verirlər. Maddi sərvət kapital və torpaqdır.
***Maddi Stimullaşdırma*** – işçilərin əmək haqqının yüksəldilməsinə, əlavə pul mükafatlarının alınmasına, əşya şəklində həvəsləndiricilərin və digər stimulların verilməsinə, bir sözlə, insanların iqtisadi maraqlarının yüksəldilməsinə yönələn, onların həvəsləndirilməsinin iqtisadi forma və üsullarının məcmusudur.
***Maddi Yardım*** – müəssisənin, təşkilatın ehtiyacı olan işçilərinə və ya başqa şəxslərə əşya, yaxud pul şəklində göstərilən yardım.

***Maddi – Texniki Baza*** – iqtisadiyyatda, istehsalda material, maddi elementlər və iqtisadi proseslərdə istifadə olunan və oluna bilən istehsal vasitələrinin cəmi.
***Mahiyyət Anlayışı*** – mühasibat uçotunun fundamental anlayışlarından biri olub, mənası – mühasibat hesabatında əks etdirilən vəziyyətin düzgün qiymətləndirilməsinə təsir nöqteyi – nəzərindən ancaq bəndlərin kəmiyyətləri və ya təbiəti təsir göstərir – deməkdir.
***Mağaza – 1)*** Hüquqi şəxs kimi çıxış edən, yaxud əlahiddə otaqda, ticarət yerində yerləşən hər hansı pərakəndə ticarət müəssisəsi; ***2)*** İstiqraz vərəqələrinin alqı-satqısı ilə məşğul olan diler şirkətini göstərən birja termini.
***Maxinasiya*** – qanunsuz iqtisadi fəaliyyət, maliyyə fırıldaqçılığı.
***Makler*** – müxtəlif bazarlarda – əmtəə və xidmətlər bazarında, maliyyə bazarında və s.-də vasitəçilik fəaliyyəti ilə məşğul olan fiziki və ya hüquqi şəxs.
***Makroiqtisadi Göstəricilər*** – iqtisadiyyat üzrə, bütövlükdə istehsal və istehlak həcmlərinin, gəlirlər və xərclər, struktur, effektivlik, maddi rifah səviyyəsinin, ixrac və idxalın, iqtisadi yüksəliş templərinin və s. yekun, ümumiləşdirici, orta göstəriciləridir.
***Makroiqtisadi Modellər*** – bütövlükdə iqtisadi əlaqələr sistemini tədqiq edib, iqtisadi kompleksin və onun başlıca sahələrinin ölkə miqyasında inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edən riyazi – iqtisadi modellərdir.
***Makroiqtisadi Siyasət*** – yüksək iqtisadi artım templərinə, tam məşğulluğa, məhdud inflyasiya səviyyəsinə və rasional (optimal) xarici ticarət balansına nail olmaq üçün dövlətin iqtisadi tənzimləmə fəaliyyəti.
***Makroiqtisadi Triada*** – ölkənin inkişafında əldə olunan ən yüksək səviyyə, nöqtə.
***Makroiqtisadiyyat*** – ölkə iqtisadiyyatı ümumi, tam şəkildə təqdim edən, öyrənən elm, iqtisad elmi.
***Makromühit*** – firmanın fəaliyyət göstərdiyi iqtisadi, təbii, sosial – mədəni, siyasi mühit şəraitidir.
***Maksimal Mənfəət Məhdudiyyətləri*** – firmanın, korporasiyaların

formalaşmış normativ səviyyədən artıq mənfəətə can atmalarını azaldan tənzimləyici amillər, xarici təsirlər.

***Makulatura* – *1)*** Emal üçün nəzərdə tutulmuş köhnəlmiş, yararsız məmulat, kağız və karton tullantıları; ***2)*** Perspektivsiz, çox aşağı reytinqi olan, yararsız qiymətli kağızlar.

***Maqnatlar*** – iri sənaye maliyyə kapitalının nümayəndələridir.

***Mal*** – dövlətin gömrük sərhədindən keçirilən istənilən əmlak, o cümlədən istilik, elektrik enerjisi və enerjinin digər növləri.

***Mal Anbarında Qoruma*** – mal anbarı ilə yük gözləyən arasında bağlanmış qoruma müqaviləsidir.

***Mal Bazarı*** – ayrı-ayrı mallar üzrə, iş növləri və xidmətlərə görə bazarlardır.

***Mal Bazarlarının Coğrafi Sərhədləri*** – malların və onların əvəzləyicilərinin dövriyyədə olduğu ərazilərdir (ölkələr və ya ölkələr qrupudur).

***Mal Ehtiyatlarının Qiymətləndirilməsi*** – mal ehtiyatlarının pulla ifadəsidir.

***Mal Qaiməsi (Fakturası)*** – mal – material dəyərlərinin qəbulu və buraxılışı üzrə əməliyyatları rəsmiləşdirmək üçün nəzərdə tutulan ilkin mühasibat sənədidir.

***Mal Sazişi*** – ilkin məhsul qiymətinin sabitləşdirilməsi və ya artırılması üçün hazırlanmış beynəlxalq razılaşmadır.

***Mal və Nəqliyyat Vasitələrinin Bəyan Edilməsi*** – AR Gömrük Məcəlləsinə uyğun olaraq, gömrük sərhədini keçən mal və nəqliyyat vasitələri, gömrük orqanlarında bəyan olunmalıdır.

***Mal Yoldadır*** – müəssisələr tərəfindən alınan və yolda olan mallardır.

***Malgöndərmə Müqaviləsi*** – ikitərəfli müqavilədir, ona uyğun olaraq mal göndərən öhdəsinə götürür ki, müqavilənin imzalandığı anlarla üst – üstə düşməyən, şərtləndirilmiş müddətlərdə malı alıcının mülkiyyətinə versin, sonuncu isə öhdəlik götürür ki, malı qəbul etsin və ona görə müəyyən pul məbləği ödəsin.

***Malgöndərmə Şərtləri*** – göndərilmiş malların nəql edilməsi üsullarını, verilmə və ödəmə formalarını, sığorta üsullarını, göndərmə müddətini, malların bütövlüyünə görə məsuliyyəti

müəyyən edən şərtlərdir.

***Malın Aşkar Təklifi*** – reklamlarda və kataloqlarda göstərilən, pərakəndə alqı-satqısı barədə hər cür məlumatlar olan malların, habelə açıq satışa və nümayiş etdirilməyə qoyulmuş malların təklif olunmasıdır.

***Malın Bazar Qiyməti*** – bir – birindən heç asılılığı olmayan şəxslər arasında sövdələşmə üzrə yaranan qiymətdir.

***Malın Gömrük Dəyəri*** – malın müəyyən qaydada müəyyənləşdirilən və aşağıdakı məqsədlər üçün istifadə olunan dəyəridir: maldan rüsum tutulması üçün; xarici iqtisadi əlaqələr və gömrük statistikasının aparılması, ticarət – iqtisadi münasibətlərin dövlət tənzimlənməsi, o cümlədən xarici iqtisadi əməliyyatlara valyuta nəzarəti; bu sahədə bank hesablaşmalarının həyata keçirilməsi ilə bağlı tədbirlər üçün.

***Malın Göndərilməsinə İcazə*** – alıcı tərəfindən malın göndərilməyə hazır olması barədə satıcıdan bildiriş aldıqdan sonra onun göndərilməsinə icazə verilməsi barədə sənəddir.

***Malın Haqqını Ödəmə*** – alıcının ona veriləcək və ya verilmiş malın haqqını mütləq satıcıya ödəməsi öhdəliyidir.

***Malın Xidmət Müddəti*** – satılmış əşyanın öz təyinatı üzrə istifadə öhdəliklərini yerinə yetirmək üçün məhdud vaxtdır ki, həmin müddət ərzində alıcı, satılmış mallardakı çatışmazlıqları istehsalçı və ya satıcı tərəfindən əvəzsiz aradan qaldırılmağı tələb edə bilər.

***Malın İdxalı*** – rəsmi qanunvericiliyə əsasən, gömrük qanunvericiliyinə uyğun olaraq idxa malları sayılan malların AR ərazisinə gətirilməsi.

***Malın İxracı*** – rəsmi qanunvericiliyə əsasən, gömrük qanunvericiliyinə uyğun olaraq ixrac malları hesab edilən malların AR ərazisindən çıxarılması.

***Malın Keyfiyyəti*** – satıcı, müqaviləyə uyğun olaraq, alıcıya keyfiyyətli mal verməyə borcludur.

***Malın Mənşə Ölkəsi*** – malın mənşə ölkəsi dedikdə, malın tamamilə həmin ölkədə istehsal olunduğu və ya müəyyən meyarlar əsasında kifayət qədər yenidən emala məruz qaldığı ölkə başa düşülür.

***Malın Nisbi Qiyməti*** – bir mala başqa mala görə verilən qiymətdir.
***Malın Təkrar İdxalı*** – gömrük qanunvericiliyinə uyğun olaraq, təkrar idxal malları sayılan malları təqdim etmədən və ixrac olunduğu andakı vəziyyətdə ixrac etmiş şəxsin həmin malları idxal etməsi.
***Malın Təkrar İxracı*** – gömrük qanunvericiliyinə uyğun olaraq, təkrar ixrac malları sayılan malları idxal etmiş şəxsin həmin malları idxal edəndən sonra təqdim etmədən və idxal olunduğu andakı vəziyyətdə ixrac etməsi.
***Malın Təqdim Edilməsi*** – mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən, bunlarla məhdudlaşdırılmayan malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əmək haqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi.
***Malın Realizasiya Yeri – 1)*** Əgər mal yüklənmirsə və daşınmırsa, onda malın yerləşdiyi yerdir; ***2)*** Əgər mal yüklənməyə və daşınmaya hazırlanırsa, həmin ana qədər yerləşdiyi yerdir; ***3)*** Əgər malı bütöv halda aparmaq mümkün deyilsə və mal sökülmüş şəkildədirsə, onda onların yığıldığı və quraşdırıldığı yerdir.
***Malın Yararlılıq Müddəti*** – qanunla, digər hüquqi aktlar və ya məcburi qaydalarla müəyyən edilmiş malın istifadəyə yararlılığı müddətidir.
***Maliyyə*** – aktivlər üzrə fondların, o cümlədən pul vəsaiti fondlarının yaradılması və istifadəsi ilə bağlı iqtisadi münasibətlərin məcmusu, yaxud bu münasibətləri əks etdirən iqtisadi kateqoriya.
***Maliyyə – Kredit İnstitutları*** – kreditləşmə, əmanətlərin depozitə qoyulması, hesablaşma hesablarının aparılması, valyuta və qiymətli kağızların alqı-satqısı, maliyyə xidmətlərinin göstərilməsi və s. maliyyə əməliyyatlarını həyata keçirməyə vəkil edilmiş dövlət və özəl kommersiya təşkilatları.
***Maliyyə – Sənaye Qrupu*** – istehsalın rəqabət qabiliyyətinin artırılması, müxtəlif investisiya layihələrinin, o cümlədən investisiya proqramlarının birgə həyata keçirilməsi, qarşılıqlı

texnoloji və kooperasiya əlaqələrinin yaradılması, ixrac potensialının yüksəldilməsi, elmi-texniki tərəqqinin yüksəldilməsi məqsədi ilə qrup iştirakçılarının maddi və maliyyə ehtiyatlarını onlar arasındakı müqavilə əsasında birləşdirmək və investisiya vəsaitləri cəlb etmək üçün ölkə qanunvericiliyinə uyğun şəkildə öz aktivlərini qismən və ya tamamilə birləşdirmiş hüquqi şəxslərin məcmusu.

***Maliyyə Afyorası*** – qeyri-qanuni maliyyə, həmçinin valyuta əməliyyatları.

***Maliyyə Agenti*** – müqavilə əsasında hər hansı iqtisadi subyektin pul vəsaitinə olan tələbatını güzəştli şərtlərlə maliyyələşdirməyə rəsmi icazəsi (lisenziyası) olan bank və ya kredit təşkilatı.

***Maliyyə Aktı*** – maliyyə fəaliyyəti prosesində tərtib olunmuş akt (hüquqi sənəd).

***Maliyyə Aktivləri*** – bilavasitə ödəmələrə imkan verən, yaxud da asanlıqla ödəmə vasitəsinə çevrilə bilən aktivlərdir.

***Maliyyə Aktyorları*** – maliyyə tənzimlənməsini üç fərqli kateqoriya üçün – səlahiyyət verən məmur, avans administratoru – əsasən nümayəndə heyətlərində, avans hesabı idarə edən rəsmidir və mühasibat məmuru üçün təmin edir.

***Maliyyə Alətləri*** – bir müəssisənin aktivlərinin yaranmasına və digərinin borclarının formalaşması ilə nəticələnən istənilən növ müqavilədir.

***Maliyyə Analitiki*** – maliyyə bazarını təhlil edən, eləcə də bu sahədə proqnoz və məsləhətlər verən mütəxəssis.

***Maliyyə Bazarı*** – maliyyə münasibətləri sferasında alqı-satqı münasibətlərinin məcmusu.

***Maliyyə Bəyanatı*** – hüquqi şəxslərin maliyyə mövqelərini vaxtında əlaqələndirmək üçün nəzərdə tutulmuş mühasibat balansı, gəlir və nağd pul axınının verildiyi iqtisadi göstəricilər sisteminin prezentasiyasıdır.

***Maliyyə Blokadası*** – blokada edilən ölkəyə iqtisadi təzyiq göstərmək üçün onunla maliyyə münasibətlərinin dayandırılması, yaxud məhdudlaşdırılması.

***Maliyyə Borcları*** – müəssisənin götürdüyü borcları girov kağızları,

istiqrazları və digər formada maliyyələşdirməklə alınan borclarıdır.
***Maliyyə Borc Öhdəliyi*** – maliyyə şirkəti tərəfindən verilən qısamüddətli sənədsiz borc öhdəliyi.
***Maliyyə Böhranı*** – dövlət maliyyə, pul sisteminin ciddi pozulmasıdır, o özünü büdcə gəlirlərinin onun xərclərinə kəskin uyğunsuzluğunda, milli pul vahidinin valyuta məzənnəsinin qeyri-sabitliyində və düşməsində, iqtisadi subyektlərin qarşılıqlı ödəmələrinin pozulmasında, qiymətli kağızların məzənnələrinin sabitsizliyində, baş verən inflyasiyalarda, tədavüldə olan pul kütləsinin pul tədavülü qanununun tələblərinə uyğun olmamasında göstərir.
***Maliyyə Brokeri*** – müştəri üçün komisyon müqaviləsi əsasında, yaxud müştərinin tapşırığı ilə və müştərinin vəsaiti hesabına qiymətli kağızların alqı-satqısını keçirən və bu zaman vasitəçi funksiyalarını icra edən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı.
***Maliyyə Bronlaşdırması*** – dövlət, müəssisə, təşkilat, əhali və s.-nin sərəncamında olan maliyyə vəsaitlərinin bir hissəsini məqsədli şəkildə ehtiyatda saxlanması. Məsələn, dövlət büdcəsində yaradılan ehtiyat fondu maliyyə bronlaşmasıdır.
***Maliyyə Ehtiyatları*** – təsərrüfat subyektinin öz fəaliyyətini həyata keçirmək, genişləndirmək üçün müxtəlif mənbələrdən əldə etdiyi pul vəsaitləridir.
***Maliyyə Əmsalları*** – kampaniya hesabatının müxtəlif bəndləri üzrə miqdarın, həmin kampaniyanın səhmlərinin bazar dəyərinə olan nisbətidir.
***Maliyyə Fəaliyyəti*** – müəssisənin kredit və istiqrazların alınması və ödənməsi, müəssisənin fəaliyyəti üçün mülkiyyətçilərdən vəsaitlərin alınması və qaytarılmasıdır.
***Maliyyə Fyuçersi*** – maliyyə alətləri (qiymətli kağızlar, valyuta və s.) əsasında aparılan fyuçers sazişləri.
***Maliyyə Göstəriciləri*** – firmanın maliyyə fəaliyyətinin göstəriciləri, pul fondlarının və yığımlarının yaranması və istifadəsi ilə bağlı olan fəaliyyətin müxtəlif tərəflərini səciyyələndirən göstəricilər, məlumatlar.

***Maliyyə Hesabatları*** – təsərrüfat vahidinin hesabat formasından təsvir olunmuş maliyyə modelidir.

***Maliyyə Hesabatlarının Auditi*** – subyektin hesabatlarının müəyyənləşdirilmiş meyarlara və hamılıqla qəbul olunmuş mühasibat uçotu qaydalarına müvafiq surətdə düzgün tərtib edilib – edilmədiyi barədə rəy vermək məqsədilə həmin hesabatların yoxlanılmasıdır.

***Maliyyə Hesabatlarının Beynəlxalq Standartları*** – Mühasibat Uçotunun Beynəlxalq Standartlar Şurası tərəfindən işlənib hazırlanmış, qəbul və ya təsdiq olunmuş Mühasibat Uçotunun Beynəlxalq Standartları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Şərhlər üzrə Daimi Komitəsinin şərhləri, habelə Maliyyə Hesabatları Şərhi üzrə Daimi Komitəsinin şərhləri, habelə Maliyyə Hesabatları şərhi üzrə Beynəlxalq Komitənin müvafiq şərhləridir.

***Maliyyə Hesabatlarının Saxtalaşdırılması*** – başqa istifadəçilər üçün hesabatda məlumatların qəsdən dəyişdirilməsidir.

***Maliyyə Holdinq Kampaniyası*** – təsərrüfat hüququnun subyekti olub, maliyyə kampaniyasından kapitalının 50%-nin digər emitentlərin qiymətli kağızlarından ibarət olması ilə fərqlənir.

***Maliyyə Hüququ*** – maliyyə münasibətlərini tənzimləyən qanunvericilik sistemi.

***Maliyyə Xərcləri*** – müəssisənin kreditləşdirilməsi ilə əlaqədar olan, onun gəlirlər və itkilər hesabına daxil olan xərclərdir.

***Maliyyə İli*** – hökumətin rəsmi şəkildə dövlət büdcəsinin uçotunu həyata keçirdiyi dövr.

***Maliyyə İnnovasiyası*** – mənfəətin artırılması, xərclərin azaldılması, riskin aşağı salınması məqsədi ilə yeni maliyyə alətlərinin yaradılması, yeni maliyyə əməliyyatlarının aparılması, yeni hesablaşma formalarının tətbiqi və s.

***Maliyyə İnteqrasiyası*** – dövlətin üzərinə düşən daxili və xarici iqtisadi siyasətin bu və yadigar formada istiqamətləndirilməsi məqsədi ilə maliyyə münasibətləri və maliyyə alətlərinin qarşılıqlı əlaqələndirilməsi prosesi.

***Maliyyə İntizamı*** – maliyyə münasibətlərinin bütün iştirakçıları,

maliyyə əməliyyatlarının agentləri üçün məcburi olan maliyyə fəaliyyətinin, ödəmələrin, hesablaşmaların həyata keçirilməsi qaydası.

***Maliyyə İnvestisiyası*** – səhmlərə, istiqrazlara, digər qiymətli kağızlara edilən investisiyalar.

***Maliyyə Kapitalı*** – səhmlər və digər formada olan mülkiyyətdir.

***Maliyyə Konsorsiumu*** – iri miqyaslı maliyyə əməliyyatlarının aparılması məqsədilə maliyyə institutlarının (banklar, investisiya institutları və s.) müvəqqəti birgə fəaliyyəti.

***Maliyyə Konversiyası*** – Səhmdar cəmiyyət tərəfindən tədavülə buraxılan istiqraz vərəqələrinin müəyyən olunmuş dəyər nisbəti əsasında həmin müəssisənin səhmləri ilə dəyişdirilməsi, əvəzləşdirilməsi.

***Maliyyə Korporasiyası*** – maliyyə bazarında vasitəçilik fəaliyyəti ilə məşğul olan, yaxud başlıca fəaliyyəti maliyyə münasibətlərindən ibarət olan müəssisə, təşkilat.

***Maliyyə Qrupu*** – böyük müəssisələrdə mühasibatın struktur bölməsi olub, müəssisənin pul vəsaitlərinin uçotunu və onun digər müəssisələr, təşkilat və fərdi şəxslərlə olan hesablaşmalarını aparır.

***Maliyyə Leverici*** – müəssisənin şəxsi kapitalının onun cəlb etdiyi vəsaitlərə nisbəti.

***Maliyyə Lizinqi*** – lizinq münasibətlərinin bir forması olub, lizinq şirkəti ilə digər iki subyekt – satıcı müəssisə və icarədar arasında elə razılaşmaya əsaslanır ki, bu müqaviləyə əsasən müəyyən olunmuş lizinq müddəti ərzində sonuncu predmetin dəyərinin böyük bir hissəsini adətən 80%-dən çoxunu ödəyərək son nəticədə əmlakın mülkiyyətçisinə çevrilir.

***Maliyyə Mexanizmi*** – müəssisənin maliyyə resurslarının formalaşdırılması, istifadəsi və nəzarəti proseslərinin həyata keçirilməsi məqsədi ilə istifadə olunan idarəetmə forma və metodlarının məcmusu.

***Maliyyə Məlumatlarının Verilməsi*** – qərarların qəbul edilməsi üçün, bilavasitə maliyyə məlumatları olan hesabatların lazımi şəxslərin istifadəsinə verilməsidir.

***Maliyyə Mərkəzi*** – beynəlxalq və yerli, kommersiya və dövlət

maliyyə əməliyyatlarının həyata keçirilməsi üçün ölkənin əsas məkanı. Bu məkan adətən ölkənin paytaxtında yerləşir.
***Maliyyə Məsrəfləri*** – pul fondlarının cəlb edilməsi və ya sərf edilməsi nəticəsində yaranan məsrəflər.
***Maliyyə Münasibətləri*** – pul şəklində iqtisadi əlaqələr, qarşılıqlı əlaqələr, münasibətlər.
***Maliyyə Nəticələri*** – kağızda mənfəət və ya itki.
***Maliyyə Nəzarəti*** – maliyyə əməliyyatları zamanı səmərəliliyin artırılması, o cümlədən baş verən hüquq pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq qanunvericiliklə təsbit olunan xüsusi forma və üsullar vasitəsilə idarəetmə və təsərrüfat obyektlərinin maliyyə fəaliyyətinin və bununla bağlı əməliyyatların müşahidə edilməsi və yoxlanılması proseslərinin məcmusunu əhatə edən hüquqi – maliyyə fəaliyyəti.
***Maliyyə Öhdəliyi*** – maliyyə öhdəçiliyinə əsasən debitorun kreditor ilə bağlanılan müqavilədə müəyyən olunan şərtlər əsasında ona ödəniş və ya ödənişlər etməsini tələb edir və ya iki tərəf arasında maliyyə xarakterinə malik müəyyən hüquqları və ya öhdəlikləri müəyyən edir.
***Maliyyə Planı*** – çoxillik xərclər planı olmaqla xərc limitlərini, beləliklə də büdcə intizamını təyin edir.
***Maliyyə Planında Elastiklik*** – maliyyə intizamına nəticədir. Elastiklik büdcə prosesi dövründə maliyyə planının “tavan”ları üzərində yaradıla və mobilləşdirilə bilər.
***Maliyyə Planlaşdırılması*** – həm makro, həm də mikro səviyyədə iqtisadi proseslər zamanı maliyyə münasibətlərinin inkişaf istiqamətlərinin öncədən müəyyən olunmuş ardıcıllığını, alqoritmini göstərən sənəd, yazılış və ya proses.
***Maliyyə Perspektivi*** – adətən maliyyə planı üçün işlədilən başqa bir termindir. Uzunmüddətli maliyyə perspektivi hər ilə ümummilli məhsulun və qiymətlərin hərəkətini hesablamaqla uyğunlaşdırıla bilər.
***Maliyyə Resursları*** – iqtisadi subyektin malik olduğu, onun sərəncamında olan bütün növ pul vəsaitlərinin, maliyyə aktivlərinin cəmi.

***Maliyyə Riski*** – maliyyə öhdəliyini yerinə yetirməsi üçün şirkətin lazım olan nağd pul kütləsinə malik olmaması riski.
***Maliyyə Riskinə Məruz Qalmama*** – debitora və ya ölkəyə verilmiş kreditin ümumi məbləği.
***Maliyyə Sağlamlaşdırılması Tədbirləri*** – bank aktivlərində əhəmiyyətli xüsusi çəkiyə malik olması, böyük sayda əmanət hesablarına xidmət göstərməsi və banklararası hesablaşmalarda mühüm paya malik olması ilə əlaqədar maliyyə sabitliyinin pozulması banklararası ödəmələrdə sistem xarakterli böhrana, əmanətçilərin pul vəsaitlərinin kütləvi surətdə itirilməsinə və bank sisteminə etimada ciddi təhlükə yaradılmasına səbəb ola biləcək ödəmə qabiliyyətini itirmiş və ya itirmək təhlükəsi olan bank barəsində dövlət vəsaitləri cəlb etməklə maliyyə sağlamlaşdırılması tədbirləri həyat keçirilə bilər.
***Maliyyə Sektoru*** – uzunmüddətli və qısamüddətli kreditlər və borclarla bağlı iqtisadiyyat sahəsidir.
***Maliyyə Sirri*** – hüquqi şəxsin rəqiblərindən müdafiəsi məqsədi ilə mühasibat və maliyyə sənədlərinin, xidməti informasiyanın kənar şəxslərdən qorunması.
***Maliyyə Sistemi*** – maliyyə münasibətlərinin və onları həyata keçirən iqtisadi subyektlərin məcmusu. AR-in maliyyə sistemi aşağıdakı həlqələri əhatə edir: 1. Dövlət Maliyyəsi; 2. Müəssisələrin Maliyyəsi; 3. Bələdiyyə Maliyyəsi; 4. İctimai Sektorun Maliyyəsi.
***Maliyyə Siyasəti*** – iqtisadi subyektin (dövlətin, müəssisənin və s.) maliyyə strategiyasını və maliyyə taktikasını müəyyən edən iqtisadi siyasət.
***Maliyyə Şirkətləri*** – kreditləşmə, müxtəlif növ kreditlər, ilk növbədə istehlak və investisiya kreditinin verilməsi şəklində maliyyə əməliyyatlarını həyata keçirən hüquqi şəxslər, firmalar.
***Maliyyə Təlası*** – bir çox depozitorların eyni vaxtda və tez bir zamanda kredit sistemində depozitə qoyduqları və tələb etdikləri anda olmayan pulları almaq istəyini əks etdirən vəziyyətdir.
***Maliyyə Təminatı*** – birja müştərisinin hesabında açıq kontraktlar üzrə mənfəətin və itkinin, bu kontraktlar ləğv edildiyi halda

ödənişlərin nəzərə alınması ilə pul məbləği.

***Maliyyə Tənzimlənməsi*** – konkret olaraq AB-də Avropa Parlamenti və Auditorlar Palatasının şərtləri əsasında şura tərəfindən qəbul edilir və bu tənzimləmə Avropa birliklərinin ümumi yaradılması ə həya keçirilməsi və həyatını Avropa birliklərinin ümumi büdcəsinin yaradılması və həyata keçirilməsini təmin edir.

***Maliyyə Təşkilatı*** – ölkənin maliyyə sisteminə daxil olan, maliyyə resursları ilə əməliyyatları həyata keçirən, maliyyə əlaqələrini və münasibətləri tənzimləyən idarə və təşkilatlardır.

***Maliyyə Uçotu*** – bilavasitə təsərrüfat subyektinə, o cümlədən müəssisəyə, təşkilata aidiyyəti olmayan şəxslər (kreditorlar, səhmdarlar, müştərilər, müxbir banklar, dövlət orqanları və s.) tərəfindən həmin təsərrüfat subyektinə məxsus mühasibat uçotu məlumatlarının yığılması, əldə olunması.

***Maliyyə Vasitəçiliyi*** – biznes və dövlət təşkilatları kimi kapital istifadəçilərini və pensiya fondları və şəxsi investorları kimi kapital tədarükçülərini əlaqələndirən vasitəçilik fəaliyyəti.

***Maliyyə Vekseli*** – bir bank, yaxud kredit təşkilatının digərinə ondan cəlb etdiyi borc vəsaitinə görə təqdim etdiyi veksel, borc sənəd.

***Maliyyə Vəziyyəti*** – müəyyən vaxt ərzində təsərrüfat subyektinə məxsus olan və onun bütün kapitalına qarşı qoyulmuş iqtisadi resursların – mövcudluğudur.

***Maliyyə Yoluxması*** – bir ölkədə baş verən maliyyə böhranının bazar iştirakçılarının gözləntiləri üzündən başqa ölkəyə yayılması. Bu gözləntilər bəzən əsassız olub bazar iştirakçılarının məlumat qıtlığından irəli gəlir.

***Maliyyəçi – 1)*** Maliyyə əməliyyatlarını həyata keçirən şəxs; ***2)*** Maliyyə əməliyyatları üzrə mütəxəssis.

***Maliyyələşdirilən İcarə*** – icarəyə verənin əmlaka görə aldığı icarə haqqının, müqavilənin bağlandığı andakı cari qiymətlərdən çox və ya ona bərabər götürüldüyü əsas vəsaitlərin icarəsi növüdür.

***Maliyyələşdirilmiş borc*** – ümumi mənada uzunmüddətli borca konvertasiya olunan qısamüddətli borcdur.

***Maliyyələşmə*** – ölkənin bütün təsərrüfatının, regionların, müəssisələrin, sahibkarların, vətəndaşların, eləcə də müxtəlif iqtisadi proqramların və iqtisadi fəaliyyət növlərinin lazımi, zəruri maliyyə resursları ilə təmin edilməsi.

***Maliyyələşmə Mənbələri*** – maliyyə resurslarının daxil olmasının mövcud və gözlənilən mənbələri, bu cür resursları təqdim edə bilən iqtisadi subyektlərin siyahısı.

***Mallar*** – alizasiya edilə bilən, yaxud realizasiya üçün hazırlanan istənilən daşınar və daşınmaz əmlaklardır.

***Malların Assortimenti*** – malların növ, model, ölçü və digər əlamətlərinə görə nisbətidir.

***Malların Çeşidinin Dərinliyi*** – çeşid qrupu çərçivəsində hər bir malın təklifi variantları.

***Malların Gömrük Ərazisindən Çıxarılması*** – gömrük bəyannaməsini verməklə və ya nəqliyyat vasitələrini ölkənin gömrük ərazisindən çıxarmaqdır.

***Malların Gömrük Ərazisinə Gətirilməsi*** – malların gömrük sərhədini faktiki keçməklə ölkə ərazisinə gətirilməsinə səbəb olan hərəkətdir.

***Malların Haqqının Qabaqcadan Ödənilməsi*** – alıcının malı satıcıdan almazdan əvvəl tam və ya qismən ödəmək öhdəliyidir.

***Malların Qaytarılması və Ucuzlaşdırılması*** – qüsurlu malların istehsalçıya və ya satıcıya pulunu nağd almaq və ya qiymətini ucuzlaşdırmaqla bağlı malların qaytarılması əməliyyatıdır.

***Malların Möhlətlə Ödənilməsi*** – malların satış müqaviləsində malın möhlətlə ödənilməsini nəzərdə tutan haldır.

***Malların Nisyə Ödənilməsi*** – müəyyən vaxtdan sonra alıcının aldığı malın haqqını ödəməsidir.

***Malların Realizasiyası*** – mala mülkiyyət hüququnun, görülən işlərin və ya göstərilən xidmətlərin əvəzli və ya əvəzsiz verilməsidir.

***Malsız Hesablaşma sənədləşmə*** – faktiki olaraq tam və ya qismən yüklənməmiş mallara və ya göstərilməmiş xidmətlərə görə, mal göndərən və ya ödənişçi tərəfindən yazılmış və material dəyərlərinin ödənilməsi üçün banka təqdim olunmuş akkreditiv

formada hesablaşmalardakı hesabların reyestri, çek, ödəniş sərəncamı və ödəniş tələbnamələridir.

***Malsız Veksel*** – mətnində valyutanın malla deyil, nağd pulla və digər hansısa yolla alındığının göstərildiyi vekseldir.

***Maltusçuluq*** – XVIII əsrin sonunda ingilis iqtisadçısı T.R.Maltus tərəfindən inkişaf etdirilmiş nəzəriyyədir. Bu nəzəriyyəyə görə əhalinin iqtisadi rifahı istehsalın inkişaf səviyyəsi ilə deyil, daha çox "əhalinin təbii artım qanunu" ilə müəyyən edilir.

***Manat – 1)*** AR-in milli pul vahidi (AZN, 1993-cü ildən). 1 AZN. = 100 qəpik; ***2)*** Türkmənistan Respublikasının milli pul vahidi (TUM, 1993-cü ildən). 1 TUM = 100 tenqe.

***Manatın Çarpaz Məzənnəsi*** – manatın xarici valyutalara nisbətən məzənnəsi həmin valyutaların və manatın ABŞ dollarına nisbətən məzənnələri əsasında müəyyənləşdirilir.

***Manipulyasiya – 1)*** Qanunsuz əməliyyat, maxinasiya, qanunsuz maliyyə əməliyyatı; ***2)*** Digər fond alətlərinin tədavülünə ziyan vurmaq məqsədi ilə qiymətli kağızların qanunsuz alqı-satqısı.

***Manipulyasiya Edilmiş İstehlakçı*** – istehlak mallarının reklam vasitəsilə istehlak davranış tipi zorla boynuna qoyulan istehlakçı.

***Manko*** – kassada pulun həqiqi məbləğdən əskik olması.

***Manufaktura*** – Qərbi Avropada XVI – XVIII əsrlərdə hökmranlıq edən manufaktura müəssisəsi; əməyin bölgüsü və onun kooperasiyası ilə xarakterizə edilən, lakin əl əməyinin üstünlüyü, sənətkarlıqda istifadə olunan texnikanın aşağı səviyyəsinin saxlanması ilə səciyyələnən istehsal üsulu və müəssisə tipi.

***Maraq Konflikti*** – maraq konflikti şəxsin formal məsuliyyəti ilə kütləyə xidmət etmək üçün onun professional mühakiməsini, obyektivliyini və müstəqilliyini təhlükə altına qoyan ictimai fəaliyyətdə iştirak edəndə əmələ gəlir.

***Maraq Sifarişi*** – investorlar tərəfindən yeni təklif olunan qiymətli kağızlar üçün verilən sifariş.

***Maratorium*** – icranın müvəqqəti dayandırılmasıdır.

***Marja – 1)*** Qiymətli kağızların, əmtəə və xidmətlərin və s.-nin qiymətləri, məzənnələri, yaxud faiz dərəcələri arasındakı fərq; ***2)*** İqtisadi subyektin cəlb etdiyi və yerləşdirdiyi kredit vəsaitlərinin

faiz dərəcələri arasındakı fərq.

***Marja Çağırışı*** – klirinq evi və ya broker tərəfindən, marja hesabı minimal tələbdən daha aşağı düşən əks – tərəfdən (məsələn, müştəri) əlavə vəsait tələbi.

***Marja Hesabı*** – müştərinin broker şirkətində olan və ona maliyyə alətlərini kreditə almaq imkanını verən hesab; bu zaman hesaba yalnız marja (müəyyən məbləğdə pul vəsaiti) daxil edilir.

***Marjin Ticarət*** – digər qiymətli kağızları girov qoymaqla brokerdən alınan borc hesabına qiymətli kağızları almaq.

***Marka – 1)*** Qədim Almaniyada tədavülə buraxılan qızıl monet və pul-hesablaşma vahidi; ***2)*** 2002-ci ilə qədər Almaniyanın milli pul vahidi, DEM; ***3)*** 2002-ci ilə qədər Finlandiyanın milli pul vahidi, FİM.

***Market – Meyker*** – ticarətə buraxılmış qiymətli kağızların likvidliyinin artırılması öhdəliklərini üzərinə götürmüş dilerdir.

***Marketinq*** – istehsal etdikləri malların satışını genişləndirmək məqsədi ilə bazarı öyrənmək və istehlak tələbinə aktiv təsir etmək üçün şirkətlər tərəfindən həyata keçirilən tədbirlər sistemidir.

***Marketinq Kanalı*** – əmtəənin istehsalçıdan hər birisi müstəqil ticarət vahidi olan topdansatış ticarətçilərə, sonra da pərakəndəsatış ticarətçilərə qədər hərəkəti.

***Marketinq Kompleksi*** – öz məqsədlərinə çatmaqdan ötrü firmanın istifadə etdiyi, nəzarət edilən marketinq amillər toplusu.

***Marketinq Məsrəfləri*** – istehsalçının, distributorun məhsulun satışına və satışın həvəsləndirilməsinə etdiyi xərclər.

***Marketinq Strategiyası*** – əmtəələrinin bazara inadkarcasına yayılması üzrə şirkətin gördüyü marketinq tədbirləri.

***Marketinq Taktikası*** – şirkətin hər bazar və hər əmtəə üzrə müəyyən dövr üçün məqsədlərinin işlənib hazırlanması və həyata keçirilməsi.

***Marşall-Lerner Şərti*** – əgər ixrac və idxalın elastiklik əmsallarının cəmi vahiddən böyükdürsə, onda valyuta bazarı sabitdir.

***Marşall Planı*** – II Dünya müharibəsindən sonra Avropa ölkələrinin bərpasına Amerikanın kömək proqramının adıdır. C.S.Marşall ABŞ-ın dövlət katibi olub (1948-1951).

***Maşın və Avadanlıqlar*** – güc maşınları və avadanlıqları, iş maşınları və avadanlıqları, ölçü cihazları, tənzimləyici cihaz və qurğular, laboratoriya avadanlıqları, hesablama maşınları, tibbi avadanlıqlar, digər maşın və avadanlıqların daxil olduğu əsas vəsaitlərin bir növüdür.

***Material Aktivləri*** – fiziki cəhətdən natural formaya malik olan dövriyyədən kənar aktivlərdir.

***Material Dəyərləri*** – təsərrüfat subyektinin material ehtiyatları, torpaq sahələri, bina və avadanlıqları şəklində olan aktivlərdir.

***Material Ehtiyatları*** – istehsal mərhələsində istifadə olunan material dəyərlərinin ehtiyatıdır.

***Material Ehtiyatlarının Dönərlilik Əmsalı*** – material ehtiyatlarının nisbi ölçülərini göstərən əmsaldır. Dönərlilik əmsalı aşağıdakı formula ilə hesablanır:

$$D = M/E$$

Burada – ***D*** – material ehtiyatlarının dönərlilik əmsalı; ***M*** – satılmış malların maya dəyəri; ***E*** – orta illik material ehtiyatları.

***Material Qrupu*** – mühasibat struktur bölməsi olub, alınmış material dəyərlərinin uçotunu, mal göndərənlərlə, hesablaşmaların uçotunu, materialların saxlanıldığı yerlərdə onların qəbulu və ixracının uçotunu aparır.

***Material Tutumu*** – buraxılan məhsulun dəyərinin həmin ölkənin valyutasının bir vahidinə, yaxud natural vahidə hesablanmış materialların sərfi.

***Mavi Kristal*** – gəlirliyi və divident ödənişləri yüksək olan etibarlı şirkətlərin səhmləri.

***Maya Dəyəri*** – identifikasiya (eyniləşdirmə) nöqteyi nəzərindən təsərrüfat əməliyyatlarının qiymətidir.

***Maya Dəyəri İndeksi*** – məhsul vahidinin maya dəyərinin dəyişməsi istiqaməti və sürətinin nisbi formada ifadə edilmiş orta qiymətləndirilməsi.

***Mayorat – 1)*** Mirasın nəsildə ən yaşlı kişi nümayəndəsinə və ya ölənin ən böyük oğluna qalmasından ibarət vərəsəlik sistemidir; ***2)*** Bu qayda üzrə vərəsəyə çatan mirasdır.

***Mehmanxanada Qoruma*** – rəsmi şəkildə mehmanxana işçilərinə

təhvil verilmiş mallara görə, mehmanxananın malları qorumaq haqqında götürdüyü öhdəlik müqaviləsidir.
***Mexanizm*** – hər hansı məqsəd əsasında fəaliyyət göstərən, müəyyən nizama malik sistem, proses və ya prosesin avamlığı.
***Meqamarketinq*** – transmilli korporasiyaların bu və ya digər ölkənin bazarını ələ almaq üçün hazırladığı tədbirlər kompleksidir.
***Memarandum*** – sığorta polislərinə köçürmələrdir.
***Memorial*** – müəssisənin həyata keçirdiyi ticarət əməliyyatlarının gündəlik qeydiyyatı aparıldığı mühasibat uçotu kitabı, mühasibatlıq sənədi.
***Memorial Order*** – iqtisadiyyatın müxtəlif sahələri üzrə müəssisə və təşkilatlarda mühasibat uçotunun ən çox yayılmış formalarından biri.
***Mena (Mübadilə Sazişi)*** – qiymət müqaviləsinə uyğun olaraq həyata keçirilən, tərəflərinin birinin digərinin mülkiyyətinə bir əmlak verməklə, əvəzində ondan başqasını almaq öhdəliyidir.
***Menecer*** – müəssisənin, bankın, maliyyə təşkilatının, onların struktur bölmələrinin idarə edilməsi olub, icra hakimiyyətini bölüşən şəxsdir.
***Menecment*** – idarəetmə, ictimai münasibətlər sferasının istənilən sahəsində həyata keçirilən idarəetmə prosesi.
***Merçandayzinq*** – marketinqin tərkib hissəsi olub, malın pərakəndə ticarət səviyyəsində intensiv irəliləmə təminatına yönəldilmiş fəaliyyətdir.
***Merkantilizm*** – XVII – XVIII-ci əsrlərin nəzəri konsepsiyası olub, idxala məhdudiyyət qoymağı və ixracı stimullaşdırmağı ölkənin sərvətlərinin artırılması yolu kimi baxanların nəzəriyyəsidir.
***Meşə Təsərrüfatı*** – kənd təsərrüfatına yaxınlaşan, meşələrin təmizlənməsi və qorunması, meşəsalma, qoruq zonalarının yaradılması və saxlanılması ilə əlaqədar olan sahədir.
***Meta*** – iqtisadi subyektlərin birgə, ortaq fəaliyyəti zamanı son nəticədə mənfəətin bərabər, tən yarıdan bölünməsini nəzərdə tutan razılaşma, müqavilə.
***Metal Pullarla (Qızıl və Gümüş Sikkə və Külçə Formasında) İnvestisiya*** – adətən qiymətli metal külçələr, külçə sertifikatları və

külçə sikkələri (xüsusilə qızılın və gümüş) formasında qoyulan investisiyalar.
***Metodika*** – metodun konkretləşdirilməsi, onun təlimat, alqoritm, mövcud olan üsulunun dəqiq təsvir səviyyəsinə çatdırılması.
***Metodologiya*** – metodların qurulma prinsipləri, onların elmi ümumiləşdirilməsi, məsələn, idarəetmə metodologiyası, uçot metodologiyası, planlaşdırma metodologiyası.
***Metyuriti*** – borcun son ödəniş tarixi, o cümlədən istiqrazın qaytarılma günü, tarixi.
***Meydança Brokeri*** – birja üzvü olan şirkətin müştərilərinin sifarişlərini birjada icra edən broker.
***Məcburi Dövlət Sığortası*** – dövlətin və vətəndaşların sosial maraqlarının təmin edilməsi üçün həyata keçirilən sığortadır.
***Məcburi Ehtiyat*** – qanunvericilik əsasında normativ sənədlərlə, qaydalarla müəyyən edilmiş vəsaitlərin resursların ehtiyata alınması, ayrılması.
***Məcburi Ehtiyat Norması*** – kommersiya bankları və digər kredit təşkilatlarının ölkənin mərkəzi bankında, təsbit normalar əsasında məcburi qaydada yerləşdirdikləri vəsaitlər.
***Məcburi Konversiya*** – şəraitə görə məcbur edilmiş şirkətin arzusu ilə baş verən konversiya. Məcburi konversiya o anda baş verə bilər ki, investor üçün istiqraz vərəqələrini saxlamaq daha əlverişlidir.
***Məcburi Məzənnə*** – valyuta məhdudiyyətləri tətbiq edən dövlətin təyin etdiyi rəsmi valyuta mübadiləsi məzənnəsi.
***Məcburi Razılaşdırma*** – idarəetmə qərarlarının, fərmanların, əmrlərin, təlimatların yalnız müzakirə edildikdən və müvəkkil və maraqlı şəxslərin razılığı alındıqdan sonra qəbul edilməsi.
***Məcburi Sığorta*** – sığorta edilən şəxsin sifarişləri və istəkləri xaricində keçirilən sığorta növləri, qanunun gücü əsasında yaranan sığorta münasibətləri.
***Mədaxil*** – malların və xidmətlərin satışından müəssisənin, firmanın, sahibkarın aldığı pul vəsaitləri, satışdan olan mədaxil.
***Mədaxil Əmsalı*** – pul daxilolması ilə dəyişən xərclər arasındakı fərqin pul daxil olmasına nisbəti.
***Mədaxil Kassa Orderi*** – müəssisə kassasına nağd pul vəsaitinin

daxil olmasını təsdiq edən mühasibat sənədidir.
***Mədaxil Kassası*** – bankın əhalidən və təşkilatlardan nağd pul ilə ödəmələr qəbul edən kassası.
***Mədən Vergisi*** – ölkə ərazisində faydalı qazıntıların çıxarılmasına tətbiq edilən vergi.
***Mədən Vergisi Üzrə Vergitutma Obyekti*** – AR Vergi Məcəlləsinə görə mədən vergisi üzrə vergitutma obyekti aşağıdakı kimi müəyyən olunmuşdur: "AR ərazisində yerin təkindən çıxarılan qazıntılar vergitutma obyektidir.
***Məhdud Dönərli Valyuta*** – yalnız bir, yaxud bir neçə xarici ölkənin valyutası ilə mübadilə edilən valyuta.
***Məhdud Məsuliyyət*** – ***1)*** Firma məsuliyyətinin məhdudlaşdırılması; ***2)*** Sığorta ödəmələrinin əmlak və həyat sığortası şərtləri ilə nəzərdə tutulmuş məhdudlaşdırılması.
***Məhdud Məsuliyyətli Cəmiyyət*** – bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət.
***Məhdud Səmərəlilik*** – tələb olunan vaxtın, informasiyanın olmaması, həmçinin resurs təminatının kifayət etməməsi ilə əlaqədar ən səmərəli qərarların qəbul edilməsinin çətinləşdiyi şəraitdə təsərrüfat subyektlərinin məqsədyönlü fəaliyyəti.
***Məhdud Sifariş*** – müştəri tərəfindən brokerə verilən sifariş növüdür. Bu sifarişlə broker ancaq göstərilən sayda və göstərilən qiymətdə qiymətli kağızı ala və sata bilər.
***Məhdud Tapşırıq*** – müştərinin brokerə qiymətin dəyişməsi hədləri, yaxud tapşırığın icrası vaxtı ilə məhdudlaşdırılmış tapşırığı.
***Məhdudedici Fiskal Siyasət*** – əmtəə və xidmət, o cümlədən idxal xətti ilə tədarükünə dövlət xərclərinin azaldılması, eyni zamanda da vergi dərəcələrinin və gömrük tariflərinin qaldırılması vasitəsilə əhalinin məcmu tələbinin məhdudlaşdırılması siyasəti.
***Məhdudiyyətlər*** – iqtisadi subyektlərin fəaliyyətinin aşa bilmədiyi, qanunlardan və b. normativ aktlardan, dövlət orqanlarının qərarlarından irəli gələn hədlər.
***Məhdudlaşdırılmış Qiymətli Kağızlar*** – qiymətli kağızlar və

birjalar üzrə tənzimləyici qurum tərəfindən sərbəst alqı-satqısı məhdudlaşdırılmış qiymətli kağızlar.

***Məhkəmə Mühasibat Ekspertizası*** – cinayət, mülki və ya digər işlər üzrə sübut mənbələri olmaq məqsədi ilə ekspert mühasibat biliklərinin tətbiq olunmasının prosesual hüquqi formasıdır.

***Məhkəmə Sekvestri*** – iki və ya daha çox şəxs arasında əşyaya sahiblik hüququ üstündə mübahisə yaranmışdırsa, onda mübahisəli əmlak üçüncü şəxsə verilir ki, mübahisələr məhkəmə və ya razılaşma yolu ilə həll olunduqdan sonra, üçüncü şəxsin əmlakı qaytarmaq öhdəliyini üzərinə götürdüyü qoruma müqaviləsidir.

***Məhsul – 1)*** Miqdarı ədədlərdə, yaxud nüsxələrdə hesablana bilən sənaye istehsalı vahidi; ***2)*** Əşya, yaxud informasiya formasında, çox vaxt predmet şəklində çıxış edən, natural və pul formasında ölçülən istehsal hasilatı.

***Məhsul İstehsalçısı*** – satış üçün nəzərdə tutulmuş məhsulu istehsal edən şəxs.

***Məhsul Keyfiyyətinin İdarə Edilməsi*** – layihə – konstruktor, kontrakt və digər tələblərə cavab verən keyfiyyət səviyyəsinə nail olmaq üçün istifadə edilən üsullar və fəaliyyət.

***Məhsul Vahidinin Marjinal Dəyəri*** – məhsul vahidinin aşağıdakı komponentlərdən ibarət olan dəyəridir: ***a)*** materialların birbaşa xərclərindən; ***b)*** birbaşa əmək məsrəflərindən; ***c)*** dəyişən qaimə məsrəflərindən.

***Məhsul və Xidmətlər Hesabı*** – xüsusi toplu cədvəldən ibarətdir. Digər hesablar kimi, bu hesab da iki hissədən ibarətdir: “ehtiyatlar” hissəsində buraxılış, məhsul və xidmətlərin idxalı, məhsula və idxala vergilər və məhsula subsidiyalar göstərilir; “istifadə” hissəsində – istehlakda məhsul və xidmətlərin istifadəsinin həcmi (aralıq və son), əsas və dövriyyə kapitalının yığımı və ixrac göstərilir.

***Məhsuldar Qüvvələr*** – istehsalda məşğul olan istehsal vasitələrinin və insanların toplusu.

***Məhsuldarlıq*** – istifadə edilən resursların, istehsal amillərinin vahidi hesabı ilə məhsul istehsalını səciyyələndirən istehsal səmərəliliyi göstəricisi.

***Məhsulların Komplektliyi*** – birləşdiriciləri, detalları, aqreqatları ilə birlikdə hazır məhsuldur.

***Məhsulların Realizasiyasından Mədaxil*** – satılmış mallara görə alınan ödənişlər (nağdsız ödənişdə – müəssisənin bankdakı hesabına, nağd ödənişdə isə kassaya daxil olduqda) və yüklənmiş mallara (görülmüş iş və xidmətlərə) görə alıcıya verilən hesablaşma sənədləridir.

***Məhsulların və Malların Realizasiyasından İtkilər*** – məhsulların qüvvədə olan qiymətlərlə realizasiyasından, əlavə dəyər vergisi və aksizlər çıxılmadan, əldə olunan mədaxillə, həmin məhsulların istehsalı və realizasiyasına çəkilən xərclər arasındakı fərqdir.

***Məhsulun Attestasiyası, Sertifikasiyası*** – məhsulun, əmtəənin keyfiyyətinin müəyyənləşdirilməsi və sənədli şəkildə təsdiq edilməsi.

***Məhsulun Keyfiyyətinin Yoxlanılmasının Orqanoleptik Üsulu*** – bir sıra qida məhsullarının keyfiyyətinin laboratoriya sınağı keçirilmədən ekspertlərin hissiyyat orqanlarının köməkliyi ilə yoxlanılmasıdır.

***Məhsulun Rentabelliyi*** – məhsul satışından olan mənfəətin onun tam istehsal və tədavül məsrəflərinə nisbəti.

***Məhsulun Texnolojiliyi*** – məhsul istehsalının məlum mənimsənilmiş texnoloji proseslərə və avadanlığa uyğunlaşdırılması.

***Məhvetmə*** – xarici malların gömrük rüsumları və vergilər alınmadan, həmçinin mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında yararlı hala gətirilməsi də daxil olmaqla səhv edilməsindən ibarət gömrük rejimidir (AR Gömrük Məcəlləsi, 101-ci maddə).

***Məxaric Cədvəli*** – maliyyə orqanının nazirlik və təşkilatlara büdcə kreditlərinin açılması barəsində maliyyələşdirən banka verdiyi sərəncam, pul sənədi.

***Məxaric Kassa Orderi*** – müəssisə kassasından nağd pul verilməsini təsdiqləyən mühasibat sənədidir.

***Məxariclər*** – təsərrüfat vahidinin daimi və əsas istiqamətlərini təşkil edən, malların istehsalı və ya göndərilməsi, xidmətin göstərilməsi və ya digər fəaliyyət növlərinin həyata keçirilməsi ilə

əlaqədar aktivlərin azalması və ya borcların (passivlərin) yaranmasıdır.

***Məxfilik Qrifi*** – məlumat daşıyıcısının özündə və ya ona qoşulan sənədlərdə qoyulan, daşıyıcısı olduğu məlumatın məxfilik dərəcəsini göstərən rekvizitlərdir.

***Məişət Podratı*** – sahibkarlıq fəaliyyətini həyata keçirən podratçının, vətəndaşın (sifarişçinin) tapşırığı üzrə müəyyən öhdəlikləri yerinə yetirəcəyi haqda bağladığı podrat müqaviləsinin rəsmiləşdirilməsidir.

***Məqsədli Bazarlar*** – şirkətin, firmanın özünün fəal tədbirlər üçün seçdiyi əsas səylərini cəmləşdirdiyi bazar seqmentləri.

***Məqsədli Borc*** – alınmış vəsaitin ancaq müəyyən edilmiş məqsədlərə xərcləməsi şərti ilə borclu ilə bağlanmış borc müqaviləsi növüdür.

***Məqsədli Büdcə Fondları*** – müxtəlif səviyyəli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaitidir.

***Məqsədli Əmanətlər*** – əhalinin banklarda olan pul əmanətləridir, bir qayda olaraq yüksəkgəlirli və uzunmüddətli olurlar.

***Məqsədli Kredit*** – qiymətli kağızla təmin olunmuş və qiymətli kağız almaq məqsədini daşıyan kredit.

***Məqsədli Qiymətqoyma*** – qiymətlərin müəyyən edilməsinin metodudur, qiymətlər elə qoyulur ki, qoyulmuş kapitala nəzərən istənilən qədər, yaxud mümkün qədər çox gəlir əldə etmək mümkün olsun.

***Məqsədli Maliyyələşmə*** – müəyyən məqsədə nail olmaq, sosial – iqtisadi problemi həll etmək, müəyyən obyektin yaradılması üçün maliyyə ehtiyatlarının, pul vəsaitlərinin məqsədli təyinatla ayrılması.

***Məqsədli Marketinq*** – marketinq fəaliyyətinin formasıdır. Onun gedişində satıcı bazarın seqmentlərini ayırır, onların arasından bir, yaxud bir neçə seqmenti seçir və bazarın hər seqmenti üçün məqsədyönlü, daha effektiv əmtəə mövqelərinin seçilməsini nəzərə almaqla, onların hərəsi üçün ayrıca marketinq üsullarını işləyir.

***Məqsədli Mükafat*** – müəyyən olunmuş vaxt dövründə müəyyən

müvəffəqiyyətlərə, nailiyyətlərə görə verilən mükafatdır.
***Məqsədli Ödəmələr*** – pul vəsaitlərinin cəlb olunması vasitəsilə, maliyyə təminatında ehtiyacı olan tədbirlərin keçirilməsini təmin etmək üçün pul vəsaitlərinin daxil edilməsi, yığılması.
***Məqsədli Vergilər*** – vergilər qaldırılır və spesifik xərc proqramlarına ayrılır. Bu, tez-tez əlavə büdcə fondları vasitəsilə həyata keçirilir.
***Məlumat Ehtiyatları*** – insanların praktiki fəaliyyətində və elmin inkişafı prosesində alınan və toplanılan biliklər, məlumatlar, rəqəmlərdir.
***Məlumatların İşlənməsi*** – məlumatların toplanması, onların rahat formada işlənib istifadəçiyə verilməsi prosesidir.
***Məlumatverici Reklam*** – bu istehlakçılarda yeni əmtəəyə qarşı ilkin tələbatı yaratmaq vəzifəsini yerinə yetirmək üçün istifadə olunan reklamdır və əsasən əmtəənin bazara çıxarılması mərhələsində üstün istifadə olunur.
***Məmulatın Uzunömürlülüyü*** – müəyyən istismar şəraitində məmulatın uzun müddət öz işləmək qabiliyyətini saxlaması nəzərdə tutulur.
***Mənfəət*** – müəssisənin bütün hesabları üzrə xərclərin ödənilməsindən sonra yerdə qalan məbləğ.
***Mənfəət Marjası*** – xalis mənfəətin satış və ya kapitala nisbəti.
***Mənfəət Nefti*** – hasilatın pay bölgüsü sazişlərinə görə mənfəət nefti – yataqların hasilat və kəşfiyyat işlərinə çəkilən xərclər çıxıldıqdan sonra mənfəəti konsorsium – kompaniya ilə mülkiyyətçi – hökumət arasında bölünən neftdir.
***Mənfəət Norması*** – illik mənfəətin, onun alınması üçün avans edilmiş kapitala və ya onun alınması üçün çəkilən xərclərə nisbətidir.
***Mənfəət və Zərər Haqqında Hesabat*** – şirkətin müəyyən dövrə aid gəlirləri və xərcləri haqqında hesabat.
***Mənfəət Vergisi*** – vergi ödəyicisinin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərc arasındakı fərq onun mənfəətidir. Mənfəətdən ödənilən vergiyə mənfəət vergisi deyilir.
***Mənfəət və Zərər Hesabı*** – müəssisənin balans şəklində maliyyə

hesabatı. Burada debet üzrə firmanın zərərləri, kredit üzrə isə firmanın mənfəəti göstərilir.
***Mənfəətdən Ayırmalar*** – mənfəətdən edilən və büdcəyə daxil olan ayırma növü.
***Mənfəətin Bölgüsü*** – müəssisənin, şirkətin, səhmdar cəmiyyətinin xalis mənfəətinin dividentlərə, menecerlərə, işçilərə ödənilən mükafat, sosial təyinatlı xərclər, kapital qoyuluşu, ehtiyatlar şəklində hissələrə bölüşdürülməsi.
***Mənfəətin Maksimallaşması*** – firmanın zərərin minimal olması ilə səciyyələnən istehsal həcmi şəraitində iqtisadi mənfəət əldə etməsi.
***Mənfəətin Reallaşdırılması*** – mövcud mövqenin bağlanması vasitəsilə mənfəətin reallaşdırılması.
***Mənfəətlilik*** – investisiya kapitalını saxlamaq və cəlb etmək üçün lazım olan mənfəəti qazanmaq bacarığıdır.
***Mənfəətlilik Əmsalı ("Mənfəət Faizi")*** – mənfəət kəmiyyətinin realizasiyasının ümumi həcminə olan nisbətidir.
***Mənfi Gəlir Vergisi*** – əhalinin, yaxud ayrı-ayrı sosial qrupların dövlət büdcəsi hesabına aldığı iqtisadi nemətlərin cəmi ilə onların ödədiyi gəlir vergisi məbləği arasındakı sosial fondlardan ödənilən subsidiyaların aylıq vergi ödəmələri məbləğindən çox olması ilə səciyyələnən nisbət.
***Mənfi Kapital*** – müəssisənin borc öhdəliklərinin məbləğinin ona məxsus olan əmlakın dəyərini aşması.
***Mənfi Qudvil*** – Şirkətin satış dəyəri ilə onun xalis aktivlərinin balans dəyəri arasında yaranan mənfi fərq.
***Mənimsəmə*** – mülkiyyət obyektinin, əmlak və mənəvi qiymətlilərin onların sahibi olmaq istəyən şəxs tərəfindən əsl sahibindən qanunsuz əsaslandırılmadan zorla alınması, qəsb edilməsi.
***Mənzil Təsərrüfatı*** – iqtisadiyyatın bir sahəsi, ölkə təsərrüfatının bir hissəsidir. O, mənzil fondunun, yəni cəmi yaşayış yerlərinin və əlavə köməkçi yerlərin lazımi vəziyyətdə saxlanılmasını, fəaliyyətini təmin edir.
***Mənzil – Qərargah*** – təşkilatın, konsernin, şirkətin mərkəzi binasının yerləşdiyi yer.

***Mərkəzi Bank*** – bank sisteminin əsas tənzimləyici bankı və ya son instansiya kreditoru. Digər bankların fəaliyyətini tənzimləyən, onlara kreditlər təqdim edən, onların vəsaitlərini müvəqqəti cəlb edən mərkəzi bank.
***Mərkəzi Bankın Qısamüddətli Notları*** – Mərkəzi Banklar tərəfindən bir ilədək müddətə buraxılan və buraxılmasında əsas məqsəd dövriyyədə olan pul kütləsinin tənzimlənməsi olan adlı sənədsiz dövlət qiymətli kağızlar.
***Mərkəzi Hakimiyyət*** – mərkəzi hakimiyyətin bütün idarə və alətləri büdcə və ya əlavə büdcə fondlarından maliyyələşir.
***Mərkəzləşdirilmiş Diversifikasiya*** – mövcud biznes əsasında texnika və marketinq baxımından firmanın mövcud əmtəələrinə oxşar məmulatların istehsal edilməsidir.
***Mərkəzləşdirilmiş İqtisadiyyat*** – direktiv planlar və proqramlar, aşağı orqanların yuxarıdakılara bilavasitə tabeçiliyi, istehsalat vasitələri üzərində dövlət mülkiyyəti əsasında dövlət orqanları tərəfindən mərkəzləşdirilmiş şəkildə idarə olunan iqtisadiyyat.
***Məsariflər*** – bir hesabat dövründə ancaq gəlir yarada bilən xərclərdir (adətən bir il ərzində).
***"Məsrəflər Üstəgəl" ("Maya Dəyəri üstəgəl") Prinsipi Üzrə Müqavilə*** – icraçıya müqavilə ilə icazə verilən və ya başqa yolla müəyyən edilən məsrəflərin əvəzi ilə yanaşı, həmin məsrəflərin faiz nisbətində olan əlavə məbləğin və ya sabit məbləğli qonorarın ödənilməsini nəzərdə tutan müqavilədir.
***Məsrəflərin və Nəticələrin Təhlili*** – iqtisadi məhsulların əsas növlərinin istehsalı və istehsal həcmləri, həmin məhsulun buraxılış həcmi şəklində nəticələrin qeydə alındığı və yekunlaşdırıldığı balans cədvəllərdən istifadə edilməsi.
***Məsul Saxlanma*** – qorunmasına, onların saxlanılmasının tapşırıldığı şəxsin cavabdeh olduğu qiymətlilərin saxlanılması.
***Məsul Şəxs*** – müəyyən hərəkətlərə, yaxud qiymətlilərə görə cavabdeh olan fiziki və ya hüquqi şəxs.
***Məsuliyyət*** – məsuliyyət hüquq və qanuni tələbi təqdim edənlə bu qanuna əməl etməli olan qurumlar arasındakı əlaqəni göstərir.
***Məsuliyyət Sığortası*** – işə diqqətsiz yanaşma, yaxud işə lazımi

diqqət yetirməmə nəticəsində meydana gələn ziyanın, o cümlədən məhsulun istifadəsi zamanı zədələnmələrin əvəzini ödəyən sığorta növü.

***Məsuliyyətli Saxlama*** – alan şəxsə daxil olmuş mal miqdarı müqavilədə, yaxud əmtəə fakturasında göstərilən miqdar və kəmiyyətə uyğun olmadıqda, alan şəxs tərəfindən malın saxlanmasıdır.

***Məsum İstiqraz*** – bir şirkətin istiqrazlarının birinci buraxılışı.

***Məşğulluq*** – ölkədə vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin qanunvericiliyə zidd olmayan və bir qayda olaraq onlara gəlir gətirən hər hansı bir fəaliyyətidir.

***Məşğulluq Dərəcəsi*** – ölkədə mövcud olan işçi qüvvəsinin ümumi həcmində məşğul olanların sayı.

***Mətçinq* – *1)*** Fond birjasında dilerlər tərəfindən alqı-satqı əməliyyatlarının müntəzəm şəkildə yoxlanılması; ***2)*** İqtisadi fəaliyyətin risklilik səviyyəsinin qiymətləndirilməsi metodlarından biri.

***Məzənnə* – *1)*** Məhsulun, həmçinin qiymətli kağızların alış və ya satış qiyməti; ***2)*** Bir ölkənin milli pul vahidinin başqa ölkənin milli pul vahidi ilə ifadə olunmuş qiyməti.

***Məzənnə Mənfəəti*** – qiymətli kağızın satış məzənnəsi ilə alış məzənnəsi arasındakı fərq.

***Məzənnə Rejimləri*** – ölkədə milli valyutanın xarici valyutaya nəzərən məzənnəsinin müəyyən edilməsi üsulu. Təcrübədə 3 məzənnə rejimi mövcuddur: 1. Üzən (məzənnə valyuta bazarında tələb – təklif əsasında); 2. Üzən – Tənzimlənən (məzənnə tələb – təklif əsasında müəyyən edilsə də, Mərkəzi Bank kəskin tərəddüdlərinin qarşısını almaq üçün aktiv fəaliyyət göstərir); 3. Təsbit edilmiş (valyuta məzənnəsi Mərkəzi bank tərəfindən elan edilir və məzənnənin sabitliyi təmin edilir).

***Məzənnələrin Enməsi* – *1)*** Birjada məzənnələrin qalxmasından sonra aşağı düşməsi; ***2)*** Qiymətli kağızların, valyutanın məzənnəsinin aşağı düşməsi.

***Məzənnələrin Hədəflənməsi Rejimi*** – milli valyutanın məzənnənin tənzimlənməsini nəzərdə tutan pul siyasəti rejiminə məzənnənin

hədəflənməsi deyilir.
***Məzənnələrin Qalxması*** – birjada məzənnənin aşağı düşməsindən sonra qalxması.
***Məzənnələrin Təyin Edilməsi, Təsbiti – 1)*** Beynəlxalq valyuta bazarlarında: müxtəlif valyutaların məzənnələrinin, onların alqı-satqısının səviyyəsinin bazarın dəyişən şərtlərinə uyğunlaşdırılması yolu ilə hər gün müəyyən edilməsi; ***2)*** Qızıl bazarında: bazarın konyunkturuna əsaslanaraq, qızılla əməliyyatları həyata keçirən bir London ticarət evi tərəfindən qızılın qiymətinin hər gün iki dəfə (saat 10.30 dəq. və saat 15.00 –da) qeyd edilməsi; ***3)*** qiymətli kağızlar və üzən faiz dərəcəli kreditlər bazarında "faiz dövrünün" başlanmasından qabaq faizin dərəcəsinin müəyyən edilməsi.
***Məzuniyyət*** – işçiyə onun çalışdığı müəssisə, təşkilat tərəfindən haqqı ödənilməsi şərti ilə işdən azad vaxtın verilməsi.
***Məzuniyyətlərin Ödənməsi Üzrə Xərclər*** – qiymətləndirmə göstəricilərinin növü olub, müəssisənin işçilərinin ödənişli məzuniyyət almaq hüququndan irəli gəlir.
***Mibid*** – Moskva banklararası kredit bazarında iri bank – dilerlər tərəfindən kredit vəsaitlərinin alınması üzrə müəyyən olunan orta faiz dərəcəsi.
***Mibor*** – Moskva banklararası kredit bazarında iri bank – dilerlər tərəfindən kredit vəsaitlərin yerləşdirilməsi üzrə müəyyən olunan orta faiz dərəcəsi.
***Mikroiqtisadi Model*** – lokal iqtisadi obyekt, yaxud proseslərin davranış xüsusiyyətlərini əks etdirən modeldir.
***Mikroiqtisadi Siyasət*** – dövlətin iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə mikroiqtisadi səviyyədə, yəni müəssisələrin rentabelliyinin artırılması, vergi tədiyyələri sisteminin təkmilləşdirilməsi məqsədi ilə həyata keçirdiyi iqtisadi – hüquqi tənzimləmə sistemi.
***Mikroiqtisadiyyat – 1)*** Müəssisə səviyyəsində iqtisadi prosesləri – müəssisə əmlakının idarə edilməsi, şəxsi vəsaitlərin və cəlb olunan vəsaitlərin nisbətinin müəyyənləşdirilməsi, investisiya tələbatının qiymətləndirilməsi və s. istiqamətdə iqtisadi prosesləri təhlil etməyə əsaslanan iqtisadi – tədqiqat metodu; ***2)*** İqtisadi sistemi makro səviyyədə deyil, təsərrüfat subyektləri səviyyəsində öyrənən

iqtisad elminin bir qolu, sahəsi.
***Mikroqərar*** – ayrıca götürülmüş təsərrüfat subyekti tərəfindən qəbul olunan və şəxsən onu maraqlandıran iqtisadi hədlərə aid olan qərar.
***Mikromarketinq*** – müəssisənin marketinq fəaliyyəti, marketinqin istehsalçılar və istehlakçılar arasında əlaqəni təmin edən bir hissəsi.
***Mikromühit*** – firmaya maraq göstərən və onun fəaliyyətinə təsir edə bilən mal göndərənləri, alıcıları, xidmət istehlakçılarını və kontrakt qruplarını da daxil etməklə firma ilə və onun xidmət göstərdiyi müştərilərlə bağlı iqtisadi mühit.
***Miks – Fond*** – investisiya yatırımının bir forması. Bu halda investor tərəfindən iqtisadi dövriyyəyə pul formasında olan investisiya qoyuluşu ilə paralel, eyni zamanda natural formada da yatırım olunur.
***Miqrasiya*** – əhalinin yerdəyişməsi.
***Mill*** – Kiprdə tədavüldə olan xırda monet. 1 mill = 1/100 CYR (Kipr funtu).
***Millem*** – ***1)*** Misirdə tədavüldə olan xırda monet. 1 millem = 1/1000 EGP (Misir funtu); ***2)*** Sudanda tədavüldə olan xırda monet. 1 millem = 1/1000 SDD (Sudan dinarı).
***Milli Bank*** – AR Mərkəzi Bankı. Onun statusu, əsas funksiyaları və vəzifələri, səlahiyyətləri, təşkili və fəaliyyət prinsipləri AR-in Konstitusiyası, “ AR Milli Bankı haqqında” AR-in qanunu və digər qanunvericilik aktları ilə müəyyən edilmişdir.
***Milli Bank Tərəfindən Tədavülə Pul Buraxılışı və Tədavüldən Pul Çıxarılışı*** – mərkəzi (milli) bankların kassa tədavülləri əsasında məxariclə mədaxil arasındakı fərq kimi hesablanır.
***Milli Gəlir*** – il ərzində ölkə iqtisadiyyatının maddi istehsal sahələrində yeni yaradılmış dəyər. Milli xalis milli məhsul ilə dolayı vergilərin və qeyri-vergi ödəmələrinin, o cümlədən gömrük vergisi və gömrük rüsumlarının fərqi kimi hesablanır.
***Milli Hesablar*** – milli gəlirin mənbəyini təşkil edən hesablar.
***Milli Hesablar Sistemi*** – ümumi daxili məhsulun, ümumi milli məhsulun istehsalı, bölüşdürülməsi və istifadəsi, həmçinin milli gəlirin mühasibat hesabları formasında tərtib edilmiş makroiqtisadi

uçot sistemi. AR-ında Milli Hesablar Sistemi 1993-cü il Milli Hesablar Sistemi Konsepsiyası əsasında həyata keçirilir.
***Milli Məhsul*** – il ərzində ölkənin xalq təsərrüfatında istehsal olunan məhsulların, işlərin və xidmətlərin həcminin pul ifadəsində dəyəri.
***Milli Mühasibat Uçotu Standartları*** – müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən mühasibat uçotu standartlarıdır.
***Milli Pul Sistemi*** – ölkədə pul vəsaitinin dövriyyəyə buraxılması və tədavülünün idarə edilməsinin tarixən formalaşmış və müasir iqtisadi sistemə uyğunlaşmış hüquqi normalar əsasında təşəkkül tapan forma və vasitələri sistemi.
***Milli Sərgilər*** – bir ölkə daxilində öz elmi – texniki yeniliklərini, əmtəələri və xidmətlərini nümayiş etdirdikləri sərgilərdir.
***Milli Sərvət*** – hazırda cəmiyyətin sərəncamında olan yığılmış maddi nemətlər məcmusunu ifadə edir.
***Milli Valyuta*** – mərkəzi hökumət tərəfindən ölkə ərazisində tədavülə buraxılan valyuta.
***Milli Valyuta Sistemi*** – ölkənin xarici iqtisadi əlaqələrini təmin etmək üçün nəzərdə tutulan iqtisadi və pul – kredit münasibətlərinin məcmusudur.
***Milli Valyutada Qiymətli Kağızlar*** – ölkənin milli valyutasında ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.) fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləridir.
***Milliləşdirmə*** – hüquqi və fiziki şəxslərin əmlakının dövlət mülkiyyətinə çevrilməsidir. Əmlakın milliləşdirilməsi ancaq qanunvericilik əsasında həyata keçirilə bilər.
***Millim*** – Tunisdə tədavüldə olan xırda monet. 1 millim = 1/1000 TND (Tunis dinarı).
***Milreys*** – ***1)*** XX əsrin əvvəllərinə qədər Portuqaliyada tədavüldə olan milli pul vahidi və monet; ***2)*** XX əsrin ortalarına qədər Braziliyada tədavüldə olan milli pul vahidi və monet.
***Minimal İlkin Alış*** – minimal alış yeni hesab yaratmaq üçün fondun qəbul etdiyi ən kiçik investisiya miqdarını göstərir.
***Minimal Mənfəət*** – firmanın saxlanması, onun fəaliyyətinin

davam etdirilməsi, onun iflasının qarşısının alınması üçün zəruri olan mənfəətin ən kiçik həddi.
***Minimum Əmək Haqqı*** – qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativ.
***Minimum İstehlak Səbəti*** – insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusu.
***Minimum Qiymət Dəyişikliyi*** – müqavilənin və ya qiymətli kağızın qiymətində mümkün olan ən kiçik dəyişiklik.
***Minimum Lizinq Ödəməsi*** – lizinq alanın icarə müqaviləsinin qüvvədə olduğu müddətdə ödəyəcəyi məbləğdir.
***Minorat*** – mirasın nəsildə ən kiçik yaşlı kişi nümayəndəsinə və ya ölənin ən kiçik oğluna qalmasından ibarət vərəsəlik sistemidir.
***Minoritar Səhm Paketi*** – şirkətin səhmlərinin nəzarət paketinə nisbətdə çox az hissəsinə sahib olmaq.
***Miras*** – vərəsələr keçən əmlak və pul vəsaitləridir.
***Model Qanun*** – müəyyən sahədəki ictimai münasibətlərin bu və ya digər məsələlərinin hüquqi həllinin bütün variantlarını, normativ təkliflərini əks etdirən ümumi xarakterli qanunvericilik aktıdır.
***Modelləşdirmə*** – iqtisadi obyektlərin və proseslərin məhdud, kiçik, eksperimental formalarda, süni yaradılmış şəraitdə əks etdirilməsi.
***Modernləşmə*** – obyektin təkmilləşdirilməsi, yaxşılaşdırılması, yeniləşdirilməsi, onun yeni tələblər və normalara, texniki şərtlərə, keyfiyyət göstəricilərinə uyğunlaşdırılması.
***Modifikasiya*** – mütərəqqi dəyişikliklərin edilməsi, istehsal edilən məhsulun istehsal texnologiyasının yenidən qurulması, yaxşılaşdırılmış variantın, yeni modelin yaradılması, məmulatın, maşının şəkli dəyişmiş modeli.
***Modus Vivendi*** – maraqlı tərəflərin hər hansı bir məsələ üzrə onun gələcəkdə tam nizamlanması ümidilə yaranan müvəqqəti sazişdir.
***Monet*** – metaldan hazırlanmış pul nişanı.
***Moneta Bərabərliyi (Pariteti)*** – vahid qızıl kütləsinin rəsmi dəyərinin eyni gümüş kütləsinin dəyərinə olan nisbətidir.

***Monetar Aktiv*** – hesabda göstərilən miqdar üzrə satıla bilən debitor hesab, nağd pul vəsaiti və bank balans aktivi üçün işlədilən ümumi termin.

***Monetar Siyasət*** – mərkəzi hökumətin pulun kəmiyyəti, faiz dərəcələri və mübadilə kursu ilə bağlı iqtisadi siyasətidir.

***Monetar Şərait İndeksi*** – pul siyasətinin əməliyyat hədəflərində orta çəkili dəyişməni ifadə edir. Əməliyyat hədəfləri kimi adətən qısamüddətli faiz dərəcəsi və məzənnə götürülür. Monetar şərait indeksi aşağıdakı düsturla hesablanır:

$$MŞİ = ac\,(RT - RO) + ab\,(ET - E0) + 100$$

Burada, ***RT*** və ***RO*** –müvafiq olaraq, hesabat və baza dövründə real faiz dərəcəsi, ***ET*** və ***EO*** – hesabat və baza dövründə mübadilə məzənnəsi, ***ac*** və ***ab*** – real fazi dərəcəsi və valyuta məzənnəsi üzrə normallaşdırılmış xüsusi çəkidir.

***Monetarizm*** – iqtisadi nəzəriyyə və dövlətin iqtisadi cəhətdən idarə edilməsinin praktik konsepsiyası.

***Monetizasiya*** – iqtisadiyyatın pulla təminatı səviyyəsini xarakterizə edən göstəriciləri özündə ehtiva edir. Məsələn, pul kütləsinin ÜDM-də xüsusi çəkisi iqtisadiyyatın monetizasiya səviyyəsinin göstəricisidir.

***Monitorinq*** – dövlət müəssisələrin maliyyə – təsərrüfat fəaliyyətləri, həmçinin onların gəlir və xərc smetalarının icraları üzərində nəzarətin gücləndirilməsi və gəlirlərin artırılması üçün potensial imkanların müəyyən edilməsi, investisiyaların, hökumət zəmanəti ilə və dövlət büdcəsindən verilmiş kreditlərin təyinatına xərclənməsinin öyrənilməsi məqsədilə həyata keçirilir.

***Monopoliya*** – hər hansı fəaliyyətin həyata keçirilməsi üçün iqtisadi subyektə – dövlətə, müəssisəyə, təşkilata, fiziki şəxsə və s. verilən müstəsna hüquq.

***Moratorium*** – banka müvəqqəti inzibatçı təyin olunduğu dövrdə bankın aktivlərinin və maliyyə vəziyyətinin qiymətləndirilməsi, habelə aktivlərin dəyərinin aşağı düşməsinin qarşısını almaq məqsədilə Milli Bankın ərizəsi ilə məhkəmə hüquqi və fiziki şəxslərin bankdakı depozitləri və bankın digər öhdəlikləri üzrə ödənişləri tamamilə və ya qismən dayandıra bilər. Bu ərizə üzrə

məhkəmə 48 saat ərzində qərar çıxarır və həmin qərar dərhal icraya yönəldilir.
***Morator İtkilər*** – öhdəliyin icrasının gecikdirilməsinə görə tutulan itkilərdir.
***Moskva Banklararası Valyuta və Fond Birjasının Real Zaman İndeksi*** – Moskva Banklararası Valyuta və Fond Birjası tərəfindən hesablanan və Rusiyanın 30 ən likvid səhmini əhatə edən real zaman indeksidir.
***Möhkəm Bazar*** – qiymətlərin yüksək səviyyədə müəyyənləşməsi və bundan sonra da qalxmaq meylini nümayiş etdirməsi ilə səciyyələnən bazar durumu.
***Möhlət*** – əmtəə və xidmətlərin birdəfəlik qaydada, tam məbləğdə deyil, hissə – hissə ödənilməsi.
***Möhtəkirlər (Alverçilər)*** – qiymət dəyişikliyindən yüksək gəlir əldə etmək gözləntisi ilə yüksək riskli qiymətli kağızların ticarəti ilə məşğul olan şəxs.
***Möhtəkirlik (Spekulyasiya)*** – bu və ya digər qiymətlilərin, xüsusilə də qiymətli kağızların gələcəkdə qiymət artımı nəticəsində ticarət mənfəətinin əldə edilməsi məqsədi ilə alqı-satqısı.
***Mövqe*** – treyderlərin maliyyə aləti üzrə müəyyən vəziyyəti (uzun və ya qısa). Alınmış müəyyən valyuta növünün xalis həcmidir.
***Mövqeni Açmaq*** – uzun və ya qısamüddətli mövqe tutmaqla alqı-satqı aktı. Müddətli kontraktları almaq və ya satmaq.
***Mövqeni Bağlamaq (Pozisiyanı)*** – qiymətli kağız üzrə mövcud pozisiyaya əks pozisiya götürməklə mövcud pozisiyadan çıxmaq.
***Mövqeyin Saxlanması*** – dilerin mövqeyinin daim monitorlar arasında yatır.
***Mövsümi Güzəşt*** – əmtəə qiymətinin qeyri-mövsümi satış dövründə dəyişməsi.
***Mövsümi İş*** – təbiət, iqlim şəraiti üzündən yalnız müəyyən dövrlərdə, ilin müəyyən fəsillərində yerinə yetirilən işlər.
***Mövsümi Qiymətlər*** – ilin fəslindən, dövründən asılı olaraq müəyyən məhsul növlərinə olan qiymətlərin dəyişməsi.
***Mövsümi Rüsumlar*** – malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara mövsümi rüsumlar tətbiq oluna

bilər. Mövsümi rüsumların qüvvədə olduğu müddət ildə altı aydan çox ola bilməz.

***Muxtar Büdcə*** – hökumətin mərkəzi büdcəsindən asılı olmayaraq müstəqil gəlirlərə və xərclərə malik, hər hansı muxtariyyətə aid büdcə həlqəsi.

***Muxtar Respublika Vergiləri*** – AR-in Vergi Məcəlləsinə görə, Naxçıvan Muxtar Respublikasında vergi qanunvericiliyinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər.

***Muxtariyyət*** – özünüidarə, ərazilərin, müəssisələrin idarə edilməsinin təşkilati forması, bu halda onlar təsərrüfat xarakterli qərarların müstəqil qəbul edilməsi üçün xeyli hüquq və imkan əldə edir.

***Multiplikator*** – 1931-ci ildə R.F.Kan tərəfindən iqtisadi tədqiqatlarda istifadə olunan, lakin geniş tətbiqi C.M.Keyns tərəfindən aparılan iqtisadi – riyazi əmsal. Multiplikator əmsalı vahiddən kiçik ola bilməz.

***Multivalyuta Krediti*** – bir neçə valyuta ilə aparılan kredit münasibəti.

***Munqu*** – Monqolustanda tədavüldə olan xırda monet. 1 munqu = 1/100 MNT (Monqolustan tuqriki).

***Mutual Bank*** – bir qayda olaraq tikintinin kreditləşdirilməsi üzrə ixtisaslaşan və bu sahədə bank xidmətləri göstərən kommersiya bankı.

***Muzdlu Əmək*** – muzd müqaviləsi üzrə onun özünəməxsus olmadığı müəssisədə işləyən muzdlu işçinin əməyi.

***Muzdlu İşçilərin Əmək Haqqı*** – işəgötürənin hesabat dövründə yerinə yetirilmiş işə görə muzdlu işçiyə pul və ya natura şəklində ödədiyi məbləğdir.

***Müamilə*** – pul öhdəliklərinin vaxtında yerinə yetirilməməsi, vaxtının keçirilməsi səbəbindən pul cəriməsi şəklində müəyyən edilmiş cəza.

***Müavinət*** – xəstələnmə, zədələnmə, hamiləlik, iş qabiliyyətinin itirilməsi hallarında insanlara onların material təminatının qismən yaxşılaşdırılması məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti.

***Mübadilə*** – saziş bağlayan tərəflərin birinin əmlakının müqavilə əsasında başqa tərəfin əmlakına dəyişdirilməsidir.
***Mübadilə Dəyəri*** – marksist iqtisadi doktrinaya əsasən, malın, başqa mala, müəyyən proporsiyada dəyişdirilə bilməsinin mümkünlüyü.
***Mübadilə Məzənnəsi*** – bir ölkənin pul vahidinin xarici valyutada ifadə edilmiş qiyməti.
***Mübadilə Məzənnəsi Haqqında Forvard Razılaşma*** – törəmə valyuta maliyyə aləti olmaqla müəyyən edilmiş vaxtda bir valyutanın digərinə mübadiləsinin əvvəlcədən razılaşdırılmış məzənnə üzrə aparılması haqqında forvard müqaviləsidir.
***Mübadilə Olunan İstiqraz*** – dönərli istiqrazlara oxşardır, lakin emitentin paylarına bağlı deyil. Onlar artıq emitentin də sahibi olduğu başqa şirkətdə səhmlərə mübadilə edilə bilirlər.
***Mübadilə Olunmayan Valyuta*** – xarici valyuta bazarlarında dövriyyədə olmayan valyutadır.
***Mübahisələrin Tənzimlənməsinin Etiraz Qaydaları*** – kreditor və borclu arasında mübahisəli məsələlərin məhkəmədə həllinə qədər tənzimlənməsi olub, mülki hüququn qorunması formasıdır.
***Müdaxilə*** – qiymətin, məzənnənin iqtisadi vasitələrlə artırılması, yaxud azaldılması məqsədi ilə bu və ya digər orqan tərəfindən maliyyə bazarının tənzimlənməsi.
***Müdaxilə Dəhlizi*** – dövlətin və Mərkəzi Bankın valyuta məzənnəsini saxlamağa çalışdığı ən yuxarı və ən aşağı limit çərçivəsidir.
***Müdaxilə Qiyməti*** – müəyyən malın istehsalını himayə etmək, artırmaq məqsədi ilə hökumətlərarası razılaşmalar əsasında bir dövlət, yaxud bir qrup dövlət tərəfindən direktiv qaydada müəyyən edilən, həmin malların yüksək alış qiyməti.
***Müddətin Bitməsi (ekspirasiya)*** – opsion və fyuçers kontraktının vaxtının bitdiyi tarix və ya qüvvədə olma müddətinin başa çatması.
***Müddətində Çatdırılma*** – qiymətli kağızların və ya pul vəsaitlərinin qanunvericiliklə təyin edilmiş müddətdə çatdırılması.
***Müddətli Birja Müqaviləsi*** – mütəşəkkil ticarət meydançalarında alınıb – satılan bütün növ törəmə qiymətli kağızlar üzrə bağlanılan

müqavilədir.
***Müddətli Əmanət*** – bank tərəfindən qəti müəyyən edilmiş müddətə götürülən depozit.
***Müddətli Depozit*** – yalnız öncədən təsbit olunmuş müddətdən sonra geri götürülə bilən depozit.
***Müddətli Keçmiş Borc*** – ödəniş müddəti keçmiş borc məbləği.
***Müddətli Kontrakt*** – tərəflərdən birinin gələcəkdə əmtəənin müəyyən miqdarda və müəyyən müddətdə təqdim edəcəyinə öhdəlik götürdüyü, digər tərəf isə əmtəənin əvvəlcədən şərtləşdirilmiş qiymətlə ödənilməsinə zəmanət verdiyi müqavilə.
***Müddətli Müqavilə*** – müəyyən müddət üçün bağlanan və və bu müddət sona çatdıqda uzadılması və ya yenidən bağlanılması dair heç bir öhdəliyin götürülmədiyi müqavilədir.
***Müddətli Tapşırıq*** – müştəri sifarişin üzərində icra müddətini göstərir və bu müddət ərzində sifariş icra olunmalıdır.
***Müddətsiz Akkreditiv*** – şəxsin tapşırığı əsasında onun hesabından digər şəxsə ödənişlər edilməsi barəsində bankın müddətsiz öhdəliyi.
***Müdir*** – firmanın, şirkətin rəhbərliyinə daxil olan şəxs, firmanın meneceri.
***Müdiriyyət*** – firmanın, müəssisənin, təşkilatın rəhbərliyi, idarəetmə aparatı; operativ idarəetmə fəaliyyətini həyata keçirmək, hüquqi şəxs qismində çıxış etmək, müəssisənin, təşkilatı rəsmi təmsil etmək səlahiyyətləri verilmiş şəxslər.
***Müəllif*** – yaradıcı əməyi ilə əsər (ixtira, kəşf və s.) yaradan fiziki şəxsdir.
***Müəlliflik Hüququ*** – elm, ədəbiyyat və incəsənət əsərlərinin istifadəsi ilə yaranan münasibətləri tənzimləyən hüquq sahəsidir.
***Müəlliflik Müqaviləsi*** – istifadəçi təşkilatla müəllif arasında yaranmış əsərdən istifadə haqqında sazişdir.
***Müəlliflik Şəhadətnaməsi*** – ixtiranı, müəllifliyi, icad etmə təklifini tanıyan və müəlliflik hüququnu təsdiqləyən sənəddir.
***Müəssisə*** – mülkiyyət formasından asılı olmayaraq ölkə qanunvericiliyinə müvafiq yaradılan, ictimai tələbatın ödənilməsi, mənfəət, səmərə əldə edilməsi məqsədi ilə məhsul istehsal edən və

onu reallaşdıran, işlər görən, xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyekti.
***Müəssisə Standartları*** – həmin müəssisə və birlik miqyasında qüvvədə olan standartlardır.
***Müəssisələrin Debitor Borcları*** – müəssisələrin hesablaşmalarının mühasibat uçotu hesablarında nəzərə alınan debitor borclarının, o cümlədən veksel və avansların vəziyyətini əks etdirir.
***Müəssisələrin Əmlak Vergisi*** – hüquqi şəxslərin əmlakdan vergiləri, büdcəyə daxil olan vergilərdir.
***Müəssisələrin Kreditor Borcları*** – müəssisələrin hesablaşmalarının mühasibat uçotu hesablarında nəzərə alınan kreditor borclarının, o cümlədən veksel və avansların vəziyyətini əks etdirir.
***Müəssisələrin Maliyyəsi*** – müəssisələrin maliyyə münasibətlərini öyrənən maliyyənin bir bölməsi.
***Müəssisənin Aktivləri*** – əsas vəsaitlərin, digər uzunmüddətli sərmayələrin, dövriyyə vəsaitlərinin və maliyyə aktivlərinin daxil olduğu əmlakdır.
***Müəssisənin Alınması*** – müəssisənin aktivlərinə və biznes əməliyyatları üzrə idarəetməyə sahib olmaq məqsədi ilə müəssisənin nəzarət səhm paketinin əldə edilməsi.
***Müəssisənin Bazar Qiyməti*** – müəssisənin gəlirliliyi, istehsal etdiyi məhsulların bazardakı prestiji və s. kimi şəklində uçotunda qeyri-maddi aktivlər növü şəklində nəzərə alınan faktorlarla müəyyənləşdirilən qiymətidir.
***Müəssisənin Borc Vəsaitləri*** – ***a)*** Müəssisənin girov qoyub götürdüyü vəsaitlər; ***b)*** Bank kreditləri və digər kreditlər formasında alınan kredit vəsaitləri; ***c)*** müəssisə və təşkilatların kreditləri; ***d)*** müxtəlif tipli kreditlər.
***Müəssisənin Cəlb Olunmuş Vəsaitləri*** – aşağıdakılar cəlb olunmuş vəsaitlər sayılır: ***1)*** göndərilmiş məhsullara və ya görülmüş iş və xidmətlər üzrə müəssisənin debitor borcları; ***2)*** dövlət subsidiyaları və ya dotasiyalar; ***3)*** əmək müqavilələri üzrə müəssisənin ödəniş borcları; ***4)*** Müəssisəyə qoyulmuş əmək kollektivinin həmkarlar və ya təqaüd fondunun vəsaitləri.
***Müəssisənin Ekoloji Pasportu*** – müəssisənin fəaliyyəti ilə bağlı

irəli sürülən əsas ekoloji tələblər kompleksini səciyyələndirən sənəd.

***Müəssisənin İcarəsi*** – icarə müqaviləsi üzrə haqqı ödənilməklə müəssisənin əmlak kompleksinin, torpaq sahələrinin, binaların, tikililərin, qurğu və avadanlıqlarının, habelə digər əsas vəsaitlərinin, həmçinin dövriyyə vəsaitlərinin, sahibkarlıq fəaliyyəti üçün istifadəyə verilməsidir.

***Müəssisənin İxrac Proqramı*** – xarici iqtisadi fəaliyyət sahəsində müəssisənin məqsədli fəaliyyət proqramıdır.

***Müəssisənin İqtisadi Diaqnostikası*** – müəssisənin mümkün ola bilən inkişaf perspektivlərini və cari idarəetmə qərarlarının nəticələrini aşkara çıxarmaq məqsədi ilə ayrı-ayrı nəticələrin, natamam informasiyanın öyrənilməsi əsasında müəssisənin işinin, iqtisadi göstəricilərinin təhlili və qiymətləndirilməsi.

***Müəssisənin Məqsədinin Formalaşdırılması*** – biznesin bu və ya digər növünə xas olan və iddiasında olduğu işgüzarlığın xüsusiyyətlərinin xarakteri və səviyyəsinin təsvir edilməsi üçün "məqsəd" və "vəzifələri" termini işlədilir.

***Müəssisənin Passivləri*** – müəssisənin şəxsi, borc götürülmüş və cəlb olunmuş vəsaitlərdən ibarət öhdəlikləridir.

***Müəssisənin Pul Vəsaitləri*** – müəssisənin kassasında olan nağd pul vəsaitləri, bankda hesabat, valyuta və digər hesablarda saxlanılan sərbəst pul vəsaitləri, həmçinin qiymətli kağızlar və digər pul vəsaitləridir.

***Müəssisənin Rentabelliyi*** – müəssisənin əsas vəsaitlərinin, istehsal resurslarının istifadə edilməsi səmərəliliyi göstəricisi.

***Müəssisənin Satış Müqaviləsi*** – satıcının bütünlüklə müəssisəni alıcıya verməsi öhdəliyi barədə müqavilədir.

***Müəssisənin Şəxsi Vəsaitləri*** – mülkiyyətin istənilən formasında müəssisənin şəxsi vəsaitləri aşağıdakılardan ibarətdir: ***1)*** nizamnamə fondu; ***2)*** təsərrüfat birlikləri və yoldaşlıqlarında pay və hissələr; ***3)*** ilkin və əlavə buraxılış səhmlərin satışından alınmış mədaxil; ***4)*** toplanmış, bölünməmiş gəlirlər; ***5)*** satılan qiymətli kağızların bazar qiymətinin artımı; ***6)*** Müəssisəyə dövlət tərəfindən ayrılan vəsaitlər.

***Müəssisənin Texniki Yenidən Silahlanması*** – əsas və köməkçi istehsalatda texnikanın, texnologiyanın və işlərin təşkilinin daha da təkmilləşdirilməsi hesabına istehsalın texniki səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirlər kompleksi.

***Müəssisənin Təsərrüfat Vəsaitləri*** – əsas vəsaitlərdən, qeyri – maddi aktivlərdən, dövriyyə vəsaitlərindən, pul vəsaitlərindən, hesablarda olan və yayındırılmış vəsaitlərdir.

***Müəssisənin Yaradılması, Təşkilati Xərclər*** – məsləhət xidmətləri, reklam tədbirləri, qeydiyyat və digər yığımlara, sənədlərin hazırlanması və digər məsələlərlə əlaqədar yaranan xərclərdir.

***Müəssisənin Valyuta Fondu*** – müəssisənin sərəncamında olan və onun valyuta hesabında xarici valyuta ilə olan pul vəsaitləridir.

***Müəssisənin Valyuta Hesabı*** – xarici valyuta və milli manatla olan hesabdır. Valyuta hesabı xarici ticarət əməliyyatlarından əldə olunan vəsait və xarici valyutalarla götürülmüş kreditlərdir.

***Müəssisənin Vəzifələrinin Müəyyənləşdirilməsi*** – bu mərhələdə firmanın ümumilikdə fəaliyyətinin məzmunu, onun əvvəlcədən müəyyən edilməsi, bazar iqtisadiyyatında yeri və rolu müəyyənləşdirilir.

***Müəssisənin Zərərləri*** – müəssisənin təsərrüfat fəaliyyətinin maliyyə vəziyyəti, maliyyə nəticələri, göstəricisidir.

***Müfəttiş*** – təftişin keçirilməsinə müvəkkil edilmiş şəxs.

***Müflisləşmə*** – borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması.

***Mühafizə Olunmuş Səhmlər*** – kifayət qədər yüksək rentabelli, nisbətən etibarlı səhmlərdir. Onların birja məzənnəsi sabitdir və konyunktur dəyişmələrinə məruz qalmır.

***Mühasib*** – müvafiq qanunvericiliyə uyğun olaraq müəssisənin, təşkilatın uçot sənədlərini aparan, maliyyə hesabtlarına və mühasibatlıq sənədlərinə qismən və ya tam cavabdehlik daşıyan vəzifəli şəxs.

***Mühasibat*** – maliyyə razılaşmalarının uçota alınması və onlarla bağlı məlumat verilməsi, razılaşmanın əmələ gəlməsi, tanınması, emal edilməsi və maliyyə hesabatlarına yekun vurulmasının daxil olduğu prosesdir.

***Mühasibat Arxivi*** – müəyyən olunmuş müddət ərzində mühasibat işlərinin qorunmasına xidmət edir.
***Mühasibat Balansı*** – müəyyən zaman müddətində müəssisənin, təşkilatın və s.-nin maliyyə fəaliyyəti haqqında məlumatları ümumiləşdirilmiş pul ifadəsində əks etdirən mühasibat sənədi.
***Mühasibat Hesabatı*** – idarədə, müəssisədə və digər yerlərdə uçot prosesinin yekun mərhələsidir.
***Maliyyə Hesabatlarının Nəşri*** – müəssisənin mühasibat hesabatları, onların doğru və düzgünlüyü müstəqil hüququ olan müvafiq nəzarətedici orqanlar tərəfindən təsdiq edildikdən sonra hüquqi və fiziki şəxslər, habelə bütün maraqlı olan istifadəçilər, iştirakçılar və başqa orqanlar üçün açıq nəşr edilə bilər.
***Mühasibat Hesabatının Verilməsi*** – müəssisələrin (xarici sərmayəli müəssisələr istisna olmaqla) məcburi qaydada verdikləri rüblük və illik mühasibat hesabatlarını təqdim etməsidir.
***Mühasibat İnformasiyasının Mahiyyəti*** – bu və ya digər təsərrüfat hadisəsinin nisbi vacibliyini göstərməkdir. Belə ki, əgər gözlənilən informasiya, hesabatda istifadə edənin hər hansı bir qərarına təsir edəcəksə, onda bu cür məlumatlar vacib sayılır.
***Mühasibat Kitabları*** – rəsmi mühasibat sənədi olaraq, balans maddələrini, alınıb – satılan malları, gəlirlərin mənbələrini və xərcləri, həmçinin vəzifə maaşlarını əks etdirir.
***Mühasibat Məlumatlarının Düzgünlüyü*** – mühasibat məlumatlarının təsərrüfat prosesini necə əks etdirməsinin adekvatlığı dərəcəsidir.
***Mühasibat Məlumatlarının Etibarlılığı (Səhihliyi)*** – məlumatın düzgün olması, asan yoxlanılması və neytral xarakter daşıması deməkdir.
***Mühasibat Məlumatlarının Müqayisəsi*** – istifadəçiyə daxil olan məlumatların digər mənbələrdən gələn məlumatlarla müqayisə etmək oxşarlığının, fərqliliyinin və məlumatların tendensiyasının müəyyən edilməsidir.
***Mühasibat Məlumatlarının Proqnoz Dəyərliliyi*** – təsərrüfat subyekti fəaliyyətinin planlaşdırılmasının tərtib olunması zamanı məlumatların yararlığını əks etdirir.

***Mühasibat Mənfəəti*** – mühasibat sənədləri üzrə sahibkarın sənədlərlə rəsmiləşdirilməmiş məsrəfləri, o cümlədən əldən buraxılmış imkanları nəzərə almadan hesablanan sahibkarlıq fəaliyyətindən mənfəət.

***Mühasibat Nəzarəti*** – müəssisə vəsaitlərini qorumağa və mühasibat rəqəmlərinin etibarlılığını artırmağa yönəldilmiş tədbirlər sistemidir.

***Mühasibat Sənədləri*** – mühasibat uçotu və nəzarəti üçün bilavasitə lazım olan sənədlərin tərtib olunmasıdır.

***Mühasibat Sənədlərinin İtməsi*** – ilkin sənədlərin itməsi zamanı müəssisə rəhbərinin əmri ilə xüsusi komissiya yaradılır. Lazım olan hallarda bu komissiyanın işinə hüquq – mühafizə orqanlarının nümayəndələri də cəlb olunur.

***Mühasibat Sənədlərinin Götürülməsi (Müsadirəsi)*** – AR-ın cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmə və prokurorluq orqanlarının qərar əsasında ilkin istintaq və müayinə aparmaq üçün mühasibat hesabatları və balanslarının, uçor registrlərinin, ilkin sənədlərin götürülməsidir.

***Mühasibat Sənədlərinin Məhv Edilməsi*** – ilkin sənədlərin məhv edilməsi səbəblərini araşdırmaq üçün müəssisə rəhbərinin əmri ilə komissiya yaradılır. Lazım olan hallarda hüquq – mühafizə orqanlarının əməkdaşları da dəvət olunur.

***Mühasibat Tənliyi*** – balansı yekunlaşdırmaq üçün istifadə olunan düsturdur:

$$A = P + K$$

Burada, ***A*** – aktivlərin ümumi miqdarı; ***P*** – passivlərin ümumi miqdarı; ***K*** – səhm, kapital.

***Mühasibat Uçotu*** – təsərrüfat subyektinin həyata keçirdiyi maliyyə – təsərrüfat əməliyyatlarının sənədləşdirilmiş qaydada, fasiləsiz və digər özünəməxsus prinsiplər əsasında uçotu.

***Mühasibat Uçotu Hesabı*** – təsərrüfat əməliyyatları haqqında məlumatların və mühasibat uçotunda digər informasiyanın qruplaşdırılması və saxlanılması məqsədi ilə tətbiq edilən əsas vahid.

***Mühasibat Uçotu Registrləri*** – mühasibat uçotunda maliyyə

təsərrüfat əməliyyatlarının ilkin uçot sənədlərinə əsasən sistemləşdirilməsi.

***Mühasibat Uçotu Sahəsində Dövlət Tənzimlənməsi*** – rəsmi qanunvericiliyə görə, ölkədə mühasibat uçotu sahəsində dövlət tənzimlənməsinin əsas məqsədi kommersiya təşkilatları üçün maliyyə hesabatlarının beynəlxalq standartlarını və onlara əsaslanan milli mühasibat uçotu standartlarını, qeyri-kommersiya təşkilatları üçün isə ictimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartlarına əsaslanan milli mühasibat uçotu standartlarını hazırlamaqla və tətbiq etməklə ölkədə mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişaf etdirilməsini və maliyyə hesabatlarında şəffaflığı təmin etməkdən ibarətdir.

***Mühasibat Uçotu Üzrə Məsləhət Şurası*** – mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına mühasibat uçotu və maliyyə hesabatı sahəsində məsləhətlər vermək məqsədilə Mühasibat uçotu üzrə Məsləhət Şurası yaradılır.

***Mühasibat Uçotunun Forması*** – ümumi mühasibat uçotu tərtib olunana qədər uçot registrlərinin yazılması, ilkin sənədlərin tərtibat formalarının işlənməsi və fasiləsizlikdir.

***Mühasibat Uçotunun Hesablar Planı*** – mühasibat uçotunun müəyyən edilmiş əlamətləri üzrə sintetik və subhesabların məcmusu.

***Mühasibat Uçotunun Mexanikləşdirilmiş Sistemi*** – sənədlərin bütün uçot bölmələri üzrə, balansın təşkili ilə birgə hazırlanmasının vahid, qarşılıqlı əlaqədə olan texnoloji prosesdir.

***Mühasibat Uçotunun Predmeti*** – ümumiləşdirilmiş şəkildə götürülən təsərrüfat fəaliyyətidir. Mühasibat uçotunun predmeti iki qrupa ayrılır: ***1)*** Müəssisənin təsərrüfat fəaliyyətini təmin edən obyektlər; ***2)*** Müəssisənin təsərrüfat fəaliyyətini təşkil edən obyektlər.

***Mühasibat Uçotunun Standartları*** – mühasibat uçotunun aparılması ilə bağlı icbari qaydaları və ya göstərişləri müəyyən edən normativ sənəd.

***Mühasibat Yazılışı*** – emitent tərəfindən qiymətli kağızların qeydə

alınması.
***Mühasibatın Ümumi Qəbul Olunmuş Prinsipləri*** – mühasibat hesabatlarının daxili və xarici istifadəçilərinin, həmin hesabatlarının düzgün və vahid təfsirinə xidmət edən mühasibat prinsipləridir.
***Mühüm İştirak Payı*** – səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir.
***Müxbir Bank*** – başqa bankın kontragenti kimi fəaliyyət göstərən, o cümlədən həmin bankın ödəniş tapşırıqlarını yerinə yetirən bank.
***Müxbir Hesab*** – müxbir münasibətlər müqaviləsinə əsasən bir kredit təşkilatının digərinin tapşırığı ilə və onun hesabına etdiyi hesablaşmaların əks edildiyi bank hesabı.
***Müxtəlif Bank Hesabları*** – veksellərin inkassasiyası və ödənilməsi, hesablaşmaların keçirilməsi, çeklərin təqdim edilməsi və s. xidmətlərin müştərilərə göstərilməsi müqabilində bank hesablamaları.
***Mükafat (Premiya)*** – adətən, nəyinsə nominal qiymətindən yuxarı qiymətə ticarət olunmasını ifadə edir.
***Mükafat Səhmləri*** – nominal dəyəri eyni olan adi səhmlərlə müqayisədə kapitalın və mənfəətin yalnız bir qisminə hüquq verən səhmlər, adətən bu cür səhmlər əmək haqqına əlavə kimi paylaşdırılır.
***Mükafatlar Deposu*** – xarici ölkə sığortasında, yenidən sığortalanmada zəmanət öhdəliyi kimi tutulan, müvəqqəti və qaytarılan xarakterli yenidən sığortalanma mükafatlarıdır.
***Mükəmməl Bazar*** – eyni əmtəələrin eyni qaydalarla satıldığı bazar.
***Mükəmməl Elastiklik*** – tələb (təklif) həcminin dəyişməsinin əmtəə qiymətlərinin dəyişməsindən irəli gəlmədiyi vəziyyət.
***Mükəmməl Qeyri-Elastiklik*** – qiymətin tələbin və təklifin dəyişməsinə gətirib çıxarmayan dəyişməsi.
***Mükəmməl Rəqabət, İdeal Rəqabət*** – eyni məhsulun qeyri-

məhdud sayda istehsalçıları ilə istehlakçılarının təmsil olunduğu, onların arasında sərbəst ünsiyyətin olduğu ideal bazarda əmtəə istehsalçıları arasında mövcud olan rəqabət.

***Müqavilə*** – qiymətli kağızların emitenti ilə investorlar arasında bağlanan və razılaşdırılmış emissiya şərtlərini əks etdirən yazılı müqavilə.

***Müqavilə Qiyməti*** – alqı-satqı əqdində göstərilən qiymətdir.

***Müqavilə Proforması (Formulyar)*** – gələcək müqavilənin bütün şərtləri daxil edilmiş formadır.

***Müqavilə Sanksiyaları*** – bağlanmış təsərrüfat müqavilələrinin icrasını təmin etmək üçün yönəldilmiş qanunda və müqavilədə nəzərdə tutulmuş əmlak təsir tədbirləridir.

***Müqavilə Şərtləri*** – müqavilənin bağlanmasına qədər saziş bağlayan tərəflər arasında razılaşdırılmış və müqavilənin mətninə daxil edilmiş şərtlərdir.

***Müqavilə Üzrə Məsuliyyətin Sığortalanması*** – sığorta müqaviləsinin bir növü olub, müqavilənin pozulmasına görə məsuliyyət riskinin sığortalanmasını həyata keçirir və fərdi sahibkar və ya kommersiya təşkilatının müqavilənin icrasının məsuliyyətini əks etdirən müqavilədir.

***Müqavilənin Ləğvi Şərtləri*** – razılaşdırılmış hadisənin baş verdiyi momentdə müqavilənin fəaliyyətinin dayandırılmasına baxılan müqavilə şərtidir.

***Müqavilənin Motivi*** – tərəflərin müqavilə münasibətlərinə girərək yaxın hüquqi məqsədlərə çatmaq arzularını həyata keçirmək məqsədidir.

***Müqavilənin Pozulması*** – sənədlərdə əks olunmuş, hüquqi gücə malik olan müddəa və şərtlərə hüquqi və fiziki şəxslər tərəfindən riayət olunmamasıdır.

***Müqavilənin Təfsiri*** – AR-ın qanunvericiliyinə uyğun olaraq, müqavilənin təfsiri dedikdə, məhkəmə orqanlarının müqavilədə yazılmış söz və cümlələrin hərfi mənasına diqqət yetirməsi başa düşülür.

***Müqavilənin Təxirə Salınması Şərtləri*** – müqavilənin hansısa hadisənin başlanması momentindən qüvvəyə minməsi barədə

müqavilə şərtidir. Məsələn, naviqasiya başlayana qədər yükdaşımaların təxirə salınması

***Müqavilənin Təsadüfi Şərtləri*** – adətən konkret müqavilənin spesifik xüsusiyyətlərini əks etdirən şərtidir. Bu cür şərtlər müqaviləyə hər hansı bir xüsusi məqsəd üçün salınır. Məsələn, bank zəmanətinin alınması öhdəliyi.

***Müqavilənin Yaxın Hüquqi Məqsədi*** – müqavilə tərəflərinin qəbul etdikləri və əsas və ya kauzal adlanan öhdəliklərə nail olmağa yönəldilmiş məqsəddir.

***Müqavilənin Vacib Şərtləri*** – müqavilənin mövcudluğu üçün tələb olunan şərtlərdir. Məsələn, əmlak icarəsi müqaviləsində mütləq icarəyə veriləcək bütün əmlakların adı göstərilməlidir.

***Müqavilənin Vaxtından Əvvəl Dayandırılması*** – tərəflərdən birinin təşəbbüsü ilə, müqavilənin fəaliyyət müddəti qurtarana qədər digər tərəfin onun şərtlərini pozduğuna görə, həmçinin qarşılıqlı razılaşmaya görə müqavilənin fəaliyyətinin dayandırılmasıdır.

***Müqavilənin Valyuta Şərtləri*** – idxal – ixrac müqavilələrində razılaşdırılmış şərtlərdir. Valyuta şərtlərinə aşağıdakılar daxildir: ***a)*** Müqavilənin valyuta dəyəri; ***b)*** İdxalçı və ixracçı arasında aparılan hesablaşmaların həmçinin valyuta klirinqi üzrə hesablaşmaların ödəniş valyutası; ***c)*** Ödəniş valyutalarının qiyməti arasında fərq yarandıqda, fərqin qiymətini hesablamaq üçün valyuta məzənnəsi; ***d)*** Tərəfləri valyuta riskindən qorumaq üçün müxtəlif növlü təshihlər (düzəlişlər).

***Müqayisə Cədvəli*** – inventarizasiyanın nəticələrinin göstərildiyi mühasibat sənədidir, daha doğrusu mühasibat uçotunun məlumatları ilə inventarizasiya siyahısı arasındakı məlumatların fərqidir.

***Müqayisə Üsulu*** – cari aktivin dəyərləndirilməsində müqayisə oluna bilən aktivlərin istifadə edilməsi üsulu.

***Müqayisəli Qiymətlərlə Qiymətləndirmə*** – əvvəlki ilə nisbətən həm istehsal olunmuş ÜDM kimi, həm də onun istifadə göstəriciləri üzrə aparılır.

***Mqayisəli Məsrəflər*** – müəyyən məhsul istehsalının başqa

məhsulun istehsalını genişləndirməkdən ötrü azaldılması həcmi.

***Müqayisəli Üstünlük Qanunu*** – D.Rikardo tərəfindən formalaşdırılmış qanundur. Bu qanuna görə, xərclərin mütləq kəmiyyətlərindən asılı olmayaraq beynəlxalq ticarətin qurulması və inkişaf etdirilməsinin əsasını malların istehsalına çəkilən xərclərin fərqi təşkil edir.

***Mülki Dövriyyə*** – öhdəçilik hüququnun müqavilə və qeyri-müqavilə institutları vasitəsilə iqtisadi dövriyyənin mülki – hüquqi ifadəsidir.

***Mülki Hüququn Obyektləri*** – aşağıdakılardır: əşyalar, o cümlədən pul və qiymətli kağızlar, digər əmlaklar və əmlak hüququ; iş və xidmətlər; əqli mülkiyyətin nəticələri, o cümlədən əqli mülkiyyətə müstəsna hüquqlar, qeyri-maddi bəhrələr.

***Mülki Qanunvericilik*** – mülki hüquq münasibətləri subyektlərinin hüquqi vəziyyətini, mülkiyyət hüququnun və başqa əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirir, müqavilə və digər öhdəlik münasibətlərini, habelə sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir (AR-ın Mülki Məcəlləsi, 1 – 10-cu maddələr).

***Mülki Vəziyyət*** – təbii və ictimai xarakterli, fakt və vəziyyətlə müəyyənləşdirilən, müxtəlif hüquq və öhdəliklərin daşıyıcısı olan konkret vətəndaşın hüquqi vəziyyətidir.

***Mülkiyyət Hüququ*** – subyektin ona mənsub olan əmlakına öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur (AR Mülki Məcəlləsi, 152-ci maddə).

***Mülkiyyət Hüququna Xitam Verilməsi*** – mülk sahibinin öz əmlakını, başqasına verməklə özgəninkiləşdirəndə, əmlak hüququndan imtina edəndə, əmlakı məhv olduqda, həmçinin qanunvericiliyə uyğun olaraq əmlakı məcburi müsadirə olunduqda mülkiyyət hüququnu itirdiyi üçün həmin hüququn dayandırılmasıdır.

***Mülkiyyət Hüququnun Subyektləri*** – AR – ın Konstitusiyasına görə mülkiyyət – dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə

mülkiyyəti növündə ola bilər (AR Konstitusiyası, 13-cü maddə).

***Mülkiyyət Hüququndan İmtina*** – istənilən fiziki və ya hüquqi şəxsin elan etmək yolu ilə əmlaka sahiblik hüququndan imtina etmək hüququ var.

***Mülkiyyət Vergisi*** – nağd əmlak mülkiyyətinin və daşınmaz əmlakın cəlb edildiyi vergidir.

***Mülkiyyətçi*** – mülkiyyətin subyekti, mülkiyyət hüququna malik, mülkiyyət obyektinin sahibi, bölüşdürücüsü, istifadəçisi kimi çıxış edən fiziki və ya hüquqi şəxs.

***Mülkiyyətçi Sayılmayan Şəxslərin Əşya Hüququ*** – bu hüquqlar aşağıdakılardır: ***a)*** Torpaq sahəsinə irsən keçən ömürlük hüquq; ***b)*** Torpaq sahəsindən daimi istifadə hüququ; ***c)*** Əmlakla təsərrüfat aparmaq hüququ – servitut; ***ç)*** Əmlakı operativ idarəetmə hüququ.

***Mülkiyyətçinin Kvotası*** – müəssisənin mənfəətliliyi və likvidliyini səciyyələndirən, onun kreditorları və mülkiyyətçiləri maliyyələşdirməsi vəziyyətinin nisbətini əks etdirən göstəricidir.

***Mülkiyyətdən Gəlirlər*** – maliyyə aktivlərinin, torpaqların və digər istehsal edilməyən qeyri-maliyyə aktivlərinin (torpağın alt qatlarının, digər təbii aktivlərin, patentlərin, lisenziyaların və s.) istifadəyə verilməsi ilə əlaqədar olaraq institutsional vahidlərin aldığı və ya ödədiyi gəlirlərdir.

***Mülkiyyətin Likvidasiyası*** – əmlakın, maliyyə alətlərinin və digər aktivlərin nağd pul vəsaitinə çevrilməsi, əvəz edilməsi.

***Münasib Yer*** – malların və xidmətlərin onun istehlakçılarına təqdim edilməsinin əlverişli münasib yerdir.

***Münasiblik, Əlverişlilik*** – bu və ya digər iqtisadi əməliyyatı, əqdi, sövdələşməni həyata keçirmək üçün əlverişlilik, məqsədlər uyğunluq.

***Mürəkkəb Əşyalar*** – vahid əşya kimi istifadə olunan və eyni məqsədə xidmət edən, lakin müxtəlif əşyalardan təşkil olunmuş əşyalardır.

***Mürəkkəb Faiz*** – borca görə faiz ödənişlərinin hesablanması formalarından biri. Bu halda əvvəlki dövr üçün hesablanan faiz məbləği əsas borcun üzərinə əlavə olunur və sonrakı dövr üçün faiz ödənişləri zamanı əsas borc kimi hesablanır.

***Müsadirə*** – törədilmiş cinayətə və ya digər hüquqpozmalara görə, məhkəmə qərarı üzrə sanksiya şəklində mülkiyyətçinin əmlakının əvəzsiz götürülməsidir (AR Mülki Məcəlləsi, 212-ci maddə).
***Müsbət Sahibolma*** – aktivin gətirdiyi gəlirin ona sahibliyə, saxlanmasına və ya birjada mövqeyin maliyyələşməsinə görə çəkilən xərclərin cəmindən çox olduğu hal.
***Müstəqil Broker*** – aktivliyin çox olduğu dövrlərdə ticarət zalında digər üzvlərin sifarişlərini vasitəsiz olaraq yerinə yetirən broker.
***Müstəqil Maliyyə Nəzarəti*** – müvafiq orqan tərəfindən lisenziya təqdim olunan ixtisaslaşmış auditor firmaları, yaxud fərdi auditorlar tərəfindən həyata keçirilən maliyyə nəzarəti.
***Müstəqil Nəzarət*** – nəzarətin bu forması kənar, müstəqil təşkilatlar, daha doğrusu, auditor firmaları tərəfindən həyata keçirilir.
***Müstəqil Tələb*** – müstəqil dəyərə malik olan və dəstin tərkib hissəsinə daxil olmayan məlumata tələbdir.
***Müstəsna Hüquq*** – cari səhmdarların şirkətin gələcəkdə buraxacağı səhmləri ilkin almaq hüququ.
***Müstəsna Xərclər*** – fövqəladə büdcədə nəzərdə tutulan xərclərdir.
***Müstəsna İqtisadi Zona*** – quru əraziyə bitişən və eni 200 dəniz mili olan açıq dəniz zolağı.
***Müstəsna Lisenziya Müqaviləsi*** – müqavilə predmetindən istifadə və satış hüququnun lisenziyaçı tərəfindən müəyyənləşdirilməsi və müqavilədə qeyd olunması üzrə müqavilədir.
***Müştəri*** – müəssisənin, təşkilatın xidmətlərindən istifadə edən şəxs daimi alıcılar, sifarişçilər.
***Müştəri Hesabları*** – müştərinin müvəqqəti olaraq vasitəçinin, brokerin sərəncamına verilmiş və sonuncunun maliyyə resurslarından ayrı şəkildə xüsusi hesabda saxlanılan vəsaitləri.
***Müştərinin Obyektlərinin Qorunması Barədə Müqavilə*** – bir tərəfin daşınmaz əmlakın qorunması, obyektə kənar şəxslərin buraxılmaması, həmçinin əmlakın oğurlanmasının qarşısını almaq barədə götürdüyü öhdəliklərin əks olunduğu müqavilədir. Müştəri isə müqavilədə göstərilmiş haqqı ödəməyə borcludur.
***Mütəxəssis*** – xüsusi biliklərə, bacarığa, iqtisadiyyatın, yaxud elmin

müəyyən sahəsində işləmək təcrübəsinə malik, təhsil zamanı, yaxud praktiki fəaliyyətdə ixtisasa yiyələnmiş insan.

***Mütərəqqi Birləşmə Strategiyası*** – bu strategiya firmanın özü ilə onun məhsulunun son istehlakçıları arasında ola bölgü kanallarını öz nəzarəti altına götürmək və ya bir sıra təsərrüfat subyektlərini satın alması cəhdlərini nəzərdə tutur.

***Mütləq Əşya Hüquq Münasibətləri*** – subyektin əmlakdan istifadə, sərəncam və sahiblik hüququnun qanuna uyğun realizasiyasının hüquq münasibətləridir.

***Mütləq Hüquq*** – subyektiv hüquq olub, tutduğu vəzifədən və kimliyindən asılı olmayaraq hər kəsin qanunla qorunan hüquqlarıdır.

***Mütləq Hüquq Münasibətləri*** – hüquq subyektlərinin hüququn həyata keçirilməsinə mane olmamaq öhdəliyi ilə bağlı hüquq münasibətləridir.

***Mütləq Münasibətlər*** – mülki-hüquq münasibətləri subyektlərinin fəaliyyətindən asılı olmayaraq baş verən real hadisələrdir. Bu cür hadisələrə zəlzələ, uçqun, subasma və digər təbii fəlakət hallarını misal göstərmək olar.

***Mütləq Üstünlük*** – digər ölkələrlə müqayisədə daha az məsariflə bir və ya bir neçə məhsulu istehsal etmək bacarığı.

***Müvəkkil (Səlahiyyətli)*** – müvəkkil edilmiş şəxsin adından, onun tapşırığı və onun hesabına mükafat almaqla müqavilə bağlayan şəxsdir.

***Müvəkkil Banklar*** – dövlət orqanlarının tapşırığı ilə, bank əməliyyatlarını aparmağa bu orqanların icazəsinə malik olan, eləcə də beynəlxalq maliyyə – kredit təşkilatlarında hökumətin maraqlarını təmsil edən kommersiya bankları və başqa maliyyə – kredit təşkilatları.

***Müvəqqəti İdxal (İxrac)*** – AR-ın gömrük ərazisində və ya ondan kənarda gömrük rüsumlarından, vergilərdən tamamilə və ya qismən azad olunmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən mallardan istifadə edilməsinə yol verilməsindən ibarət gömrük rejimidir. (AR Gömrük Məcəlləsi, 67-ci maddə).

***Müvəqqəti İş*** – məhdud müddətə, çox vaxt bir neçə ay təşkil edən

dövrə verilən iş.

***Müvəqqəti Qiymətlər*** – elə topdansatış, yaxud pərakəndə qiymətlərdir ki, onların fəaliyyəti müəyyən müddətlə məhduddur.

***Müvəqqəti Valyuta*** – tədavül müddətinin sonu öncədən məlum olan, yəni müvəqqəti tədavülə buraxılan milli pul vahidi.

# – N –

***NAFTA*** – sərbəst ticarət haqqında Şimali Amerika müqaviləsi, 1993-cü ildə Kanada, Meksika və ABŞ öz ölkələrinin ərazisini sərbəst ticarət zonasına çevirmək haqqında müqavilə imzalamışdır.

***Nağd Büdcə*** – yaxın vaxtlarda baş verəcək daxilolmaların və ödəmələrin qiymətləndirilməsi, müqayisəsi.

***Nağd Əmtəə*** – satıcıda real, faktiki mövcud olan haqqı nağd pulla ödənilən kimi və ya şərtləndirilmiş müddətdə alıcıya göndərilə və ya verilə bilən mallardır.

***Nağd Gəlir*** – şəxsi gəlirin fərdi vergilər çıxdıqdan sonra qalan hissəsidir; əhalinin malik olduğu və öz istədiyi kimi istifadə etdiyi məcmu pul gəliridir.

***Nağd Hesabat*** – nağd mühasibatlıq sisteminə əsaslanan hesabat verilişi.

***Nağd Hesablaşma*** – bir iqtisadi subyektdən digərinə nağd şəkildə təqdim edilən ödəniş əməliyyatı.

***Nağd Mühasibat*** – nağd mühasibat sistemi razılaşma və hadisələri nağd pul ödəndikdə və ya qəbul edildikdə tanıyır.

***Nağd Ödəmə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$NÖƏ = (PV + Q) / C$$

Burada, NÖƏ – nağd ödəmə əmsalı, PV – pul vəsaitləri, C – cari öhdəliklər.

***Nağd Ödəmə Gücü*** – aşağıdakı düsturla hesablanır:

$$NÖG = (PV + Q + D) / Ş$$

Burada, NÖG – nağd ödəmə gücü, PV – pul vəsaitləri, Q – satıla bilən qiymətli kağızlar, D – debitor borcları, Ş – şirkətin bir günlük orta xərcləri.

***Nağd Ödəniş*** – bir iqtisadi subyektdən digərinə nağd şəkildə təqdim edilən ödəniş əməliyyatı.

***Nağd Pul*** – kassada olan pul vəsaitlərindən ibarət nağd subyektdir.

***Nağd Pul Axını*** – iqtisadi subyektə, o cümlədən müəssisə və təşkilata və ya iqtisadi subyektdən başqa bir iqtisadi subyektdə nağd pul ödənişləri.

***Nağd Pul Ekvivalenti*** – nağd pula asanlıqla çevrilə bilən aktiv. Bu cürə aktivlərin müddəti 3 aydan artıq olmur.

***Nağd Pul Formasında Divident*** – şirkətin səhmdarlarına nağd pul formasında ödənilən divident.

***Nağd Pul Limiti*** – kredit təşkilatının razılığı üzrə müəssisənin kassasında olan normativ məhdudiyyətli nağd puldur.

***Nağd Pul Vəsaitlərinin Götürülməsi*** – vergi orqanları tərəfindən borcu olan şəxsin bilavasitə kassasından nağd pul vəsaitlərinin götürülməsidir.

***Nağd Pula Satış*** – fond birjasının meydançasında qiymətli kağızların eyni gündə çatdırmasını tələb edən saziş.

***Nağd Pulla Ödəmə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

***NPÖƏ = (Ə + A) / (F + Ö)***

Burada, NPÖƏ – nağd pulla ödəmə əmsalı, Ə – əməliyyat gəliri, A – amortizasiya ayırmaları, F – faiz məsrəfləri, Ö – əsas ödənişlər.

***Nağd Yolla Sövdələşmədə Güzəştlər*** – satıcının göndərdiyi malların əvəzində nağd pulla ödəməklə malların qiymətinin aşağı salınmasıdır.

***Nağdsız Dövriyyə*** – kredit təşkilatlarındakı hesablar üzrə köçürmələr və müəssisələrlə əhali arasında nağd pul iştirak etmədən həyata keçirilən qarşılıqlı tələblərin ödənilməsi vasitəsilə edilən ödəmələr.

***Nağdız Hesablaşmalar*** – mallara görə nağd pul ödənilmədən həyata keçirilən hesablaşmalardır.

***Nağdsız Pullar*** – bank hesablarında olan, bir hesabdan digər hesaba köçürmə vasitəsi ilə ödəmələri, qarşılıqlı hesablaşmaları aparmaq üçün istifadə edilən pul vəsaitləridir.

***Napoleondor*** – Fransada üzərində I Napoleonun və III Napoleonun portretləri həkk olunmuş qızıl monet.

***NASD (Qiymətli Kağızlar Üzrə Dilerlərin Milli Assosiasiyası)*** – Nasdaq fond birjasının və birjadankənar qiymətli kağızlar bazarının fəaliyyətinin tənzimlənməsi üçün məsul olan özünütənzimləyən təşkilat.

***NASDAQ (Qiymətli Kağızlar Üzrə Dilerlərin Milli Assosiasiyasının Avtomatlaşdırılmış Kotirovkası)*** – broker və

dilerləri birjadankənar satılan kotirovka qiymətləri ilə təmin edən avtomatlaşdırılmış məlumat şəbəkəsi.

***Nasdaq İndeksi*** – qiymətli kağızlarla müxtəlif alqı-satqı əməliyyatları aparan birjadankənar kompüter sisteminin aparıcı indeksi.

***Natamam Alqı*** – hər hansı bir şirkətin aktivlərinin və ya səhmlərinin yarıdan azının alınması.

***Natamam İstehsalat*** – məhsulu sifarişçiyə göndərmək, bazara satış üçün çıxarmaq, hazır məhsul anbarlarına göndərmək üçün zəruri olan, nəzərdə tutulmuş texnologiya üzrə tam istehsalat keçməyən, natamam hazır olan məhsuldur.

***Natural Formada Sosial Müavinətlər*** – fərdi xidmətlər göstərən dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının son istehlakına çəkilən xərclərin cəmidir.

***Natural Göstəricilər*** – ev təsərrüfatlarının, müəssisələrin, dövlətin iqtisadi fəaliyyətini, istehsalın, tələbatın, miqdarın, çəkinin, uzunluğun, sahənin, həcminin fiziki vahidləri ilə ifadə edilmiş göstəriciləri, ölçüləridir.

***Natural Renta*** – icarəyə götürənin torpaq sahibinə məhsulun bir hissəsi kimi ödədiyi renta ödəməsi.

***Natural Sığorta*** – öncə razılaşdırılmış əsaslarla dəymiş zərərin sığorta şirkəti tərəfindən natural ödənildiyi sığorta münasibətləri növü.

***Natural Təsərrüfat*** – öz tələbatlarını özünün xüsusi istehsalı hesabına ödəyən təsərrüfatdır.

***Natural Vergilər*** – natural, mal formasında alınan vergilərdir.

***Nazirlik*** – ölkə təsərrüfatının bu və ya digər sahəsini idarə edən mərkəzi orqan.

***Neft Dollarları*** – neft ixracatçısı olan ölkələrin enerji resursları ixracından əldə etdiyi dövlət gəlirləridir, dövlət neft şirkətlərinin sahibkarlıq mənfəətidir.

***Neft Fondu*** – AR-də neft və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair AR Dövlət Neft Şirkəti ilə sərmayəçilər arasında bağlanmış sazişlərin həyata keçirilməsindən,

habelə AR –də, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft – qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair bağlanmış digər sazişlərin həyata keçirilməsindən AR-in əldə etdiyi vəsaitin səmərəli idarə olunması məqsədi ilə yaradılan büdcədənkənar dövlət maliyyə fondu. Fond 2000-ci ildən fəaliyyət göstərir. Fond AR Prezidenti qarşısında hesabat verir.

***Neqativ Kapital*** – müəssisənin borc öhdəliklərinin məbləğinin ona məxsus əmlakın dəyərini aşması.

***Neqativ Faiz*** – bank tərəfindən müştərinin depozit hesabından nağd ödəniş edilməsinə görə alınan faiz məbləği.

***Neqativ Leveric*** – vəsaitlərin cəlb edilməsi üzrə xərclərin bu əməliyyatlar üzrə əldə olunan mənfəətdən artıq olması.

***Neqator İddia*** – mülki hüquqda mülkiyyətçinin və ya operativ idarəçilik hüququ subyektlərinin tələblərilə, onlara məxsus əmlakdan istifadə və onlara sərəncam hüququnun həyata keçirilməsi ilə bağlı pozuntuların aradan qaldırılmasıdır.

***Neqosiant*** – iri ticarətçi, kommersant.

***Nemət*** – adamların gündəlik tələbatlarını ödəmək qabiliyyətində olan, onlara xeyir və səmərə verən hər bir şey.

***Neofit*** – ***1)*** Hər hansı fəaliyyətlə yenicə məşğul olan şəxs; ***2)*** Qiymətli kağızlar bazarında yenicə tədavülə buraxılan maliyyə aləti; ***3)*** Yeni yaranan bank.

***Neomerkantilizm*** – ölkənin hansısa siyasi və ya sosial məqsədlərə çatmaq üçün, aktiv ticarət balansına can atması siyasətidir.

***Nettinq*** – qiymətli kağızlarla bağlanmış əqdlər üzrə eyni tipli qarşılıqlı tələb və öhdəliklərin əvəzləşdirilməsi yolu ilə klirinq iştirakçılarının yekun tələb və öhdəliklərinin müəyyən edilməsi.

***Netto*** – ***1)*** Əmtəənin xalis, yəni qablaşdırma nəzərə alınmadan çəkisi; ***2)*** Bütün xərclər çıxılmaqla yerdə qalan xalis mənfəət, gəlir; ***3)*** Güzəştlər və izafi çıxılmalar nəzərə alınmaqla əmtəənin xalis qiyməti.

***Netto Aktivlər*** – müəssisənin cari öhdəlikləri çıxılmaqla məcmu aktivlərinin dəyəri, bazar qiyməti.

$$N = A - P$$

Burada, ***N*** – netto – aktiv, kapital; ***A*** – aktivlər; ***P*** – passivlər.

***Netto Alış*** – aşağıdakı düsturla tapılır:

$$Na = Mn - g - Mq.x. + N\,x$$

Burada, ***Mn*** – alınmış malların ümumi həcmi; ***g*** – qabaqcadan ödəməyə görə güzəştlər; ***Mg.x.*** – geri qaytarılan və ucuzlaşdırılan malların xərcləri; ***Nx*** – alınmış malların daşınma xərcləri.

***Netto Arenda, Netto İcarə*** – icarəyə təqdim olunan obyektin xidməti xərcləri icarədar subyekt tərəfindən ödənilən icarə münasibəti.

***Netto Divident*** – vergi kreditləri çıxılmaqla müəssisənin özgə səhmdarlarına təqdim etdiyi divident məbləği.

***Netto Faiz*** – vergi ödənişindən sonra hesablanmış faiz məbləği, yəni ümumi faiz məbləğindən vergi ödənişlərinin çıxılan hissəsi.

***Netto Qiymət*** – satıcı üçün sazişin icrası ilə bağlı çəkilən xərcləri çıxmaqla malın satışından olan faktik mədaxil, alıcı üçün satıcıya ödənilən faktik məbləğ.

***Neytral*** – nə yüksəlmə, nə də enmə meyili olmayan investisiya qoyuluşu fikridir.

***Nəqliyyat*** – iqtisadiyyatın sərnişinlərin, yüklərin daşınmasını həyata keçirən sahəsi.

***Nəqliyyat Qaiməsi*** – yükü müşayiət edən sənəd.

***Nəqliyyat Məsrəfləri*** – nəqliyyat vasitələri ilə yük və sərnişinlərin daşınması məsrəfləri.

***Nəqliyyat Sənədləri*** – yükdaşıyan tərəfindən yükün daşınmaya qəbul edilməsi barədə imzalanan sənəddir.

***Nəqliyyat Tarası*** – əmtəənin istehsalçıdan istehlakçıya daşınması üçün istifadə edilən çox vaxt dəfələrlə istifadə edilən qab.

***Nəqliyyat Tarifləri*** – bütün növ nəqliyyatın müştərilərdən malların daşınmasına görə tutduğu ödəmə haqları dərəcələri sistemi.

***Nəqliyyat Vasitələri*** – hərəkət vasitəsi olub, təyinatı insanları və yükləri daşımaq olan əsas vəsaitlərin bir növüdür.

***Nəqliyyat Vasitələrində Reklam*** – nəqliyyat vasitələrinin mülkiyyətçilərlə və ya nəqliyyat vasitələrinə əşya hüququ olan şəxslərlə müqavilə əsasında həyata keçirilən təbliğatdır.

***Nəsihətverici Reklam*** – əmtəənin həyat dövrünün artım

mərhələsində üstün şəkildə istifadə olunur və firma qarşısında seçmə tələbatı yaratmaq vəzifəsi baş qaldırdıqda istifadə olunan reklamdır.

***Nəşr Olunan Qiymətlər*** – dünya qiymətləri səviyyəsini əks etdirən və xüsusi məlumat mənbələrində əks etdirilən qiymətlərdir.

***Nəzarət*** – planların faktiki yerinə yetirilməsinin izlənməsi prosesidir, daha doğrusu, təsərrüfat subyektinin faktiki realizasiya hərəkətlərinin plana uyğun olub – olmamasını aşkarlamaqdır.

***Nəzarət Aktı*** – səlahiyyətli dövlət orqanının hərəkəti olub, təsərrüfat subyektinin öz təsərrüfat fəaliyyətini, qanunla müəyyən edilmiş hüquqi vəziyyətə uyğun aparılmasını qeyd etməsidir.

***Nəzarət Hesabı*** – ayrı-ayrı analoji bəndlərin dəyər göstəricilərinin cəmləşdirildiyi hesabdır. Nəzarət hesabı baş kitabın hesablarını özündə əks etdirir.

***Nəzarət – Kassa Aparatı*** – malların təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləri.

***Nəzarət Prosedurları*** – müəssisənin vəsaitlərinin və mühasibat yazılarının etbarlılığını qorumağı təmin edən prosedurlardır.

***Nəzarət Səhm Paketi*** – şirkətin səsvermə hüququna malik səhmlərinin onun fəaliyyətinə nəzarət etməyə imkan verən hissəsi.

***Nəzarət Səhm Zərfi*** – səhmdar cəmiyyətin buraxdığı səhmlərinin ümumi sayının bir şəxsin əlində cəmləşməsi və ona səhmdar cəmiyyətin fəaliyyətinə nəzarət, idarə etmək, zəruri qərarlar qəbul etmək imkanı verən hissəsidir.

***Nəzarət və Balans*** – nəzarət və balans güc sui-istifadəsinin qarşısını almaq üçün institutsional mexanizmlərə istinad edir.

***Nəzarətçi*** – müəssisələrin, təşkilatların, dövlət orqanlarının, vətəndaşların fəaliyyətinin düzgünlüyünü, əsaslandırılmasını, qanuniliyini yoxlamaq, nəzarət etmək səlahiyyətinə malik olan şəxs.

***Nəzarətedici Qiymətlər*** – onların formalaşdırılması zamanı, təchiz – satış və ticarət əlavələrinin məbləğ məhdudiyyəti barədə müəyyən qaydalar qoyulmuşsa bütün tənzimləyici qiymətlərin,

həmçinin sərbəst qiymətlərin daxil edildiyi qiymətlərdir.
***Nəzarətin Formaları*** – nəzarətin aşağıdakı formaları mövcuddur: dövlət nəzarəti; daxili nəzarət; müstəqil nəzarət.
***Nəzəri İstiqrazlar*** – istiqrazlar üzrə müddətli müqavilələr bağlanarkən əsas kimi qəbul edilən hipotetik ödəmə müddətinə, kupon (faiz) ödənişinə və digər şərtlərə malik standartlaşdırılmış nəzəri istiqraz.
***Nibor*** – Nyu-York banklararası depozit bazarında depozit təklifinin orta dərəcəsi.
***Nikkey İndeksi*** – Yaponiyada fond birjasında xüsusi fond indeksi.
***Nisbi Hadisələr*** – mülki hüquq münasibətləri subyektlərinin iradəsi üzrə yaranan, lakin onların iradəsindən asılı olmayaraq inkişaf edən və baş verən real gerçəklik hadisəsidir.
***Nisbi Hüquq*** – mütləq hüquqlardan fərqli olaraq, bir şəxsin digərinə nisbətə görə aldığı hüquqdur.
***Nisbi Hüquq Münasibətləri*** – iki kontragentin öz aralarındakı hüquq və öhdəliklərlə bağlı, hər şeydən öncə məcburi hüquq münasibətlər keyfiyyətində rast gəlinən, müəyyən təsərrüfat nəticələrinə nail olmaq üzrə birgə fəaliyyət münasibətləridir.
***Nisbi Qiymət*** – başqa, baza əmtəənin qiymətinə nisbətən müəyyən edilən əmtəə qiyməti.
***Nisbi Üstünlük*** – yeni əmtəənin istehsalçısının köhnə əmtəələr istehsalçıları qarşısındakı, köhnə əmtəənin istehsalının yenisi ilə əvəz edilməsi ilə əlaqədar məsrəflərin daha aşağı olmasından ibarət üstünlüyü.
***Niyyət Barədə Məktub*** – alıcının satıcının təklifini prinsipcə qəbul etdiyini və danışıqlara başlamaq barədə niyyəti olmasını bildirməsi haqda alıcıya məlumat verməsi barədə sənəddir.
***Nizamnamə*** – dövlət tərəfindən müəyyənləşdirilmiş əmlak sahiblərinin, yaxud ictimai təşkilatların hüquqi vəziyyətini tənzimləyən qaydalar toplusudur.
***Nizamnamə Fondu*** – yaradılmış şirkətə, təsərrüfat cəmiyyətinə təsisçi – iştirakçılar tərəfindən daimi qoyulmuş material və pul vəsaitlərinin məcmusudur.
***Nizamnamə Kapitalı*** – müəssisə yaradılarkən onun fəaliyyətini

tənzimləmək üçün təsis sənədləri ilə müəyyənləşdirilən pul vəsaitlərinin və əmlakın dəyəri, qeyri-maddi və əmlakın miqdarıdır.

***Nominal*** – qiymətli kağızın, kağız pulun, yaxud sikkənin üzərində göstərilən dəyəri, ilkin dəyəri.

***Nominal Dəyərsiz*** – heç bir nominalı olmadan buraxılan səhmlər.

***Nominal Əmək Haqqı*** – hesablaşma cədvəlində və ya digər sənədlərdə müəyyən edilmiş, qeyd olunmuş əmək haqqının pulla ifadə olunmuş həddidir.

***Nominal Effektli Məzənnə İndeksi*** – manatın ticarət partnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrinin dəyişiminin ticarət xüsusi çəkiləri nəzərə alınmaqla həndəsi ortasını əks etdirir.

***Nominal Faiz Dərəcəsi*** – inflyasiya dərəcəsi nəzərə alınmayan (çıxılmayan) faiz dərəcəsi.

***Nominal Gəlir*** – alıcılıq qabiliyyəti, pul, qiymət səviyyəsi, inflyasiya nəzərə alınmadan xalis pul ifadəsində hesablanmış gəlirdir.

***Nominal İnvestor*** – rəsmi olaraq qiymətli kağızın sahibi kimi sayılan, lakin faktiki olaraq ondan istifadə hüququna malik olmayan, yəni həmin maliyyə alətindən bilavasitə əldə etməyən investor.

***Nominal İstiqraz*** – nominal dəyəri ilə yerləşdirilən və ya təkrar bazarda satılan istiqraz.

***Nominal İtki*** – zərər çəkən tərəfə verilməsi qərara alınmış itkilərdir.

***Nominal Kapital*** – şirkətin buraxılan səhmlərinin təsisçilər tərəfindən müəyyən edilmiş məcmu dəyəri.

***Nominal Qiymətləndirmə*** – qiymətli kağızın dəyərini göstərmək üçün qeyd olunan qiymət.

***Nominal Paritet*** – dövlət tərəfindən milli pul vahidinin hər hansı xarici valyutaya və ya qiymətli metala rəsmi müəyyənləşdirilmiş nisbəti.

***Norma*** – qanuniləşdirilmiş qayda, işin təşkilinin, fəaliyyətin həyata keçirilməsinin qəbul edilmiş məcburi sayılan qaydası.

***Normal Bazar Həcmi*** – 1991-ci ildən etibarən səhmlərin alfa, betta, qamma və delta kimi kateqoriyalara bölünməsi sistemini əvəz edən yeni təsnifat sistemidir.
***Normal Gəlirlik Əyrisi*** – eyni kredit keyfiyyətinə malik qısamüddətli borc alətlərinin uzunmüddətli borc alətlərindən daha aşağı gəlirliliyə malik olduğu gəlirlilik əyrisi.
***Normal İstehsal Tsikli*** – qoyulmuş pulun yenidən nağd vəsaitə çevrilməsi üçün lazım olan vaxtdır.
***Normalar və Normativlər*** – əsas fondların, təbii və material ehtiyatlarının, zərərli tullantıların norması və digər vacib təsərrüfat şərtlərinin istifadə kəmiyyətlərinin əvvəlcədən hazırlanmış və müəyyən olunmuş qaydada təsdiq olunmasıdır.
***Normativ*** – universal, geniş yayılmış, daha çox resursların istehlakı obyektini xarakterizə edən xammal, materialların məhsul vahidinə enerji, bir kilometr yürüşə, digər vahidlərə aid sərfi əks etdirən normadır.
***Nostra*** – bankın, kredit təşkilatının müxbir banklarda olduğu hesabı.
***Nostrifikasiya*** – AR vətəndaşları olan alimlərə verilmiş elmi dərəcələrin xarici dövlətlərin elmi adları ilə uyğunlaşdırmaq üçün sənədlərin bərabərhüquqlu tanınmasıdır.
***"Nostro" Hesabı*** – kredit təşkilatının korrespondent – bankda olan və qarşılıqlı ödənişlərin göstərildiyi hesabdır.
***Not*** – dövlət, yaxud ayrı-ayrı müəssisə və təşkilatlar tərəfindən emissiya olunan borc öhdəlikli qiymətli kağız. Adətən bu qiymətli kağızlar qısamüddətli xarakter daşıyır.
***Notifikasiya*** – vekselin sahibi tərəfindən borc məbləğinin ödənilməməsi, veksel öhdəliyinin icra edilməməsi barəsində indossanta – vekseli təqdim edən şəxsə göndərilən rəsmi xəbərdarlıq və ya təqdim edilən xəbərdarlıq məktubu.
***Nou – Hau*** – müəssisədə toplanmış elmi və texniki biliklər istehsal təcrübəsidir.
***Novasiya*** – yeni öhdəliyin müəyyənləşdirilməsinin köməyi ilə öhdəliyin dayandırılmasının razılaşmasıdır.
***Növbədənkənar Ümumi Yığıncaq*** – səhmdarların birləşmə və

kapital artımı kimi fövqəladə məqsədlər üçün çağırılan növbədənkənar ümumi iclası.
***Nullifikasiya*** – kağız pul nişanlarının dövlət tərəfindən dövriyyədən çıxarılması.
***Numizmatika*** – metal pulların – sikkələrin yığılması, kolleksiya edilməsi və bu haqda elm.
***Nümayəndəlik Xərcləri*** – müəssisənin digər müəssisələrin, idarə və təşkilatların qarşılıqlı faydalı əməkdaşlıq yaratmaq məqsədi ilə gəlmiş, həmçinin müəssisənin şura iclasına və təftiş komissiyasının iclasına gəlmiş nümayəndələrə çəkdiyi xərclərdir.
***Nümunə*** – əmtəənin reklam məqsədilə, sərgilərdə, alıcıları tanış etmək, onlara nümayiş etmək məqsədilə istifadə edilən vahidi.
***Nümunələr Üzrə Malların Satışı*** – malların nümunələr üzrə satılmasını nəzərdə tutan pərakəndə alqı-satqı müqaviləsi növüdür.
***Nümunəvi Kontraktlar*** – kontraktların unifikasiya edilmiş forma və şərtləri.
***NYSE (Nyu-York Fond Birjasının Toplu İndeksi)*** – Nyu-Fond birjasında özlərinin qiymətli kağızlarını qeydiyyatdan keçirmiş bütün şirkətlərin səhmlərinin məzənnələrinin dəyişməsinin bazar dəyəri ilə çəkili göstəricisi.
***Nyu-York Fond Birjası*** – ABŞ-ın Nyu-York şəhərində yerləşən və bazar kapitallaşmasına görə dünyanın ən böyük səhm birjası.
***Nyu-York Fyuçers Birjası*** – xəzinə istiqrazı fyuçersləri və bəzi valyuta fyuçersləri üzrə ticarətin aparıldığı birja.

# – O –

***Obyekt*** **–** ***1)*** Hər hansı məqsədyönlü siyasətin istiqamətləndiyi əşya, məkan, istinad nöqtəsi; ***2)*** Hər hansı fəaliyyətin həyata keçirildiyi fiziki məkan, təşkilat, institut və s.

***Oferta*** – satıcı tərəfindən müəyyənləşdirilmiş kommersiya şərtləri üzrə satıcı subyektin hər hansı aktivin, istehsal olunmuş məhsulun, qiymətli kağızların, intellektual mülkiyyətin və s.-in reallaşdırılması barəsində potensial alıcıya göndərdiyi, istiqamətləndirdiyi yazılı təklif və ya bu təklifi əks etdirən rəsmi sənəd, məktub. Bu halda təklifi həyata keçirən subyekt oferent, təklifin istiqamətləndirildiyi subyekt isə akseptant adlanır.

***Ofertanın Əks Etdirdiyi Şərtlər*** – əmtəənin adı, miqdarı, keyfiyyəti, qiyməti, göndərilmə şərti və vaxtı, ödəmə şərti, qablaşdırmanın və qabın xarakteri, təhvil – təslim qaydası göndərmənin ümumi qaydasını əks etdirən şərtlərdir.

***Off – Şor*** – özlərinə məxsus liberal iqtisadi, o cümlədən liberal maliyyə qanunvericiliklərinin tətbiq edilməsi yolu ilə xarici investor və beynəlxalq maliyyə – kredit institutlarına iqtisadi fəaliyyətin müxtəlif sahələrində xüsusi imtiyazlar təklif edən beynəlxalq oriyentasiyalı maliyyə – biznes mərkəzləri.

***Offşor Bankçılıq*** – reallaşdırılan bank əməliyyatlarından və ya əldə edilən mənfəətdən vergi alınmayan və ya çox az vergi alınan yerlərdə həyata keçirilən bankçılıq. Ofşor banklarda açılan depozit hesabları ofşor hesablar adlanır.

***Offşor Fond*** **–** ofşor zonada (məs., Kayman adaları) qeydiyyatdan keçmiş investisiya fondu.

***Offşor Şirkət*** – xüsusi güzəştlər təklif edən ölkələrin offşor mərkəzlərində qeydiyyata alınmış xarici şirkətlər.

***Ofis*** – firmanın rəsmi mənzil iqamətgahı, firma rəhbərliyinin yerləşdiyi yer.

***Oliqarxiya*** – dövlətdə və iqtisadiyyatda hakim olan bir qrup insanın siyasi və iqtisadi ağalığı.

***Oliqopolist Bazarı*** – bir-birinin qiymətqoyma siyasətinə və

marketinq strategiyalarına həssas olan məhdud saylı satıcıların çoxsaylı alıcılarla ticarət etdiyi bazar.

***Oliqopoliya*** – bazardakı satıcıların bir-birinin hərəkətlərini qiymətləndirdikləri vəziyyətdir.

***Onkol*** – kredit münasibətlərinin bir forması. Bu halda kredit müddəti təsbit olunmur və borcalan subyekt kreditor tərəfindən ona açılmış kredit vəsaiti hesabından davamlı qaydada borc vəsaitini istifadə etmək imkanına malik olur. O, kreditlərinin təminatlıq sistemi digər kredit formalarından fərqlənmir. Burada daşınan və daşınmaz əmlak, qiymətli kağızlar və digər aktivlər girova qoyula bilər. Bu kredit formasının xüsusi cəhətlərindən biri ondan ibarətdir ki, kreditor subyekt kimi bir qayda olaraq banklar və kredit təşkilatları çıxış edir.

***Onkol Sövdələşmə*** – xarici ticarətdə qiymətlərin növbəti fiksasiyası ilə mal göndərişi üzrə sövdələşmədir.

***OPEK – Neft İxrac Edən Ölkələrin Təşkilatı*** – 1973-cü ildə yaradılmışdır. Buraya Əlcəzair, Venesuela, İraq, İran, Küveyt, Liviya, Nigeriya, BƏƏ və Səudiyyə Ərəbistanı daxildir.

***Operativ İcarə*** – yeni aktivlər alınması qaydası olub, qısamüddətli öhdəliklərdən biridir. Bu cür icarə növü üzrə ödənişlər uçotda aylıq xərc kimi baxılır və debetdə "İcarə üzrə xərclər" hesabına aid edilir.

***Operativ İdarəetmə*** – hadisələrin operativ planlaşmanı, operativ uçotu, operativ nəzarəti əhatə edən cari idarəedilməsi.

***Operativ Lizinq*** – lizinq şirkətinin icarəyə götürülmüş əmlakın saxlanması və təmiri üzrə lizinqalana xidmət göstərdiyi lizinq formasıdır.

***Operativ Planlaşma*** – əvvəlcədən qəbul edilmiş planlara və iş qrafiklərinə əlavələrin, təfərrüatların daxil edilməsi, düzəlişlərin edilməsi məqsədi ilə qısa müddətə cari istehsal-maliyyə və icra planlaşması.

***Operativ Proqnoz*** – sosial, elmi-texniki, iqtisadi obyektlər üçün proqnozlaşma dövrü 1 aya qədər olan proqnoz.

***Operativ Sanksiyalar*** – işinin öhdəsindən gələ bilməyən kontragentlərə, alıcının göndərilmiş məhsulların çatışmazlıqlarını

öz gücü ilə aradan qaldırmaq hüququ, tam və ya qismən ödəniş tələbləri akseptindən imtina, göndərilmiş məhsulları keyfiyyətinə görə qəbul etdikdən sonra ödənməsi, daşıma xərcləri ödəməyənə qədər daşıyıcının yükü saxlamaq hüququ, həmçinin müqavilə şərtlərini mahiyyətcə kontragent pozmuşdursa həmin müqavilədən imtina hüququ kimi qanunla və ya müqavilə ilə nəzərdə tutulmuş təsir tədbirləridir.

***Operativ Təftiş*** – müəssisənin, şirkətin hesabatının vəziyyətinin, maliyyə – təsərrüfat fəaliyyətinin ştatda olan müfəttişlər tərəfindən müntəzəm yoxlanılması.

***Operativ – Təsərrüfat Öhdəlikləri*** – müqaviləyə uyğun olaraq, mal – pul münasibətlərində iştirak edən xalq təsərrüfatının bir-birinə tabe olmayan bölmələri arasında yaranan təsərrüfat öhdəlikləridir.

***Operativ Təsir Tədbirləri*** – kreditorların müqavilə şərtlərini yerinə yetirmək məqsədi ilə tətbiq etdiyi tədbirlərdir.

***Opsion*** – qiymətli kağızlar, mallar və ya pul vəsaitləri gələcəkdə müəyyən şərtlərlə bu cür opsionun bağlanması anına və ya tərəflərin qərarına əsasən bu cür əldəetmənin anına satış qiymətlərinin təsbit edilməsi ilə əldə etməyə hüququ təsdiq edən sənəddir.

***Opsion Dividenti*** – həm pul və həmdə səhm formasında ödənilə bilən divident. Səhmdarın seçim imkanı var.

***Opsion Klirinq Şirkəti*** – birjada fond opsionları üzrə klirinq hesablaşmaları ilə məşğul olan şirkət.

***Opsion Mükafatı*** – opsiona görə ödənilən məbləğ. Baza aktivinin qiyməti və opsionun müddətindən asılıdır.

***Opsion Müqaviləsi*** – gələcəkdə, müəyyən vaxt ərzində qoyulmuş qiymətlərlə valyuta və ya qiymətli kağızlar almağa hüquq verən, lakin mükəlləfiyyət verməyən müqavilədir.

***Opsion Növü*** – opsionun 2 növü var: “Kol” (almaq hüququ verir) və “Put” (satmaq hüququ verir).

***Opsion Sahibi*** – opsionu almış lakin onu icra etməmiş və satmamış şəxs. Həmçinin, opsionun alıcısı da adlanır.

***Opsion Seriyası*** – müəyyən qiymətli kağız üzrə eyni qiymətə və eyni müddətə malik bir sinfə aid olan (məsələn, bütün “Put”

opsionları) opsionlar.

***Opsion Sövdələşməsi*** – müəyyən ödənişə görə alıcının və ya satıcının mövqe seçmək hüququ ilə bağlanan sövdələşmədir.

***Opsion Spred*** – bir maliyyə alətinə eyni zamanda iki opsionun alınması və satılması.

***Opsion Strategiyaları*** – hedcinq və ya spekulyasiya məqsədilə "Koll" və "Put" opsionlarının kombinasiyasından istifadə edilməsi.

***Opsionun Daxili (Real) Dəyəri*** – opsionun icra (istifadə) qiyməti ilə baza aktivlərinin cari qiyməti arasındakı fərq. "Pulla olan" opsionlar üçün nisbətdir, "pulsuz olan" opsionlar üçün mənfidir, "pulda olan" opsionlar üçün isə sıfırdır.

***Opsionun İstifadəsi (İcrası)*** – opsion satıcısının müqavilənin şərtlərini yerinə yetirmək məqsədi ilə opsion sahibi tərəfindən görülən tədbirlər.

***Opsionun Satıcısı*** – opsion müqaviləsi ilə satışı həyata keçirən şəxsdir.

***Optimal Həll*** – bu və ya digər iqtisadi məsələlərin ən yaxşı həlli nəzərdə tutulur.

***Optimal Tarif*** – böyük dövlətlərin ticarət şəraitini yaxşılaşdırmaq yolu ilə, ticarətdən əldə olunan gəlirlərin maksimumlaşdırılması əsasında yaradılan tarifdir.

***Optimallaşma*** – iqtisadi göstəricilərin optimuma, yəni sistemin optimal, ən yaxşı vəziyyətinə nail olunduğu kəmiyyətinin müəyyən edilməsi.

***Order*** – ***1)*** Sahibinə müəyyən olunmuş zaman ərzində, müəyyən olunmuş qiymətlərlə qiymətli kağızları almağa hüquq verən sertifikat, rəsmi məktub. ***2)*** Səhmdar cəmiyyət tərəfindən ona məxsus olan səhmlərin alınması ilə bağlı buraxılan opsion, qiymətli kağız; ***3)*** Hər hansı işin görülməsi, məhsulun göndərilməsi və s. ilə bağlı bir şəxsi tərəfindən digər şəxsə göndərilən rəsmi məktub, sənəd, əmr.

***Order Çeki*** – verilməsi ancaq indossamentin köməyi ilə mümkün olan çekdir.

***Order Klauzulası*** – sənəddə benefisiarın adından sonra xüsusi qeydin yazılması ilə köçürülməsi və ya alqı-satqısının indossament

vasitəsi ilə aparılması mümkün olan qiymətli kağız, order.
***Order Konosamenti*** – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı ilə yük sahibi arasındakı münasibətləri müəyyənləşdirən, onun əsasında yükün göndərənə və alıcıya, habelə onun əmri ilə başqasına verilə bilən sənəddir.
***Order Qiymətli Kağızı*** – müəyyən şəxsin adına yazılmış, lakin eyni zamanda yalnız qiymətli kağızın üzərində göstərilmiş birinci şəxsin deyil, həm də "onun əmri" üzrə istənilən digər şəxsin də tapşırığı ilə icra edilə bilən qiymətli kağızdır. Order qiymətli kağızına tipik misal köçürmə veksellərini göstərmək olar.
***Order Vekseli*** – sənəddə adı göstərilən birinci şəxsin ödəniş almağa hüququ olan, veksel kreditorunun legitimləşməsi qaydasına görə vekselin bir növüdür.
***Orijinal*** – ***1)*** Sənədin birinci, əsa nüsxəsi; ***2)*** Beynəlxalq ticarət əqdlərində sənədin, müqavilənin birinci nüsxəsindəki möhür, ştamp.
***Orqanoleptika*** – laboratoriya sınağı keçirmədən ekspertlərin hissiyat orqanlarının vasitəsilə qida məhsullarının keyfiyyətinin yoxlanmasıdır.
***Orta Cəmi Aktivlər*** – iki illik dövr ərzində cəmi aktivlərin orta göstəricisi. Bu göstərici aşağıdakı kimi hesablanır:

*Tam aktivlər (cari il) +Tam aktivlər (əvvəlki il) + 2*

***Orta Çəkili Bazar İndeksi*** – hər bir aktivin kapitallaşma səviyyəsi ilə ölçüldüyü fond indeksi.
***Orta Çəkili Kupon*** – girovların birləşməsində orta kupondur (faiz ödənişi). Orta çəkili kupon hər ayın sonunda girovun verilməmiş əsas balansının kupon dərəcəsini çəkmək vasitəsi ilə hesablanır.
***Orta Çəkili Ödəmə Müddəti*** – sərmayə kimi portfelə qoyulan dollar miqdarına uyğun olaraq çəkilmiş, portfeldə olan aktivlərin ödəniş vaxtının çatması üçün lazım olan orta vaxt. Orta çəkili ödəmə müddəti qarışıq gəlir portfellərinin faiz dərəcə dəyişikliklərinə olan həssaslığını ölçür.
***Orta Əmək Haqqı*** – bir sıra iqtisadi obyektlər, yaxud bütün istehsalçı və istehlakçılar üzrə bir neçə illik dövr üçün ortalama kimi müəyyən edilən statistik göstəricilər.

***Orta İstehlak Meyli*** – ümumi istehlakın ümumi gəlirə nisbəti.
***Orta Məsrəflər*** – istehsal həcmi üzrə çəkilmiş məsrəflər, yəni məhsul istehsalı vahidinə düşən məsrəflər.
***Orta Seçici Teoremi*** – əgər seçicilər hər hansı xətt parçası üzərində bir nöqtə seçirsə və hər bir seçici ən çox üstün tutduğu nöqtəyə daha yaxın olmaq istəyirsə onda majoritar qaydada səsvermə meridian seçicinin ən çox üstün tutduğu nöqtəni seçəcəkdir.
***Orta Zümrə Rəhbərləri*** – kiçik rəhbərlərin işini əlaqələndirir və nəzarət edir.
***Ortaqlıq – 1)*** Bir neçə fiziki və ya hüquqi şəxsin birgə iqtisadi fəaliyyətinin təşkil edilməsinin hüquqi forması; ***2)*** Firma və şirkətlər təsis sənədlərində əks edilməyən, faktiki təmin edilən əməkdaşlıq.
***Ortalama (Averaj) – 1)*** Müəyyən dövr ərzində eyni buraxılışdan olan və məzənnələri sabit olmayan səhmlərin orta alış qiymətini aşağı salmaq məqsədi ilə onların davamlı olaraq alınıb – satılmasından ibarət olan birja oyunu strategiyası; ***2)*** Treyderin portfelində qiymətli kağızların orta qiymət nisbətini optimallaşdırması məqsədi ilə onların birja dəyərində baş verən dəyişikliklər nəzərə alınmaqla müvafiq qiymətli kağızlardan əlavə olaraq alınması strategiyası; ***3)*** Qiymətli kağızların və ya əmtəələrin qiymətləri aşağı düşərkən qiymətli kağızlar portfelinin və ya əmtəə ehtiyatlarının orta alış qiymətini aşağı salmaq məqsədi ilə əlavə alışların həyata keçirilməsi; ***4)*** Müəyyən göstəricinin müəyyən dövrlər üzrə orta kəmiyyəti.
***Ortamüddətli Büdcə Çərçivə Sənədi*** – fiskal siyasəti əlaqələndirmək və orta müddət boyunca büdcə prioritetlərini müəyyən edən çərçivə sənədidir.
***Ortamüddətli İstiqraz*** – dövriyyə müddəti 1 ildən 3 ilədək olan istiqrazlar.
***Ortamüddətli Proqnoz*** – sosial, elmi –texniki, iqtisadi obyektlər üçün proqnozlaşma dövrü 1 ildən 5 ilə qədər olan proqnoz.
***Ouken Qanunu*** – bu qanunauyğunluğa görə, əgər ölkədə işsizliyin faktiki səviyyəsi onun təbii səviyyəsini 1% keçərsə, onda ölkə potensial ÜDM-ə nisbətdə faktiki ÜDM-in 2-3%-ni itirir.

***Overbout*** – müəyyən zaman ərzində bazara məhsulun, aktivin daxil olmaması, yaxud yüksək tələb nəticəsində qiymətin ciddi şəkildə qalxması vəziyyəti.

***Overdraft*** – müştəri tərəfindən bankda olan özünəməxsus kredit qalığından artıq həcmdə vəsait göstərməklə kredit həddini aşması vəziyyəti.

***Overdraft Limiti*** – müştərinin bank hesabında qısamüddətli overdraftlar üçün müəyyənləşdirilən limit. Overdraft limiti müştərinin hesab məbləğinin həcmi əsasında müəyyən olunur.

***Overnayt*** – ***1)*** Növbəti bank günü ödənilməli olan banklararası qısamüddətli kredit müqaviləsi; ***2)*** Kontrakt günündən sonrakı birinci iş günü həyata keçirilmiş birinci iş günü həyata keçirilmiş xarici valyuta mübadiləsi üzrə əməliyyat; ***3)*** Bir iş günü ərzində aparılmış maliyyə əməliyyatları. Hesabatlarda overnayt, adətən, ON kimi ifadə olunur.

***Oversold*** – bazara qısa zaman ərzində böyük həcmdə məhsulun, aktivin daxil olması, dolması nəticəsində qiymətin ciddi şəkildə düşməsi vəziyyəti.

***Overtaym*** – gəminin yüklənməsi və ya boşaldılması işlərində, iş vaxtından əlavə istifadə olunan vaxtdır.

# – Ö –

***Ödəmə*** – alınan əmtəələrə, istifadə olunan resurslara, verilmiş kreditə və s. görə haqqın ödənilməsi.

***Ödəmə Bildirişi*** – maliyyə orqanlarının, hesablanmış ödəmələrin edilməsi zəruriliyi, ödəmənin məbləği və müddəti haqqında ödəyicilərə məlumat verdiyi sənəd.

***Ödəmə Əmsalı*** – müəssisənin öhdəliklərinin (passivlərinin) şəxsi vəsaitləri ilə ödənilməsi əmsalı.

***Ödəmə Qabiliyyətli*** – müəssisənin öz qısa və uzun müddətli öhdəliklərini yerinə yetirmək qabiliyyətidir.

***Ödəmə Qabiliyyətli Tələb*** – əmtəə və xidmətlərə olan, onların alıcılarının pul vəsaitləri ilə təmin edilmiş tələb.

***Ödəmə Qabiliyyətsizliyi*** – firmanın və ya dövlətin valyuta maliyyə vəziyyətilə, sərbəst vəsaitlərin olmaması ilə büdcə və tədiyyə balansının çatışmazlığı ilə şərtlənən özünün maliyyə öhdəliklərini vaxtında və tam ödəyə bilmək qabiliyyətini itirməsidir.

***Ödəmə Müddəti – 1)*** Borcun son ödəniş tarixi; ***2)*** Borc qiymətli kağızları üzrə öhdəliyin müddəti, əsas borc məbləğinin, toplanmış və son faiz gəlirinin ödənildiyi tarix.

***Ödəmə Nisbəti*** – gəlirin səhmdarlara divident şəklində ödənilən hissəsini əks etdirir. Ödəmə nisbəti = Divident /Xalis Gəlir.

***Ödəmə Tapşırıqları İlə Hesablaşmalar*** – nağdsız hesablaşmaların bir forması. Bu zaman ödəyici ona xidmət edən banka müəyyən pul məbləğinin öz hesabından vəsait alıcısının hesabına köçürülməsi haqqında tapşırığın olduğu ödəmə sənədi təqdim edir.

***Ödəmə Tarixi*** – istiqrazların ödənilməsini və ya borcların qaytarılmasını göstərən son tarix.

***Ödəmə Təqvimi*** – müəssisələrin, şirkətlərin vəsaitlərinin daxil olması və ödəmələrin edilməsi qrafiki.

***Ödəmə Tələbnamə – Hesabı*** – hesab faktura ilə ödəmə tələbnaməsini birləşdirən hesablaşma sənədi.

***Ödəmə Tələbnamə – Tapşırığı*** – vəsait alıcısının ona xidmət edən banka təqdim etdiyi hesablaşma ödəmə sənədi.

***Ödəmə Zamanı Gəlirlilik*** – borc qiymətli kağızların ödəmə zamanı gəlirliliyi.
***Ödənilmiş Kapital*** – ödənilmiş kapital ödənişdə tam nominal dəyəri aldığı şirkət tərəfindən buraxılan səhmlərə əsaslanır.
***Ödəniş*** – pul vəsaitinin, bu və ya digər qiymətlinin bir subyektdən digərinə verilməsi, ödənilməsi.
***Ödəniş Cədvəli*** – müəssisənin kassasından əmək haqqının, yardımların, mükafatların, təqaüdlərin ödənməsi üçün əsas sayılan mühasibat sənədidir.
***Ödəniş Müddəti Çatmış Veksel*** – ödəniş müddəti çatdığına görə ödənişə təqdim olunmalı olan veksel.
***Ödəniş Şərtləri*** – kontrakt üzrə ödəmə həcmini, formasını, müddətini və yerini müəyyən edən şərtlər.
***Ödəniş Tapşırığı*** – nağdsız hesablaşma forması. Ödəniş tapşırığı müştərinin ona xidmət edən banka hesabındakı məbləğdən başqa subyektin bank hesabına pul köçürməsi ilə bağlı rəsmi tapşırığı.
***Ödəniş Tələbnaməsi*** – kreditor, malgöndərən, yaxud ödəniş almaq hüququ olan subyektin, borc alana, yaxud ödəniş etməklə bağlı borcu olan subyektə bank vasitəsi ilə ödənişi həyata keçirməklə bağlı təqdim etdiyi hesablaşma sənədi.
***Ödəniş Valyutası*** – müqavilə əsasında tərəflər arasında ödənişin həyata keçirildiyi valyuta.
***Ödənişə Qarşı Tədarük*** – qiymətli kağızların tədarükünün yalnız alıcı tərəfindən satıcının pul hesabına müvafiq məbləğ köçürüldükdən sonra həyata keçirilməsini nəzərdə tutan ticarət mexanizmi.
***Ödənişin Alınması Qəbzi*** – veksel üzrə faktını təsdiq edən sənəddir. Ödəyici, köçürmə vekseli ilə ödəmə apardıqda ödənişin alınması barədə vekselsaxlayandan qəbz tələb edə bilər.
***Ödənmiş Kapital*** – buraxılmış səhmlərə görə alınmış pul məbləğidir.
***Ödəyici Agent*** – səhmdarlara dividentlərin, istiqraz sahiblərinə isə əsas məbləğlərin və faizlərin ödənişini müəyyən haqq əvəzində bu səhm və istiqrazları buraxanların adından və onların hesabına həyata keçirən bank və ya digər maliyyə – kredit institutu.

***Öhdəlik*** – hüquqi fakt olub, ona əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməli, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və ya müəyyən hərəkətdən çəkinməlidir. Öhdəliklə bağlı bütün məsələlər hüquqi cəhətdən AR-nın Mülki Məcəlləsi ilə tənzimlənir.

***Öhdəliklər*** – müəssisənin müxtəlif sövdələşmələr həyata keçirərkən yaranan və mallara və ya göstərilmiş xidmətlərə görə sonrakı ödənişlər üçün hüquqi əsasdır.

***Öhdəliklərin İcrasının Təminatı*** – öhdəliklər yerinə yetirilmədikdə cərimələrin və dəbbənin ödənilməsi, girovun, behin verilməsi, avansın ödənilməsi, zəmanətlərin təqdim edilməsi daxil olmaqla öhdəliklərin yerinə yetirilməsinə xidmət edən əmlak və pul səciyyəli tədbirlər.

***Öhdəliklərin Ümumi Miqdarı*** – müəssisənin aktivlərinin ümumi dəyərinə ekvivalent olan, onun investorlar və kreditorlar qarşısındakı bütün öhdəliklərinin dəyəridir.

***Öhdəliyin Bağlanma Qiyməti (Gerialma Qiyməti)*** – borc qiymətli kağızlarının və imtiyazlı səhmlərin emitenti tərəfindən onların müddəti bitdiyi vaxt və ya vaxtından əvvəl geri alındığı qiymət.

***Öhdəliyin Bağlanması (Geri Alma Ödənişi)*** – borc qiymətli kağızlarının emitenti tərəfindən müddəti bitdiyi vaxt həmin qiymətli kağızları geri alınması və investorun qiymətli kağıza ödədiyi nominal dəyərin qaytarılması.

***Öhdəliyin Hissə-Hissə İcrası*** – kreditorun razılığı əsasında öhdəliyin hissə – hissə icrasıdır (AR-nın Mülki Məcəlləsi, 432-ci maddə).

***Öhdəliyin İcrası*** – qanunun, digər hüquqi aktların tələblərinə və öhdəliyin şərtinə uyğun olaraq onların mütləq yerinə yetirilməsidir.

***Öhdəliyin İcra Müddəti*** – əgər öhdəlikdə onun icra müddəti dəqiq göstərilmişdirsə, onda həmin vaxta qədər mütləq icra olunmalıdır.

***Öhdəliyin Qiymətləndirilməsi*** – adətən borcların və ya bazar şəraitində malların və xidmətlərin dəyərlərini ödəmək üçün öhdəliklərin pul miqdarı ilə qiymətləndirilməsidir.

***Öhdəliyin Üçüncü Şəxs Tərəfindən İcrası*** – qanun yol verdiyi hallarda öhdəliyin üçüncü şəxs tərəfindən yerinə yetirilməsidir (AR

Mülki Məcəlləsi, 431-ci maddə).
***Öhdəliyin Yarandığı Moment*** – öhdəlik üzrə borcun uçota alındığı andır.
***Öhdəliyin Vaxtından Əvvəl İcrası*** – müqavilədə nəzərdə tutulmadığı hallarda, borclunun öhdəliyi vaxtından əvvəl yerinə yetirmək hüququdur.
***“Öküz”*** – bazar qiymətlərinin getdikcə artdığını müşahidə edərək, sonradan onları birjada satmaqla mənfəət əldə etmək ümidi ilə alan şəxs, birja iştirakçısı.
***“Öküz” Bazarı*** – qiymətlərin uzun müddət ərzində yüksəlişi müşahidə olunan bazar.
***Ölkənin Sənayeləşməsi*** – ölkə iqtisadiyyatının sənaye əsasına keçirilməsi, iqtisadiyyatda sənayenin xüsusi çəkisinin əhəmiyyətli artması, bütün xalq təsərrüfatında, yaxud ayrı-ayrı sahələrdə iri maşın istehsalının yaradılması.
***“Ölü Pişiyin Sıçrayışı”*** – maliyyə alətinin qiymətində və ya ümumilikdə bazarda qiymətlərin uzun müddət davam edən düşüşündən sonra birdən baş verən artım.
***Ömürlük Saxlamaq (Bəsləmək)*** – yaşa görə əmək qabiliyyətini itirmək və ya sağlamlıq vəziyyəti ilə əlaqədar olaraq öz əmlakını başqasına həvalə etməklə ömürlük onun himayəsinə keçmək haqqında şəxsin bağladığı müqavilədir.
***Ömürlük Renta*** – əşyanın renta ödənilməsi üçün müqavilə yolu ilə ömürlük başqasına verilməsidir.
***Ön Ofis*** – şirkətdə müştərilərlə təmasda olan departamentlər – marketinq, satış, xidmət kimi bölmələr.
***Öncül Kapital (“Üstün Hüquqlu Kapital”)*** – müəssisənin, borcları (ssudaları) və imtiyazlı səhmləri daxil olan kapitaldır.
***Örtmə Əmsalı*** – cari aktivlərin – dövriyyə vəsaitlərinin qısamüddətli kreditor borclarına olan münasibətlərini əks etdirir və müəssisənin ödəmə qabiliyyətinin ümumi indikatoru kimi çıxış edir.
***Örtülü Akkreditivlər*** – açılması bank emitentin şəxsi vəsaitlərinin ödəyiciyə köçürülməsi və ya ödəyiciyə, mal göndərənin bankının (icraedici bank) sərəncamına ayrıca açılmış və bank emitentin

öhdəliyi müddətində fəaliyyətdə olan “akkreditivlər” balans hesabına kredit təqdim edilməsidir.
***Ötürmə*** – bir şəxsin ona məxsus olan müəyyən hüquqları və ya əmlakı başqa şəxsə ötürməsi (satması, həvalə etməsi).
***Ötürmə Kredit*** – bir, yaxud bir neçə debitor borcunun alınması hüquqlarının banka və ya digər kredit təşkilatına verilməsi müqabilində alınan kredit.
***Ötürülmüş Divident*** – direktorlar şurasının qərarı ilə əvvəlcədən planlaşdırılmış və ya müəyyən edilmiş dövrdə ödənilməmiş divident.
***Öz Xərcini Ödəmə*** – müəssisə xərclərinin onun gəlirləri hesabına ödənilməsi ilə səciyyələnən təsərrüfatçılıq prinsipi, müəssisə maliyyəsinin vəziyyəti.
***Özəl*** – özəl şəxslərə məxsus, şəxsi.
***Özəl Birja*** – səhmdar cəmiyyət kimi fəaliyyət göstərən birja. Özəl birjadakı əməliyyatlar yalnız bu birjanın üzvü olan səhmdarlar tərəfindən aparılır.
***Özəl Bölmə*** – özəl mülkiyyətdə olan, özəl kapitala məxsus iqtisadi obyektlər.
***Özəl Xüsusi Mülkiyyət*** – torpağa, mülkə, istehsalat vasitələrinə, pula və qiymətli kağızlara, işçi qüvvəsinə, müxtəlif mallara, əqli məhsula əsas mülkiyyət formalarından biridir. Mahiyyət ondan ibarətdir ki, bu mülkiyyət obyektləri ayrı-ayrı şəxslərə, fərdlərə, ailələrə, bir qrup şəxsə məxsusdur.
***Özəl İnvestisiya Şirkəti*** – biznesi genişləndirmək üçün maliyyə vəsaitinə ehtiyacı olan özəl şirkətlərə investisiya edən şirkət.
***Özəl Müəssisə*** – bir sahibi olan müəssisədir.
***Özəl Mülkiyyətçi*** – özəl bizneslə məşğul olan, sahibkar, şəxsi mülk sahibi, özəl ticarətçi.
***Özəl Sektor*** – ölkədə ev təsərrüfatlarının və özəl firmaların məcmusu.
***Özəl Sektorun Kənarlaşması*** – dövlət sektorunun gəlir-xərc tarazsızlıqları nəticəsində meydana gələn böyük borclanma tələbi ilə faizlərin yüksəlməsi ilə özəl sektorun investisiyaları üçün ehtiyac duyduğu fondların azalması və bahalaşması.

***Özəl Şirkət, Özəl Səhmdar Şirkəti*** – özəl şəxslərin yaratdığı, özəl mülkiyyətə əsaslanan, özəl kapitaldan istifadə edən şirkət.

***Özəlləşdirmə*** – istehsal vasitələrinin, əmlakın, mənzillərin, torpağın, təbii resursların dövlət mülkiyyətindən çıxarılması.

***Özəlləşdirmə Çeki*** – ölkənin milli valyutasında nominal dəyəri olan və özəlləşdirmə obyektlərinin alınması üçün ödəniş vasitəsi kimi istifadə edilən təqdim edənə, məqsədli təyinatı olan dövlət qiymətli kağızı.

***Özəlləşdirmə Əqdi*** – dövlət əmlakının satıcısı ilə alıcısı arasında bağlanılan alqı-satqı müqaviləsidir.

***Özəlləşdirmənin Obyekti*** – özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı istisna olmaqla, AR-nın ərazisində və onun hüdudlarından kənarda AR-nın dövlət mülkiyyətində olan əmlak, müştərək müəssisələrin nizamnamə fondundakı dövlətin payı, dövlətə məxsus səhmlər, özəlləşdirilən müəssisələrin altında yerləşən torpaq sahələri.

***Özgə Əşyaya Hüquq*** – öhdəliyin təminat qaydalarından biri olub, borclu və ya üçüncü şəxs tərəfindən bu məqsədlə təqdim olunmuş əmlaka kreditor kompleks hüquqlarıdır.

***Özgəninkiləşdirmə*** – əşyanın başqasının mülkiyyətinə verilməsidir.

***Özünə xidmət*** – alıcıya əmtəələrə birbaşa çıxışı və lazımi əmtəənin seçilməsini, hesablaşma-kassa qovşağı vasitəsilə onların ödənilməsini təmin edən əmtəə satışı üsulu.

***Özünü İdarəetmə*** – müəssisənin idarə edilməsi üsulu, qaydası. Bu zaman əsas idarəetmə funksiyalarını müəssisəni özü, heç bir xarici müdaxilə olmadan yerinə yetirir.

***Özünü Maliyyələşmə*** – müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin həm cari xərclərin, həm də kapital qoyuluşlarının, həmçinin cari dövr xərclərinin şəxsi mənbələrdən ödənildiyi tərzdə həyata keçirilməsi.

***Özünü Tənzimləmə*** – iqtisadi sistemdə istənilən fəaliyyət qaydasının avtomatik təmin edilməsinə imkan verən ünsürlərin, əlamətlərin mövcudluğu.

## – *P* –

***Paaşe İndeksi*** – müəyyən dövr ərzində satılmış əmtəələrin faktiki qiyməti ilə bazis ilinin qiymətinin müqayisəsini ifadə edən qiymət indeksi.

***Paket (Blok, Qiymətli Kağızlar Toplusu)*** – böyük miqdarda təklif edilmiş və ya satılmış səhmlər və ya böyük dəyərə malik istiqrazlar.

***Paket (blok) Ticarəti*** – adətən institutsional investorlar tərəfindən aparılan böyük həcmli alqı-satqı əməliyyatları.

***Paolo*** – XIX əsrin ortalarına qədər İtaliyada tədavüldə olan gümüş monet.

***Para*** – 1930-cu ilə qədər Türkiyədə tədavüldə olan gümüş monet.

***Paradoks*** – ümumilikdə qəbul olunan ideyanın, fikrin əksinə, əleyhinə çıxış edən fikir, ideya.

***Paralel Əqd*** – əmtəə satıcısının müəyyən müddətdə əks əqdin keçirməsi öhdəliyinə dair iki qarşılıqlı əlaqəli müqavilələrin mövcud olması ilə başqa əməliyyatla bağlı olan əmtəə mübadiləsi əməliyyatı.

***Paralel Valyuta*** – mərkəzi hökumət tərəfindən müvəqqəti tədavülə buraxılan, ölkənin milli valyutası ilə eyni zamanda tədavüldə olan ödəniş qabiliyyətli valyuta.

***Parametr*** – iqtisadi proseslərə mühüm təsir göstərən göstərici.

***Pareto Effekti*** – resursların bölüşdürülməsi zamanı hamının maraqlarını təmin etmək olmaz.

***Pareto İnkişafı*** – bir kəsin maraqlarını tapdamadan digər şəxsin maraqlarını təmin edən resursların yenidən bölgüsü.

***Paris Klubu*** – xarici borclarını ödəməkdə çətinlik çəkən ölkələrin başqa ölkələrin dövlətlərindən aldıqları borcların restrukturizasiyasına aid görüşmələrin təşkil edildiyi rəsmi toplantı platformu.

***Paritet*** – qiymətli kağızların bazar dəyəri ilə nominal dəyərinin bərabər olması vəziyyəti.

***Paritet İndeks*** – kənd təsərrüfatı məhsullarının qiymət indeksinin qeyri-kənd təsərrüfatı məhsullarının qiymət indeksi ilə müqayisəsi.

***Paritet Qiymət*** – fermerə dəyişməz məhsul həcminə görə sabit tərkibli qeyri-aqrar istehlak malları dəstini almaqdan ötrü kifayət edən pul gəlirini əldə etməyə imkan verən kənd təsərrüfatı malları qiyməti.

***Passiv*** – müəssisənin mühasibat uçotu balansının bir hissəsi.

***Passiv Bank Əməliyyatları*** – müxtəlif iqtisadi subyektlərin sərəncamında olan sərbəst vəsaitlərin banklar tərəfindən müddətlilik prinsipi və xüsusi şərtlər əsasında cəlb olunması və bankların resurslarının formalaşması üzrə əməliyyatlar.

***Passiv Hesab*** – təsərrüfat vəsaitlərinin formalaşma mənbəyini və onların məqsədli təyinatını əks etdirən mühasibat hesabı.

***Passiv İdarəetmə*** – verilmiş bazar, yaxud sektorun strukturunun elə şəkildə nəzərə alınmasına yönəldilmiş investisiya strategiyasıdır ki, bu investorun gəlir və risk xarakteristikalarına uyğun gəlsin.

***Passiv Tədiyyə Balansı*** – ödəmələrin və xarici xərclərin xaricdən daxilolmalardan çox olduğu ölkənin xarici tədiyyə balansı.

***Passiv Ticarət Balansı*** – ölkədə idxalın ixracı üstələməsidir.

***Passivlər*** – firmaya və ya fiziki şəxsə qarşı olan bütün rəsmi tələblər.

***Patent*** – ixtiraçı şəxsə yeni ixtirasını yaratmağa, istifadə etməyə, eləcə də satmağa müstəsna hüququn verilməsini təsdiq edən sənəd.

***Patent Düzəlişi*** – satıcının patent təmizliyi tələblərinə cavab verən mal göndərəcəyi, alıcının isə müvafiq vaxt ərzində məlumat daxil olduğu halda, satıcıya üçüncü şəxsin hüquqları və şikayətləri barədə informasiya verəcəyi öhdəliklərinin əks olunduğu ixrac kontraktının şərtidir.

***Patent Xalisliyi*** – müəyyən ölkənin ərazisində qüvvədə olan patentlərin pozulması təhlükəsi olmadan bu ölkədə texniki obyektdən hüquqi cəhətdən təsdiqlənmiş sərbəst istifadə etmək imkanı.

***Patent Lisenziya*** – patent sahibinin patentdən istifadə etmək üçün verdiyi hüquqdur.

***Patent Müdafiəsi*** – müəlliflik hüququnun, sahibkar fəaliyyətinin hüquqi müdafiəsidir, qanunla rəsmiləşdirməni və ixtiraya,

təsərrüfat fəaliyyətinə patentin verilməsini nəzərdə tutur.
***Patent Razılaşması*** – patent sahibinin ixtiradan istifadə etmək hüququnu patenti alana verməsini təsdiq edən beynəlxalq ticarət sövdələşməsidir.
***Patent Rüsumu*** – verilmiş patentə əsasən ixtiralardan istifadə edilməsi hüququnun haqqı.
***Pauşal Qiymət*** – keyfiyyətcə müxtəlif olan mallara, fərdi keyfiyyətlərindən, malların ayrı-ayrı vahidlərin növlərindən asılı olmayaraq qoyulan qiymətdir.
***Pauşal Ödəniş*** – hər hansı ayrı-ayrı obyektlərə deyil, bütünlükdə onların kompleks cəminə ödənən miqdardır.
***Pay*** – səhmdar cəmiyyət və hər hansı yoldaşlıq təşkilatında iştirakla bağlı olaraq müəyyən əmlak hüququ və öhdəlikləri yaradan hissəsidir.
***Pay Almaq*** – ilkin bazarda qiymətli kağızların bir hissəsini almaq və qəbul etmək.
***Pay İnvestisiya Fondu*** – ayrı-ayrı xırda sahibkarlar tərəfindən etibarlılıq əsasında kapitalın investisya fondu şəklində birləşdirilməsi nəticəsində yaranan investisiya fondu (trastı).
***Pay Kapitalı*** – payçılar tərəfindən qoyulmuş paylardan yaradılan kapital.
***Pay Qiymətli Kağızı*** – şirkətin xüsusi kapitalına pay qoyuluşunu təsdiq edən qiymətli kağız.
***Pay Məsuliyyəti*** – hər hansı bir təsisçinin yalnız öz qoyduğu pay miqdarında daşıdığı məsuliyyətdir.
***Pay Mülkiyyəti*** – hər bir iştirakçının müəyyənləşdirilmiş payıdır (AR Mülki Məcəlləsi, 213-cü maddə).
***Pay Öhdəliyi*** – bir neçə kreditorun və ya borcalanın iştirak etdiyi öhdəlik.
***Pay Şəhadətnaməsi*** – məhdud məsuliyyətli müəssisələrdə, cəmiyyətlərdə müəssisənin iştirakçılarının nizamnamə fonduna pay ödəmək haqqında hər bir iştirakçıya müəssisə tərəfindən verilən qiymət kağız hesab olunmayan, bölünməyən və cəmiyyətin razılığı olmadan başqa şəxsə verilə bilməyən ad yazılmış xüsusi vəsiqədir.
***Pay Şərikliyi*** – hər birisinin ümumi fəaliyyətə əmlak, yaxud pul

formasında öz payını qoyduğu fiziki, hüquqi şəxslərin birliyi.
***Payçı*** – pay qoyuluşu edən və buna görə payın qoyulduğu payın üzvü olan şəxs.
***Peq*** – bir ölkənin milli valyutasının başqa bir xarici ölkənin valyutası qarşısındakı dəyərini digər üçüncü ölkənin valyutasına və ya bir qrup ölkənin valyutasına və ya bir qrup ölkənin valyutalarından ibarət səbətə bağlayaraq sabit saxlaması.
***Penni – 1)*** Hazırda Böyük Britaniyada tədavüldə olan xırda monet. 1 penni = 1/100 funt sterlinq; ***2)*** Hazırda İrlandiyada tədavüldə olan xırda monet. 1 penni = 1/100 funt; ***3)*** 2002-ci ilə qədər Finlandiyada tədavüldə olan xırda monet. 1 penni = 1/100 fin markası; ***4)*** Qədim İngiltərədə tədavülə buraxılan gümüş, bürünc monet.
***Pensiya*** – müəyyən yaş həddinə çatmasına, əlilliyə, ailə vəziyyətinə, eləcə də dövlət qarşısında əməyinə və xidmətinə görə vətəndaşlara mütəmadi qaydada ödənilən əvəzsiz ödəniş.
***Pensiya Fondları*** – özəl və dövlət şirkətləri, müəssisələri tərəfindən onlara pensiya ayırmaları edən şəxslərə pensiya və müavinətlərin ödənilməsindən ötrü yaradılan fondlar.
***Pensiya Kapitalı*** – müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləğidir.
***Pensiya Razılaşması*** – müəssisə ilə orada çalışanlar arasında pensiyaların ödənilməsi öhdəliyi barəsindəki müqavilədir.
***Perspektiv*** – gələcək dövr.
***Perspektiv Layihə*** – uzunmüddətli layihə, plan.
***Peşə*** – insanın əmək fəaliyyəti növü, onun daimi məşğuliyyəti, həmçinin müəyyən işin səviyyəli yerinə yetirilməsinə imkan verən bilik və bacarığa malik olmasının sübutu.
***Peşə Məsuliyyətinin Sığortası*** – "fəaliyyət, səhvlər və xətalar" üzündən meydana gələn maliyyə itkiləri ilə əlaqədar məsuliyyət sığortası növü. Sığorta etdirənlər vəkillər, arxitektorlar, mühasiblər, həkimlər, notariuslar, layihəçilər və s. ola bilər. Məsələn, vəkil qəsdən və ya bilməyərəkdən yol verdiyi səhvlər üzündən apardığı məhkəmə prosesinə görə ona qarşı irəli sürülmüş risklərə görə

məruz qaldığı itkisinə görə sığortalanır.
***Peşəkar*** – öz işinin ustası.
***Peşəkarlıq*** – yüksək ustalıq, peşəyə dərindən yiyələnmə, yüksək keyfiyyətli, peşəkarcasına icra.
***Pərakəndə Bank*** – kiçikliyindən asılı olmayaraq bütün müştərilərə bank xidmətləri göstərən, xırda bank əməliyyatlarını həyata keçirən kommersiya bankı.
***Pərakəndə Qiymətlər*** – əlavə dəyər vergisi və ticarət əlavəsi də daxil olmaqla malın satış qiymətidir.
***Pərakəndə Ticarət*** – son istehlakçılar tərəfindən əmtəələrin şəxsi, qeyri-kommersiya istifadəsi üçün ədədli və ya kiçik saylı əmtəə ticarəti.
***Pərakəndə Ticarət Yarmarkası*** – yerli hakimiyyət tərəfindən müəyyən yerdə aparılmağa icazə verilmiş, müvəqqəti, yaxud daimi fəaliyyət göstərən ticarət.
***Pərakəndəsatış*** – ədədlə, yaxud kiçik miqdarda satılan və ya alınan əmtəə.
***Pərakəndəsatış Firmaları*** – idxal və topdansatış firmalarının xidmətindən istifadə etmədən özləri idxal və ixrac əməliyyatlarını həyata keçirən firmalardır.
***Pərakəndəsatış Konqlomeratı*** – bölgü və idarəetmə funksiyalarının qismən inteqrasiyası ilə pərakəndə ticarətin müxtəlif istiqamət və formaları müəssisələrinin bir neçəsini vahid sahiblik altında birləşdirən sərbəst formalı korporasiya.
***Piastr*** – Hazırda Sudanda, Misirdə, Livanda və Suriyada tədavüldə olan xırda monet.
***Pibor*** – Paris banklararası depozit bazarında orta təklif məzənnəsi.
***Pilləli Qiymət*** – istehsal təyinatlı, konkret seriyalı məhsula müəyyən edilmiş qiymətdir.
***Pin-Kod*** – plastik kartlar vasitəsilə bankomatlardan nağd vəsaitlərin çıxarılması zamanı hesaba giriş üçün parol kimi istifadə edilən rəqəmlər yığınıdır.
***Pip (Pips)*** – valyuta məzənnəsində ən minimal dəyişikliyi əks edən anlayış. Adətən, 0,01%-ə bərabərdir.
***Piramida Sxemi (Ponzi Sxemi)*** – yüksək gəlirlilik vəd edən

aldadıcı investisiya sxemi. Bu gəlir əsaslandırılmış investisiyalardan deyil, yeni investorların vəsaitlərindən əldə edilir.
***Pistol*** – orta əsrlərdə qədim İspaniyada tədavüldə olan qızıl monet.
***Plan*** – müəyyən zaman ərzində hər hansı məqsədyönlü fəaliyyətin həyata keçirilməsi alqoritmini əks etdirən tədbirlər kompleksi və ya bu tədbirlər kompleksini göstərən sənəd, yazılış.
***Plan Göstəriciləri*** – nəzərdə tutulan vəzifələrinin göstərildiyi planların işlənib hazırlanmasında istifadə edilən göstəricilər.
***Planlaşdırma*** – hər hansı iqtisadi və ya sosial proseslər, hadisələr üzrə plan və ya planların müəyyənləşdirilməsi, tərtib edilməsi.
***Planlı Ödənişlər Qaydasında Hesablaşmalar*** – müəssisələr arasında daimi mal-material göndərişləri və ya xidmət göstərilməsi zamanı istifadə olunan hesablaşma formasıdır.
***Poçt Əlaqəsi*** – poçt göndərişlərinin qəbulu, hazırlanması, daşınması və çatdırılması, həmçinin pul vəsaitlərinin poçt və teleqraf göndərişləridir.
***Podrat*** – bir tərəfin (podratçı) digərinin (sifarişçi) tapşırığını yerinə yetirmək (müəyyən işləri vaxtında təhvil vermək), digərinin (sifarişçinin) isə həmin işi qəbul edib, əvəzində pulla dəyərini ödəmək barədə götürdükləri öhdəliklərin əks olunduğu müqavilədir. Podrat müqavilələrinin hüquqi tənzimlənməsi AR Mülki Məcəlləsinin 752 – 776 – cı maddələrinin müddəaları ilə həyata keçirilir.
***Podratçının Qənaətcilliyi*** – podratçının faktiki xərcləri ilə smeta xərcləri arasındakı fərqi göstərən pul vəsaitidir.
***Polipoliya*** – bazarda sağlam rəqabətin mövcudluğuna imkan verən vəziyyət.
***Polis*** – sığorta cəmiyyətinin onda sığorta olunan şəxsə, yaxud təşkilata verdiyi şəhadətnamə.
***Polis İli*** – gəmi sahibinin qarşılıqlı sığorta klubunda öz məsuliyyətini sığortaladığı vaxt dövrü.
***Polis – Sığorta Müqaviləsi*** – polisin üz tərəfində müqavilənin əsas müddəaları, əks tərəfində isə sığorta qaydaları göstərilmişdir.
***Portfel*** – investorun maliyyə alətləri dəsti. Portfel birbaşa olaraq investorlar tərəfindən və ya maliyyə vasitəçiləri tərəfindən qurula bilər.

***Portfellə İdarəetmə*** – iqtisadçı agentin əmlakdan daha yüksək gəlir əldə etmək məqsədi ilə aktiv və passivlərlə idarəetməsidir.
***Portfel İnvestisiya*** – divident və faizdən və kapitalın artımından gəlir əldə edilməsi məqsədi ilə qiymətli kağızlara, o cümlədən səhmlərə, istiqrazlara, veksellərə, xəzinə bonlarına, köçürmə depozit sertifikatlarına, bank akseptlərinə və s.-yə yatırılan investisiya.
***Portfel Meneceri*** – investor adından onun investisiya portfelini idarə edən maliyyə məsləhətçisi.
***Portfel Sərmayəsi*** – milli valyuta ödəməklə səhmlərin, istiqrazların və digər qiymətli kağızların xaricdə alınmasına görə aparılan maliyyə əməliyyatıdır.
***Portfel Sığortası*** – qiymətli kağızlar portfelinin maliyyə itkilərindən avtomatik sığortalanması. Bu sığortalanma fyuçers indeksləri vasitəsilə həyata keçirilir. Portfel sığortası əsas etibarilə qısamüddətli olur.
***Portfelin Formalaşdırılması*** – emitentlə müqavilə bağlamamışdan əvvəl anderrayter tərəfindən yeni buraxılış qiymətli kağızlara tələbi öyrənmək və optimal qiyməti müəyyənləşdirmək üçün potensial alıcılardan nə qədər qiymətli kağız almaq arzusunda olduqları və onları hansı qiymətə almaq istədikləri barəsində ilkin sifarişlərin toplanaraq müvafiq kitabda qeydiyyata alınması.
***Portfelsiz Nazir*** – hər hansı nazirliyə rəhbərlik etməyən, yalnız baş nazirin tapşırıqlarını yerinə yetirən və hökumətin iclaslarında həlledici səsə malik olan hökumət üzvü.
***POSDCORB*** – dövlət idarəçiliyinə yanaşmanın, idarəçinin vəzifələri kimi qəbul edilən proseslərin ingilis dilindəki qarışıqlıqların baş hərflərindən süni ifadə. “POSDCORB ilk dəfə Lüter Qalik adlı menecerin hesabatında əksini taparaq idarəedicinin funksiyalarını – vəzifələrini əks etdirir. POSDCORB-un tərkib hissələri: “planning” – planlaşdırma; “organizing” – təşkiletmə; “staffing” – heyətin idarə olunması; “directing – istiqamətləndirmə; “coordinating” – əlaqələndirmə; “reporting” – məlumatlandırma; “budgetinq” – büdcə-maliyyə fəaliyyəti.
***Postaudit*** – investisiya layihəsinin fəaliyyətə başlanıldıqdan sonra qiymətləndirilməsi.

***Pos – Terminal*** – ticarət və xidmət müəssisələrinin ərazilərində quraşdırılan məhsul və xidmətlərin haqqının ödənilməsini kartlar vasitəsilə aparmağa imkan verən cihazdır.

***Potensial Bazar*** – bazarda tədavül edən əmtəəyə ödəmə qabiliyyətli tələbin olduğu bazar.

***Potensial Ehtiyatlar*** – səhmdar cəmiyyətinin fəaliyyətindəki, səhm məzənnələrinin qalxmasına, kredit qabiliyyətinin artmasına ümid etməyə əsas verən gizli imkanlar.

***Potensial İmkanlar*** – müəssisənin, firmanın gələcəkdə əmtəə və xidmət istehsalını həyata keçirmək, gəlir və mənfəət əldə etmək imkanları.

***Potensial Rəqabət*** – artıq fəaliyyət göstərən firmalara yüksək iqtisadi mənfəət təmin edən sahəyə yeni firmaların daxil olması ehtimalı.

***Potensial Tələb*** – alıcılıq qabiliyyəti, potensial alıcıların sayı və onların tələbatlarının səviyyəsi ilə müəyyən edilən tələb.

***Pozitiv İqtisadiyyat*** – faktiki olaraq iqtisadiyyatın fəaliyyət göstərdiyini tədqiq edir.

***Preambula*** – qanunvericilik və ya digər hüquqi aktların, beynəlxalq müqavilələrin giriş hissəsi olub, həmin aktın qəbul edilməsi şəraiti və motivləri, məqsəd və vəzifələrinin konkret şəkildə göstərilməsidir.

***Prebendlər*** – tarixi kontekst baxımından prebendlər ruhanilər tərəfindən bölüşdürülən kilsə gəlirləridir.

***Preferensiya*** – bir dövlətin digərinə idxal – gömrük rüsumları dərəcələrinin azalması üzrə verdiyi xüsusi güzəştlərdir.

***Preyskurant*** – məhsul, əmtəə, xidmət qiymətlərinin siyahısı, məlumat kitabı.

***Preyskurant Qiyməti*** – məhsulun, malların, xidmətlərin preyskurantda yazılmış qeyd olunmuş qiyməti.

***Preyskurant Qiymətlərdən Güzəştlər*** – kataloqları və ya preyskurantları yenidən çap etməmək üçün, pərakəndə və topdan-satış qiymət kataloqları və preyskurantlarda müəyyənləşdirilmiş və mal istehsalçıları və ya topdansatış satıcıları tərəfindən qoyulmuş (adətən 30%-ə qədər) qiymət güzəştləridir.

***Preyudisiallıq*** – işə baxan hakimlərin, əvvəllər qanuni qüvvəyə minmiş məhkəmə qərarları və ya hökmlərində olan faktların yoxlanmadan və sübut etməyə çalışılmadan qəbul edilməsinin bütün hakimlər üçün vacibliyidir.

***Prezentasiya*** – yeni yaradılan müəssisənin, firmanın, layihənin, məhsulun, əmtəənin dəvət edilmiş şəxslərə rəsmi təqdim edilməsi.

***Prezident – 1)*** Respublika üsuli-idarəli ölkələrin əksəriyyətində dövlət başçısı; ***2)*** şirkətin, korporasiyanın ən yüksək vəzifəli şəxsi.

***Prezident Büdcəsi*** – ABŞ büdcə praktikasında prezidentin hər ilin yanvar və ya fevral aylarında Konqresə təqdim edərək növbəti maliyyə ili və sonrakı 4 il üçün federal proqramlar və dəyərləndirilmiş federal gəlir və xərclər üçün səlahiyyətlərin tələb edildiyi rəsmi sənəd.

***Prinsipial (Əsas Məbləğ)*** – borc alınmış və ya investisiya edilmiş ümumi məbləğ.

***Problemli Qiymətli Kağızlar*** – hal-hazırda müflisləşmə prosesində olan və ya müflislik ehtimalı böyük olan müəssisələrin qiymətli kağızları.

***Problemli Şirkətlərin Borcu*** – hal-hazırda müflisləşmə prosesində olan və ya müflislik ehtimalı böyük olan müəssisələr tərəfindən əldə olunmuş borc.

***Proforma Hesab*** – müqavilə şərtlərinə əsasən satıcının alıcıya göndərdiyi ilkin hesab.

***Proqnoz*** – iqtisadi proseslərin, hadisələrin və münasibətlərin gələcək inkişafını irəli sürən elmi əsaslandırılmış hipotez. Proqnoz keçmiş faktiki göstəricilərin tendensiyasının təhlili əsasında irəli sürülür.

***Proqnozlaşdırma*** – proqnozun irəli sürülməsi ilə bağlı istifadə olunan elmi praktiki metodların məcmusu və ya hər hansı bir prosesi, yaxud proseslər sisteminin inkişaf meyllərinə və perspektivlərinə yönəldilmiş elmi tədqiqat.

***Proqram Təsnifatı*** – proqramlar dövlət məqsədləri ilə əlaqədar dövlətin fəaliyyətlərinin qruplaşdırılmasıdır.

***Proqramlı Ticarət*** – fundamental məlumatlara deyil, ticarət və qiymət səviyyəsinin hərəkətinə əsaslanan kompüter üzərindən

ticarət metodu.
***Proqressiv İnteqrasiya*** – marketinq zamanı, bir şirkətin digər rəqib şirkətləri özünə tabe etməyə, yaxud özünün sərt nəzarəti altına almağa can atdığı inteqrasiya.
***Proqressiv Vergiqoyma*** – vergi ödəyicisinin vergiyə cəlb olunan gəlirinin artmasından asılı olaraq vergi dərəcələrinin artırılması prinsipinə əsaslanan vergiqoyma sistemi.
***Proqressiv Vergilər*** – konkret ödənilmiş minimuma və vergiödəmə bazasının həcminin artmasına əsasən hesablanan vergidir.
***Prolonqasiya*** – müqavilədə nəzərdə tutulan müddətin uzadılması. Borc müddətinin uzadılması.
***Promessa*** – uduş tirajının keçirildiyi müddətə qədər lotereya biletinin başqa bir lotereya biletinə dəyişdirilməsi ilə bağlı lotereya buraxan subyektin üzərinə götürdüyü öhdəliyi təsdiq edən sənəd.
***Proporsional Vergiqoyma*** – vergiyə cəlb edilən gəlirin həcmindən asılı olmayaraq vergi dərəcəsinin dəyişməz qalmasından ibarət vergiqoyma prinsipi.
***Proporsionallıq*** – iqtisadiyyatda proporsiyaların rasional, səmərəli struktur nisbətlərin, sahələrin, sferaların, regionların uzlaşdırılmış inkişafının təmin edilməsi.
***Prosedur*** – ***1)*** Əməliyyatın, prosesin tərkib hissəsi; ***2)*** İşlərin görülməsi zamanı edilən hərəkətlərin rəsmən təyin edilmiş nəzərdə tutulmuş tərzi və qaydaları.
***Prospekt*** – hər hansı bir sahədə satışın və ya buraxılışın həyata keçirilməsi alqoritmini sistemləşdirilmiş qaydada göstərən nəşr.
***Proteksionist*** – proteksionizm siyasətini həyata keçirən subyekt, dövlət, hökumət.
***Proteksionist Rüsumlar*** – yerli istehsalçıları dəstəkləmək məqsədi ilə xarici məhsulların ölkəyə idxalına tətbiq edilən rüsumlardır.
***Proteksionizm*** – dövlətin ticarət siyasətinin tarif və qeyri tarif alətlərindən istifadə yolu ilə daxili bazarın xarici rəqabətdən qorunması siyasətidir.
***Protokol*** – danışıqların və ya yoxlamaların nəticələrini əks etdirən və ya tərəflərin imzaladığı sənəd.
***Proviziya*** – köçürmə veksel trassat tərəfindən ödənişə qəbul

olunduğu üçün, ona mükafat şəklində verilən pul ekvivalentidir.
***Prudensial*** – maliyyə qurumlarının təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanan düşünülmüş davranış, idarəetmə və nəzarət üsuludur.
***Pud*** – metr sistemindən əvvəl işlədilmiş 16,4 kq-a bərabər olan Rus ağırlıq ölçüsü.
***Pul – 1)*** Ümumi ekvivalent funksiyasını həyata keçirən xüsusi əmtəə növü. Pulun 5 funksiyası fərqləndirilir: dəyər; mübadilə; ödəniş; tədavül; dünya pulu. ***2)*** Müxtəlif sahələrdə iqtisadi subyektlərin bu və ya digər məqsədlər üçün birləşməsi.
***Pul –Kredit Siyasəti*** – pul tədavülü və kredit sahəsində iqtisadiyyatın dayanıqlı və səmərəli fəaliyyətinin təmin edilməsi, pul sisteminin lazımi səviyyədə saxlanması məqsədi ilə ölkə hökuməti tərəfindən yeridilən kurs və həyata keçirilən tədbirlərdir.
***Pul Axınları Üzrə İnvestisiyaların Gəlirliliyi*** – cari əməliyyatlar üzrə pul axınlarının inflyasiya nəzərə alınmaqla təshih olunmuş ümumi məbləğinin qoyulmuş investisiyaların inflyasiya nəzərə alınmaqla təshih olunmuş ümumi məbləğinə nisbəti. Bu göstərici daxili gəlirlilik dərəcəsi kimi çıxış edir.
***Pul Akkreditivi*** – pul ödənişi tapşırığı ilə bağlı emitent – bankın öz filialına və ya digər banka, o cümlədən xarici banka göndərdiyi rəsmi sənəd.
***Pul Aqreqatları*** – bir –biri ilə likvidlik səviyyəsinə görə, başqa sözlə nağd pul vəsaitinə daha tez çevrilə bilmə imkanlarına görə fərqlənən pul vəsaitlərinin növləri, ölkədə pul kütləsinin struktur göstəriciləri. AR-də M0, M1, M2 və M3 aqreqatlarından istifadə olunur. M0=ödəniş vəsaiti kimi ani istifadə olunan pul kütləsinin ən likvid hissəsi. Dövriyyədə olan banknot və sikkələr.
M1=M0 + tələb olunanadək depozitlər (əmanətlər).
M2=M1 + müddətli depozitlər (əmanətlər).
M3=M2 + sərbəst dönərli valyutalar üzrə hesablar.
Bir sıra ölkələrdə L aqreqatından da istifadə olunur. Bura nağd pul vəsaitləri, çeklər, bütün növ depozitlər, həmçinin qiymətli kağızlar aid olunur.

***Pul Bazarı*** – qısa müddətli borc alətləri bazarı.

***Pul Bazarı Alətləri*** – pul bazarı alətlərinə əsasən aşağıdakılar aid edilir: xəzinə veksellәri, bank akseptləri, kommersiya kağızları, repolar, sövdələşmə depozit sertifikatları və s.

***Pul Bazarı Fondu*** – qısa müddətli pul bazarı alətlərinə investisiya edən fond.

***Pul Bazası*** – pul kütləsinin tərkib komponentlərindən biri.

$$N=M0 + B1 + B2 + B3$$

Burada: N – pul bazası; M0 – tədavüldə olan nağd pul; B1 – kommersiya banklarının mərkəzi bankdakı məcburi ehtiyat normaları; B2 – bankların kassalarında olan pul vəsaitləri; B3 – mərkəzi bankda müxbir hesabda olan pul vəsaitləri.

***Pul Çeki*** – çek sahibinin banka, yaxud digər kredit təşkilatının nağd ödəniş barəsində tapşırığını əks etdirən xüsusi formalı pul sənədi.

***Pul Depozitləri*** – bankda pulun əvəzli saxlanması əməliyyatı olub, tələb olunanadək əmanətlər, əmanət qoyuluşları və təcili əmanətlərə bölünür.

***Pul Dəyərləri*** – təsərrüfat subyektinin pul vəsaitləri və alıcıların – borc öhdəlikləri şəklindəki aktivləridir.

***Pul Dövriyyəsi*** – pul nişanlarının nağd və nağdsız formalarda fasiləsiz hərəkəti prosesi.

***Pul Ekvivalentləri*** – bir qayda olaraq, qiymətli kağızlar şəklində təqdim olunmuş qısamüddətli, yüksək likvidli sərmayələrdir.

***Pul Emissiyası*** – müəyyən dövr ərzində hər hansı ölkənin iqtisadiyyatında dövriyyədə olan ümumi pul kütləsi təklifi.

***Pul Əmanəti*** – müştərinin hesablanmış faizlər şəklində müəyyən gəlir əldə etmək üçün banka verdiyi pul vəsaitləridir.

***Pul Fondu*** – bu və ya digər layihələrin maliyyələşdirilməsi məqsədi ilə pul vəsaitlərinin yığılması, səfərbər edilməsi.

***Pul Hipotezi*** – monetarist məktəbin nümayəndəsi olan M.Fridman və A.Şvarts tərəfindən iqtisadi artımın pul tənzimlənməsi ilə bağlı irəli sürülən hipotez. Bu yanaşmaya görə, iqtisadiyyatda pul təklifinin azaldılması, yəni pul qıtlığı əksər iqtisadi böhranların səbəbinə çevrilə bilər.

***Pul İcmalı*** – ölkənin maliyyə sektoru ilə digər sektorlar arasında olan pul münasibətlərini əks etdirən göstəricilər sistemi. Pul icmalı ölkənin mərkəzi bankının və digər kredit təşkilatlarının birləşdirilməsinə əsaslanır.

***Pul İslahatı*** – ölkənin pul sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan islahat. Pul islahatının məqsədi milli valyutanın zəifləməsinin qarşısını almaq, milli pul vahidinin stabilliyini təmin etmək, bununla da makroiqtisadi tarazlığı təmin etməkdən ibarətdir.

***Pul Kapitalı*** – pul formasında olan və istehsal vasitələrinin alınmasına yönəldilməklə istehsala yatırılan kapital.

***Pul Köçürmələri*** – vətəndaşlar, hüquqi şəxslər, habelə hüquqi şəxslərlə fiziki şəxslər arasında tətbiq olunan qeyri-nağd hesablaşma formasıdır.

***Pul Kütləsi Aqreqatları*** – pul tədavülünün tənzimlənməsi məqsədi ilə onun öyrənilməsinə yönəldilən pul kütləsinin həcmini və strukturunu əks etdirən göstəricilərdir.

***Pul Kütləsinin Hədəflənməsi*** – Mərkəzi Bank tərəfindən pul kütləsinin həcminin tənzimlənməsini nəzərdə tutan pul siyasəti rejimidir.

***Pul Qiymətli Kağızları*** – pul almaq hüququ təsdiq olunan qiymətli kağızlardır.

***Pul Mexanizmi*** – ölkənin mərkəzi bankı tərəfindən pul kütləsinə təsir imkanlarından istifadə etməklə makroiqtisadi siyasətin idarə edilməsi prosesi.

***Pul Multiplikatoru*** – ümumilikdə milli iqtisadiyyatın, eləcə də bank sisteminin dövriyyədə olan pul bazasını artırmaq qabiliyyətini, imkanlarını xarakterizə edən iqtisadi – riyazi göstərici. Pul multiplikatoru geniş pul kütləsinin pul bazasına nisbəti kimi hesablanır.

***Pul Nişanları*** – müəyyən miqdar qiymətli metalların dövriyyəsini əvəz edən dəyər nişanlarıdır.

***"Pul" Opsionu*** – sahibinə qiymətli kağızı göstərilən dövr ərzində və öncədən razılaşdırılmış qiymətə satmaq hüququ verən opsion.

***Pul Öhdəlikləri*** – müəyyən mal və xidmətlərə götürülmüş pulla

ödəmə öhdəlikləridir.
***Pul Öhdəliklərinin Valyutası*** – öhdəliyin dəyər qiymətini əks etdirən valyuta vahididir. AR ərazisində yeganə ödəniş vasitəsi manatdır.
***Pul Sistemi*** – ölkədə qanunvericiliklə müəyyən edilmiş, ölkənin pul nişanları, pul vahidi, emissiya qaydası və pul tədavülünün forması, pul münasibətləridir.
***Pul Siyasəti*** – pul siyasəti əsasən qiymətlərin sabitliyinin təmin edilməsi məqsədi ilə həyata keçirilən tədbirlər sistemidir. Mərkəzi Bank valyuta məzənnəsi, pul kütləsi və faiz dərəcələrini tənzimləmək vasitəsilə inflyasiya proseslərinə təsir göstərir.
***Pul Siyasəti Alətləri*** – Mərkəzi Bankın qarşısına qoyduğu hədəflərə nail olmaq üçün istifadə etdiyi iqtisadi dəyişənlərdir. Pul siyasəti alətləri birbaşa və dolayı alətlərə bölünür. Birbaşa alətlərə misal olaraq faiz dərəcələri üzərində nəzarət, kreditləşmə dəhlizi, birbaşa və ya məqsədli kreditlərin verilməsini göstərmək olar. Dolayı alətlərə misal olaraq açıq bazar əməliyyatlarını göstərmək olar.
***Pul Siyasəti Alətlərinin Avtonomiyası*** – Mərkəzi Bankın qarşıya qoyulmuş məqsədlərə nail olması üçün pul siyasəti alətlərini sərbəst şəkildə seçməsidir.
***Pul Siyasəti Rejimi*** – son və aralıq hədəfləri arasındakı kombinasiyadan, həyata keçirilməsi mexanizmlərindən asılı olaraq təsnifləşdirilən pul siyasəti formalarıdır.
***Pul Siyasətinin Transmissiyası*** – Mərkəzi Bank tərəfindən qəbul edilən pul siyasəti qərarlarının iqtisadiyyata ötürülməsi prosesidir. Müasir dövrdə pul siyasətinin faiz dərəcələri, kreditlərin verilməsi, valyuta məzənnəsi, inflyasiya gözləntiləri kimi transmissiya kanalları mövcuddur.
***Pul Tədavülü Planı*** – pul vəsaitinin iqtisadi subyektlər arasında bölüşdürülməsini ifadə edən sənəd.
***Pul Vahidi*** – qanunvericilik əsasında müəyyən olunan ölkənin pul nişanı, ölkədə bu və ya digər qiymətlilərin pul ifadəsinin vahidi, ölkənin pul sisteminin əsas elementi.
***Pul Vahidinin Qızıl Məzmunu*** – ölkənin bir pul vahidinə müvafiq

olan təmiz qızılın çəki miqdarı.
***Pul Vəsaitləri Axınının Proqnozu*** – müəyyən vaxt üçün gözlənilən əqdlərdən daxil olacaq və xərclənəcək pul vəsaitlərini əks etdirən hesabatdır.
***Pul Vəsaitləri Balansı*** – müəyyən müddət ərzində müəssisəyə daxil olan pul vəsaitlərini və müəssisənin xərclərini əks etdirən balans. Pul vəsaitləri balansı adətən rüblük və illik tərtib olunur.
***Pul Vəsaitləri Hesabı (Nağd Hesab, Kassa Hesabı)*** – müştərilər tərəfindən yalnız tam ödənilmək şərti ilə aparılan qiymətli kağızların alışı üçün hesab.
***Pul Vəsaitləri Üzrə Hesablaşma – Kliring Fəaliyyəti*** – qiymətli kağızlarla aparılan əməliyyatlarla bağlı pul vəsaitlərinin köçürülməsi üzrə götürülən qarşılıqlı öhdəliklər üzrə fəaliyyətdir.
***Pul Vəsaitlərinin Büdcəsi*** – müəyyən aralıq vaxtı ərzində nağd pul şəklində daxil ola biləcək ödənişləri proqnozlaşdırmaq imkanı verən maliyyə sənədidir.
***Pul Vəsaitlərinin Dövriyyəsi Haqqında Hesabat*** – müəssisənin, hesabat dövründə daxil olan və istifadə olunan pul vəsaitlərinin məbləğlərinin göstərildiyi maliyyə hesabatı növ müxtəlifliyidir.
***Pul Vəsaitlərinin Hərəkəti*** – şirkətin maliyyə vəziyyətinin göstəricisi. Müəyyən aralıq vaxt müddətində pul vəsaitlərinin daxilolmaları ilə ödənişlər arasındakı münasibəti bildirir.
***Pul Vəsaitlərinin Saxlanmasına Cavabdeh Şəxs*** – tam fərdi maddi məsuliyyət barədə müqavilə bağlamış şəxsdir.
***Pul Yığımları*** – cəmiyyətin (dövlətin), müəssisənin, əhalinin pul formasında xalis gəliridir.
***Pulda Almaq (Öz dəyərində Qalmaq)*** – opsionun istifadə qiymətinin baza aktivinin qiymətinə bərabər olduğu hal.
***Pulla İfadə*** – müqayisəli maliyyə göstəricilərini almaq üçün pulun universal funksiyasından istifadə edib, mühasibat uçotunda təsərrüfat əməliyyatlarının əks etdirilməsinin əsas vəsaitidir.
***Pullu Mükafat*** – əməyin həcmindən və keyfiyyətindən asılı olan əmək haqqı və mükafat ödəmələri şəklində işçilərin əməyinin pulla ödənilməsi.
***Pulsuz Səhmlərin Buraxılışı*** – şirkət ehtiyatda olan pul vəsaitlərini

kapitallaşdıran zaman səhmdarlar üçün pulsuz səhmlərin buraxılışı.
***Pulun Alıcılıq Gücü*** – müəyyən pul vahidi ilə konkret dövrdə inflyasiya və ya deflyasiya nəzərə alınmaqla əldə etmək mümkün olan mal və xidmətlərin məcmusudur.
***Pulun Dəyəri*** – pul vahidinin alıcılıq qabiliyyəti, mövcud bazar qiymətləri şəraitində pul vahidinə alına bilən əmtəə və xidmətlərin miqdarı.
***Pulun Dəyərsizləşməsi*** – pulun alıcılıq qabiliyyətinin, yəni bazarda formalaşmış qiymətlərlə müəyyən pul məbləğinə alına bilən əmtəə miqdarının azalması, yaxud pulun valyuta məzənnəsinin enməsi.
***Pulun Dövriyyə Sürəti*** – müəyyən iqtisadiyyatda hər bir pul vahidinin müəyyən bir vaxtda neçə dəfə əl dəyişdirdiyini göstərən ölçü. Pulun dövriyyə sürəti adətən aşağıdakı formula əsasında hesablanır:

$$V = P * Y / M$$

Burada: V – pulun dövriyyə sürəti; P – qiymət səviyyəsi (qiymət indeksi); Y – ümumi məhsul buraxılışı; M – dövriyyədə olan pul kütləsi.
***Pulun Neytrallığı*** – dövriyyədəki pulun miqdarının dəyişməsi ancaq qiymət səviyyəsinin dəyişməsinə gətirib çıxara bilər, amma real dəyişənlərə təsir etməyən iqtisadi nəzəriyyə qaydasıdır.
***Pulun Tədavül Sürəti*** – tədavül və ödəmə vasitəsi kimi istifadə edilən pul vahidinin il ərzində etdiyi tam dövriyyələrin sayı.
***"Pulun Yuyulması"*** – pul vəsaitləri sahibinin onların əsl mənbələrini gizlətmək və onlara qanuni don geyindirmək məqsədilə həyata keçirdiyi tədbirlər.
***"Put – Koll" Nisbəti*** – "Put" opsionlarının həcminin "Koll" opsionlarının həcminə nisbəti. İnvestorun bazar haqqında sentimentini ölçmək üçün istifadə olunur.
***"Put – Koll" Pariteti*** – eyni xüsusiyyətlərə malik "Koll" və "Put" opsionları arasında münasibət.

$$C + PV(X) = P + S$$

Burada, ***C*** – "Koll" opsionu; ***P*** – "Put" opsionu; ***PV (X)*** – istifadə qiymətinin cari dəyəri; ***S*** – səhmin qiyməti.

# – *Q* –

***QAAP*** – ABŞ-da mühasibat uçotunun ümumilikdə qəbul olunan qayda və prinsiplərinin məcmusu.
***Qabaqcadan Satılma*** – malın satışını təmin edən hərəkət.
***Qabaqlayıcı Sövdələşmə*** – bazar sui-istifadələrinin bir növüdür. Mənfəət əldə etmək məqsədi ilə müvafiq əmtəələr üzrə potensial böyük sövdələşməyə dair elan olunmamış məlumat əsasında opsion müqavilələrin bağlanması.
***Qabarıqlıq*** – kuponlu istiqrazın qiymətinin faiz dərəcələrinin dəyişməsinə olan həssaslığının göstəricisi. Qabarıqlıq yüksək olduqda, istiqrazın qiyməti faiz dərəcələrinin dəyişməsinə daha az həssas olur.
***Qabarma*** – bazarda qiymətlərin qəfil qalxmasını izah etmək üçün istifadə edilə jarqon termindir.
***Qablaşdırma Vərəqi*** – bir əmtəə yerinə qablaşdırılmış malların keyfiyyət xarakteristikalarının əks olunduğu siyahı, əmtəə sənədi.
***Qaçaqmalçılıq*** – AR-nın gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsidir. Qaçaqmalçılıq AR-nın cinayət qanunvericiliyinə uyğun olaraq cəzalandırılır.
***Qadağanedici Tarif*** – malın idxalını iqtisadi cəhətdən əlverişsiz edən yüksək tarif dərəcələridir.
***Qafbroker*** – baş broker.
***Qaimə Xərcləri*** – istehsalın əsas xərclərinə əlavə edilən və məhsulun maya dəyərinə daxil edilən, idarəetmə və istehsalın təsərrüfat xidmətlərinə çəkilən xərclərdir.
***Qalıq Balansı*** – mühasibat uçotu hesablarının müəyyən konkret tarixə qalıqlarını (saldo) əks etdirən mühasibat balansıdır.
***Qalıq Kapital*** – səhmdar cəmiyyətin buraxdırdığı adi səhmlərin cəmidir.
***Qamma*** – baza aktivinin bir vahid dəyişməsi nəticəsində bu aktiv üzrə opsionun deltasının nə qədər dəyişəcəyini göstərən əmsal.

***Qanun*** – ölkə ərazisində bütün subyektlərin iqtisadi və ictimai davranışını tənzimləyən, dövlət tərəfindən müəyyən edilmiş məcburi qayda və normalar toplusudur.
***Qanuna Zidd Əqd*** – şərtləri qanunlara zidd olan, dövlətə və vətəndaşlara zərər vuran əqd.
***Qanunauyğun Hərəkətlər – 1)*** Fiziki və ya hüquqi şəxslərin, qanunvericiliyin tələbləri və hüququn prinsiplərinə uyğun hərəkətidir; ***2)*** Təsərrüfat hüquq və öhdəliklərinin yaranması üçün əsas hesab olunan hüquqi faktlardır.
***Qanunauyğunluq*** – sosial həyat (hüquq subyektlərinin fəaliyyəti və ya fəaliyyətinin nəticələri) hadisələrinin dövlət iradəsinin əks olunduğu hüquq normalarının tələb və icazələrinə uyğunluğudur.
***Qanunçuluq Prinsipi*** – təsərrüfat hüququnun prinsipi olub, müəssisənin öz təsərrüfat fəaliyyətində qanunla qadağan olunmayan istənilən nə fəaliyyətlə məşğul ola bilməsidir.
***Qanuni Akt*** – dövlət orqanlarının öz səlahiyyətləri çərçivəsində qanuna müvafiq və ya qanun əsasında onun icrası üçün verdiyi hüquq aktıdır.
***Qanuni Ödəmə Vasitələri*** – müəyyən ölkənin ərazisində ölkədə qüvvədə olan qanuna əsasən ödəmələr vasitəsi kimi qəbul olan pul nişanlarıdır.
***Qanuni Siyahı*** – əmanət bankları və trast fondları üçün qanuni investisiya qoyuluşlarının siyahısı.
***Qanunla İcazə Verilmiş İnvestisiya Obyektləri*** – yerli hakimiyyətin, ABŞ ştatların departamentlərinin nəzarəti altında olan müəyyən trast agentliklərinin investisiya portfelinə daxil edilməkdən ötrü əlverişli sayılan qiymətli kağızlar.
***Qanunsuz Hərəkətlər*** – fiziki və ya hüquqi şəxslərin qanunvericiliyin normalarını və hüququn prinsiplərini pozan hərəkətləridir.
***Qanunsuz Ödənişlər*** – rəqabət mübarizəsində əsassız (haqsız) üstünlüklər əldə etmək məqsədilə dövlət orqanlarının vəzifəli şəxslərini, siyasi partiyalarda rəhbər vəzifə tutan şəxsləri, kütləvi informasiya vasitələri işçilərini, bazar subyektlərinin rəhbərliyini və əməkdaşlarını öz tərəfinə çəkmək üçün nəzərdə tutulan maddi

və qeyri-maddi xarakterli ödənişlər.
***Qanunun Analogiyası*** – mülki hüquqi münasibətlər, mülki qanunvericilik və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda, həmin münasibətlərə oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normalarının tətbiqidir (AR Mülki Məcəlləsi, maddə 11).
***Qanunverici Məclis*** – səlahiyyətli orqanların bir sıra dövlətdə parlamentin adı.
***Qanunverici Məhdudiyyətlər*** – iqtisadi məhdudiyyətlərlə yanaşı rəqabəti məhdudlaşdırmağa yönəlmiş hökumət qərarları.
***Qanunverici Orqanlar*** – xüsusi hüquqa malik olan və qanunları qəbul etmək səlahiyyətində olan dövlət hakimiyyətinin ali orqanları.
***Qanunvericilik*** – ictimai, iqtisadi, mülki münasibətləri tənzimləyən (Mülki Məcəllə, Cinayət Məcəlləsi) ölkədə fəaliyyət göstərən qanunların məcmusu.
***Qanunvericilik Təşəbbüsü*** – qanunvericilik orqanlarına qanun layihələrini daxil etmək hüququdur.
***Qanunvericiliyin Əsasları*** – iri həcmli və mürəkkəb strukturlu vacib ictimai münasibətləri, ümumi prinsiplər əsasında stabil (sabit) normalarla tənzimləyən qanunvericilik aktlarının toplusudur.
***Qap*** – birja qiymətlərinin kəskin şəkildə artımı və azalması.
***Qapalı Abunə*** – qiymətli kağızların, bir qrup investorlar arasında elan edilmədən, qeyri-rəsmi yerləşdirilməsi.
***Qapalı Bazar*** – satıcı və alıcılar arasında möhkəm kommersiya əlaqələrinin bərqərar olduğu bazardır.
***Qapalı Deponentləşdirmə*** – bank tərəfindən müştərinin qiymətli şeylərinin saxlanması.
***Qapalı Devalvasiya*** – dövlətin məqsədli müdaxiləsindən kənar ölkə iqtisadiyyatında baş verən devalvasiya prosesi.
***Qapalı Fond*** – müəyyən olunmuş sayda səhm buraxan, başqa sözlə, xüsusi kapitalını təsbit edən investisiya fondu.
***Qapalı Girov*** – korporasiyanın aktivlərini artıq girova qoyduğu və

təzə girov kağızlarını buraxmağın mümkünsüz olduğu şəraitdə əmələ gələn vəziyyətdir.
***Qapalı Güzəştlər*** – qiymət güzəştləridir, beynəlxalq sindikatın daxili ticarətində firmadaxili mal göndərmələrində mallara, həmçinin xüsusi hökumətlərarası razılaşma ilə göndərilən mallara tətbiq edilir.
***Qapalı İqtisadiyyat*** – xarici ölkələrlə heç bir əlaqəsi olmayan iqtisadiyyatdır.
***Qapalı İnhisar*** – rəsmi, hüquqi cəhətdən mühafizə olunmuş inhisardır.
***Qapalı Sex*** – o elə vəziyyətdir ki, ona əsasən sahibkar işə yalnız həmkarlar ittifaqının üzvlərini götürə bilər.
***Qapalı Səhmdar Cəmiyyəti*** – səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyət.
***Qapalı Valyuta*** – yalnız bir ölkənin daxili bazarında tədavüldə olan və tədavülü bilavasitə hökumət tərəfindən tənzimlənən valyuta.
***Qapalı Yerləşdirmə*** – qiymətli kağızların əvvəlcədən müəyyənləşdirilmiş məhdud investorlar dairəsinə birbaşa təklifi. Başqa sözlə, qiymətli kağızların hər kəsə açıq şəkildə deyil, az sayda investora satılması.
***Qapanış Məzənnəsi (Son Məzənnə)*** – balans hesabatı tarixinə spot mübadilə məzənnəsidir.
***Qara Birja*** – ***1)*** Qeyri-leqal əmtəələrin alqı-satqısı; ***2)*** Birja-dankənar alqı-satqı bazar.
***“Qara Cəngavər”*** – müəyyən şirkətin udulması haqqında həmin şirkətin özü üçün arzuolunmaz təkliflə çıxış edən hüquqi və ya fiziki şəxs.
***“Qara Kassa”*** – firmanın qanunsuz, uçota alınmamış, vergi orqanlarına bəyan edilməmiş pul vəsaitlərinin mövcud olması, onların saxlanması və istifadə edilməsidir.
***Qarant (Zamin)*** – bank, digər kredit idarəsi və ya sığorta təşkilatının, digər şəxsin xahişi ilə prinsipialın kreditoruna qarantiya öhdəliklərinin şərtinə uyğun olaraq, benefisiar pul

məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə, həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verən şəxsdir (AR Mülki Məcəlləsi, 478-ci maddə).

***Qarant Bank –*** öz müştərisinə görə zamin duran bankdır.

***Qarantiya –*** müqavilənin şərtlərini və ya qanunun müddəalarını yerinə yetirmək barədə subyektlərin öhdəliyidir.

***Qarantiya Müddəti –*** mal göndərənin, məhsullardan lazımi şəkildə istifadə etdikdə və qoruduqda, onların normal qalmasına zamin durduğu vaxtdır.

***Qarantiya Öhdəlikləri –*** müəssisənin öz məhsuluna görə götürdüyü öhdəlikdən yaranmış qarantiya olub, onun bütün müddəti vaxtı qüvvədə olan öhdəliklərdir.

***Qarantiyalaşdırılmış Kredit –*** müəssisələrin bir-birinə, bankların və ya hökumət orqanlarının tapşırığı əsasında verdikləri kreditlərdir.

***Qarışıq Bank – 1)*** Həm dövlət, həm də qeyri-dövlət kapitalına malik bank, başqa sözlə yarımdövlət bankı; ***2)*** Qismən xarici kapitaldan ibarət olan bank.

***Qarışıq Cəmiyyət – 1)*** Özəl və dövlət kapitalının iştirak etdiyi müəssisə; ***2)*** Kapitalı iki və daha çox ölkənin sahibkarlarına, yaxud dövlət təşkilatlarına məxsus olan müəssisə.

***Qarışıq Daşımalar –*** sərnişinlərin və yüklərin bir neçə nəqliyyat növü vasitəsilə daşınması.

***Qarışıq Formada Ödənilən Kontraktlar –*** xərclərin bir hissəsinin pul, bir hissəsinin isə əmtəə formasında ödənilməsidir.

***Qarışıq İqtisadiyyat –*** bazar və mərkəzləşdirilmiş iqtisadi sistemlərin cəhətlərinin uzlaşdırıldığı iqtisadiyyat.

***"Qarışıq Kapitalizm" –*** dövlət və özəl qərarların resursların bölgüsü strukturunu müəyyən edən iqtisadiyyatdır.

***Qarışıq Müəssisələr –*** hər birisi öz payı ilə təmsil olunduğu müxtəlif mülkiyyət formalarının iştirak etdiyi müəssisə.

***Qarışıq Şirkət – 1)*** Özəl və dövlət kapitallı şirkət; ***2)*** Kapitalı bir və ya bir neçə ölkənin sahibkarlarına, yaxud dövlət orqanlarına məxsus şirkət.

***Qarşıdakı Xərclər və Ödəmələr Ehtiyatı –*** müəssisələrdə,

şirkətlərdə cari xərclərin istehsal və tədavül məsrəflərinə bərabər daxil edilməsi məqsədi ilə yaradılan sabit passiv növü.

***Qarşılıqlı Asılılıq*** – dövlətlər, firmalar, şəxslər arasında mövcud olan onlarsız tərəflərin heç birinin ötüşə bilmədiyi, qarşılıqlı iqtisadi əlaqələr.

***Qarşılıqlı Daşınmalar*** – eyni növdən olan yüklərin, malların qarşılıqlı istiqamətlərdə daşınması.

***Qarşılıqlı Əvəzlənə Bilən*** – bu termin bir alətin digəri ilə eyni xüsusiyyətlərə malik olduğunu və digəri ilə əvəz oluna bilindiyini təsvir etmək üçün istifadə olunur.

***Qarşılıqlı Fəaliyyət*** – ümumilikdə fəaliyyətdə iştirak etmə, əməkdaşlıq, əməliyyatların, sazişlərin birgə həyata keçirilməsi.

***Qarşılıqlı/müştərək/ümumi fond*** – investorlardan vəsait cəlb edib səhm, istiqraz və digər qiymətli kağızlara investisiya edən kollektiv investisiya fondu.

***Qarşılıqlı-ümumi Fond Əlavəsi*** – qarşılıqlı ümumi fondların səhmlərinin alınmasına və satılmasına görə alınan ticarət əlavəsidir.

***Qarşılıqlı Hesabaalınma*** – mal tədarüklərində, yaxud xidmətlərin göstərilməsi zamanı müəssisələr arasında qarşlıqlı tələblərin hesablanması şəklində nağdsız hesablaşmalar üsulu.

***Qarşılıqlı Hesablaşma (Zaçot)*** – bir neçə hüquqi və ya fiziki şəxslərin qarşılıqlı öhdəliklərinin, ödənişlərinin bərabər məbləğlərdə olan qarşılıqlı borclarının ödənilməsi.

***Qarşılıqlı Hesablaşmalar Saldosu*** – müəyyən dövr ərzində təsərrüfat təşkilatlarının şəxsi hesabı üzrə qarşılıqlı hesabaalınma üzrə göstərilən ödəmələrlə vəsaitlərin daxil olmasının müqayisəsinin nəticəsi.

***Qarşılıqlı Sığorta*** – vətəndaşların və hüquqi şəxslərin öz əmlaklarını və digər mülkiyyət maraqlarını birləşdirmək yolu ilə qarşılıqlı sığorta etdirməsidir.

***Qarşılıqlı Tədarüklər*** – elə ticarət əməliyyatlarıdır ki, alıcı satıcı ilə müəyyən müddətdən, bəzən uzun vaxt fasiləsindən sonra öz mallarının qarşılıqlı cavab satışı haqqında razılıq əldə edir və saziş bağlayır.

***Qarşılıqlı Təklif*** – əmtəənin müəyyən qiymətlə müəyyən miqdarda satılması, yaxud alınması haqqındakı təklifə sazişin bağlanması şərtləri haqqında başqa təkliflərdən ibarət cavab.

***Qarşılıqlı Tələblərin Ödənişi*** – müəssisə və təşkilatların, digər iqtisadi subyektlərin qarşılıqlı hesablaşmalarının nağdsız formasıdır.

***Qarşılıqlı Tələblərin Zaçotu*** – öhdəliyin kəsilməsi qaydalarından biridir.

***Qarşılıqlı Tələbnamə*** – borclu subyektin kreditora ona olan borcunu hər hansı başqa öhdəlik məbləği ilə qarşılıqlı əvəzləşdirilməsi barədə rəsmi təklifini, tələbini ifadə edən sənəd.

***Qarşılıqlı Ticarət*** – ixracatçıların idxalçılardan ixracın tam dəyərinə bərabər, yaxud ixrac dəyərinin bir hissəsi həcmində malların alınması üzrə qarşılıqlı öhdəliklərini nəzərdə tutan xarici ticarət əməliyyatları kontraktlar, sazişlər.

***Qarşı – Veksel (Əks-İddia, Rekambio) – 1)*** Veksel üzrə ödəniş etmiş şəxs tərəfindən veksel üzrə öhdəlik daşıyan digər subyektlərə protest elan etməklə ona faizlər, cərimələr və çəkdiyi digər xərclərlə birlikdə ödədiyi məblğin qaytarılması ilə bağlı irəli sürülən rəsmi tələb, yaxud bu tələbə görə təqdim olunan qarşı-veksel adlanan rəsmi sənəd. ***2)*** Veksel üzrə öhdəliyin vaxtında yerinə yetirilməməsinə görə tətbiq edilən cərimə.

***QATT*** – dünya ölkələrinin çoxu arasında 1948-ci ildə qəbul edilmiş çoxtərəfli saziş. Özündə Ölkələrarası ticarət kontraktlarının bağlanması və beynəlxalq ticarət əməliyyatlarının aparılması qaydalarını ehtiva edir.

***Qayıtmaz Xərclər*** – müəssisə, təşkilat, firma tərəfindən yol verilən, istehsalın həcmindən asılı olmayan, əlavə xərclər tələb etməyən birdəfəlik həyata keçirilən xərclərdir.

***“Qaymaq Yığmaq”*** – istehsalçı müəssisələr və ticarət firmaları tərəfindən bazara yeni məhsul çıxarıldıqda müvəqqəti olaraq yüksək mənfəətin əldə edilməsinə istiqamətlənmiş qiymət siyasəti.

***Qaynar Pullar*** – bankların, hüquqi şəxslərin və fərdi əmanətçilərin öz dəyərini qorumaq və ya alver mədaxili əldə etmək üçün kor-koranə bir ölkədən başqasına keçən, müvəqqəti sərbəst pul

vəsaitləridir.
***Qaytarılan Gömrük Rüsumu*** **–** ölkəyə gətirilmiş əmtəədən tutmuş, onun emalından əldə edilmiş məhsulun ölkədən çıxarılması zamanı qaytarılmalı olan idxal rüsumlarının məbləği.
***Qaytarma Çeki*** **–** ödəniş – hesablaşma sənədlərinin düzgünsüzlüyü səbəbindən icra edilmiş çekin, reallaşdırılmış ödənişin bu ödənişi həyata keçirən bankın və ya digər kredit təşkilatının xeyrinə qaytarılmasını göstərən çek.
***Qazanılmış Üstünlük*** **–** ölkənin qabaqcıl texnologiya tətbiq edərək, daha az məsrəflə hər hansı bir məhsulu istehsal etmək qabiliyyətidir.
***Qeşeft*** **–** fond birjasında həyata keçirilən gəlirli, uğurlu əməliyyat.
***Qeyd*** **–** əməliyyatların, mühasib müxabirləşməsinin, hesablardakı dəyişikliklərin yazılı əks etdirilməsi.
***Qeyd Olunan İstiqrazlar*** **–** kampaniyanın buraxdığı istiqrazların üzərində istiqraz sahibinin adının və ünvanının yazılmasıdır.
***Qeydiyyat*** **–** siyahıya, uçot kitabına daxil edilmə.
***Qeydiyyat Aparan*** **–** yeni buraxılmış qiymətli kağızların yerləşdirilməsi ilə əlaqədar bütün əməliyyatların qeydiyyatına cavabdeh olan anderrayter.
***Qeydiyyat Ərizəsi*** **–** yeni buraxılışa hazırlıq zamanı şirkət tərəfindən Qiymətli Kağızlar üzrə tənzimləyici quruma göndərilən sənəd.
***Qeydiyyat Kitabı*** **–** birjada baş verən hadisələr və həyata keçirilən əməliyyatlar üzrə ilkin məlumatların qeyd olunduğu kitab (jurnal).
***Qeydiyyat Rüsumu*** **–** dolayı vergiqoymanın sənədlərin qeydiyyatına, əqdlərin bağlanılmasına şamil edilən ən mühüm növlərindən biri.
***Qeydiyyat Şəhadətnaməsi (Patenti)*** **–** vətəndaşın fərdi əmək fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiqləyən sənəd.
***Qeydiyyat Tarixi*** **–** ***1)*** Emitentin növbəti dividentləri almaq hüququ olan səhm saxlayıcılarının və qeydiyyatda olan səhm sahiblərinin siyahısını tərtib etmək üçün təyin etdiyi gün; ***2)*** Səhmdarların ümumi iclasında səs vermə və yeni buraxılışa yazılış məqsədi ilə səhm saxlayıcılarının qeydiyyatdan keçməsi üçün təyin edilmiş son

tarix.

***Qeydiyyata Alınmış Gəlir*** – şəxsin bütün gəlir mənbələri hesabına əldə etdiyi, rəsmi təsdiq edilmiş məcmu pul gəlirləridir.

***Qeydiyyata Alınmış Girov*** – qeyd olunmuş şəxsin adına yazılmış səhmlərin girovudur.

***Qeydiyyata Alınmış Market – Meyker (Bazar İştirakçısı)*** – mövcud qaydalara uyğun olaraq, birjada rəsmi qeydiyyatdan keçmiş market-meyker (bazar iştirakçısı).

***Qeydiyyata Alınmış Nümayəndə*** – investisiya şirkətinin müştərilərə investisiya barədə məsləhətlər vermək səlahiyyəti olan əməkdaşı.

***Qeyd – Şərt*** – müqavilədə qabaqcadan nəzərdə tutulmayan, lakin çox ehtimal olunan hadisənin baş verdiyi hallarda tərəflərin münasibətlərini tənzimləyən xüsusi maddə.

***Qeyri-Adi Yüksək Gəlirdən Vergi*** – hər hansı müəssisənin monopolist mövqeyindən istifadə edərək normaldan artıq əldə etdiyi əlavə gəlirin vergiyə cəlb edilməsini nəzərdə tutan vergi növü.

***Qeyri-Bariz Məsrəflər*** – firmanın resurslarından istifadə olunmasının alternativ xərcləridir, onları açıq (pul) ödəmələri əvəz etmir.

***"Qeyri-Çevik" Kapital*** – çətin əvəz edilə bilən kapital.

***Qeyri-Diskresion Hesab*** – brokerin müştərisinin tam ixtiyarında olan hesab; bu halda, müştəri apardığı əməliyyatlara görə birbaşa özü məsuliyyət daşıyır.

***Qeyri-Dönərli Valyuta*** – ancaq daxili pul tədavülündə istifadə edilən, dönərli olmayan valyuta.

***Qeyri-Dövlət Qiymətli Kağızlarının Buraxılışı*** – emitentlər, yəni səhmdar cəmiyyətləri, fond birjaları, investisiya fondları, banklar və öz qiymətli kağızlarını buraxan digər təşkilatlar tərəfindən buraxılan qiymətli kağızların məbləği və miqdarını göstərir.

***Qeyri-Elastik Təklif*** – malın təklifinin həddinin malın qiymətinin dəyişməsinə zəif təsir etdiyi bazar vəziyyətidir.

***Qeyri-Elastik Tələb*** – qiymətlərin dəyişməsinə zəif hissiyatlı olan tələb.

***Qeyri Emissiya – Qiymətli Kağızı*** – emissiya qiymətli kağızından fərqli olaraq buraxılışlarla yerləşdirilməyən və qiymətli kağız üzrə hüquqların keçməsinin həcmi və müddəti müxtəlif olan qiymətli kağız.

***Qeyri-Etik Reklamlar*** – ***1)*** milli və ya dünya mədəni irsinin incəsənət obyektlərini korlayan reklamlar; ***2)*** dövlət simvollarını AR milli valyutasını təhqir edən reklamlar; ***3)*** hər hansı fiziki və hüquqi şəxsi, hansısa sənəti, fəaliyyəti və malları pisləyən reklamlar.

***Qeyri-Əmtəə Əməliyyatları Üzrə Hesablaşmalar*** – bilavasitə maddi qiymətlilərin satış və xidmətlərin göstərilməsi ilə bağlı olmayan nağdsız hesablaşmalar.

***Qeyri-Formal Təşkilatlar*** – təşkilati – rəsmi struktur olmadan, hüquqi müqavilə bağlanmadan birgə iqtisadi fəaliyyəti həyata keçirən birlik şəxslər qrupudur.

***Qeyri-Həyat Sığortası*** – sığorta hadisəsi baş verdiyi zaman sığortalıya vurulan zərər ödənilməklə onun məsuliyyəti, əmlakı və mənafeləri ilə bağlı risklərin sığortasıdır.

***Qeyri-İstehsal Xərcləri*** – bilavasitə istehsalla əlaqədar olmayan köməkçi, əlavə xərclərdir.

***Qeyri-İstehsal Sferası*** – maddi istehsalı təşkil etməyən bir neçə sahə və fəaliyyət növlərinin şərti adıdır.

***Qeyri-İşlək Kredit*** – faizin hesablanması dayandırılmış, yaxud əsas məbləğinin və ya faizinin ödənişi müqavilədə nəzərdə tutulmuş müddətlərdən 90 gün və ya daha çox gecikdirilmiş, faizi kapitallaşdırılmış və ya yeni kredit kimi rəsmiləşdirilmiş, yaxud faizinin ödəniş müddəti uzadılmış kreditlər, habelə faizinin ödəniş müddəti 90 gün və ya daha çox gecikdirilmiş overdraftlar.

***Qeyri-İşlək Kreditin Məbləği*** – ödənilməmiş faiz məbləği istisna olmaqla kreditin əsas məbləğinin ödənilməmiş qalığı.

***Qiymətli-Kommersiya Fəaliyyəti*** – məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin keçirilməsidir, əks halda bu fəaliyyət kommersiya fəaliyyəti sayılır.

***Qeyri-Kommersiya Təşkilatları*** – əsas məqsədi gəlir əldə etmək olmayan müəssisələrdir (hüquqi şəxslər).

***Qeyri-Kumulyativ*** – sahibinə ödənilməmiş və ya ötürülmüş dividentə görə heç bir haqq ödəməyən imtiyazlı səhmin bir növüdür.

***Qeyri-Kumulyativ İmtiyazlı Səhmlər*** – emissiya şərtlərində geri alınma tarixi olmayan, sahibinin tələbi ilə ödənilməyən, ona gələcəkdə bu hüquqları verməyən, emitentə səhm sahiblərinə dividentlərin verilməməsi barədə qərar qəbul etmək hüququ verən, habelə səhm sahiblərinə əvvəlki ödənilməmiş dividentlər üzrə ödənişlərin alınmasını tələb etmək hüququnu verməyən imtiyazlı səhmlər.

***Qeyri-Qiymət Amili*** – bazarda malların tələb və təklifinə təsir edən qiymətdən başqa digər amillərdir.

***Qeyri-Qiymət Rəqabəti*** – rəqabət mübarizəsinin üsuludur, onun əsasını rəqiblər üzərində qiymət üstünlüyü deyil, daha yüksək keyfiyyətə, texniki səviyyəyə, texnoloji mükəmməlliyə nail olmaq təşkil edir.

***Qeyri-Likvid*** – aktivin nağd pula asanlıqla dəyişdirilə və ya satıla bilməməsi.

***Qeyri-Maddi Aktivlər*** – intellektual, o cümlədən ticarət nişanları, digər sənaye mülkiyyəti obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər analoji hüquqlar.

***Qeyri-Maddi Aktivlərin Amortizasiyası*** – bu amortizasiyanın kəmiyyəti hər ay ilkin qiymətdən və səmərəli istifadə müddətindən hesablanmış normalar üzrə hesablanır.

***Qeyri-Maddi Hüquq*** – təsərrüfat subyektlərinin patent, müəlliflik hüququ, mal nişanları və s. şəklində olan aktiv növləridir.

***Qeyri-Məhdud Məsuliyyət*** – müəssisədə sahibin itkilərinin üzərinə heç bir məhdudiyyət qoyulmaması halı.

***Qeyri-Məhdud Məsuliyyətli Şəriklik*** – bir neçə şəxsin mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən ötrü birləşməsi.

***Qeyri-Məhsuldar Xərclər*** – təsərrüfatsızlıqda yaranmış artıq xərclərdir; itkilər.

***Qeyri-Mərkəzləşdirmə*** – idarəetmə funksiyalarının mərkəzi hakimiyyət orqanlarından yerli hakimiyyət orqanlarına verilməsi, yuxarılara hesabına aşağı idarəetmə orqanlarının səlahiyyət dairəsinin genişləndirilməsi.
***Qeyri-Milliləşmə*** – dövlət mülkiyyəti obyektinin özəl mülkiyyətə verilməsidir.
***Qeyri-Müəyyənlik*** – iqtisadi fəaliyyətin davam edəcəyi şərait haqqında kifayət qədər məlumatların olmaması, bu şəraiti qabaqcadan görməyin, əvvəlcədən xəbər verməyin zəif səviyyədə olmasıdır.
***Qeyri-Mükəmməl Bazar*** – eyni əmtəələrin müxtəlif şərtlərlə satıldığı bazar.
***Qeyri-Mükəmməl Rəqabət*** – firmaların, onların istehsal etdiyi məhsulun qiymətinə nəzarət etmək imkanları olduğu şəraitdə rəqabətidir.
***Qeyri-Nizamnamə Sövdələşməsi*** – göstərilməyən məqsədlərə çatmaq üçün hüquqi şəxsin bağladığı sövdələşmədir.
***Qeyri-Normal Əqd*** – 100 səhmdən az sayda qiymətli kağız üzrə əqdlərin bağlanması.
***Qeyri-Pul İnvestisiyası*** – qeyri-pul formasında, yəni intellektual mülkiyyət, torpaq mülkiyyəti, müxtəlif hüquqlar, lisenziyalar və s. şəklində yatırılan investisiya.
***Qeyri-Rezident*** – rəsmi qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri; Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı və ya Azərbaycan Respublikasında xarici ölkənin dövlət xidmətini həyata keçirən şəxs və onların ailə üzvləri.
***Qeyri-Rezident Bank*** – bir ölkənin ərazisindən kənarında yerləşməklə xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq bank və ya digər kredit təşkilatı olan qeyri-rezident – hüquqi şəxsdir.
***Qeyri-Rəqabətli Sifariş*** – ilkin yerləşdirmənin orta çəkili qiyməti ilə sifarişdə göstərilən pul vəsaiti məbləğində qiymətli kağızların alqı-satqısı müqaviləsinin bağlanması barədə investorun emitentə etdiyi təklifdir.

***Qeyri-Sabitlik*** – sabitliyin itirilməsi, yaradılmış ritmin, iqtisadi proseslər dinamikasının pozulması, istehsal və maliyyə sferasında.
***Qeyri-Səmərəli Tələbat*** – insan və onun sağlamlığı üçün zəruri
***Qeyri-Subordinasiya Borc Öhdəlikləri*** – qanunla müəyyən olunmuş qaydada və növbəliliklə subordinasiya borc öhdəliklərindən əvvəl ödənilən cəlb edilmiş borclar (məsələn, banklararası kreditlər).
***Qeyri-Tarif Məhdudiyyətlər*** – ölkəyə müəyyən əmtəələrin gətirilməsi və ölkədən çıxarılmasına qoyulmuş birbaşa həcm məhdudiyyətləri.
***Qeyri-Tarif Ticarət Məhdudiyyəti*** – tariflər, subsidiyalar, ixracın könüllü məhdudlaşdırılması, dempinq istisna olmaqla
***Qeyri-Yaşayış Tikilisi*** – yaşayış üçün deyil, istehsal, ticarət, kommunal – məişət məqsədləri üçün istifadə edilməyi nəzərdə tutulmuş ayrıca tikilidir.
***Qəbul Edən Ölkə*** – hər hansı göndərişi, o cümlədən maliyyə və ul sənədini qəbul edən tərəf.
***Qəbz*** – pulun, sənədin, habelə digər qiymətlilərin qəbul edilməsini, təhvil alınmasını təsdiq edən sənəd.
***Qənaət*** – təsərrüfatın qənaətcil aparılmasıdır. Onun əsasında məsrəflərin azaldılması durur.
***Qənaət Rejimi*** – əsasında resurs sərfinin minimallaşdırılması, resurslara qənaət edilməsi duran təsərrüfatçılıq üsulu, tərzi.
***Qənaətcilik anlayışı*** – mühasibat uçotunun fundamental anlayışlardan biri olub, uçotun alternativ prosedurаları içərisindən gəlirlilik və aktivlərin ölçüləri nöqteyi-nəzərindən daha səmərəlisinin seçilməsidir.
***Qərar*** – dövlətlərin, regionların, müəssisələrin, firmaların rəhbərləri tərəfindən variantların təhlili nəticəsində, qoyulmuş məqsədlərdən irəli gələrək və resursların məhdudluğunu nəzərə alaraq iqtisadi fəaliyyət tərzi, üsulu.
***"Qərəzli"-Odioz Borclar*** – beynəlxalq hüquqda siyasi rejimlərin hökumət adından öz rejim maraqları üçün cəlb etdikləri xarici borclardır.
***Qərəzli Təklif*** – tam alış qiymətinin nağd ödənməsi.

***Qəsdən Müflisləşmə*** – məqsədli şəkildə müəssisənin rəhbəri və ya mülkiyyətçisi tərəfindən müəssisənin ödəniş qabiliyyətinin olmaması şəraitinin yaradılmasıdır.
***Qəti Akkreditiv*** – müəyyən müddətə açılan və bank tərəfindən həmin müddət bitməyincə şərtləri dəyişdirilə, yaxud ləğv edilə bilinməyən akkreditiv.
***Qəti Əqd*** – iştirakçıları tərəfindən qiymətli kağızların müəyyən edilmiş müddətdə çatdırılması üzrə öhdəliklərin götürüldüyü və şərtlərin dəyişdirilməsi nəzərdə tutulmayan müddətli əməliyyat növü.
***Qəti Qiymət*** – müqavilə bağlandığı zaman təyin edilmiş və onun qüvvədə olduğu bütün müddət ərzində dəyişməz qalan qiymət.
***Qəti Oferta –*** bu oferent tərəfindən bir mümkün alıcıya müəyyən növ əmtəənin satışı barədə göndərdiyi yazılı təklifdir ki, orada göstərilən müddət ərzində satıcı öz təklifi ilə bağlı olur və başqa alıcıya analoji təkliflə müraciət edə bilməz.
***Qəza*** – bir şeyin sıradan çıxması, onun normal iş ahənginin pozulması.
***Qəza Komissarı*** – sığorta olunmuş obyektlər üzrə zərərin səbəbləri, şərtləri və ölçüsünün müəyyən olunması ilə məşğul olan sığortaçının səlahiyyətli nümayəndəsi olan ekspert. Qəza komissarının ünvanı və telefon nömrələri sığorta şəhadətnaməsində qeyd olunur.
***Qəza Sertifikatı*** – sığorta olunmuş əmlakda zərərin xarakteri, həcmi və ölçüsünü müəyyən edən və Qəza komissarı tərəfindən tərtib olunan sənəd.
***Qısa Hedc*** – gələcəkdə satılacaq əmtəə və ya qiymətli kağızın qiymətinin düşməsinə qarşı sığortalanmaq məqsədi ilə bu əmtəə və ya qiymətli kağızlar üzrə törəmə alətlərin satışı.
***Qısa Maliyyə Hesabatı*** – ancaq hesabatın əsas kateqoriyaları haqqında məlumat alan maliyyə sənədləşməsidir.
***Qısa Marja Hesabı*** – "Qısa" satışlara cəlb olunan investorların onlardan tələb olunan marja depozitlərini qoyduqları hesab.
***Qısa Mövqe – 1)*** Qiymətli kağızların qiymətinin düşəcəyini güman edərək bu qiymətli kağızların borca götürülərək satılması; ***2)***

Opsion və fyuçers kontekstində baza aktivinin gələcəkdə müəyyən qiymətə satılması.
***Qısa Ödəmə*** – öncədən borca götürülərək satılmış qiymətli kağızların geri qaytarılması üçün bazardan alınması.
***Qısa Satış*** – investorun sahib olmadığı və ya borca aldığı qiymətli kağızın satışı.
***Qısamüddətli Borclanma*** – borc alanın 12 ay ərzində geri ödəməli olduğu borc (kredit).
***Qısamüddətli Dövr – 1)*** İqtisadiyyatda uzunluğu bir olan dövr; ***2)*** İqtisadi nəzəriyyədə əmtəə istehsalçılarının sərf edilən resursların bir hissəsini dəyişə bildiyi dövr, yəni resursların bir hissəsinin daimi resurs, digər hissəsinin isə dəyişkən resurs kimi çıxış etdiyi dövr.
***Qısamüddətli İnvestisiyalar*** – başqa müəssisənin səhm və fondlarının, hal-hazırda müvəqqəti olaraq həmin müəssisəyə məxsus olan və yaxın müddətdə satılması nəzərdə tutulan cari aktivlərdir.
***Qısamüddətli İstehlak Əmtəələri*** – istehlak müddəti bir ilə qədər olan, yaxud bir və ya bir neçə silsilə ərzində tamamilə istehlak edilən istehlak malları.
***Qısamüddətli İstiqraz*** – dövriyyə müddəti bir ilədək olan istiqrazlar.
***Qısamüddətli Kapital Bazarı*** – etibarlı qısamüddətli qiymətli kağızları alan və satan birja dilerlərinin bazarı.
***Qısamüddətli Kreditlər*** – öz dövriyyə vəsaitini artırmaq və əmtəə material dəyərlərini kreditləşdirmək üçün banklar tərəfindən müəssisə və təşkilatlara təqdim olunur.
***Qısamüddətli Kreditləşdirmə Obyekti*** – borcalan subyekt tərəfindən kredit vəsaitinin yönəldildiyi, qısa müddət ərzində iqtisadi səmərə əldə oluna bilən investisiya fəaliyyəti obyekti.
***Qısamüddətli Maliyyə Öhdəlikləri*** – müəssisənin əməliyyatları maliyyələşdirmək üçün aldığı qısamüddətli kreditlər və overdraftlardır (cari ildə ödənilməli olanlar).
***Qısamüddətli Proqnoz*** – sosial, elmi – texniki, iqtisadi obyektlər üçün proqnozlaşma dövrü 1 aydan 1 ilə qədər olan proqnoz.

***Qısamüddətli Sərgilər*** – 3 həftədən çox olmayaraq keçirilən sərgilərdir.
***Qısamüddətli Sərmayələr*** – lazım olduqda cari öhdəlikləri yerinə yetirmək üçün istifadə oluna bilən dövriyyə vəsaitləridir.
***Qısamüddətli Sığorta*** – bir ilə qədər dövrü əhatə edən sığorta münasibəti.
***Qızıl Çek*** – qızıl təminatına malik və müəyyən həcmdə qızıl gəlirinə (adətən 20% həcmində) zəmanət verilən təqdim edilən (təqdim edənə) qiymətli kağız.
***Qızıl Ehtiyatı*** – Mərkəzi Bankın, yaxud ölkənin xəzinədarlığının sərəncamında olan qızıl külçələr və sikkələr şəklində, mərkəzləşdirilmiş ehtiyat fondu.
***Qızıl Kvota*** – Beynəlxalq Valyuta Fondunda – BVF – üzvü olan ölkənin haqqının bir hissəsidir. Bu hissə qızılla ödənilir.
***Qızıl Qayda*** – dövlətin cari xərcləri maliyyələşdirmək üçün yox, yalnız investisiyanı maliyyələşdirmək üçün borc götürməsinə dair ideya. Bu ideya cari büdcənin balansda olması fikrini irəli sürür.
***Qızıl Pariteti*** – ***1)*** Ölkənin milli valyutası ilə qiymətləndirilən təmiz qızılın çəkisidir; ***2)*** Təmiz qızılın çəkisi üzrə iki pul vahidinin nisbətidir.
***Qızıl Pul*** – London qızıl birjasında birgə əməliyyatların aparılması üçün ABŞ və yeddi Qərbi Avropa ölkəsi tərəfindən qızılın bazar qiymətinin, onun rəsmi qiymətinin səviyyəsində sabitləşdirilməsi məqsədilə yaradılmış xüsusi beynəlxalq təşkilat.
***Qızıl Sertifikatı*** – ***1)*** Bankda və ya digər kredit institutlarında saxlanan, qorunan qızıla mülkiyyət hüququnu təsdiq edən sənəd, sertifikat. ***2)*** Bir sıra ölkələrdə büdcə kəsirinin maliyyələşdirilməsi və ya xəzinənin kassa icrasının təmin edilməsi məqsədi ilə tədavülə buraxılan borc öhdəlikli dövlət qiymətli kağızlarının bir növü.
***Qızıl Səhm*** – səhmdar cəmiyyətinə çevrilən, özəlləşdirilən dövlət müəssisəsinə baxan dövlət orqanının əlində saxlanan, şərti səhm.
***Qızıl Standart*** – valyuta sistemi qəti müəyyən edilmiş valyuta kursuna və aşağıdakı əsas şərtlərə əsaslanır. Ölkənin pul vahidinin qızıl məzmununun müəyyən edilməsi. Ölkə daxilindəki nağd pul kütləsi ilə ölkənin qızıl ehtiyatı arasında nisbətən gözlənilməsi.

Qızılın sərbəst idxal və ixracına heç bir maneənin olmaması. 1879-1934-cü illərdə qızıl standart mövcud olmuşdur.

***Qızıl Təminatı*** – ölkənin mərkəzi (Milli Bank) bankında bank emissiyasını örtmək üçün olan qızıl ehtiyatıdır.

***Qızıl Valyuta*** – birbaşa qızıla mübadilə olunan pul vahidi.

***Qızıl Valyuta Ehtiyatları*** – Mərkəzi bankda, yaxud maliyyə orqanlarında saxlanan dövlət qızıl və xarici valyuta ehtiyatları, eləcə də beynəlxalq valyuta-kredit təşkilatlarındakı dövlətə məxsus olan qızıl və xarici valyuta.

***Qızıl və Xarici Valyuta Ehtiyatları*** – borcun yerləşdirilməsi üçün kreditorların tələbini maliyyələşdirən qızıl və xarici valyuta səhmləri.

***Qızılın Qiymətinin Müəyyənləşdirilməsi*** – qızıl külçəsinin, qızıl məmulatlarının və qızıl tərkibli məhsulların dəyərini formalaşdırmaq üçün dilerlər tərəfindən qızılın qiymətinin təyin edilməsidir.

***Qiffen Paradoksu*** – İslandiya əhalisinin istehlak strukturunun öyrənilməsi ilə məşğul olan XIX əsr ingilis statistiki R.Qiffenin müşahidələrinə görə çörəyin qiymətinin ciddi şəkildə artması ona olan tələbin azalması ilə deyil, əksinə kəskin artması ilə müşahidə olunmuşdur.

***Qineya*** – Böyük Britaniyada qızıl monetin ilkin adı. Bu ad Qvineya sözündən götürülmüşdür. Hazırda 1 q. = 21 şillinq

***Qismən Dönərli Valyuta*** – digər ölkələrin valyutalarına mübadiə imkanlarının məhdud olduğu valyuta.

***Qismən Ehtiyat*** – kommersiya bankının pul vəsaitlərinin, ehtiyatlarının normasıdır.

***Qismən Ödəmə*** – ödənilməmiş kredit balansına görə edilmiş qismən ödəniş.

***Qismən Təminatlı Kredit*** – bazar dəyəri kreditin ödənilməmiş məbləğindən aşağı olan girovla və ya digər təminatla təmin edilmiş kreditdir.

***Qiymət*** – ***1)*** Alıcı və satıcı arasında tələb və təklif əsasında formalaşan pul və ya digər ekvivalent olub, iqtisadi kateqoriyadır; ***2)*** Müqavilənin əsas şərti olub, hüquqi kateqoriyadır; ***3)*** Bəzi müqavilə növlərinin əsas şərtlərindən biridir.

***Qiymət Ayrı-Seçkiliyi*** – bazarda qeyri-mükəmməl rəqabət şəraitində satıcının eyni mala müxtəlif qiymətlər qoyması ilə bağlı hərəkətidir.
***Qiymət Çevikliyi*** – qiymətlərin dəyişməsi vəziyyətidir.
***Qiymət Diskriminasiyası*** – məhsulun keyfiyyətindən və ya məsrəflərin səviyyəsindən asılı olmayaraq, eyni mallara müxtəlif qiymətlərin qoyulması təcrübəsidir.
***Qiymət Elastikliyi*** – qiymətə dair tələbin, yaxud təklifin elastikliyidir, qiymətin dəyişməsinə tələbin (təklifin) dəyişmə reaksiyasıdır.
***Qiymət Göstəriciləri (İndiqatorları)*** – texniki analizdə istifadə olunan qiymət göstəriciləri.
***Qiymət İndeksi*** – müəyyən dövr ərzində qiymətlərin nisbi dəyişməsini, qalxmasını və ya enməsini əks edən göstərici.
***Qiymət Liderliyi*** – iri şirkətin qiymətə fəal təsir etmək, yaxud, hətta onu təyin etmək imkanına malik olduğu bazar vəziyyətidir.
***Qiymət Limiti*** – bəzi mal və qiymətli kağızlar bazarında, bir birja sessiyası ərzində qiymətlərin həddən artıq dəyişməsinin qarşısının alınması və qiymətlərə möhtəkirlik amillərinin təsirinin yumşaldılması üçün tətbiq edilən, qiymətlərin son dərəcə yol verilə bilən dəyişmələridir.
***Qiymət Maksimumu*** – əmtəə və xidmət qiymətlərinin qanunvericiliklə təyin edilmiş maksimal həddi.
***Qiymət Nəzarəti*** – müəyyən növ əmtəələrin qiymətlərinin müəyyən dövrlərdə keçirilən dövlət tənzimlənməsi.
***Qiymət Razılaşması*** – mala, qiymətli kağızlara və s. müəyyən müddətə qiymət qoyulmasını və bəzən qiymət təyin edilməsini əks etdirən hüquqi qüvvəyə malik olan kontraktı, müqaviləni ifadə edən termindir.
***Qiymət Uçurumu*** – birja qiymətlərinin kəskin şəkildə artımı və azalması.
***Qiymət və Gəlir Siyasəti*** – mərkəzi hökumətin antiinflyasiya siyasətidir.
***Qiymətdən Dilerlərə Güzəştlər*** – istehsalçı tərəfindən özünün ölkə daxilində və xaricdə olan daimi nümayəndələrinə və ya satış üzrə

vasitəçilərinə verdikləri güzəştdir.
***Qiymətdən Gizli Güzəşt*** – satıcı və alıcının nümayəndələrinin gizli razılığı nəticəsində əmtəənin preyskurantdan aşağı qiymətlə satılması.
***Qiymətdən Xüsusi Güzəştlər*** – satıcıların xüsusilə maraqlı olduqları sifarişlə imtiyazlı alıcılara verilən güzəştdir.
***Qiymətdən İxrac Güzəşti*** – satıcılar tərəfindən əmtəələrin xarici alıcılara satışı zamanı yerli alıcılara verilən güzəştdən artıq verilən güzəştdir.
***Qiymətdən Kəmiyyətə və ya Seriyalılığa Görə Güzəşt*** – əvvəlcədən razılaşdırılmış miqdardan artıq əmtəə alan alıcılara verilən güzəştdir.
***Qiymətdən Salınmış Əmtəə*** – ilkin qiymətinin endirildiyi, bir qayda olaraq mövsümi, pis satılan əmtəə.
***Qiymətə Əlavə*** – məmulatın, məhsulun, malın onların hazırlanması və satışı, ya da ki, onların xüsusi xassələri ilə bağlı olaraq qiymətinin artmasıdır.
***Qiymətin "Birbaşa Məsrəflər + Mənfəət" Metodu İlə Hesablanması*** – əmtəənin maya dəyərinin üzərinə standart, normativ mənfəətin əlavə edilməsi və qiymətin maya dəyəri ilə mənfəətin cəmi kimi hesablanması.
***Qiymətin Dövlət Tənzimlənməsi*** – əhalinin az təminatlı təbəqələrinin gəlirlərinin sabit qalması və iqtisadi rentabelliyin azalmaması məqsədi ilə qiymətlərin ümumi səviyyəsinə təsir edən dövlət tədbirlərinin məcmusu.
***Qiymətin Hesablanması – 1)*** İstehsal və başqa məsrəflərin nəzərə alındığı qiymətqoyma prosesi; ***2)*** Qiymətin kalkulyasiyasının göstərildiyi sənəd.
***Qiymətin Qaldırılması, Yaxud Endirilməsi Qeyd – Şərti*** – müqavilədə göstərilmiş ana bazar qiymətlərinin müəyyən həddən artıq qalxması, yaxud enməsi baş verdikdə əmtəənin müqavilə üzrə qiymətinin dəyişməsini nəzərdə tutan maddə.
***Qiymətin Minimal Dəyişikliyi*** – maliyyə alətinin qiymətində baş verməsi mümkün olan minimal dəyişiklik.
***Qiymətqoyma*** – mal və xidmətlərə qiymətlərin yaranma,

əmələgəlmə prosesidir.
***Qiymətləndirmə*** – əmlakın, məhsulun və digər qiymətlilərin dəyərinin müəyyən edilməsi.
***Qiymətləndirmə Problemi*** – mühasibat uçotunda təsərrüfat əməliyyatlarının dəyər ifadəsi məsələsinin həllində yaranan problemlərdir.
***Qiymətlər Müharibəsi*** – firmalar tərəfindən öz məhsuluna qiymətlərin təkrarlanan uzunmüddətli endirilməsidir.
***Qiymətlərin Dayanıqlığı*** – qiymətlərin dəyişkənliyini müəyyən edən birja termini.
***Qiymətlərin İndeksasiyası*** – əhalinin sosial müdafiəsinin gücləndirilməsindən ötrü əmək haqqı, təqaüd, stipeniyalara dotasiyalar etmək yolu ilə əhalinin pul itkilərinin müəyyən dərəcədə tənzim edilməsi məqsədilə istehlak əmtəələri qiymətlərinin qalxmasının illik hesablanması.
***Qiymətlərin Sabitliyi*** – inflyasiya sürətinin iqtisadi qərarların qəbul edilməsinə heç bir təsir göstərmədiyi vəziyyət.
***Qiymətlərin Səviyyəsi*** – hazır mallar və xidmətlər üçün hazırkı vaxt anında ödənilən orta ölçülmüş qiymət.
***Qiymətlərin Sındırılması*** – qiymətini endirməkdən ötrü əmtəənin qızğın satışı.
***Qiymətlərin Şişirdilməsi*** – qiymətlərin bilərəkdən obyektiv faktlarla şərtləşdirilməmiş qaldırılması.
***Qiymətlərin Təsbitlənməsi*** – müəyyən edilmiş, verilmiş, təsbit edilmiş səviyyədə malların, qiymətli kağızların qiymətlərinin saxlanması.
***Qiymətlərin Təşəbbüslü Dəyişməsi*** – şəxsi qiymətlər sistemini və qiymətqoyma strategiyasını işləyib hazırlamış firmaların vaxtaşırı olaraq qiymətləri qaldırmaq, yaxud endirmək zərurətini çəkməsi faktını əks etdirən marketinq anlayışı.
***Qiymətlərin Təyin Edilməsi*** – birjada alıcı və satıcı tərəfindən qiymətlərin rəsmi bildirilməsi və sonrakı qeydiyyatı.
***Qiymətlərlə Manipulyasiya*** – qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının

iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir.

***Qiymətli Kağız*** – əmlak hüququnun vacib rekvizitlər və müəyyənləşdirilmiş formalara əməl olunmasını təsdiqləyən sənəddir.

***Qiymətli Kağızın Dövlət Qeydiyyat Nömrəsi*** – müvafiq dövlət orqanı tərəfindən emissiya qiymətli kağızlarının konkret buraxılışının eyniləşdirilməsi məqsədi ilə verilən kod.

***Qiymətli Kağızın Həqiqi Sahibi – 1)*** Qiymətli kağızın verdiyi hüquqlardan faydalanan şəxs.

***Qiymətli Kağızın Sertifikatı*** – müvafiq qanunvericiliyə uyğun olaraq, bilavasitə emitent tərəfindən, yaxud emitentin sifarişi əsasında müvafiq depozitar tərəfindən buraxılan və qiymətli kağızların sertifikatda göstərilə sayına bütün hüquqları təsdiqləyən maliyyə sənədi.

***Qiymətli Kağızlar Bazarı*** – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.

***Qiymətli Kağızlar Bazarında Diler Fəaliyyəti*** – qiymətli kağızların elan olunmuş qiymətləri ilə, qiymətli kağızların alqı-satqı əqdlərinin öz adından və öz hesabına bağlanması üçün ümumi alış və satış qiymətləri yolu ilə həyata keçirilən fəaliyyətdir.

***Qiymətli Kağızlar Bazarının Peşəkar İştirakçısı*** – qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və ya fiziki şəxslər.

***Qiymətli Kağızlar Portfeli*** – hər hansı iqtisadi subyektin malik olduğu qiymətli kağızların məcmusu.

***Qiymətli Kağızlar Registri*** – firmanın bütün qiymətli kağızları haqqında məlumatların göstərildiyi registr.

***Qiymətli Kağızlar Reytinqi*** – qiymətli kağızların gəlirin ödənilməsi və geri alınması əsasında keyfiyyətini və etibarlığını müəyyən edən dərəcə, kateqoriya, sinif.

***Qiymətli Kağızlar Üzrə Hüququn Verilməsi*** – adsız qiymətli kağızın başqasına verilməsidir. Adlı qiymətli kağızlar isə tələblərdən imtina üçün qoyulmuş qaydada həyata keçirilir.

***Qiymətli Kağızlar Üzrə İnvestorların Müdafiəsi Şirkəti*** – brokerin müflisləşməsi vaxtı müştərilərin pul və qiymətli kağızlarının itirilməsinin qabağını almaq üçün dövlətin təminatına əsaslanan şirkətdir.

***Qiymətli Kağızlar Üzrə Komissiyaların Beynəlxalq Təşkilatı*** – Qiymətli Kağızlar bazarının tənzimləyicilərinin beynəlxalq təşkilatı.

***Qiymətli Kağızlar Üzrə Milli Klirinq Şirkəti*** – ABŞ-ın Qiymətli Kağızlar üzrə dilerlərinin milli assosiasiyası tərəfindən yaradılmış klirinq şirkəti.

***Qiymətli Kağızlar Vergisi*** – səhm, istiqraz və digər qiymətli kağızların emitentlərindən tutulan, həmçinin birja sövdələşmələrinin cəlb edildiyi vergidir.

***Qiymətli Kağızların Bankda Mühafizəsi*** – saxlamaq (depozit) üçün banka qoyulmuş qiymətli kağızlardır.

***Qiymətli Kağızların Birja Kursu*** – qiymətli kağızların aşağıdakı amillərlə müəyyənləşdirilən bazar qiymətidir; ***1)*** cari və gözlənilən gəlirlər; ***2)*** Bank faiz dərəcələrinin ölçüləri qızıl, ayrı-ayrı mal və daşınmaz əmlakların qiyməti; ***3)*** Alınmış qiymətli kağızların itkisiz pula çevrilməsi – likvidliyi; ***4)*** Birja alveri – qiymətli kağızların fond birjalarında birja kursu ilə saxta sövdələşmələr zamanı olan kurs arasında əldə olunan alver gəlirləri.

***Qiymətli Kağızların Buraxılışı*** – emitentin qiymətli kağızların bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızlarının toplusudur.

***Qiymətli Kağızların Ehtiyat Fondu*** – dövlət qiymətli kağızlarının tədavüldən kənarda mərkəzi bankda qorunduğu hissəsi.

***Qiymətli Kağızların Emissiya Prospekti*** – qiymətli kağızların nəzərdə tutulan emissiyası haqqında ümumi məlumatları, o cümlədən emitentin iqtisadi-maliyyə və digər göstəricilərini əks etdirən sənəd.

***Qiymətli Kağızların Emissiyası*** – emitentin qiymətli kağızların

emissiyası haqqında qərarının qəbulundan başlayaraq, qanunvericiliyə uyğun olaraq, emissiya prospektinin tərtibi, qiymətli kağızların buraxılışı, yerləşdirilməsi və digər tədbirlərin məcmusu.

***Qiymətli Kağızların Gözlənilmədən Daha Az Satınalınması*** – yeni qiymətli kağızın investorlar tərəfindən tam alınmaması.

***Qimətli Kağızların İdarə Olunması Barədə Müqavilə*** – bir qayda olaraq, kommersiya banklarının göstərdikləri aşağıdakı xidmətlərdir: ***1)*** Bank öz müştərisinin qiymətli kağızlarını saxlamaq barədə öhdəlik götürür; ***2)*** Onların uçotunu təmin etmək; ***3)*** Faizləri və dividentləri inkassasiya etmək; ***4)*** Qiymətli kağızlar üzrə ödəmə məbləğini tapmaq; ***5)*** Səhmdarların növbəti yığıncağı haqqında müştərini məlumatlandırmaq; ***6)*** Səhmləri və digər qiymətli kağızları mübadilə etmək; ***7)*** Yeni səhmlər buraxmaq.

***Qiymətli Kağızların Likvidliyi – 1)*** İnvestor tərəfindən sahibi olduğu qiymətli kağızları əldə etdiyindən daha yüksək dəyərə, yəni mənfəət əldə etməklə reallaşdıra bilməsi imkanları, qabiliyyəti.

***Qiymətli Kağızların Listinqi*** – fond birjasının şərtlərinə və tələblərinə uyğun gələn qiymətli kağızların kotirovka vərəqəsinə daxil olma proseduması.

***Qiymətli Kağızların Tədavülü*** – Qiymətli kağızların yerləşdirilməsindən sonra onlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesidir.

***Qiymətli Kağızların Yerləşdirilməsi*** – Qiymətli kağızların yerləşdirilməsi emitentin qiymətli kağızlarının ilk sahiblərinə özgəninkiləşdirilməsidir.

***Qiymətli Kağızlarla Əməliyyat*** – səhmlər, əmanət sertifikatları və istiqrazlarla, onların növündən, dövriyyə şərtlərindən, nominalından, köçürmə vekseli üzrə müqavilə bağlanmasından, qiymətli kağızların emissiya prospektinin qeydiyyatından asılı olmayaraq, əmlak hüququnun yaradılmasına yönəldilmiş hərəkətdir.

***Qiymətli Metallar*** – istənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında, kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan

qızıl, gümüş, platin və platin qrupu metalları (palladium, iridium, osmium, rodium və rutenium).

***Qiymətli Məktub*** – təşəbbüskarların uydurduğu fırıldağa daha yeni qurbanları daxil etməyi nəzərdə tutan fırıldaq növüdür.

***Qiymət-Mənfəət Nisbəti*** – şirkətin səhminin cari qiymətinin hər səhmə düşən xalis mənfəətə nisbəti.

***Qlobal Depozitar Qəbzləri*** – xarici şirkətlərin bir neçə səhmini təmsil edən və müxtəlif ölkələrdəki banklar tərəfindən buraxılan sertifikat.

***Qlobal Kontrakt*** – adətən, tərəflərin qarşılıqlı öhdəliklər diapazonunun genişliyi və bu öhdəliklərin ümumi dəyərinin böyüklüyü ilə fərqlənən müqavilələrdir.

***Qlobal Səhm Təklifi*** – səhmlərin eyni zamanda bir neçə ölkənin bazarında yerləşdirilməsi.

***Qloballaşma*** – dünyanın homogenləşməsi, vahid prinsiplərə əsaslanaraq vahid bəşəri dəyərlərə sadiqlik, eyni ənənələr və davranış normalarını həyata keçirmək kimi mühüm məsələləri əhatə edən. İlk dəfə bu termin amerikalı tədqiqatçı alimlər tərəfindən irəli sürülmüş və 1983-cü ildə T.Lenittanın "Harvard Biznes Revyu" jurnalında dərc olunmuş məqaləsində işlədilmişdir.

***Qohumbazlıq*** – favoritizmin bir növü olub ailə əlaqələri nəticəsində yaranır. Qohumbazlıq qohumlarının xeyrinə şəxsin öz səlahiyyətlərini istismar etməsidir.

***Qonorant*** – vekselin üzərində imzası ilə təsdiq etməklə veksel məbləğinin ödənişinə zəmanət verən şəxs.

***Qonorar*** – nəşr olunmuş əsərinə görə müəllifə təqdim olunan mükafat.

***Qonorat*** – vekseli təqdim etməklə qonorantın zəmanəti əsasında borc əldə edən şəxs.

***Qorunan Açıqlıq*** – ciddi bir qəbahət, məsələn, korrupsiyaya qurşanmaq, zəif idarəetmə və ictimai pulun bədxərcliklə xərclənməsi haqqında bəyanatdır.

***Qorunan Əmanət*** – rəsmi qanunvericiliyə əsasən sığorta hadisəsi baş verdikdə Əmanətlərin Sığortalanması Fondu, tərəfindən qorunan, əmanətçiyə kompensasiya olunan əmə istirahətindir.

***Qorunan Əmanətçi*** – aşağıdakılar istisna olmaqla, bankda əmanəti olan fiziki şəxsdir. Bankın müşahidə Şurasının, audit komitələrinin, idarə heyətinin üzvləri və onların yaxın qohumları.
***"Qoruyucu"*** – birjada səhmlərin qiymətlərinin gözlənilməz və kəskin dəyişməsinin qarşısının alınması üçün tətbiq edilən nəzarət mexanizmidir.
***Qoyulmuş Kapitaldan Gəlir*** – gəlir norması və ya rentabellik olub, cəlb olunmuş fondlardan müəssisənin səmərəli istifadəsinin əsas göstəricisidir.
***Qradualizm*** – digər makroiqtisadi siyasət istiqamətlərinə ciddi təsir göstərməməklə inflyasiya dərəcəsinin tədricən aşağı salınması.
***Qrant*** – humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakətlər nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri, təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramlarını elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirtmək göstərilən yardımdır.
***Qrantor*** – Qrant vəsaitini təqdim edən tərəf, subyekt.
***Qratis*** – əvəzsiz, havayı, dəyəri ödənilmədən. Bu ifadə daha çox bir sıra ticarət münasibətlərində məhsulun sonradan dəyərli məhsulun sonradan dəyəri ödənilməmək şərti ilə verilməsi, göndərilməsi kimi istifadə olunur.
***Qrif – 1)*** Sənəddə möhürün, yaxud ştempelin şəkli; ***2)*** Xüsusi saxlanma və istifadə etmə şəraitlərini müəyyən edən sənədlərin, kitabların, nəşrlərin üzərində yazı, yaxud xüsusi işarə.
***Qrivna – 1)*** Ukraynanın milli pul vahidi (1996-cı ildən). 1qrivna = 100 qəpik. ***2)*** Qədim Rusiyada pul və çəki ölçüsü vahidi.
***Qros – 1)*** Hazırda Polşada tədavüldə olan xırda monet. 1 qroş= 1/100 zlotıy; ***2)*** Hazırda Avstriyada tədavüldə olan xırda monet. 1 qroş = 1/100 şillinq; ***3)*** XII əsrin sonlarında İtaliyada tədavüldə olan gümüş monet; ***4)*** Ən ucuz qiymət.
***Qudvil*** – firmanın işgüzar reputasiyası və ya onun bazar qiyməti ilə

balans dəyərinin fərqi.

***Qulden* – *1)*** Hollandiyanın milli pul vahidi (1816-cı ildən). 1 qulden = 100 sent; ***2)*** Antil adalarının milli pul vahidi; ***3)*** Surinamın milli pul vahidi; ***4)*** XIV-XIX əsrlərdə bir sıra Avropa dövlətlərində tədavüldə olan qızıl, gümüş monet və pul vahidi.

***Qulluqçular*** – fəhlələrdən fərqli olaraq inzibati – təsərrüfat, idarəetmə funksiyalarını yerinə yetirən şəxslər, kontor işçiləri.

***Qurd*** – Haitinin milli pul vahidi. 1 qurd = 100 sentimo.

***Qüvvəyə Minmə Günü*** – səhmlərin qiymətli kağızlar üzrə tənzimləyici orqanın icazəsi ilə alqı-satqısına başlandığı gün.

# – R –

***Rand*** – 1961-ci ildən Cənubi Afrika Respublikasının Milli pul vahidi. 1 ZAR=100 sent.

***Rantye*** – maliyyə gəliri ilə yaşayan şəxs. Gəliri yalnız dividentdən, kredit faizindən, qiymətli kağızlardan ibarət olan iqtisadi subyekt.

***Rapp*** – İsveçrədə tədavüldə olan xırda monet.

***Rassel İndeksləri*** – ABŞ şirkətlərinin "Frank Russel" Şirkəti (Takoma, Vaşinqton) tərəfindən hesablanan və dərc edilən bazar kapitallaşmasının çəkili indeksləri.

***Ratifikasiya*** – ali dövlət hakimiyyəti orqanı tərəfindən dövlətin müvəkkil şəxsinin imzaladığı beynəlxalq müqavilənin təsdiqlənməsidir.

***Ratifikasiya Fərmanı*** – ali dövlət hakimiyyəti orqanı tərəfindən dövlətin müvəkkil şəxsinin imzaladığı beynəlxalq müqavilənin təsdiqlənməsi üçün tərtib edilən xüsusi sənəddir.

***Razılaşdırma Anlayışı*** – mühasibat uçotunun fundamental anlayışlarından biri olub, mənası analoji maddələrə uçotun eyni prinsipi əsasında baxılması deməkdir.

***Razılaşdırılmış Qiymətləndirmələr*** – iqtisadiyyatın vəziyyətinin və ya şirkətin gələcək nəticələrinin razılaşma əsasında proqnozu.

***Reaksiya*** – əvvəlki yüksəlişdən sonra qiymətlərin sürətlə enməsi.

***Real Effektli Məzənnə İndeksi*** – manatın ticarət partnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli rela məzənnələrin dəyişiminin ticarət xüsusi çəkiləri nəzərə alınmaqla həndəsi ortasını əks etdirir.

***Real Əmtəə Bazarı*** – real əmtəələrlə ticarət edilən bazar.

***Real Əmək Haqqı*** – müqabilində alına bilən nemətlərin, istehlak əmtəə və xidmətlərin miqdarı şəklində hesablanan, müəyyən edilən əmək haqqı.

***Real Əmtəə*** – dərhal təqdim edilən, anbarda olan, yaxud gələcəkdə təqdim ediləcək, fyuçers kimi abstrakt əmtəələrdən fərqli olaraq fərdi keyfiyyətlərə, xüsusiyyətlərə malik olan əmtəə.

***Real (Nağd) Əmtəə Əqdi*** – əmtəə alqı-satqısı əqdi.

***Real Əmtəələr Bazarı*** – fyuçers bazarından fərqli olaraq real əmtəələrlə ticarətin aparıldığı bazar.

***Real Faiz Dərəcələri*** – nominal faiz dərəcəsinin inflyasiya nəzərə alınmaqla təshih edilməsi nəticəsində əldə olunan faiz dərəcəsi. İnflyasiya nəzərə alındıqda nominal faiz dərəcəsindən real faiz dərəcəsini əldə etmək olar:

$$(1 + r)\,(1 + i) = (1 + R)$$

Burada, R – nominal faiz dərəcəsi, r – real faiz dərəcəsi, i – inflyasiya səviyyəsi.

***Real Gəlir*** – vətəndaşların, əmtəə və xidmətlərin real qiymətləri və tutulan vergilər nəzərə alınmaqla hesablanmış pul gəliri.

***Real İnvestisiyalar*** – maddi istehsala, fəaliyyətin maddi növlərinə edilən uzunmüddətli vəsait qoyuluşu.

***Real Müqavilə*** – bağlanması üçün ancaq tərəflər arasında tələb olunan formada razılığın əldə olunması deyil, həm də borcluya müəyyən əşyaların verilməsi lazım olan müqavilədir.

***Real Sövdələşmə*** – bağlanması üçün razılıqdan başqa natural formada əşyanın tələb olunduğu sövdələşmədir.

***Real Vergilər*** – daşınar və daşınmaz əmlakın alqı-satqısı zamanı yaranan vergilərdir.

***Realizasiya*** – sifarişçilər və alıcılar qarşısında müqavilə öhdəliklərinin həyata keçirildiyi istehsal prosesi mərhələsidir.

***Realizasiya Manatının Təmiz Gəliri*** – müəssisənin rentabelliyini səciyyələndirən, təmiz gəlirin məhsulların realizasiya məbləğinə bölünməsi yolu ilə hesablanan göstəricidir.

***Realizasiyadan Ümumi Mədaxil*** – hesabat dövründə realizasiya olunmuş mallardan əldə olunmuş mədaxildən maya dəyərinin çıxılması yolu ilə alınan gəlirlərdir.

***Realizə Edilmiş Gəlir*** – aktivin satışından əldə olunan nağd gəlir.

***Realizə Edilmiş Zərər*** – aktivin satışından yaranan zərər.

***Reallaşma*** – ***1)*** İstehsal edilmiş, yaxud təkrar satılan malların pul daxilolmaları ilə müşayiət olunan satışı; ***2)*** Niyyətin həyata keçirilməsi, nəticənin əldə edilməsi.

***Reallaşdırılmamış Gəlir/Mənfəət/Zərər*** – investisiya qoyuluşu ilə əlaqədar reallaşdırılmamış gəlir/mənfəət/zərər. Qiymətli kağızlara

investisiya zamanı reallaşdırılmamış gəlir/mənfəət/zərər qiymətli kağızın bazar qiymətini onun əsl alış qiyməti ilə müqayisə etməklə hesablanır.

***Reallaşma Qiyməti*** – aktivin satış qiyməti.

***Reeksport, Təkrar İxrac*** – xaricdən ölkəyə daxil edilən malların, aktivlərin ölkə daxilində emal prosesindən keçmədən, əvvəlki adında və statusunda müəyyən müddətdən sonra yenidən xaricə ixrac edilməsi. AR Gömrük Məcəlləsi təkrar ixrac münasibətlərini aşağıdakı kimi müəyyən edir: "Malların təkrar ixracı – xarici malların bu məcəlləyə və gömrük işi üzrə AR-in qanunvericilik aktlarına uyğun olaraq, idxal gömrük rüsumları, vergilər alınmadan və ya qaytarılmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən AR gömrük ərazisindən ixrac olunmasından ibarət gömrük rejimidir".

***Reemiqrasiya*** – emiqrantların ölkəyə geri qaytarılmasıdır.

***Refaksiya*** – əmtəənin keyfiyyətinin aşağı olması, sayının az olması, yaxud xarab olması aşkarlandıqda satıcının ticarət əqdi bağlanıldıqda əmtəənin topdansatış qiymətindən və ya çəkisindən etdiyi güzəşt.

***Referendum*** – yeni konstitusiyanın, başqa mühüm qanunların qəbul edilməsi, yaxud onlara düzəlişlərin edilməsi ilə əlaqədar keçirilən ümumxalq səsverməsi.

***Region*** – təbii, yaxud tarixən formalaşmış iqtisadi-coğrafi şəraitin və əhalinin milli tərkibinin vəhdəti ilə seçilən vilayət, rayon, ərazi, ölkə hissəsi.

***Regional Bazarlar*** – müəyyən regionun həm yerləşməsinə, həm də orada təmsil olunmuş əmtəə növlərinə, qiymətlərə, konyunkturaya, əmtəə tələb və təklifinə görə seçilən bazarlar.

***Regional Büdcə*** – bir və ya bir neçə inzibati ərazi vahidinə məxsus büdcə.

***Regional Siyasət*** – ölkənin müxtəlif hissələrinin iqtisadi inkişafı arasındakı qeyri-bərabərliyi aradan qaldırmaq üçün yeritdiyi siyasətdir.

***Regional Struktur*** – iqtisadi obyektlərin regional əlamətlər üzrə bölünməsi.

***Regionçuluq*** – iqtisadi, sosial, siyasi və b. problemlərin baxılmasına və həllinə bu və ya digər region istehlakçılarının maraqları nöqteyi-nəzərindən yanaşma.
***Regionlaşma*** – vilayətlər, yaxud bir regiona daxil olan ölkələr arasında iqtisadi, siyasi və d. əlaqələrin inkişafı, möhkəmlənməsi; dövlətlərin regional birliklərinin yaranması.
***Registr*** – ***1)*** Hüquqi əhəmiyyətə malik olan siyahı, məlumat kitabçası, qeydiyyat kitabı, uçot sənədi; ***2)*** Xüsusi idarəetmə sahəsində nəzarət funksiyalarını həyata keçirən orqan.
***Reimport, Təkrar İdxal*** – ölkədən ixrac edilən malların, aktivlərin xaricdə emal prosesindən keçmədən, əvvəlki adında və statusunda müəyyən müddətdən sonra yenidən ölkəyə qaytarılması, idxal edilməsi. AR Gömrük Məcəlləsi təkrar idxal münasibətlərini aşağıdakı kimi müəyyən edir: "Malların təkrar idxalı – ixrac gömrük rejiminə uyğun olaraq AR gömrük ərazisindən aparılmış AR mallarının qanunla müəyyən edilmiş müddətdə gömrük rüsumları və vergilər alınmadan, həmçinin bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən geriyə gətirilməsindən ibarət gömrük rejimidir".
***Reinvestisiya*** – investisiya fəaliyyətindən, o cümlədən qiymətli kağızlar portfelindən, birbaşa investisiya yönəldilmiş layihələrdən və s. istiqamətlərdən əldə olunan mənfəətin, gəlirin, rentanın yenidən investisiya şəklində həmin iqtisadi dövriyyəyə cəlb edilməsi.
***Rejim*** – müəyyənləşdirilmiş prinsiplər, qaydalar, normalar, tədbirlər kompleksinə əsaslanan münasibətlər sistemi.
***Rekambio*** – şəxs tərəfindən veksel üzrə öhdəlik daşıyan digər subyektlərə protest elan edilərək bütün veksel məbləğinin, o cümlədən əsas borcun, faizin və izafi xərclərin ödənilməsi ilə bağlı rəsmi tələb, yaxud bu tələbə görə təqdim olunan rəsmi sənəd.
***Reket*** – cinayətkar ünsürlər, qruplar tərəfindən hədələr, müvafiq tədbirlər, qorxutmaq vasitəsi ilə sahibkarlardan zorla pul vəsaitlərinin alınması.
***Reklam*** – istənilən informasiya vasitəsi ilə fiziki və ya hüquqi şəxslər, mallar, ideyalar və yeniliklər barədə, müəyyən qrup

adamlar üçün nəzərdə tutulan və fiziki və ya hüquqi şəxslərə, mallara, ideyalara olan maraqları qorumağa çağıran, istənilən formada yayımlanan əyani təbliğatdır.

***Reklam Agentliyi*** – reklam vasitələrinin hazırlanması və reklamın yerləşdirilməsi ilə məşğul olan ixtisaslaşmış şirkət; hüquqi şəxs olan, reklam istehsalı və yayımı ilə bağlı kompleks xidmətlər göstərən peşəkar təşkilat.

***Reklam Büdcəsi*** – reklam fəaliyyətinə ayrılan xərclər, vəsaitlər.

***Reklam Daşıyıcısı*** – mülkiyyət formasından asılı olmayaraq, reklamın istehlakçıya bilavasitə çatdırılması üçün istifadə olunan istənilən vasitədir.

***Reklam Hazırlayan*** – reklam informasiyasını tam və ya qismən yayımlanmaq formasında hazırlamağı həyata keçirən fiziki və ya hüquqi şəxsdir.

***Reklam Xərcləri*** – müəssisənin istehlakçıya öz məhsullarını satış bazarında təqdim etmək üçün məqsəd uyğun informasiya təsiri üzrə xərcləridir.

***Reklam İstehlakçısı*** – nəticə etibarilə ona təsir edən, yaxud edə bilən reklam məlumatı nəzərinə çatdırılan fiziki və ya hüquqi şəxsdir.

***Reklam İstehsalçısı*** – reklam informasiyasını yayım üçün tam və ya qismən hazırlayan fiziki və hüquqi şəxsdir.

***Reklam Kampaniyası*** – müəyyən dövr, ərazi, bazar, şəxslər qrupu üçün nəzərdə tutulmuş, ciddi planlaşdırılmış reklam tədbirləri kompleksinin həyata keçirilməsi.

***Reklam Prospekti*** – firmanın təklif etdiyi əmtəə və ya yaxın olan əmtəələr qrupu haqqında informasiyanın verildiyi rəngarəng nəşr, buklet.

***Reklam Verən*** – reklamların hazırlanması, yerləşdirilməsi, yayılması üçün reklam informasiya mənbəyi adlanan fiziki və ya hüquqi şəxslərdir.

***Reklam Yayan*** – reklam informasiyalarını yerləşdirən və müxtəlif vasitələrlə yayan fiziki və ya hüquqi şəxslərdir.

***Reklamasiya*** – əmtəənin keyfiyyətsiz olması, yaxud müqavilə tərəflərindən birinin öz üzərinə götürdüyü öhdəlikləri lazımi

qaydada yerinə yetirməməsi səbəbindən əsaslandırılmış iddiadan ibarət olan bəyənnamə.
***Reklamın Görünməsi*** – müəyyən təqvim dövrü üzrə reklam elanlarının, bildirişlərin sayı.
***Rekonstruksiya*** – müəssisədə buraxılan məhsulun səviyyəsi və keyfiyyətinin yüksəldilməsi, yeni məhsullarının buraxılışının təmin edilməsi məqsədilə əsas vəsaitlərin, texnika və texnologiyanın yenidən qurulması.
***Rekonversiya*** – təsərrüfatın hərbi məhsul istehsalından mülki məhsul istehsalına keçirilməsi.
***Rekreditiv*** – kreditor tərəfindən borc alan subyektə gələcəkdə açılması nəzərdə tutulan kredit vəsaitinə xitam verilməsi, kredit müqaviləsinin ləğv edilməsi barəsində göndərilən məktub, rəsmi göndəriş. Rekreditiv kredit məktubunun geri götürülməsini təsdiq edir.
***Rekta – İndossament*** – vekseli ilk əldə edənin vekselin ötürücülük qabiliyyətini məhdudlaşdırmaq barədə vekselin üzərindəki dərkənarıdır.
***Rekta – İndossant*** – dərkənarlı vekseli əldə edən fiziki və ya hüquqi şəxsdir.
***Rekta – Veksel*** – başqa bir şəxsə ötürülə bilinməyən adlı veksel.
***Rekvirent*** – vekseli üzrə öhdəlik daşıyan subyektə protest elan etmək üçün notariat kontoruna müraciət edən şəxs, veksel sahibi.
***Rekvizisiya*** – ölkə qanunvericiliyinə müvafiq şəkildə səlahiyyətli dövlət orqanları tərəfindən ayrı-ayrı hüquqi və ya fiziki şəxslərin mülkiyyətində olan əmlakın əvəzi ödənilməklə müsadirə edilməsi, yaxud müvəqqəti olaraq alınması.
***Rekvizitlər*** – sənədin həqiqiliyini tanımaq üçün lazım olan vacib məlumatlardır.
***Reqlament*** – tədbirlərin keçirilməsi, fəaliyyətin göstərilməsi qaydasını və vaxtını təyin edən, onlara müəyyən məhdudiyyətlər qoyan qaydalar.
***Reqlamentasiya*** – ictimai münasibətlər iştirakçılarının subyektiv hüquq və vəzifələrinin bölgüsü vasitəsilə hüquqi tənzimlənməsinin təşkili qaydasıdır.

***Reqress*** – malgöndərən, kreditor və ya debitor borca malik hüquqi və ya fiziki şəxsin borc öhdəliyi daşıyan tərəfə, şəxsə öhdəlik məbləğinin ödənilməsi ilə bağlı təqdim etdiyi tələbnamə. Öhdəlik daşıyan tərəf reqressat, öhdəlik tələbnaməsini təqdim edən tərəf reqressant adlanır.
***Reqressiv İnteqrasiya*** – marketinq zamanı, bir şirkətin mal göndərənlərini özünə tabe etməyə və onlara nəzarət etməyə can atdığı inteqrasiya.
***Reqressiv Vergi Dərəcəsi*** – vergitutma bazasının (gəlirin) artımına görə azalan vergi dərəcəsi.
***Reqressiv Vergiqoyma*** – gəlirin artması ilə, onun vergi kimi ayrılan hissəsinin azalması ilə müşayiət olunan vergiqoyma.
***Remarketinq*** – əmtəəyə olan tələbin azalması şəraitində aparılan marketinq tədbirləri.
***Renta*** – ***1)*** Sahibkarlıq fəaliyyəti göstərmədən şəxsin mülkiyyətçisi olduğu əmlakdan, torpaqdan və digər aktivlərdən əldə etdiyi gəlir, mənfəət. Renta aktivin icarəsindən əldə olunur; ***2)*** Sığorta şirkəti tərəfindən sığorta olunan subyektə ödənilən illik pul vəsaiti, ödəniş məbləği; ***3)*** Daha geniş mənada: iqtisadi obyektdən əldə olunan gəlir, mənfəət, səmərə.
***Renta Borcları*** – dövlət borclarının bir növü. Bu zaman borcun qaytarılması vaxtını müəyyən etmir və borc məbləğini şərtləşdirilmiş müddətdə qaytarmaq öhdəliyini üzərinə götürmür, lakin istiqrazlarının sahiblərinə renta adlanan müntəzəm sabit gəlir vəd edir.
***Renta Ödəmələri*** – mənfəətin müəssisənin, şirkətin, firmanın fəaliyyəti ilə bağlı olmayan amillərlə şərtləşən, həmçinin onların təbii resurslardan istifadə etmələri ilə bağlı olan hissəsi şəklində büdcəyə edilən ödəmələr.
***Renta Sığortası*** – müntəzəm şəkildə sığorta şirkəti tərəfindən sığortalı şəxsə gəlir ödənilən sığorta növü. Başqa sözlə, bu gəlirin sığortası deməkdir.
***Rentabelli*** – xərcləri doğruldan, təsərrüfat nöqteyi nəzərindən məqsəduyğun olan.
***Rentabellik*** – mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən

iqtisadi subyektin – müəssisənin, təşkilatın, fiziki şəxs kimi təsərrüfat subyektinin fəaliyyətinin iqtisadi səmərəliliyinin göstəricisi.

***Rentabellik Əmsalı*** – əmtəə vahidinin satışından olan ümumi mənfəətin maya dəyərinə (istehsal və tədavül məsrəflərinə) nisbəti.

***Rentabelliyin Qiymətləndirilməsi*** – aşağıdakı nisbi kəmiyyətlərin köməyi ilə həyata keçirilir: ***1)*** Hər realizasiya manatına düşən təmiz gəlir; ***2)*** Aktivlərin dönərlilik əmsalı; ***3)*** Fondverimi Əmsalı; ***4)*** Səhm kapitalının verim əmsalı; ***5)*** Hər səhmə düşən gəlir.

***Repatrasiya*** – investorun xaricdə yatırım etdiyi aktivlərin, qiymətlilərin, yaxud investisiya fəaliyyətindən əldə etdiyi mənfəətin, gəlirin öz ölkəsinə qayıtması, qaytarılması.

***REPO*** – aktivin, qiymətlinin, məhsulun sonradan geri satın alınması şərti ilə satışı. Bu ifadə daha çox qiymətli kağızlar bazarında işlədilir.

***REPO Baş Sazişi*** – REPO və əks – REPO əməliyyatları aparılan zaman tərəflər arasındakı qarşılıqlı münasibətləri tənzimləyən və REPO və əks-REPO əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirən çərçivə sazişi.

***REPO Əməliyyatı*** – satıcı tərəfindən qiymətli kağızların müştərilərə satışı (REPO-nun açılması) və eyni zamanda müştərilər tərəfindən həmin qiymətli kağızları emitentə satmaq, emitentin isə onları müştərilərdən geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

***REPO Sazişi*** – qiymətli kağızların satıcısının müəyyən olunmuş müddətdə və müəyyən olunmuş qiymətdə həmin qiymətli kağızları ger alacağı barədə öhdəliyi əks edən saziş.

***REPO-un Açılma Tarixi*** – REPO şəhadətnaməsinə uyğun olaraq emitent tərəfindən qiymətli kağızların müştərilərə satıldığı gündür.

***REPO-un Bağlanma Tarixi*** – REPO Şəhadətnaməsinə uyğun olaraq emitent tərəfindən qiymətli kağızların müştərilərdən satın alındığı gündür.

***Report – 1)*** Sonradan daha yüksək məzənnə ilə xarici valyutaların milli valyutaya mübadilə edilməsi ilə bağlı öhdəlik əsasında

valyuta bazarında nağd ödəniş formasında həyata keçirilən əməliyyat; ***2)*** Emitentlə investor arasında sonradan daha yüksək məzənnə ilə qiymətli kağızların emissiya edilməsi öhdəliyi əsasında həyata keçirilən birja sövdələşməsidir.
***Resessiya (İqtisadi Geriləmə, Tənəzzül)*** – işgüzar dövrün yüksəliş fazasından sonra gələn və iqtisadi fəallığın bir müddət davamlı olaraq geriləməsi ilə müşayiət olunan fazası.
***Restrukturizasiya*** – şirkətin borcu, əməliyyatları və strukturunda edilən ciddi dəyişiklik.
***Resurs*** – ehtiyat, vəsait, qiymətli, pul vəsaiti və s.
***Resursların Bölüşdürülməsi Qərarları*** – AB Komissiyasının qərarlarını təsvir edir, büdcə prosedurunun sonunda tətbiq edilir, hər nüfuz dairəsinə zəruri insan resurslarını yerləşdirir.
***Resursların Məhdudluğu*** – insanın və bütövlükdə cəmiyyətin artan tələbatlarını ödəyə bilən nemətlərin istehsalı üçün insanların sərəncamındakı təbii və əmək resurslarının, əsas kapitalının kifayət etməməsi.
***Retrosessiya*** – öncədən qəbul edilmiş, risklərin təkrar verilmə prosesidir.
***Retrosedent*** – təkrarsığortaçıya qəbul edilən riskləri retrosessiya verən sığorta və ya təkrarsığorta şirkəti.
***Revalvasiya*** – ölkənin valyuta məzənnəsinin digər ölkələrin valyutasına nisbətdə rəsmi yüksəldilməsi. Devalvasiyanın tərsidir.
***Revers – 1)*** Bir subyektin başqa subyektə hər hansı işin görülməsi, yaxud hər hansı ödənişin edilməsi ilə bağlı təqdim etdiyi yazılı öhdəlik; ***2)*** Metal monetin arxa tərəfi.
***Reversiya*** – əmlakın onun ilkin sahibinə qaytarılması.
***Revokasiya*** – əvvəl verilmiş sərəncamın ləğv edilməsi.
***Reyestr*** – iqtisadi obyektlərin əmlakının siyahısı.
***Reyestr Saxlayıcısı*** – istiqraz və səhm sahiblərinin qeydiyyatını aparan təşkilat.
***Reytinq*** – firmanın, bankın əhəmiyyətinin, miqyasının, həmçinin şirkətin kredit qabiliyyətinin göstəricisi.
***Rezident*** – rəsmi qanunvericiliyə əsasən, aşağıda göstərilən tələblərin birinə cavab verən istənilən fiziki şəxsdir: təqvim ilində

üst-üstə 182 gündən artıq vaxtda həqiqətən AR –ın ərazisində olan; təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə AR –ın dövlət xidmətində olan; AR –ın ərazisində və xarici ölkədə fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs aşağıdakı ardıcıllıqla göstərilən meyarlarla AR –ın rezidenti sayılır: daimi yaşayış yeri; həyati mənafelərinin mərkəzi; adətən yaşadığı yer; AR-ın vətəndaşlığı.

***Rezüme*** – yazılanın, deyilənin, yaxud oxunanın mahiyyətinin qısa ifadəsi, nəyinsə qısa xülasəsi, nəticəsi.

***Rəhbər – Agent Problemi*** – bir şəxs bir işi yerinə yetirmək üçün digər şəxsi istəyəndə rəhbər gözlənilən faydanı maksimallaşdırmaq üçün agentin stimullarını təyin etməlidir.

***Rəhbər – İşçi Nəzəriyyəsi*** – əksər özəl və dövlət təşkilatları iyerarxiyaya əsaslanır. İyerarxiyada aparıcı əlaqələrdən biri asılı işçi ilə rəhbəri arasında olan əlaqədir.

***Rəqabət*** – əmtəə istehsalçıları, geniş mənada isə istənilən iqtisadi, bazar subyektləri arasındakı yarış, daha çox gəlir, mənfəət, digər üstünlüklərin əldə edilməsi uğrunda əmtəə satışı bazarları uğrundakı mübarizə.

***Rəqabət Bazarı*** – istehsalçıların və istehlakçıların müstəqil iqtisadi davranışını xarakterizə edən bazardır.

***Rəqabət Devalvasiyası*** – dünya bazarında milli məhsulların rəqabət qabiliyyətini artırmaq, beləliklə də milli ixracı stimullaşdırmaq üçün dövlət tərəfindən məqsədli şəkildə həyata keçirilən devalvasiya.

***Rəqabət Vərəqəsi*** – idxal və ixrac mallarının realizasiyasında texniki – iqtisadi göstəricilər, keyfiyyət, qiymətlər və kommersiya şərtləri barədə ümumiləşdirici informasiyalar sənədidir.

***Rəqabət Qabiliyyəti*** – hər hansı bir əmtəənin rəqabətli bazarın tələbatlarına, alıcıların ehtiyaclarına bazardakı digər əmtəələrlə müqayisədə cavab vermək qabiliyyəti.

***Rəqabət Qabiliyyəti Göstəriciləri*** – müəyyən əmtəənin bazardakı rəqabət qabiliyyətinin səviyyəsini müəyyən edən meyarlar.

***Rəqabət Məsrəfləri*** – ictimai maraqlar mənasında əsassız olan, rəqabətlə bağlı artıq xərclər, məsələn, hədsiz reklam.

***Rəqabət Modeli*** – bazar rəqabəti şəraitində iqtisadi sistemin vəziyyətinin modelidir.

***Rəqabət Reklamı*** – reklam edilən əmtəəni rəqib firmaların istehsal etdiyi çoxlu sayda əmtəələrdən fərqləndirən və onun müsbət tərəfini göstərən reklamdır.

***Rəqabətli Qiymət Təklifetmə*** – əmtəə və xidmətin açıq və şəffaf reklamı prinsipinə əsaslanan seçmə prosesidir.

***Rəqabətli Makler*** – müəyyənləşdirilmiş qanunvericilik şərtləri daxilində birjanın əməliyyat zalında öz adından və öz riski hesabına müqavilələr bağlayan fond vasitəçisi, makler.

***Rəqabətli Sifariş*** – sifarişdə göstərilən şərtlərlə qiymətli kağızların alqı-satqısı müqaviləsinin bağlanması barədə investorun emitentə etdiyi təklifdir.

***Rəqabətli Təkliflər Auksionu*** – anderrayterlərin emitentə öz qiymət təkliflərini irəli sürdükləri və ən yaxşı qiyməti təklif edən anderrayterin seçildiyi hərrac.

***Rəqabətsiz Sifariş Hərracı*** – qiymət üzrə deyil, həcm üzrə sifarişlərə imkan verən hərrac növü.

***Rəqəmli Depozit*** – əmanətin konkret sahibinin adından, onun şəxsiyyətindən asılı olmayaraq sərəncam hüququ verilən açıq depozit növüdür.

***Rəqib*** – oxşar məqsədlərə nail olmaq, eyni resurslara, nemətlərə sahib olmaq, bazarda eyni mövqelərə yiyələnmək uğrunda mübarizə edən şəxs, şəxslər qrupu, firma, müəssisə.

***Rəmzi Pul*** – dövlət tərəfindən buraxılan və qızıla və ya gümüşə konvertasiya olunmayan kağız pullar.

***Rəsmi Diler*** – səlahiyyətli hökumət orqanları, o cümlədən ölkənin Mərkəzi Bankı tərəfindən maliyyə bazarında bu və ya digər maliyyə – kredit əməliyyatlarının həyata keçirilməsi ilə bağlı hüquq verilmiş bank, yaxud digər maliyyə – kredit institutu.

***Rəsmi Diskont Dərəcəsi*** – Mərkəzi Bankın Kommersiya bankları və başqa əlaqəyə girən kredit təsisatları (təşkilatları) ilə əməliyyatlar zamanı onlardan dövlət qısamüddətli öhdəliklərini aldıqda və özəl kommersiya veksellərini təkrar diskont etdikdə tətbiq etdiyi faiz dərəcəsi.

***Rəsmi Ehtiyat*** – cari və qısamüddətli öhdəliklərin ödənilməsi üzrə hökumətin tələblərini təmin etməkdən ötrü nəzərdə tutulmuş xarici valyuta ehtiyatları.

***Rəsmi Ehtiyat Əməliyyatları*** – ölkənin Mərkəzi Bankı tərəfindən xarici valyutanın alqısı və satqısı.

***Rəsmi Qarət*** – dəlil üçün tələb olan sənədin dəyişikliyi və ya beynəlxalq məhvidir; daha geniş mənada dəyərli bir şeyin məhvi və ya qarətidir.

***Rəsmi Məzənnə*** – dövlət orqanlarının müəyyən etdiyi məzənnə; rəsmi elan edilmiş məzənnə.

***Rəsmi Valyuta Məzənnəsi*** – dövlət tərəfindən rəsmi müəyyən edilən valyuta məzənnəsi.

***Rəsmiləşdirmə Qiymətləri*** – üç qaydada aparılır: ***1)*** İstehsal təyinatlı məhsullara sərbəst topdansatış qiymətlərinin razılaşdırma protokolu ilə; ***2)*** Sərbəst pərakəndə satış qiymətləri ilə satılacaq xalq istehlak mallarının sərbəst buraxılış qiymətinin razılaşdırma protokolu ilə; ***3)*** Malların pərakəndə qiymət satışında satıcının apardığı malların pərakəndə qiymət reyestri ilə.

***Rifah İqtisadiyyatı*** – ümumi iqtisadiyyatın cəmiyyətin rifahını və resurslar ayrılarkən müşahidə olunan prioritetləri öyrənən aspekti.

***Rikardo-Barro Ekvivalentlik Teoremi*** – dövlət xərclərinin borc hesabına maliyyələşdirilməsi iqtisadi baxımdan dövlət xərclərinin vergi hesabına maliyyələşdirilməsinə bərabərdir. Əgər vergi borcları onların bugünkü öhdəlikləridirsə, dövlət borcu da gələcək öhdəlikləridir.

***Rikrisiya*** – pul vəsaitinin köçürülməsi, təqdim edilməsi və ya alınması, tələb edilməsi ilə bağlı bir iqtisadi subyekt tərəfindən təqdim olunan rəsmi yazılı tapşırıq.

***Rimessa*** – beynəlxalq ödəmələrdə istifadə olunan ödəniş sənədi (pul köçürməsi sənədi). Bir qayda olaraq rimessa üzrə ödənişlər xarici valyuta ilə aparılır.

***Rinq*** – ***1)*** Müəyyən rayonda müəyyən əmtəəni onun satışının inhisarlaşdırılması məqsədilə bir neçə sahibkarın, taciri arasındakı qısamüddətli razılaşma. ABŞ-da rinqi, həmçinin korner adlandırırlar; ***2)*** Birjada xüsusi yerdir. Burada birja üzvlərinə birja

sazişləri bağlamağa icazə verirlər.
***Rinqqit*** – Malayziyanın milli pul vahidi. 1 MYR = 100 sent. Rinqqit Malayziya dolları adlandırılır.
***Risk*** – hər hansı fəaliyyətin, yaxud hadisənin mənfi istiqamətdə inkişaf etməsi və ya mənfi nəticələnməsi ehtimalı.
***Risk Arbitrajı*** – riskə əsaslanan arbitraj sövdələşmələri:
***1)*** Birləşmə və udulma arbitrajı – birləşdirilən şirkətin səhmlərinin alınması və birləşdirən şirkətin səhmlərinin satılmasının eyni zamanda həyata keçirilməsi;
***2)*** Ləğvetmə Arbitrajı – ləğv olunan şirkətin cari dəyəri və qiymətləndirilən ləğvetmə dəyəri arasındakı fərqə əsaslanan arbitraj sövdələşməsi.
***3)*** Cüt Ticarət Arbitrajı – tarixən bir –biri ilə sıx əlaqəli olan eyni zamanda çox oxşar şirkətləri arasındakı fərqə əsaslanan arbitraj.
***Risk Mükafatı*** – risksiz aktiv gəlirindən çox əldə olunan gəlir.
***Riskin İdarə Olunması*** – investisiya qərarlarının qəbulu zamanı qeyri –müəyyənliklərin müəyyən olunması, təhlili və ya bu risklərin qəbul olunması və ya yumşaldılması prosesi.
***Riskin Önlənməsi*** – "Pul" opsionun alınması və "Koll" opsionun satılması və ya əksinə əməliyyatı əhatə edən opsion strategiyasıdır.
***Riskli Artım Fondu Gəlirliliyini Artırmağa Çalışan Fond*** – kapitalın uzunmüddətli dövrdə maksimal artımına nail olmağı qarşısına məqsəd qoyan və bunun üçün, əsasən sürətli inkişaf potensialına malik olan kiçik şirkətlərin və dar sahələrin səhmlərinə yatırım edən şəxs
***Riskli Kapital*** – kiçik və ilkin inkişaf mərhələsində olan şirkətlərə yatırılan vəsait.
***Ritorno*** – sığorta olunan subyekt tərəfindən sığorta müqaviləsinin hər hansı şərtinin pozulmasına görə sığorta şirkətinin sığorta ödənişinin bir hissəsini ödəməkdən imtina etməsi.
***Riyazi İqtisadiyyat*** – təhlilin, proqnozlaşmanın, planlaşmanın, planlaşmanın gedişində iqtisadi proseslərin təsviri və iqtisadi göstəricilərin hesablanması üçün riyazi metod və modellərdən istifadə edən iqtisadi nəzəriyyənin bir istiqamətidir.
***Riyazi Model*** – öyrənilən proses və hadisələrin riyazi bərabərliklər,

bərabərsizliklər şəklində yazılmasıdır.
***Royalti*** – neft, qaz və digər təbii resursların mülkiyyət sahibi olan dövlətə həmin resursların satışından əldə edilən gəlirdən əvvəlcədən razılaşdırılmış faiz miqdarında ödəmədir.
***Rubl*** – SSRİ-nin və hazırda Rusiya Federasiyasının Milli pul vahidi. 1 RUR = 100 qəpik.
***Rufiya*** – Maldiv Respublikasının milli pul vahidi. 1 MVR = 100 lari.
***Rupi*** – ***1)*** Hindistanın milli pul vahidi. 1 İNR = 100 pays; ***2)*** İndoneziyanın milli pul vahidi. 1NDR = sen.
***Rüsum*** – hüquqi və fiziki şəxslər arasında, yaxud onlarla dövlət arasında xüsusi iqtisadi hüquqi münasibətlərə görə bu münasibətlərin iştirakçılarından dövlət və ya bələdiyyə orqanı tərəfindən alınan məcburi ödəniş.
***Rüsumsuz İdxal*** – xarici mənşəli malların gömrük sərhədindən rüsum alınmadan buraxılmasıdır.
***Rüsumsuz Ticarət Mağazası*** – mallardan gömrük rüsumları, vergilər alınmadan və onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən AR-ın gömrük ərazisində həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimidir.
***Rüşvətxorluq*** – əvəzində nə isə etmək üçün kiməsə pul, xidmət təklif etməkdir. Rüşvətxorluq korrupsiyanın tərifidir. Rüşvətxorluq, rüşvət vermək, amerikan variantı (graft). Graft – tərkibində tamahkarlıq elementi olan siyasi korrupsiyadır.

# – S –

***S&P500 Fond İndeksi*** – ABŞ fond bazarının əsas barometrlərindən olub "Standart and Poor" agentliyi tərəfindən Nyu Fnd Birjasında listinqdə olan bütün şirkətlərin bazar dəyərinin təqribən 80%-ni təmsil edən 500 şirkətin bazar kapitallaşması əsasında hesablanan fond indeksidir. Çikaqo Əmtəə Birjasında fyuçerslər və fyuçers opsionları ilə ticarət bu indeksə əsaslanır.
***Saatlıq Hasilat*** – işçinin bir saata istehsal etdiyi məhsulun miqdarı.
***Sabit Faizli İstiqraz*** – kupon ödəmələri sabit olan istiqrazlar.
***Sabit Gəlir*** – faizi kupon formasında ödənilən borc alətləri üçün istifadə olunan ümumi termindir.
***Sabit Xərclər*** – amortizasiya ayırmaları, faiz, icarə haqqı ödənişləri və s. bu kimi xərclər.
***Sabit Qiymətli Təklif*** – sabit qiymət əsasında təklif edilən yeni emissiyalardır.
***Sabit Valyuta Məzənnəsi*** – hökumətin və ya Mərkəzi Bankın milli valyutanın digər valyutasına, valyutalar səbətinə və ya qızıl kimi digər dəyər ölçüsünə bağladığı valyuta rejimi.
***Sabit/Üzən İstiqrazlar*** – tədavüldə olduğu müddətin müxtəlif dövrlərində sabit və üzən faiz dərəcələrinin hər ikisini ödəyən istiqrazlardır.
***Sabitləşdirmə*** – yeni yerləşdirilmiş qiymətli kağızın təklif olunan qiymətdən aşağı düşməsinin qarşısını almaq üçün anderrayter tərəfindən bir az yüksək qiymətlə alqı sifarişlərinin verilməsidir.
***Sabitləşdirmə Fondları*** – iqtisadiyyatı sabitləşdirmək məqsədilə maliyyə yardımı göstərən xüsusi dövlət, yaxud beynəlxalq fondlar.
***Sabitləşmə Proqramları*** – həyata keçirilməsi Beynəlxalq Valyuta Fondu tərəfindən kreditləşmənin bəzi formalarının tərkib hissəsi və şərti olan ölkə iqtisadiyyatının sabitləşməsi, sağlamlaşdırılması proqramları.
***Sabitləşmə Siyasəti*** – tam məşğulluğun, minimal inflyasiyanın, ÜMM-un həcminin artmasının təmin edilməsi məqsədilə hökumətin ölkədəki iqtisadi vəziyyətə nəzarət tədbirləri.

***Sablet*** – bir fraxtaçının gəmini müqavilə üzrə götürdüyü öhdəlikləri yerinə yetirmək üçün əsas sığortaçının vacib şərtləri ilə digərinə çarterə verməsidir.
***Sabotaj*** – bir şəxs, yaxud şəxslər qrupu tərəfindən xidməti və digər vəzifələrin biləraəkdən, qəsdən icra edilməməsi, yaxud laqeyd icra edilməsi.
***Sadə Cəmiyyət*** – ümumi məqsədə nail olmaqdan, vahid layihəni həyata keçirməkdən ötrü qeyri-formal, qeyri-rəsmi razılaşma əsasında, hüquqi statussuz yaranan cəmiyyət.
***Sadə Faiz*** – borc almanın doğurduğu xərc və ya pul borc verilməsi nəticəsində əldə edilən gəlirdir. Borc götürülən və ya borc verilən məbləğ (əsas məbləğ), vəsaitlərin borc olaraq götürüldüyü müddət və bazarın ümumi faiz dərəcəsi səviyyəsi əsasında hesablanır.
***Sadə Hərrac*** – tələb qənaətbəxş olmadıqda satıcıların rəqabəti, artıq tələb zamanı isə alıcıların rəqabəti əsasında keçirilən hərrac növü.
***Sadə İnhisar*** – öz məhsulunu hər bir vaxt və bütün alıcılara eyni qiymətlə satan inhisarçı firma.
***Sadə İstiqrazlar*** – faizləri yalnız şirkətin mənfəəti olduğu halda ödənilən, lakin hər hansı ilin ödənilməmiş faizlərinin növbəti illərdə ödənilməsini nəzərdə tutmayan borc qiymətli kağızı.
***Sadə Lisenziya*** – lisenziya alanın razılaşma obyektindən istifadə etmək və üçüncü şəxsə vermək hüququnu özündə saxlaması şərti ilə verilən lisenziyadır.
***Sadə Maliyyə Aləti*** – özünəməxsus xüsusiyyətləri olmayan standart maliyyə alətləri və derivativləri.
***Sadə Səs Çoxluğu Prinsipi İlə Səsvermə*** – bir səhm bir səs prinsipi ilə səsvermə metodu.
***Sadə Ssuda Hesabı*** – artıq müştəriyə verilən və heç bir əməliyyat aparılmayan kreditin miqdarının əks olunduğu bank hesabıdır.
***Sadə Sürüşən Orta*** – müşahidə aparılan dövrdən əvvəl müəyyən sayda zaman dövrlərinə nəzərən hesablanan çəkisiz orta kəmiyyət.
***Sadə Veksel (Solo-Veksel)*** – borclu tərəfindən təqdim edilən və borcun ödəniləcəyi vədini əks etdirən sənəd.
***Sadələşdirilmiş Vergi*** – rəsmi qanunvericiliyə əsasən, Azərbaycan

Respublikasında ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və əvvəlki üç aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi 22500 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Belə vergi ödəyiciləri hər il aprel ayının 20-dən gec olmayaraq vergi bəyannaməsini və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim etməklə seçdiyi metodu təqvim ilinin sonunadək tətbiq etməlidirlər.

***Sahə*** – istehsal edilən məhsulun, texnologiyanın və ödənilən tələbatların yekcinsliyinə malik müəssisələrin və istehsalatların məcmusu.

***Sahə Standartları*** – sənayenin müəyyən sahəsində qüvvədə olan standartlardır.

***Sahə Strukturu*** – iqtisadiyyatın, təsərrüfatın sahələrə bölünməsi.

***Sahələrarası Balans*** – bir sahədə istehsal edilən məhsulun dəyər ölçüsü ilə onun istehsalında iştirak edən bütün digər sahələrin xərcləri arasındakı əlaqəni xarakterizə edən iqtisad-riyazi balans modeli.

***Sahələrarası Əlaqələr*** – təsərrüfatın müxtəlif sahələrinin müəssisələri arasında iqtisadi əlaqələr.

***Sahələrarası Rəqabət*** – müxtəlif sahələrin firmaları arasındakı rəqabətdir.

***Sahələrarası Ticarət*** – müxtəlif sahələrin homogen məhsullarının beynəlxalq ticarətidir.

***Sahəyə Girmə Məhdudiyyətləri*** – qiymətlərin və korporasiya fəaliyyətinin tənzimlənməsi ilə bağlı olan, yeni yaranan sahəyə yenicə çıxan müəssisələrin yüksək mənfəətli fəaliyyətini çətinləşdirən hökumət qərarları.

***Sahib*** – əşyalara, mülkiyyətə, sərvətlərə, nemətlərə sahib olan fiziki, yaxud hüquqi şəxs.

***Sahibkar*** – sahibi olduğu hüquqi şəxsin mənfəətinin təmin edilməsi məqsədilə özünün cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından ölkə qanunvericiliyi ilə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər

göstərilməsi formasında müstəqil təşəbbüskarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs ("Sahibkarlıq fəaliyyəti haqqında" AR qanunu).

***Sahibkar Gəliri*** – sahibkarlıq fəaliyyətindən olan gəlirin sahibkarın özündə qalan hissəsi.

***Sahibkarlıq*** – fiziki və hüquqi şəxslərin əmlakdan istifadədən, əmtəələrin satışından, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən müntəzəm gəlirin əldə edilməsinə istiqamətlənmiş, təşəbbüslü, müstəqil, öz adından, öz əmlakının məsuliyyəti ilə, öz riski ilə həyata keçirilən fəaliyyəti.

***Sahibkarlıq Azadlığı*** – firma və şirkətlərin iqtisadi resurslardan öz istəyilə əmtəə istehsalı və onları seçdikləri bazarlarda satmaq üçün istifadə etmək hüququ.

***Sahibkarlıq Etikası*** – açıqlığa, şəffaflığa, düzlüyə, sözə sədaqətə, qanunlara hörmətə, biznesi aparmaq bacarığına əsaslanmış işgüzar etika.

***Sahibkarlıq Fəaliyyəti*** – şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.

***Sahibkarlıq İnhisarı*** – bir və ya bir neçə firmanın sahədə ağalıq etməsi ilə səciyyələnən bazar vəziyyəti.

***Sahibkarlıq Qabiliyyəti*** – insana əmtəələrin istehsalı, satışı üçün resursların ən yaxşı uzlaşdırılmasını tapmaq və tətbiq etmək, səmərəli ardıcıl qərarlar qəbul etmək, yeniliklər yaratmaq və tətbiq etmək, əsaslanmış riskə getmək imkanı verən keyfiyyətlər, bacarıqlar, birliklər.

***Sahibkarlıq Risklərinin Sığortalanması*** – sığorta edənin risk nəticəsində ala bilmədiyi gəlirlərin və ya itkilərin əvəzinin ödənilməsi öhdəliyini üzərinə götürən sığorta sahəsidir.

***Sahibkarlıq Sirri*** – firmanın rəqiblərindən sirr saxladığı ixtiralar, istehsal sirləri, nou-haular, maliyyə, marketinq idarəetmə metodları.

***Sahibkarlıq Tipləri*** – sahibkarlıq fəaliyyətinin mülkiyyət formasından və təsərrüfatçılıq metodlarından asılı olaraq təşkil edilməsi forması.

***Sahibkarlığa Kömək Milli Fondu (ARSKMF)*** – AR-də sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak edən, onlara maliyyə dəstəyi verən büdcədənkənar məqsədli dövlət maliyyə fondu. Fond AR İqtisadi İnkişaf Nazirliyi nəznində fəaliyyət göstərir.
***Sahiblik*** – torpağa, tikintilərə, əsas vəsaitlərə, qiymətli kağızlara, təbii sərvətlərə malik olan mülkiyyət formasından biridir.
***Sahiblik Hüququ*** – əmlaka faktiki sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.
***Sahibliyin (Saxlanmanın) Mənfi Nəticəsi*** – aktivlərin, o cümlədən qiymətli kağızların və maliyyə fyuçers opsionlarının maliyyələşmə xərclərinin əldə ediləcək gəlirdən yüksək olması ilə səciyyələnən bir vəziyyət.
***Sahibsiz Əşya*** – sahibi məlum olmayan, sahibliyindən imtina edilən, tapılan, nəzarətsiz qalan daşınar əşyalardır.
***Saxlama*** – öz öhdəliyini vaxtında yerinə yetirməyən şəxsin borcunu qaytarana qədər, həmin borcun əvəzində əşyasının saxlanmasıdır.
***Saxlama Xərcləri (Ehtiyatların Saxlanılması Dəyəri, Kreditin Dəyəri, Sabit Xərclər)*** – Qiymətli kağızın və ya əmtəənin müəyyən müddətə saxlanılması ilə əlaqədar xərclər.
***Saxlama Müqaviləsi*** – bir tərəfin (saxlayanın) əmlakın saxlanması barədə öhdəliklərinin göstərildiyi müqavilədir.
***Saxlanc*** – Qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması üzrə xidmət.
***Saxlanılma Reklamı*** – əvvəllər reklamlaşdırılmış əmtəəyə olan tələbatın səviyyəsinin saxlanılması məqsədilə həyata keçirilən reklamdır.
***Saxta Çek*** – inkasso edilməyən məbləğə yazılmış çek.
***Saxta (Uydurma) Kapital*** – həqiqi kapitaldan fərqli olaraq maddi əşya, yaxud mənəvi sərvətləri təmsil etməyən, borc kapitalından fərqli olaraq pul kapitalı olmayan kapital.
***Saxta Müflisləşmə*** – kreditorlardan ödəmə müddətini uzatmaq və ya vaxtı çatmış borcların vaxtını artırmaq üçün müəssisənin ödəmə qabiliyyətinin olmaması barədə qəsdən yalan məlumat verməkdir.

***"Saxta" Sövdələşmə (Səhmlərin Yalandan Alqı-satqısı, "Yuyulma" Satışı)*** – eyni adamın bir hesabından digər hesabına və ya ərin hesabından arvadın hesabına qiymətli kağızlar üzrə mülkiyyətin dəyişməsi əməliyyatının aparılması.

***Saxta Veksel*** – əsasında nə kommersiya, nə maliyyə əməliyyatı duran, bir qayda olaraq tərəflərdən birinin uydurulduğu fırıldaqçılıq əməliyyatlarının keçirilməsi məqsədinə xidmət edən veksel növü.

***Saxtalaşdırma*** – malların, ərzaqların saxtalaşdırılması.

***Sair Gəlirlər Və Xərclər*** – müəssisənin əsas fəaliyyəti ilə bağlı olmayan gəlir və xərclərdir.

***Sakitləşdirici Qiymət*** – satıcının bir az aşağı səviyyədə qoyduğu qiymət; bu cür qiymətin qoyulması alıcıları cəlb etmək üçün psixoloji üsul kimi istifadə edilir, məsələn, mal 1000 manat əvəzinə 990 manata təklif edilir.

***Saldo*** – pul vəsaitlərinin daxil olması ilə ödənişi arasında fərq, o cümlədən dövlət büdcəsinin gəlirləri ilə xərcləri arasında, ölkənin tədiyyə balansı üzrə idxal və ixracın həcmi arasındakı fərq.

***"Samuray" İstiqrazı*** – xarici borcalan tərəfindən Yaponiyada buraxılan yen ilə ifadə olunan istiqraz.

***Sanasiya*** – kreditləşmə, ynidən təşkiledilmə, buraxılan məhsul növünün dəyişdirilməsi və s. vasitəsilə müəssisələrin, firmaların müflisləşməsinin qarşısının alınması, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması üzrə dövlət və bank tədbirləri sistemi.

***Sanksiya*** – təsərrüfat və maliyyə fəaliyyətinin normal aparılması qaydalarını pozanlara qarşı məcburi təsir tədbirləri.

***Satan Tərəf*** – bu termin əsas işi birjada ticarət etməkdən ibarət olan maliyyə institutlarını təsvir etmək üçün istifadə olunur.

***"Satandan Sonra Almaq" Şərtli Sifariş (Sərəncam)*** – "Satmaq" və "Almaq" kimi iki sifarişin birincinin yerinə yetirilməsindən sonra ikincinin yerinə yetirilməsi şərti ilə bir sifarişdə birləşməsi.

***Satıcı*** – müqaviləyə uyğun olaraq malları və ona aid olan sənədləri vermək öhdəliyini götürən, alqı satqı müqaviləsinin bir tərəfidir.

***Satıcı Qiyməti*** – müəyyən zaman müddətində satıcının hər hansı qiymətli kağızı satmağa razı olduğu ən aşağı qiymət.

***Satıcı Opsionu*** – satıcıya səhm və ya istiqrazları müəyyən edilmiş müddət ərzində istənilən vaxt təqdim etmək hüququnu verən xüsusi əməliyyat.
***Satıcının Bazarı*** – bazarda təmsil olunmuş alıcılar tərəfindən əmtəə tələbi həcminin satıcılar tərəfindən bu əmtəələrin təklifi həcmindən çox olduğu bazar durumu.
***Satıcının Satış Qiyməti*** – satıcı istehsal xərclərindən və malın dövr etməsindən, malın satışından gəlir almaq təşəbbüsündən, istehsalçının istehsalat imkanlarından, analoji əvəzedən malların qiymətindən çıxış edərək öz malını satmağı təklif etdiyi qiymətdir, ona görə o, bazarda malın təklifinə təsir edən bütün amillərdən asılıdır.
***Satılma Anı*** – malın rəsmi hesablanan satılma anı.
***Satılmayan Mallar Və Xidmətlər*** – istehsal edildiyi yerdə istifadə olunan mallar və xidmətlərdir.
***Satılmış Bank Sertifikatları*** – əhaliyə satılan və əhalidən alınan sertifikatların məbləğləri arasındakı fərqidir.
***Satılmış Malların Maya Dəyəri*** – pərakəndə ticarətdə malın alış qiyməti və daşıma xərclərinin cəmidir.
***Satılmış Məhsul*** – müəyyən dövr ərzində müəssisənin satdığı və alıcının ödədiyi məhsulun həcminin pul ilə ifadə edilməsi.
***Satın Alınmış Sövdələşmə*** – təkrar bazarda yenidən satmaq məqsədilə qiymətli kağızın bütün emissiyalarını almaq üçün sığorta edənlə və ya aparıcı menecerlə razılaşma.
***Satınalan Təşkilat*** – malları (işləri və xidmətləri) satınalan dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar.
***Satınalma Müqaviləsi*** – satınalan təşkilatla tender qalibi arasında bağlanan və malların (işlərin və xidmətlərin) satın alınması ilə əlaqədar tərəflərin öhdəliklərini müəyyənləşdirən sənəd.
***Satınalma Müqaviləsinin Yerinə Yetirilməsinin Təminatı*** – tender qalibinin satınalan təşkilata təqdim etdiyi və satınalma müqaviləsi üzrə öhdəliklərinin icrasına verdiyi təminat.
***Satış*** – müəssisələr, təşkilatlar, sahibkarlar tərəfindən pul vəsaitlərinin əldə edilməsi və daxil olmasını təmin etmək məqsədi ilə istehsal etdikləri məhsulun, əmtəələrin satışı.

***Satış Güzəşti*** – məhsul istehsalçısı tərəfindən onun məhsulunu satan təşkilata satış funksiyalarını icra etdiyinə, məhsul satışına kömək göstərdiyinə görə topdansatış qiymətindən verilən güzəşt.
***Satış Kanalları Tipləri*** – vasitəçilərin sayına görə satış kanallarının təsnifatı.
***Satış Kitabı*** – malın hərəkəti uçotu üçün müəyyən edilən, müəssisədən çıxarılan bütün malların uçotunun aparılacağına zəmanət verən sənəddir.
***Satış Mərkəzi*** – şirkətin satış bölməsidir.
***Satış Məsrəfləri*** – müəssisə tərəfindən hazır məhsulun satılması ilə bağlı olan məsrəflər.
***Satış Rentabelliyi*** – müəyyən müddətdə vergi və faizlər ödənənə qədər gəlirin satışdan əldə olunan mədaxilə nisbətidir.
***Satış Təklifi*** – hər hansı bir şirkətin yeni səhmlərini satışa çıxarması üzrə təklif verməsi.
***Satış Vergisi*** – satılan malların xidmətlərin dəyərinə, qiymətinə faiz şəklində müəyyən edilmiş vergidir.
***Satış Və Yayımlamaq Xərcləri*** – təsərrüfat subyektinin satış və malın müştəriyə çatdırılması prosesi ilə bağlı olan xərclərdir.
***Satışa Buraxmaq (Endirimlə)*** – bazar şərtlərinin qiymətləri sıxacağı ehtimalına əsaslanaraq gələcək ziyandan qaçmaq üçün malların və maliyyə alətlərinin endirimlə satışa buraxılması.
***Satışdankənar Gəlirlər*** – digər müəssisələrin fəaliyyətində payçı kimi iştirakdan gəlir, müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər, habelə mal və xidmət (iş) istehsalı və satışı ilə bilavasitə bağlı olmayan əməliyyatdan götürülən digər gəlirlər, o cümlədən cərimə və zərərin ödənilməsi şəklində alınmış məbləğ, xarici valyuta əməliyyatları üzrə artan məzənnə fərqi, qanunvericiliyə müvafiq iddia müddəti keçmiş kreditor deponent borc məbləğləri.
***Satışdankənar Xərclər*** – müəssisənin, firmanın bilavasitə məhsulun istehsalı və satılması ilə bağlı olmayan xərclərdir.
***Satışın Həcmi*** – firmanın əmtəə və xidmətlərin satışından əldə etdiyi vəsait.
***Satışın Stimullaşdırılmasının Məqsədləri*** – marketinq

strategiyasının mühüm komponentidir. Beş məqsəd qrupunu təsnifləşdirir: diqqətin cəlb edilməsi, lazımi məlumatla təmin etmə, mala üstünlük verməni yaratma, satışın həyata keçirilməsi və alıcının bu malı almaqda olduqca haqlı olmasını xatırlatmaq.

***Satışlarda Mümkün Azalma*** – aşağıdakı düsturla hesablanır:

***SMA ($) = S x SMAH%***

***S – SMA ($) = GSS***

Burada, SMA – satışlarda mümkün azalma, S – satış, SMAH satışlarda mümkün azalma həddi (%), GSS – gəlirsiz satış səviyyəsi.

***Satışlarda Mümkün Azalma Həddi, %*** – aşağıdakı düsturla hesablanır:

***SMAH = (S – GSS) / GSS x 100***

Burada, SMAH – satışlarda mümkün azalma həddi, GSS – gəlirsiz satış səviyyəsi.

***Satqı Sifarişi*** – qiymətli kağızın satılmasına dair brokerə verilən sifariş.

***Saziş Sövdələşmə*** – tərəflərin iqtisadi əməliyyatların keçirilməsindən əvvəl əldə edilən, lakin bəyan edilməyən razılaşması.

***Sazişlərdə Bazis Şərtləri*** – əmtəə göndərilməsi prosesində satıcı və alıcının vəzifələrini müəyyən edən, əmtəənin satıcıdan alıcıya keçən vaxt onun təsadüfi zədələnməsi və ya məhv olması zamanı riskin keçməsi anını təyin edən xüsusi şərtlərdir.

***Seçki Paradoksu və ya Kondorket Paradoksu*** – səsvermənin çoxluğu və ya nəticəsi cəmiyyətin üstün seçimləri ilə uyğun gəlməyə bilər, hətta baxmayaraq ki, hər bir fərdin üstün seçimi uyğun gəlir.

***Sedent*** – sığorta riskini qəbul edən və onun bir hissəsini təkrarsığortaya verən sığortaçı.

***Sexlər*** – istehsalat müəssisəsinin əsas bölmələridir. Onlar yarımfabrikatlar, yaxud son məhsulu istehsal edirlər, məhsul hazırlanmasının texnoloji tsiklin xüsusi hissəsini həyata keçirirlər.

***Sektor İndeksi*** – fond birjasının müəyyən istehsal sahəsinin bazar fəaliyyətini əks etdirən toplu indeks.

***Sektor Təhlilçiləri*** – əsas diqqəti məxsusi bir sənaye sahəsinə

yönəldən bazar təhlilçiləridir.
***Sektor Üzrə Fondlar*** – müəyyən istehsal sahəsinə investisiya qoyuluşu edən qarşılıqlı investisiya fondlarının bir növüdür.
***Sekunda – Veksel*** – köçürmə vekselin ikinci nüsxəsi.
***Sekuritizasiya*** – qeyri-likvid aktivlərin likvid aktivlərə çevrilməsi məqsədilə müxtəlif növ borclardan yaradılan hovuzun (portfelin) girov qoyulması ilə qiymətli kağızlar buraxılışı.
***Sekvestr*** – dövlət büdcəsi və yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı.
***Selektiv Nəzarət*** – ayrı-ayrı nümunələr, seçmələr əsasında keyfiyyət nəzarəti.
***Selektiv Təftiş*** – təftiş edilən müəssisənin fəaliyyətinin bir tərəfini, bir hissəsini əhatə edən natamam yoxlama.
***Sellinq, Selenq*** – şəxsin özünəməxsus əmlak hüququnu ixtisaslaşmış şirkətə – sellinq firmasına müəyyən məbləğə satması ilə bağlı maliyyə əməliyyatı.
***Sentavo*** – Argentina, Meksikada, Kubada, Kolumbiyada və bir sıra digər ölkələrdə tədavüldə olan xırda monet. 1s. = 1/100 peso.
***Sentesimo*** – Panamada, Uruqvayda tədavüldə olan xırda monet.
***Sentimo*** – İspaniyada, Venesuelada, Kosta – Rikada və bir sıra digər ölkələrdə tədavüldə olan xırda monet.
***Senyoraj*** – pul emissiyası hüququnun dövlətin və ya dövlətin səlahiyyət verdiyi hər hansı bir qurumun monopol yurisdiksiyası altında olmasından daxil olan gəlir.
***Separatizm*** – regional iqtisadiyyat siyasəti, özünün müstəqil bazarını yaratmaq, mərkəzdən tam iqtisadi sərbəstlik və müstəqillik əldə etmək səyləri.
***Seriya*** – vahid eyniləşdirmə ilə buraxılmış qiymətli kağızlar, bank biletləri toplusu.
***Seriyalı İstehsal*** – əmtəələrin seriyalarla, yeni ayrı-ayrı partiyalarla böyük həcmdə, lakin qeyri-kütləvi istehsalı.
***Seriyalı İstiqraz*** – eyni vaxtda buraxılan, lakin bitmə müddəti müxtəlif olan istiqraz.

***Sertifikasiya*** – keyfiyyət göstəricilərinin keyfiyyət standartı tərəfindən tələb olunan səviyyəyə uyğun olmasını təsdiqləyən sənəd.

***Sertifikat*** – hər hansı faktı və ya hüququ təsdiq edən sənəd, vəsiqə.

***Sertifikatlaşmanın Məqsədi*** – sertifikatlaşdırılan məhsulun istehlakçının müəyyən tələblərinə cavab verməsinin təsdiq olunması, onun keyfiyyət göstəricilərinin və alqı zamanı müvafiq standartın tələblərinə cavab verməsinin yoxlanılmasıdır.

***Servitut*** – daşınmaz əmlak mülkiyyətçisinin digər torpaq sahəsi mülkiyyətçisinə, qonşu torpaq sahəsindən elektrik və rabitə xətlərinin çəkilməsi, piyada və avtomobil keçidinin salınması, boru kəmərlərinin çəkilişi və istismarı, su təchizatının və meliorasiyanın aparılması üçün servitut olmadan istifadəyə qoyduğu məhdudiyyətdir. Özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ (servitut), hüquqi cəhətdən AR Mülki Məcəlləsinin 255-262-ci maddələrinin müddəaları ilə tənzimlənir.

***Sessiya*** – şəxsin, müəssisənin və ya ölkənin mülkiyyəti, torpağı və ya hüquqları rəsmən başqasına verməsi.

***Seyf Depoziti*** – bankirlərin öz müştərilərinə zirehli seyf təqdim etməklə və əvəzində müəyyən muzd almaqla həyata keçirilən bank əməliyyatıdır.

***Sədd Reklamı*** – təbliğat üsulları vasitəsilə rəqiblərin öz əmtəələrini reklam etmələrinə və bazar qiymətlərinə mane olmaq məqsədi ilə həyata keçirilə reklamdır.

***Sədr*** – iclasın rəhbərliyi tərəfindən seçilən və təyin olunan direktorlar şurasının və komitənin üzvünə deyilir.

***Səhm*** – səhmdar cəmiyyətin kapitalına daxil olan payı təsdiq edən, sahibinə səhmdar cəmiyyətin mənfəətinin bir hissəsinin divident şəklində alınması hüququnu və şəklində alınması hüququnu və digər hüquqları verən qiymətli kağız.

***Səhm – Barometr*** – qiymətlərinin dəyişməsi bazar konyunkturasının dəyişməsinin indikatoru hesab olunan səhm.

***Səhm Bazarı*** – səhm alıcıları və satıcıları arasındakı iqtisadi münasibətin məcmusudur.

***Səhm Kapitalı*** – faktiki olaraq emissiya edilən və ya səhmdarlara paylanılan səhmlər.

***Səhm Kapitalının Qaytarılma Üsulu*** – qoyulmuş səhm kapitalının gəlirlilik səviyyəsini xarakterizə edən və səhmdarlar üçün kifayət qədər maraqlı sayılan müəssisənin rentabellik göstəricisidir.
***Səhm (İstiqraz) Kötüyü*** – səhmə birləşdirilmiş, əvvəlki kupon dəsti istifadə edildikdən sonra yeni dəsti almaq hüququ verən talon.
***Səhm Opsionu*** – müəyyən səhmlərlə müəyyən müddət ərzində razılaşdırılmış qiymətlə alqı-satqı əməliyyatı aparmaq hüququ verən törəmə alət.
***Səhm (İstiqraz) Sertifikatı*** – müvafiq qiymətli kağıza olan mülkiyyət hüququnu, həmçinin eyni seriyadan olan qiymətli kağızların bir və ya bir neçə ədədlərinə sahiblik və sərəncam hüququnu təsdiqləyən sənəd.
***Səhm Svopu*** – mübadilə olunan pul vəsaitlərinin biri və ya hər ikisi hər hansı bir səhmin gəlirliliyinə və ya fond indeksinin qiymətinə əsaslanan svop.
***Səhm Şəklində Divident*** – nağd pul əvəzinə səhmlərlə ödənilən divident ödəməsi.
***Səhmdar*** – təşkilat və şirkətdə paya və ya səhmlərə sahib olan fərddir.
***Səhmdar Bank*** – səhmdar kampaniya tərəfindən idarə olunan bankdır.
***Səhmdar Cəmiyyət*** – nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət.
***Səhmdar Cəmiyyətin Bazar Kapitalizasiyası*** – kampaniyanın bütün səhmlərinin bazar dəyərinin cəmi.
***Səhmdar Cəmiyyətinin Reyestri*** – səhmdar cəmiyyəti haqqında vahid qeydiyyat sistemindəki məlumatlar.
***Səhmdar Hüququ*** – ölkədə səhmdar cəmiyyətlərin və səhmdarların fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlar və qanunların məcmusu.
***Səhmdar Kapitalı*** – səhmdar cəmiyyətə məxsus olan əsas kapital. Səhmdar kapitalı=Məcmu aktivlər + Məcmu Passivlər.
***Səhmdar Kapitalının Riskinə Görə Mükafat*** – bazar risklərinin kompensasiya edilməsi üçün xəzinə veksellər ilə müqayisədə ümumi fond bazarının və ya müəyyən birjanın təmin etməli olduğu

əlavə gəlir.
***Səhmdar Maliyyələşməsi*** – kapitalı artırmaq məqsədi ilə sadə və ya imtiyazlı səhmin investora satılması.
***Səhmdar Sertifikatı*** – səhmdarların müəssisənin səhmlərindəki payını təsdiq edən sənəddir.
***Səhmdarlar Kitabı*** – adlı səhmlərin və onların sahiblərinin qeydiyyata alındığı sənəd.
***Səhmdarların İclası*** – səhmdar cəmiyyətin ali idarəetmə orqanıdır.
***Səhmdarların Ümumi Yığıncağı (İllik Ümumi Yığıncaq)*** – səhmdarların məcburi illik yığıncağı.
***Səhmdarların Vəsaiti*** – şirkətin xalis aktivlərindən (səhmdarların vəsaitləri ilə bölüşdürülməmiş ehtiyatların cəmi) minoritar paketin çıxılması yolu ilə müəyyən edilir.
***Səhmə Dəyişdirilə Bilən Uzunmüddətli Qiymətli Kağızlar*** – səhmə dəyişdirilə bilən bu qiymətli kağızları “Put” və “Koll” tipində buraxırlar. Bu qiymətli kağızlar Çikaqo opsion və Amerika fond birjalarında və birjadankənar bazarlarda dövriyyədədirlər.
***Səhmin Balans Dəyəri*** – balans dəyəri ümumi aktivlərlə ümumi passivlərin fərqinə bərabərdir. Səhmin balans dəyəri isə balans dəyərinin ödənilməmiş səhmlərin sayına nisbətinə bərabərdir.
***Səhmin Geri Alınması*** – şirkətin səhmlərinin qiymətinin yüksəldilməsi məqsədilə öz səhmlərini bazarda geri almaqla dövriyyədə olan səhmlərinin sayının azaldılması.
***Səhmin Kotirovkası*** – fond birjasında səhmin bazar qiymətinin müəyyən edilməsi.
***Səhmin Kurs Dəyəri*** – kampaniyanın səhmlərinin onun səhmdarlarından birinin almaq istədiyi qiymətdir.
***Səhmin Qeydiyyatdan Keçmiş Sahibi*** – emitent şirkətin reyestrində adı qeyd olunmuş səhmdar.
***Səhmin Ucuzlaşması*** – səhmin bazar dəyərinin nominal dəyərindən aşağı düşdüyü məbləğ.
***Səhmlər Registri*** – ABŞ-da buraxılış məbləğinin icazə verildiyindən çox olmamasına nəzarət edən vəzifəli şəxs.
***Səhmlər Üzrə Bazar Riski*** – müəyyən şirkətin səhmlərinin bazar qiymətinin başqa şirkətlərin səhmlərinin bazar qiymətlərinin orta

tərəddüdlərinə nisbətən dəyişkənliyi dərəcəsi.

***Səhmlər Üzrə Dividentlərin Ödəmələri*** – mənfəətin səhmlərin cari və orta qiymətlərinə uyğun olaraq səhm sahibləri arasında bölüşdürülməsini ifadə edir.

***Səhmlər Üzrə Mükafat*** – səhmləri nominal dəyərindən yüksək olan bazar dəyəri.

***Səhmlər Üzrə Ödənilməmiş Dividentlər*** – adi səhmlər üzrə ödənişdən qabaq imtiyazlı səhmlər üzrə elan edilməmiş və ödənilməmiş dividentlər.

***Səhmlərin Balans Qiyməti*** – maliyyə hesabatlarının verilənlərinə uyğun olaraq şirkətin aktivlərinin bir adi aksiyaya düşən qiyməti.

***Səhmlərin Xırdalanması (Bölünməsi)*** – şirkətin mövcud səhmlərinin ümumi dəyərini dəyişmədən sayının artırılması.

***Səhmlərin Likvidliyi*** – səhm saxlayanın, səhmin satışından, onu alarkən çəkdiyi xərcdən və ya əldə edilmiş gəlirlər və divident nəzərə alınmaqla ondan çox məbləğ əldə etməklə, səhmi pula çevirmək imkanıdır.

***Səhmlərin Listinqi*** – müxtəlif şirkətlərin fond birjalarının müvafiq tələblərinə cavab verən səhmlərinin siyahısı. Listinqə düşmüş səhmlər fond birjasında ticarətə və kotirovkaya buraxılır.

***Səhmlərin Rentabelliyi*** – səhm məzənnəsinin səhmin gətirdiyi mənfəətə olan nisbəti.

***Səhmlərin Reyestri*** – müəyyən tarixə qeyd alınmış qiymətli kağız sahiblərinin, onlara məxsus qiymətli kağızların sayının və növünün eyniləşdirilməsini təmin edən siyahı.

***Səhmlərin Siyahısı*** – nominativ səhmlərin registri. Burada səhmdarların adları və hüquqi ünvanları göstərilir.

***Səlahiyyət*** – bir şəxsin (səlahiyyətli nümayəndənin) digərinin (səlahiyyət verənin) adından əqd (sövdələşmə) bağlamaq və digər hüquqlarını həyata keçirməkdir.

***Səlahiyyət Verən Məmur*** – hər bir institutda gəlir və xərclərin maliyyə menecmentinə uyğun qanuni şəkildə həyata keçirilməsində məsuliyyət daşıyır.

***Səlahiyyətlərin Paylanması*** – səlahiyyətlərin digər şəxsə verilməsidir.

***Səlahiyyətli Bank*** – AR-ın Milli Bankından xarici valyuta ilə əməliyyat aparmaq icazəsi (lisenziyası) olan bankdır.

***Səlahiyyətli Broker (Səlahiyyətli Treyder)*** – hərrac iştirakçısının ştat işçisi olan, Qiymətli Kağızlar Üzrə Dövlət Agentliyi tərəfindən verilmiş ixtisas şəhadətnaməsinə malik olan, hərrac iştirakçısının adından fond birjasında sifarişlərin elan edilməsi və əqdlərin həyata keçirilməsi üçün hərrac iştirakçısı tərəfindən səlahiyyət verilmiş şəxsdir.

***Sələm Kapitalı*** – yüksək mənfəət əldə etmək məqsədilə, yüksək faizlə sələm krediti adlanan məqsədlərə yönələn pul vəsaitləri, kapitaldır.

***Sələmçi*** – pul vəsaitlərini yüksək faizlə borc verən şəxs.

***Sələmçilik*** – sələm krediti adlanan pul vəsaitlərinin faizlə verilməsi.

***Səmərə*** – maddi, pul, sosial (sosial səmərə) ifadədə əldə edilən nəticə.

***Səmərələşdirmə*** – istehsal və idarəetmənin, iş metodlarının, müxtəlif fəaliyyət növlərinin təkmilləşdirilməsi, yaxşılaşdırılması.

***Səmərəli Bazar Hipotezi*** – bütün əldə olan məlumatın artıq aktivlərin qiymətində əks olunduğunu iddia edən hipotez.

***Səmərəli Gözlənti*** – agentin, bütün imkanlar vasitəsi ilə əldə etdiyi məlumatlar əsasında, ona sistemli olaraq səhvlər buraxmaq imkanı verməyən iqtisadi dəyişənlərin gələcəkdəki kəmiyyətlərinə nisbətən formalaşdırdığı gözləntidir.

***Səmərəli Qərar*** – variantların müqayisəsi, seçilməsi əsasında və bir çox digər amilləri nəzərə almaqla, qəbul edilmiş, düşünülmüş, sərfəli, məqsədəuyğun qərar.

***Səmərəlilik Əmsalı*** – nəticənin onu doğuran xərclərə nisbəti.

***Səmərəlilik Prinsipi*** – müəssisənin böyüklüyü və təsərrüfat fəaliyyəti şərtlərindən irəli gələn, mühasibat uçotunun səmərəli və düzgün aparılması ilə əlaqədar uçot siyasəti prinsiplərindən biridir.

***Sənaye İnkişaf İstiqrazı*** – yerli icra hakimiyyəti tərəfindən müxtəlif sənaye obyektlərinin tikintisinin maliyyələşdirilməsi məqsədilə buraxılan istiqrazlardır.

***Sənaye Nümunəsi*** – məmulatın bədii-konstruksiya həlli olub, onun

xarici görünüşünü müəyyənləşdirməsi, texniki estetik tələblərə cavab verməsi, sənaye qaydasında yararlı olması və müsbət effekt verməsidir.

***Sənaye Şirkəti*** – sənaye sahəsində fəaliyyət göstərən şirkət.

***Sənaye Təyinatlı Əmtəələr Bazarı*** – satılacaq, icarəyə veriləcək, yaxud başqa istehlakçılara təqdim ediləcək əmtəə və xidmətlərin istehsalında istifadə edilən əmtəə və xidmətləri tədarük edən şəxslər, yaxud təşkilatlar məcmusu.

***Sənaye – Ticarət Sərgilərinin Məqsədi*** – bir ölkənin və yaxud bir neçə ölkənin bir və ya bir neçə sahədə əldə etdikləri elmi – texniki nailiyyətlərinin nümayiş etdirilməsidir.

***Sənəd*** – müəyyən faktı, hadisəni qeydə alan, təsdiq edən, sahibinin müəyyən hüquqlarını hüquqi cəhətdən təsdiq edən işgüzar kağızdır.

***Sənədin Vizalanması*** – sənədin qüvvədə olmasının təsdiqi, əgər qaydalarla, normalarla, qanunlarla nəzərdə tutulubsa səlahiyyətli orqanların, şəxslərin icazəsinin alınması ilə viza yazılı formada qanuniləşdirilir və möhürlə təsdiq edilir.

***Sənədlərin Rekvizitləri*** – hüquqi qüvvəyə malik olması, əməliyyatların keçirilməsinin əsas olması üçün aktın, sənədin malik olmalı olduğu məcburi məlumatlar.

***Sənədləşdirilməmiş Emissiya, Qiymətli Kağızı*** – qiymətli kağız sahibinin reyestrinin aparılması sistemində yazı əsasında və ya depo hesabında olan yazının əsasında sahibi müəyyən edilən emissiya qiymətli kağızı.

***Sənədləşdirilmiş Emissiya Qiymətli Kağızı*** – qanunvericiliyə müvafiq surətdə sənədləşdirilmiş qiymətli kağız sertifikatı təqdim etmək əsasında və ya qiymətli kağız deponentə qoyulduğu halda depo-hesabında olan yazının əsasında sahibi müəyyənləşdirilən emissiya qiymətli kağızı.

***Sənədləşmə*** – müəyyən edilmiş qaydada tərtib edilən və nəzərdə tutulan məlumatları əks etdirən, rəsmi qəbul edilmiş sənədlərin məcmusudur.

***Sənədsiz Qiymətli Kağızlar*** – kağız üzərində deyil, elektron informasiya daşıyıcılarında olan qiymətli kağızlardır.

***Sənədsiz Yük*** – limanın anbarında və ya gəmidə daşınma sənədləri

olmayan və sahibini müəyyənləşdirmək mümkün olmayan yüklərdir. Bu cür yüklər xüsusi qaydalar əsasında realizasiya olunur.

***Sənət*** – müəyyən əşyaların hazırlanması sənətinə malik olması, müvafiq peşəyə malik olması.

***Sərbəst Dönərli Valyuta*** – bütün dövlətlərin valyutalarına sərbəst mübadilə edilə bilən valyuta.

***Sərbəst Dövriyyə Üçün Buraxılış*** – AR-ın gömrük ərazisinə gətirilən malların bu ərazidən aparılması haqqında öhdəlik götürülmədən daimi olaraq AR-ın gömrük ərazisində qalmasından ibarət gömrük rejimidir (AR Gömrük Məcəlləsi, 29-cu maddə).

***Sərbəst Dövriyyədə Olan Səhmlər*** – səhmdar cəmiyyətin səhmlərinin iri səhmdarların və insayderlərin əlində olmayan, eləcə də ticarəti məhdudlaşdırılmayan hissəsi.

***Sərbəst Gömrük Zonası*** – xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin göstərilən mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən, onların müvafiq ərazi sərhədlərində və ya binalarda yerləşdirilməsi və istifadəsindən, Azərbaycan mallarının isə Gömrük Məcəlləsi ilə müəyyən edilən qaydada ixrac gömrük rejiminə müvafiq olaraq malların aparılmasına təqdim edilən şərtlərlə yerləşdirilməsi və istifadə olunmasından ibarət gömrük rejimidir (AR Gömrük Məcəlləsi, 74-cü maddə).

***Sərbəst Qalıq*** – birja müştərisinin fərdi broker hesabında saxlanılan, yeni kontraktların alqısı və ya satqısı üçün istifadə edilə bilən, yaxud hesabdan çıxarıla bilən vəsait.

***Sərbəst Qiymət*** – qarşılıqlı əlaqədə olan tərəflərin razılaşması əsasında müəyyənləşdirilən qiymətidir.

***Sərbəst Liman*** – ərazisində gömrük rüsumu alınmayan hava və ya dəniz limanıdır.

***Sərbəst Mühasib*** – ölkə qanunvericiliyi əsasında müəyyən olunmuş orqanın verdiyi lisenziyaya əsasən ölkə ərazisində mühasibat uçotu əməliyyatları aparmaq hüququ olan fiziki şəxs.

***Sərbəst Oferta*** – adətən eyni vaxtda eyni əmtəə partiyası üçün bir neçə mümkün alıcıya təklif göndərilməsidir.

***Sərbəst Pul Axını*** – şirkətin fəaliyyətindən yaranan nağd pul axını ilə onun əsas kapitala çəkdiyi xərclərin fərqi.

***Sərbəst Pul Axını Gəlirliliyi*** – şirkətin dividentləri ödəmək üçün bütün sərbəst vəsaitindən istifadə etdiyi halda səhmin divident gəlirinin nə qədər yüksək ola biləcəyinin ölçüsüdür.
***Sərbəst (Azad) Sahibkarlıq Zonası*** – qanuna uyğun olaraq müxtəlif formalarda birgə sahibkarlığın həyata keçirildiyi milli dövlət ərazisinin bir hissəsidir.
***Sərbəst Vaxt*** – işdən və başqa məcburi məşğuliyyətdən və işlərdən azad olan, öz istədiyin kimi istifadə edilən vaxt.
***Sərbəst Üzən Valyuta Məzənnəsi*** – sərbəst bazarda valyutaya olan tələb və təklifə əsasən təyin edilən üzən valyuta məzənnəsinin bir formasıdır.
***Sərbəst və Açıq Bazar*** – tələb və təklifin qiymət baxımdan sərbəst ifadə olunduğu bazar.
***Sərəncam Hüququ*** – əmlakın hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.
***Sərəncamçı*** – məhkəmə qərarına əsasən özündən sonra vəsiyyətnaməsi qalmayan mərhumun aktivlərinin saxlanılması və bölüşdürülməsinə məsuliyyət daşıyan şəxs, yaxud təşkilat.
***Sərəncamda Qalan Gəlirlərin İstifadə Hesabı*** – ev təsərrüfatları, dövlət idarələri və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının sərəncamında olan gəlirlərinin son istehlak xərcləri və qənaət arasında bölüşdürülməsini əks etdirir.
***Sərəncamda Olan Ümumi Milli Gəlir*** – bütün institutsional vahidlərin – rezidentlərin sərəncamında olan gəlirlərin, yəni institutsional vahidlərin son istehlak və əmanətlər üçün malik olduqları gəlirlərin cəmidir.
***Sərgi*** – bir ölkənin müxtəlif sahələrdə əldə etdiyi elmi-texniki yeniliklərini, yeni əmtəələrini öz ölkəsində və başqa ölkələrdə xüsusi ayrılmış yerlərdə nümayiş etdirməsidir.
***Sərhədyanı Ticarət*** – ticarət və ödəmələr haqqında lokal müqavilələr, hər il bağlanan protokollar əsasında ümumi sərhədi olan ölkələrin sərhəd rayonlarında aparılan əmtəə mübadiləsi şəklində baş verən beynəlxalq ticarətin məhdud növü.
***Sərmayə*** – təsərrüfat subyektinin kapital kəmiyyətini artıran, mülkiyyətçinin müəssisənin təsərrüfat fəaliyyətinə qoyduğu aktivlərdir.

***Sərmayə Kapitalı*** – səhmdarların vəsaitlərindən və borc kapitalından ibarət olan müəssisəyə qoyulmuş vəsaitlərin ümumi məbləğidir.

***Sərmayə Təyinatlı Malların İstehsalı*** – istehlak deyil, istehsal təyinatlı mallardır. Məsələn, elektrik stansiyalarının avadanlıqları.

***Sərmayəçilər Tərəfindən Verilən Aktivlər*** – neft –qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondlar, daşınar əmlak və digər aktivlər.

***Sərnişin Göndərilməsində Gecikmələr*** – sərnişin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitələri təyinat məntəqələrinə sərnişinləri vaxtında çatdırmadığına görə, məcəllə və Nəqliyyat Nizamnaməsinə uyğun olaraq sərnişinə cərimə ödəməlidir.

***Sərnişinlərin Daşınması*** – daşıyıcının sərnişin və ya onu müşayiət edən baqajın təyinat nöqtəsinə çatdırılması, sərnişinin isə qoyulmuş qiymətə uyğun haqq ödəməsi barədə öz üzərinə götürdüyü öhdəliklərin əks olunduğu müqavilədir.

***Sərt İqtisadi Siyasət*** – qeyri-çevik, möhkəm iqtisadi siyasətdir.

***Sərt Qiymətlər*** – idarə olunan satıcılar tərəfindən qoyulan qiymətlər, hansılar ki, qiymətlərə dair tələbin yüksək elastikliyinə malik olan öz məhsuluna tələbin maneələri ilə rastlaşır; çevik qiymətlərin antipodu, hansılar ki, tələb və təklifin dəyişməsinə reaksiya edir.

***Sərt Pul Siyasəti*** – inflyasiyanın azaldılmasına və iqtisadiyyatda hərarətlənməsinin azaldılmasına yönəldilmiş pul siyasəti tədbiridir. Bu zaman Mərkəzi Bank özünün faiz dərəcələrini artırır ki, bu da iqtisadiyyatda həm əmanətlər, həm də kreditlər üzrə faiz dərəcələrinə artırıcı təsir göstərir.

***Səs Hüququna Malik Olmayan Səhm*** – sahibinə korporativ məsələlərdə səs vermə hüququnu təmin etməyən səhm.

***Səsli Ticarət (Açıq Yüksək Səslə)*** – alıcı və satıcının birbaşa təması yolu ilə birja ticarəti üsulu.

***Səsvermə (Ballot)*** – açıq və ya gizli səsvermə yolu ilə birja əməliyyatları ilə bağlı mübahisəli məsələlərin həlli variantı.

***Səsvermə Hüququ*** – Şirkətin idarə edilməsi ilə əlaqədar qərarların qəbul olunmasında səs vermə hüququ.
***Səyyar Yoxlama*** – yoxlanan obyektlərə getməklə orada aparılan yoxlama.
***SFR – "Dəyər və Fraxt"*** – satıcı malı alıcının yerləşdiyi ölkənin limanına gətirmək üçün bütün xərcləri və fraxtı (gəmi ilə daşınan yükün kirayə xərci) ödəməlidir. Yükün boşaldılma və idxal rəsmiləşdirmə xərclərini alıcı ödəyir.
***Sıfır Kuponlu İstiqraz (Kuponsuz İstiqraz)*** – kupon ödənişləri olmayan istiqraz.
***Sığorta*** – istehsal münasibətlərinin mühüm elementlərindən biridir. Bu, istehsal prosesində maddi itkilərin ödənilməsi ilə əlaqədardır və normal, fasiləsiz və müntəzəm təkrar istehsalın əsas şərtlərindən hesab edilir.
***Sığorta Agentləri*** – müəyyən edilmiş səlahiyyətlərə uyğun olaraq sığorta edən adından və onun tapşırığı ilə öz fəaliyyətini yerinə yetirən hüquqi və fiziki şəxslərdir.
***Sığorta Aktı*** – qoyulmuş qaydada rəsmiləşdirilən, baş vermiş sığorta hadisəsinin fakt və səbəblərini təsdiqləyən sənəddir.
***Sığorta Bazarı*** – sığorta müdafiəsinə ictimai tələbatın ödənilməsi prosesində "sığorta örtüyü" adlanan xüsusi əmtəənin alqı-satqısı ilə əlaqədar yaranan iqtisadi münasibətlər sistemi.
***Sığorta Brokerləri*** – sığortaçı və sığorta edilənin tapşırığı əsasında öz adından, sahibkar kimi sığortalanma vasitəçiliyini həyata keçirən, müəyyənləşdirilmiş qaydada qeydiyyatdan keçmiş fiziki və ya hüquqi şəxslərdir.
***Sığorta Deklarasiyası*** – sığortaçının sığorta obyektinin xarakteri və sığorta riski haqqında təqdim etdiyi rəsmi məlumat, bəyannamə.
***Sığorta Dəyəri*** – sığortalanmış əmlakın həqiqi dəyəri olub, aşağıdakı kimi müəyyənləşdirilir: ***a)*** əmlak üçün – müqavilənin başlandığı gün onun yerləşdiyi yerdə həqiqi dəyəri ilə; ***b)*** sahibkarlıq riski üçün – sığorta hadisəsi baş verə bildiyi halda, sahibkarlıq fəaliyyətindən əldə edə biləcəyi gəlirlərin ümumi miqdarı ilə.
***Sığorta Edən*** – ölkə ərazisində sığorta fəaliyyətini həyata keçirmək

üçün müəyyən edilmiş qaydalar əsasında lisenziya alan və sığorta fəaliyyətini həyata keçirmək üçün müəyyən edilmiş qanunvericiliyə əsasən yaradılan istənilən təşkilati – hüquqi formada olan hüquqi şəxsdir.
***Sığorta Ehtiyatı Fondu*** – sığorta haqları sığorta ödənişlərini təmin edə bilmədikdə yaranmış fərqi ödəmək üçün sığorta şirkətinin təsis etdiyi pul vəsaitləri fondu.
***Sığorta Etdirən*** – sığorta müqaviləsinin tərəfi olan, sığorta haqqını ödəyən və qanuna və sığorta müqaviləsinə əsasən sığorta hadisəsi baş verdiyi halda sığorta olunmuş məsuliyyət və ya müqavilədə göstərilmiş sığorta məbləği dəyərində ödəniş almaq hüququ olan fiziki və ya hüquqi şəxs.
***Sığorta Etdirənin Ərizəsi*** – sığorta müqaviləsi bağlamaq istəyi haqqında yalnız sənəd və ya sığorta hadisəsinin baş verməsi haqqında məlumat.
***Sığorta Etdirənin Günahı*** – mülki qanunun pozulmasına görə sığortaçının məsuliyyət şərti; Sığortada adətən kobud və ya qabaqcadan düşünülmüş və ehtiyatsızlıq üzündən Sığorta etdirənin günahı fərqləndirilir.
***Sığorta Güzəşti*** – icbari sığorta münasibətlərində sığorta olunan subyektin sığorta haqlarından tam və ya qismən azad edilməsi, yaxud hər hansı sığorta münasibətlərində sığorta olunan şəxsə müəyyən səviyyədə üstün imkanların verilməsi.
***Sığorta Hadisəsi*** – iştirakçı bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud qanunvericiliyə müvafiq olaraq əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının Milli Bank tərəfindən təsdiq edilməsidir.
***Sığorta Haqları*** – rəsmi qanunvericiliyə əsasən, müəyyən qaydada iştirakçı bankın Əmanətlərin Sığortalanması Fonduna ödədiyi üzvlük, təqvim və əlavə haqlardır.
***Sığorta Limiti*** – sığorta şəhadətnaməsində qeyd olunan sığorta məbləği çərçivəsində sığortaçının sığorta etdirən (üçüncü şəxs)

qarşısında daşıdığı məsuliyyət.
***Sığorta Marağı*** – sığortada iştirak etməni maraqlandırmaqdan ötrü iqtisadi tələbatdır.
***Sığorta Marketinqi*** – rəqabət şəraitində sığortaçının fəaliyyətinin strategiya və taktikasının müəyyən edilməsi məqsədilə sığorta xidmətləri bazarının öyrənilməsi.
***Sığorta Meydanı*** – hər sığorta münasibəti zamanı sığorta obyektlərinin konkret məkan daxilində maksimal sayı.
***Sığorta Məbləği*** – sığorta etdirənin bəyan etdiyi sığorta müqaviləsi bağlanan zaman öz maraqlarını sığortaladığı məbləğ.
***Sığorta Məbləğinin Zərərliliyi*** – sığorta fəaliyyətinin göstəricisidir. Bu sığorta haqqı ilə sığorta məbləği arasındakı nisbəti göstərir.
***Sığorta Məsuliyyəti*** – baş vermiş sığorta hadisələrinin nəticələrini aradan qaldırmaq üçün razılaşma əsasında sığorta edənin dəymiş ziyanı ödəyəcəyi barədə götürdüyü öhdəlikdir.
***Sığorta Miqdarı – 1)*** Sığorta edənin müqaviləyə görə şəxsi sığorta olunana ödəyəcəyi miqdardır. ***2)*** Əmlakın, həyatın və sağlamlığın faktiki sığortalanmış miqdarıdır.
***Sığorta Müdafiəsi*** – konkret obyektə dəymiş ziyanın ödənilməsi və ya aradan qaldırılması ilə bağlı olan münasibətlərdir.
***Sığorta Müddəti*** – sığorta obyektinin sığortalandığı müddətdir. Məcburi əmlak və sosial sığortaları müddətsiz olurlar.
***Sığorta Mükafatı*** – sığorta edənin sığorta müqaviləsinə uyğun olaraq, sığorta olunana vaxtında və qaydasında sığortaya görə ödəməli olduğu haqdır.
***Sığorta Müqaviləsi*** – bir tərəfin (sığortaçının) şərtləşdirilmiş haqq müqabilində digər tərəfə (sığorta olunana) və ya başqa şəxsə (faydalanana), müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə, həmin hadisə nəticəsində sığortalanmış əmlaka dəymiş zərərin əvəzinin müəyyənləşdirilmiş məbləğdə ödəməyi öhdəsinə götürməsidir.
***Sığorta Nəzarəti Orqanı*** – sığorta sektorunda dövlət tənzimlənməsi və nəzarəti funksiyalarını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı.

***Sığorta Növü*** – eynicinsli obyektlərin müəyyən risklərdən sığortası.
***Sığorta Obyekti*** – sığortalı şəxsin həyatı, sağlamlığı, iş qabiliyyəti, əmlakı, digər şəxslərə vurduğu zərərə görə məsuliyyəti ilə bağlı qanuni əmlak mənafeləri.
***Sığorta Olunan*** – sığorta haqqı ödəyən və sığorta edənlə konkret sığorta öhdəliyinə daxil olan fiziki və hüquqi şəxslərdir.
***Sığorta Ödəmələri*** – sığorta hadisələri baş verərkən hesabat dövründə sığortalanma növləri üzrə faktiki ödənmiş sığorta ödəmələrinin məbləğini göstərir.
***Sığorta Ödəmələrindən Daxilolmalar*** – sığorta təşkilatlarının sığortalanma növləri – məcburi və könüllü sığortalanma üzrə bağladığı müqavilələr əsasında faktiki daxil olmuş haqların məbləğini göstərir.
***Sığorta Ödənilməsi (Əvəzin Qaytarılması)*** – sığortalanmanın şərtinə görə müvafiq pul vəsaitini almaq hüququ olan fiziki və ya hüquqi şəxsin alacağı sığortanın miqdarıdır.
***Sığorta Ödənişi*** – sığorta miqdarının ümumi cəmindən manatla ödəmədir.
***Sığorta Portfeli – 1)*** Sığorta şirkətinin iştirakçısı olduğu sığorta münasibətlərinin məcmusu, sayı; ***2)*** Sığortalı şəxsin müxtəlif sığorta şirkətləri ilə bağladığı bütün növ sığorta müqavilələrinin məcmusu.
***Sığorta Predmeti*** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya hal.
***Sığorta Riski*** – sığorta hadisəsinin başvermə ehtimalıdır.
***Sığorta Sahəsi*** – sığortalanması mümkün olan maksimal miqdarda obyektlərdir.
***Sığorta Sertifikatı*** – yükü sığorta edən şəxsə verilən, yükün sığorta edildiyini və polis verildiyini təsdiqləyən sığorta şəhadətnaməsi.
***Sığorta Sirri*** – bağlanmış müqavilədə olan sığorta ilə bağlı məlumatların yayılmayacağı barədə sığorta edənin götürdüyü öhdəlikdir.
***Sığorta Şəhadətnaməsi*** – şəxsi sığortalanma və ya əmlak sığortalanması faktını təsdiqləyən sənəddir. Beynəlxalq praktikada

şəhadətnamə sığorta polisi adlanır.
***Sığorta Şəhadətnaməsi Təminatı İlə Ssuda*** – həyat sığortası şəhadətnaməsi sahibinə şəhadətnamənin alış məbləğinin təminatı altında ssuda verilməsi.
***Sığorta Şirkəti*** – sığorta xidmətləri göstərən, həyatın, sağlamlığın, əmlakın, məsuliyyətin sığortasını keçirən şirkət.
***Sığorta Şirkətlərinin Aktivləri*** – sığorta şirkətinin müxtəlif təsərrüfat sahələrinə investisiya şəklində yatırılan, banklarda qorunan, kredit vəsaiti kimi təqdim edilən vəsaitləri.
***Sığorta Tarifi*** – aktual hesablar əsasında hesablanan sığorta xidmətinin qiymətidir.
***Sığorta Tələbi*** – sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti.
***Sığorta Təminatı*** – sığorta miqdarının sığortalanmış əmlakın dəyərinə olan nisbətidir. Maksimal sığorta təminatı 100% təşkil edir.
***Sığorta Təshihləri (Düzəlişləri, Qeydləri)*** – sövdələşmə bağlanan zaman hər hansı bir öhdəliyin vaxtı çatdıqda və ya gələcəkdə şərait dəyişdikdə tərəflər arasındakı qarşılıqlı münasibətləri tənzimləyən sığorta, fakt və ticarət əqdlərində nəzərdə tutulmuş şərtlərdir.
***Sığorta Təşkilatlarının Gəlirləri*** – sığorta haqlarını, sığorta ehtiyatlarının qaytarılmasını, sığorta ehtiyatlarının investisiyalaşdırılmasından əldə edilən gəlirləri özündə birləşdirən sığorta təşkilatlarının maliyyə nəticələrini ifadə edir və sığorta təşkilatlarının mühasibat və statistika hesabatlarının tərtib edilməsi metodologiyası əsasında hesablanır.
***Sığorta Təşkilatlarının Məsrəfləri*** – sığorta ödəmələrinin və sığorta məbləğlərinin ödənməsini; sığorta ehtiyatlarına ayırmaları; təkrar sığorta verilmiş sığorta haqlarını; bədbəxt hadisələrin, itkilərin və ya sığorta olunmuş əmlakın zədələnməsinin qarşısının alınması tədbirlərini maliyyələşdirmək üçün ehtiyata ayırmaları; işin aparılması xərclərini; sair xərcləri özündə birləşdirən sığorta təşkilatlarının maliyyə nəticələrindən istifadəni əks etdirən

göstəricilərdir.
***Sığorta Valyutası*** – sığortanın müqaviləsinin bağlandığı valyuta. Sığorta haqqı və sığorta ödənişi məhz bu sığorta valyutası ilə ödənilməlidir.
***Sığorta Vasitəçiləri*** – sığorta şirkəti ilə onun müştələri arasında əlaqə yaradır və onlar bilavasitə sığorta xidmətlərini yerinə yetirirlər.
***Sığorta Zərəri*** – sığorta hadisəsi nəticəsində sığortalı şəxsə dəymiş maddi zərər.
***Sığortaçı*** – mövcud qanunvericiliyə uyğun şəkildə sığorta fondu yaradaraq onun qanunauyğun bölgüsünü həyata keçirməklə sığorta əməliyyatı aparan müəssisə, təşkilat, qurum.
***Sığortaçının Öz Vəsaiti*** – sığortaçının öhdəliklərindən azad olan, məbləği sığorta nəzarəti orqanı tərəfindən müəyyən edilən qaydalara əsasən hesablanan vəsaitləri.
***Sığortalanan*** – öz qiymətlərini sığortalayan, sığortaçı ilə sığorta müqaviləsi bağlayan fiziki və ya hüquqi şəxs.
***Sığortalanmış*** – sosial və şəxsi sığortaya görə həyatı, sağlamlığı və əmək qabiliyyəti sığorta müdafiəsinin obyekti olan fiziki şəxslərdir.
***Sığortalanmış Əmanət*** – rəsmi qanunvericiliyə əsasən, qorunan əmanətçinin qorunan əmanətinin Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya ödənilən hissəsidir.
***Sığortalanmış Konosament*** – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı və yük sahibinin qarşılıqlı münasibətlərini müəyyənləşdirən, əksər hallarda yüklərin konteynerlərlə daşınmasında tətbiq olunan sənəddir.
***Sığortalı*** – sığorta fonduna sığorta haqları köçürməklə bu və ya digər sığorta münasibətlərinin bir tərəfinə çevrilən hüquqi və ya fiziki şəxs.
***Sınaq*** – iqtisadi təzahürlərin və proseslərin süni, yaxud təbii şəraitdə əks etdirilməsi, modelləşdirilməsi yolu ilə öyrənilməsi, tədqiq edilməsi.
***Sınaq Dövrü*** – əmək müqaviləsində göstərilən, işə götürülən şəxsin yararlığının, ona tapşırılan işə uyğunluğunun müəyyən

edilməsi, məqsədilə sınaqdan keçirildiyi dövr.
***Sınanmış Təklif*** – fond birjasında artıq listinqdə olan şirkət tərəfindən səhmlərin və ya istiqrazların təklifi.
***"Sınmış" İlkin Yerləşdirmə*** – ilkin yerləşdirilmədən sonra qiymətli kağızlar ilkin yerləşdirmə qiymətindən aşağı satılırsa, belə ilkin yerləşdirmə "sınmış" ilkin yerləşdirmə adlanır.
***Sibor*** – Sinqapur maliyyə bazarında banklararası xarici valyuta depozitlərinin məzənnəsi.
***SİF – "Dəyər, Sığorta və Fraxt"*** – satıcı malı alıcının yerləşdiyi ölkənin limanına gətirərkən, fraxt və digər xərclərlə yanaşı, sığorta xərclərini də ödəməlidir.
***Sifariş*** – opsionun ifadə etdiyi qiymətli kağızı müəyyənləşdirilmiş icra qiymətinə satmaq ("Koll") və yaxud almaq ("Put") öhdəsini qoyan opsion satıcısı tərəfindən icra haqqında bildiriş.
***Sifariş Portfeli*** – müəssisənin, firmanın, təşkilatın hal-hazırda və ya müəyyən dövr ərzində malik olduğu xarici sifarişlərin toplusu.
***Sifariş Üzrə Bölgü (Abunə (Yazılış) Əsasında Bölgü)*** – qiymətli kağızların əvvəlcədən sifariş (yazılma, abunə) əsasında bilavasitə yeni səhmdarların və ya qiymətli kağızların yeni buraxılışına yazılışı və yerləşdirməni həyata keçirmək üçün yaradılmış sindikat üzvləri arasında bölüşdürülməsi.
***Sifarişçi*** – başqa şəxsə mal və xidmətlərin istehsalçısına, satıcısına, tədarükçüsünə (podratçıya) sifarişlə müraciət edən hüquqi, yaxud fiziki şəxsdir.
***Sifarişlər (Təkliflər) Əsasında*** – alış və satış təkliflərinin elan olunması yolu ilə qiymətlərin müəyyən olunduğu bazar.
***Silinmənin Sürətli Üsulu*** – əsas vəsaitlərin istismarının başlanğıcında hesablanan amortizasiya, istismar müddətinin sonunda hesablanan amortizasiyadan daha çox olmasına əsaslanan amortizasiya hesablamaları üsuludur. Bu metoddan ona görə istifadə olunur ki, əsas vəsaitlər təzə olduğundan daha yüksək istehsal keyfiyyətinə malik olur. Odur ki, daha çox amortizasiya xərcləri ilk illərə hesablanır.
***Simetalizm – 1)*** Qiymətli metalların qarışığından pul nişanlarının istehsalı; ***2)*** Qiymətli metallarla təmin olunmuş kağız pullara

əsaslanan pul sistemi.
***Sindikat*** – eyni fəaliyyət sferası üzrə bir neçə təsərrüfat subyektinin, o cümlədən müəssisənin, təşkilatın hər hansı sahədə vahid istiqamətdə fəaliyyət göstərməsi məqsədilə birləşməsi.
***Sindikat Borcu*** – bir neçə şirkətin (sindikat) bir borcalana kifayət qədər vəsait təmin etmək üçün birgə təklif etdikləri borc.
***Sindikatlaşdırılmış Kredit*** – birdən çox maliyyə təşkilatının toplaşaraq eyni bir iqtisadi subyektə eyni şərtlərlə verdiyi kreditdir.
***Sintetik Göstəricilər*** – iqtisadi obyekti, iqtisadi sistemi bütövlükdə səciyyələndirən, ümumiləşdirən göstəricilər.
***Sintetik Hesablar*** – müəssisə vasitələrinin tərkibi və hərəkəti, onların mənbəyi, təsərrüfat proseslərinin vahid pulla ölçülməsi üçün nəzərdə tutulan iriləşdirilmiş, ümumiləşdirilmiş qrupların və uçotun hesablarıdır.
***SİP – "Daşınma və Sığorta Ödənilmişdir (Təyinat Yerinə) dək"*** – satıcı alıcının yerləşdiyi ölkənin limanında yükü daşıyıcıya və ya alıcıya təhvil vermək üçün, digər xərclərlə bərabər, sığorta xərclərini də ödəyir.
***Sirr*** – müəmma, başqalarından qorunan gizli məqamlar, məlumatlar.
***Sistem*** – bir-birilə qarşılıqlı təsirə, əlaqəyə malik və bir-birini tamamlayan ayrı-ayrı elementlərdən ibarət çoxluq, tam.
***Sistem Riski (Ödəniş Sistemi Riski)*** – bütövlükdə maliyyə sisteminin və ya bazarın çökmə riski.
***Sistemli Təhlil*** – mürəkkəb, çoxsəviyyəli və çoxünsürlü sistemlərin, obyektlərin, proseslərin tədqiq edilməsi metod və vasitələrin məcmusu.
***Sistematik Risk*** – bütövlükdə iqtisadi vəziyyətin dəyişməsi və bazarda qiymətlərin ümumi səviyyəsinin azalması və ya artması nəticəsində şirkətin qiymətli kağızlarının qiymətinin dəyişməsi riski.
***Sistematik Yazılış*** – təsərrüfat əməliyyatlarının məzmununa görə ikiqat yazılış vasitəsilə mühasibat uçotu hesabları üzrə qruplaşdırılması və qeydiyyat aktlarının sənədli rəsmiləşdirilməsidir.

***Sistemli Korrupsiya*** – korrupsiya iqtisadi, siyasi, sosial sistemin mühüm aspekti olduqda baş verir.
***Siyasi İqtisad*** – qəbul edilən siyasi qərarların söykəndiyi iqtisadi prinsipləri öyrənən elm.
***Siyasi Korrupsiya*** – siyasi korrupsiya termini son zamanlarda nəşr edilən korrupsiyaya aid ədəbiyyatlarda müxtəlif cür əsaslandırılır. Bəzi hallarda iri korrupsiyaya sinonim kimi işlədilir və siyasi liderlərin öz güclərindən yanlış istifadəsinə istinad edir.
***Siyasi Risk*** – siyasi cəhətdən qeyri-stabil olan ölkələrə investisiya etmək riski.
***Skalp*** – qısa müddət ərzində aparılan və çox da böyük gəlirlə nəticələnməyən möhtəkir (spekulyativ) birja əməliyyatı.
***Skalper*** – qısa müddət ərzində çox da böyük olmayan mənfəət əldə etmək məqsədilə birjada möhtəkir əməliyyatı aparan şəxs.
***Skeyt*** – fond birjasında dilerlərin qabaqcadan kütləvi informasiya vasitələrində nəşr etdikləri səhmlərin kotirovkasından imtina etməsi.
***Skontrasiya*** – eyni kredit təşkilatından hesabı olan şəxslər arasında qarşılıqlı tələblərin silinməsini bildirən ticarət hüququnun terminidir.
***Skrininq*** – gələcək əməkdaş şirkətin, şəxsin kredit qabiliyyətinin, etibarlılıq səviyyəsinin müəyyən olunması, yoxlanılması.
***Skripolifiya*** – köhnəlmiş qiymətli kağızların kolleksiyası, toplanılması.
***Skudo*** – Hazırda İtaliyada tədavüldə olan, 5 İtalyan lirəsi nominalında monet.
***Smeta*** – müəssisənin, təşkilatın, şəxsin qarşıdakı məqsədli xərclərin müəyyənləşdirilməsi məqsədi ilə pul vəsaitlərinin xərc planı.
***Sol*** – Fransada tədarükdə olan qədim qızıl monet.
***Soldo*** – Portuqaliyada tədavüldə olan qədim günəş monet.
***Solo – Veksel*** – üzərində veksel məbləğinin ödənişinə öhdəlik daşıyan yalnız bir şəxsin imzası olan sadə veksel.
***Som*** – Qırğızıstanın milli pul vahidi**.**
***Son Ehtiyatlar*** – hesabat dövrünün sonuna qalan mal ehtiyatlarıdır.

Son ehtiyatlar Balansın aktiv hissəsində göstərilir.

***Son Hədd Qiyməti*** – ticarət dövrü, mövsümü ərzində bazarda maksimal yol verilən qaldırılmış və ya endirilmiş qiymət.

***Son İnstansiya (Məqam) Kreditoru*** – likvidlik çatışmamazlığı olan və ödənişlər üzrə öz öhdəliklərini yerinə yetirə bilməyən kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən maliyyə vəsaitlərinin (kreditlərin) təklif olunmasıdır.

***Son İstehlak Xərcləri*** – ev təsərrüfatları – rezidentlərin istehlak mallarına və xidmətlərə, habelə dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının fərdi və kollektiv istehlak üçün məhsul və xidmətlərə çəkdikləri xərclərdir.

***Son Qiymət*** – birjanın bağlanmasından qabaq qeydə alınmış qiymətlərin, məzənnələrin, kotirovkaların səviyyəsidir, həddidir.

***Son Məhsul*** – yekun, istehsalı bitmiş, hazır məhsulun pul ifadəsində məcmu həcmini səciyyələndirən ümumiləşdirici statistik göstərici.

***Son Ödəmə Tarixi*** – borc qiymətli kağızlarının əsas məbləğinin ödənilməsinin son tarixi.

***Son Prospekt*** – potensial investorlar arasında yayılan və ilkin emissiya prospektindən fərqli olaraq, yeni emissiya haqqında qiymət, çatdırılma müddəti və anderrayterlərin mükafatlarının məbləği kimi bütün təfsilatlı məlumatları özündə əks etdirən emissiya prospektinin son variantı.

***Son Ticarət Günü*** – fyuçers və ya opsion müqaviləsi üzrə əqd bağlana biləcəyi son gündür.

***Sorğu Qiyməti*** – daxili və beynəlxalq ticarətdə topdansatış əmtəə qiymətinin ilkin, təxmini qiyməti.

***Sosial Müavinətlər*** – gəlirlərin və rifah vəziyyətinin aşağı düşməsinə səbəb olan müəyyən şəraitin yaranması ilə əlaqədar olaraq ev təsərrüfatlarına ödənən müavinətlərdir.

***Sosial Müdafiə Xərcləri*** – rəsmi qanunvericiliyə görə, büdcə xərclərinin funksional təsnifləşdirilməsində tətbiq edilən köməkçi bölmələrdən biridir. Büdcədən əhalinin sosial müdafiəsinə yönəldilən xərcləri əks etdirir.

***Sosial Reklamlar*** – cəmiyyətin və dövlətin maraqlarını əks etdirən və xeyriyyə məqsədinə çatmağa yönəldilmiş reklamlardır.
***Sosial Sfera*** – insanların həyat tərzi və səviyyəsi, onların rifahı, istehlakı ilə bilavasitə bağlı olan, bunları müəyyən edən sahələrin, müəssisələrin, təşkilatların məcmusu.
***Sosial Sığorta*** – "Sosial sığorta haqqında" AR qanununda bu anlayış aşağıdakı kimi izah olunur: "Sosial Sığorta qanunla nəzərdə tutulmuş hallarda vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır".
***Sosial Sığorta Stajı*** – əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrlərinin və eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusudur.
***Sosial Təminatlar*** – konstitusiyada əksini tapmış sosial – iqtisadi və sosial – siyasi hüquqların gerçəkləşdirilməsini təmin edən maddi və yuridik mexanizmlər. Əsas sosial təminatlara əmək, istirahət, mənzil, təhsil, tibbi yardım hüquqları daxildir.
***Sosial Təyinatlı Fond*** – müəssisənin işçi heyətinin maddi – sosial tələbatlarının ödənilməsi, o cümlədən bu və ya digər sosial – mədəni tədbirlər zamanı onlara maddi sosial ödənişlərin həyata keçirilməsi məqsədilə təsis edilən pul vəsaitləri fondu.
***Sosial Transferlər*** – ümumi dövlət idarəetmə orqanlarının, ev təsərrüfatlarına xidmət edən qeyri-dövlət və qeyri-kommersiya təşkilatlarının, habelə qeyri-maliyyə müəssisələri və maliyyə idarələrinin sosial yardım göstərmək və əhalinin rifah halını yaxşılaşdırmaq məqsədilə ev təsərrüfatlarına təqdim etdikləri cari transferlərin bir növüdür. Sosial transferlərə daxildir: 1) dəyər şəklində sosial transferlər; 2) natura şəklində sosial transferlər.
***Sosial Yardım*** – yaşla, səhhətinin vəziyyəti, sosial vəziyyəti ilə əlaqədar, yaşayış vasitələri ilə tam təmin olunmaması səbəbindən köməyə ehtiyacı olan vətəndaşlara dövlət, cəmiyyət tərəfindən göstərilən yardım.
***Sövdələşmə Pasportu*** – ixracatçı tərəfindən səlahiyyətli bankda

rəsmiləşdirilmiş, sövdələşmə haqqında bütün məlumatların olduğu və valyuta nəzarətini həyata keçirmək üçün standart formaların qoyulduğu valyuta nəzarətinin baza (əsas) sənədidir.

***Sövdələşmənin Mütləq Etibarsızlığı*** – sövdələşmə formasında hüquqa zidd hərəkətlərin elə dərəcəsidir ki, məhkəməyə belə bir fakt bəs edir ki, onu ləğv etsin. Məsələn, əqdi bağlayan şəxs anlaqsız olarsa, əqd etibarsız sayılır.

***Sövdələşmənin Notariat Forması*** – sövdələşməni aparan şəxslərin iradəsinin dövlət tərəfindən qanuniləşdirilməsi qaydasıdır.

***Sövdələşmənin Şifahi Forması*** – tərəflərin verdiyi söz əsasında şifahi razılaşmasıdır. Şifahi sövdələşmə qısamüddətli olması, icra momenti və miqdarı ilə müəyyən edilir.

***Spekulyasiya*** – bu və ya digər qiymətlilərin, xüsusilə də qiymətli kağızların gələcəkdə qiymət artımı nəticəsində ticarət mənfəətinin əldə edilməsi məqsədilə alqı-satqısı.

***Spesifikasiya*** – göndərişin predmetini xarakterizə edən məlumatların, bəzi hallarda qiymət, göndərmə şərtləri, göndərmə müddətləri və sairənin əks olunduğu, göndərmə müqaviləsinin mətninə qoyulan sənəddir.

***Split*** – müəssisə tərəfindən ümumi səhm kapitalının həcmini dəyişmədən tədavülə buraxılan səhmlərin nominalının azaldılması.

***Sponsor*** – ***1)*** Zəmanətçi, zamindir; ***2)*** Hər hansı bir tədbirin keçirilməsini, hansısa obyektin tikintisini və s. maliyyələşdirən fiziki və ya hüquqi şəxsdir.

***Sponsorluq*** – hüquqi və ya fiziki şəxslərin, müəyyən şəraitlərdə başqa fiziki və ya hüquqi şəxslərə yardım (əmlak təqdim etməklə, intellektual fəaliyyət nəticələrini verməklə, xidmət göstərməklə, iş aparmaqla) şəklində təyin etdiyiköməklikdir. Sponsorluq edən kömək etdiyi şəxsin daxili işinə qarışa bilməz.

***Sporadik Korrupsiya*** – sistemli korrupsiyanın əksidir. Qeyri-müntəzəm olaraq baş verdiyindən iqtisadiyyat və idarəetmənin mexanizmlərinə təhlükə törətmir.

***Spot*** – əmtəə və xidmətlərin, eləcə də maliyyə alətlərinin, valyutanın nağd pula satılması və təcili göndərilməsi, təqdim edilməsi sazişləri.

***Spot Bazarı*** – qiymətli kağızların və əmtəələrin alqı-satqısının nağd pulla həyata keçirildiyi və tərəflərarası mübadilənin qısa müddət ərzində yerinə yetirildiyi bazar.
***Spot Qiyməti*** – müəyyən bir əmtəənin cari alqı satqı qiyməti.
***Spot Məzənnə*** – əməliyyatın həyata keçirildiyi anda bir valyutanın digər valyutaya nəzərən müəyyən olunan məzənnəsi.
***Spred (Marja)*** – qiymətli kağız üzrə təklif olunan qiymətlə tələb olunan qiymət arasındakı fərqdir.
***Spred Ticarəti*** – gözlənilən qiymət fərqindən gəlir əldə etmək məqsədilə bir fyuçers müqaviləsinin alınması və eyni zamanda, digərinin satılması ilə əlaqədar olan ticarət.
***SPT – "Daşınma Ödənilmişdir (Təyinat Yerinə) dək"*** – satıcı malın təyinat yerinə çatdırılana qədər bütün xərclərini ödəməlidir. Mal daşıyıcıya təhvil verildikdən sonra, satıcı heç bir məsuliyyət daşımır.
***Ssuda*** – bir tərəfin (ssuda verənin) digər tərəfə (ssuda alana) müqavilə əsasında götürdüyü öhdəliklər üzrə istifadəyə əvəzsiz əmlak verməsi, alanın isə həmin əmlakı verilmiş vəziyyətdə geri qaytaracağı haqqında öhdəliyin əks olunduğu əvəzsiz istifadə müqaviləsidir.
***Ssuda Faizi (Borc Faizi)*** – istifadə olunan kreditə və yaxud təqdim olunan krediti almağa görə verilən mükafata ödənilən faiz dərəcəsidir. Ssuda faizi (Borc faizi) aşağıdakı düsturla hesablanır:

$$BF = VN \times FD \times BM$$

Burada, VN – veksel nominalı; FD – faizin dərəcəsi; BM – borcun verildiyi müddətdir.
***"Stabilləşdirmə siyasəti"*** – qiymət səviyyəsinin mövcud olduğu şəraitdə istehsal faktorlarından tam istifadə ilə müşayiət olunan makroiqtisadi tarazlığın bərpa olunmasına və qorunub saxlanmasına yönəlmiş fəaliyyətdir.
***Stabilləşdirmə Fondu*** – müəyyən xammal məhsullarının qiymətinin qəfil dəyişməsi zamanı dövlət büdcəsini stabilləşdirən və iqtisadiyyata pul kütləsinin axınına nəzarət imkanı verən xüsusi fondlar.
***Staqflyasiya*** – milli istehsalın ciddi şəkildə aşağı düşməsi

nəticəsində makroiqtisadi qeyri-tarazlıq, o cümlədən yüksək işsizlik və inflyasiya səviyyəsi ilə müşahidə olunan iqtisadi durum, vəziyyət.
***Staqnasiya*** – müəyyən sahələrdə, maliyyə bazarlarında və ya ümumilikdə iqtisadiyyatda durğunluq vəziyyəti.
***Staj*** – işçinin bütün əmək fəaliyyətinin, yaxud müəyyən sahədəki, müəyyən peşə üzrə əmək fəaliyyətinin davamlılığı müddəti.
***Staliya*** – gəminin yüklənməsinin və ya boşaldılmasının mütləq vaxtıdır.
***Stand – by Tənzimlənməsi*** – BVF-in maliyyə böhranı keçirməkdə olan və ya nə vaxtsa keçirdiyi belə böhranın nəticələrini tam ortadan qaldıra bilməyən ölkələrə dəstək vermək üçün etdiyi tənzimləmə. 18 aya qədər olan stand-by rejimində üzv ölkənin kvotasının 100%-i, 3 ilə qədər olan rejimdə isə 300%-i qədər həmin ölkəyə maliyyə vəsaiti ayrıla bilər. Bəzi istisna hallarda BVF bu limitləri keçə bilər.
***Standart*** – istehsal olunan məhsul növünün, əmtəənin cavab verməli olduğu keyfiyyət xassələrini müəyyən edən rəsmi dövlət, yaxud sahənin, müəssisənin, firmanın normativ-texniki sənədi, tələbləri şərti.
***Standart&Poor*** – aparıcı kredit reytinqi agentliklərindən biri.
***Standartlaşdırma*** – istehlakçıların tələbatlarını daha dolğun ödəyə biləcək məhsulların qəbul olunmuş normativ-texniki sənədlər əsasında vahid tələblərə, standartlara uyğun istehsal olunmasıdır.
***Standartlaşmış Əmtəə*** – bütün vahidləri bir-birini tam əvəzləyən, eyni olan əmtəə.
***Statik İqtisadiyyat*** – resurs təklifinin, texnikanın, texnologiyanın, istehlakçı zövqlərinin dəyişməzliyi ilə səciyyələnən sabit iqtisadiyyat.
***Statistik Hesabat*** – şirkətlərin, müəssisələrin, təşkilatların təsdiq edilmiş formalar əsasında tərtib etdiyi, təyin edilmiş müddət ərzində yerli statistik orqanlara təqdim etməli olduğu hesabatlar toplusu.
***Statistika*** – elmin, uçot və təhlilin ən tipik, kütləvi iqtisadi proseslərin göstəricilərini və onların zamanda dəyişməsini qeydə

alan, sistemləşdirən və tədqiq edən bir sahəsi.
***Status*** – müəssisənin, sahibkarın onların təşkilati hüquqi forması, nizamnaməsi, qeydiyyat şəhadətnaməsi, qanunvericilik və normativ aktlarından irəli gələn hüquq və öhdəlikləri, məsuliyyəti, səlahiyyətləri ilə müəyyən edilən hüquqi vəziyyəti.
***Stellaj*** – qiymətli kağızların alqı-satqısı əməliyyatlarının bir növü. Burada alqı-satqı münasibətlərinin tərəflərindən biri əməliyyat anında birtərəfli qaydada ticarət mövqeyinin seçilməsi hüququna malik olur.
***Stend – Bay*** – bank kreditləşdirməsinin bir növü. Bu halda bank müqavilə üzrə kredit məbləğini müəyyən müddət ərzində ehtiyatda saxlayır, müştəri isə bu vəsaiti özünün kredit tələbatına uyğun olaraq hissə-hissə, yaxud tam şəkildə istifadə edir.
***Sterilizasiya Əməliyyatları*** – artmış pul kütləsinin inflyasiya potensialına malik izafi hissəsinin dövriyyədən çıxarılmasına yönəldilmiş əməliyyatlara Mərkəzi Bankın sterilizasiya əməliyyatları deyilir.
***STİBOR*** – Stokholm pul bazarında banklararası təklif dərəcəsi, məzənnəsi.
***Stimullar*** – bir kəsi bir işi görməyə həvəsləndirir.
***Stimullaşdırma*** – istehsalçıları, istehlakçıları, alıcıları iqtisadi maddi həvəsləndirmədən istifadə edənlərin maraqlarına uyğun tərzdə davranmağa vadar edən vasitələrdən, stimullardan istifadə edilməsi.
***Stividor – 1)*** Gəminin yüklənməsi və boşaldılmasını həyata keçirən xüsusi firma və təşkilatların adlarıdır; ***2)*** Gəmilərin yüklənməsi və boşaldılması işlərinin icrasına bilavasitə nəzarətdir.
***Stok – Broker*** – müştərinin xeyrinə onun adından səhm alan və ya satan fond vasitəçisi.
***Stokist*** – konsiqnasiya haqqında xüsusi müqaviləyə əsasən idxalçı ölkədə ixrac-idxal əməliyyatları keçirən firma.
***Storno*** – mühasibat səhvlərinin qeyd edilməsi üzrə mühasibat yazılışı.
***Strateji Əmtəələr*** – ixracı ölkənin təhlükəsizliyinə zərər vura bildiyindən məhdudlaşdırılmış, yaxud qadağan edilmiş əmtəə

növləri.
***Stredl*** – investorun eyni öhdəlik müddəti, baza aktivi və istifadə qiyməti olan opsion üzrə “Koll” və “Put” mövqelərinin götürməsi strategiyası.
***Strenql*** – investorun eyni öhdəlik müddəti və baza aktivi, lakin fərqli istifadə qiyməti olan opsion üzrə “Koll” və “Put” mövqelərinin götürməsi strategiyası.
***Struktur*** – iqtisadiyyatın, iqtisadi obyektin, yaxud iqtisadi kateqoriyanın müəyyən əlamətlərə görə tərkib hissələrə ayrılması, onlar arasında qarşılıqlı əlaqələrin üzə çıxarılması; iqtisadi obyektinin tərkibi, daxili quruluşu.
***Struktur Büdcəsi*** – ÜMM-un təbii səviyyəsi, məşğulluğun struktur işsizliklə müəyyən olunan təbii səviyyəsi şəraitində hökumət xərc və gəlirlərinin necə olacağını göstərən büdcə.
***Struktur İşsizlik*** – istehsal texnologiyalarının dəyişməsi, yeni ixtisas səviyyəsi tələb edən sahələrin inkişafı nəticəsində bu səviyyəyə cavab verməyən ixtisaslı işçi qüvvəsinin yaratdığı işsizlik.
***Struktur Modellər*** – istehsalın sahə quruluşunun işlənilməsində istifadə olunan modellərdir.
***Struktur Siyasəti*** – ümumölkə, regional hökumətlər, müəssisə administrasiyaları tərəfindən bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı hissələrinin sahə, regional, istehsal quruluşuna, həmçinin gəlir və xərclərin, istehlakın, yığımın, ixrac və idxalın quruluşuna dair aparılan siyasət.
***Strukturlaşmış Məhsul*** – adi səhm, səhm səbəti, indeks, əmtəə, borc qiymətli kağızların emissiyası və ya xarici valyuta kimi ilkin qiymətli kağızlara əsaslanan investisiya məhsulu.
***Su*** – Vyetnamda tədavüldə olan xırda monet. 1 su = 1/100 VND
***Subanderrayter*** – yeni tədavülə buraxılan borc öhdəlikli qiymətli kağızların ikinci zəmanətçisi kimi çıxış edən birja vasitəçisi.
***Subemitent*** – bilavasitə rəsmi emitent kimi çıxış etməyən, lakin emitentin öhdəliyinin bir hissəsini üzərinə götürən bank və ya istənilən hüquqi şəxs.
***Subhesab*** – bankda hər hansı bir təsərrüfat subyektinin tərkibində

olan təsərrüfat hesablı olmayan təşkilat, ictimai birliklər üçün açılan köməkçi hesab.

***Subicarə Müqaviləsi*** – icarəçinin, icarə verənin razılığı ilə götürdüyü əmlakın başqasına yenidən icarəyə verilməsi müqaviləsidir.

***Subkomissiya*** – komissiya müqaviləsinin növü olub, digər şəxslə bağlanmış müqaviləyə uyğun olaraq, subkomissiyanın hərəkətlərinə komitent qarşısında cavabdehlikdir.

***Sublizinq*** – lizinq alan subyekt tərəfindən lizinq obyektinin üçüncü şəxsə istifadəyə verilməsi.

***Subpodratçı*** – baş podratçı tərəfindən obyektin tikintisinə cəlb edilən firma.

***Subroqasiya*** – dəymiş ziyan üçün cavabdehlik daşıyan şəxsdən ziyanın ödənilməsi məbləğinin tələb edilməsi hüququnun sığortalı şəxsdən sığorta şirkətinə keçməsi.

***Subsidiar Məsuliyyət*** – şəxsin əlavə öhdəliklərini özündə əks etdirən, qanunla və ya müqavilə ilə müəyyənləşdirilən və borclu ilə bərabər kreditor qarşısında öhdəliklərə cavabdehlik daşıyan mülki məsuliyyət növüdür.

***Subsidiya*** – dövlət büdcəsindən muxtar büdcələrə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti.

***Subsidiyalı Faiz Dərəcəsi*** – dövlət tərəfindən büdcədən, yaxud digər dövlət maliyyəsi fondlarından yerli təsərrüfat subyektlərinə bazar dərəcələri ilə təqdim olunan kreditlərin faiz ödənişlərinin xüsusi güzəştlər qədər azaldılmış hissəsi.

***Subvensiya*** – məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən digər büdcəyə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti.

***Subyekt*** – hər hansı münasibətlər zamanı məqsədli fəaliyyət göstərən tərəf, şəxs.

***Supermarket*** – dövlət büdcəsindən, yerli büdcələrdən, yaxud xüsusi fondlardan fiziki və hüquqi şəxslərə, yerli orqanlara, başqa dövlətlərə pul və ya natural formada verilən yardım.

***Surveyer – 1)*** Sığorta edənin və ya sığortaçının xahişi üzrə

sığortalanmış və ya sığortalanacaq gəmi və yüklərə baxışı həyata keçirən ekspertdir; ***2)*** Gəminin vəziyyəti, onun dənizçilik keyfiyyəti və yüklər haqqında rəy verən şəxsdir.
***Suveren Risk*** – hər hansı bir ölkəyə borc vermək və ya investisiya yatırmaq riskləri (ölkə riski).
***Suveren Buraxılış*** – dövlət zəmanətli şirkət tərəfindən buraxılan borc qiymətli kağızları.
***Sürətləndirilmiş Amortizasiya*** – amortizasiya ayırmalarının normativ həddən artıq səviyyədə hesablanmasıdır.
***Sürüşən Orta*** – müəyyən dövr ərzində qiymətli kağızın orta dəyərini göstərmək üçün texniki təhlillər zamanı tez-tez istifadə edilən göstərici.
***Sürüşən Sarıq*** – adətən inflyasiyanı tənzimləmək üçün istifadə olunan, mübadilə kursunda tədrici qiymətdən düşməyə və ya qiymətləndirməyə imkan verən valyuta sistemi.
***Sürüşən Satış Qiymətli Opsion*** – satış qiymətinin opsionun dövriyyədə olduğu müddətdə uyğun olaraq müəyyən edildiyi deyil, zamandan asılı olaraq dəyişən opsion.
***Süst (Qeyri-Fəal) Bazar*** – alış və ya satış üzrə faizlər aşağı olan, kiçik həcmli və ya zəif fəaliyyət göstərən bazardır.
***Svinq*** – ***1)*** Klirinq hesablaşmalarında tərəflərin qarşılıqlı kreditləşmə həddidir. Əgər svinq yüksələrsə, onda kredit verən ölkə mal göndərişini saxlaya bilər və yaranmış fərqi ödəməyi tələb edə bilər.
***Svitç*** – ***1)*** Bir qiymətli kağız və ya valyuta ilə olan öhdəliyi ləğv edib, digəri üzrə sövdələşmədir; ***2)*** Üçüncü tərəfin klirinq və ya ikitərəfli hesablaşma üzrə qalığın rəsmi məzənnəyə nisbətən etdiyi güzəştdir; ***3)*** Bağlanmış hesablardan istifadə üzrə əməliyyatdır.
***Svop*** – faiz dərəcəsi və ya valyuta riskini aradan qaldırmaq üçün iki tərəf müqabili arasında pul axınının mübadiləsi.
***Svop – Məzənnə*** – bank tərəfindən xarici valyutanın fərqli hesablaşma müddəti şərtilə eyni zamanda alqısı və satqısı məzənnəsi.

## – Ş –

***Şaxələnmə (Törəmə Şirkət Yaratma)*** – şirkətin yeni bir şirkət yaratmaqla öz əməliyyatları və aktivlərini bölmək üçün istifadə etdiyi üsul.

***Şaquli Birlik*** – hazır məhsul istehsalının xammal hasilatından, materialların, yarımfabrikatların istehsalından tutmuş son məhsul buraxılışına qədər bütün ardıcıl mərhələlərini həyata keçirən firmaların bir şirkət, korporasiya daxilində birləşməsi.

***Şaquli İnteqrasiya*** – əsas sahələr üzrə iri kompaniyaların yaradılmasıdır.

***Şaquli Marketinq*** – vahid satış sistemi kimi fəaliyyət göstərən istehsalçı, bir yaxud bir neçə topdansatış satıcılar və bir, yaxud bir neçə xırda topdansatış (pərakəndə) satıcıların cəmi.

***Şaquli Spred*** – eyni tipdən olan və eyni son icra tarixinə malik, lakin müxtəlif qiymətləri olan opsionların eyni zamanda və eyni sayda satışı və alışından ibarət olan opsion strategiyasıdır.

***Şaquli Təmərküzləşmə*** – bir müəssisədə malın hazırlanması və satışının istehsal-ticarət dövriyyəsinin bütün mərhələlərinin bir yerə cəmlənməsi.

***Şans*** – nəyinsə həyata keçməsinin, müvəffəqiyyətin ehtimalı və mümkünlüyü.

***Şans Qiyməti*** – artıq mənfəət əldə etmək ümidi ilə böyük riskə əsaslanmış seçimlə müqayisədə az gəlirli investisiyaların seçilməsinin xərcləri.

***Şarp Nisbəti*** – Nobel mükafatçısı William Sharpa tərəfindən müəyyən olunan riski nəzərə almaqal portfel fəaliyyətini əks edən nisbət.

***Şekel*** – İsrailin Milli pul vahidi (İLS) (1980-ci ildən) 1 İLS = 100 aqorot.

***Şəffaf Büdcə*** – demokratik dövlətdə dövlət büdcəsi – ictimai (açıq) siyasət alətidir. Şəffaf Büdcə – hökumətin irəli sürdüyü siyasətin ictimai ekspertizası və onun səmərəliliyinin müzakirəsi üçün açıq olan büdcəyaratma sistemidir.

***Şəffaflıq*** – konkret olaraq dar mənada maliyyə hesabatlılığının təminini, iştirakçılığı və qanunun aliliyini nəzərdə tutan ictimaiyyətə açıq bir idarəetmə və qərarqəbuletmə sistemini nəzərdə tutur.

***Şəxsi Borc*** – şəxsi kreditdir. Belə kreditin məbləği böyük deyil, hər ay ödəmələr şəklində aparılır. O, kommersiya kreditindən fərqli olaraq, fiziki şəxsə şəxsi xərclər üçün verilir.

***Şəxsi Dövriyyə Vəsaitləri*** – dövriyyə vəsaitlərinin ümumi miqdarının qısamüddətli öhdəlikləri (qısamüddətli kreditor borcları) miqdarından çox olan hissəsidir.

***Şəxsi Əmlak Vergisi*** – öz təsirini vətəndaşın xüsusi mülkiyyətinin müxtəlif növlərinə yayan fiziki şəxsin əmlak vergisidir.

***Şəxsi Gəlir*** – işçinin əmək haqqından, dividentlər, faizlər, renta, mükafatlar, transfertlər daxil olmaqla əlavə ödəmələrdən yaranan pul gəlirləridir. Vergilər çıxana kimi hesablanır.

***Şəxsi Hesab*** – mühasibat və ya bank tərəfindən ayrı-ayrı şəxslərlə hesablaşmalar aparmaq üçün açılan hesabdır.

***Şəxsi İstehlak Xərcləri*** – ev təsərrüfatlarının istehlak malları və xidmətlərinə çəkdiyi xərclərdir.

***Şəxsi Kapital*** – firma sahibinin firmaya qoyduğu kapital; səhmdar cəmiyyətində səhmdar kapital.

***Şəxsi Kapital Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$ŞK = Ş / C >= 0,25$$

Burada, ŞK – şəxsi kapital əmsalı, Ş – şəxsi kapital, C – cəmi aktivlər.

***Şəxsi Kapitalın Artım Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$Ş = İ \times R = B/X \times X / K = B / K$$

Burada, Ş – şəxsi kapitalın artım əmsalı, R – şəxsi kapitalın rentabelliyi, İ – yenidən investisiya, B – bölüşdürülməmiş mənfəət, X – xalis gəlir, K – şəxsi kapital, B – bölüşdürülməmiş mənfəət.

***Şəxsi Kapitalın Dövriyyəsi Barədə Hesabat*** – müəyyən vaxt ərzində sahibkar tərəfindən müəssisəyə qoyulmuş vəsaitin dəyişməsini əks etdirən maliyyə hesabatının bir növüdür.

***Şəxsi Kapitalın Rentabelliyi*** – aşağıdakı düsturla hesablanır:

$$ŞKR = X / O \times 100$$

Burada, ŞKR – şəxsi kapitalın rentabelliyi, X – xalis gəlir, O – orta şəxsi kapital.

***Şəxsi Kapitaldan Gəlirlər*** – səhmdar müəssisədə yerləşdirdikləri şəxsi kapitaldan aldıqları gəlir normasını səciyyələndirən əsas göstəricidir.

***Şəxsi Rifah*** – ayrıca özəl firmanın hüdudunda çiçəklənmə və rifah səviyyəsi.

***Şəxsi Sığorta*** – sığortalının həyatı, sağlamlığı, əmək qabiliyyəti, pensiya təminatı və s. ilə bağlı mülkiyyət maraqlarının sığortalanması üzrə sığorta münasibətləri.

***Şəxsi Sığorta Müqaviləsi*** – bir tərəf (sığortaçı) müqavilə ilə şərtləşdirilmiş haqq (sığorta haqqı) müqabilində digər tərəfə (sığortalıya) və ya sığorta müqaviləsi xeyrinə bağlanmış şəxsə (faydalanan şəxsə) müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə həmin hadisə nəticəsində dəymiş zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş məbləğ (sığorta məbləği) həddində ödəməyi (sığorta ödənişi verməyi) öhdəsinə götürdüyü sığorta müqaviləsi formasıdır.

***Şəxsi Vergilər*** – müəyyən bir şəxsdən, onun vergiyə cəlb edilən gəlirindən asılı olaraq və ona verilən güzəşt nəzərə alınaraq tutulan birbaşa vergilərdir.

***Şəriklik*** – fiziki və ya hüquqi şəxslərin birgə iqtisadi fəaliyyət göstərməkdən ötrü birləşməsi

***Şərti Alqı*** – hər hansı bir şeyi qaytarmaq hüququ ilə almaq.

***Şərti Borc*** – potensial öhdəliklərdir.

***Şərti Əqd*** – saziş növüdür. Onun şərtiləri iştirakçıların birinin başqasına mükafat adlanan müəyyən pul məbləğini ödəməklə (mükafatlı saziş) öz öhdəliklərinin icrasından imtina etmək hüququnu nəzərdə tutur.

***Şərti Əmanət*** – bir şəxsin başqa şəxsin adına qoyduğu pul əmanəti, yəni yalnız müəyyən, əvvəlcədən qeyd edilmiş şərtlərlə, yaxud əmanətçi tərəfindən hesab açılanda göstərilmiş şəraitlərdə, vəziyyət yarananda əmanət işlədilə bilər.

***Şərti Əmr*** – müştərinin brokerə qiymətli kağızları almaq, yaxud satmaq əmridir.

***Şərti Əsas Məbləğ (Kredit Öhdəliyinin)*** – faiz dərəcəsinin svop sazişlərində baza borc qiymətli kağızının əsas məbləği. Bu məbləğ faizi ödəmək üçün istiqrazdan ayrıldıqda, svop sazişində dövriyyə səhmi əmələ gətirən nəzəri və ya fiktiv məbləğə çevrilir.

***Şərti Opsion*** – sahibinin yalnız mükafat ödədiyi opsion (əgər opsion reallaşarsa). Nə qədər ki, şərti opsionlar reallaşdırılmayıb onların qiyməti sıfıra bərabərdir.

***Şərti Öhdəlik*** – şirkətin keçmişdəki fəaliyyəti ilə əlaqədar olan, lakin gələcəkdə müəyyən hadisələrin baş verməsi və ya baş verməməsindən (məsələn, məhkəmə qərarlarının nəticələrindən) asılı olaraq, yaranması ehtimal olunan öhdəliyi.

***Şərti Rüsumsuz İdxal*** – ölkəyə malların və digər əşyaların idxalla bağlı olaraq alınan gömrük rüsumuna, yığım və vergilərə cəlb edilmədən gətirilməsidir, idxalıdır.

***Şərti Sabit Xərclər*** – müəssisələrdə məhsulun istehsalına çəkilən, lakin istehsal edilən məhsulun həcmindən az asılı olan xərclərdir.

***Şərtləndirilmiş Zəmanət*** – bank zəmanətinin bir növü olub, zəmanətçi bankın borclunun öz öhdəliklərini yerinə yetirməməsi haqqında razılaşdırılmış sənəd təqdim olunanda ödəməni öz üzərinə götürməsi öhdəliyidir.

***Şərtsiz Veksel*** – sahibinə ödənişi nağd şəkildə və tam şərtsiz almağa hüquq verən veksel.

***Şifahi Əqd*** – hüquqi nəticəsi gələcəkdə həyata keçirilə bilən sövdələşmədir və ya tərəflərin razılaşması ilə yazılı (sadə və ya notarial) forması müəyyənləşdirilməmiş əqd şifahi hesab olunur.

***Şillinq*** – Avstriyanın, Somalinin, Keniyanın, Uqandanın Tanzaniyanın milli pul vahidi.

***Şirkət*** – iqtisadi fəaliyyətin həyata keçirilməsi məqsədilə hüquqi və fiziki şəxslərin, sahibkarların hüquqi şəxs statusuna malik birləşməsi.

***Şirkətin Parçalanması*** – hər hansı bir şirkətin özünün bütün əmlakını, yaxud fəaliyyətini əvvəllər mövcud olmuş, yaxud yeni yaradılmış iki və daha çox şirkətə təhvil verməsi əməliyyatı.

***Şirkətlərin Listinqi*** – səhmləri hərraca çıxarılan şirkətlər.

***Şişirdilmə və Boşaldılma*** – fırıldaqçıların səhmin qiymətinin

yanlış və aldadıcı vədlərlə artıraraq, qiymət yüksək səviyyəyə çıxdıqda öz mövqelərini bağlaması.
***Şişirdilmiş Qiymət*** – qiymətli kağızların fundamental amillərə əsaslanan qiymətlərdən daha yüksək qiymətlə ticarəti.
***"Şok Terapiya"*** – iqtisadiyyatın dirçəldilməsinə istiqamətlənmiş, təsərrüfat münasibətlərinin, hadisələrinin ənənəvi gedişini pozan və qiymətlərin qalxması, inflyasiya məşğulluğun azalması və s. kimi mənfi hallarla müşayiət olunan radikal tədbirlər kompleksi.
***Şoqun İstiqrazı*** – qeyri-rezidentlər tərəfindən Yaponiyanın milli bazarında xarici valyutada kütləvi satışa buraxılan istiqraz. Adətən, bu termin xarici borc alanların Yaponiyada yerləşdirdikləri dollar istiqrazlarına aid edilir.
***Şöbə*** – müəssisə və təşkilatın, şirkət, bank, birjanın struktur bölməsi.
***Ştat*** – idarənin, təşkilatın, firmanın, müəssisənin əməkdaşlarının, işçilərinin daimi tərkibini əks etdirən sənəd.
***Ştat Cədvəli*** – müəssisənin, idarənin işçilərinin sayını, vəzifələrini, vəzifə maaşlarını, ödəmə xüsusiyyətlərini göstərməklə təsdiq olunmuş, qəbul edilmiş sayca tərkibini əks etdirən siyahısı.
***Ştat Vahidi*** – təşkilatın ştat cədvəli ilə nəzərdə tutulmuş vəzifə vahidi.
***Ştatdankənar İşçilər*** – müəssisə, təşkilat üçün adətən daimi ştat heyətinə daxil edilmədən birdəfəlik iş görən şəxslər.
***Şturman Qeydi*** – gəmi sahibinin yükün daşınmasının qəbul edilməsinin təsdiq olunması barədə imzaladığı sənəddir.
***Şturman Qəbzi*** – gəmi müdiriyyəti tərəfindən, malı gəmiyə yükləyəndən sonra yükün daşınmaq üçün qəbul olunduğu haqda yükgöndərənə verilən gəmi sənədi.
***Şübhəli Borc*** – müəssisənin müqavilə ilə müəyyənləşdirilmiş vaxtda ödənilməyən və müvafiq zəmanətlə təmin olunmayan debitor borclarıdır.

# – T –

***Tabel*** – müəssisədə, təşkilatda işçilərin işə gəlmələri və işdən getmələri haqqında qeydiyyatın rəsmiləşdirildiyi sənəd.
***Tacir*** – əmtəə alıb-satan şəxs.
***Tael*** – qədim Şərqi Asiyada istifadə olunan pul vahidi.
***Taksa*** – qiymətin, tarifin, ödəniş məbləğinin dəqiq müəyyənləşmiş və yaxud müəyyənləşdirilmiş səviyyəsi.
***Talant*** – Kiçik Asiya ərazisində, o cümlədən Qədim Yunanıstanda, Vavilonda geniş yayılmış ən iri pul-hesablaşma və ölçü vahidi.
***Taler*** – Qədim Almaniyada XV əsrin əvvəllərində tədavülə buraxılan iri gümüş monet.
***Talon*** – sahibinin müəyyən neməti, qiymətlini, əşyanı almaq, müəyyən yerə daxil olmaq hüququnu təsdiqləyən sənəd.
***Tam Aksept*** – trassatın vekseldəki məbləği təyin olunmuş müddətdə tam həcmdə ödəyəcəyini bildirən razılığı.
***Tam İflas, Müvəffəqiyyətsizlik*** – şirkətin uzun müddət ərzində maliyyə müvəffəqiyyətlərinə, müsbət nəticələrə nail ola bilməməsi, iflasla nəticələnən fəaliyyəti.
***Tam Qiymət*** – bazis qiymətinə bütün əlavələrlə olan qiymət.
***Tam Lizinq*** – icarəyə verilmiş aktivin yaxşılaşdırılması ilə bağlı xidmət, o cümlədən təmiri müqavilə əsasında lizinq şirkətinin üzərinə düşən lizinq münasibəti.
***Tam Lot*** – birjada dövriyyədə olan səhm və istiqrazların standart ticarət vahidi. Adətən, standart ticarət vahidi kimi 100 ədəd səhm götürülür.
***Tam Səmərəlilik*** – malik olduqları resursları, vasitələri ən yaxşı tərzdə istifadə etmək, məqsədlərinə nail olmaq, istədikləri nəticələri əldə etmək məqsədilə insanların onlardakı informasiyadan tam yararlanmaları haqqında ehtimal.
***Tam Seyrəltmə*** – bir səhmə görə gəlirin hazırda ödənilməmiş olan səhmlərə deyil, daha böyük miqdarda səhmlərə bölünməsi ilə hesablanan göstəricidir.
***Tam Şəriklik*** – iştirakçılarının qeyri-məhdud və müştərək

məsuliyyət daşıdığı kommersiya şərikliyi növü. Şərikliyin bu forması kiçik müəssisələr üçün səciyyəvidir.

***Tantema*** – müəssisənin, bankın əlavə mənfəətinin onun rəhbərliyinə, səhmdarlarına və digər müvafiq şəxslərə təqdim olunan mükafat, pay.

***Tarif*** – ödəniş dərəcəsi.

***Tarif Əmsalı*** – tarif cədvəlinin müvafiq dərəcəsinə uyğun müəyyən edilmiş bir saatlıq, yaxud bir günlük əmək haqqının ən aşağı dərəcə ilə əmək haqqına olan nisbəti.

***Tarif Güzəştləri*** – rəsmi qanunvericiliyə əsasən, tarif güzəştləri dedikdə, AR-ın ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada AR-ın gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azad etmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür.

***Tarifikasiya*** – xidmət tariflərinin və əmək haqqı dərəcələrinin müəyyən edilməsi.

***Tarixi Volatillik*** – keçmişdə qiymətin və ya gəlirin davranışına əsaslanaraq dəyişikliyin qiymətləndirilməsidir.

***"Tavan", Yuxarı Məhdudiyyət*** – qanun və ya müqavilə ilə xərc və gəlirlərə qoyulan limit, resurslarla bağlı qərarlar və çoxillik maliyyə planlarını da misal göstərə bilərik.

***Tayminq*** – fond birjasında alışın və ya satışın həyata keçirilməsi üçün daha əlverişli, münasib vaxt.

***TED Spredi*** – xəzinə kağızları ilə Avrodollar arasında spred.

***Texnika*** – istehsal iqtisadi fəaliyyətin əmək məhsuldarlığının və məhsul keyfiyyətinin yüksəldilməsi, əməyin asanlaşdırılması, əl əməyinin azaldılması, insanların məişət xidmətinin yaxşılaşdırılması, həyat tərzinin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş texniki vasitələr toplusu.

***Texniki Araşdırma (Texniki Təhlil)*** – tələb və təklif arasında bazar konyunkturasının təhlili. Belə təhlil zamanı qiymətlərin dinamikası, bazarın həcmi və inkişaf meyilləri öyrənilir və cari bazar fəaliyyətinin mümkün nəticələri və gələcəkdə qiymətli

kağızlar üzrə mümkün ola bilən tələb və təklifin qiymətləndirilməsi aparılır.

***Texniki Ehtiyatlar*** – sığorta mükafatlarının daxil olmasının və zərərin ödənilməsinin onların səviyyələrinin normal orta tərəddüdləri çərçivəsindəki tarazlığını nəzərdə tutan sığorta ehtiyatları.

***Texniki Fəndlər*** – əlavə müzakirəsiz, təhlilsiz, qərarlar qəbul edilmədən, avtomatik qaydada həyata keçirilən fəaliyyət, tədbirlər.

***Texniki Kredit*** – müəyyən əmtəələrin alınmasından ötrü verilən dövlətlərarası kredit.

***Texniki Layihə*** – yaradılmalı olan məhsulun, obyektin təsvir, sxem, rəsm, hesablamalar, kəmiyyət göstəriciləri şəklindəki surəti; texniki həllin, texniki simanın əks edildiyi layihə.

***Texniki Risk*** – texniki amillərlə bağlı olan risk; onunla riskin sığortalanmasının müxtəlif növləri əlaqədardır. Məsələn, tikinti quraşdırma sığortası.

***Texniki Risklərdən Sığorta*** – tikinti quraşdırma sığortası, elektron avadanlığın sığortası zamanı, texniki quraşdırma işləri zamanı üçüncü şəxslər qarşısında məsuliyyətin sığortasını özündə birləşdirən əmlak sığortası növü.

***Texniki Şərtlər*** – müəyyən bir məhsula müvafiq standartlar işlənib təsdiq olunana qədər onun buraxılmasına imkan verən sənəddir.

***Texniki Təhlil*** – müxtəlif bazarların konyunkturunun təhlili üsullarının əsas qruplarından biridir; malların qiymətlərinin və ya qiymətli kağızların tələb və təklif formasında bazar amilli kurslarının müəyyənedici təsirindən yaranır.

***Texniki Təminat*** – avtomatlaşmış idarəetmə sistemlərində və informasiya sistemlərində tətbiq edilən texniki vasitələrin, kompüter texnikasının, informasiyanın ötürülməsi vasitələrinin məcmusu.

***Texniki-İqtisadi Əsaslandırma*** – təklif edilən müəssisə tikintisi, yeni texniki obyektin yaradılması. mövcud olanın müasirləşməsi və yenidən qurulması layihəsinin həyata keçirilməsinin təhlili, hesablanması, qiymətləndirilməsi.

***Texnologiya*** – məhsul istehsalı, materialların emalı və işlənməsi,

hazır məhsulun yığılması, keyfiyyətə nəzarət, idarəetmə prosesində maddənin, enerjinin, informasiyanın şəklinin dəyişdirilməsi üsulu.

***Texnopolis*** – azad iqtisadi zonaların innovasiya proseslərinin fəallaşması, sürətləndirilməsi, texniki və texnoloji yeniliklərin tez və səmərəli tətbiqinə şəraitin yaradılmasının bir forması.

***Telefon Bank*** – müştərilərinə telefon rabitəsi vasitəsilə xidmət göstərən bank.

***Telefon Rabitəsi*** – obonoment ilə müqavilə əsasında həyata keçirilən, telefon xidmətinin təqdim olunmasının hüquqi formasıdır.

***Tender*** – hər hansı bir işin, xidmətin ən səmərəli üsul və aşağı xərclə yerinə yetirilməsi üçün iddiaçılar arasından birinin və ya bir neçəsinin seçilərək həmin işin (xidmətin) müqavilə əsasında ona (onlara) həvalə edilməsi məqsədilə keçirilən müsabiqədir.

***Tender Komitəsi*** – tenderin keçirilməsinin təşkil edilməsi məqsədilə müvəqqəti yaradılan orqan, qurum.

***Tender Qiyməti*** – şirkətin səhmdarlarının səhmlərinin bir hissəsinin və ya tam həcminin alqısı üçün təklif olunan qiymət.

***Tender Sənədləşməsi*** – keçirilən tenderin, o cümlədən tender əsasında beynəlxalq satışın texniki, təşkilati və digər tipli sənədlər məcmusu.

***Tender Təklifi*** – şirkətin səhmdarlarının səhmlərinin bir hissəsinin və ya tam həcminin alqısı üçün verilən təklif.

***Tenderin Proforması*** – oferent tərəfindən hazırlanıb imzalanmalı olan sənəddir-formulyardır.

***Tenqa*** – XIV-XVII əsrlərdə Orta Asiya ərazisində tədavüldə olan gümüş monet.

***Terminal*** – nəqliyyat şəbəkəsinin son, yaxud aralıq məntəqəsində yerləşən və yüklərin, sərnişinlərin, baqajın və s. daşınmasında müxtəlif ümumi istifadə nəqliyyat vasitələrinin qarşılıqlı əlaqəsini təmin edən qurğular kompleksi.

***Tertiya*** – köçürmə vekselin üçüncü nüsxəsi.

***Teta*** – opsionun müddətinin bitmə tarixi yaxınlaşdıqca opsionun dəyərində dəyişmə.

***Tezavrasiya*** – ölkənin xəzinədarlığı, Mərkəzi Bankı və digər

məqsədli dövlət fondları tərəfindən qızıl, pul, yaxud valyuta ehtiyatlarının yığılması, yaradılması.
***Təbii Artım Sürəti*** – istehsal həcminin mövcud istehsal resurslarından tam istifadə edilməsi şəraitində artım sürəti.
***Təbii İnhisar*** – bir firma mal və xidmətləri bazarda digər iki və daha çox firmanın fəaliyyət göstərdiyi halla müqayisədə daha az xərclərlə istehsal etdikdə meydana çıxır.
***Təbii İşsizlik*** – iş qabiliyyətli əhalinin bir hissəsinin daha sərfəli iş yeri axtarması nəticəsində yaranan işsizlik.
***Təbii Resurslar*** – torpaq və torpaq sahələri, su mənbələri, hava hövzəsi, faydalı qazıntılar, meşələr, bitki və heyvan aləmi şəklində təbiətdə mövcud olan iqtisadi, məhsuldar resurslar.
***Təbii Resursların Tükənməsinin Uçotu*** – metal, neft, qaz, ağac və s. bu kimi il ərzində tamamilə tükənə bilən təbii ehtiyatlar kapitalın idarə edilməsində problemlər yaradır.
***Təbii Üstünlük*** – ölkənin hər hansı bir məhsulu əlverişli iqlim şəraiti və ya təbii resurslara malik olduğu üçün, nisbətən daha az məsrəflərlə istehsal etmək qabiliyyətidir.
***Təbliğat*** – qarşıya qoyulmuş məqsədlərə nail olunmasına köməklik göstərilməsi üçün firmanın mövcud və potensial müştəriləri tərəfindən oxunulması, baxılması və eşidilməsi üçün münasib olan bütün informasiya yayımı vasitələrindən, redaksiya yerindən və ya vaxtından pulsuz istifadə olunmasıdır.
***Təchizat*** – istehsalçı müəssisənin zəruri, əsas və dövriyyə istehsal vasitələri ilə təmin edilməsi.
***Təcili Əməliyyatlar Üzrə Mübadilə Məzənnəsi*** – gələcəkdə bağlanacaq müqavilələr üçün istifadə olunan valyuta mübadiləsi məzənnəsidir.
***Təcrübə Konstruktor İşlərinə Müqavilə*** – podrat müqaviləsinin bir növü olub, podratçının yeni məmulatın nümunəsinin və konstruktor sənədləşməsinin hazırlanması barədə öhdəlik götürməsidir.
***Tədarük*** – malların xaricdə, yaxud ölkənin daxilində iri partiyalarla, böyük miqdarda alınması.
***Tədarük Anbar Xərcləri*** – müəssisələrin və təşkilatların lazımi

həcmdə və assortimentdə xammalla və materiallarla təchiz edilməsi, onların tədarükü, saxlanması ilə bağlı xərclər.

***Tədarük Qiyməti*** – dövlət tərəfindən dövlətin ehtiyaclarının ödənilməsi üçün, həmçinin kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədilə kənd təsərrüfatı məhsullarının və digər malların, onları istehsal edənlərdən alınması qiyməti.

***Tədavül*** – əmtəələrin, qiymətli kağızların, habelə pul vəsaitinin hərəkəti, mübadiləsi, alqı-satqısı.

***Tədbirli İnsan Qaydası*** – səlahiyyət verilmiş şəxsin digər şəxs adından vəsaitləri investisiya etməsinin ümumi hüquqi qaydası.

***Tədiyyə Balansı*** – müəyyən dövr ərzində (ay, rüb, il) ölkəyə digər ölkələrdən daxil olan pul vəsaitinin ümumi məbləği ilə digər ölkələrə pul ödəmələrinin məbləği arasındakı nisbəti ifadə edən cədvəldir. Tədiyyə Balansı ölkədən xaricə çıxarılan və ölkəyə xaricdən daxil olan bütün əmtəə və xidmətlər, habelə digər əməliyyatlar üzrə ödəmələrin məcmusunu ifadə edir.

***Tədiyyə Balansının Cari Hesablarının Saldosu*** – həyata keçirilmiş xidmətlərdən və birtərəfli ödənişlərdən götürülən gəlirlərin ticarət balansının saldosudur.

***Tədiyyə Balansının Kəsiri*** – müəyyən dövr ərzində (əsas etibarilə 1 il) ölkənin xarici iqtisadi fəaliyyəti nəticəsində ölkədən çıxarılan xarici valyutaların məbləğinin ölkəyə daxil olan xarici valyutaların məbləğini üstələməsini əks etdirən makro-iqtisadi göstərici.

***Tədricən (Zaman Keçdikcə) Dağılma*** – zaman keçdikcə opsionun qiymətinin davamlı olaraq düşməsi.

***Təftiş*** – dövlət maliyyə nəzarəti standartlarına uyğun olaraq nəzarət obyektinin maliyyə – təsərrüfat fəaliyyətinin konkret dövrünün bütün sahələri əhatə olunmaqla sənədli və faktiki yoxlanılmasıdır.

***Təhkim Olunmuş Gömrük Anbarları*** – müəyyən gömrük orqanına tabe olan və onların nəzarəti altında əmtəə saxlanılan bütün sahə və tikililərdir.

***Təhlil*** – hadisələrin və proseslərin elmi araşdırılması metodu. Bu metod öyrənilən sistemin tərkib hissələrinin, elementlərinin öyrənilməsinə əsaslanır.

***Təhlükəsiz Liman*** – gəminin heç təhlükə keçirmədən girib-çıxa

bildiyi yerdir.
***Təhlükəsiz Valyuta*** – bazarda qarışıqlıq zamanı öz vəsaitlərinin təhlükəsiz saxlanmasını təmin etmək üçün investorlar və fond menecerləri tərəfindən istifadə olunan ABŞ dolları və ya İsveçrə frankı kimi etibarlı tədavül valyutası.
***Təhtəlhesab Şəxs*** – müəssisənin inzibati təsərrüfat və ezamiyyə xərclərini qabaqcadan nağd pul şəklində alan şəxsdir.
***Təxirə Salınmış Kupon*** – ilk bir neçə il ərzində kuponun ödənilməsinin vaxtını təxirə salan və vaxt çatanda birdəfəlik ödənişi təmin edən istiqraz.
***Təxirə Salmaya (Möhlətə) Görə Haqq (Bakvordasiya)*** – əmtəə bazarlarında əmtəənin nağd və ya ilkin çatdırılma ayı üzrə qiymətinin sonrakı aylardakı qiymətdən üstün olması. Əmtəə qıtlığı şəraitində nağd və ya ilkin ayda çatdırılacaq əmtəəyə tələb artdığı üçün bakvordasiya baş verir.
***Təxirəsalma*** – gələcək dövrlərin gəlir və xərclərinin transformasiya formasıdır. Aşağıdakı hallarda təxirəsalma tələb olunur: ***a)*** iki və daha çox hesabat dövrünə aid olan xərclər yaranan zaman. Məsələn, binanın dəyəri və s.; ***b)*** iki və daha çox hesabat dövrünə aid olan gəlirlər yarananda, məsələn, göstəriləcək xidmətlərə görə qabaqcadan alınan komisyon haqqı və s.
***Təxsisatlar*** – büdcə maliyyələşdirilməsi.
***Təxsisatların Ləğvi*** – ləğv edilmiş təxsisatlardan verilmiş büdcə ilində uzun müddət istifadə olunmaya bilər.
***Təklif*** – qiymətli kağız, valyuta və ya digər maliyyə alətinin alqı və ya satqı təklifi.
***Təklif Amili*** – daha çox həcmdə mal və xidmətlər istehsal etməyə imkan yaradan, onların təkliflərini artırmağa kömək edən, resursların nağd miqdarının, onun keyfiyyətinin artması, yaxud texniki biliklərin, texnoloji imkanların, yeniliklərin genişlənməsi.
***Təklif Aralığı*** – şirkət qiymətli kağızı hansı qiymətə satacağını gözlədiyi qiymət aralığı.
***Təklif Əyrisi*** – malların qiymət artımına görə təklifin artımını göstərən əyridir.
***Təklif Qiyməti*** – sifarişlərin şərtlərindən biri olan və qiymətli

kağızlar hərracı iştirakçısı tərəfindən satış üçün təklif etdiyi qiymətli kağızı satmağa razı olduğu qiymətdir.

***Təkrar Bazar (Birjadankənar Bazar, Qeydiyyatdan Keçməmiş Qiymətli Kağızları Bazarı)*** – ilkin yerləşdirmədən sonra qiymətli kağızların birjada vasitəçi subyektlər, o cümlədən brokerlər və dilerlər tərəfindən alqı-satqısı (Təkrar Bazar).

***Təkrar Bazar Sifarişi (Birjadankənar Bazar Sifarişi)*** – ilkin yerləşdirmədən sonra investorların qiymətli kağızların alınması üzrə əlavə sifariş vermələri.

***Təkrar Borcalan*** – dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulmayan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxs.

***Təkrar Fondlaşdırma (Maliyyələşdirmə)*** – mövcud borc qiymətli kağızlar (istiqrazlar) üzrə borcun yeni borc qiymətli kağızlarının (istiqrazların) buraxılması yolu ilə cəlb olunan borc vəsaitlərinin köməyi ilə ödənilməsi.

***Təkrar Girov*** – broker şirkəti tərəfindən müştərinin marja hesabında olan qiymətli kağızları girov qoymaqla kreditin götürülməsi.

***Təkrar İdxal*** – ölkədən ixrac edilən malların, aktivlərin xaricdə emal prosesindən keçmədən, əvvəlki adında və statusunda müəyyən müddətdən sonra yenidən ölkəyə qaytarılması, idxal edilməsi.

***Təkrar İxrac*** – xaricdən ölkəyə idxal edilən malların, aktivlərin ölkə daxilində emal prosesindən keçmədən, əvvəlki adında və statusunda müəyyən müddətdən sonra yenidən xaricə ixrac edilməsi.

***Təkrar İnvestisiya Olunmuş Gəlirlər*** – kommersiya fəaliyyətindən əldə olunan gəlirlərin bir hissəsinin səhmdarlara paylanmadan yenidən müəssisəyə sərmayə kimi qoyulmasıdır.

***Təkrar İstehsal*** – istehsalın xərclənmiş faktorlarının onların sonradan istehsalı vasitəsilə yenidən yaradılması.

***Təkrar Kapitallaşma (Yenidən Kapitallaşma)*** – şirkətin borc və sahibkarlıq kapitalı nisbətinin dəyişdirilməsi.

***Təkrar Qiymətli Kağızlar*** – ilkin yerləşdirilməsindən sonra

investorlar arasında qiymətli kağızların ticarəti həyata keçirildiyi maliyyə bazarı.

***Təkrar Müqavilə*** – rəsmi qanunvericiliyə əsasən, müvafiq icra hakimiyyəti orqanı ilə əsas borcalan, istifadəçi və ya təkrar borcalan arasında bağlanılan, dövlət borcalmaları və ya dövlət zəmanəti ilə alınmış vəsaitin bölüşdürülməsi, istifadəsi və qaytarılması (istifadəçiyə şamil olunmur) şərtlərini müəyyənləşdirən müqavilə.

***Təkrar Özəlləşmə*** – əvvəl milliləşdirilmiş özəl mülkiyyətin yenidən özəlləşdirilməsi, yəni milliləşmə nəticəsində yaranmış dövlət mülkiyyətinin yenidən özəl mülkiyyətə çevrilməsi.

***Təkrar Resurslar*** – yenidən istehsala daxil edilən bir dəfə istifadə olunmuş maddi resurslar, yaxud onların bir hissəsi, bir istehsalın başqa istehsalda tətbiqini tapan tullantıları.

***Təkrar Sığorta*** – sığorta bazarında risklərin bölüşdürülməsi üsulu. Şirkət riski sığorta edir və məruz qaldığı riskin bir hissəsini digər şirkətlərlə təkrar sığorta müqavilələri bağlamaqla onlara ötürür.

***Təkrar Təklif*** – səhmlərini ilkin kütləvi təklif yolu ilə yerləşdirmiş şirkətin yeni səhm emissiyası.

***Təkrarsığortaçı*** – sığorta və ya təkrarsığorta fəaliyyətinə lisenziyası olan ilkin sığortaçı və ya ilkin təkrarsığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrarsığorta müqavilələri əsasında sığortalanmış (təkrarsığortalanmış) riskləri təkrarsığortalayan (təkrarsığortaya qəbul edən) tərəf.

***Təkrarsığortalı*** – sığortaladığı və ya təkrarsığortaladığı riskləri təkrarsığorta müqaviləsi əsasında təkrarsığorta etdirən (təkrarsığortaya ötürən) sığortaçı və ya təkrarsığortaçı.

***Təqaüd*** – adətən tələbələrə, aspirantlara, xüsusi təhsil kursunu keçən şəxslərə müntəzəm ödənilən pul vəsaiti.

***Təqdim Edənə Qiymətli Kağız*** – adlı qiymətli kağızdan fərqli olaraq bu qiymətli kağız üzrə hüquqların keçməsi və onda təsbit edilmiş hüquqların keçirilməsi, qiymətli kağız sahibinin eyniləşdirilməsini tələb edən emissiya qiymətli kağızı.

***Təqdimatlı Konosament*** – adi yolla təqdim etmək vasitəsilə üçüncü şəxsə ötürülən konosament növü.

***Təqdimatlı Səhm*** – dividentlərin alınması üzrə öz sahibinə imtiyazlı hüquqlar verən, lakin ona səhm sahiblərinin yığıncaqlarında səs hüququ verməyən səhmdir.

***Təqvim Spredi*** – müxtəlif müddətlərə icrası nəzərdə tutulan, eyni qiymətli və birtipli opsionların ("Put" və "Koll") eyni zamanda alqı-satqısını nəzərdə tutan opsion strategiyası.

***Tələb*** – alıcıların, istehlakçıların müəyyən əmtəəni pul imkanları ilə əsaslandırılmış almaq istəyi.

***Tələb Əyrisi*** – dəyişən qiymətlərdən asılı olaraq ödəməqabiliyyətli tələb təqdim olunan malların kəmiyyətini əks etdirən əyridir.

***Tələb Həcmi*** – alıcıların müəyyən bazarda və müəyyən vaxtda almaq istədikləri və bacardıqları əmtəə miqdarı.

***Tələb Olunan Gəlirlilik*** – investorlar tərəfindən investisiyanın cəlbedici olub olmamasına qərar verməkdə istifadə olunan gəlirlik.

***Tələb Olunanadək*** – istənilən pul ödənişi sənədləri, xüsusilə vekselin üzərində ödənişin təqdim olunan anda aparılacağını təsdiq edən imza.

***Tələb Olunanadək Bank Əmanətləri*** – əmanətçinin ilk tələbi üzrə ödənilmək şərti ilə bağlanmış bank əmanətləri müqaviləsidir.

***Tələb Olunanadək Depozit*** – öncədən geri götürülməsi müddəti təsbit olunmayan, əmanətçinin ilk tələbindən sonra qaytarılan depozit.

***Tələbat Qiymət*** – alıcı bazarının formalaşdığı vəziyyətdə, anda tələb və təklifin bazar qiymətidir.

***Tələbin İdarə Edilməsi*** – məcmu tələbi artırmaq, yaxud azaltmaq məqsədilə fiskal və pul-kredit siyasətinin üsullarından istifadəetmə.

***Tələbin Proqnozlaşdırılması*** – uyğun istehsal planlarının daha yaxşı əsaslandırılması üçün əmtəə və xidmətlərə təkrar, gələcək tələbin müəyyən edilməsi.

***Tələbin Tədqiqi*** – satış bazarının öyrənilməsinin birinci mərhələsidir. Təhlilin statistik üsullarından istifadə etməklə potensial istehlakçının, onun zövqünün, istehlakçı qrupları üzrə tələbatın quruluşunun öyrənilməsindən, təmin edilməmiş tələbatların üzə çıxarılmasından, konkret əmtəələrə üstünlük verilməsi səbəblərinin təhlilindən ibarətdir.

***Tələbnamə*** – hər hansı bir formada müəyyən obyektlə bağlı bir subyektin başqa subyektə tələbini təsdiq edən xüsusi formaya malik sənəd və ya sənədlər toplusu.
***Təlimat*** – müəyyən fəaliyyət növlərinin, işlərin həyata keçirilməsinin, xidməti davranışın xüsusi normativ sənədlərdə verilmiş qaydalarının toplusu.
***Təmərküzləşmə*** – istehsalın, kapitalın bir yerdə, yaxud bir əldə cəmləşməsi, bazarda bir və ya bir neçə firmanın üstünlüyü.
***Təminat*** – iqtisadi proseslərin normal cərəyan etməsinə, müəyyən edilmiş planların, proqramların, layihələrin gerçəkləşməsinə, iqtisadi sistemin və onun obyektlərinin sabit işləməsinə, qanunların, normativ təyinatların, kontraktların pozulmasının qarşısının alınması üçün şəraitin yaranmasına xidmət edən tədbirlərin və vasitələrin məcmusu.
***Təminat Hesabı*** – dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən açılan xüsusi büdcə hesabı.
***Təminat Marjası (Təminatlı Marja)*** – marja hesabında saxlanmalı olan minimum həcmdə səhmdar kapitalı.
***Təminat Vekseli*** – təsbit olunmuş müddətdən sonra borclu tərəfin veksel məbləğinin ödənişini gecikdirdiyinə görə həmin vekselin sonradan ödənişinə təminat vermək məqsədilə veksel sahibinə (ixracatçıya və ya kreditora) təqdim etdiyi veksel.
***Təminatlı İstiqraz*** – dəyəri və ödənişləri müvafiq baza aktivlərindən gələn vəsaitlər hesabına formalaşan istiqraz.
***Təminatlı "Koll" Opsionu*** – satıcının opsion müqaviləsində göstərilmiş sahib olduğu əsas səhm paylarının qısa "Koll" opsionu mövqeyinə verilməsi.
***Təminatlı "Koll" Opsionu Satışı*** – investorun baza aktivi üzrə uzun pozisiya saxlaması və bu aktivlər üzrə "Koll" opsionu satması.
***Təminatlı Kredit*** – əmtəə kreditinin növüdür. Burada borcalanın satın aldığı əmtəə onun dəyəri tam ödənilməyincə satıcı kreditorun mülkiyyəti olaraq qalır.
***Təminatsız Borc İstiqrazları*** – təminatsız (girova əsaslanmayan)

borc qiymətli kağızları. Emitentin ümumi krediti hesabına qarşı buraxılmış, müəssisənin heç bir xüsusi əmlakı ilə təmin edilməmiş borc öhdəliyi.

***Təminatsız İstiqrazlar*** – müəssisənin müəyyən aktivlərinin zəmanəti olmadan adi kredit şəklində buraxılan istiqrazlardır.

***Təminatsız Kredit*** – girov təminatı olmadan verilən kredit.

***Təminatsız Opsion*** – bu halda alıcı özünün müqavilə üzrə hüquqlarından sərhədsiz şəkildə istifadə etmək imkanına malik olur ki, bu da satıcı tərəf üçün riskin səviyyəsini qaldırır.

***Təmiz Aktivlər*** – müəssisənin qısamüddətli öhdəlikləri (uzunmüddətli "qeyri-kapitalı" da) çıxılmaqla, onun bütün aktivlərinin dəyəridir.

***Təmiz Aktivlərdən Gəlir*** – faizlər və vergilər ödənilənə qədər təmiz aktivlərin hər manatından gəlir həcmidir. Rentabellik göstəricisindən fərqli olaraq bu halda bütün aktivlər deyil, təmiz aktivlər nəzərə alınır.

***Təmiz Balans Dəyəri*** – əvvəlki illərin məsrəflərini çıxdıqdan sonra toplanmış aktivlərin ilkin qiymətləridir.

***Təmiz Gəlir*** – müəssisənin ümumi gəlirlərindən xərclərini çıxmaqla, satılan malların maya dəyərinə daxil olmayan gəlirdir.

***Təmiz Konosament*** – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı və yük sahibinin qarşılıqlı münasibətlərini tənzimləyən, yük sahibi və ya onun göndərdiyi mal barədə hər hansı çatışmazlıq barədə daşıyıcının heç bir düzəlişi olmayan sənəddir.

***Təmiz Oyun*** – konqlomeratdan və fəaliyyətini şaxələndirmiş şirkətlərdən fərqli olaraq şirkətin bir fəaliyyət növü ilə məşğul olması.

***Təmiz Ticarət Nəzəriyyəsi*** – beynəlxalq iqtisadiyyatın bir bölməsi olub, pozitiv metodlar əsasında ticarət şərtlərini və ticarətdən qazanılan gəlirləri analiz edir.

***Tənəzzül*** – iqtisadi və ya fond birjası tsiklinin artımdan enişə doğru dəyişməsi.

***Tənəzzül Mərhələsi*** – malın yetkinlik mərhələsindən sonra, onun satışının azalması nəticəsində başlanan dövr.

***Tənzimlənən Büdcə*** – qiymətlərin dövlət tərəfindən təyin edilməsi əsasında formalaşan büdcə (hal hazırda belə büdcə yoxdur).

***Tənzimlənən Qiymət*** – səlahiyyətli dövlət orqanları və ya bələdiyyələr, yaxud müəssisə administrasiyası öz bölmələri üçün təsərrüfat daxili qiymətləri formalaşdırmaq üzrə qoyduğu qiymətdir.

***Tənzimlənən Valyuta*** – pul-kredit sferasında dövlətin tənzimləmə siyasəti vasitəsilə ilə xarici valyutalarla mübadilə dəyərinin və ümumilikdə tədavülünün nəzarətdə saxlandığı valyuta.

***Tənzimlənmənin Qeyri-Rüsum Üsulu*** – bir sıra malların idxal və ixracı üçün xüsusi icazənin – lisenziyanın olmasını nəzərdə tutur.

***Tənzimlənmənin Qeyri-Tarif Üsulu*** – bu müxtəlif ölkə mallarına qarşı müxtəlif texniki, inzibati, istehsal standartları şəklində tətbiq olunan ayrı-seçkilik, həmçinin insanların sağlamlığının müdafiəsi, ətraf mühitin qorunması, milli təhlükəsizliyin müdafiəsi və s. bu kimi bütün dövlətlər tərəfindən tətbiq olunan tədbirlərdir.

***Tənzimləyici İstiqraz*** – müflisləşmə riski altında olan şirkətin yenidən kapitallaşması zamanı, kreditorların qarşılıqlı razılığı əsasında, dövriyyədə olan istiqrazların əvəzlənməsi üçün buraxılan istiqraz.

***Tərəflər*** – öz aralarında müqavilə bağlayan, yaxud artıq bağlamış fiziki və ya hüquqi şəxslər.

***“Tərk Edilmiş” Bazar*** – birja dilində əqdlərin bağlanmasına tamamilə heç bir marağın olmaması ilə səciyyələnən bazar durumu.

***Təsadüfi Qəza (Dəniz Daşımalarında)*** – gəminin və ya yükün əzilməsi ilə nəticələnən təsadüfi dəniz daşımaları itkiləridir.

***Təsbit Edilmiş (Fiksə Edilmiş) Valyuta Məzənnəsi*** – beynəlxalq maliyyə kredit orqanlarının müəyyən etdiyi valyuta paritetləri əsasında olunan valyuta məzənnəsi.

***Təsbit Etmək*** – valyuta və ya əmtəə üçün rəsmi qiymətin qoyulması (müəyyən edilməsi), adətən gündəlik əsasda.

***Təsdiqləmə*** – sənədlərin, o cümlədən maliyyə sənədlərinin, hesabların təsdiq edilməsi, düzgünlüyünə təminat verilməsi.

***Təsərrüfat*** – yaşayış və həyat təminatı üçün şərait və vəsaitlərin

yaradılması, saxlanması, yaxşılaşdırılması üçün insanalar tərəfindən istehsal edilən təbii və insan əlləri ilə hazırlanmış vəsaitlərin məcmusu.

***Təsərrüfat Birliyi*** – birgə təsərrüfat fəaliyyəti, müştərək fəaliyyət, fəaliyyətin əlaqələndirilməsi, öz hüquqlarının müdafiəsi, ümumi maraqların başqa təşkilatlarda, müəssisələrdə təmsil olunması məqsədilə müəssisələrin, şirkətlərin, hüquqi şəxslərin könüllü birliyi, assosiasiya.

***Təsərrüfat Cəmiyyəti*** – nizamnamə kapitalının təsisçilərin payları üzrə bölündüyü kommersiya təşkilatıdır. Təsərrüfat cəmiyyətləri məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər.

***Təsərrüfat Əlaqələri*** – məhsulların istehsalı və satışını, təsərrüfat prosesinin lazımi materiallarla təminatını təmin edən təsərrüfat əməliyyatları sistemidir.

***Təsərrüfat Əməliyyatı*** – hüquqi şəxsin təsərrüfat fəaliyyətində sənədlə rəsmiləşdirilən hər bir baş vermiş faktıdır.

***Təsərrüfat Əməliyyatları*** – təsərrüfat subyektinin maliyyə vəziyyətinə təsir göstərən, mühasibat uçotunun predmeti olan təsərrüfat həyatı faktlarıdır.

***Təsərrüfat Fəaliyyətinin Direktiv Tənzimlənməsi*** – təsərrüfat vəziyyətinin dayandırılmasının və ya kəsilməsinin qarşısını almaq məqsədi ilə təsərrüfat subyektlərinə dövlətin təsir formalarından biridir.

***Təsərrüfat Hüququ*** – aşağıdakıları tənzimləyən hüquq normaları toplusundan ibarət hüquq sahəsidir: ***a)*** Sahibkarlıq münasibətləri və onunla bağlı digər münasibətlər; ***b)*** Qeyri-kommersiya münasibətləri; ***c)*** dövlətin və cəmiyyətin maraqlarının təminatı məqsədilə iqtisadiyyatın dövlət tənzimlənməsi üzrə münasibətləri.

***Təsərrüfat Hüququ Münasibətləri*** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan, həmçinin qarşılıqlı hüquq və öhdəliklərlə bir-birilə bağlı olan bazar iştirakçılarına dövlət təsirinin nəticəsində əmələ gələn və normalarla tənzimlənən hüquq münasibətləridir.

***Təsərrüfat Hüququ Münasibətlərinin Növləri*** – aşağıdakılardır:

***1)*** Mütləq əşya hüquq münasibətləri (mülkiyyətə münasibətdə); ***2)*** Mütləq-nisbi əşya hüquq münasibətləri (təsərrüfatın aparılması, icarə, operativ idarəçilik); ***3)*** Şəxsi təsərrüfat fəaliyyətinin aparılması üzrə mütləq münasibətlər; ***4)*** Nisbi iltizamlı təsərrüfat hüquq münasibətləri; ***5)*** Qeyri-əmlak mütləq təsərrüfat hüquq münasibətləri (firma hüququ, əmtəə nişanı və s.).

***Təsərrüfat Hüququnun Subyektləri*** – malik olduğu mülkiyyəti bazasında sahibkarlıq və digər təsərrüfat fəaliyyəti aparan, qoyulmuş qaydalara uyğun qeydiyyatdan keçən (legitimləşən), həmçinin belə fəaliyyətə rəhbərlik etməklə öz adından hüquq və vəzifələr alan, sərbəst mülkiyyət məsuliyyəti daşıyan təsərrüfat vahidlərinin hüquq və vəzifələridir.

***Təsərrüfat Xərcləri*** – şirkətin yaşamasının təmin edilməsi üçün təsərrüfat ehtiyaclarına edilən məcmu xərclər, habelə digər idarə xərclərinin ümumi xərcləri.

***Təsərrüfat İnventarı*** – təsərrüfatı və idarəni hazırlamaq predmetləri olub 16 saylı subhesabda nəzərə alınan inventarlardır.

***Təsərrüfat Müqaviləsi*** – iqtisadi təsərrüfat fəaliyyətinin yerinə yetirilməsi prosesində firmalar, şirkətlər, müəssisələr, təşkilatlar arasında onların təsərrüfat fəaliyyətinin və qarşılıqlı öhdəliklərinin təmin və xidmət edilməsi məqsədilə bağlanan razılaşmadır.

***Təsərrüfat Subyekti*** – hüquqi-təşkilati formasından asılı olmayaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan istənilən hüquqi və ya fiziki şəxs.

***Təsərrüfat Subyektinin Müvafiq İdarəetmə Orqanı*** – təsərrüfat subyektində idarəetməni həyata keçirən ali idarəetmə orqanı (Direktorlar Şurası və Müşahidə Şurası) və İdarəetmə Orqanı.

***Təsirin Ticarəti*** – məmurla cəmiyyətin bir üzvünün yersiz üstünlüklərini mübadilə etməsidir.

***Təsisçilər*** – işi təşkil edənlər, firmanı, cəmiyyəti yaradanlar.

***Təsisçi Səhmi*** – sahibinə müəyyən üstün hüquqlar verən, səhmdar cəmiyyətin təsisçiləri arasında bölüşdürülən səhm.

***Təslim Aktı*** – hüquqi şəxsin əmlak və maliyyə vəziyyətini əks etdirən sənəddir. Təslim aktında həmçinin hüquqi şəxsin bütün borc və öhdəlikləri də qeyd olunur.

***Təsnifat Problemi*** – mühasibat uçotunda hesablar sistemində təsərrüfat əməliyyatlarının yazılış yeri məsələsinin həlli zamanı yaranan problemdir.
***Təşkilat*** – birgə fəaliyyət göstərməkdən ötrü insanların müəyyən struktur daxilində birləşməsi forması.
***Təşkilat Xərcləri*** – müəssisənin yaradılması üzrə xərclərdir.
***Təşkilati – Hüquqi Struktur*** – qanunvericiliklə, Mülki Məcəllə ilə nəzərdə tutulmuş hüquqi normalara əsasən müəssisənin, şirkətin, firmanın növünün, tipinin müəyyən edilməsi və buna uyğun təşkilati quruluşun yaradılması.
***Təşkilati Struktur*** – iqtisadi obyektin, müəssisələrin, şirkətlərin, təşkilatların bölmələrə, şöbələrə, sexlərə, laboratoriyalara, sahələrə, qruplara ayrılması.
***Tətbiqetmə*** – yenilikləri yaymaq, mütərəqqi ideyaların, kəşflərin, elmi tədqiqatların nəticələrinin praktik istifadəsinə nail olmaq.
***Tətil*** – əlahiddə müəssisənin, bir qrup müəssisələrin və ya sahənin işçiləri tərəfindən müəyyən müddətə, yaxud qeyri-məhdud müddətə müəssisənin, regionun müdiriyyətinə, yaxud hökumətə tələblər irəli sürməklə işin kütləvi dayandırılması.
***Təzə Buraxılış*** – periodik emissiya olunan qiymətli kağızın (əsasən istiqraz) ən son buraxılmış seriyası.
***Təzminat*** – itkilərin, dəymiş zərərin, edilmiş xərclərin əvəzinin ödənilməsi, borcun qaytarılması.
***Təzminat Ödəmələri*** – dəymiş zərərin, itkilərin əvəzini ödəməli olan tədiyyələr.
***Tibbi Sığorta*** – sığortalının müxtəlif səbəblər üzündən sağlamlığının itirilməsi ilə bağlı sığortalanması üzrə sığorta münasibətləri.
***Ticarət*** – malın alınıb yenidən satılmasıdır.
***Ticarət Agenti*** – məhsul istehsalçıları ilə istehlakçıları arasındakı vasitəçidir.
***Ticarət Akkreditivi*** – bankın öz müştərisinin tapşırığı ilə və onun hesabına konkret alıcıya, sonuncunun təqdim etdiyi sənədlərin həqiqiliyi təsdiq edildikdə müəyyən pul məbləğinin verilməsi haqqında öhdəliyi.

***Ticarət Avtomatı*** – əmtəələrin satılmasından ötrü yarımavtomat qurğu.
***Ticarət Azadlığı*** – firmalar, şəxslər, ölkələr arasında ticarətdə heç bir maneələrin və məhdudiyyətlərin olmaması.
***Ticarət Balansı*** – müəyyən müddət ərzində ölkənin digər ölkələrlə həyata keçirdiyi ticarət münasibətlərini xarakterizə edən balans.
***Ticarət Bankı*** – beynəlxalq ticarət münasibətlərinin kreditləşdirilməsi üzrə ixtisaslaşan kommersiya bankı.
***Ticarət (Qiymət) Diapazonu*** – müəyyən müddət (gün, ay, il) ərzində müəyyən maliyyə alətinin birjada ən yüksək və ən aşağı qiymətləri arasındakı fərq.
***Ticarət Evi*** – müştərilərin və ya öz adından fyuçerslərin və əmtəələrin alqı-satqısı ilə məşğul olan müəssisə.
***Ticarət Əməliyyatları*** – eyni səhmlərin onların məzənnələrinin dəyişməsi hesabına mənfəət əldə etmək məqsədilə satqısını və sonrakı alqısını bildirən bank termini.
***Ticarət Firmaları*** – öz adından və öz hesabına əmtəələrin alqı-satqı əməliyyatlarını həyata keçirən firmalardır.
***Ticarət Güzəşti*** – malın pərakəndə qiymətinin hissəsi sayılan, ticarət müəssisəsinin xərclərini örtmək və gəlir almaq üçün nəzərdə tutulan pul vəsaitləridir.
***Ticarət Həcmi*** – qiymətli kağızlar bazarında ticarət olunan qiymətli kağızların sayı.
***Ticarət İmtiyazları*** – bir dövlətin digərinə qarşılıqlı əsasda, yaxud birtərəfli qaydada verdiyi ticarət güzəştləri.
***Ticarət Markası*** – texnologiyanı qorumağın hüquqi formalarından biri olub, firma məhsullarında yerləşdirilən şəkillər, qrafik təsvirlər, firmanın yaradıcısının soyadı və sairlərdir.
***Ticarət Meydançası*** – treydinq fəaliyyətinin həyata keçirildiyi meydança.
***Ticarət Mərkəzi*** – eyni məkanda cəmləşmiş, vahid, bütöv obyekt kimi fəaliyyət göstərən və idarə edilən müxtəlif ticarət müəssisələri qrupu.
***Ticarət Müqavilələri*** – ticarət-iqtisadi əməkdaşlığı, ticarət dövriyyəsi məsələlərini, ödəmələr şərtlərini və formalarını

tənzimləyən firmalararası, yaxud hökumətlərarası müqavilələr, əmtəə dövriyyəsi və ödəmələr haqqında razılaşmalar.
***Ticarət Nümayəndəsi*** – komisyon muzdu müqabilində əqdlərin bağlanılmasının, ticarət, yaxud istehsal şirkətinin adından vasitəçilik edilməsinin tapşırıldığı şəxs.
***Ticarət Palatası*** – iqtisadiyyatın və ticarətin, ilk növbədə ölkələr arasındakı ticarət münasibətlərinin inkişafına xidmət edən beynəlxalq ictimai və ya dövlət təşkilatı.
***Ticarət Reyestri*** – rəsmən qeydiyyatdan keçmiş ticarət firmalarının daxil edildiyi reyestr.
***Ticarət Sanksiyaları*** – bir ölkənin digər ölkə ilə ticarət müqaviləsi bağlamağa qoyduğu qadağalardır.
***Ticarət Sessiyası*** – birjada rəsmi ticarət üçün müəyyən olunmuş vaxt.
***Ticarət Siyasəti*** – bir qayda olaraq idxalı məhdudlaşdırmaqla, mal dövriyyəsinin dəyişdirilməsinə xidmət edən dövlət siyasətidir.
***Ticarət Şərtləri*** – ixrac və idxal qiyməti indekslərinin nisbətidir.
***Ticarət Şöbəsi, Filial*** – istehsalçı firmanın bilavasitə istehsal ilə məşğul olmayan, hazır məhsulun saxlanılmasını və satışını təmin edən filialı.
***Ticarət-Vasitəçilik Əməliyyatı*** – istehsalçı ixracatçıdan asılı olmayan ticarət vasitəçisi tərəfindən istehsalçının tapşırığı ilə aralarındakı bağlanmış saziş, yaxud ayrıca tapşırıq əsasında əmtəələrin alqı-satqısı ilə əlaqədar həyata keçirilən əməliyyatdır.
***Ticarət – Vasitəçilik Əməliyyatlarının Təşkilati Formaları*** – həyata keçirilən əməliyyatların xarakterindən asılı olaraq ticarət-vasitəçilik firmalarının aşağıdakı növləri var: ticarət, komisyon, agent, broker.
***Ticarət Vasitəçisi*** – əmtəə istehsalçısı ilə istehlakçısı, satıcısı ilə alıcısı arasındakı ticarət prosesinə ticarətin inkişafına xidmət edən aralıq həlqə.
***Ticarət Yeri (Postu)*** – fond birjasının ticarət zalında oxşar xüsusiyyətlərə malik qiymətli kağızların satıldığı yer.
***Ticarət Zalı*** – birjanın əməliyyat zalı.
***Ticarətdən Uduş*** – digər ölkələrlə aparılan ticarət nəticəsində

ölkənin qazandığı üstünlükdür.
***Ticarətin Liberallaşdırılması*** – beynəlxalq ticarətdə maneə və məhdudiyyətlərin aradan qaldırılmasıdır.
***Tik*** – fond birjasında qiymətli kağızın məzənnəsinin minimum səviyyədə dəyişməsi, tərəddüdü.
***Tiker*** – cari maliyyə məlumatlarını operativ surətdə kağız lent və ya ekranda verən teleqraf və ya elektron aparat; ilk dəfə 1867-ci ildə ABŞ birjalarında istifadə edilmişdir.
***Tiker Simvolu*** – fond birjasında satılan səhmləri ifadə edən hərflərdir.
***Tikinti*** – müəssisələrinin, təşkilatlarının binalar, qurğular, yeni obyektlər tikdiyi iqtisadiyyat sahəsi.
***Tikinti-Quraşdırma İşləri*** – yeni obyektlərin, binaların tikilməsi və onlarda avadanlığın quraşdırılması üzrə işlər.
***Tikinti-Quraşdırma Risklərinin Sığortası*** – sığorta obyekti sığorta müqaviləsində göstərilmiş binalar, tikililər, maşınlar, onların ehtiyat hissələri, tikinti meydanında olan tikinti və quraşdırma üçün nəzərdə material və s. olan əmlak sığortası müqaviləsi.
***Tikinti-Quraşdırma İşləri Zamanı Üçüncü Şəxslər Qarşısında Məsuliyyətin Sığortası*** – tikinti-quraşdırma və işə salma sazlama işləri zamanı və həmçinin təminatlı istismar müddətində istehsalatda bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyən zərərə görə məsuliyyəti sığortaçının öz üzərinə götürə biləcəyi məsuliyyət sığortası növü.
***Tikinti Materialları*** – mühasibat uçotunda tikinti-quraşdırma işlərində istifadə olunan materiallar, tikinti detallarının hazırlanması üçün, tikintinin qaldırılması və üzləmə-təmir işlərinin aparılması üçün lazım olan tikinti detal və qurğuları, habelə tikinti işləri üçün lazım olan digər material dəyərliləri deməkdir. Müəssisənin tikinti materiallarının uçotu 10-8 saylı “Tikinti materialları” subhesabında aparılır.
***Tipləşdirmə*** – tipik formaların verilməsi, bir çox obyektlər, proseslər üçün ümumi olan üsullardan, metodlardan, həll etmək yollarından istifadə edilməsi.
***Tiraj*** – bir müəllif və ya bir qrup müəlliflər tərəfindən, yaxud bir

adda nəşrin çap olunmuş nüsxələrinin sayı.
***Titul*** – müəyyən fəaliyyətə, xüsusi mövqeyə, əmlaka, əmtəə sahibliyinə hüquqların qanuni, sənədli əsaslandırılması.
***Tobin Vergisi*** – Harvard Universitetinin professoru James Tobin tərəfindən irəli sürülən və xarici valyuta mübadiləsi əməliyyatlarının vergitutmaya cəlbini nəzərdə tutan xüsusi vergi növü. Bunun praktiki tətbiqi hələlik problemli görünür. Çünki onun tətbiqi beynəlxalq razılaşma tələb edir.
***Toxunulan Bazar*** – qiymətli kağız müəyyən edilmiş qiymətə çatdıqda şərti sifarişin bazar sifarişinə çevrilməsi.
***Topdansatış Firmaları*** – öz hesabına xarici ölkələrdən iri partiyalarla mal alan və onun kiçik partiyalarla öz ölkəsinin daxili bazarında ayrı-ayrı istehlakçılara satan və qiymət fərqinə görə mənfəət götürən firmalardır.
***Topdansatış Güzəşti*** – alınan əmtəə partiyası, dəstinin həcmindən asılı olan güzəşt.
***Topdansatış (Buraxılış) Qiymətləri*** – istehsalçı ilə istehlakçıların razılaşdığı və əlavə dəyər vergisinin nəzərə alındığı qiymətlərdir.
***Topdansatış Ticarət*** – böyük həcmli əmtəə partiyaları ilə ticarət, əmtəələrin böyük həcmlərdə istehlak edən, yaxud onları sonradan pərakəndə satan alıcılara satılması.
***Topdansatış Yarmarkası*** – iri, müntəzəm və ya birdəfəlik çoxişlənən mallar bazarıdır.
***TOPİKS*** – Tokio fond birjasında opsion və fyuçerslər üçün hesablanan qiymət indeksi.
***Toplam Borc Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

***TBƏ = CB / CA <= 0,7***

Burada, TBƏ – toplam borc əmsalı, CB – cəmi borclar, CA – cəmi aktivlər.
***Toplanan (Mürəkkəb) Faiz*** – ilkin vəsait və onun faizinin cəmi üzrə faiz. Məsələn, ildə 10% gəlir gətirən 100 manatlıq depozit, ilin sonunda 110 manat olacaq.
***Toplanmış (Yığılmış) Faizlər*** – axırıncı faiz ödənişindən sonra qiymətli kağız üzrə yığılmış faiz gəlirləridir.
***Torpaq*** – müəssisənin əsas fəaliyyətində istifadə olunan torpaq

sahələrinin alınması və satılmasının qeydiyyatı üçün mühasibat hesabıdır.
***Torpaq Bankı*** – torpağın girovu əsasında uzunmüddətli və ucuz kreditlər təqdim edən bank və digər kredit təşkilatı.
***Torpaq Fondu*** – torpaqdan istifadə edənlərin bir qrupuna, müəssisəyə, kooperativə məxsus olan torpaqların, yaxud inzibati-ərazi vahidinə daxil olan torpaqların ümumi sahəsi.
***Torpaq Haqqı*** – torpaq vergisi, icarə haqqı, torpağın normativ qiymətləri formalarında alınan haqdır.
***Torpaq İslahatı*** – iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və son nəticədə xalqın maddi rifahını yüksəltmək məqsədilə dövlət torpaqlarının müəyyən edilməsini, torpaqların xüsusi və bələdiyyə mülkiyyətinə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarının təmin edilməsini əhatə edən tədbirlər kompleksi.
***Torpaq İstifadəsi*** – torpaqdan qanunvericiliyə uyğun qaydada istifadə edilməsidir.
***Torpaq Kadastrı*** – torpaq istifadəçiliyinin qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə məlumatların məcmusu.
***Torpaq Rentası*** – torpaq sahibinin istehsal fəaliyyəti ilə bilavasitə əlaqədar olmayan, lakin torpağı təbii resurs kimi icarəyə verdiyinə görə torpağın istifadəsindən onun aldığı gəlir.
***Torpaq Sahibliyi*** – müvafiq hüquq və vəzifələrlə şərtləndirilmiş, müəyyən hüquqi əsaslarla torpaq sahəsinə sahiblikdir.
***Torpaq Vergisi*** – rəsmi qanunvericiliyə əsasən, AR-ın ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.
***Torpaq Vergisi Üzrə Vergitutma Obyekti*** – AR Vergi Məcəlləsinə görə torpaq vergisi üzrə vergitutma obyekti aşağıdakı kimi müəyyən olunmuşdur: “Fiziki şəxslərin və müəssisələrin AR-in ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri

vergitutma obyekti sayılır".

***Törəmə Bank*** – nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və bank holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və bank holdinq şirkətinə onu qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir.

***Törəmə Şirkət*** – nəzarət səhm paketinin 50%-dən çoxu digər şirkətə məxsus olan şirkət.

***Transfer –1)*** Pul vəsaitlərinin, valyutanın bir ölkədən, digərinə keçirilməsi; ***2)*** Pulun bir hesabdan başqa hesaba köçürülməsi.

***Transfert Xidmətləri*** – qiymətli kağızlara mülkiyyət hüququnun ötürülməsi xidmətlərinin göstərilməsini öz üzərinə götürən kommersiya banklarının trast şöbələri ilə müqavilə.

***Transfert Qiyməti*** – korporasiyaların ayrı-ayrı bölmələri, firmaları arasında sazişlərdə, hesablaşmalarda işlədilən firmadaxili qiymət; adətən məxfidir;

***Transfert Ödəmələri*** – dövlət büdcəsindən əhaliyə və özəl sahibkarlara ünvanlanan, onların dövlət xidməti ilə bağlı olmayan, vəsaitlərin daha çox ehtiyacı olanlar arasında büdcə vasitəsilə təkrar bölgüsü yolu ilə edilən pul ödəmələri.

***Transformasiya Cədvəli*** – ilkin və aralıq sənədlərində olan mühasibat göstəricilərinin korrektirovkasına xidmət edən işçi sənəddir.

***Transmilli Bank*** – dünya maliyyə bazarında geniş fəaliyyət dairəsinə malik, müxtəlif ölkələrdə nümayəndəlik və filialları olan, hökumətlər ilə pul-kredit əməliyyatları aparan nəhəng maliyyə kredit institutu. Məsələn, Dünya Bankı və s.

***Transmilli Korporasiya*** – özünün əməliyyatlarının əsas hissəsinin qeydə alındığı ölkənin xaricində, çox vaxt şöbələr, filiallar, müəssisələr şəbəkəsinə malik olduğu bir neçə ölkədə keçirən şirkət, korporasiya.

***Tranş –1)*** Xüsusi, ayrıca buraxılış üzrə yerləşdirilən qiymətli kağızlar, istiqrazlar seriyası; ***2)*** Borcalan subyektə bir ödənişlə, yəni birdəfəlik təqdim edilən kredit məbləği.

***Tranzit*** – malların gömrük nəzarəti altında, AR-ın iki gömrük orqanı arasında, o cümlədən xarici dövlətlərin ərazisindən gömrük rüsumları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən keçirilməsindən ibarət gömrük rejimidir (AR 34-cü maddə).

***Tranzit Haqqı*** – neftin müəyyən ölkənin ərazisi ilə müəyyən ixrac boru kəməri vasitəsilə ötürülməsi üçün ödənişlər.

***Tranzit Hesab*** – səlahiyyətli bankda müştərinin hesabına xarici valyuta ilə mədaxilin ilkin miqdarının göstərildiyi, müştəriyə xarici valyuta vəsaitlərini satmaq və cari hesaba köçürməklə səlahiyyətləndirilən bank hesabıdır.

***Tranzitin Qadağan Olunması*** – dövlətin öz ərazisindən başqa dövlətlərin – yüklərinin, nəqliyyat vasitələrinin və vətəndaşlarının keçib getməsinə qoyduğu qadağadır.

***Trassat (Ödəyici (Köçürmə Vekseli Üzrə))*** – köçürmə veksel üzrə borc məbləğinin ödəyicisi.

***Trassant (Veksel Verən)*** – köçürmə vekselinin sahibi. Trassant veksel üzrə borc məbləğinin ödənişi və aksepti üçün cavabdehlik daşıyır.

***Trasslaşdırma*** – kreditorla borcalan arasında borcu ödənilmə qaydasının, şərtlərinin müəyyənləşdirilməsi.

***Trast*** – işgüzar müstəvidə, əməkdaşları, kreditorları arasında yüksək imicə və etibarlılıq səviyyəsinə malik müəssisə, təşkilat.

***Trast Əməliyyatları*** – qiymətli kağızların alışı, satışı və qorunması, qiymətli kağızlar portfelinin idarə olunması üzrə bankın göstərdiyi xidmətlərdir.

***Trast – İstiqraz*** – emitent subyektin mülkiyyətində olan əmlakın və qiymətlilərin təminatı əsasında buraxılan istiqraz vərəqələri.

***Trast Müqaviləsi*** – bank ilə müştəri arasındakı müqavilə.

***Trast – Şirkət*** – etbarlılıq, yüksək inam əsasında müxtəlif istiqamətdə iqtisadi fəaliyyətlə məşğul olan şirkət, müəssisə.

***Tratta (Köçürmə Veksel)*** – bir şəxsin (kreditorun) digərinə müəyyən məbləğin üçüncü şəxsə verilməsi haqqında yazılı tapşırığını özündə əks etdirir.

***Trend*** – müəyyən dövrdə iqtisadi göstəricilərin, hadisələrin

tendensiyası.
***Trend Xətti*** – texniki təhlildə trend xətti bazarın istiqamətini müəyyənləşdirmək üçün spesifik qiymət nöqtələrini birləşdirən xətdir. Trend xətti nə qədər böyük müddət ərzində işləyərsə, yoxlanılarsa, lakin qırılmazsa, onun əhəmiyyəti də bir o qədər artar.
***Trest*** – öz istehsal, kommersiya və hüquq müstəqilliyini itirmiş müəssisələrin birliyidir. Daha çox ABŞ-da və Qərb ölkələrində yayılmışdır.
***Treyder*** – ***1)*** Fond birjasında əməliyyat hüququ olan istənilən hüquqi və ya fiziki şəxs; ***2)*** Ticarət fəaliyyəti ilə məşğul olan istənilən şəxs, tacir; ***3)*** Broker firmasının ixtisaslı işçisi.
***Treyderlərin Öhdəlikləri*** – ABŞ-ın tənzimləyici orqanlarından olan Əmtəə Fyuçersləri üzrə Ticarət Komissiyası tərəfindən hazırlanan və iriölçülü ticarətçilər, möhtəkirlər, hedcerlər və kiçik ticarətçilər tərəfindən tutulan ümumi açıq yerləri göstərən aylıq hesabat.
***Treydinq*** – məzənnə fərqinə görə mənfəətin əldə edilməsi məqsədilə qiymətli kağızların, xüsusilə səhmlərin davamlı şəkildə alışı və satışı.
***Triada*** – ***1)*** Ən yüksək səviyyə; ***2)*** Strateji nöqtə; ***3)*** İfrat səviyyəsi.
***Tsiklik İşsizlik*** – iqtisadiyyatda istehsal durğunluğu zamanı meydana gələn işsizlik.
***Tutuşdurma Anlayışı*** – mühasibat uçotunun fundamental anlayışlarından biri olub, mənası əldə olunmuş gəlirlərin onun alınması prosesində itirilmiş xərclərlə tutuşdurulması deməkdir.
***Tümən*** – ***1)*** XVIII əsrin sonu XX əsrin əvvəllərində İranda tədavüldə olan qızıl və gümüş monet. 1 tümən = 10 rial; ***2)*** Hazırda İİR-da pul-hesablaşma vahidi.

# – U –

***Ucuz Pullar*** – Mərkəzi Bank tərəfindən həyata keçirilən aşağıdakı tədbirlər nəticəsində bank kreditinin ucuzlaşdırılması: uçot dərəcələrinin aşağı salınması, kommersiya banklarının Mərkəzi Bankda saxlamağa borclu olduqları məcburi ehtiyatlar normasının aşağı salınması Mərkəzi bankın kommersiya banklarından dövlət qiymətli kağızlarını alması.

***Ucuzlaşdırma*** – mal sahibi, satıcı tərəfindən ilkin qoyulmuş qiymətin aşağı salınması.

***Uçot*** – iqtisadi hadisənin, əməliyyatın kəmiyyət və keyfiyyət tərəflərinin ölçülməsi, əks etdirilməsi.

***Uçot Dərəcəsi*** – ssuda faizindən çıxılan miqdarı əks etdirir. Uçot dərəcəsi aşağıdakı düsturla hesablanır:

***U = Ö x F x B***

Burada, ***Ö*** – ödəniləcək miqdar, ***F*** – faiz dərəcəsi, ***V*** – vaxt.

Məsələn, dəyəri 1000 ABŞ dolları olan veksel faiz dərəcəsi 10 olmaqla 90 günə verilmişdir. Uçot dərəcəsini tapaq:

***U = 1000 $ x 10% x 90 gün = 25 $***

***Uçot Dövrü*** – müəssisənin mühasibat sənədləri üzrə təsərrüfat fəaliyyətinin analizinin aparılmasında hərəkət ardıcıllığı olub, aşağıdakı mərhələlərdən ibarətdir: ***1)*** ilkin sənədlər əsasında təsərrüfat əməliyyatlarının aparılması; ***2)*** Baş jurnalda əməliyyatların qeydiyyatı; ***3)*** Yazıların Baş kitaba köçürülməsi; ***4)*** Transformasiya cədvəlinin tərtibinin köməyi ilə hesabat dövrünün sonunda hesabların transformasiyası; ***5)*** Transformasiya cədvəlinin əsasında maliyyə hesabatının tərtibi; ***6)*** Hesabat dövrünün sonunda hesabların bağlanması və yeni hesabat dövrünün başlanmasına hazırlıq.

***Uçot Kartoçkası*** – hər bir hesab üçün ayrıca aparılan və kartoçkalar reyestrində qeydiyyatdan keçən kartoçkadır.

***Uçot Qaydaları*** – rəsmi qanunvericiliyə əsasən, maliyyə hesabatlarını Milli Mühasibat Uçotu Standartlarına müvafiq hazırlamalı olan mühasibat uçotu subyektləri üçün ilkin sənədlərin və uçot registrlərinin formasını müəyyənləşdirən qaydalardır.

***Uçot Qiyməti*** – materialların qiyməti olub, müvafiq təlimatlara uyğun olaraq iki qayda ilə müəyyən edilir: ***1)*** Hesabatda faktiki maya dəyəri nəzərə alınır; ***2)*** Hesabatda preyskurant (müqavilə) qiymətləri götürülmür.

***Uçot Prosedurası*** – təsərrüfat əməliyyatının analizindən başlayaraq, maliyyə hesabatının tərtibi və hesabların bağlanmasına qədər uçot prosesinin mərhələli ardıcıllığını müəyyənləşdirən proseduradır.

***Uçot Registrləri*** – uçot üçün qəbul olunmuş ilkin sənədlərdə olan məlumatların toplanması və sistemləşdirilməsini nəzərdə tutan mühasibat sənədlərindən biridir.

***Uçotda Üstünə Gəlmə Metodu*** – müəssisənin pul aldığı və ya pul ödədiyi vaxtlarda deyil, digər vaxtlarda müəssisənin təsərrüfat həyatında baş vermiş faktların maliyyə nəticələrinin əks olunmasına imkan verən üsuldur.

***Uçotun Baş Kitabı*** – müəssisənin maliyyə vəziyyəti haqqında olan məlumatların ümumiləşdirildiyi maliyyə sənədi.

***Uçotun Dolğunluğu Prinsipi*** – müəssisənin təsərrüfat fəaliyyətinin bütün faktlarının mühasibat uçotunda tam əks etdirilməsindən ibarət olan uçot siyasətinin əsas prinsiplərindən biridir.

***Uçotun Jurnal Order Forması*** – təsərrüfat əməliyyatları barədə ilkin sənədlərdə məlumatların toplanması üçün köməkçi cədvəllər və jurnal-orderlərin toplanmasından istifadəyə əsaslanan mühasibat uçotu sistemidir.

***Udulma*** – iki firmanın udan firmanın hüquqi şəxs kimi qalmasını, udulan firmanın isə birinciyə bütün əmlakını, öhdəliklərini, borclarını verməklə ləğv edilməsini nəzərdə tutan birləşmə növü.

***Udulma Təklifi*** – bir şirkətin digər şirkətə sahiblik hüququnu (nəzarət paketini) əldə etmək məqsədilə onun səhmdarlarına səhmlərini almaq üçün təklif olunan qiymət.

***Uduşlu Opsion*** – opsionun istifadə qiymətinin baza qiymətli kağızın qiymətindən kiçik olduğu hal.

***Unifikasiya*** – eyniliyin bərqərar edilməsi, (sənədlərin, detalların, ehtiyat hissələrinin, avadanlığın, xidmətlərin və s.) vahid şəklə,

formaya salınması.
***Unifikasiya Edilmiş Büdcə*** – federal ölkələrin büdcələrində bütün federal dövlət xərclərini və gəlirlərini göstərən sənəddir.
***Unitar Müəssisə*** – mülkiyyət hüququ bölünməyən kommersiya təşkilatıdır.
***Universal Bank*** – yalnız ölkənin Mərkəzi Bankına məxsus xüsusi əməliyyatlar istisna olmaqla bütün əsas bank əməliyyatlarını həyata keçirən bank və ya kredit təşkilatı.
***Universal Beynəlxalq Sərgilər*** – bu müəyyən əmtəə qrupları üzrə eksponatların çeşidinin məhdudlaşdırılması üzrə keçirilən sərgilərdir.
***Universal Birja*** – ən müxtəlif qiymətli kağızların alqı-satqısı baş verdiyi birja.
***Universal İxrac Firmaları*** – geniş çeşiddə, əsasən istehlak mallarının satışı ilə məşğul olan və bir neçə sahənin məhsulunu xaricə ixrac edən firmalardır.
***Universal Lizinq Firmaları*** – nadir texniki göstəriciləri olan texniki cəhətdən mürəkkəb avadanlıqların ən müxtəlif növlərini icarəyə verən kampaniyalardır.
***Universam*** – ərzaq və məişətdə işlənilən qeyri-ərzaq mallarla alver edən geniş profilli universal mağaza.
***Uoll Strit*** – Nyu-York Fond Birjasının danışıq dilində adıdır, geniş istifadədə, ümumiyyətlə, ABŞ-da istiqrazlarla ticarət əməliyyatlarının aparılması mənası kəsb etməyə başlamışdır.
***Urbanizasiya*** – əhalinin və iqtisadi həyatın şəhərlərdə cəmlənməsidir.
***Utilizasiya*** – aidiyyəti üzrə birbaşa tətbiq olunmayan resursların, ikinci resursların, istehsal və istehlak tullantılarının istifadə edilməsi.
***Uydurma Əqd*** – başqa əqdi gizlətmək üçün edilmiş sövdələşmədir.
***Uyğunlaşma*** – davranış tərzində və üsullarında, təşkilati quruluşda malik olduqları və istifadə etdikləri resurslarda onların iqtisadi fəaliyyətin, təsərrüfatçılığın, ətraf mühitin yeni şərtlərinə, şəraitinə uyğunlaşdırılması məqsədilə müəssisələr, sahibkarlar, şəxslər tərəfindən dəyişikliklərin edilməsi, yeni şəraitə öyrəşmə.

***Uyğunluq Nişanı*** – qaydalar üzrə verilmiş sertifikatlaşdırma sistemində nəzərdə tutulan, müəyyənləşdirilmiş tələblərə uyğun, məhsulların markalanmasını təsdiqləyən qoyulmuş qaydada qeydiyyata alınan nişandır.

***Uzufrukt*** – qanunla və ya müqavilə üzrə, xeyrinə hüquqi yüklülük müəyyənləşdirilən şəxsin əşyalardan istifadə etmək və fayda götürmək hüququna malik olub, lakin mülkiyyətçidən fərqli olaraq bu əşyanı və hüquqları girov qoymaq, özgəninkiləşdirmək və ya vərəsəlik üzrə vermək hüququna malik olmasıdır. Uzufruktla bağlı münasibətlər AR Mülki Məcəlləsinin 263-268-ci maddələrinin müddəaları ilə tənzimlənir.

***Uzun Hedc*** – aktivin qiymətinin gələcəkdə yüksəlməsi riskindən sığortalanmaq məqsədilə fyuçers və ya opsion vasitəsilə hedcinq. Məsələn, müəyyən əmtəəni nizamlı alan şirkət, fyuçers üzrə uzun mövqe göstərməklə gələcəkdə qiymət artmasına qarşı sığortalana bilər.

***Uzun Mövqe*** – səhm və ya istiqraz üzrə uzun mövqe, investorun qiymətli kağıza sahib olması və nəticədə qiymət artdıqda mənfəət qazanacağını ifadə edir.

***Uzunmüddətli Aktivlər*** – istifadəsi bir neçə il nəzərdə tutulan aktivlərdir (əsas vəsaitlər, kapital, yaxud başqa maliyyə qoyuluşları, qeyri-maddi aktivlər).

***Uzunmüddətli Borc Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$UBƏ = UB / CA$$

Burada, UBƏ – uzunmüddətli borc əmsalı, UB – uzunmüddətli borclar, CA – cəmi aktivlər.

***Uzunmüddətli Borcların Analizi*** – sadə səhmlər və ehtiyat fondların formasında olan uzunmüddətli müəssisə kapitalının ölçüləri ilə, müəssisəyə qoyulmuş faizlər və dividentlər almaq hüququ olan sərmayəçilərin, sadə veksellər üzrə dividentlər alana qədər olan sərmayə həcmi ilə müqayisəsini aparmaq üçün edilən maliyyə analizi növüdür.

***Uzunmüddətli Əməliyyat Öhdəlikləri*** – növbəti il ərzində ödənilməsi nəzərdə tutulmayan uzunmüddətli kommersiya kreditləri borcudur.

***Uzunmüddətli Gəlir və Zərər*** – 12 aydan çox müddətdə eyni şəxsə məxsus olan aktivlərin satışından gəlir və ya zərərlər.
***Uzunmüddətli Xəzinə İstiqrazları*** – öhdəlik müddəti 10 il və ya daha uzun müddətli olan dövlət borc qiymətli kağızları.
***Uzunmüddətli İcarə*** – müəssisənin uzunmüddətli öhdəliklərindən biri olub, əsas vəsaitlərin, xüsusilə avadanlığın əldə edilməsinin maliyyələşdirilməsində səmərəli yoldur.
***Uzunmüddətli İcarəyə Götürülən Əsas Vəsaitlər*** – icarə müddəti qurtardıqdan sonra mülkiyyət hüququnun icarəyə götürənə keçəcəyi və ya müqavilədə nəzərdə tutulduğu kimi icarə müddəti qurtarandan sonra həmin əmlakın pulla satılacağını nəzərdə tutan əsas vəsaitlərin uzunmüddətli icarəsidir.
***Uzunmüddətli İnvestisiyalar*** – müəssisəni yaratmaq və ölçülərini genişləndirmək xərcləri, həmçinin satış üçün nəzərdə tutulmayan uzunmüddətli istifadə (bir ildən yuxarı) aktivlərinin alınmasına çəkilən xərclərdir.
***Uzunmüddətli İstiqrazlar*** – dövriyyə müddəti 3 ildən artıq olan istiqrazlardır.
***Uzunmüddətli Kapital*** – şəxsi kapital və uzunmüddətli öhdəliklərlə göstərilən uzunmüddətli maliyyə vasitələridir.
***Uzunmüddətli Kapitaldan Gəlirlər*** – müəssisəyə sərmayə şəklində qoyulmuş uzunmüddətli kapitalın hər manatına vergilər ödənilənə qədər düşən gəlirlərin həcmidir.
***Uzunmüddətli Kapitalın Strukturu*** – müəssisənin bütü kapitalında uzunmüddətli borc kapitalının payıdır.
***Uzunmüddətli Kreditlər*** – əsas fondların genişləndirilmiş təkrar istehsalına xərclənmək üçün müəssisə və təşkilatlara, habelə mənzil tikmək, təsərrüfat yaratmaq və başqa bu kimi məqsədlər üçün banklar tərəfindən əhaliyə verilir.
***Uzunmüddətli Kreditor Borcları*** – müəssisənin növbəti ildə və ya adi təsərrüfat tsiklində ödəməyi planlaşdırdığı borclarıdır.
***Uzunmüddətli Maliyyə Qoyuluşu*** – müəssisənin qiymətli kağızların, istiqrazların, dövlət və yerli borcların əldə edilməsinə, ölkə ərazisində yaradılan digər müəssisələrin nizamnamə fonduna qoyduğu xərclərdir.

***Uzunmüddətli Öhdəliklər*** – ödəmə müddəti bir ildən tez olmayan digər şəxslərə olan borclardır.
***Uzunmüddətli Öhdəliklərin Cari Hissəsi*** – cari il ərzində ödənilməli olan, cari aktivlərdən ödənilən (dövriyyə vəsaitlərindən) və qısamüddətli borc kimi səciyyələndirilən uzunmüddətli öhdəliyin hissəsidir.
***Uzunmüddətli Passivlər*** – uzunmüddətli istiqrazlar və veksellər buraxmaqla formalaşdırılan müəssisənin maliyyə fəaliyyətinin əsas mənbəyidir.
***Uzunmüddətli Planlar*** – yerinə yetirilməsi bir neçə ilə hesablanmış proqramlar, layihələr, plan, proqram layihələr, sənədlər.
***Uzunmüddətli Proqnoz*** – sosial, elmi-texniki, iqtisadi obyektlər üçün proqnozlaşma dövrü 5 ildən 15 ilə və daha uzunmüddətli dövrə olan proqnoz.
***Uzunmüddətli Sığorta*** – bir ildən çox müddəti əhatə edən sığorta münasibəti.
***Uzura*** – rüşvət.

# – U –

***Ucuz Pullar*** – Mərkəzi Bank tərəfindən həyata keçirilən aşağıdakı tədbirlər nəticəsində bank kreditinin ucuzlaşdırılması: uçot dərəcələrinin aşağı salınması, kommersiya banklarının Mərkəzi Bankda saxlamağa borclu olduqları məcburi ehtiyatlar normasının aşağı salınması Mərkəzi bankın kommersiya banklarından dövlət qiymətli kağızlarını alması.

***Ucuzlaşdırma*** – mal sahibi, satıcı tərəfindən ilkin qoyulmuş qiymətin aşağı salınması.

***Uçot*** – iqtisadi hadisənin, əməliyyatın kəmiyyət və keyfiyyət tərəflərinin ölçülməsi, əks etdirilməsi.

***Uçot Dərəcəsi*** – ssuda faizindən çıxılan miqdarı əks etdirir. Uçot dərəcəsi aşağıdakı düsturla hesablanır:

***U = Ö x F x B***

Burada, ***Ö*** – ödəniləcək miqdar, ***F*** – faiz dərəcəsi, ***V*** – vaxt.

Məsələn, dəyəri 1000 ABŞ dolları olan veksel faiz dərəcəsi 10 olmaqla 90 günə verilmişdir. Uçot dərəcəsini tapaq:

***U = 1000 $ x 10% x 90 gün = 25 $***

***Uçot Dövrü*** – müəssisənin mühasibat sənədləri üzrə təsərrüfat fəaliyyətinin analizinin aparılmasında hərəkət ardıcıllığı olub, aşağıdakı mərhələlərdən ibarətdir: ***1)*** ilkin sənədlər əsasında təsərrüfat əməliyyatlarının aparılması; ***2)*** Baş jurnalda əməliyyatların qeydiyyatı; ***3)*** Yazıların Baş kitaba köçürülməsi; ***4)*** Transformasiya cədvəlinin tərtibinin köməyi ilə hesabat dövrünün sonunda hesabların transformasiyası; ***5)*** Transformasiya cədvəlinin əsasında maliyyə hesabatının tərtibi; ***6)*** Hesabat dövrünün sonunda hesabların bağlanması və yeni hesabat dövrünün başlanmasına hazırlıq.

***Uçot Kartoçkası*** – hər bir hesab üçün ayrıca aparılan və kartoçkalar reyestrində qeydiyyatdan keçən kartoçkadır.

***Uçot Qaydaları*** – rəsmi qanunvericiliyə əsasən, maliyyə hesabatlarını Milli Mühasibat Uçotu Standartlarına müvafiq hazırlamalı olan mühasibat uçotu subyektləri üçün ilkin sənədlərin

və uçot registrlərinin formasını müəyyənləşdirən qaydalardır.

***Uçot Qiyməti*** – materialların qiyməti olub, müvafiq təlimatlara uyğun olaraq iki qayda ilə müəyyən edilir: ***1)*** Hesabatda faktiki maya dəyəri nəzərə alınır; ***2)*** Hesabatda preyskurant (müqavilə) qiymətləri götürülmür.

***Uçot Prosedurası*** – təsərrüfat əməliyyatının analizindən başlayaraq, maliyyə hesabatının tərtibi və hesabların bağlanmasına qədər uçot prosesinin mərhələli ardıcıllığını müəyyənləşdirən proseduradır.

***Uçot Registrləri*** – uçot üçün qəbul olunmuş ilkin sənədlərdə olan məlumatların toplanması və sistemləşdirilməsini nəzərdə tutan mühasibat sənədlərindən biridir.

***Uçotda Üstünə Gəlmə Metodu*** – müəssisənin pul aldığı və ya pul ödədiyi vaxtlarda deyil, digər vaxtlarda müəssisənin təsərrüfat həyatında baş vermiş faktların maliyyə nəticələrinin əks olunmasına imkan verən üsuldur.

***Uçotun Baş Kitabı*** – müəssisənin maliyyə vəziyyəti haqqında olan məlumatların ümumiləşdirildiyi maliyyə sənədi.

***Uçotun Dolğunluğu Prinsipi*** – müəssisənin təsərrüfat fəaliyyətinin bütün faktlarının mühasibat uçotunda tam əks etdirilməsindən ibarət olan uçot siyasətinin əsas prinsiplərindən biridir.

***Uçotun Jurnal Order Forması*** – təsərrüfat əməliyyatları barədə ilkin sənədlərdə məlumatların toplanması üçün köməkçi cədvəllər və jurnal-orderlərin toplanmasından istifadəyə əsaslanan mühasibat uçotu sistemidir.

***Udulma*** – iki firmanın udan firmanın hüquqi şəxs kimi qalmasını, udulan firmanın isə birinciyə bütün əmlakını, öhdəliklərini, borclarını verməklə ləğv edilməsini nəzərdə tutan birləşmə növü.

***Udulma Təklifi*** – bir şirkətin digər şirkətə sahiblik hüququnu (nəzarət paketini) əldə etmək məqsədilə onun səhmdarlarına səhmlərini almaq üçün təklif olunan qiymət.

***Uduşlu Opsion*** – opsionun istifadə qiymətinin baza qiymətli kağızın qiymətindən kiçik olduğu hal.

***Unifikasiya*** – eyniliyin bərqərar edilməsi, (sənədlərin, detalların,

ehtiyat hissələrinin, avadanlığın, xidmətlərin və s.) vahid şəklə, formaya salınması.
***Unifikasiya Edilmiş Büdcə*** – federal ölkələrin büdcələrində bütün federal dövlət xərclərini və gəlirlərini göstərən sənəddir.
***Unitar Müəssisə*** – mülkiyyət hüququ bölünməyən kommersiya təşkilatıdır.
***Universal Bank*** – yalnız ölkənin Mərkəzi Bankına məxsus xüsusi əməliyyatlar istisna olmaqla bütün əsas bank əməliyyatlarını həyata keçirən bank və ya kredit təşkilatı.
***Universal Beynəlxalq Sərgilər*** – bu müəyyən əmtəə qrupları üzrə eksponatların çeşidinin məhdudlaşdırılması üzrə keçirilən sərgilərdir.
***Universal Birja*** – ən müxtəlif qiymətli kağızların alqı-satqısı baş verdiyi birja.
***Universal İxrac Firmaları*** – geniş çeşiddə, əsasən istehlak mallarının satışı ilə məşğul olan və bir neçə sahənin məhsulunu xaricə ixrac edən firmalardır.
***Universal Lizinq Firmaları*** – nadir texniki göstəriciləri olan texniki cəhətdən mürəkkəb avadanlıqların ən müxtəlif növlərini icarəyə verən kampaniyalardır.
***Universam*** – ərzaq və məişətdə işlənilən qeyri-ərzaq mallarla alver edən geniş profilli universal mağaza.
***Uoll Strit*** – Nyu-York Fond Birjasının danışıq dilində adıdır, geniş istifadədə, ümumiyyətlə, ABŞ-da istiqrazlarla ticarət əməliyyatlarının aparılması mənası kəsb etməyə başlamışdır.
***Urbanizasiya*** – əhalinin və iqtisadi həyatın şəhərlərdə cəmlənməsidir.
***Utilizasiya*** – aidiyyəti üzrə birbaşa tətbiq olunmayan resursların, ikinci resursların, istehsal və istehlak tullantılarının istifadə edilməsi.
***Uydurma Əqd*** – başqa əqdi gizlətmək üçün edilmiş sövdələşmədir.
***Uyğunlaşma*** – davranış tərzində və üsullarında, təşkilati quruluşda malik olduqları və istifadə etdikləri resurslarda onların iqtisadi fəaliyyətin, təsərrüfatçılığın, ətraf mühitin yeni şərtlərinə, şəraitinə uyğunlaşdırılması məqsədilə müəssisələr, sahibkarlar, şəxslər

tərəfindən dəyişikliklərin edilməsi, yeni şəraitə öyrəşmə.

***Uyğunluq Nişanı*** – qaydalar üzrə verilmiş sertifikatlaşdırma sistemində nəzərdə tutulan, müəyyənləşdirilmiş tələblərə uyğun, məhsulların markalanmasını təsdiqləyən qoyulmuş qaydada qeydiyyata alınan nişandır.

***Uzufrukt*** – qanunla və ya müqavilə üzrə, xeyrinə hüquqi yüklülük müəyyənləşdirilən şəxsin əşyalardan istifadə etmək və fayda götürmək hüququna malik olub, lakin mülkiyyətçidən fərqli olaraq bu əşyanı və hüquqları girov qoymaq, özgəninkiləşdirmək və ya vərəsəlik üzrə vermək hüququna malik olmasıdır. Uzufruktla bağlı münasibətlər AR Mülki Məcəlləsinin 263-268-ci maddələrinin müddəaları ilə tənzimlənir.

***Uzun Hedc*** – aktivin qiymətinin gələcəkdə yüksəlməsi riskindən sığortalanmaq məqsədilə fyuçers və ya opsion vasitəsilə hedcinq. Məsələn, müəyyən əmtəəni nizamlı alan şirkət, fyuçers üzrə uzun mövqe göstərməklə gələcəkdə qiymət artmasına qarşı sığortalana bilər.

***Uzun Mövqe*** – səhm və ya istiqraz üzrə uzun mövqe, investorun qiymətli kağıza sahib olması və nəticədə qiymət artdıqda mənfəət qazanacağını ifadə edir.

***Uzunmüddətli Aktivlər*** – istifadəsi bir neçə il nəzərdə tutulan aktivlərdir (əsas vəsaitlər, kapital, yaxud başqa maliyyə qoyuluşları, qeyri-maddi aktivlər).

***Uzunmüddətli Borc Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

***UBƏ = UB / CA***

Burada, UBƏ – uzunmüddətli borc əmsalı, UB – uzunmüddətli borclar, CA – cəmi aktivlər.

***Uzunmüddətli Borcların Analizi*** – sadə səhmlər və ehtiyat fondların formasında olan uzunmüddətli müəssisə kapitalının ölçüləri ilə, müəssisəyə qoyulmuş faizlər və dividentlər almaq hüququ olan sərmayəçilərin, sadə veksellər üzrə dividentlər alana qədər olan sərmayə həcmi ilə müqayisəsini aparmaq üçün edilən maliyyə analizi növüdür.

***Uzunmüddətli Əməliyyat Öhdəlikləri*** – növbəti il ərzində ödənilməsi nəzərdə tutulmayan uzunmüddətli kommersiya

kreditləri borcudur.
***Uzunmüddətli Gəlir və Zərər*** – 12 aydan çox müddətdə eyni şəxsə məxsus olan aktivlərin satışından gəlir və ya zərərlər.
***Uzunmüddətli Xəzinə İstiqrazları*** – öhdəlik müddəti 10 il və ya daha uzun müddətli olan dövlət borc qiymətli kağızları.
***Uzunmüddətli İcarə*** – müəssisənin uzunmüddətli öhdəliklərindən biri olub, əsas vəsaitlərin, xüsusilə avadanlığın əldə edilməsinin maliyyələşdirilməsində səmərəli yoldur.
***Uzunmüddətli İcarəyə Götürülən Əsas Vəsaitlər*** – icarə müddəti qurtardıqdan sonra mülkiyyət hüququnun icarəyə götürənə keçəcəyi və ya müqavilədə nəzərdə tutulduğu kimi icarə müddəti qurtarandan sonra həmin əmlakın pulla satılacağını nəzərdə tutan əsas vəsaitlərin uzunmüddətli icarəsidir.
***Uzunmüddətli İnvestisiyalar*** – müəssisəni yaratmaq və ölçülərini genişləndirmək xərcləri, həmçinin satış üçün nəzərdə tutulmayan uzunmüddətli istifadə (bir ildən yuxarı) aktivlərinin alınmasına çəkilən xərclərdir.
***Uzunmüddətli İstiqrazlar*** – dövriyyə müddəti 3 ildən artıq olan istiqrazlardır.
***Uzunmüddətli Kapital*** – şəxsi kapital və uzunmüddətli öhdəliklərlə göstərilən uzunmüddətli maliyyə vasitələridir.
***Uzunmüddətli Kapitaldan Gəlirlər*** – müəssisəyə sərmayə şəklində qoyulmuş uzunmüddətli kapitalın hər manatına vergilər ödənilənə qədər düşən gəlirlərin həcmidir.
***Uzunmüddətli Kapitalın Strukturu*** – müəssisənin bütü kapitalında uzunmüddətli borc kapitalının payıdır.
***Uzunmüddətli Kreditlər*** – əsas fondların genişləndirilmiş təkrar istehsalına xərclənmək üçün müəssisə və təşkilatlara, habelə mənzil tikmək, təsərrüfat yaratmaq və başqa bu kimi məqsədlər üçün banklar tərəfindən əhaliyə verilir.
***Uzunmüddətli Kreditor Borcları*** – müəssisənin növbəti ildə və ya adi təsərrüfat tsiklində ödəməyi planlaşdırdığı borclarıdır.
***Uzunmüddətli Maliyyə Qoyuluşu*** – müəssisənin qiymətli kağızların, istiqrazların, dövlət və yerli borcların əldə edilməsinə, ölkə ərazisində yaradılan digər müəssisələrin nizamnamə fonduna

qoyduğu xərclərdir.

***Uzunmüddətli Öhdəliklər*** – ödəmə müddəti bir ildən tez olmayan digər şəxslərə olan borclardır.

***Uzunmüddətli Öhdəliklərin Cari Hissəsi*** – cari il ərzində ödənilməli olan, cari aktivlərdən ödənilən (dövriyyə vəsaitlərindən) və qısamüddətli borc kimi səciyyələndirilən uzunmüddətli öhdəliyin hissəsidir.

***Uzunmüddətli Passivlər*** – uzunmüddətli istiqrazlar və veksellər buraxmaqla formalaşdırılan müəssisənin maliyyə fəaliyyətinin əsas mənbəyidir.

***Uzunmüddətli Planlar*** – yerinə yetirilməsi bir neçə ilə hesablanmış proqramlar, layihələr, plan, proqram layihələr, sənədlər.

***Uzunmüddətli Proqnoz*** – sosial, elmi-texniki, iqtisadi obyektlər üçün proqnozlaşma dövrü 5 ildən 15 ilə və daha uzunmüddətli dövrə olan proqnoz.

***Uzunmüddətli Sığorta*** – bir ildən çox müddəti əhatə edən sığorta münasibəti.

***Uzura*** – rüşvət.

# – V –

***Vahid Əmək Haqqı Fondu*** – sovet plan iqtisadi praktikasında müəssisənin pul fondu belə adlanırdı. Bu fondun məbləği əmək haqqı fondunun və gəlirdən əmələ gələn maddi həvəsləndirmə fondunun cəminə bərabər idi.
***Vahid Xarici Tarif*** – gömrük ittifaqına və ya ümumi bazara daxil olan ölkələrin xarici ticarət əməliyyatlarında tətbiq etdiyi tarifdir.
***Vahid Qiymət Qanunu*** – müxtəlif ölkələrdə eyni malların qiymətinin yerli valyuta və mübadilə məzənnəsi arasındakı əlaqəni göstərən qanundur. Bu qanuna görə oxşar malların qiymətləri arasındakı beynəlxalq fərq ticarət nəticəsində bərabərləşdirilir.
***Vahid Marketinq Proqramı*** – ayrı-ayrı bazarlar və eyni məhsul qrupları üzrə marketinqin bir-birilə bağlı proqramlar sistemidir.
***Vahid Rəhbərlik Prinsipi*** – idarəetmənin mərkəzləşmiş, xətti idarəetmə strukturlarına xas olan təşkilat prinsipi. Ondan ibarətdir ki, müəssisədə təşkilatda, bölmədə rəhbərlik funksiya və səlahiyyətləri bir şəxsə, yəni rəhbərə məxsusdur.
***Vahid Topdansatış Qiymətləri*** – eyninövlü sənaye məhsuluna, istehsal vasitələrinə və istehlak əşyalarına, bir regionun, sahənin ayrı-ayrı müəssisələrində xərclərin dərəcəsindən asılı olmayaraq qoyulan topdansatış qiymətlər.
***Vaxtı Uzadıla Bilən İstiqraz*** – şərtləri ilkin ödəmə müddətindən sonrakı dövr üçün yenidən dəyişdirilmiş istiqraz.
***Vaxtında Ödəməyə Görə Güzəşt*** – malgöndərən tərəfindən vaxtında hesaba pul ödəməklə bağlı malların qiymətinin aşağı salınmasıdır.
***Vaxtından Əvvəl Geri Alına Bilən İstiqraz*** – vaxtından əvvəl geri alına bilən istiqraz öz sahibinə onu göstərilən geri alma tarixində göstərilən geri alma qiyməti qarşılığında vaxtından əvvəl geri almaq hüququ verir.
***Vaxtından Əvvəl Geri Alma Şərtləri*** – istiqraza dair müqavilədə göstərilən onu buraxmış tərəfə ödəniş tarixindən əvvəl buraxılışı bütünlüklə və ya tam geri almaq hüququ verən şərtdir.

***Vaxtından Əvvəl İstifadə*** – opsion və ya digər qiymətli kağızın son istifadə tarixindən əvvəl istifadə olunması.
***Vaxtından Əvvəl Ödəmə*** – emitent tərəfindən borc qiymətli kağızlarının müddəti bitmə tarixindən öncə geri alınması.
***Vaxtından Qabaq Ödəməyə Görə Satış Güzəştləri*** – satıcı və ya istehsalçı tərəfindən malların kreditlə satılması zamanı edilən güzəştlərdir.
***Vakansiya*** – yeni işçinin qəbul oluna bildiyi tutulmamış boş iş yerinin, vəzifənin olması.
***Vaqner Qanunu*** – bu qanuna görə, dövlət xərcləri gəlirlərə nisbətən sürətlə artır.
***Valorizasiya*** – dövlətin müdaxiləsi nəticəsində əmtəə, xidmət, yaxud maliyyə bazarında qiymətlərin qaldırılması.
***Valvasiya*** – dəyərin müəyyən edilməsi. Bu ifadədən əsas etibarilə qiymətli kağızların dəyərinin, eləcə də xarici valyuta ilə milli valyuta dəyərinin müqayisəsi zamanı istifadə olunur.
***Valyuta*** – ***1)*** Ölkənin pul vahidi. Məsələn, manat (Azərbaycanda), dollar (ABŞ-da) və s.; ***2)*** Ölkədə pul sisteminin bir forması.
***Valyuta Alveri*** – valyuta məzənnəsinin dəyişməsindən, həmçinin əvvəlcədən düşünülmüş valyuta risklərindən hüquqi və fiziki şəxslərin gəlir götürmək məqsədilə bank təşkilatlarının əməliyyatlarıdır.
***Valyuta Arbitrajı*** – müəyyən zaman müddətində, yaxud müxtəlif valyuta birjalarında xarici valyuta kursları arasındakı fərqlə bağlı mənfəət əldə edilməsi məqsədilə xarici valyutanın alqı-satqısı.
***Valyuta Ayırmaları*** – müəssisələrin, firmaların valyuta mədaxilinin bir hissəsidir.
***Valyuta Bazarı*** – valyutaların alqı-satqısına əsaslanan iqtisadi münasibətlərin məcmusu.
***Valyuta Bəyannaməsi*** – gömrüyə təqdim edilən və aparılan valyuta haqda məlumatları əks etdirən ərizə şəklində sənəd.
***Valyuta Birjası*** – bazar qanunları əsasında xarici valyutaların alqı-satqısı həyata keçirilən birja.
***Valyuta Blokadası*** – bir dövlətin başqa dövlətə qarşı, onu bu və ya digər iqtisadi məsələlərin icrasına məcbur etmək məqsədi ilə

həyata keçirdiyi valyuta məhdudiyyəti siyasətinə əsaslanan tədbirlər sistemi.

***Valyuta Bloku*** – digər dövlətə və ya dövlətlərə qarşı vahid valyuta siyasəti həyata keçirən ölkələr qrupu.

***Valyuta Borcu*** – iqtisadi subyektin xarici valyuta ilə cəlb etdiyi borc vəsaiti.

***Valyuta Böhranı*** – valyuta bazarında qəfil uyğunsuzluqlar nəticəsində valyuta məzənnələrinin kəskin dəyişməsi, valyuta riskinin artması, dövlətin, eləcə də digər iqtisadi subyektlərin valyuta ehtiyatlarının dəyərsizləşməsi və ümumilikdə valyuta sferasında kritik vəziyyətin yaranması.

***Valyuta Daxilolmaları*** – müəyyən müddət ərzində, yaxud hər hansı konkret beynəlxalq maliyyə-kredit əməliyyatları nəticəsində ölkəyə nağd və nağdsız qaydada daxil olan xarici valyutanın həcmi.

***Valyuta Deklarasiyası*** – hüquqi və ya fiziki şəxs tərəfindən valyutanın ölkədən çıxarılması, yaxud ölkəyə gətirilməsi barəsində gömrük orqanına təqdim olunan rəsmi məlumat, bəyannamə.

***Valyuta Dempinqi*** – milli valyuta məzənnəsinin aşağı düşməsi nəticəsində xarici bazarda həyata keçirilən dempinq.

***Valyuta Dönərliyi*** – ölkənin pul vahidlərinin digər ölkələrin valyutalarına və beynəlxalq ödəmə vasitələrinə sərbəst mübadiləsi.

***Valyuta Ehtiyatı*** – dövlətin dönərli valyutada, əsas etibarilə xarici valyutada qoruduğu pul fondu.

***Valyuta Əməliyyatları*** – xarici valyuta ilə borc alan, hesablaşmalar aparan və alqı-satqı keçirən hüquqi və fiziki şəxslərin, maliyyə-kredit təşkilatlarının və bankların təsərrüfat fəaliyyəti növlərindən biridir.

***Valyuta Əməliyyatları Limiti*** – banka hər hansı xarici valyutada əməliyyat aparmaqla bağlı müəyyənləşdirilmiş hədd.

***Valyuta Forvard Bazarları*** – valyutalarla müddətli əməliyyatların keçirildiyi və şirkətlərin valyuta risklərinin hecinqini keçirə bildiyi bazarlar.

***Valyuta Hesabı*** – dövlətin, hüquqi və ya fiziki şəxsin xarici valyutada olan bank hesabı.

***Valyuta Hiyləgərliyi (Afyorası)*** – bankın, yaxud valyuta əməliyyatları aparan hər hansı digər şəxsin qanundankənar valyuta sövdələşməsi.
***Valyuta İnhisarı*** – dövlətin daxili valyuta bazarında inhisarçı mövqeyi.
***Valyuta İntervensiyası*** – Mərkəzi Bank qismində hökumətin tənzimləmə məqsədilə ölkədə valyuta bazarına ciddi müdaxiləsi.
***Valyuta Katirovkası*** – ölkənin Mərkəzi Bankı, eləcə də bir sıra hallarda iri kommersiya bankları tərəfindən milli valyuta kursuna nisbətdə hər hansı xarici valyuta kursunun müəyyən edilməsi.
***Valyuta Kəsiri*** – valyuta əməliyyatları aparmaq üçün iqtisadi subyektin valyuta resurslarının yetərsizliyi.
***Valyuta Klirinqi*** – beynəlxalq ticarət və ya maliyyə-kredit münasibətlərində dəyərin öhdəliklərin ləğvi ilə əvəz edilməsi, yaxud öhdəliklərin qarşılıqlı əvəz edilməsi əsasında hökumətlərarası razılaşma.
***Valyuta Konversiyası*** – cari valyuta məzənnəsi ilə bir valyutanın digəri ilə mübadilə edilməsi.
***Valyuta Köçürməsi*** – valyutanın bir ölkədən digər ölkəyə keçirilməsi.
***Valyuta Qeyd-Şərti*** – ödəmənin aparılacağı valyuta kursunun dönərli valyuta məzənnəsi ilə əvəzlənəcəyi barədə müqaviləyə daxil edilmiş şərtdir.
***Valyuta Qiymətliləri*** – beynəlxalq valyuta maliyyə əlaqələri sferasına cəlb edilən maddi obyektlər.
***Valyuta Likvidliyi*** – ölkənin malik olduğu beynəlxalq öhdəliklərini müvafiq ödəniş vasitələri ilə icra edə bilməsi qabiliyyəti.
***Valyuta Lisenziyası*** – ölkənin Mərkəzi Bankı tərəfindən kommersiya banklarına xarici valyuta üzrə əməliyyatlar, xüsusilə də beynəlxalq iqtisadi münasibətlərdə hesablaşma əməliyyatları aparmaq barəsində təqdim olunan xüsusi razılıq və ya razılıq sənədi.
***Valyuta Mədaxili*** – təsərrüfat fəaliyyətində ödənişlərin xarici valyuta ilə aparıldığı xarici iqtisadi fəaliyyət iştirakçılarının valyuta gəlirləridir.
***Valyuta Məhdudiyyəti*** – dövlətin ölkədaxili valyuta bazarındakı

əməliyyatların, eləcə də ölkəyə xarici valyuta daxilolmalarının və ölkədən milli və xarici valyuta çıxarılmalarının məhdudlaşdırılması istiqamətində həyata keçirdiyi valyuta tənzimlənməsi siyasəti.

***Valyuta Məzənnəsi* –** hər hansı valyutanın xarici valyutada yaxud beynəlxalq pul vahidində ifadə olunan dəyəri.

***Valyuta Məzənnəsinin Fiksə Edilməsi* –** bəzi bazarlarda gündəlik görüşlər keçirtməklə alış və satış səviyyələrini bazarın vəziyyətinə uyğunlaşdırmaq məqsədilə müxtəlif valyutalar üzrə sabit məzənnələr müəyyən edilir.

***Valyuta Məzənnəsinin Zəifliyi*** – valyuta sabitsizliyindən fərqli olaraq iqtisadi sistemin zəifliyindən qaynaqlanır və potensial sabitsizlik kimi qiymətləndirilə bilər. Bura həm ölkənin xaricdən öz valyutasında borc ala bilməməsi, həm institutsional quruluşun zəifliyi, həm də daxili iqtisadiyyatın xarici amillərə həssaslığı daxildir.

***Valyuta Möhtəkirliyi*** – maliyyə möhtəkirliyinin bir forması olaraq məzənnə fərqindən istifadə edərək mənfəət əldə etmək məqsədilə xarici valyutanın alqı-satqısı.

***Valyuta Mövqeyi*** – bankın, yaxud digər kredit təşkilatının xarici valyutada öhdəlikləri ilə yerləşdirmələri arasında münasibət, nisbət.

$$V = D / K$$

Burada, V – valyuta mövqeyi; D – xarici valyutada olan öhdəliklər; K – xarici valyutada yerləşdirilən vəsaitlər.

***Valyuta Müdaxiləsi*** – milli valyutanın məzənnəsini tənzimləmək məqsədilə Mərkəzi Bank tərəfindən valyuta bazarında həyata keçirilən xarici valyutanın alqı-satqısı əməliyyatıdır.

***Valyuta Mükafatı*** – müəyyən müddət ərzində valyutanın bazar məzənnəsinin təsbit edilmiş rəsmi məzənnəyə nisbətdə artım səviyyəsi.

***Valyuta Nəzarəti* –** iqtisadi, o cümlədən maliyyə nəzarətinin tərkib hissəsi olaraq ölkə ərazisində xarici valyuta əməliyyatlarının aparılması, xarici valyutanın ölkə ərazisinə gətirilməsi, eləcə də xarici və milli valyutanın ölkə ərazisindən çıxarılması ilə bağlı münasibətlərin tənzimlənməsi istiqamətində dövlətin həyata

keçirdiyi iqtisadi, hüquqi və s. tədbirlər sistemi.

***Valyuta Nəzarəti Agenti*** – valyuta nəzarətini həyata keçirməyə səlahiyyətli olan təşkilat.

***Valyuta Opsionu*** – müqavilə tərəflərinə valyuta münasibətlərinin şərtləri ilə bağlı müxtəlif seçim imkanları verən opsion razılaşması.

***Valyuta Pariteti*** – valyutanın bazar qiyməti ilə müəyyənləşdirilmiş qiyməti arasında nisbəti göstərən əmsal.

***Valyuta Planı*** – müəyyən gələcək dövr ərzində ölkə ərazisinə gətirilməsi və ya çıxarılması nəzərdə tutulan xarici valyutaların öncədən qeydə alınmasını əks etdirən sənəd.

***Valyuta Rejimi*** – ölkə ərazisində, yaxud müəyyən regionda valyutaların tədavülünün qaydaları və normaları sistemi.

***Valyuta Resursları*** – bu və ya digər iqtisadi subyektə məxsus xarici valyuta vəsaitləri, ehtiyatları.

***Valyuta Riski*** – beynəlxalq iqtisadi münasibətlərdə milli valyutanın xarici valyutaya məzənnəsinin dəyişməsi nəticəsində maliyyə itkisi ehtimalı.

***Valyuta Səbəti*** – bir qrup valyutanın bir qrup digər valyutalara nisbətdə orta məzənnəsini hesablamaq üçün təsbit edilən ölçü vahidi.

***Valyuta Sistemi*** – valyutaların, onların hərəkəti və tənzimlənməsi ilə bağlı qaydaların, özündə valyuta münasibətlərini birləşdirən bütün iqtisadi münasibətlərin, o cümlədən maliyyə-kredit münasibətlərinin, eləcə də bu münasibətlərin bilavasitə daşıyıcıları olan iqtisadi subyektlərin məcmusu.

***Valyuta Siyasəti*** – dövlətin daxili valyuta bazarında həyata keçirilən xarici valyuta ilə əməliyyatların və xarici valyuta məzənnəsinin tənzimlənməsi istiqamətində apardığı daxili və xarici iqtisadi siyasət.

***Valyuta Svopu*** – kreditor ilə borc alan subyekt arasında razılaşmaya əsasən eyni kredit şərtləri daxilində kredit vəsaitinin təqdim olunduğu valyutanın başqa valyuta ilə əvəz olunması.

***Valyuta Şərtləşməsi*** – beynəlxalq maliyyə-kredit və ya ticarət münasibətlərində ixracatçının, yaxud kreditorun valyuta məzənnəsinin düşməsi riskindən qorunmasını nəzərdə tutan şərt, razılaşma.

***Valyuta Şurası*** – milli valyutasını digər bir valyutaya bağlayan və təsbit olunmuş mübadilə məzənnəsi rejimi tətbiq edən ölkələrdə valyuta siyasətinə məsul olan maliyyə qurumudur.
***Valyuta Tənzimlənməsi*** – valyuta siyasətinin tərkib hissəsi olaraq ölkədaxili valyuta bazarında xarici valyuta əməliyyatlarının və xarici valyuta məzənnəsinin, eləcə də ölkəyə gətirilən və ölkədən çıxarılan mili və xarici valyuta həcminin idarə edilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən fəaliyyətlərin məcmusu.
***Valyuta Tənzimlənməsi Fondu*** – valyuta intervensiyası vasitəsi ilə tədiyyə balansının və milli valyuta kursunun tənzimlənməsi məqsədi ilə dövlət tərəfindən Mərkəzi Bankda təsis edilən pul vəsaitləri fondu.
***Valyuta Vekseli*** – ödənişi xarici valyuta ilə həyata keçirilən veksel.
***Valyuta Zonası*** – qarşılıqlı ödəniş və hesablaşmaların təsbit edilmiş vahid valyutada aparılması ilə bağlı razılaşmaya gələn ölkələr qrupu.
***Valyutasız Çek*** – çeki təqdim edən subyektin hesabında ümumiyyətlə, yaxud kifayət qədər vəsait olmadıqda bankın icra edə bilmədiyi, ödəmədiyi çek.
***Vanil İstiqrazları*** – qeyri adi xüsusiyyətlərə malik olmayan, sabit kupon ödəmələri olan və son ödəmə tarixində öhdəlik üzrə tam məbləğdə ödənilən istiqrazlar.
***Varlığın Əvəzolunması Effekti*** – insanlar təqaüdə çıxdıqdan sonra alacaqları sosial təminata daha az qənaətə edirlər.
***Varrant*** – sahibinə digər qiymətli kağızların ilkin yerləşdirilməsi zamanı güzəştli qiymətlə alınması hüququ verən qiymətli kağız.
***Vasitəçi*** – əmtəə və xidmətlərin istehsalçıları və istehlakçıları, satıcıları və alıcıları arasında əlaqələrin yaranmasına və əqdlərin, müqavilələrin bağlanmasına xidmət edən şəxs, firma, təşkilat.
***Vasitəçi Bank*** – “Ana bank”ın vasitəçisi kimi çıxış edərək öz adından kredit və depozit, eləcə də digər əməliyyatlar aparan bank.
***Vasitəçilik (komission) əməliyyatları*** – iqtisadi subyektlər arasında vasitəçilik xidmətləri, verilən tapşırıqların icrası və s. ilə bağlı bank əməliyyatları.
***Vauçer*** – ***1)*** Yazılı zəmanət, tapşırıq; ***2)*** Dövlətin sosial yardımını

almaq hüququ verən rəsmi sənəd.
***Vauçerlər Sistemi*** – təsərrüfat əməliyyatlarının aparılmasına yazılı icazə verən və sənədli əsaslandırmalarla təmin edən sistemdir.
***Vauçerlərin Registri*** – müvafiq qaydada təsdiq olunan vauçerlərin ilkin qeydiyyat yazılışının aparıldığı kitabdır. Vauçerlərin registri yaranmış borcları əks etdirir.
***Veblen Paradoksu*** – Amerikan sosioloqu və iqtisadçısı T.Veblenin adı ilə bağlı olan bu nəzəriyyəyə görə heç də həmişə iqtisadiyyatın hamı tərəfindən birmənalı şəkildə qəbul olunan əmtəənin qiymətinin azalması ilə ona olan tələbin səviyyəsinin artması və ya əksinə qiymətin artması ona olan tələbin səviyyəsinin aşağı düşməsi qanunu özünü doğrultmur. Veblenə görə bir sıra hallarda bu effekt əks istiqamətdə təsir göstərir. Bu o halda baş verir ki, əmtəənin qiyməti aşağı düşdükdə alıcılarda onun keyfiyyətinin aşağı düşməsi ehtimalı baş qaldırır. Beləliklə, qiymətin düşməsi tələbin artması ilə deyil, düşməsi ilə müşahidə olunur.
***Veksel*** – borc alan tərəfindən kreditora təqdim olunan, sonuncuya üzərində göstərilən müddətdə və məbləğ həcmində borcu geri almaq hüququ verən qanunla nəzərdə tutulmuş şəkildə tərtib olunmuş yazılı borc öhdəliyi.
***Veksel Aksepti*** – akseptant tərəfindən veksel məbləğinin ödənişi barəsində vekselin üzərində yaxud ona əlavə edilmiş hissədə əks olunan imza, razılıq.
***Veksel Diskontu*** – borclu subyekt tərəfindən ödəniş müddəti çatmamışdan öncə vekselin nominaldan aşağı dəyərlə alınması.
***Veksel Etirazı*** – vekseli təqdim edən şəxsin – alan subyektin və ya akseptantın müəyyən olunmuş müddətdən sonra borc məbləğinin ödənişindən qismən, yaxud tam imtina etməsi.
***Veksel Hüququ*** – veksel münasibətlərində iştirakçı şəxslər arasındakı münasibətləri tənzimləyən adətlər, digər normativ aktlar və normalar toplusudur.
***Veksel Krediti*** – bankın və ya digər kredit təşkilatının veksel sahibinə, veksel təqdim etdiyi şəxsə borc müddəti bitməmişdən öncə vekselin üzərində göstərilmiş məbləğ həcmində təqdim etdiyi kredit vəsaiti.

***Veksel Müddətinin Müqavilə İlə Uzadılması*** – kreditorla veksel üzrə ödəyici arasında müqavilə əsasında vaxtın uzadılmasıdır.
***Veksel Münasibətlərinin Kəsilməsi*** – göstərilmiş məbləğin vaxtında ödənilməsi ilə əlaqədar öhdəliyə xitam verilməsidir.
***Veksel Nişanı*** – veksel rekvizitlərindən ən vacibi olub, sənədin tərtib olunduğu dildə “veksel” yazılmasıdır.
***Veksel Nüsxələrinin Qaytarılmamasına Görə Protest*** – prosessual hərəkət olub, aşağıdakıların notarial qaydada fiksasiyasında özünü göstərir: ***1)*** aksept üçün göndərilən nüsxə tələb olunsa da geri qaytarılmaz; ***2)*** aksept və ya ödəmə başqa nüsxə üzrə alına bilməz.
***Veksel Ödənişinin Miqdarı*** – vekselin nominal dəyəri və borc (ssuda) faizinin toplanmasından yaranan və veksel üzrə ödənən miqdardır.
***Veksel Öhdəlikləri*** – müqavilə, daha doğrusu, vekseli imzalayanla vekselsaxlayan arasındakı müqaviləyə əsaslanan öhdəliklər.
***Veksel Protestinə Görə Ödəniş*** – protest notasının hazırlanması və göndərilməsinə görə ödənişdir.
***Veksel Saxlayan (Remitent, Kreditor)*** – vekseli almaqla müəyyən müddət ərzində göstərilən miqdarı ödəmək tələbi hüququna sahib olan şəxsdir.
***Veksel Tədavülü*** – vekselin pul sənədi formasında tədavül sferasında hərəkəti, o cümlədən bir iqtisadi subyektdən digərinə verilməsi, təsbit olunmuş müddətdən sonra geri qaytarılması və s.
***Veksel Üzrə Ödəmələr*** – pul öhdəliyi üzrə kreditorun tam təmin olunmasıdır.
***Veksel Üzrə Vasitəçilik*** – köçürmə vekselinin qəbul edilməməsi və ödənilməməsi ilə əlaqədar sərfəsiz nəticələri aradan qaldırmaq məqsədidir.
***Veksel Valyutası*** – veksel məbləğinin ifadə olunduğu pul vahidi.
***Veksel Verən*** – adi və ya köçürmə vekselini yazan və göstərilmiş müddətdə veksel üzrə məbləği ödəməyi öhdəsinə götürən şəxsdir.
***Veksel Zəmanəti*** – veksel öhdəliyi üzrə ödəmənin təminat vasitəsi olub, veksel üzrə istənilən cavabdehə üçüncü şəxsin zamin duraraq vekseldəki miqdarın tam ödənməsinə qarant durmasıdır.
***Vekseldən İmtina*** – prosessual hərəkət olub, veksel üzrə ödəmədən

və ya köçürmə vekselin aksept edilməsindən imtina edildikdə veksel sahibinin həyata keçirdiyi qanuni hərəkətdir.
***Vekselin İkinci Nüsxəsi*** – köçürmə vekselin itməsi və ya vaxtında ödəniş yerinə çatmasını sığortalamaq məqsədilə yazılır.
***Vekselin Mətninin Dəyişdirilməsi*** – veksel mətninin dəyişdirilməsi zamanı, dəyişilmiş mətni öz imzası ilə təsdiqləyən şəxs cavabdehlik daşıyır.
***Vekselin Məzənnəsi*** – ölkədə pul yerinə dövriyyədə olan və beynəlxalq mübadilə alətinə çevrilən xarici kommersiya veksellərinin mübadilə qiymətidir.
***Vekselin Müddəti*** – ödəmə müddəti ilə müəyyən edilən, vekselin günlərlə hərəkət müddətidir.
***Vekselin Ödəmə Tarixi*** – birbaşa vekseldə göstərilən və ya başqa yolla müəyyənləşdirilən vekselin ödəmə tarixidir.
***Vekselin Protesti*** – vekseli təqdim edən şəxsin – borc alan subyektin və ya akseptantın müəyyən olunmuş müddətdən sonra borc məbləğinin ödənişindən qismən, yaxud tam imtina etməsi.
***Vekselin Realizasiya Miqdarı*** – diskont dərəcəsinin kəmiyyətindən asılı olaraq veksellərin uçotunda diskont verənin diskont alana ödədiyi miqdardır.
***Vekselin Rekvizitləri*** – vekseldə aşağıdakılar göstərilməlidir: ***1)*** vekselin nişanı, daha doğrusu, "vekselin adı"; ***2)*** adi vekseldə müəyyən miqdarın ödənməsinə şərtləşdirilməmiş vəd, köçürmə vekselində isə müəyyən miqdarın ödənməsinə razılaşdırılmamış təklif; ***3)*** köçürmə vekselində veksel üzrə ödəyicinin mütləq adı göstərilməlidir; ***4)*** ödəmənin müddəti; ***5)*** ödənişinin yeri; ***6)*** kimin və ya kimin əmri ilə aparacaq şəxsin adı; ***7)*** vekselin tərtib yeri və tarixi; ***8)*** borclunun imzası.
***Vekselin Surətləri*** – vekseli saxlayan hər kəs onun surətini çıxara bilər.
***Veksellərin Uçotu*** – veksellər uçota almaq borc faizlərinin avansla alınması deməkdir. Veksellərin uçotu – bank və ya digər kredit təşkilatlarının nağdı hesablaşma yolu ilə aldığı veksellərə ödəmə miqdarında borc faizlərini tutduğu əməliyyatlardır.
***Veqa*** – baza aktivinin qiymətinin 1 faiz valetliliyi nəticəsində

opsionun qiymətindəki dəyişilmə həcmi.
***Vençur*** – riskli, yüksək riskli.
***Vençur Bank*** – yüksək riskli layihələrin kreditləşdirilməsi məqsədilə yaradılan bank.
***Vençur Biznesi*** – adətən yüksək riskə malik yeni elmi-texniki layihələrin, eləcə də elmtutumlu sahələrdə müxtəlif istiqamətli riskli maliyyə əməliyyatlarının həyata keçirilməsi üzrə sahibkarlıq fəaliyyəti.
***Vençur Əməliyyatları*** – yeni layihələrin, elmi-texniki kəşflərin, ixtiraların maliyyələşdirilməsi istiqamətində aparılan qiymətli kağızlarla əməliyyatlar və pul-kredit əməliyyatları.
***Vençur Firmaları*** – yüksək risk təhlükəsi olan sahibkarlıq fəaliyyəti sahəsində yaradılmış firmalardır.
***Vençur Kapitalı*** – yeni texnika və texnologiyanın tətbiqi ilə bağlı biznes sahəsinə yönəldilən yüksək riskli kapital.
***Vençur Müəssisəsi*** – yeni elmi-texniki layihələrin hazırlanması, yaxud həyata keçirilməsi üzrə ixtisaslaşan müəssisə.
***Vendorliz*** – beynəlxalq lizinq münasibətlərinin yeni forması. Vendorliz zamanı ana lizinq şirkəti ölkə xaricində zərərlə fəaliyyət göstərən, yaxud fəaliyyətini dayandırmış filialını xarici investorlara müəyyən müddətə icarəyə verir.
***Vergi*** – ölkənin müvafiq qanunvericiliyi əsasında dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə, habelə məqsədli dövlət fondlarına köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş.
***Vergi Agenti*** – səlahiyyətli dövlət, yaxud bələdiyyə orqanları tərəfindən vergi ödəyicilərindən vergi və bir sıra digər ödənişlərin yığımını həyata keçirmək, eləcə də onları büdcəyə və büdcədənkənar fondlara yönəltməklə bağlı tapşırıq alan şəxs.
***Vergi Bazası*** – vergiqoyma obyektinin dəyər xarakteristikası, yaxud vergi obyektinin ümumi məbləği. Məsələn, vergiyə cəlb edilən mənfəətin və ya əmlakın ümumi məbləği.
***Vergi Bəyannaməsi*** – vergi ödəyicisinin, onlar tərəfindən müəyyən dövr ərzində alınan və vergiyə cəlb olunmalı gəlirlər və onlara

tətbiq edilən güzəşt və imtiyazlar haqqında rəsmi sənədli ərizəsidir.
***Vergi Deklarasiyası*** – vergi ödəyicisi tərəfindən vergi orqanına təqdim edilən, vergilərin hesablanması və ödənilməsi ilə bağlı bu və ya digər məlumatları əks etdirən rəsmi məlumat, bəyannamə.
***Vergi Dərəcəsi*** – qanunvericiliklə müəyyən olunmuş vergi güzəştləri nəzərə alınmaqla hər bir vergitutma obyektinə hesablanan vergi məbləğini əks etdirən faiz göstəricisi.
***Vergi Dövrü*** – vergi ödəyiciləri tərəfindən vergi və yığımların toplanması öhdəliyinin yerinə yetirilməsi dövrüdür.
***Vergi Elementləri*** – qanunvericilik qaydasında dövlət orqanları tərəfindən vergi sisteminin təşkili və fəaliyyət prinsipləri; bu prinsiplər aşağıdakıları əhatə edir: verginin subyektlərini (vergi ödəyicilərini), verginin obyektlərini (vergiyə cəlb edilən gəliri, əmlakı), vergi vahidini (vergi obyektinin vergiyə cəlb edilmə vahidini), vergi dərəcəsini (vergi normasını) və verginin miqdarını (bir obyektdən verginin məbləğini), vergi güzəştlərini.
***Vergi Fərqi*** – verginin orta dərəcələrlə ödəyən müəssisə və təşkilatlarda əskik verilmiş və artıq verilmiş vergi məbləğlərinin yaranması.
***Vergi Güzəşti*** – ölkənin vergi qanunvericiliyi əsasında müəyyən vergi növləri üzrə vergi ödəyicilərinin vergi ödəmələrindən qismən və ya tam azad edilməsi.
***Vergi Hüququ*** – ölkə qanunvericiliyi ilə müəyyən olunan imperativ üsullarla müvafiq iqtisadi subyektlərə təsir etməklə vergi növlərinin müəyyən edilməsi, tətbiqi, vergilərin alınması, dəyişdirilməsi və ləğv edilməsi üzrə ictimai münasibətləri tənzimləyən qanunvericilik sistemi.
***Vergi Xərcləri*** – “normal” vergi strukturundan dövlət gəlir yığımını azaldan güzəştlərdir, çünki dövlət siyasətinin məqsədləri ilə subsidiya və birbaşa ödəmələrin alternativliyinə nail oluna bilər.
***Vergi İmmuniteti*** – milli, yaxud beynəlxalq qanunvericilik normalarına əsasən müəyyən qrup hüquqi və ya fiziki şəxsin müəyyən qisim vergilərdən tam, yaxud qismən azad edilməsi.
***Vergi Krediti*** – müxtəlif formalarda vergi ödəyicisinə tətbiq edilən güzəştlər.

***Vergi Kvotası*** – vergi ödəyicisinin gəlirlərinə aid edilən faizlə ifadə olunmuş vergi dərəcələridir.

***Vergi Qanunvericiliyi*** – AR-in Vergi Məcəlləsinə görə, AR-in vergi qanunvericiliyi AR Konstitusiyasından, AR Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş AR-in qanunvericilik aktlarından ibarətdir.

***Vergi Olmayan Daxilolmalar*** – özündə kapitalla əməliyyatlardan gəlirləri, cərimə və sanksiyalar üzrə daxilolmalar və qeyri-dövlət mənbələrindən könüllü, bütün əvəzsiz cari daxilolmalar istisna olmaqla, digər əvəzi qaytarılmayan bütün büdcə daxilolmalarını birləşdirir.

***Vergi Ödənişindən Öncəki Gəlir*** – müəssisənin gəlirindən xərclərini çıxmaq üsulu ilə hesablanır.

***Vergi Ödəyicilərinin Uçotu*** – hüquqi və fiziki şəxslərin fəaliyyətinə vergi nəzarətini həyata keçirmək məqsədilə onlar vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar.

***Vergi Ödəyicisi*** – ölkə qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergi ödəyən istənilən hüquqi və ya fiziki şəxs.

***Vergi Öhdəçiliyi*** – müəyyən vergi və yığımların vergi ödəyiciləri tərəfindən mütləq ödənilməsi öhdəliyidir.

***Vergi Öhdəliklərinin İcrası*** – bank və kredit təşkilatlarının sərəncamı, əmlakın girov qoyulması, qanuni dəbbə pulu, həmçinin vergi və ya yığımların alınması ilə təmin edilir.

***Vergi Rejimi*** – ölkə ərazisində və ya hər hansı regionda vergi münasibətlərinin qaydaları, normaları, prinsipləri sistemi.

***Vergi Sertifikatı*** – müəyyən dövr ərzində vergi ödəyicisinin, xüsusilə də dövlət müəssisələrinin və təşkilatlarının vergi ödənişlərindən tam və ya qismən azad edilməsi haqqında müvafiq dövlət orqanı tərəfindən təqdim edilən rəsmi məktub.

***Vergi Sığınacağı*** – vergi yükünün azaldılması və ya yox edilməsi vasitələri.

***Vergi Sistemi*** – vergi qanunvericiliyinə uyğun olaraq, vergi və yığımlar, onların müəyyən edilməsinin forma, metod və prinsipləri, dəyişdirilməsi və ləğvi, ödənilməsi və onların ödənməsi üzrə təd-

birlərin tətbiqi, həmçinin vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətlərin toplusudur.

***Vergi Siyasəti*** – vergi və vergiyə cəlbetmə sahəsində dövlətin həyata keçirdiyi tədbirlər sistemi, fəaliyyət kursudur.

***Vergi Tarifi*** – məhsul və xidmətlər tətbiq edilən xüsusi sistemləşdirilmiş vergi dərəcələri.

***Vergi Uçotu*** – dövlət vergi orqanlarında və bələdiyyələrdə qeydiyyatda olan və qeydiyyatda olmayan vergi ödəyicilərinin vergi ödəmələrinin uçotu.

***Vergi və Faiz Xərclərindən Öncəki Gəlir*** – müəssisənin gəlirlilik göstəricisi olub onun gəlirindən xərclərini çıxmaq üsulu ilə hesablanır.

***Vergi Yükü*** – il ərzində ölkədə ödənilən bütün vergilərin cəminin ümumi daxili məhsula və ya milli gəlirə nisbəti.

***Vergidən Azad Qiymətli Kağızlar*** – vergi yığmaq səlahiyyəti olan ştat, şəhər, rayon və digər dövlət orqanlarının munisipal istiqrazları. Bu istiqrazlar üzrə gəlirlər vergidən azad edilir.

***Vergidən Azadolma*** – ***1)*** Konkret vergilərdən tamamilə, yaxud qismən azad edilən fiziki və hüquqi şəxslərin qanunla müəyyən edilməsi; ***2)*** Mənfəətin vergidən azad olan hissəsinin müəyyən edilməsi.

***Vergidən Daxilolmalar*** – məcburi, əvəzsiz, qaytarılmadan dövlət idarəetmə orqanlarına və qeyri-büdcə orqanlarına ödəmələrdən daxilolmaları birləşdirir.

***Vergidən Yayınma*** – hüquqi və fiziki şəxslərin bilərəkdən vergiləri ödəməmələridir.

***Vergiqoyma*** – ölkədə vergilərin müəyyən edilməsi və tutulması, vergilərin kəmiyyətinin və onların dərəcələrinin, həmçinin vergilərin tutulması qaydasının və vergiyə cəlb edilən hüquqi və fiziki şəxslərin dairəsinin müəyyən edilməsi prosesidir.

***Vergiqoyma Obyektləri*** – əmlak, iqtisadi fəaliyyətdən gəlirlər, mal və xidmətlərin realizasiyası üzrə əməliyyatlar, AR-ın gömrük ərazisinə gətirilən və aparılan mallar, iqtisadi fəaliyyətin bəzi növləri və digər obyektlər qanunvericiliyə görə vergiqoyma obyektləridir.

***Vergilər Ödənənə Qədərki Gəlirlər*** – vergilər tutulana qədər bütün xərcləri çıxdıqdan sonrakı təmiz gəlirdir.
***Vergilər Ödənəndən Sonrakı Gəlirlər*** – vergilər və digər maliyyə əməliyyatları üzrə xərclər çıxıldıqdan sonra qalan xalis gəlirdir.
***Vergilərdən Qaçma*** – ödənilən vergi məbləğinin qanuni yollarla azaldılması.
***Vergilərin Antisipasiyası*** – dövlətinin bəzən məcburi şəkildə vaxtından əvvəl vergilər alması və ya müəyyən vergilərin ödənməsi üçün yerləşdirdiyi qısamüddətli borclar və istiqrazlardır.
***Vergitutma Bazası*** – vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir.
***Vergitutma Obyekti*** – vergi ödənişini həyata keçirən subyektin vergi ödənişi ilə bağlı öhdəliyini və ya öhdəliklərini şərtləndirən hüquqi fakt: görülən iş, göstərilən xidmət, mal satışı üzrə iqtisadi dövriyyə, ölkənin gömrük sərhədindən mal keçirilməsi və s.
***Vergitutma Subyekti*** – öz vəsaiti hesabına üzərinə vergi ödəmək öhdəliyi düşən hüquqi və ya fiziki şəxs.
***Vergitutmanın Formaları*** – vergi məbləğləri aşağıdakı formalarda tutulur: bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması); bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması) bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi arasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).
***Verilmiş Kreditə Görə Faiz Normaları*** – üzrə (milli və kommersiya bankları üzrə) məlumatlar milli və kommersiya banklarının hesabat məlumatları əsasında təqdim edilir.
***Verilmiş Veksellər*** – faktiki öhdəlik növüdür. Veksellərin əsas mənbəyi bank borcları (ssuda), mal və xidmətlərə görə ödəmələrdir.
***Vərəqə*** – birjadan kənar dövriyyədə olan qiymətli kağızların kotirovkasının rəsmi siyahısı. Siyahı üzrə vərəqələr qırmızı, istiqrazlar isə sarı vərəqədə dərc edilir.
***Vətəndaş Qüsursuzluğu*** – mühüm iştirak payının sahibləri, hüquqi şəxs olduqda onun icra orqanının rəhbərləri, habelə bankın törəmə

strukturlarının rəhbərləri üçün qəsdən törədilmiş cinayətə görə məhkumluğun olmaması; inzibatçı, müvəqqəti inzibatçı və ləğvedici üçün məhkumluğunun olmaması, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi faktının olmaması, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması üzərində məhkəmə qərarı il qoyulmuş qadağanın olmaması, məhkəmə qaydasında müflis elan edilməsi faktının olmaması başa düşülür.

***Vətəndaşların Mülkiyyət Hüququ*** – qanunvericiliyə uyğun olaraq bütün əmlakların vətəndaşın mülkiyyətində ola bilməsidir.

***Vəzifə Maaşı*** – müəyyən vəzifəni daşıyan şəxs üçün nəzərdə tutulan əməyin ödənilməsi tarifi, aylıq əmək haqqıdır.

***Vəzifə Təlimatı*** – müəssisə və firmada müəyyən vəzifə tutan şəxsin yerinə yetirdiyi tapşırıq, vəzifə, iş siyahısını göstərən təlimatdır.

***Vəzifəli Şəxs*** – dövlət idarəsində kifayət dərəcədə yüksək vəzifə tutan, vacib qərarlar qəbul etmək və hüquqi əhəmiyyətli fəaliyyət göstərmək səlahiyyətləri olan işçidir.

***Vindikasiya İddiası*** – mülki hüquqda sahibin öz əmlakını başqasının qanunsuz sahibliyindən müdafiə olunması qaydasıdır.

***Viriment*** – bank tərəfindən hüquqi və ya fiziki şəxsə məxsus vəsaitin nağdsız qaydada bir hesabdan digər hesaba köçürülməsi.

***Volatillik*** – maliyyə alətinin risk göstəricisi. Qiymətli kağızın müəyyən dövr ərzində gəlirliklərinin standart kənarlaşması kimi hesablanır.

***Volatillik (Dəyişkənlik) Təhlili (Qeyri-Sabitliyin Təhlili)*** – qeyri-sabitliyin təhlili bazar qiymətlərində təsadüfi dəyişiklik dərəcəsini ölçür.

***Vona*** – KXDR və Cənubi Koreyanın pul vahidi. 1 vona = 100 çon.

***Vyana Konvensiyasının Məqsədi*** – əmtəələrin, beynəlxalq alqı-satqısını tənzimləyən milli qanunvericiliyin vahid şəklə salınmasına yardım etməkdir. Konvensiya 101 maddədən və 4 hissədən ibarətdir.

# – X –

***Xalis Aktivlər*** – Şəxsin və ya şirkətin cəmi aktivləri çıxılsın cəmi passivləri (öhdəlikləri). Xalis aktivlərin dəyəri aşağıdakı kimi hesablanır: Aktivlərin dəyəri çıxılsın passivlər bərabərdir xalis aktivlərin dəyəri.

***Xalis Alıcılıq Qabiliyyəti*** – qiymətlərin əlverişsiz istiqamətdə hərəkətinin mümkün olan itkilərinin çıxılması ilə vəsaitlərin artıq qalığı.

***Xalis Aktivlərin Rentabelliyi*** – şirkətin əməliyyatlardan xalis mənfəətinin dövr ərzində xalis aktivlərin orta həcminə nisbəti.

***Xalis Cari Aktivlər*** – aktivlərin satışı ilə bağlı xərclərin çıxılması ilə cari, asan satılan aktivlər.

***Xalis Cari Dəyər*** – pul mədaxilinin cari dəyəri ilə pul məxaricinin cari dəyəri arasındakı fərq. İnvestisiya layihəsinin xalis cari dəyəri müsbət olduğu təqdirdə investisiya qoyuluşu məqsədəuyğun hesab edilir.

***Xalis Çarter*** – kirayələyən və kirayəyə verən arasında heç bir dəyişiklik olmadan imzalanmış standart formalı çarter.

***Xalis Daxili Aktivlər*** – bank sisteminin mərkəzi hökumət, rezident maliyyə təşkilatları və dövlət idarəetmə orqanları ilə apardığı aktiv-passiv əməliyyatlarının saldosudur.

***Xalis Dəyişmə*** – qiymətli kağızın bir gün öncəki son qiyməti ilə bu günün son qiyməti arasındakı fərq.

***Xalis Dövlət Borcu*** – müxtəlif idarələrdə yerləşdirilmiş öhdəliklərin çıxılmasından sonra qalan borc.

***Xalis Dövriyyə Kapitalı*** – cari öhdəliklər çıxmaq şərti ilə cari aktivlər.

***Xalis Əlavə Dəyər*** – əsas kapitalın istehlakının çıxılması ilə ümumi əlavə dəyər.

***Xalis Əməliyyat Gəliri ilə Ödəmə Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

$$XƏG = (XG + A + F) / (F + Ə)$$

Burada, XƏG – xalis əməliyyat gəliri ilə ödəmə əmsalı, XG – xalis

əməliyyat gəliri, A – amortizasiya ayırmaları, F – faiz məsrəfləri, Ə – əsas ödənişlər.

***Xalis Faiz –*** mənfəətdən qarşılıqlı ödəmələri çıxmaqla bank sahibkarlığından olan mənfəət.

***Xalis Gəlir –1)*** Məcmu gəlirlərin bu gəlirlərin əldə olunması üçün çəkilən bütün xərclər çıxıldıqdan sonra qalan hissəsi; ***2)*** Fiziki şəxsin ümumi gəlirinin vergi çıxıldıqdan sonra yerdə qalan hissəsi.

***Xalis Gəlir Marjası –*** aşağıdakı düsturla hesablanır:

$$X = XG / S \times 100 = (ƏG - VF) / S \times 100$$

Burada, X – xalis gəlir marjası, XG – xalis gəlir, S – satış, ƏG – əməliyyat gəliri, VF – vergi və faiz ödənişləri.

***Xalis Xarici Aktivlər (Kommersiya bankları üzrə) –*** kommersiya bankları tərəfindən qeyri-rezidentlərlə xarici valyutada, manatla və qiymətli metallarla aparılmış aktiv-passiv əməliyyatların saldosudur.

***Xalis İctimai Gəlir –*** milli gəlirin bir hissəsini təşkil edən, əlavə məhsulun dəyəri: onun tərkibində müəssisələrin təmiz gəlirlərini və dövlətin mərkəzləşdirilmiş təmiz gəlirini ayırırlar.

***Xalis İdxal –*** ölkə idxalatının ümumi həcmi və ölkəyə idxal edilən mal növlərinin ixrac-həcmi arasındakı fərq.

***Xalis İdxal Vergiləri –*** idxal üzrə vergilərin məbləğləri ilə idxal üzrə maliyyə yardımlarının məbləğləri arasındakı fərq.

***Xalis İxrac –*** ixrac məhsulları üzrə ixracla idxalın fərqi.

***Xalis İqtisadi Mənfəət –*** ümumi gəlir və xərclər arasındakı fərq.

***Xalis İqtisadi Renta –*** istehsal amilinin gətirdiyi gəlirdir. Onu dəqiq hesablamaq üçün həmin amilin istifadəsi üzrə alternativ xərcləri çıxmaq lazımdır.

***Xalis İnhisar – 1)*** Əmtəə və xidmətlər bazarında vəziyyətdir.

***Xalis İnkasso –*** yalnız maliyyə sənədlərinin inkassosu.

***Xalis İnvestisiya –*** əsas kapitala yönəldilən investisiya məbləği ilə amortizasiya məbləğinin, yəni əsas kapitalın aşınması məbləğinin fərqi.

$$İX = İ - A$$

Burada, İX – xalis investisiya, İ – əsas kapitala yönəldilən investisiya məbləği, A-amortizasiya məbləği.

***Xalis İtkilər*** – istehlakçının və ya istehsalçının heç kim tərəfindən əvəzi ödənilməyən əlavə itkiləridir.
***Xalis Kapital*** – ümumi kapitaldan borc öhdəliklərinin çıxılan hissəsi.

$$KX = K - D$$

Burada, KX – xalis kapital, K – kapital, D – borc öhdəlikləri.
***Xalis Konosament*** – malın keyfiyyətinə və onun qablaşdırılmasına görə yük sahibinin məsuliyyətini əks etdirən sənəd.
***Xalis Kreditləşmə*** – qeyri-maliyyə aktivlərinin alınmasının xərcləri ilə müqayisədə maliyyə mənbələrinin artması, yaxud defisiti.
***Xalis Qazanc*** – məcmu şəxsi gəlirlərin vergilər, icbari ödənişlər (üzvlük haqqları, sosial müdafiə fondlarına ödənişlər və s.) və bu kimi digər xərclər çıxıldıqdan sonra qalan hissəsidir.
***Xalis Qiymət*** – satışla, alışla bağlı bütün xərclərin çıxılması və ya müvafiq olaraq üstə gəlməsindən sonra satışdan olan vəsait, yaxud satın alınmış şey üçün ümumi ödəniş.
***Xalis Likvid Aktivlər*** – nağd pul vəsaitlərinin, asan satıla bilən qiymətli kağızların və eləcə də hesablar üzrə debitor borcunun məbləği.
***Xalis Lizinq*** – klassik lizinq münasibətlərinin bir forması kimi icarə obyektinin yaxşılaşdırılması üzrə xidmətlərin, o cümlədən təmir xərclərinin icarədarın üzərinə düşdüyü lizinq əməliyyatı.
***Xalis Məhsul*** – müəssisənin müəyyən dövr ərzində yaratmış olduğu, pul ilə ifadə edilmiş, yeni yaradılan məhsulun dəyərini səciyyələndirən istehsal həcmi göstəricisidir.
***Xalis Məhsul Vergiləri*** – məhsula qoyulan vergilərin məbləğləri və onun istehsalına verilmiş maliyyə yardımlarının arasındakı fərq.
***Xalis Mənfəət*** – əməliyyat mənfəəti ilə vergi ödəmələrinin məbləği arasındakı fərq.
***Xalis Milli Məhsul*** – il ərzində ölkənin xalq təsərrüfatında istehsal olunan məhsulların, işlərin və xidmətlərin həcminin pul ifadəsində hesablanan ümumi dəyərindən hesabat ili ərzində iqtisadiyyatda əsas vəsaitlərin aşınma dəyərinin, yəni amortizasiya ayırmalarının məbləğinin çıxılan hissəsi.
***Xalis Mövqe*** – treyderlərin müəyyən maliyyə aləti üzrə uzun və

qısa mövqeləri arasındakı fərqi.
***Xalis Pul Axını*** – müəyyən dövr ərzində şirkətə daxil olan və onun ödədiyi pul vəsaitlərinin fərqi.
***Xalis Rəqabət*** – bazarda rəqabət vəziyyətidir. Bu vəziyyətdə çoxlu firmalar eyni mallar satır.
***Xalis Rəqabət Bazarı*** – heç bir alıcı, yaxud satıcının cari qiymətlərin səviyyəsinə əhəmiyyətli təsir göstərmədiyi şəraitdə oxşar əmtəələrlə əqdlər bağlayan satıcı və alıcıların məcmusu.
***Xalis Transfert Ödəmələri*** – başqa ölkələrin əhalisindən alınmış şəxsi və dövlət transfert ödənişlərinin çıxılması ilə başqa ölkələrin əhalisinə şəxsi və dövlət transfert ödənişləri.
***Xalis Vergilər*** – əhalinin dövlətdən aldığı transfert ödənişlərinin çıxılması şərti ilə, əhalinin dövlətə ödədiyi vergilər.
***Xalis Zərərlər*** – inhisarçı tərəfindən süni defisit yaradılması ilə əlaqədar olaraq vətəndaşlara, təşkilatlara dəyən itkilərdir.
***Xalq Müəssisəsi*** – öz işçilərinin kollektiv mülkiyyətində olan paylara, hissələrə bölüşdürülmənin, yəni bütün əmək kollektivinə məxsus olan və kollektiv tərəfindən cəlb edilmiş menecerlər və müdirlər şurası tərəfindən rəhbərlik edilən müəssisə.
***Xalq Təsərrüfatı*** – bütün ölkənin təsərrüfatı, iqtisadiyyatı.
***Xam Qiymətli Kağızlar*** – bazarda dövriyyədə kifayət qədər möhkəmlənməmiş yeni qiymətli kağızlar.
***Xammal*** – hasil edilmiş faydalı qazıntılar və başqa təbii resurslar, onlardan hazırlanmış, sonradan yenidən emal edilməli olan materiallar.
***Xammal Bazarları*** – xammal bazarlarının toplusu.
***Xao*** – Vyetnamda tədavüldə olan xırda monet. 1 xao=1/100 donq.
***Xarici Audit*** – müəssisənin, təşkilatın və s.-nin maliyyə-təsərrüfat fəaliyyətinin düzgünlüyünü və səmərəliliyini təmin etmək məqsədi ilə həmin iqtisadi subyektin şəxsi müraciətinə, yaxud səlahiyyətli dövlət orqanının təyinatına əsasən kənar, müstəqil auditorlar tərəfindən aparılan audit.
***Xarici Avuar*** – şəxsin və ya dövlətin ölkədən xaricdə olan vəsaitləri.
***Xarici Bank*** – nizamnamə kapitalı bütünlüklə, yaxud qismən xarici

sərmayəçilərə mənsub olduğu bank.
***Xarici Borclar*** – ölkənin xarici kreditorlara qoyulmuş müddət ərzində ödəməli olacağı maliyyə öhdəliklərinin məbləğidir.
***Xarici Dönərlilik*** – milli valyutadan beynəlxalq hesablaşmalarda istifadə mümkünlüyü, xarici valyutanın milli valyutaya və əksinə sərbəst mübadiləsi.
***Xarici Dövlət Borcu*** – AR adından AR-nın qeyri-rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc.
***Xarici Fiziki Şəxs*** – AR-nın vətəndaşı olmayan və daimi yaşayış yeri AR-nın ərazisi olmayan fiziki şəxs.
***Xarici Hüquqi Şəxs*** – yerli hüquqi şəxs anlayışı ilə əhatə edilməyən hüquqi şəxslər.
***Xarici İqtisadi Əlaqələr*** – ölkələrin xarici dövlətlərlə ticarət, elmi-texniki, istehsal və başqa iqtisadi əlaqələri.
***Xarici İqtisadi Fəaliyyət Üçün Baş Lisenziya*** – dövlət ehtiyacları üçün göndərilən bir mal növünə və ya bir mal qrupuna idxal-ixrac əməliyyatlarını bir il ərzində həyata keçirmək üçün verilən xüsusi icazədir.
***Xarici İqtisadi Fəaliyyət Üçün Birdəfəlik Lisenziya*** – bir mal növünə bir sövdələşməni bir ilə qədər həyata keçirmək üçün verilən xüsusi icazədir.
***Xarici İqtisadi Siyasət*** – ixrac və idxal, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici kapitalın cəlb edilməsi və kapitalın xaricə aparılması, xarici borclar, başqa ölkələrə iqtisadi yardımın göstərilməsi, birgə iqtisadi layihələri həyata keçirmək sahəsində ölkə hökumətinin apardığı dövlət siyasəti.
***Xarici İnvestisiya*** – xarici maliyyə mənbələri, xarici investorlar tərəfindən, o cümlədən xarici dövlət, xarici bank, xarici şirkət, eləcə də beynəlxalq maliyyə kredit institutları tərəfindən qoyulan investisiya.
***Xarici İnvestor*** – əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər və onların nümayəndəlikləri, habelə nizamnamə kapitalında xarici sərmayənin payı 50%-dən çox olan AR-nın hüquqi şəxsləridir.
***Xarici İstiqraz*** – xarici borcalan tərəfindən daxili maliyyə

bazarında buraxılmış və yerli valyutaya denominasiya edilmiş istiqraz.

***Xarici Kapital*** – formasından asılı olmayaraq ölkə xaricindəki iqtisadi subyektə məxsus kapital.

***Xarici Kontragent*** – kommersiya əqdində əks tərəf olan xarici şəxs, firma, yaxud müəssisə.

***Xarici Kredit*** – borc kapitalının valyuta və əmtəə resurslarının qaytarılma, müddətlilik və faizlərin ödənilməsi şərtləri ilə müvəqqəti istifadəyə verilməsi ilə bağlı beynəlxalq iqtisadi münasibətlər sahəsindəki hərəkəti.

***Xarici Ödəmələr*** – ölkənin ayrı-ayrı şəxsləri, firmaları və hökumətin tərəfindən başqa ölkələrdə malların və xidmətlərin alınması üçün valyutanın xərclənməsi.

***Xarici Reklam*** – binaların üzərindəki və yol qıraqlarındakı lövhələr, plakatlar, işıqlandırıcı qurğular şəklində olan reklam vasitələri.

***Xarici Satış Agenti*** – başqa ölkənin kompaniyası tərəfindən onun adından və onun hesabına xarici dövlətin müəyyən ərazisində təyin olunmuş əmtəə nomenklaturası üzrə əməliyyatlar aparmaq hüququ verilmiş firmalardır.

***Xarici Səmərələr*** – malların və xidmətlərin istehsalı zamanı firmalara və istehlakçılara təsir göstərən, xeyir verən amillər üzrə səmərələr.

***Xarici Sərmayə*** – rezident ölkənin xaricdən əldə etdiyi aktivlərdir.

***Xarici Sığortaçı*** – öz ölkəsinin qanunvericiliyinə əsasən sığorta fəaliyyətini həyata keçirmək hüququ olan xarici hüquqi şəxs.

***Xarici Ticarət Balansı*** – müəyyən vaxt müddətində ölkədən aparılan və ölkəyə gətirilən malların dəyərlərinin nisbətidir.

***Xarici Ticarət Bankı*** – ixracın kreditləşməsi üzrə ixtisaslaşan bank və ya digər kredit institutu.

***Xarici Ticarət Dövriyyəsi*** – ölkənin müəyyən dövr ərzində pul vahidində ölçülmüş, ixrac və idxalının ümumi miqdarı.

***Xarici Ticarət Kəsiri*** – idxalın ixracı üstələməsidir.

***Xarici Valyuta*** – xarici ölkəyə məxsus olan pul vahidi, valyuta.

***Xarici Valyuta Bazarı*** – xarici valyutalarla əməliyyatlar aparılan

bazar.

***Xarici Valyutanın Hərəkəti Uçotu*** – müəssisələrin mühasibat uçotunun hesablar planında xarici valyuta 52 saylı “Valyuta hesabı”nda göstərilir.

***Xarici Veksel*** – beynəlxalq ticarət, yaxud beynəlxalq kredit münasibətləri zamanı təqdim edilən veksel.

***Xarici Vergi Krediti*** – ikili vergiqoymanın aradan qaldırılması formalarından biri.

***Xarici Yardım*** – bir ölkənin dövlət və qeyri-dövlət təşkilatları və şəxsləri tərəfindən digər ölkəyə göstərdiyi maddi, elmi-texniki, maliyyə yardımı, sosial-iqtisadi layihələrin həyata keçirilməsində və bədbəxt halların aradan qaldırılmasında etdiyi kömək.

***Xarici Yardım Siyasəti*** – bir dövlətdən və ya beynəlxalq təşkilatdan başqa dövlətə yardım verilməsi və alınması, habelə yardım alan ölkədə bu yardımın istifadəsi üzrə tədbirləri əhatə edir.

***Xatırladıcı Reklam*** – istehlakçını əmtəəni xatırlamağa vadar etməyə istiqamətlənmiş reklam fəaliyyəti.

***Xayrinq*** – lizinqin mövcud formalarından biridir. Avadanlığın orta müddətli icarəsini nəzərdə tutur.

***Xeyriyyə Təşkilatı*** – cəmiyyətin və ya ayrı-atrı şəxslərin kateqoriyasının maraqlarına uyğun xeyriyyə fəaliyyəti göstərən qeyri-kommersiya, qeyri-hökumət təşkilatıdır.

***Xeyriyyəçilik Fəaliyyəti*** – vətəndaşların və hüquqi şəxslərin təmənnasız könüllü fəaliyyətidir.

***Xəbərdarlığın Birinci Günü*** – fyuçers kontraktı satıcısına həmin fyuçers kontraktı üzrə faktiki maliyyə alətlərinin və ya fiziki əmtəələrin çatdırılması barədə niyyət xəbərdarlığını etmək üçün icazənin verildiyi tarixdir.

***Xəbərdarlığın Son Günü*** – fyuçers müqaviləsi üzrə çatdırılma haqqında niyyət xəbərdarlığının verilməsi üçün son gün.

***Xərc (məsrəf) Əmsalı*** – qarşılıqlı fondun əməliyyat xərclərini qarşılamaq üçün sərf etdiyi orta xalis aktivlərinin faiz nisbəti.

***Xərcini Ödəmə (qaytarma) – 1)*** İnvestisiya layihəsinin öz xərcini ödəməsi; ***2)*** Kreditin və digər borcların qaytarılması, borcun ödənilməsi.

***Xərcini Ödəmə (qaytarma) Müddəti – 1)*** İnvestisiya layihəsinin öz xərcini ödəməsi müddəti; ***2)*** Kreditin və digər borcların qaytarılması müddəti, borcun ödənilməsi müddəti.
***Xərclənməmiş Məsariflər*** – müəssisənin müvafiq gəlirləri ilə uzlaşdırılmamış aktivləridir.
***Xərclər*** – əldə olunmuş mallara verilən və sonralar gəlirdən çıxılan pul ödənişləridir.
***Xərclərin Uçot Kitabı*** – dövrü olaraq nağd şəklində ödənilən pulların uçotunu aparmağa xidmət edən sənəddir.
***Xərrac*** – Yaxın və Orta Şərqdə torpaq sahiblərinin dövlətə ödədikləri birbaşa vergi (torpaq vergisi).
***Xətti Funksional İdarəetmə Sistemi*** – firmanın xətti və funksional idarəetməsinin uyğunlaşdırıldığı idarəetmə formasıdır, bu idarəetmədə mərkəzləşməni və qeyri-mərkəzləşməni əlaqələndirməyə imkan yaradır.
***Xətti İdarəetmə Forması*** – rəhbərlər və çoxhəlqəli, çoxpilləli idarəetmə sistemində onlara tabe olan orqanlar arasındakı münasibətlərdir. Bu halda yuxarı həlqə idarəetmənin bütün funksiyalarını mərkəzləşdirir, idarəetmə obyekti isə ancaq özünün idarəetmə subyektinin idarəetmə əmrlərini yerinə yetirir.
***Xəyali Əqd*** – heç bir hüquqi nəticəsi olmayan, görünüş üçün bağlanmış əqddir.
***Xəzinə*** – qiymətli əşyaların, o cümlədən pul vəsaitinin mühafizə olunması üçün yer, otaq, zirzəmi və s.
<u>AR Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı – </u>AR-də dövlət gəlirlərinin və xərclərinin mərkəzləşdirilmiş qaydada kassa icrasını və bu sahədə digər müvafiq funksiyaları həyata keçirən dövlət maliyyə institutu, hökumət orqanı.
***Xəzinə Bileti*** – hökumət, o cümlədən dövlət xəzinədarlığı tərəfindən tədavülə buraxılan borc öhdəlikli qiymətli kağızlar.
***Xəzinə Bonları*** – dövlət xəzinəsində gəlir və xərc tarazlığının təmin edilməsi məqsədi ilə tədavülə buraxılan orta və uzunmüddətli borc öhdəlikli dövlət qiymətli kağızları. Adətən xəzinə bonları 5-25 il müddətinə buraxılır.
***Xəzinə Emissiyası*** – xəzinədarlıq, yaxud digər dövlət maliyyə

orqanları tərəfindən tədavülə xəzinə biletlərinin və dövlət qiymətli kağızlarının buraxılışı. Əsasən dövlət büdcəsi kəsirinin örtülməsindən ötrü edilir.

***Xəzinə Kağızları*** – bütün növ dövlət borc qiymətli kağızlarını əks etdirən ümumi ifadə.

***Xəzinə Notları*** – ölkənin maliyyə nazirliyi, yaxud digər müvafiq hökumət orqanı tərəfindən xəzinənin kassa icrasının ahəngdarlığını təmin etmək məqsədi ilə tədavülə buraxılan borc öhdəlikli dövlət qiymətli kağızları.

***Xəzinə Öhdəliyi*** – dövlət qiymətli kağızlarının əhali içərisində yerləşdirilməsinin bir növü olub, onun sahiblərinin köçürdükləri büdcə vəsaitlərini təsdiq etməklə bərabər, onların həmin qiymətli kağıza görə gəlirləri almaq hüququdur.

***Xəzinə Səhmi*** – emitent tərəfindən geri alınmış səhm. Şirkətin özünə məxsus olan və dövriyyədə olmayan səhmləri.

***Xəzinə Vekseli*** – dövlət xərclərinin maliyyələşdirilməsi, o cümlədən dövlət büdcəsi kəsirinin örtülməsi, xəzinənin kassa icrasındakı maliyyə boşluqlarının aradan qaldırılması məqsədi ilə dövlət tərəfindən tədavülə buraxılan veksel.

***Xəzinədar*** – dövlət gəlirinin daxil olmasını və büdcədən ödəmələrin həyata keçirilməsini təşkil edən, bu əməliyyatların uçotunu aparan və gedişinə nəzarət edən vəzifəli şəxs.

***Xəzinədarlıq*** – ölkənin maliyyə nazirliyi nəzdində, yaxud onun tərkibində mövcud olan xüsusi dövlət maliyyə orqanı.

***Xəzinədarlıq Bileti*** – xəzinədarlıq tərəfindən buraxılan kağız pullardır.

***Xəzinədarlıq Çeki*** – bank tərəfindən yazılan və onun xəzinədarının imzası ilə təsdiqlənən çek növü.

***Xırda Alverçi (skalper)*** – çox da böyük olmayan mənfəət əldə etmək məqsədi ilə birjada qısa müddətli möhtəkir (spekulyativ) əməliyyatlar aparan şəxs.

***Xırda əməliyyat*** – qısa müddət ərzində aparılan və çox da böyük gəlirlə nəticələnməyən möhtəkir (spekulyativ) birja əməliyyatı.

***Xırda nominallı (qəpik) səhmlər*** – bazarda 1 ABŞ dollarından (bəzi hallarda 5 ABŞ dollarından) daha az məbləğə satılan qiymətli

kağızlar.
***Xırda Pul*** – əsasən daha iri kağız kupyuraların xırdalanmasına xidmət edən xırda metal sikkə.
***Xidmət*** – ehtiyacların ödənilməsi üçün görülən iş və ya əməyin faydalı nəticəsi formasında olan müəyyən məqsədyönlü fəaliyyət.
***Xidmət Nişanı*** – müəssisənin müxtəlif xidmətləri həyata keçirdiyi, müvafiq qaydada qeydiyyatdan keçirilmiş fərdi fəaliyyət nişanıdır.
***Xidmət Norması*** – müəyyən vaxt dövrü ərzində texniki vasitələrə, adamlara, binalara xidmət göstərən bir işçiyə düşən normativlə müəyyən edilmiş xidmət həcmidir.
***Xidmət Sahəsi*** – əhaliyə xidmətlər göstərən iqtisadi sahələrin məcmusu. Buraya mədəniyyət, səhiyyə, məişət xidməti aid edilir.
***Xidmət Tarifləri*** – xidmət sahəsi müəssisələrinin istehlakçılara, sifarişçilərə göstərdikləri xidmətlərin tarifləri.
***Xidməti Ezamiyyət*** – müəssisə rəhbərinin tapşırığı ilə müəssisənin daimi yerləşdiyi ərazidən kənara xidməti tapşırığı yerinə yetirmək üçün getməkdir. Ezamiyyət müddətində işçinin daimi iş yerindəki əmək haqqı saxlanılır.
***Xronoloji yazı*** – təsərrüfat əməliyyatlarının məzmunundan, vaxt üzrə baş vermə ardıcıllığından və rəsmiləşdirilməsi sənədlərindən asılı olmayaraq, onların mühasibat sənədlərində əks etdirilməsidir.
***Xronometraj*** – işçi tərəfindən yerinə yetirilən ayrı-ayrı əmək əməliyyatlarının və işlərinin əmək tutumunu müəyyən etmək məqsədi ilə iş vaxtı sərfinin ölçülməsi.
***Xumsa*** – Mavritaniyada tədavüldə olan xırda monet. 1 xumsa=1/5 uqiya
***Xüsusi Borc Hesabı*** – sadə borc hesabları və hesablaşma hesabları funksiyalarını özündə əks etdirən hesab.
***Xüsusi Borclanma Hüququ*** – beynəlxalq valyutanın xüsusi tipi olub, ancaq dövlətlərarası hesablaşmalarda istifadə olunur.
***Xüsusi Ehtiyatlar Fondu*** – aktivlər üzrə zərərin ödənilməsi üçün "adi ehtiyatlar"a və "məqsədli ehtiyatlar"a bölünür. Xüsusi ehtiyatlar konkret bir və ya bir qrup aktivlə əlaqədar mümkün zərərin ödənilməsi üçün istifadə olunur.
***Xüsusi Fondlar*** – mühüm təyinat əhəmiyyəti olan fondlardır.

Xüsusi fondlar iki cür ola bilər: ***1)*** istehlak fondları – istifadəsiz qalıqları toplayan; ***2)*** yığma fondları – tərkibindəki vəsaitlərin istifadə həcmindən asılı olmayaraq yığılmış bütün mənbələrin ümumi dəyər məcmusunu toplayan.

***Xüsusi Gömrük Rüsumları*** – mallar ölkənin gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildiyi təqdirdə müdafiə tədbiri kimi, həmçinin digər dövlətlərin və onların ittifaqlarının ölkənin mənafeyinə toxunan ayrı seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi ölkənin mövcud qanunvericiliyi əsasında tətbiq olunan gömrük rüsumları.

***Xüsusi Hesablar Üzrə Hesablaşmalar*** – alıcının başqa şəhərdə yerləşən bir və ya bir neçə mal göndərənlərə, onların yerləşdiyi şəhərdəki banklarda olan hesablarına göndərilmiş mallara və ya göstərilmiş xidmətlərə görə onun hesabında vəsaitin depone edilməsidir.

***Xüsusi İdxal*** – ümumi idxal ilə təkrar ixracın fərqi.

***Xüsusi İqtisadi Zona*** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi hüquqi rejimin tətbiq edildiyi AR ərazisinin məhdud hissəsi.

***Xüsusi Kapital Qoyuluşları*** – kapital qoyuluşu hesabına əldə edilmiş müəssisə məhsulunun illik həcminin artım vahidinə, yaxud əsas vəsaitlərin artım vahidinə düşən kapital qoyuluşları.

***Xüsusi Kredit Təsisatları*** – kreditləşmənin müəyyən sahəsində ixtisaslaşan banklar və qeyri-bank kredit təsisatları.

***Xüsusi Mənimsəmə Hüquqları*** – Beynəlxalq Valyuta Fondu tərəfindən emissiya edilən, tədiyyə balansları saldosunun tənzimlənməsi, ehtiyatların artırılması, Fond ilə hesablaşmaların aparılması məqsədlərindən ötrü üzv ölkələr tərəfindən istifadə edilən ehtiyat və ödəmə vasitəsi.

***Xüsusi Müddətlər*** – dəqiq müəyyən olunmuş hüquq münasibətlərinə tətbiq olunan müddətlərdir.

***Xüsusi Mülkiyyət*** – şəxsə, ailəyə məxsus olan mülkiyyətdir.

***Xüsusi Səhm, Qızıl Səhm*** – sahibi dövlət təşkilatı olan səhm.

***Xüsusi Vergi Rejimi*** – müəyyən ərazidə müəyyən dövr ərzində

vergilərin hesablanması və ödənilməsi ilə bağlı təsbit edilən xüsusi qaydalar və normalar.

***Xüsusi (daxili) Volatillik*** – səhmin qiymətində nəzərdə tutulmuş valetlilik. Bu bazarın verilmiş məlum səhm qiymətinin nə qədər dəyişəcəyini göstərən ölçü vahididir.

# – Y –

***Yaxşı İdarəetmə*** – bu, cəmiyyətin və ya onun ayrı-ayrı kateqoriyalarının səmərəli qərar qəbul etmə yolu ilə elə idarə edilməsidir ki, bu növbəti 8 tələbə cavab verə bilsin: obyektivlik və tutumluluq; konsensus meyli; hesabatlılıq; şəffaflıq; çeviklik; səmərəlilik; qanunun aliliyi.

***Yaxşı tədarük*** – Bazarda satılmış qiymətli kağızların çatdırılmasından öncə yerinə yetirilməli olan bəzi işlər. Qiymətli kağız alıcıya satış müqaviləsinə və transfer şərtlərinə uyğun formada təqdim olunmalıdır.

***Yaxşılaşma*** – Qiymətli kağızın reytinqində müsbət dəyişikliklərin edilməsi. Bu hal təhlil nəticəsində müəssisənin cari və ya gələcək fəaliyyətində və ya müəssisənin fəaliyyət göstərdiyi sektorda irəliləmələrin müəyyən olunması zamanı baş verir.

***Yalan*** – müqavilə üzrə tərəfdaş sayılan şəxsi bilərəkdən mövcud olmayan şərait və ya digər aldadıcı yollara sövq etməkdir.

***"Yalın" mövqe*** – Bazar (qiymət) riskinə qarşı qorunmayan (hedc olunmamış) uzun

və ya qısa mövqe. Məsələn, opsionun əsaslandığı aktivə malik olmayan "Koll" opsionunun satıcısının mövqeyi və ya Koka-kola şirkətinin 100 səhminə malik investorun mövqeyi.

***"Yalın" varrant*** – Müşayiətedici qiymətli kağız olmadan buraxılan varrant. Adətən, banklar və qiymətli kağız anderayterləri tərəfindən buraxılır. Əsas qiymətli kağızın qəbul edilməsi və ya çatdırılması əvəzinə nağd pul ödənişlərindən istifadə olunur.

***Yarımçıq İstehsal*** – nəzərdə tutulmuş texnoloji prosesin bütün mərhələlərin keçməyən, həmçinin dəstləşdirilməyən, sınaqdan və texniki qəbuldan keçməyən məhsullardır.

***Yarımfabrikat*** – müəyyən müəssisədə istehsal edilən, başqa müəssisədə hazırlanan daha mürəkkəb məhsulun istehsalında tərkib hissəsi kimi istifadə edilən hazır məhsul.

***Yarlıq*** – malın qiyməti və digər məlumatlar barədə əmtəə nişanıdır, damğadır, malın miqdarını göstərən etiketdir.

***Yarmarka*** – bir qayda olaraq, ticarət və sənaye müəssisələrinin, sahibkarların sərgidə göstərilən nümunələr əsasında mallarının topdansatışının və alışının dövrü bazarıdır.
***Yastı – 1)*** Bazarda müəyyən dövr ərzində qiymətlərin nisbi sabitliyinin müşahidə olunduğu vəziyyət. Belə vəziyyət bazarda möhtəkirlik məqsədi daşıyan sövdələşmələrin həyata keçirilməsinə imkan vermir. Adətən, belə vəziyyətin qiymət qrafikində təsviri üfüqi parça kimi görünür; ***2)*** Artımsız faizlə alınıb-satılan istiqrazlar; ***3)*** İstiqraza görə faiz məbləğinin istiqrazın məzənnəsinə daxil edilməsi. Dövri olaraq faiz ödənişləri istiqrazın məzənnəsinə daxil edildiyi üçün sonda bu cür istiqrazlara görə sonradan faiz hesablanmır; ***4)*** Bazar və ya maliyyə alətləri üzrə mövqelərin tarazlı vəziyyətdə olması, nə çox uzun, nə də çox qısa mövqelərin olmaması.
***Yastı gəlirli istiqraz*** – Bu termin istiqrazın satıldığı qiymətin bütün ödənilməmiş faizləri də daxil etməsini göstərir. Bu halda ödənilməmiş faizləri almaq hüququ da alıcıya keçir. Adətən, belə istiqrazlar ödəniş qabiliyyəti olmayan şirkətlərin istiqrazları olurlar.
***Yaşa Görə Pensiya*** – "Vətəndaşların pensiya təminatı haqqında" AR qanununa görə "...kişilər 62 yaşına çatdıqda və azı 25 il iş stajı olduqda, qadınlar 57 yaşına çatdıqda və azı 20 il iş stajı olduqda yaşa görə pensiya almaq hüququna malikdirlər. "
***Yaşayış Evlərinin Kirayələnməsi Müqaviləsi*** – bir tərəfin – mülkiyyətçinin və ya onun nümayəndəsinin digər tərəfə haqqı ödənilməklə yaşayış evinin verilməsi barədə öhdəlik götürdüyü müqavilədir. Digər tərəf kirayə haqqı verməyə borcludur.
***Yaşayış Minimumu*** – minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial norma.
***Yaşayış Minimumunun Təyinatı*** – yaşayış minimumundan aşağıdakı məqsədlər üçün istifadə olunur: əhalinin aztəminatlı təbəqələrinə dövlət tərəfindən ünvanlı sosial yardım göstərilməsi sisteminin formalaşdırılmasında və tətbiqində; əhalinin aztəminatlı təbəqələrinin rifahının yüksəldilməsi konsepsiyasının və dövlət proqramlarının hazırlanmasında; əhalinin həyat səviyyəsinin

qiymətləndirilməsində və proqnozlaşdırılmasında; fiziki şəxslərin gəlirlərinin vergiyə və icbari ödənişlərə cəlb edilməyən həddinin əsaslandırılmasında; əhalinin pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi üzrə tədbirlərin işlənib hazırlanmasında və həyata keçirilməsində; dövlət büdcəsinin, yerli büdcələrin, büdcədənkənar dövlət fondlarının, qanunvericiliklə tənzimlənən qiymət və tariflərin formalaşdırılmasında.

***Yaşayış Yeri*** – fiziki şəxsin daimi və ya çox olduğu yerdir. AR Mülkü Məcəlləsi, 27-ci maddə.

***Yaşıl Kart*** – Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında beynəlxalq müqavilələr sistemidir.

***"Yaşıl poçt" ("yaşıl şantaj")*** – Şirkətin səhmlərinin böyük hissəsini əldə edərək bu şirkətə tam sahiblik iddiasını irəli sürməklə şantaj edərək öz səhmlərini şirkətə daha yüksək qiymətlə geri satılması. Bu zaman səhmlərini yüksək qiymətə geri alan şirkət qarşı tərəf.

***Yazılı Əqd*** – onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə bağlanır. (AR Mülkü Məcəlləsi).

***Yedək Müqaviləsi*** – daşıma müqaviləsinin növ müxtəlifliyi olub, gəmi sahibinin mükafat əsasında başqa bir gəminin və ya üzən bir obyektin yedəyə alıb müəyyən məsafəyə aparması barədə öhdəlik götürməsidir.

***Yekun divident*** – Maliyyə ilinin son dövrü üzrə Direktorlar Şurasının tövsiyəsi və səhmdarların illik ümumi yığıncağının təsdiqi əsasında şirkət tərəfindən səhmdarlara ödənilən divident.

***Yeni Əmtəə*** – bazarda əvvəllər məlum olan mallardan prinsipial surətdə fərqlənən yeni və əlavə funksional imkanları, forma dəyişikliklərini, dizayn əks etdirən, istehlakçılar üçün vacib əhəmiyyətə malik olan mal, məmulatdır.

***Yeni İqtisadi Siyasət*** – mövcud iqtisadi və siyasi vəziyyətlə əlaqədar olaraq dövlətin ölkədə həyata keçirdiyi yeni iqtisadi doktrina.

***Yeni oferta*** – Oferta üçün gecikmiş aksept yeni oferta sayılır. Əgər cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılıq ifadə olunmuşsa, belə cavab ofertadan imtina və eyni zamanda yeni təklif sayılır.
***Yeni Sahələrin Müdafiəsi*** – himayədarlıq siyasəti tərəfdarlarının əsas arqumentlərindən biri olub, yeni sahənin hətta dünya bazarında belə əsl rəqabət qabiliyyəti qazanana qədər tariflərin köməyi ilə müdafiə edilməsidir.
***Yeni səhmlərin emissiyası*** – Şirkətin əlavə vəsait əldə etməsi üçün yeni səhmlər buraxması. Bu yeni səhmlər ilk növbədə mövcud səhmdarlara təklif olunur və səhmdarlara malik olduqları hər bir səhm müqabilində əlavə səhmlər almaq imkanı verir. Məsələn, üçəiki yeni səhmin emissiyası mövcud səhmdarlara malik olduqları hər üç səhm müqabilində iki əlavə səhm almaq imkanı verir. Yeni səhmlər bazarda da satıla bilər.
***Yenidən investisiya*** – Əməliyyatları artırmaq məqsədi ilə gəlirləri yenidən şirkətə yatırmaq. Səhm sahibi əldə edilən dividentləri yeni səhmlər almaqla yenidən yerləşdirə bilər.
***Yenidən İnvestisiya Əmsalı*** – aşağıdakı düsturla hesablanır:

***YİƏ = B / X = (X – D) / X***

Burada, YİƏ – yenidən investisiya əmsalı, B – bölüşdürülməmiş mənfəət, X – xalis gəlir, D – divident.
***Yenidən investisiya riski*** – İnvestisiyadan gələcək gəlirlərin daha aşağı gəlirlik səviyyəsində investisiya olunacağı riski. Reinvestisiya riski faiz dərəcələrinin aşağı düşdüyü dövrdə daha da qabarıqlaşır. Məsələn, bu dövrdə istiqraz sahibləri istiqrazların vaxtı bitdikdə daha aşağı gəlirlikli istiqrazlara investisiya etməli olurlar.
***Yenidən kreditləşmə (maliyyələşmə) – 1)*** Ödəniş müddəti çatmış qiymətli kağızların eyni və ya oxşar qiymətli kağızlar buraxılması yolu ilə əvəz lənməsi əsasında fondların yenidən maliyyələşdirilməsi; ***2)*** Vergi nəticələri yaratmadan (və ya vergi güzəştlərini saxlamaqla) toplanmış vəsaitlərin bir investisiya qoyuluşu formasından (və ya maliyyə qurumundan) digərinə köçürülməsi. Bu mənada göstərilən termin, əsasən, vəsaitlərin bir

pensiya planından digərinə köçürülməsini ifadə etmək üçün işlədilir; ***3)*** Açıq mövqelərini növbəti ticarət gününə keçirən Forex investorlarının məruz qaldığı xərclər.

***Yenidən maliyyələşdirmə – 1)*** Ödəniş vaxtı çatmış borc öhdəlikli qiymətli kağızların (veksellərin, xəzinə bonların və s.) Yeni qiymətli kağızların tədavülə buraxılması yolu ilə maliyyələşdirilməsi; ***2)*** Borc müddətinin uzadılması; ***3)*** Borc öhdəlikli qiymətli kağızların uçotu əsasında ölkənin mərkəzi bankı tərəfindən həyata keçirilən pul-kredit siyasətinin alətlərindən biri; ***4)*** Kreditləşdirmə, xüsusilə cari kredit əməliyyatlarını həyata keçirmək məqsədilə kommersiya bankları tərəfindən pul vəsaitlərinin mobilizasiyası, səfərbər edilməsi.

***Yenidən uçota alma*** – Bazarın canlanmasına, o cümlədən likvidliyin artmasına və kreditə artan tələbin qarşılanmasına kömək etmək məqsədilə artıq hər hansı maliyyə qurumları (adətən kommersiya bankları) tərəfindən uçota alınmış qısamüddətli sərbəst dövr edən dövlət və ya digər borc alətlərinin ödəniş müddəti başa çatmazdan əvvəl Mərkəzi Bank tərəfindən yenidən uçota alınması.

***Yer (üzvlük) – 1)*** Derivativlər bazarında istifadə edilən termindir. "Yer" birjada əməliyyatlar aparmağa icazə verən üzvlük hüququdur. "Yer" satın alına və ya satıla bilər və onun qiyməti yüksəliş potensialı birjanın perspektivliyini əks etdirir; ***2)*** Fond birjasında üzvlük.

***Yerləşdiyi Ölkə*** – transmilli kampaniyanın baş (əsas) müəssisəsinin yerləşdiyi ölkədir.

***Yerli Büdcə*** – yerli hakimiyyət orqanları tərəfindən idarə edilən inzibati-ərazi vahidlərinin büdcəsi.

***Yerli Gəlir*** – dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlir.

***Yerli İnvestor*** – AR-in vətəndaşları təsisçisi və ya nizamnamə fondundakı payın 50%-dən çoxu AR-in vətəndaşlarına məxsus olan hüquqi şəxslər.

***Yerli Vergilər*** – aşağıdakılardır: ***1)*** fiziki şəxslərin torpaq vergisi; ***2)*** fiziki şəxslərin əmlak vergisi; ***3)*** yerli əhəmiyyətli tikinti

materialları üzrə mədən vergisi; ***4)*** bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi. AR Vergi Məcəlləsi, 8-ci maddə.

***Yerli Vergilər və Yığımlar – 1)*** torpaq vergisi; ***2)*** fiziki şəxslərin əmlak vergisi; ***3)*** bələdiyyə mülkiyyətində olan yaşayış evləri və digər infrastruktur obyektlərdən istifadəyə görə vergilər; ***4)*** reklam vergiləri; ***5)*** yerli lisenziya yığımları; ***6)*** irsən keçən və ya bağışlanan əmlakın şəxsi mülkiyyətə keçməsinə görə yığımlar; ***7)*** sudan istifadəyə görə vergilər; ***8)*** mehmanxana və istirahət ocaqlarından istifadəyə görə yığımlar və s.

***Yerliçilik*** – XVI-XVII əsrlərdə Moskva boyarlarının irsiyyət üzrə dövlət vəzifələri tutması qaydası.

***Yetərincə kapitallaşmamış*** – Müəssisə öz fəaliyyətini dəstəkləmək və ehtiyac duyulan istənilən genişlənməni təmin etmək üçün sahibləri tərəfindən zəruri vəsaitlərlə təmin edilməməsi. Bu hal düzgün maliyyə siyasətinin aparılması və kapitala olan tələbin yanlış qiymətləndirilməsi nəticəsində meydana çıxa bilər.

***Yığım*** – ekvivalentsiz xüsusiyyətə malik və vergi sayılmayan məcburi ödənişdir.

***Yığım Norması*** – əldə olunmuş gəlirin ümumi həcmindən yığım, investisiya şəklində ayrılmış hissədir.

***Yığımlı (toplanan faizli, yığılan faizli) istiqraz*** – Faiz gəliri hesablanan, lakin əsas məbləğinin ödənilmə tarixinə kimi ödənilməyən istiqraz. Bu istiqraz üzrə hesablanmış faiz gəlirləri onun əsas məbləğinin üzərinə toplanır və ödəmə tarixində investora ödənilir. Belə istiqrazlar sıfır kuponlu istiqrazlara oxşardır, lakin onlardan fərqli olaraq kupon dərəcəsinə malikdir.

***Yoxlama*** – əmtəənin, sənədin, layihənin, tapşırıqların icrasının real, həqiqi simasının, vəziyyətinin tələb edilən obraza, standarta, nümunəyə, təyin edilmiş qaydalara uyğun gəlməsinin müəyyən edilməsi məqsədilə keçirilən nəzarət, təhlil.

***Yoxlanılmış Mallar*** – yoxlanışdan, keyfiyyət nəzarətindən keçmiş və təqdimetməyə, satışa yararlı sayılmış əmtəələr.

***Yoxsulluq*** – pul vəsaitləri, əmlak və digər iqtisadi resurslarla aşağı səviyyədə təmin olunan, eyni zamanda yaxın gələcəkdə özünün

sosial-iqtisadi ehtiyaclarını təmin edə biləcək səviyyədə gəlirlərə malik olmaq ehtimalı aşağı olan əhali qrupunun sosial-iqtisadi durumu.

***Yoxsulluq Boşluğu*** – yoxsulluq həddində olan bütün ev təsərrüfatlarının gəlirini artırmaq üçün tələb olunan pul məbləği.

***Yoxsulluq Həddi*** – federal hökumət tərəfindən hər bir ailə ölçüsü üçün müəyyən edilmiş və ondan aşağıda olan ailənin yoxsul hesab edildiyi mütləq gəlir səviyyəsi.

***Yoxsulluq İndeksi*** – ölkə əhalisinin yoxsulluq həddini xarakterizə edən sosial iqtisadi-statistik göstərici.

***Yoxsulluq Səviyyəsi*** – yaşayış minimumunu təmin edən gəlirin miqdarı.

***Yoxsulluq Zonaları*** – yoxsulların yüksək cəmləşməsi əraziləri; o yoxsulluq əmsalının ölkə üzrə ortadan yuxarı olduğu regionlar.

***Yol Akkreditivi*** – müştəriyə emitent-bank tərəfindən ödəniş barədə tapşırıq almış müxbir bankdan yerli valyutada vəsait almağa imkan (hüquq) verən akkreditiv.

***Yol Çeki*** – beynəlxalq turizmdə geniş miqyasda istifadə olunan ödəniş vasitəsi və ya ödəniş cədvəli.

***Yol Rüsumu*** – yollardan, su yollarından, körpələrdən, keçid yerlərindən gedişə, yüklərin daşınmasına, mal qaranın sürülməsinə görə ödəmə şəklində alınan daxili gömrük rüsumunun növüdür.

***Yol Vergisi*** – ölkənin avtomobil yollarından istifadəyə görə tətbiq edilən vergi. AR-in Vergi Məcəlləsinə görə, AR-in ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələri və qeyri-rezident fiziki şəxslər AR-in avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir.

***Yol Vergisi Üzrə Vergitutma Obyekti*** – AR Vergi Məcəlləsində yol vergisi üzrə vergitutma obyekti aşağıdakı kimi təsbit olunur: "AR-in ərazisinə daxil ola xarici dövlətlərin avtonəqliyyat vasitələri vergitutma obyektidir".

***Yolverilməz Reklam*** – yanlış, qeyri-etik, bilərəkdən yalan, həmçinin məzmunu, yayılma yeri və üsulu baxımından qanunvericiliklə nəzərdə tutulan tələbləri pozan reklamdır.

***Yuxarıdan aşağıya*** – Ümumi iqtisadiyyatın və iqtisadiyyatın müxtəlif sektorlarının təhlilinə əsaslanan investisiya strategiyası. İnvestor ümumi iqtisadi vəziyyəti təhlil etdikdən sonra sektorları, daha sonra isə bu sektorda olan səhmləri təhlil edərək investisiya qərarı verir.

***Yuxarı hədd (limit)*** – Bir ticarət günü ərzində əmtəə fyuçersləri müqaviləsinin qiymətinin maksimal irəliləməsi. Qiymət yuxarı həddə çatdıqda bəzi bazarlarda ticarət dayandırılır. Bəzi digər bazarlarda qiymət yuxarı həddən aşağı qayıtdıqda ticarət təkrar başladılır. Əmtəənin qiymətinə əhəmiyyətli dərəcədə təsir edəcək bir xəbər olduqda, fyuçers müqaviləsinin qiymətinin bu xəbəri əks etdirməsi bir neçə gün çəkə bilər və nəticədə bazar bir neçə ticarət günü yuxarı hədd səviyyəsinə çata və bu günlər ərzində ticarət baş verməyə bilər.

***“Yuxarı və son” opsionu*** – Əsası səhm olan, bazar qiymətlərinin müəyyən həddən yuxarı qalxması ilə əlaqədar olaraq icra müddətinin sonuna qədər ödənilməyən opsionlar.

***Yumşaq Çeklər*** – əvvəlcədən nömrələnmiş qəbzləri satıcının satış zamanı iki nüsxə doldurub birini alıcıya vermək, digərini isə özündə saxlamaqla ticarət zalında satıcıdan əldə olunan pullara nəzarət vasitəsidir.

***Yumşaq Pul Siyasəti*** – yumşaq pul siyasəti dedikdə, əsasən resessiyanın qarşısının alınması və iqtisadi aktivliyin artırılması məqsədilə həyata keçirilən pul siyasəti. Mərkəzi Bank özünün faiz dərəcələrini aşağı salır ki, bu da həm əmanətlər, həm də kreditlər üzrə faiz dərəcələrinə azaldıcı təsir edir.

***YUNKTAD*** – Beynəlxalq ticarət təşkilatı olmayan BMT Baş Assambleyasının orqanıdır. 1964-cü ildə yaradılıb və ona 168 üzv dövlət daxildir. Əsas vəzifələri – beynəlxalq ticarətin, dövlətlər arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yardım etmək, beynəlxalq iqtisadi münasibətlərin fəaliyyət göstərməsinə dair müxtəlif tövsiyələrin hazırlanmasıdır.

***YUNSİTRAL*** – Beynəlxalq ticarət hüququ üzrə BMT-nin komissiyasıdır, beynəlxalq ticarət hüququnun razılaşdırılması və vahid şəklə salınmasına köməklik göstərilməsi məqsədilə 1966-cı

ildə təsis olunub. 1968-ci ildə fəaliyyətə başlayıb.
***YURİSDİKSİYA*** – dövlət orqanının qanunla və ya başqa hüquqi aktla nəzərdə tutulmuş aşağıdakı səlahiyyətləri, hüquqları: hüquqi və fiziki şəxslərin hərəkətlərinin qanunauyğunluğuna, yaxud qanunauyğunsuzluğuna qiymət vermək, hüquqi mübahisələri həll etmək, qanunları və hüquq normalarını pozan şəxslərə sanksiyalar tətbiq etmək.
***Yük Dövriyyəsi*** – nəqliyyat işinin müəyyən vaxt ərzində daşınan yükün çəkisinin daşıma məsafəsinə vurma hasilinə bərabər olan iqtisadi göstərici. Yük dövriyyəsi kilometr – tonla ölçülür.
***Yük Gömrük Bəyannaməsi*** – yükü sərhəddən keçirəndə gömrüyə təqdim edilən bəyannamə.
***Yük Göndərilməsi Sərəncamı*** – əmtəənin, yaxud onun bir hissəsinin üçüncü şəxsə ötürülməsi zərurəti və şərtləri haqqında əmtəə alıcısının əmtəəni göndərən şəxsə ünvanladığı sərəncamı.
***Yük Qaiməsi*** – yükü daşıyanın mal göndərəndən malı qəbul etməsini təsdiq edən, mal və onun daşınması şərtləri haqqında məlumatları əks etdirən daşıma sənədi.
***Yük Qəbzləri*** – mal-material dəyərlərinin qəbul olunması barədə yükdaşıyanın verdiyi qəbzdir.
***Yük Manifesti*** – həmin gəmiyə yüklənmiş bütün partiya konosamentləri haqqında məlumatlar olan sənəddir.
***Yük Opsionu*** – fraxt edənə çarterdə göstərilənlərin arasından daşınmağa təklif ediləcək yükün seçilməsi, müəyyənləşdirilməsi hüququ vernən opsion.
***Yük Rüsumu*** – dəniz limanında yüklərə görə göstərilmiş xidmətlərə ödənilmiş haqq.
***Yükalan*** – təyinat nöqtəsində, yükü alacaq daşıma müqaviləsinin tərəflərindən biri olan təşkilat və ya firmadır.
***Yükgöndərən*** – yükdaşıma müqaviləsinin tərəfdaşı olan, yük daşımaq üçün verən və yükdaşıma sənədlərində yükgöndərən kimi qeyd olunan təşkilatdır.
***Yüklənmə Orderi*** – yükgöndərənin imzaladığı, yük haqqında zəruri məlumatların göstərildiyi ilkin yük sənədi.
***Yüklərin Boşalıb Yüklənməsi*** – yükün bir nəqliyyat növündən

başqasına və ya eyni nəqliyyat vasitəsinin birindən digərinə boşalıb yüklənməsidir.

***Yüklərin Sığortası*** – əmlak sığortasının əsasən xarici ticarətlə əlaqədar olan bir növüdür. Yüklərin sığortasının əsas şərti bütün risklər üzrə məsuliyyətin sığortasıdır.

***Yüksək Əmək Haqqı İqtisadiyyatı*** – əmək haqqı artımının əmək məhsuldarlığını artırdığı, işçi qüvvəsinə artan xərcləri tam ödədiyi iqtisadiyyatdır.

***Yüksək Gəlirli Təbəqələr*** – gəlirləri orta səviyyəni çox-çox aşan əhali hissəsi.

***Yüksək Risklə Təsnifləşdirilmiş Aktivlər*** – Qeyri-qənaətbəxş, təhlükəli və ya ümidsiz təsnifləşdirmə kateqoriyasına aid edilmiş aktivlər.

***Yüksəlmə Meyili (artan, "öküzvari") – 1)*** Qiymətlərin artması meyili müşahidə olunan bazar; ***2)*** Bazarda qiymətlərin artmasını şərtləndirən amillər; ***3)*** Bazar iştirakçıları arasında qiymətlərin artmasına inam yaradılması (adətən, bazar iştirakçıları arasında belə əhval-ruhiyyənin yaranması bazarda qiymətlərin artmasına səbəb olur ki, bu da möhtəkirlər üçün əlverişli şərait yaradır).

***Yüksəlmə-enmə (artma-azalma) xətti*** – Texniki təhlildə bazarın fəallığının müəyyənləşdirilməsi üçün istifadə olunan əsas indikatorlardan biri olan yüksəlmə-enmə (artma-azalma) indeksinin dinamikasını əks etdirən xətt. Başqa sözlə, qiymətləri artan səhmlərin sayının (və ya kapitallaşmasının) qiymətləri aşağı düşən səhmlərin sayına (kapitallaşmasına) nisbətinin (fərqinin) və ya qiymətləri artan səhmlərin emitentlərinin sayının qiymətləri aşağı düşən səhmlərin emitentlərinin sayına nisbətinin (fərqinin) dinamikasını əks etdirən xətt.

***Yüngül Sənaye*** – təsərrüfatın geyim, ayaqqabı, baş geyimləri və digər istehlak malları istehsal edən olunan sahəsidir.

# – Z –

***Zaçet*** – iki şəxs arasında eyni tələblərin qarşılıqlı ödənməsi öhdəliklərinin dayandırılması qaydasıdır.
***Zair*** – Zair Respublikasının pul vahididir.
***Zaman İntervalı*** – maliyyə axınları və qiymətli kağızlar üzrə ödənişədək keçən orta müddət. Bu müddət ödəniş riskini və qiymətli kağızların faiz riskini xarakterizə edir.
***Zaman Uyğunsuzluğu*** – faktiki daxil olduqları andan onların hesabda rəsmiləşdirilməsi ana qədərki müddətdə vəsaitlərin hesaba daxil edilməsi prosesində yaranan təbii gecikmə.
***Zamin*** – emitent tərəfindən fondların saxlayıcısı və istiqraz sahibinin rəsmi nümayəndəsi kimi təyinedilən bank.
***Zamin Bank*** – vaxtı çatmış ödəmələri müştəri ödəyə bilmədiyi halda öz müştərisi əvəzindən onu ödəmək öhdəliyini öz üzərinə götürmüş, zəmanət vermiş bankdır.
***Zaminlik*** – zamindarın kreditor qarşısında ona borclu olan şəxsin borcun qaytarılması öhdəliyini yerinə yetirəcəyinə görə məsuliyyətin öz üzərinə qəbul etməsi haqqında müqavilə.
***Zavod*** – sənaye müəssisəsinin bir çox ölkələrdə kök salmış adıdır.
***Zay (Brak)*** – istehlaka yaramayan keyfiyyətsiz mallar, standartların tələbini ödəməyən məhsul.
***Zebras*** – Böyük Britaniya hökuməti tərəfindən beynəlxalq maliyyə bazarında tədavülə buraxılan, funt-sterlinq ilə ifadə olunmuş kuponsuz istiqraz vərəqələri.
***Zəhər*** – defolta düşmək ehtimalının çox böyük olduğu olduqca yüksək riskli sərmayə.
***"Zəhərli Həb"*** – şirkət üçün arzuolunmaz alış təklifinin qarşısının alınması məqsədilə istifadə olunan strategiya. Məsələn, mövcud səhmdarlara əlavə imtiyazların verilməsi (yeni səhmləri daha ucuz əldə etmək imkanı və s.),
***Zəhmətsiz Gəlirlər*** – sovet iqtisadiyyatı dövrünün termini olub, qeyri-əmək fəaliyyətindən, xüsusilə möhtəkirlik və ya digər fəaliyyət, o zamanlar qanunsuz oğurlanan fəaliyyətdən əldə olunan

gəlirləri əks etdirir.
***Zəmanət*** – müəyyən şəxs tərəfindən pul, yaxud əşya öhdəliklərinin yerinə yetirilməsinə zəmanət, qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsinə məsuliyyət forması.
***Zəmanət Akkreditivi*** – müqaviləyə zəmanət kimi, bank tərəfindən özünün müştərilərinin xeyrinə ixracatçı və ya satıcı tərəfə, yaxud həmin tərəfə xidmət edən banka təqdim edilən akkreditiv növü. Zəmanət akkreditivi idxalçı tərəfin (müştərinin) kredit reytinqini qaldırmaq məqsədilə ödəniş vasitəsi kimi çıxış edir.
***Zəmanət Çeki*** – çek sahibinə xidmət edən bank tərəfindən ödənişinə zəmanət verilmiş çek.
***Zəmanət Fondu*** – Hesablama Palatasının maliyyə durumunu təmin edən pul vəsaitləri fondu. Zəmanət fondu Hesablama Palatasının üzvlərinin məcburi ödənişləri, yaxud dövlət qiymətli kağızları hesabına maliyyələşdirilir.
***Zəmanət Haqqı*** – ilkin sifarişin yerinə yetirilməsi prosesində, sifarişdən mümkün ola bilən imtinanın qarşısını almaq məqsədilə həyata keçirilən, müştəri tərəfindən sifarişin ümumi dəyərindən bir hissəsinin əvvəlcədən, ilkin olaraq ödənilməsidir.
***Zəmanət Kapitalı*** – özəl aksioner və əmanət banklarının, sığorta şirkətlərinin xüsusi kapitallarını göstərir: adətən, likvid formada, öhdəliklərin 10% həcmində olur.
***Zəmanət Kontraktı*** – fiziki və ya hüquqi şəxsin zamin qismində çıxış edəcəyinə zəmanət verildiyi kontrakt.
***Zəmanət Marjası*** – müqavilə müddəti ərzində vasitəli təminatın (girovun) bazar dəyəri ilə verilmiş kredit məbləği arasındakı fərq, marja. Bu fərq, bütün hallarda müsbət olur.
***Zəmanət Müddəti*** – vaxt müddətidir. Bu vaxt ərzində malın istehsalçısı yaxud onun satıcısı, onun müqavilənin tələblərinə, keyfiyyət göstəricilərinə, pasport rəqəmlərinə uyğun olmasına zəmanət verir.
***Zəmanət Öhdəliklərinin Sığortası*** – binalara, qurğulara, avadanlığa verilmiş zəmanət öhdəliklərinin sığorta təminatını nəzərdə tutan əmlak sığortası növü. Sığortaçı xeyrinə sığorta müqaviləsi bağlanmış şəxs, alıcılar qarşısında sığorta obyektlərinin

tələf olması və zədələnməsi ilə bağlı zəmanət öhdəliklərini təmin etməyi boyun olur.

***Zəmanət Öhdəliyi*** – zəmanət məktubu – zamin tərəfindən, müəyyən öhdəliklərin yerinə yetirilməsinə zəmanət verdiyi şəxsə verdiyi yazılı şəhadətnamə.

***Zəmanət Verilməsi Barədə Müqavilə*** – banklar müştəri arasında müqavilə olub, bankın öz müştərisinin kreditoruna qarantiya vermək və ya zaminlik barədə öhdəlik götürməsidir.

***Zəmanətli Anderraytinq*** – anderraytinqin bir növü. Zəmanətli anderraytinqin digərlərindən fərqi ondan ibarətdir ki, yeni buraxılmış qiymətli kağızların bütünlüklə alınması və satışa çıxarılması zamanı yerləşdirilə bilinməyən qiymətli kağızların dəyəri anderrayter tərəfindən ödənilir.

***Zəmanətli Depozit*** – maliyyə münasibətləri zamanı, xüsusilə fyuçers müqavilələrində və fond birjasında əsas ödənişindən öncə verilmiş pul vəsaiti.

***Zəmanətli Kapital*** – əmanət banklarının, sığorta şirkətlərinin, ipoteka banklarının şəxsi kapitalı. Zəmanətli kapital ilkin olaraq səhmdarların ödənişləri, sonradan isə müəssisənin mənfəətindən ayırmalar vasitəsilə formalaşır.

***Zəmanətli Kredit*** – girov qoyulmadan bir və ya bir neçə zəmanət müqaviləsi əsasında təqdim olunan kredit. Bu cür kredit münasibətlərində zəmanətçi subyekt kimi əsas etibarilə dövlət orqanı çıxış edir.

***Zəmanətli Səhm*** – emitentdən fərqli üçüncü şəxs tərəfindən dividentlərinin ödənilməsinə zəmanət verilən səhmlər; faiz gəlirlərinin və əsas məbləğinin ödənilməsinə zəmanət verilən istiqrazlar.

***Zərbxana*** – pul kəsilməsi, zərb edilməsi ilə məşğul olan dövlət müəssisəsi.

***Zərər*** – bir təsərrüfat subyektinin fəaliyyəti ilə, hərəkətlərilə başqa subyektlərə, yaxud təbiətə, ətraf mühitə, insanlara vurulan ziyan.

***Zərər Ekssedenti*** – qeyri-mütənasib təkrar müqaviləsinin bir növüdür, sığortaçının ən böyük və proqnozlaşdırılmayan zərərlərdən qoruyur.

***Zərərin Əmlaka Yönəldilməsi, Çevrilməsi*** – borcu qaytarmamış şəxsin əmlakının müəyyən edilməsi, ona həbs qoyulması, satılmasını bildirən hüquqi termin.
***Zərərin Hesablanması*** – müəyyən edilmiş qayda üzrə sığorta edilənin irəli sürdüyü iddianın məbləğinin və sığorta şərtlərinə görə sığorta təzminatından çıxılan məbləğlərin göstərildiyi sənəd.
***Zərərinə Qiymət*** – ixracatçı tərəfindən gəlir əldə etmək üçün bazar qiymətindən aşağı qoyulan.
***Zərərlə İşləyən Müəssisələrin İtkiləri*** – hesabat dövründə balans zərərinin məbləğini əks etdirir.
***Zərərlərin Aradan Qaldırılması*** – sığorta hadisəsi faktının müəyyən olunması, zərərin həcminin müəyyən olunması və onların ödənilməsi üzrə sığortaçının həyata keçirdiyi tədbirlər kompleksi.
***Zərərlərin Ekssedenti*** – qeyri-mütənasib təkrar müqaviləsi biznesin həyata keçirilməsi zamanı zərərliyin müəyyən həddi keçməsi zamanı sığortaçı biznesin ümumi nəticələrini sığortalayır.
***Zərərsizlik*** – müəssisənin, təşkilatın, firmanın, fiziki şəxsin təsərrüfat fəaliyyətinin elə bir rejimi, vəziyyətidir ki, onun nəticəsində əldə edilən gəlirlər yol verilən xərclərdən ya çoxdur, ya da ki, ona bərabərdir.
***Zərərsizlik Nöqtəsi (Minimum Gəlir Səviyyəsi)*** – investisiyadan gələn gəlirin xərclərə bərabər olduğu səviyyə.
***Zərərsizlik Qiyməti*** – malın elə qiymətidir ki, onun vasitəsilə istehsal firması yalnız öz xərclərini ödəyə bilir.
***Ziyanda Olan Opsion*** – opsionun istifadə qiymətinin baza aktivinin qiymətindən yüksək olduğu hal. Opsionun vaxtı bitdikdə bu tip opsion dəyərsiz olur.
***Zlatnik*** – X-XI əsrlərdə Kiyev knyazlığında tədavüldə olan 4,2 q. çəkisində ilk qızıl rus sikkəsi. Zlatnikin çəkisi sonralar zolotnikin çəki vahidinin əsasını qoymuşdur.
***Zlotıy*** – Polşa Respublikasının pul vahididir.
***Zorla Alma*** – zorla pul alan adamlar tərəfindən müxtəlif cür hədə-qorxu, yalanla müşayiət olunan hüquqla şərtləşdirilməmiş, qanunla nəzərdə tutulmamış pulların verilməsi, əmlak sərvətlərinin tələbi.
***10-K Forması*** – bütün səhmdar cəmiyyətlər tərəfindən büdcə ili

başa çatdıqdan sonra Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyaya təqdim edilən şirkətin illik fəaliyyəti haqqında hərtərəfli yekun hesabatdır. Adətən, 10-K forması illik hesabatdan daha çox, şirkət tərəfindən təfsilatlı məlumatları əks etdirən sənəd xarakterinə malikdir.

***10-Q Forması*** – 10-Q hər rübdən sonra bütün səhmdar cəmiyyətləri tərəfindən Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyaya təqdim edilən şirkətin fəaliyyəti haqqında hərtərəfli hesabatdır. 10-Q formasında şirkətlərdən onların maliyyə vəziyyətlərinə dair müvafiq məlumatları açıqlamaları tələb olunur.

***501-(C) (3) İstiqrazı*** – təhsil müəssisələri, məscidləri, kilsələr və digər xeyriyyə qrupları kimi gəlirsiz təşkilatlar üçün dövlət və ya yerli hakimiyyət orqanları tərəfindən buraxılan vergidən azad istiqrazdır.

***72 Qaydası*** – müxtəlif faizlər üzrə qoyulan pulun ikiqat artımı üçün lazım olan illərin sayını hesablamaq qaydasıdır. 72 qaydasından istifadə etmək üçün kapital qoyuluşundan gələn faizi 72-yə bölün. Cavab pulun ikiqat artımı üçün lazım olan illərin sayını göstərəcəkdir.

***8-K Forması*** – 8-K formasının bazara qiymətli kağız buraxan istənilən şirkət tərəfindən Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyaya təqdim olunması tələb olunur. Bu sənəddə şirkətin mövqeyinin və ya onun səhmlərinin qiymətinin dəyişməsinə təsir edə bilən bütün əhəmiyyətli hadisələr barədə ətraflı məlumat əks olunur.

# *DÜNYA ÖLKƏLƏRİNİN PUL VAHİDLƏRİ*

## *Avropa*

1.  Albaniya — Lek
2.  Almaniya — Alman markası
3.  Andorra — yoxdur
4.  Avstriya — Avstriya şillinqi
5.  Belarus — Belarus rublu
6.  Belçika — Belçika frankı
7.  Bolqarıstan — Lev

 Bosniya və Hersoqovina — Bosniya və Hersoqovina markası

9.  Böyük Britaniya — Funt sterlinq
10.  Çexiya — Çex kronu
11.  Danimarka — Danimarka kronu
12.  Estoniya — Estoniya kronu
13.  Finlandiya — Finlandiya markası
14.  Fransa — Frank
15.  Xorvatiya — Kuna
16.  İrlandiya — İrlandiya funtu
17.  İslandiya — Peseta
18.  İtaliya — İtaliya liresi
19.  İsveç — İsveç kronu
20.  İsveçrə — İsveçrə frankı
21.  Latviya — Lat
22.  Lixtenşteyn — İsveçrə frankı
23.  Litva — Lit
24.  Lüksemburq — Lüksemburq frankı
25.  Macarıstan — Forint
26.  Makedoniya — Makedoniya dinarı

27. Malta — Malta liresi
28. Moldova — Moldova leyi
29. Monako — Fransa frankı
30. Niderland — Niderland qurleni
31. Norveç — Norveç kronu
32. Polşa — Zlot
33. Portuqaliya — Eskudo
34. Rumıniya — Ley
35. Rusiya — Rubl
36. San-Marino — İtaliya liresi
37. Slovakiya — Slovakiya kronu
38. Sloveniya — Tolar
39. Ukrayna — Qrivnya
40. Vatikan — Vatikan liresi
41. Yuqoslaviya — Yeni dinar
42. Yunanıstan — Dirhəm

### *Asiya*

1. Azərbaycan — Azərbaycan manatı
2. Banqladeş — Teke
3. Bəhreyn — Bəhreyn dinarı
4. BƏƏ — Dirhem
5. Bruney — Bruney dolları
6. Butan — Nqultrum
7. Cənubi Koreya — Kona
8. Çin — Yuan
9. Əfqanıstan — Efqani
10. Filippin — Fillippin pesosu
11. Gürcüstan — Lari
12. Hindistan — Hindistan rupisi
13. İndoneziya — İndoneziya rupisi

14. İordaniya — Dinar
15. İraq — Dinar
16. İran — Rial
17. İsrail — Yeni sekel
18. Kamboca — Riyel
19. Kipr — Kipr funtu
20. Küveyt — Küveyt dinarı
21. Qazaxıstan — Tenge
22. Qətər — Qətər riali
23. Qırğızıstan — Som
24. Laos — Kip
25. Livan — Livan livri
26. Malayziya — Rinqqit
27. Maldiv adaları — Rufiya
28. Monqolustan — Tutrik
29. Myanma — Kyat
30. Nepal — Nepal rupsi
31. Oman — Emman riali
32. Özbəkistan — Sum
33. Pakistan — Pakistan rupsi
34. Səudiyyə Ərəbistanı — Səudiyyə Ərəbistan riali
35. Sinqapur — Sinqapur dolları
36. Suriya — Suriya funtu
37. Şimali Koreya — Vona
38. Şri-Lanka — Şri-Lanka rupisi
39. Tacikistan — Somoni
40. Tailand — Bat
41. Tayvan — Yeni Tayvan yuani
42. Türkiyə — Lirə
43. Türkmənistan — Türkmənistan manatı
44. Vyetnam — Dong
45. Yaponiya — İyen

46. Yəmən — Yemen riali

### *Afrika*

1. Anqola — Kvanza
2. Benin — Qərbi Afrika frankı
3. Botsvana — Pula
4. Burkina-Faso — Frank KFA
5. Burundi — Burundi frank
6. CAR — Rend
7. Cibuti — Frank
8. Çad — Frank KFA
9. Ekvatorial Qvineya — Frank KFA
10. Həbəşistan — Efiopiya birri
11. Eritreya — Nafka
12. Əlcəzair — Dinar
13. Kamerun — Frank KFA
14. Kabo-Verde — Eskudo
15. Keniya — Keniya shillinqi
16. Komor adaları — Kamor franki
17. Konqo (brazzavil) — Frank KFA
18. Konqo (kinshasa) — Konqo franki
19. Fil Dişi Sahili — Frank
20. Qabon — Frank KFA
21. Qambiya — Dalasi
22. Qana — Sedi
23. Qvineya — Frank
24. Qvineya-Bisau — Frank KFA
25. Lesoto — Lot
26. Liberiya — Liberiya dollari
27. Liviya — Liviya dinari
28. Malavi — Malavi kvacasi

29. Mali — Mali franki
30. Madaqaskar — Malaqas franki
31. Mavriki — Mavriki rupsi
32. Mavritaniya — Uqiya
33. Mərakeş — Dirhem
34. Mərkəzi Afrika Respublikası — Frank KFA
35. Misir — Misir funtu
36. Mozambik — Metikal
37. Namibiya — Namibiya dollari
38. Niger — Frank KFA
39. Nigeriya — Nayra
40. Ruanda — Ruanda franki
41. San-Tome və Prinsipi — Dobra
42. Seneqal — Frank KFA
43. Seyşel adaları — Sheyshel rupsi
44. Somali — Somali shillinqi
45. Sudan — Sudan dinari
46. Svazilend — Lilangeni
47. Syerra-Leone — Leone
48. Tanzaniya — Tanzaniya shillinqi
49. Toqo — Frank KFA
50. Tunis — Tunis dinari
51. Uqanda — Uqanda shillinqi
52. Zambiya — Kvaca
53. Zimbabve — Zimbabve dolları

## *Şimali Amerika*

1. ABŞ — ABŞ dolları
2. Antiqua və Barbuda — Şərqi Karib Dolları
3. Baham adaları — Baham dollar
4. Barbados — Barbados dolları

5. Beliz — Beliz dolları
6. Dominika — Şərqi Karib dolları
7. Dominikan Respublikası — Qızıl peso
8. Haiti — Quard
9. Honduras — Lempira
10. Kanada — Kanada dolları
11. Kosta-Rika — Kolon
12. Kuba — Kuba pesosu
13. Qrenada — Şərqi Karib dolları
14. Qvatemala — Ketsal
15. Meksika — Peso
16. Nikaraqua — Kordoba
17. Panama — ABŞ dolları
18. Salvador — Kolon
19. Sent-Kits və Nevis — Şərqi Karib dolları
20. Sent-Lusiya — Şərqi Karib Dolları
21. Sent-Vinset və Qrenadalar — Şərqi Karib dolları
22. Trinidad və Tobaqo — Trinidad və Tobaqa dolları
23. Yamayka — Yamayka dolları

## *Cənubi Amerika*

1. Argentina — Peso
2. Boliviya — Boliviana
3. Braziliya — Real
4. Çili — Çili pesosu
5. Ekvador — Sukre
6. Kolumbiya — Kolumbiya pesosu
7. Qayana — Qayana dolları
8. Paraqvay — Quarani
9. Peru — Yeni sol
10. Surinam — Qulden
11. Uruqvay — Uruqvay pesosu

12. Venesuela — Bolivar

### *Avstraliya və Okeaniya*

1. Avstraliya — Avstraliya dolları
2. Fici adaları — Fici dolları
3. Kiribati — Avstraliya dolları
4. Samoa — Tala
5. Marşall adaları — ABŞ dolları
6. Mikroneziya — ABŞ dolları
7. Nauru — Avstraliya dolları
8. Papua-Yeni Qvineya — Kina
9. Solomon adaları — Solomon adaları dolları
10. Tonqa — Panqa dolları
11. Tuvalu — Avstraliya dolları
12. Yeni Zelandiya — Yeni Zelandiya dolları
13. Vanuatu — Vatu

# *ƏDƏBİYYAT SİYAHISI*


1. Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (AR Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmişdir).
2. "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Qanun (14 iyun 1996, № 123-İQ).
3. "Azərbaycan Respublikasının Büdcə Sistemi haqqında" Qanunu (02 iyul 2002).
4. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. Aylıq nəşr. Bütün sayları. Bakı, Azərbaycan Respublikası Prezidentinin nəşri.
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 1999.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı-2002
7. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu (10 iyun 1996, №118-İQ)
8. "Gömrük Tarifi haqqında" Qanun (20 iyun 1995, № 1064).
9. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2001-ci il.
10. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. 1999-cu il.
11. "Qiymətli Kağızlar haqqında" Azərbaycan Respublikasının Qanunu. 14 iyul, 1998-ci il.
12. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. 1997-ci il.
13. "Azərbaycan Respublikasının Antiinhisar fəaliyyəti haqqında" Qanunu. (4 mart 1993, №26)
14. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu (16 sentyabr, 1994).
15. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu
16. "Müəssisələr haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996, № 3 (68)
17. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu. (3 oktyabr 1997)
18. "Təbii İnhisarlar haqqında Azərbaycan Respublikasının Qanunu. (15 dekabr 1998)

19. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunu (2 iyun 1995).
20. “Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında” Qanunu (6 fevral, 1996).
21. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanunu. (08 may, 2009-cu il).
22. “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu (23 noyabr, 2001)
23. “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanunu
24. “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanunu. (27 noyabr, 2001)
25. “Şərti maliyyə vahidi haqqında” Azərbaycan Respublikasının Qanunu. (01 yanvar, 2001).
26. “Xüsusi İqtisadi zonalar haqqında” Azərbaycan Respublikasının Qanunu. (15 dekabr, 1998).
27. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı-1996.
28. Ə.Abbasov, M.Bağırov, D.Bağırov, S.Pürhani, Ə.Ələkbərov və E.Bağırov. Qısa İzahlı İqtisadi Terminlər Lüğəti. Bakı, “Nurlar”, 2005 səh.493
29. A.Ağayev Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti. Bakı-2005, səh.422
30. Dr.İ.Əhmədov, K.Aslanlı, Ş.Əhmədov Dövlət Maliyyəsi Terminləri Lüğəti. Bakı – 2008, səh.270
31. İqtisadi İnkişaf Mərkəzi. Maliyyə Bazarları Terminlərinin İzahlı Lüğəti. Bakı-“Nurlar”-2010, səh.152
32. A.Əliyev, C.Nuriyev, G.Nuriyeva. İqtisadiyyat və Hüquq ensiklopedik izahlı lüğət. Bakı -2006.
33. K.Şükürov, F.Ələsgərov, A.Hüseynoğlu. Xarici İqtisadi Əlaqələr terminlər lüğəti. Bakı-1991, səh.176.
34. T.S.Vəliyev, Ə.P.Babayev və M.X.Meybullayev İqtisadi Nəzəriyyə. Dərslik. Bakı-1999
35. Kotler.F. Marketinqin Əsasları. Bakı. “ Ergün”, 1993.
36. Bağırov M. Banklar və Bank əməliyyatları. Bakı, Nurlan,

2003, səh. 512
37. Cihan Bulut. Kamu açıqları, enflyasyon, faiz oranı və döviz kuru ilişkileri. İstanbul, Der Yayınları, 2002, səh.334.
38. Məmmədov S.M. İnflyasiya və maliyyə bazarı, Bakı, 1998.
39. Məmmədov S.M. Maliyyə. Dərslik. Bakı, 1997, səh. 428
40. Şəkərəliyev A.Ş. Bazarın mahiyyəti və quruluşu.Bakı, 1991.
41. Англо-коммерческий словар Сост, А.Пихлак. Таллин; Молслрф, 1994, 479 с.
42. Баранова Л.Я., Левин А.И.Потребности, доходы, потребление. Экономический словар-справочник. МЮ, «Экономика», 1998.
43. Bouchet M.H. The political Economy of international Debt/ What? Who? How much and why? NY-Westport-L.,1987. P.560
44. Бабичева Ю.А. / Банковское дело: Справочное пособие, Экономика, 1994 г.
45. *www.azstat.org*
46. *www.budjetrf.ru*
47. *www.bundesbank.de*
48. *www.economy.gov.az*
49. *www.nba.az*
50. *www.bbm.az*
51. *www.banker.az*
52. *www.translate.ru*
53. *www.glossary.ru*
54. *www.economy.com*
55. *www.maliyye.gov.az*
56. *www.cer.az*
57. *www.kitab.az*
58. *www.taxes.gov.az*
59. *www.google.az*
60. *www.nalog.ru*
61. *www.stacker.bos.ru*
62. *www.yandex.ru*
63. *www.bank24.ru*

# MÜNDƏRİCAT

G İ R İ Ş ............ 3
– A – ............ 5
– B – ............ 32
- C - ............ 66
– Ç – ............ 70
– D – ............ 73
– E – ............ 97
– Ə – ............ 104
– F – ............ 114
– G – ............ 128
– H – ............ 139
– İ – ............ 150
– J – ............ 186
– K – ............ 187
– L – ............ 215
– M – ............ 224
– N – ............ 273
– O – ............ 283
– Ö – ............ 290
– P – ............ 296
– Q – ............ 312
– R – ............ 338
– S – ............ 352
– Ş – ............ 389
– T – ............ 394
– U – ............ 418
– U – ............ 424
– V – ............ 430
– X – ............ 446
– Y – ............ 458
– Z – ............ 468
DÜNYA ÖLKƏLƏRİNİN PUL VAHİDLƏRİ ............ 473
ƏDƏBİYYAT SİYAHISI ............ 480